AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

TARİX İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

2012, cild 41-42-43

SCIENTIFIC WORKS

OF THE INSTITUTE OF HISTORY NAS OF AZERBAIJAN
2012, volume 41-42-43

ТРУДЫ

ИНСТИТУТА ИСТОРИИ НАН АЗЕРБАЙДЖАНА
2012, том 41-42-43

1947-ci ildən

Nəşr olunur

41-42-43/2012

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının
Qərarı ilə çap olunur

Baş redaktor:
Yaqub MAHMUDOV
AMEA-nın müxbir üzvü

Redaksiya heyəti:
akad. Nailə **VƏLİXANLI**, akad. Teymur **BÜNYADOV**,
akad.İsmayıl **HACIYEV**, AMEA-nın müxbir üzvü
Nərgiz **AXUNDOVA,** t.ü.e.d.İradə **BAĞIROVA**,
t.ü.f.d. Cəbi **BƏHRƏMOV (**baş redaktor müavini**)**,
t.ü.e.d. Həsən **ƏLİBƏYLİ,** İradə **ƏLİYEVA**(buraxılışa məsul),
t.ü.e.d. Şahin **FƏRZƏLİYEV**, t.ü.e.d. Qasım **HACIYEV**,
t.ü.f.d.Hacı **HƏSƏNOV**, r.ü.f.d. Mehri X**ANBABAYEVA**,
t.ü.e.d. Ədalət **QASIMOV,** t.ü.f.d. Nigar **MAKSVELL,**
t.ü.e.d. Adil **MƏMMƏDOV**,
t.ü.f.d. Göhər **MƏMMƏDOVA**(məsul katib),
t.ü.f.d. Elmar **MƏHƏRRƏMOV**, t.ü.e.d. Tofiq **MUSTAFAZADƏ**,
t.ü.f.d. Tofiq **NƏCƏFLİ,** t.ü.e.d.Məryam **SEYİDBƏYLİ**,
t.ü.e.d. Kərim **ŞÜKÜROV**

AMEA Tarix İnstitutu, 2012

MARAĞA ŞƏHƏRİNİN TARİXİNDƏ SKİFLƏRİN ROLUNA DAİR

Allahverdi ƏLİMİRZƏYEV

Açar sözlər: Cənubi Azərbaycan, şəhərlərimizin tarixi, mixi yazılı mənbələr, sak-skif tayfaları.
Key words: South Azerbaijan, history of citys, cuneiform sources, scithian tribes.
Ключевые слова: Южный Азербайджан, история городов, клинописные источники, скифо-сакские племена

Azərbaycan şəhərlərinin qədim tarixi aktuallığını itirməyən mövzulardan olub. Xalqımızın şəhər mədəniyyətinin formalaşmasında və etno-mədəni əlaqələrin qurulması prosesində strateji əhəmiyyətli cənub şəhərlərimizin özünəməxsus rolu olub. Tarixi şimal torpaqlarımızda Qəbələ, Bərdə, Naxçıvan, Gəncə, Dərbənd, Şəki, Şamaxı kimi iqtisadi-mədəni mərkəzlərin ictimai-siyasi həyatında dirçəlişin yaşandığı vaxtlarda Arazdan cənubdakı şəhərlərimizdə bənzər proseslər daha geniş miqyasda cərəyan edirdi. Lakin cənub şəhərlərimizin tarixinin qədim mərhələsi yetərincə, bəzən də ümumiyyətlə, araşdırılmadığından orada baş verən tarixi reallıqların bərpası çox vaxt gümanlara əsaslanırdı. Oxucuların müzakirəsinə təqdim olunan bu məqalə cənub şəhərlərimizin birində, Marağada e.ə. XII-VII yüzilliklərdə nələrin baş verdiyinin elmi təhlilinə həsr olunub. Şəhərin erkən tarixi ilə bağlı Ön Asiyanın mixi yazılı kitabələrindəki faktlar və onlardan doğan mülahizələr ilk dəfə bu məqalə ilə elmi dövriyyəyə cəlb olunur.

2014-cü ilin iyun ayında Təbriz şəhərindəki "Azərbaycan tarixi" muzeyində nümayiş olunan eksponatlarla tanışlığım əsnasında diqqətimi 70 sm uzunluğunda tunc qılınc cəlb etdi. Muzey bələdçisinin məlumatında qılıncın naməlum şəraitdə Marağadan tapıldığı bildirilirdi. Qılıncın üzərində Orta Babil dövrünün mixi qrafikası ilə yazılmış qısa mətndə deyilirdi:

Ša Si-im-bar-Ši-pak šarrum kiššati: "Simbar-Şipak, dünyanın

Allahverdi Əlimirzəyev – t.ü.f.d., AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi

hökmdarı".

Bu yaxınlarda Marağa qılıncı haqqında Qərb elmi mətbuatında dərc olunmuş iki məqalə[1] ilə tanışlığım Təbrizdə orijinaldan etdiyim ekspromt oxunuşun doğruluğuna inamımı artırdı və bu istiqamətdə araşdırmalarımı genişləndirməyə stimul yaratdı.

Qılıncın sahibi kaşşu mənşəli isim daşıyır. Məlumdur ki, Babilistan dövləti təxminən e.ə. 1595-1155-ci illər ərzində Anadoludan köç etdikləri ehtimal olunan kaşşu etnosunun nümayəndələri tərəfindən idarə olunurdu. Bu sülalənin süqutundan sonra kaşşu icma başçılarından Simbar-Şipak[2] Babilistanın cənubunda "II Sahil səltənəti" adı ilə tanınan yeni sülalənin təməlini qoymuş və 17 il (e.ə. 1025-1008) hökmranlıq etmişdir. Onun hərbi fəaliyyəti haqqında yeganə məlumat Aşşur çarı II Aşşurnazirapalın (e.ə. 883-859) salnaməsində galıb. Cənubi Azərbaycanda lullubi tayfalarının məskunlaşdığı Zamua ölkəsinə iri miqyaslı hərbi yürüş edən Aşşur çarının salnaməsində deyilir: "Kardunyaş ölkəsinin çarı Sibir üçün zəbt olunan Zamua ölkəsindəki Atlila şəhəri dağıdılıb".[3] Məlumdur ki, "Kardunyaş" kaşşuların Babilistana verdiyi ad olmuşdur[4]. "Sibir" isminin isə "Simbar-Şipak" adının qısaldılmış forması olduğu çoxdan sübuta yetirilib[5]. Salnamədən məlum olur ki, Atlila şəhərinə yürüş zamanı II Aşşurnazirapalın qoşunları bir neçə dağ aşırımını (Babite, Simaki, Lara, Bidirqi, Etini, Su, Elaniu, Sabua, Nişpi, Aziru), çayları (Aşağı Zab, Radanu, Turnat, Lallu) və lullubilərin yaşayış məskənlərini (Kakzi, Ammali, Hudun, Kisirtu, Zamri, Arasitku, Ammaru, Parsindu, İritu,

---

[1] Radner K., Kroll S. Ein bronzedolch des Simbar-Šipak von Babylon (1025-1008). Uberlegungen zu Waffenweihungen im Vörderen Orient. // Zeitschrift für Assyriologie. Band. 96, 2006, ss.212-221; Stein P., Oelsner J. Bronzeschwert im Azerbaijan Muzeum Tabris. // Nouvelle Assyriologiques Bréves et Utilitaires, 2006, № 3, s.61.

[2] Aşşur-Babil mixi yazı sistemində **BAR** və **PAK** işarələri müvafiq olaraq **MAŠ** və **HU** hecalarını da ifadə edə bildiyindən [bax: Labat R. Manuel dEpigraphie Akkadienne (signes,syllabaire, ideogrammes). Paris, 1952, pp. 70, 73, №№ 74, 78] bu isim fərqli formalarda da oxunur.

[3] Budge E. A., King L.W. Annals of the Kings of Assyria. Vol. I. London, 1902, p. 325.

[4] Дьяконов И. М. История Мидии от древнейших времен до конца IV века до нашей эры. Москва-Ленинград, 1956, с. 127.

[5] Brinkman J. A. A political History of Post-Kassite Babylonia. 1158-722 B.C. Roma, 1968, p.154.

Surity, Arzizu, Arakdi və s.) keçməli olmuşlar. İndiki Süleymaniyyədən şimal-şərqə istiqamətlənən bu yürüşün son məntəqəsi Atlila şəhəri aşşurlular tərəfindən bərpa olunmuş, ona Dur-Aşşur "Tanrı Aşşurun qalası" adı verilərək yeni yaradılmış inzibati vahidliyin mərkəzinə çevrilmişdir. Ətraf məskənlərdən alınan verginin vaxtında və təhlükəsiz toplanmasını təmin etmək üçün şəhərdə canişin sarayı və istehkam divarı tikilmişdir[1]. Yaşayış məntəqələri haqqında məlumat verən bələdçi mətnlərin birində Dur-Aşşurun Napiqi və Arrakdi şəhərləri arasında yerləşdiyi göstərilir.[2] Şəhərin Aşşur dövlətinin paytaxtından şərqə doğru uzaq məsafədə yerləşməsi, II Aşşurnazirapalın hərbi yürüşünün marşrutu, ondan xeyli əvvəl Simbar-Şipakın buraya basqını və onun real hakimiyyətini simvolizə edən silahın[3] Marağadan tapılması qədim

---

[1] Дьяконов И.М. История Мидии…, с. 158; Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə (Tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi: S. Qaşqay). Bakı, 2006, s. 27.

[2] Fadhil A. Studien zur Topographie und Prosopographie der Provinzstädte des Königreichs Arrapha. Baghdader Forschungen. Band 6. Verlag Philipp von Zabern, Mainz am Rhein, 1983, s. 76. Ehtimal ki, Zamuadakı Arrakdi (və ya Arakdi) e.ə. 522-ci ildə Əhəməni hakimiyyətinə qarşı Qaumatanın rəhbərliyilə madalıların üsyanının baş qaldırdığı məkanın, Arakadriş dağının adı ilə (Paişiyauvada vilayətində) eyniləşdirilməlidir. Bax: Меликов Р. Древнеперсидские надписи. Транслитерация, перевод, глоссарий. Баку, 2013, с. 43,223,322.

[3] Daha qədim zamanlarda qüqdrətli hökmdarlar hərbi güclərini və siyasi iradələrini nümayiş etdirmək məqsədilə öz silahlarını vacib atribut kimi zəbt etdikləri kənar şəhərlərin baş məbədində və ya əsas inzibati tikilisində (məğlub edilənin sarayında və ya təyin olunmuş yeni canişinin iqamətgahında) saxlayırdılar. Təxminən e.ə. XV əsrə qədər əsas hücum silahı dəstəyi ağacdan, başlığı isə daşdan olan toppuz (əmud) olmuşdu. Şumerin Kiş şəhərinin hökmdarı Mesilimin (e.ə. XXVI əsr) işğal etdiyi digər Şumer şəhəri Laqaşdan, Cənubi Azərbaycanda məskunlaşan qutilərin çarı Lasirabın (e.ə. XXII əsrin ikinci yarısı) idarə etdiyi Şumer şəhəri Sippardan, Elamın paytaxtı Suzun baş kahini və Simaşki ölkəsinin çarı I Tan-Ruhuraterin (XX əsrin ikinci yarısı) itaətdə saxladığı indiki Həsənli kəndindən (Urmiya gölünün cənub sahilində) arxeoloji qazıntılar zamanı tapılan toppuz başlıqları onların hakimiyyətinin bu yerlərdə tanındığını ifadə edirdi. Bax: Алимирзоев А. Месилим царь Киша. // Азербайджан и азербайджанцы, № 1-2, Vol. 105-106, Баку, 2010, с. 2; Əlimirzəyev A. Erkən Elam cəmiyyəti: siyasi-iqtisadi münasibətlər və yazı tarixi (e.ə. IV-III minilliklər). Bakı, 2011, s. 53; Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Müntəxəbat (Tərtibçilər: R. S. Məlikov, A. N. Əlimirzəyev). Bakı, 2014, s. 30, № 10; Dayson R. The Iron Age Architecture at Hasanlu: An Essay. // Expedition, 1989, Vol. 31, № 1-2, p.123. E. ə. II minilliyin ortalarında Ön Asiyanın qabaqcıl mərkəzlərində metalişləmə sənəti geniş vüsət aldıqca tuncdan düzəldilmiş qılınclar əsas hücum silahına çevrilir. Elam hökmdarı Humbanummenaya (e.ə. XIII əsr) məxsus belə bir tunc qılınc Həmədandan aşkar olunmuşdur. Bax: Herzfeld E. The Persian Empire. Wiesbaden, 1968, p. 30-31, fig. 6.

Atlila/Dur-Aşşur şəhərini indiki Marağa ilə eyniləşdirməyə tam əsas verir. Urmiya gölü hövzəsində kaşşuların siyasi hakimiyyətinin izləri Simbar-Şipakdan xeyli əvvəl nəzərə çarpır. Bunu arxeoloji qazıntılar zamanı Həsənlidən üzərində Babilistanin kaşşulu çarı Kadaşman-Enlilin (e.ə. XIII əsr) ismi yazılmış daş su qabı təsdiq edir[1]. Kaşşulardan qalma inzibati idarəçilik sistemi ilə bağlı ənənənin Urmiya gölü hövzəsindəki çarlıqlarda Allabria, Hubuşkia və Mannada (çar İranzunun ismində), e.ə. VIII yüzillikdə hələ də yaşadığını **yanzu**/**yanzi** hökmdar titulu təsdiq edir.[2]

Babilistanda kaşşu sülaləsinin hakimiyyətinə son qoyulduqdan sonra Elam çarlarının hərbi-strateji maraqları vaxtı ilə kaşşuların nəzarət etdiyi Urmiya gölündən cənubdakı məskənlərə yönəlir. Şilhak-İnşuşinakın (e.ə. 1150-1120) bu yerlərə iri miqyaslı yürüşünü təsvir edən "Qələbə kitabəsi"ndə işğal olunmuş və dağıdılmış yaşayış yerləri sırasında baş hecası pozulmuş **[...]-ti-il-la** sonluqlu şəhər adı xatırlanır[3] . Orta Elam dövrünün paleoqrafik və fonoloji xüsusiyyətlərini nəzərə alaraq bu fraqmentar toponimi **[A]-ti-il-la, [At]-ti-il-la, [Ha]-ti-il-la** formalarında bərpa etmək və Zamua ölkəsindəki Atlila şəhəri ilə eyniləşdirmək olar.[4]

Şilhak-İnşuşinakın vəfatından sonra Babilistan çarı Nabukudur-riusurun (= I Navuxodonosor: e. ə. 1126-1105) hərbi müdaxiləsi nəticəsində Elamda Şutrukilər sülaləsinin hakimiyyətinə son qoyulur və Zamuadakı lullubilər üzərində qələbə qazanılır[5]. Lakin qısa müddətdən sonra Aşşur çarı Tukultiapaleşarranın (= I Tiqlatpalasar: e.ə. 1114-1077) iki dəfə Mesopotamiyanın cənubuna yürüşü nəticəsində Babilistanda yerli

---

[1] Dayson R. The Iron Age…, p. 122; Stein P., Oelsner J. Zu einem kassitischen Steingefass aus Hasanlu. // Nouvelle Assyriologiques Bréves et Utilitaires, 2006, № 3, s. 59- 60.

[2] Меликишвили Г. А. Древневосточные материалы по истории народов Закавказья. I. (Наири-Урарту). Тбилиси, 1954, с. 138-139.

[3] König F. W. Die Elamische Königsinschriften. Graz, 1965, № 54, s. 128.

[4] Hurrilərin Mitanni dövlətinin çarı Şauşşatarın (və ya Şauşattar, Şauştatar) tabeliyindəki Arrapha şəhərinin hakiminə məktubunda "Atilu" adlı toponim xatırlanır. Bu toponim Paharraşe (Şumer-Akkad mətnlərində Marhaşi, Barahşe) vilayətində (İranın qərbində Poşte_Kuh Dağlıq massivində) yerləşdiyindən onu II Aşşurnazirapalın annallarındakı Atlila şəhərindən fərqləndirirlər. Bax: Speiser E. A. Mesopotamian origins. The Basik Population of the Near East. Philadelphia, 1930, p. 100. Bununla belə, "Atlila" və "Atilu" yer adlarının bölgənin yerli dillərindən birinə (lullubilərə ?) mənsub olduğu şübhə doğurmur.

[5] Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr..., s. 50, № 28.

siyasi hakimiyyət zəiflədiyindən I Navuxodonosorun zamanında Urmiya gölü hövzəsində qazanılan uğurlar heçə enir. Babilin işğalından yenicə azad olmuş lullubi məskənləri bu dəfə aşşurluların müdaxiləsinə məruz qalır. I Tiqlatpalasar kitabələrində lullubilərin bütün ərazilərini (ehtimal ki,Marağa da daxil olmaqla) zəbt etməsilə öyünürdü[1]. Onun vəfatı və Aşşur dövlətinin zəifləməsi ilə əlaqədar Babilistanda yeni hakim sülalə formalaşır və yalnız bundan sonra Simbar-Şipak hərbi-siyasi nüfuzunu indiki Marağaya qədər genişləndirə bilir.

Aşşurlular növbəti dəfə Urmiya gölü hövzəsindəki lullubi torpaqlarında e.ə. IX əsrin əvvəllərində, II Aşşurnazirapalın zamanında görünürlər. Şarrukinin (II Sarqonun) dövründə (e. ə. 722-705) bu yerlərdə məqsədyönlü şəkildə aşşurluların dayaq məntəqələrinin yaradılmasına start verilir. Aşşur dövlətinin Şərq koloniyalarında keçirilən inzibati reformalara uyğun olaraq II Sarqonun əmri ilə e.ə. 716-cı ildə Bit-Umarqi, Harhubarra, Kilambati, Bit-Saqbat, Bit-Hirmami vilayətləri Kişassu əyalətinin[2] tərkibinə qatılır[3] . Bu inzibati subyektlərdən birinin adı "Bit-Umarqi"[4] diqqəti cəlb edir. Aşşur dilindən (akkad dilinin şimal dialekti) tərcümədə bu toponim "Umarqi evi" anlamını verir. "Umarqi" sözünün mənası Əhəməni hökmdarlarının (I Daranın, I Kserksın və II Artakserksın) üçdilli kitabələrinə əsasən müəyyən olunur. Aşşurlu mirzənin dilinin fonetik imkanlarından çıxış edərək **umargi** formasında transkripsiya etdiyi əcnəbi sözün Əhəməni kitabələrinin babil (= akkad dilinin cənub dialekti) variantında qarşılığı **ú-mu-ur-ga-a**[5]**,** elam variantında **u-mu-mar-kap**[6], qədim fars variantında **haumavargā**[1] kimi

---

[1] Qədim Azərbaycan tarixi..., s. 21-22

[2] Qızılüzən çayının yuxarı axarında, Həmədanla Qəzvin arasında yerləşən Kişassu (və ya Kişisa, Kişesa) ilk dəfə e. ə. 734-cü ildə III Tiqlatpalasarın qoşunlarının hücumuna məruz qalmış və onun başçısı Bisihadir məğlub edilmişdir. Bax: Дьяконов И. М. История Мидии…,с. 196. E.ə. 716-cı ildə II Sarqonun qoşunları Madaya yürüş edərkən Manna Parsua Kişassu marşrutu üzrə hərəkət etmişlər.

[3] Əyalət aşşurlu canişinlər tərəfindən idarə olunurdu. Bax: Дьяконов И. М. История Мидии…, с. 256, прим. 1; Qədim Azərbaycan tarixi…, s. 37.

[4] Mənbədə: **matu Bit-U-mar-gi**.

[5] Burada **-a** sonluğu mənsubiyyət göstəricisi kimi çıxış edir və mahiyyət etibarı ilə **umargi** aşşur formasındakı **-i** sonluğundan (akkad dilində ismin yiyəlik hal şəkilçisi) fərqlənmir.

[6] Burada **-p** sonluğu ismin cəm şəkilçisidir.

səslənirdi[2]. Herodotun "Tarix" əsərində bu söz "**amurqioi**" formasında verilib [VII, 64]. Bizi maraqlandıran söz Hind-İran dillərinə mənsubdur və **hauma** ("məstedici içki") + **varqa** ("bişurmək", "hazırlamaq") sözlərindən yaranib[3] . Bütün hallarda bu söz sak-skif toplumlarından birinin etnoqrafik xüsusiyyətini ifadə edirdi. Əhəməni hökmdarlarının kitabələrində "haumavarqa sakları" "şişpapaq saklarla" birgə Orta Asiyadakı satraplıqların birinin sakinləri kimi təqdim olunublar[4]. Başqa sözlə, "hauma" sözü Əhəməni imperiyasının hüdudları çərçivəsində sak-skif toplumunun bir hissəsinin dini ayinlər zamanı qəbulu vacib sayılan məstedici içkinin hazırlanması sahəsində tanındığını göstərir. Maraqlıdır ki, Şilhak-İnşuşinakın "Qələbə kitabəsi" də Urmiya gölündən cənubdakı bəzi yaşayış məskənlərinin peşə fəaliyyəti ilə bağlı adlar daşıdığını təsdiq edir[5]. Bu baxımdan, Bit-Umarqi" yer adının **haumavarqa** sözündən yaranması və xeyli sonralar "Marağa" formasını alması ehtimalı tamamilə mümkün görünür.[6] Məlumdur ki, Aşşur mətnlərində **Bit** "ev" komponenti əlavə olunduğu əcnəbi yer adlarının etimoloji anlamına mahiyyətcə təsir göstərmədiyindən mirzələr bəzi hallarda bu komponenti yazmağa lüzum görmürdülər[7]. Görünür icma tipli yaşayış məskənləri olduqlarından Aşşur mirzələri onları "ev" kimi təqdim edirdilər. Yerli icmanın kollegial orqani (ağsaqqallar şurası və ya əli silah tutanların yığıncağı) tərəfindən adi səs çoxluğu əsasında idarə olunduğundan mətnlərdə belə məskənlərə başçılıq edənlərin adları göstərilmirdi. Vergilərin yığılması və vaxtında çatdırılması üçün kollegial orqanın təyin etdiyi səlahiyyətli şəxs Aşşur mətnlərində, sadəcə olaraq, **awelu** "adam" sözü ilə qeyd olunurdu.

---

[1] Söz təyin funksiyasında, cəm halda işlənib.
[2] Herzfeld E. The Persian…, p. 327; Меликов Р. Древнеперсидские надписи…, с. 260.
[3] Меликов Р. Древнеперсидские надписи…, с. 206.
[4] Меликов Р. Древнеперсидские надписи…, с. 53, 98, 117, 127, 133, 168, 198.
[5] Məsələn, Pit-Nanqari yaşayış yerinin adı akkad dilindən tərcümədə "Dülgər evi" mənasını verir. Bax: König F. W. Die Elamische…, s. 129.
[6] "Bit-Umargi" yer adını **(H)umarga** formasında bərpa edərək "Yaxşı otlaqlı" (Avestada **mareγa,** müasir fars dilində "**mərğ**") kimi mənalandırmağa çalışmışlar. Bax: Грантовский Э. А. Ранняя история иранских племен Передней Азии. Москва, 1970, с. 312-313.
[7] Грантовский Э. А. Ранняя история…, с. 231.

Köçəri sak-skif tayfalarının ilk qrupları Manna ərazilərində e. ə. VIII əsrin sonlarında görünməyə başlayırlar.[1] Aşşur mətnlərindəki məlumatlarla Herodotun yazdıqlarının müqayisəli təhlili göstərir ki, e.ə. VII əsrin əvvəllərində Mannanın ərazisində fərqli siyasi orientasiyanın tərəfdarı kimi çıxış edən iki skif toplumu məskunlaşmışdı. Təəccüblüdür ki, toplumlardan biri Aşşur, digəri isə Manna / Mada (antiaşşur) meyilli fəaliyyətləri ilə tanınsalar da, mənbələr onların arasında hər hansı münaqişədən xəbər vermir. Skiflərin talan məqsədilə Aşşur dövlətinin nəzarətindəki torpaqlara mütəmadi basqınlarının qarşısını almaq üçün e. ə. 678-ci ildə Aşşurahaiddin Mannaya yürüş təşkil edir və döyüşlərin birində skiflərin başçısı İşpakay öldürülür[2]. Münəccim sorğularının birindən məlum olur ki, skiflərin digər qrupunun "hökmdarı" Partatua[3] (Herodot onu Prototi adlandırırdı) Aşşurahaiddinin qızı ilə izdivac qurmaq məqsədilə elçilərini Aşşur sarayına göndərməklə müttəfiqliyini təklif edir.

E.ə. VII əsrin 70-ci illərində Aşşurun siyasi təsirinə və vaxtaşırı hərbi müdaxiləsinə qarşı madalılar Kaştaritinin (Herodot onu Fraort adlandırırdı) başçılığı ilə azadlıq mübarizəsinə qalxırlar. Üsyan haqqında məlumat verən münəccim sorğularında bildirilir ki, mannalılar və skiflər[4]

---

[1] Arxeoloji qazıntılar zamanı Həsənlidən skiflərə məxsus ox ucluqları tapılmışdır. Bax: Грантовский Э. А. Ранняя история…,с. 41.

[2] Azərbaycanın qədim tarixi..., s. 87. Mənbədə: **İšpa-ka-a-a KUR Aš-gu-za-a-a** "İşpakay – Skif ölkəsindən olan". Bax: Beckman G. A. Join-piece to the Esarhaddon Prism YOS 9.76. // Annual Review of the Royal Inscription of Mesopotamia Project. Vol. 6, 1988, p. 3-4. "İşpakay" ismi "Atlı" kimi izah olunur. Bax: Дьяконов И. М. История Мидии…,с. 245, прим. 5.

[3] Mənbədə: **Bar-ta-tu-a LUGAL ša KUR [İ]š-ku-za** "Bartatua – Skif ölkəsinin çarı". Bax: Starr İ. Queries to the Sungod. State Archives of Assyria. Vol. IV, Helsinki, 1990, № 20. "Bartatua" isminin İran mənşəli olması şübhə doğurur. İsmin orijinal forması – **Bar-ta-su-a**, hurrilərin Arrapha və Nuzi şəhərlərinin e.ə. II minilliyin ortalarına aid hesabat sənədlərində qeydə alınıb. Bax: Gelb I., Purves P., MacRae A. Nuzi Personal Names. Chicago, 1943, p. 112. Bu ismə həmin şəhərin şahzadəsinin (akkaddilli sənədlərdə **mar šarri**) möhürü üzərində də rast gəlinir. Sənədlərin birində onun qeyri-İran mənşəli **Pa-a-a** ismi daşıyan oğlu da xatırlanır. Bax: Fadhil A. Studien zur Topographie…,s. 30, 48, 229, 296. "Bartasua" ismindəki **barta** (və ya **parta-** ; Aşşur-Babil mixi yazı sistemində samit səslərin kar və cingiltili variantları arasında qrafik fərq qoyulmurdu) komponenti bütöv söz və ya müstəqil element kimi Cənubi Azərbaycan və həmhüdud ərazilərdə yayılmış yer və şəxs adlarında e.ə. XXI əsrdən məlumdur. Müqayisə et:

[4] Günəş tanrısı Şamaşa ünvanlanan və Aşşur dövlətinin maraqları ilə bağlı hərbi-siyasi hadisələrdən xəbər verən münəccim sorğuları, əsasən, Babilistan kahinləri tərəfindən tərtib olunduğundan, skifləri, ənənəvi olaraq, **gimirraja** "kimmerlər" adı ilə göstərirdilər.

üsyançıları hərbi qüvvə ilə dəstəkləyirdilər. İlk mərhələdə üsyançılarının fəaliyyəti aşşurluların Madanın sərhədlərində yaratdıqları dayaq məntəqələrini ələ keçirməyə yönəlmişdi. Sorğuların birində üsyançıların Kişassu əyalətindəki qalaları ələ keçirmək niyyətində olduqlarından xəbər verilir.[1] Təbii ki, belə şəraitdə Kişassu əyalatinin mühüm dayaq məntəqələrindən biri kimi Bit-Umarqi (= Marağa) şəhəri madalıların azadlıq hərəkatından kənarda qala bilməzdi. Üsyançıların ələ keçirmək istədikləri dayaq məntəqələrindən biri də Uşişi şəhəri idi[2]. Arxeoloji qazıntılar zamanı Həsənlidən üzərində yerli sakinlərin sitayiş etdiyi Günəş tanrısı Uşişinin ismi yazılmış daş qabın tapılması Uşişi şəhərinin yaxınlıqda yerləşdiyinə işarə edir[3].

Kaştaritinin başçılıq etdiyi üsyan İran yaylasında yeni dövlətin Mada çarlığının yaranması ilə nəticələnir. Aşşur çarı Aşşurahaiddinlə (Asarxaddon) üsyançı tərəflər arasında əldə olunan razılaşmaya əsasən Kişassu əyalətinin II Sarqonun inzibati-ərazi islahatına qədərki hissəsi Mada dövlətinin tərkibinə qatılır, əyalətə e. ə. 716-cı ildə birləşdirilən Urmiya gölündən cənub-şərqdəki torpaqlar, eləcə də Umarqi (Marağa) şəhəri, öz tarixi sahiblərinə - lullubilərə (mannalılara) qaytarılır. Umarqinin geri qaytarılması Aşşur ağalığına qarşı madalıların azadlıq

---

a) Ebarti / Ebarat / Yabrat. Qismən Cənubi Azərbaycanı da əhatə edən və elamlılar tərəfindən idarə olunan Simaşki (şumerdilli mətnlərdə**: LU. SU. Kİ**. "SU adamlarının məskəni") konfederasiyasının çarı (e.ə. 2025?-2018?). Bax: Potts D. T. The Archaeology of Elam. Formation and Transformation of an ancient Iranian state. Cambridge, 1999, 144, 146, 147, 151.
b) Eparti. Elamda Sukkalmahlar sülaləsinin banisi (e.ə. 1850?-1830?). Bax: Potts D. T. The Archaeology of Elam…, p. 162, 164.
c)Parti. Elamlıların panteonunda ilahə. Bax: Хинц В. Государство Элам. Москва, 1977, с. 39-40.
d) Barat-tarna (və ya Barat-arna). Hurrilərin Mitanni dövlətinin çarı (e.ə. 1500?-1470).
e) Parda. Mannanin Ziqirtu vilayətinin inzibati mərkəzi. Bax: Дьяконов И. М. История Мидии…, с. 204, 211, 215, 225.
Ola bilsin ki, skiflərin çarı "Bartatua" ismini Mannada hələ də yaşamaqda olan köhnə ənənələrə hörmət əlaməti olaraq qəbul etmişdi.
[1]Srarr I. Queries to the Sungod…, № 43.
[2]Starr I. Queries to the Sungod…, № 44.
[3] Dayson R. The Iron Age…,p. 123. Uşişi şəhərinin Kişassu əyalətinə qatıldığı güman olunur. Bax: Медведская И. Н. Древний Иран накануне империй (IX-VI вв. до н.э.). История Мидийского царства. Санкт-Петербург, 2010, с. 133. Ola bilsin ki, bu toponim Sarab yaxınlığındakı Şişə kəndinin adında qalıb.

hərəkatında müttəfiq tərəflərin - lullubilərin və skiflərin mühüm nailiyyəti idi. Lakin mannalıların skiflərlə hərbi ittifaqı e.ə. 660-cı ildə uğursuzluqla və Manna çarı Ahşerinin ölümü ilə nəticələnir.[1]

Skiflərin hərbi fəallığı Mannada məskunlaşdıqları rayonun toponimikasına təsirsiz ötüşə bilməzdi. Zənnimizcə məhz Umarqi (Marağa) skiflərin Mannada başlıca dayaq məntəqəsi olmuşdur. Etimoloji baxımdan da "Umarqi" Mannada skiflərlə əlaqəsi nəzərə çarpan yeganə toponimdir. Adından da göründüyü kimi, şəhər hauma bitkisindən məstedici ekstratın hazırlanması ilə tanınırdı. Bu bitki müqəddəs sayıldığından bütövlükdə qədim Hind-İran eynoslarının dini mərasimlərinin (Avestada **haoma,** sanskritcə **sóma**) vacib atributlarından idi və bu səbəbdən ondan alınan ekstratı yalnız sak-skif toplumu ilə bağlamaq yanlış olardı. Fikrimizi skiflərin Ön Asiyaya gəlişindən xeyli əvvəl, II Aşşurnazirapalın kitabələrində Anadolunun şərqində **Ha-mur-ga** adlı vilayətin dağıdılması haqqında məlumat[2] təsdiqləyir. Bu vilayətin adının **haumavarqa** sözündən yaranması şübhə doğurmur və qədim İran etnoslarının indiki İran yaylasına Anadoludan keçməklə qərbdən gəldiklərinə dair elmdə mövcud nəzəriyyənin doğruluğunu təsdiq edir. Həqiqətən də, Aşşur mənbələrinin Manna və Mada ərazilərində yerləşdirdiyi etnik və coğrafi adların bir qismilə xeyli sonralar Orta Asiya mühitində qarşılaşırıq. Məsələn, Şilhak-İnşuşinakın "Qələbə kitabəsi"ndə **[A/At]-ti-il-la** (= Marağa) şəhərindən öncə Elam qoşunlarının **Ni-še-e** adlanan məntəqədə olduğu bildirilir. Bu yer e. ə. 737-ci ildə Aşşur qoşunlarının yürüşünə məruz qalmışdır[3]. Bisitun kitabəsi də bu yerin Madanın ərazisində olduğunu göstərir[4]. E.ə. I əsrdə indiki Türkmənistanın cənub-qərbində eyni adlı şəhərlə qarşılaşırıq. Mannadakı "Parikana" toplumununadı indiki Özbəkistandakı Fərqanə vadisinin adı ilə müqayisə olunur[5]. Saqartilərin də əvvəllər Cənubi Azərbaycanda (Urmiya gölünün şərq sahili boyu), sonralar isə Drangianada (indiki Siistan) yaşadıqları

---

[1] Медведская И.Н. Древний Иран…, с. 183.
[2] Budge E.A., King L.W. Annals…, p. 367.
[3] Дьяконов И.М. История Мидии…, с. 201-203.
[4] Меликов Р. Древнеперсидские надписи… , с. 45, 56-57.
[5] Дьяконов И. М. История Мидии…, с. 338; Herzfeld E. The Persian Empire…, p.329-330.

məlumdur[1]. E. ə. 737-ci ildə III Tiqlatpalasarın yürüşünə məruz qalan Arakuttu şəhərinin[2] adını e.ə. VI əsrdə Əfqanıstan ərazisindəki Araxoziya vilayətinin (indiki Qəznə şəhəri və ətrafındakı ərazilər) adı ilə müqayisə etmək olar. Madadakı "Buştu" vilayət adı Əfqanıstandakı puştu etnosunun adını xatırladır. Bu siyahını uzatmadan da əminliklə söyləmək olar ki, e.ə. VIII yüzilliyin sonlarında Qafqazdan, eləcə də Şimali Azərbaycandan, keçərək Manna ərazilərinə yayılan sak-skif qrupları da İrandilli tayfaların ümumi axınına qoşularaq tədricən şərqə, Orta Asiyaya miqrasiya etmişlər.

Hesab olunur ki, Azərbaycanın tarixi torpaqlarında məskunlaşan skiflərin əksəriyyətini "şişpapaq saklar" təşkil edirdilər.[3] Herodot yazırdı ki, Əhəmənilərin hakimiyyəti zamanı (e.ə. 550-330) Mada satraplığına daxil olan "amurqiya skifləri" ("haumavarqa sakları") şişuclu papaq geyirdilər [VII,64]. I.M. Dyakonov da hesab edirdi ki, bu tip papaqlar digər skif toplumlarına da məlum idi.[4] Buna baxmayaraq, "şişpapaqlı" ifadəsi, etnoqrafik əlamət kimi, skif toplumlarından yalnız birinə şamil olunurdu. Ola bilsin ki, "haumavarqa sakları" ifadəsi ilk vaxtlar Bit-Umarqidə (Marağada) məskunlaşmış skif qrupuna şamil olunurdu. E.ə. VI əsrin ikinci yarısında artıq hər iki skif qrupu "şişpapaq saklar" və "haumavarqa sakları", Əhəməni imperiyasının təbəələri kimi, əsasən, Orta Asiyadakı satraplıqların birində kompakt halda yaşayırdılar.

Herodot xəbər verir ki, Prototinin oğlu Madiy Kiaksara qalib gəldikdən sonra Mada çarlığı 28 il skiflərin işğalı altında qalır [I, 104]. Lakin daha etibarlı mənbə sayılan o dövrün mixi yazılı mətnləri bu faktı təsdiq etmir.[5] Hər halda, skiflərin Cənubi Azərbaycanı tərk etmələri Kiaksarın zamanında Mada dövlətinin güclənərək Manna ərazilərinin ilhaqından sonra baş verə bilərdi. Belə ki, ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində geniş hərbi islahatlar aparan Kiaksar ox atma sənətinə yiyələnmək üçün madalı gəncləri vaxtı ilə Aşşurla mübarizədə ənənəvi müttəfiqləri olan Manna (?) skiflərinin yanına göndərirdi [Her., I,

---

[1] Дьяконов И. М. История Мидии…, с. 340.
[2] Дьяконов И. М. История Мидии…, с. 202-203.
[3] Меликов Р. Этническая картина Азербайджана в период ахеменидского владычества (VI-IV вв. до н.э.). Баку, 2003,с. 160-168.
[4] Дьяконов И. М. История Мидии…, с. 248-250.
[5] Медведская И.Н. Древний Иран…, с. 213-214, 217, 221.

73, 103]. E.ə. 605-ci ildə Aşşur,12 il sonra isə onun keçmiş müttəfiqi Manna tamamilə süquta uğradıqdan sonra onların torpaqları qalib hərbi blokun üzvləri - Babilistan və Mada dövlətləri arasında bölüşdürülür. Manna ərazisində müəyyən özünü idarə hüququna malik olan sak-skif toplumu bu bölgüdən sonra əvvəlki siyasi-inzibati imtiyazlarını itirərək, mərkəzləşdirilmiş Mada çarlığının tərkibinə qatılır. Herodot xəbər verir ki, Kiaksar tərəfindən təhqir olunan skif əyanları qisas məqsədilə onların yanında hərbi təlim keçən madalı gənci öldürüb, ətini Mada çarına yedirirlər. Kiaksarın bundan xəbər tutacağından qorxaraq, skiflərin böyük qrupu Lidiya çarlığına qaçırlar. Lidiya hökmdarı Aliattın (e.ə. 617-561) qaçqın skiflərin Madaya ekstradisiyası ilə bağlı Kiaksarın tələbini rədd etməsi Lidiya və Mada arasında 5 il davam edən (e.ə. 590-585) müharibəyə səbəb olmuşdur [Her., I, 73-74]. Lidiyada siyasi sığınacaq tapan və Mannada anklav şəraitində yaşamaqda davam edən skiflər yalnız Mada çarlığının süqutundan sonra (e.ə. 550) kütləvi halda Orta Asiyaya köç etmişlər. Məhz "haumavarqa" saklarının şərqə miqrasiyası nəticəsində Orta Asiyanın xəritəsində "Margiana" və "Murqab" kimi coğrafi adlar meydana gəldi.

A.Alimirzayev

ON THE ROLE SCYTHIANS IN THE HISTORY OF MARAGHA

SUMMARY

In museum History of Azerbaijan in Tabriz be kept bronze sword by Shimbar-Shipak (1025-1008), the first ruler of the Second Sealand dynasty in Babylonia. This sword as symbol power and recognition this kassite ruler was found at city of Maragha. For messages Annals of Assyrian king Ashurnasirpal II (883-859) this ruler destroy city of Atlila in lullubean country Zamua. This city was be distressed else by elamian king Shilhak-Inshushinak (1150-1120). In the time of Ashurnasirpal II this city was restoration and renamed to "Dur-Ashshur" ("Fortres of god Ashshur") and turn in administrative center for the collection tribut. In the time of Sargon II Maragha called "Bit-Umargi" and in 716 year BC was included in the composition Assyrian province of Kishassu. Probability, modern name "Maragha" go up to this toponym (from old Persian **haumavarga** «make the haoma", babylonian **umurga**, elamian - **umumarka**).

İntoxicating drink "hauma" was known earlier groups Iranian tribes, whichs appeared in sources in the early IX century BC the far East Anatolia (province **Ha-mur-ga** in the Annals of Ashurnasirpal II). In the end of VI BC make this drink of plants haoma doing the definite skithian group Central Asia, whoms later ancient Greeks called "amurgian". This scythian group title could own way here receive toponym Bit-Umargi ("Home making the haoma") else to migration from Manna (Southern Azerbaijan) in Central Asia. Presense this scythian group in

province Kishassu, where included also Bit-Umargi (Maragha) detail confirmed by inquirys priests of god Shamash at the Median revolt 670-years BC.

А. Алимирзоев

О РОЛИ СКИФОВ В ИСТОРИИ ГОРОДА МАРАГА

РЕЗЮМЕ

В Музее Истории Азербайджана города Тебриз хранится бронзовый меч касситского царя Шимбар-Шипака (1025-1008), основателя II династии Приморья Вавилонии. Меч этот, как символ могущества и признания власти касситского царя, был обнаружен при неизвестных обстоятельствах из города Марага. Анналы ассирийского царя Ашшурназирапала II (883-859) сообщают о разрушение при этом касситском царе города Атлила в луллубейской стране Замуа. Этот город подвергся разрушению еще при эламском царе Шилхак-Иншушинаке (1150-1120). Отреставрировав и переименовав этот город на «ДурАшшур» («Крепость бога Ашшур») Ашшурназирапал II сделал его административным центром по сбору дани. При Саргоне II город Мераге назывался «Бит-Умарги» и в 716 г. до н.э. был включен в состав ассирийской провинции Кишассу. По всей вероятности, современное название «Марага» восходит к этому топониму (от древнеперсидского **haumavarga** «приготавливать хаому», в вавилонской передаче **umurga**, в эламской - **umumarka**).Ранние группы ираноязычных племен, которые задолго до скифов были знакомы с этим напитком, появляются в письменных источниках уже в начале IX в. до н.э. на крайнем востоке Анатолии (срав. область **Ha-mur-ga** в анналах Ашшурназирапала II). К концу VI в. до н.э. приготовлением опьяняющего напитка из растении хаома занималось, в основном, определенная группа скифов Средней Азии, которых позже древние греки называли «амюргийскими». Эта группа скифов свое название могло получить от топонима Бит-Умарги (дословно «Дом приготовления хаомы») еще до миграции из Манны (Южный Азербайджан) в Среднюю Азию. Присутствие определенной группы скифов в провинции Кишассу, куда входил также Бит-Умарги (Марага), подтверждается сведениями оракульных запросов жрецов бога Шамаша о мидийском восстании 670-ых годов до н.э.

ERKƏN ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA ELMİN İNKİŞAFI

Könül SADIQOVA

Açar sözlər: orta əsrlər, Azərbaycan, mütəfəkkir, elm, tarix
Key words : The Middle Ages, Azerbaijan, thinker , science, history
Ключевые слова: средневековье, Азербайджан, мыслитель, наука, история

Xilafətin Azərbaycanda uzun sürən hökmranlığı digər sahələrdə olduğu kimi, ölkənin mədəni həyatında da dərin izlər buraxdı, bir çox dəyişikliklərin başlıca səbəbi oldu. Təqribən XI əsrədək ərəb dili elmi, dini və ədəbi yaradıcılığın başlıca vasitəsinə çevrildi. Buna obyektiv amillər (ümumi dilin, əlifbanın olmaması və.s) əlverişli şərait yaratmışdı. Bu vəziyyət, müvəqqəti olaraq, məhsuldar qüvvələrin inkişafını və ölkənin mədəni tərəqqisini ləngitsə də, Azərbaycanın geniş ərazili Xilafət tərkibinə daxil edilməsi obyektiv olaraq onu ümumi müsəlman mədəniyyətinə cəlb etdi, islamın burada geniş vüsət tapmasına şərait yaratdı. Lakin Yaxın və Orta şərqin bir şox ölkələrində (İranda, Orta Asiyada və s.) olduğu kimi, tarixi Azərbaycan ərazisində də bu proses yerli ədəbi dillərin inkişafına ara verdi. Orta əsr ərəb mədəniyyəti tarixində ən məhsuldar çağın başlandığı bu dövrdə "ərəb" ifadəsi öz məzmununu dəyişdi. Xilafətin ərəb dilini həm ədəbi, həm də danışıq dili kimi qəbul etməsi nəticəsində bir çox "ərəbləşmiş" xalqlar (suriyalılar, misirlilər və b.) ərəb-müsəlman mədəniyyətinin yaranması prosesinə fəal surətdə qoşuldu, nəticədə bu mədəniyyəti Qədim Şərq və antik dünya xalqlarından onlara irs qalmış ənənələrlə zənşinləşdirdilər. Bununla yanaşı, Xilafətin ərəbləşməyib, yalnız müsəlmanlaşmış bir çox xalqı, o cümlədən azərbaycanlılar, tədricən ərəblərin dini ilə birlikdə onların dillərini də mənimsəyərək, az qala, XI əsrədək elmi, dini və ədəbi yaradıcılıqda bu məqsədlə latın dilindən istifadə edən avropalılar kimi ərəb dilini işlətməyə başladılar. Buna şimallı-cənublu Azərbaycan ərazisində müxtəlif dillərdə danışılması, dil vahidliyinin olmaması, dar çərçivədə tətbiq edilən alban əlifbası nəzərə alınmazsa, ümumi əlifbasızlıq

---

Könül Sadıqova – AMEA-nın M.Fuzuli adına Əlyazmalar İnstitutunun doktorantı

üzündən ərəb əlifbasının qəbul edilməsi ilə yanaşı, başqa obyektiv amillər də xeyli kömək etdi. İslamı qəbul etmiş bütün xalqlar kimi o zaman dini-etnik anlamlı ümumi "müsəlman" məfhumu ilə birləşmiş azərbaycanlılar da IX əsrin ortaları - X əsrlərdə tərəqqi, X-XII əsrlərdə çiçəklənmə dövrünü keçirən müsəlman mədəniyyətinin inkişafı prosesində iştirak edirdilər. Ərəb şərqinin mədəni mərkəzləri olan Bağdad, Kufə, Bəsrə, Dəməşq, Qahirə və başqa şəhərlərə təhsil almaq üçün çoxlu azərbaycanlı gedirdi. Artıq IX əsrdən başlayaraq Xilafətin ən böyük şəhərləri Dəməşq, Bağdad, Hələb, Bəsrə, o cümlədən Azərbaycanın Ərdəbil, Marağa, Şamaxı və başqa şəhərləri təhsil ocaqları, kitabxanaları, məscidləri olan mədəni mərkəzlərə çevrildilər [2. s. 45].

Bu mərkəzlərdə fəaliyyət göstərən məktəb və mədrəsələr də ərəb dilinin öyrənilməsində az rol oynamırdı. Lakin, əlbəttə, ərəb dilinin geniş yayılmasına səbəb olan ən başlıca amil azərbaycanlıların başqa Şərq xalqları ilə IX əsrdən sonra genişlənməkdə olan və sonrakı əsrlərdə də davam edən ticarət-iqtisadi, siyasi və mədəni münasibətləri oldu.

Xilafətin süqutu nəticəsində başlanan siyasi dirçəliş Azərbaycanda elmin inkişafına mühüm təkan verdi. Bu dövrdə Azərbaycan torpağında böyük alimlər, filosoflar, şairlər nəsli yetişmişdir. Azərbaycan mədəniyyətinin inkişafı bütün Şərq dünyasının mədəniyyətinə öz təsirini göstərmişdir.

Elmin hələ də xüsusi sahələrə ayrılmadığı bu dövrdə yalnız elmi biliklərin bütün məcmusuna yiyələnmiş şəxslərə "alim" adı verilirdi. Mövcud məxəzlərdə VII-X əsrləri əhatə edən dövrdə İslam ölkələrində ali təhsil verən məktəblərin adı çəkilmir. Bu qənaətə gəlmək olar ki, ərəblərin yürüşlərindən sonra Yaxın və Orta Şərq ölkələrində, eləcə də Azərbaycanda bir müddət mədrəsə (ali təhsil məktəbləri) açılmamışdır. Bu ölkələrdə xilafət dövründə uzun müddət fərdi təhsil sistemi əsas yer tutmuş, elm həvəskarları ayrı-ayrı alimlərin yanında ali təhsil almışlar [13.s.28]. Azərbaycan alimləri elmin müxtəlif sahələri olan təbabət, astronomiya, coğrafiya, tarix və fəlsəfə ilə məşğul olurdular. Orta əsr müəllifləri əsasən Bərdə, Şirvan, Salmas, Marağa, Təbriz və başqa şəhərlərdə cəmləşmiş alimlərin adlarını çəkirlər [1.s.129].

Həmin dövrdə İslam alimləri bir-birinə qarşı duran iki dəstəyə ayrıldılar: 1) Əshab-e hədis (bunlar öz tədqiqatlarında hədis və rəvayətlərə istinad edirdilər); 2) Əshab-e rəy (bunlar əql və məntiqi əsas

götürürdülər). Bu baxımdan islam maarifində elmlər iki əsas qrupda cəmləşdirilmişdi: 1. Ülum-e mənqul (dini elmlər); 2. Ülum-e məqul (dünyəvi və qismən də dini elmlər). Bu hadisə təhsilin məzmununa təsir göstərməyə bilməzdi. VIII əsrdən təhsil də dini çərçivədən müəyyən qədər kənara çıxmağa imkan taparaq, bir sıra dünyəvi fənləri əhatə etmişdir. IX əsrin ikinci yarısından etibarən bu vəziyyət Azərbaycan, İran və Orta Asiya xalqları içərisində daha qabarıq şəkildə gözə çarpmağa başladı. Xilafət də IX əsrin ortalarından etibarən dünyəvi elmlərin inkişafı üçün şərait yaratdı. Ortodoksal (rəsmi, mühafizəkar) İslamın təriqətçilərlə çəkişmələri, sünni və şiələrin geniş mübahisələri isə dini nəzəriyyələrin, müsəlman hüququnun (fiqhin), fəlsəfənin, məntiqin inkişafına səbəb oldu. İslamda ziddiyyətli fikirlərin artması çoxsaylı mədrəsələrin təsis olunmasını labüd və zəruri etdi. Mənbələrdən aydın olur ki, Xilafət ərazisində ilk mədrəsə X əsrin sonlarında Nişapurda (İranın şimal-şərqində) açılmış, sonralar isə İslam aləminin bütün böyük şəhərlərində yayılmışdır [4.s.103]. IX-X əsrlərdə kimya, təbabət, coğrafiya, riyaziyyat, nücum və fəlsəfə üzrə dünya şöhrəti qazanmış əsərlər yazılmışdır [13.s.84].

Orta əsr Azərbaycan filosofları və mütəfəkkirlərinin də İslam mədəniyyətinin, Şərq bədii-estetik və elmi-fəlsəfi fikrinin zənginləşməsində müstəsna rolu olmuşdur. VII-X əsrlərdə yaşamış filosoflardan İsmayıl Yasər oğlu, Musa Şəhəvat, Əbusəid Əhməd Bərdəi, Əbubəkr Əhməd Bərdici, Əbülhəsən Əli Harun oğlu Zəncani, Əbubəkr Məhəmməd Bərdəi və digərlərinin elmi fəaliyyətləri haqqında məlumatlar günümüzə qədər gəlib çatmışdır [5.s. 2]. Bunlardan Əbubəkr Əhməd Harun oğlu Bərdəi Bərdici (?-914) görkəmli hədis alimlərindəndir. O Kür çayı sahilində, Bərdə yaxınlığında yerləşən Bərdic şəhərində anadan olmuşdur. Əhməd Bərdicinin "Nadir adlar"("əl-Əsma əl-müfrədə") kitabının əlyazması nüsxələrindən biri Qüdsün Xalidiyyə, digəri isə Dəməşqin Zahiriyyə kitabxanalarında saxlanılmaqdadır. Azərbaycan mütəfəkkirinin bu əsəri müsəlman Şərqində VII-X əsrlərin tarixi hadisələrini və ictimai-siyasi fikrini öyrənmək baxımından əhəmiyyətlidir. Bu dövrlərdə yaşamış başqa bir hüquqşünas və ilahiyyatçı alim Əbusəid Əhməd Bərdəidir (?-929). O Bərdə şəhərində doğulub, boya-başa çatmış və ömrünün bir hissəsini vətəndən uzaqlarda keçirmişdir. Xətib Bağdadi onun haqqında

yazır: "O ziyarətçi kimi Bağdada gəlmiş, sonra orada yaşamışdır." Mənbələrdə Əhməd Bərdəinin hənəfiliyin və mötəzililiyin görkəmli nümayəndəsi kimi səciyyələndirilir. Məhəmməd Bərdəi (?-961) də dövrün tanınmış mütəfəkkirlərindəndir. O Bərdə şəhərində anadan olmuş və uzun müddət Bağdadda yaşamışdır. Mənbələrdə onun hüquqa dair yazdığı 16 əsərinin adı çəkilir. Bunlardan "Kitab əl-mürşid", "Kitab təzkirat əl-ğərib", "Kitab əl-imamə", "Ktab təhrim əl-muskir" və başqalarının adlarını çəkmək olar [11, s.6-9].Adları çəkilən müəlliflərin əsərlərinin hələlik əldə edilməməsi onların yaradıcılıqları barəsində hələlik danışmağa imkan verməsə də, qaynaqlarda yığılıb saxlanılmış yığcam təriflərə görə demək olar ki, artıq X əsrdə Azərbaycanda dilcilik və ədəbiyyat elmi yeni yüksəliş yoluna düşmüşdü. Bu illərdə yaşamış Müğləsi Marağayiyə və Bərəkəveyh Zəncaniyə məxsus olan və təzkirəçi Səalibinin "Yətimə ud-dəhr fi şuəra əhlu-l əsr" ("dövrün şairləri barəsində zamanın yeganəsi") müntəxabatında bizə gəlib çatmış bir sıra şeir nümunələri də bunu təsdiq edir. Səalibi Bərəkəveyh Zəncaninin şeirlərini yüksək qiymətləndirmişdir [6. s.207].

Azərbaycanda fəlsəfi fikrin inkişafı o zaman daha çox "Saflıq qardaşları" ("İxvan əs-Səfa") cəmiyyətinin fəaliyyəti ilə bağlı olmuşdur. Bu dini-fəlsəfi cəmiyyət X əsrin II yarısında Bəsrə şəhərində yaranmışdır [7. s.45] və gizli şəraitdə fəaliyyət göstərirdi. Orta Asiya, Azərbaycan, Suriya mütəfəkkirləri həmin cəmiyyətin fəal üzvlərindən olmuşlar. Cəmiyyət üzvləri təbii-elmi bilikləri yayır, dini fəlsəfələşdirməyə can atırdılar. Şəriətin fəlsəfə ilə nizamlanması əsasında insan kamilliyinin hasil olunması cəmiyyətin başlıca məqsədi olmuşdur. S.Rzaquluzadə "İxvanüs səfa" ("Saflıq qardaşları") cəmiyyətinin fəaliyyəti haqqında yazır ki, bu cəmiyyətin üzvləri elmin, maarifin təbliği ilə hakim irticanı, zorakılığı aradan qaldırmaq, sosial baxımdan ədalətli cəmiyyət qurmaq mümkün olduğunu iddia edirdilər [8 s.10]. Bu məqsədlə cəmiyyətin üzvləri "Rəsail-İxvan əs-Səfa və Xüllan əl-Vəfa" ("Saflıq qardaşlarının və vəfa münsiflərinin risalələri") adlı böyük ensiklopediya hazırlamışdılar. Dörd hissədən ibarət olan bu əsər 51 (mövcud nüsxələrdə 52) traktatdan (risalədən) ibarətdir. Əsərin məlum 5 müəllifindən biri Azərbaycan alimi Əbülhəsən Əli İbn Harun əz-Zəncanidir [4 s.108]. Risalələrdə həndəsə, nücum, məntiq, təbiiyyat, tibb, fəlsəfə və nəhayət, ilahiyyat elmlərinin

öyrənilməsi məsləhət görülür. Beləliklə, "İxvan üs-Səfa" cəmiyyəti tərəfindən təbliğ edilən tədris planında dünyəvi elmlər birinci sıraya çəkilmişdir ki, bu da X əsrdə əqli tərbiyə sahəsində mütərəqqi dairələr tərəfindən irəliyə doğru atılmış mühüm addım idi [13, s.85].

IX-X əsrlərdə Azərbaycanda Bərdə, Bakı, Gəncə, Şamaxı, Şabran, Beyləqan, Naxçıvan, Ərdəbil, Təbriz, Marağa və Urmiya kimi sənətkarlıq, ticarət və mədəniyyət mərkəzi olan mühüm şəhərlər var idi. Şəhərlərdə mədəniyyət xeyli inkişaf etmiş, mədrəsələr yaranmışdı. Mədrəsələrin getdikcə genişlənməsi kitabçılığın inkişafına da böyük təsir göstərir, mədrəsə kitabxanaları təşkil olunurdu. İslam dininin mərkəzi kimi məscidlərin mövqeyi möhkəmlənir, məscidlərdə toplanan dini kitabların sayı artırdı. Bərdədəki "Cümə" məscidi belə məscidlərdən idi. Burada xeyli əlyazma kitabları toplanmışdı. Ərəblərin istilasından sonra bir sıra alim və şairlər zorla Mədinə, Şam, Qahirə və başqa şəhərlərdə yaşayıb yaratmalı olurlar. Bu barədə Əl-Əsnəvi, İbn-əl-Fuvati, Yaqut Həməvi öz əsərlərində bir çox misallar göstərirlər. Yalnız Bağdadın "Nizamiyyə" mədrəsəsində (universitetində) çalışmış azərbaycanlı alimlərdən Fəxrəddin Əbülfədl İsmayıl ibn əl-Müsənna ət-Təbrizi, Əbülfədl Mahmud ibn Əhməd ibn Məhəmməd əl-Ərdəbili, Əminəddin Müzəffər ibn əbu Məhəmməd ibn İsmayıl ibn Əli ət-Təbrizi, Təcadəddin Əbülfədail Məhəmməd ibn əl-Hüseyn ibn Abdullah əl-Urməvi və başqalarını göstərmək olar. Bütün bunlar, intellektualların Azərbaycan ərazisindən kənarlardakı dini mərkəzlərə oxumağa və fəaliyyət göstərməyə getməsi ölkədə mədəni-maarifin inkişafına ciddi mənfi təsir göstərirdisə, xalqın ümumi inkişafını dayandıra bilmir, yalnız ləngidirdi. XI əsrə qədər bu ləngimə özünü ciddi şəkildə göstərməkdə idi. Onu da qeyd etmək lazımdır ki, İslam dini mərkəzləri olan Bağdad, Bəsrə, Mədinə, Qahirə və s. şəhərlərə köçürülən və ya şərait üzündən köçməyə məcbur olan azərbaycanlı alimlər xalqın bütün yaradıcı kütləsini təşkil etməmişdir. Orta əsrlərin görkəmli tədqiqatçısı Q.Kəndli Azərbaycanın erkən orta əsr kitabxanaları haqqında məlumat verərək yazır: "IX-X əsrlərdə Azərbaycanın qədim paytaxtlarından və mədəni ocaqlarından olan Gəncədə böyük dövlət kitabxanası var idi. Əmaninin "Ensab əl-Səmani" əsərindən məlum olur ki, Əbülfəzl Həddad ibn Asim həmin Darülməktəbin xaznələrindən (kitabxana müdiri) (kitab xəzinə hesab

edildiyindən müəllif kitabxana müdirini xəzinə müdiri adlandırır) imiş, Azərbaycanın qədim paytaxtları Gəncə, Ərdəbil və Təbriz şəhərləri Buxara və Səmərqənd kimi elm və maarif mərkəzlərindən idi" [8 s.15-16].

VII-X əsrlərdə Azərbaycanda ədəbiyyat, hüquqşünaslıq və başqa ictimai elmlərlə birlikdə təbiətşünaslıq, riyaziyyat, astronomiya və b. dəqiq elmlərin yayılması üçün əlverişli şərait vardı.

Təbiət elmləri IX əsrdən etibarən Azərbaycanda əhəmiyyətli dərəcədə inkişaf etmişdi. O dövrdə Azərbaycanda olmuş səyyahlar və coğrafiyaşünaslar burada bacarıqlı həkimlərin yaşadıqlarını xəbər verirlər [6.s.219]. Şamaxının "Məlhəm" mədrəsəsi məşhur elm və tədris mərkəzlərindən biri idi. Bu mədrəsəyə görkəmli həkim və alim Kafiyəddin Ömər İbn Osman rəhbərlik edirdi.

Ərəb və fars dilini mükəmməl bilən Azərbaycan həkimləri, Bağdad, Dəməşq, Qahirə kimi Xilafətin müxtəlif şəhərlərinə səfər edir, orada təhsil alır və işləyirdilər. Əcnəbi müəlliflərin kitabları da Azərbaycana yol tapırdı. Bu dövrdə Azərbaycanda Əbu Osman Müvəffəq əl-Hərəvinin farmakoloji ensiklopediyası yayılırdı. Əbu Osman X əsrdə İranın Herat vilayətində yaşayıb yaratsa da, onun kitabları bütün Müsəlman Şərqində, o cümlədən Azərbaycanda, məşhur idi. Dərman bitkiləri haqqında məlumat toplamaq üçün, Əbu Osman bütün dünyanı gəzmiş və bir çox xalqların, o cümlədən azərbaycanlıların tibbi ənənələri ilə tanış olmuşdu.

Dahi Əbu Əli İbn Sina (980-1037) da dəfələrə Azərbaycanda olmuş və buradan tibbi məlumatlar toplamışdı. O, "Qanun fit-Tibb" ("Tibb qanunları") əsərində Azərbaycanın Səburxast qəsəbəsinə səfərindən bəhs edir. İbn Sina uzun müddət Azərbaycanın sərhədlərində yerləşən Həmədan şəhərində yaşamışdı və "Tibb qanunları" əsərinin böyük hissəsini orada yazmışdı [9, s.4].

IX əsrin əvvəllərindən etibarən müsəlman şərqində mövcud elmi ədəbiyyatın xarici dillərdən ərəbcəyə tərcümə olunması elmlərin inkişafını xeyli sürətləndirmişdi. Hələ Harun ər-Rəşid dövründə Bağdadda təsis edilmiş, elm və mədəniyyətin inkişafına daha böyük imkanlar yaratdığı üçün xəlifə əl-Məmunun adı ilə bağlı "Dərul-hikmə" və ya "Xizanət əl-hikmə" ("Hikmət evi" və ya "Hikmət xəzinəsi") adlandırılan elmi mərkəz müxtəlif (xüsusilə yunan və siryani) dillərdə yazılmış əsərlərin ərəb dilinə tərcümə edilməsi sahəsində mühüm işlər gördü. Xilafət ölkələrindən olan

və əsərlərini ərəb dilində yazan müsəlman və qeyri-müsəlmanlar Xilafətin mədəni və elmi həyatına qoşuldular [2. s.218].

VII-XII yüzilliklərdə Azərbaycan ədəbi mühitinin təkamülü prosesi nəzərdən keçirilərkən "Dədə Qorqud" dastanının yaranması, təşəkkülü və inkişafı məsələlərinə ümumi baxış zəruridir. Əhalisinin əksəriyyəti türklərdən ibarət olan Azərbaycanda ictimai-siyasi və əxlaqi baxışlarla zəngin olan folklor örnəkləri Xilafət dövründə geniş yayılmışdı. "Dədə Qorqud" dastanı bu dövrün ən parlaq folklor nümunəsi idi. Bu dastan VI-VIII əsrlərdə şifahi şəkildə formalaşmağa başlamış, VIII-X əsrlərdə isə tam təşəkkül tapmışdır. "Dədə Qorqud"da oğuzların islamaqədərki maddi-mənəvi həyatını əks etdirən ünsürlər, adət-ənənələr, əxlaq normaları öz əksini tapmışdır. "Kitabi-Dədə Qorqud" qəhrəmalıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə birləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş, böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqalarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir. Eposun əsas mahiyyətini qəhrəmanlıq ideologiyası təşkil edir [10.s.24]. "Kitabi-Dədə Qorqud" Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından zəngin mənbədir. Məşhur qəhrəmanlıq dastanımızın hələ o zaman-erkən orta əsrlərdə konkret bir müəllif tərəfindən yazıya alınması Azərbaycan türk dilinin qədim yazılı ədəbiyyat ənənələrinə malik olduğunu sübut edir.

Xalq ədəbiyyatından fərqli olaraq, yazılı ədəbi nümunələr, əsasən ayrı-ayrı feodal hökmdarlarının saraylarında, həmçinin iri şəhərlərdə formalaşan ədəbi mühitdə meydana gəlirdi. Odur ki, bu cür əsərlər xalq həyatını şifahi ədəbiyyat nümunələri qədər dolğun əks etdirmirdi. Digər tərəfdən, yazılı ədəbiyyat nümunələri, bir qayda olaraq, ərəb və fars dillərində yaranırdı. Azərbaycan xilafət imperiyasının tərkibindən çıxdıqdan sonra ərəb dilində yaradılan yazılı ədəbiyyat tədricən zəifləyir, fars dilində yazılan ədəbi nümunələr isə artmağa başlayırdı. Bu, bir tərəfdən ərəb və fars dillərinə üstünlük verən azərbaycan hökmdarlarının sifarişləri ilə, həmçinin feodal saraylarında hökmranlıq edən ədəbi mühitlə bağlı idisə, digər tərəfdən, görkəmli Azərbaycan ədiblərinin ərəb və fars dillərinin dövlət dili olduğu Şərq ölkələrinin geniş ədəbi mühiti ilə sıx əlaqələr saxlamaq mənafeyindən irəli gəlirdi [3 s.67]. VII-VIII əsrlərdə

ərəbcə yazmış Azərbaycan əsilli şairlərdən Əbu Məhəmməd ibn Bəşşar, Musa Şəhəvat və İsmayıl ibn Yəsarın şeirləri mübariz tənqidi ruhu, orijinal sənətkarlıq xüsusiyyətləri ilə o dövr ərəb poeziyasından müəyyən dərəcədə seçilir.

Ərəb dilində bədii əsərlər yazmaq ənənəsi Azərbaycan şairləri arasında XI-XII əsrlərə qədər davam etmiş, Xətib Təbrizi, Məsud ibn Namdar kimi sənətkarlar bu dildə Azərbaycan ədəbiyyatını zənginləşdirən bədii örnəklər ərsəyə gətirmişlər [12 s.21].

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Azərbaycan tarixi.VII cilddə, II cild, Bakı, 1998, səh.283-424.
2. Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə, II c, Bakı: "Elm" 2007, 632 s
3. Ələkbərli Fərid. Şərqin min-bir sirri. Bakı, 2006, 27 səh
4. Fəttayev Fəttah, İslam intibahı dövründə Azərbaycan mədəniyyəti, www.bsuhl.edu.az
5. Каджар Чингиз. Выдающиеся сыны древнего и средневекового Азербайджана. Баку: изд."Азербайджан", 1995. - 392 с
6. Kazımi Pərviz, Səfəvilər dövründə Azərbaycanda kitabxana işi, Bakı universiteti nəşriyatı, Bakı 2008, s .61
7. Qasımov Xeyirbəy**,** Orta əsrlərdə Azərbaycan mədəniyyəti.Bakı, 2008, s448
8. Mahmud İsmyıl, Azərbaycan tarixi, Bakı 1993, 271s
9. Mahmudov Yaqub, Azərbaycan tarixi, Bakı 1996, 84 s
10. Mahmudov Y.M., Azərbaycan qısa dövlətçilik tarixi, Bakı, Təhsil 2005, 140 səh
11. Məmmədov Zakir, Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri, Bakı, 1986, 63 səh
12. Səməngül Qafarova, Ellada Gərayzadə. Azərbaycan ədəbiyyatının tədrisi tarixi. *Dərs vəsaiti.* Bakı: Mütərcim, 2010. s.136
13. Tiflisi Josef, Vaqiati Mir Veys və Şah Hüseyn, trc. Şahin Fazil, Bakı, Azərnəşr, 1992, 52 s

K. Sadygova

DEVELOPMENT OF THE SCIENCE IN AZERBAIJAN IN THE EARLY MIDDLE AGES

SUMMARY

The Middle Ages was the great historical stage distinguished by its originality, richness and inconsistency in the prosses of cultural development of Azeri people. Islamization of Azerbaijan, its inclusion to the cultural and historical islamic system and development within a single state (Arabic khaliphate) for a long time helped the formation of ethnic and cultural integrity of the people , enriched Islamic cultural treasure with specific unique values. The article presents the process of evolution of science in Azerbaijan from the first decade of the seventh centure, from the period of islamization of the Near and Middle East people, including Azerbaijan. It also gives brief information of the development of various branches of science in the early Middle Ages and the life and creativity of mediaeval Azerbaijani scientists and thinkers based on Azerbaijani, Turkish, Arabic and Russian sources, the sientific benefits on the different branches of the science had been brought by them is analyzed in the article.

К. Садыгова

РАЗВИТИЕ НАУКИ В АЗЕРБАЙДЖАНЕ В РАННЕМ СРЕДНЕВЕКОВЬЕ

РЕЗЮМЕ

Средние века огромный исторический период, отличавшийся насыщенностью, контрастностью и уникальностью в процессе эволюции Азербайджанского народа и его культуры. Исламизация и включение Азербайджана в политико-культурную систему ислама, развитие в пределах единого государства (Арабский халифат) в течение долгого времени способствовали формированию этнической и культурной целостности народа. В результате чего азербайджанский народ обогатил сокровищницу исламской культуры своеобразными, уникальными ценностями. В статье рассматривается процесс развития науки в Азербайджане в период исламизации Ближнего и Среднего Востока (в том числе и Азербайджана) в первые десятилетия VII века. Также дается краткое изложение о развитии различных отраслей науки в раннем средневековье, анализируются жизнь и творчество средневековых азербайджанских ученых и мыслителей на основе азербайджанских, турецких и арабских источников, подчеркивается их вклад в различные области науки.

ƏBU MƏNSUR ƏL-HÜSEYN İBN MƏHƏMMƏD İBN İSMAYIL ƏS-SƏ`ƏLİBİNİN HƏYATI VƏ YARADICILIĞI (961-1038)

Aytac ŞİRƏLİYEVA

Açar sözlər: Əs-Sə`əlibi, Ğurar axbar muluk al-furs va siyarihim, mənbə, Sasanilərin tarixi, Azərbaycan tarixi, Türklər, Zərdüşt, Bəhram Gur
Keywords: As-Sa`alibi, Gurar akhbar muluk al-furs wa siyarihim, source, history of Sassanids, history of Azerbaijan, Turks, Zoroaster, Bahram Gur
Ключевые слова: Ас-Са`алиби, Отборные сообщения о царях персов и их жизнеописаниях, источник, история Сасанидов, история Азербайджана, Турки, Зороастр, Бахрам Гур

Azərbaycanın erkən orta əsrlər tarixinin ərəbdilli mənbələr əsasında öyrənilməsi böyük elmi və təcrübi əhəmiyyət kəsb edir. Azərbaycan torpaqlarının Sasanilər dövlətinin (226-651) tərkibinə daxil olması, VII əsrin ortalarında bu dövlətin ərazisinin ərəblər tərəfindən işğal olunması məsələləri ərəb tarixşünaslığında aparıcı yerlərdən birini tutur. Ərəb tarixçiləri, filoloqları əsasən Xilafətin tarixi ilə bağlı olan əsərlər yazır, başlıca diqqəti Xilafətin başqa dövlətlərlə münasibətlərinə yönəldirdilər. Bu əsərlərdə Azərbaycanla bağlı olan məlumatlar xüsusi yer tutur.

Bu baxımdan bizim tədqiqat obyektimiz olan Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd ibn İsmayıl əs-Sə`əlibinin 1021-ci ildə tərtib edilmiş غرر اخبار ملوك الفرس و سيرهم(Ğurar əxbər muluk əl-furs va siyarihim) (“Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar”) əsəri önəmlilərdən biridir.

Əs-Sə`əlibi haqqında məlumata aşağıdakı erkən mənbələrdə rast gəlinir: Əbu İshaq əl-Kayravaninin (v.e. 1061) "Zəhr əl-adab", Əli bin əl-Həsəni əl-Bəhərzinin (v.e. 1073) "Dumyət əl-kayer", İbn Əssakın (v.e. 1147) "Əz-Zahira fi məhəeyin əxl əd-daazira", İbn Xallikanın (1211-1282) "Eafayat əl-a`yan", Salah əs-Safadinin (1296-1362) "əl-Oafi bi-l-vafayat" və s. [1; 16].

Beləliklə, Əbu Mənsur Əbd əl-Malik ibn Məhəmməd ibn İsmayıl əs-Sə`əlibi Naysaburi 350/961-ci ildə Nişapurda, tülkü dərisinin alqı-

---

Aytac Şirəliyeva- AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı

satqısı ilə məşğul olan tacirin ailəsində anadan olmuşdur. Əsərlərindəki qeydlərdən məlum olur ki, o, ilk təhsilini də burada, Nişapurda almış, ərəb dilini və ərəb ədəbiyyatını dərindən öyrənmişdi. Yaqut əl-Həməvinin (1179-1229) qeydlərinə görə, Bustadan olan şair, Əbu Süleyman əl-Xəttab onun ilk müəllimlərindən olmuşdur. Məhəmməd Kurda Əlinin (1876-1953) sözlərinə görə, əs-Sə`əlibi məhşur şair və yazıçı Əbu Bəkr əl-Xarəzmidən (v.e. 993) dərs almışdı [2; 20]. Təhsilini bitirdikdən sonra o da atası kimi, tülkü dərisinin ticarəti ilə məşğul olur, əs-Sə`əlibi (tülküyə bənzər) ləqəbi də burdan yaranmışdı. İbn Xallikan qeyd edir ki, əs-Sə`əlibi tülkü dərisindən kürklər tikirdi. 382/992-993-ci ildə o Buxaraya gəlir, burda o, bir neçə ay qalır və Buxaranın məhşur alimləri və şairləri ilə tanış olur [3; 10-11]. Lakin səyahət etməyi və insanlarla tanış olmağı çox sevdiyindən o, bir yerdə çox qalmırdı. O, böyük müsəlman dünyasının bir çox ölkələrində olmuş, Məvaraənnəhrin, Xorasanın, Azəbaycanın, İraqın, İranın, İspaniyanın, Xarəzmin, Suriyanın, Ərəbistan yarımadasının və s. şəhərlərini gəzmişdi. O, dövrünün məhşur alim və ədibləri ilə bərabər bir çox hökmdarları ilə də tanış idi və bəziləri ilə dostluq edirdi.

Tarixçilər, filoloqlar və həmçinin, əs-Sə`əlibinin yaradıcılığı göstərir ki, o, məşhur alim Əbu l-Hüseyn əl-Farisi, Əbu Nəsr əl-Utbi, Əbu Nəsr əl-Cövhəri ilə dost idi və onların ədəbi mülahizələrində iştirak edirdi [2; 20-21].

Mənbələrdən və əs-Sə`əlibinin əsərlərindən məlum olur ki, bütün yaradıcı insanlar kimi, onun da Nişapurda öz hamisi vardı - əmir və şair Əbu Fadl əl-Mikali (v.e.1044). O, əs-Sə`əlibini təşkil etdiyi yığıncaqlara dəvət edir, qiymətli hədiyyələr verirdi. Əs-Sə`əlibi "Sixr əl-balaqa", "Fikh əl-luqa", "Simar əl-qulub" və "Xasais əl-bulqan" əsərlərini ona həsr edib.

Əs-Sə`əlibinin Buxaraya gəldiyi tarix məlum deyil, lakin o, "Yətimət əd- dəhr" əsərində qeyd edir ki, Buxarada məşhur şair Əbu Talib əl-Mamuni ilə tanış olub. 933-cü ildə əs-Sə`əlibi Buxaranı tərk edib, Nişapura qayıdır. Burada ona, ərəb ədəbiyyatında "maqam" janrının yaradıcısı Əbu l-Fədl əz-Zaman əl-Xaşdani ilə tanış olmaq nəsib olur. Əs-Sə`əlibi onu özünün ikinci ustadı hesab edirdi. 1010-cu ildə Nişapurda quruluq və aclıq baş qaldırır, buna görə əs-Sə`əlibi buranı tərk edib İsfərainə getmək məcburiyyətində qalır. Əs-Sə`əlibi "Tatimmat əl-

Matima" əsərində qeyd edir ki, taleh onu 1012-ci ilə Cukurcana gətirib çıxarır. O, burada ziyarid əmiri Kabus bin Vuşmagirin (978-1012) və Cukurcanın valisi Əbu Sa`d Məhəmməd bin Mansurun qonaqpərvərliyindən və əliaçıqlığından istifadə edir.

Əs-Sə`əlibi özünün "əl-Mubxid" və "ət-Təmsil va l-muxadara" kitablarını Kabus bin Vuşmagirə həsr edib. Əbu l-Falz Bayhakinin (995—1078) məlumatlarına görə, Əs-Sə`əlibi Xarəzmşah Əbu l-Abbas bin Mamunun (1009-1017) dəvəti ilə Cukurcaniyaya gəlir. Burada o, bir neçə əsərini yazır və onları Xorezmşaha həsr edir. Bunların içində "Əl-Lataif va z-zaraif", "Nasr an-nazm va hall al-`ikd", "Lubab əl-ədəb", "Əl-Ənvar əl-bəhiyyə" və "Ədəb əl-muluk əl-xorazdax". [4; 589]. K.E.Bosvort Əbu l-Fazl Bayhakinin sözlərinə istinadən yazır ki, Məmunların himayəliyindən filosof İbn Sina və filoloq əs-Sə`əlibi kimi məhşur alimlər yararlanırdı [3; 11].

Əs-Sə`əlibi 1016-cı ildə Qapnaya gəlir. Burada o, Mahmud Qəznəvinin qardaşı, sərkərdə Nəsr bin Nəsir əd-Din Səbuktəkinin (v.e.1021) himayəçiliyini qəbul edir və ona bir neçə əsər həsr edir, bunların içində "Əl-Mutaşabih" və s. Əs-Sə`əlibi "Ğurar əxbər muluk əl-furs va siyarihim" əsərini öz hamisi, ordunun baş qərargah rəisi, Nəsir əd-Dinin oğlu Əbu l- Müzəffər Nasirin əmri ilə tərtib etdiyini elan edir [5; 27]. Əsər Şərqdə çoxda yayılmamışdır, hal-hazırda əsərin tam olmayan üç əlyazması məlumdur; bunlardan biri İstanbulda, İbrahim-Paşa kitabxanasında, digər ikisi isə Paris Milli kitabxanasındadır. İstanbulda, İbrahim-Paşa kitabxanasında olan əlyazmanı bir vaxtlar İbn Haldunun böyük ümumdünya tarixi nümunəsinin bir hissəsi hesab edirdilər. Bu faktı 1828-ci ildə məşhur səyyah F.E.Şuls da təsdiq edir, beləki, o İbn Haldunun böyük tarixi əsəri haqqında qeydlərində bu haqda məlumat verir: "...İbrahim Paşa kitabxanasının kataloqunda İbn Haldunun tarixi əsəri kimi götürülən səkkiz cildli əsərin yalnız altısı bu müəllifə məxsusdur. .....Onlar səhv olaraq Hüseyn ibn Məhəmmədin dünya tarixinə aid əsərinin ilk iki cildini İbn Xaldunun tarixi əsərinin başlanğıcı kimi götürüblər" [6; 31-33]. Digər iki əlyazmalardan biri 1836-cı ildə Paris kral kitabxanası üçün İbrahim Paşa kitabxanasının əlyazmalarından köçürülüb. O birisi isə 1891-ci ildə Mosulda əldə olunmuşdur və bu əlyazmalar Paris milli kitabxanasının ərəb fondunda saxlanılır [6; 28-29].

Əs-Sə`əlibi 1021-ci ildə, Nəsr Səbuktəkinin ölümündən sonra Herata gəlir, burada o, hakim Əbu Əhməd Mənsur bin Məhəmməd əl-Xərəvi al-Addi (v.e. 1048) ilə dostlaşır və "Əl-Laa`if fi t-tib" və "Əl-İ`caz va l-icaz" əsərlərini Əbu Əhməd Mənsura həsr edir.

Əs-Sə`əlibi 429/1038-ci ildə (bəzi mənbələrə görə 430/1039-cu ildə) Nişapurda 78 yaşında vəfat edib.

Müəllif bizim tədqiqat obyektimiz olan "Ğurar əxbər muluk əl-furs va siyarihim" əsərinin müqəddiməsində qeyd edir ki, əsər Kayümərddən başlayaraq Yezigerdlərədək İran şahlarının tarixindən məlumat verəcək; sonra geri qayıdaraq İsrailin peyğəmbər-şahları haqqında faktları və maraqlı tarixləri, fironlardan, İsrailin digər şahlarından, Yəmən, Suriya ərəbləri, İran şahlarından, bəzi Yunan krallarından, Hind, Türk, Çin hökmdarlarından məlumat verəcək, onların inanc və adətlərini də əhatə edəcək [5; 38-39, 41, 43-45, 53-54]. Bundan başqa o, Məhəmmədin (peygəmbər nəzərdə tutulur) həyatından, xəlifələrdən, Umeyya sarayının şəhzadələrindən, Abbasi xəlifələri və onların vəzifələrindən, Əbu Müslimdən, Barmakilərdən, Tahirilərdən, Sicistan şəhzadələrindən, Samanilərdən, Həmdanilərdən, Beyhilərdən və s. bəhs edəcək. O, mərhum, şöhrətli əmir Nasir əd-Dinin və əd-Dünya Əbu Mansur Səbuktəkinin şahlıq tarixindən bəhs edərək, sonra Şərqin sultanı, xristian başçılarının dostu sultandan, Əbu l-Qasım Mahmud ibn Səbuktəkindən bəhs edəcək; onun ali məqamlarından, nəcib keyfiyyətlərindən, onun çiçəklənən ləyaqətindən, onun tədbirlərindən, qələbələrindən, zabit və vəzirlərindən söz açacaq. Nəhayət, şöhrətli şahzadənin şəxsiyyətindən, onun mərdlik nişanələrindən, döyüşçü qabiliyyətindən və istedadından bəhs edəcəkdir. Müqəddimə həmin şahzadənin şəninə yazılan, onun xoşbəxtliyinə və şərəfinə söylənən arzularla tamamlanır [5; 36-39, 40-43,45].

Yuxarıda qeyd etdiyimiz kimi, Şahzadə Əbu l-Muzəffər Nəsr ibn Nəsir əd-Din Əbu Mənsur sultan Mahmud Qəznəvinin qadaşı idi. Əl-Yamininin yazılarından onun həyatında baş vermiş əsas hadisələrlə tanış ola bilərik, onun Mahmuda Qəznə taxtına çıxmaqda etdiyi köməkdən; Xorasan ordusunun rəhbəri kimi çiyninə götürdüyü vəzifədən, Nişapur valiliyindən (idarəçiliyinin birinci yarısından başlayaraq yeni imperiyanın düşmənləri ilə mübarizə aparır), dəqiqliklə desək, Samani şahzadəsi

Montaşrə (İsmayıl ibn Nuh) qarşı aparılan döyüşlər haqqında məlumat ala bilərik. Onun mərdlik və ləyaqətləri ölümündən az sonra yazılmış mədhiyyədə öz əksini tapır və nəhayət əl-Yamini qeyd edir ki, Qəznə sarayında yaşamış Firdovsi, Fərrux, Ənsəri, Dəqiqi kimi məşhur şairlərin şerləri də onu məşhurlaşdırmışdı [6; 10-12].

Əs-Sə`əlibi Nəsr Mahmudun Hindistana etdiyi yürüşlərdə dəfələrlə iştirak edib. Hicri ilə 396-cı ildə Mahmudun ordusu, daha dəqiq desək, Xorasan dəstələri Hindistanda olarkən İlek xan onları məğlub edir və İlek xanın sərkərdələri müdafiəsiz Xorasanı ələ keçirir. 404-cü ildə Nardin yürüşündə Nasr ordunun sağ hissəsinə rəhbərlik edir. Mirxond əl-Otbiyə istinadən xatırladır ki, Nasr bir neçə il Nişapurda qalandan sonra, Mahmud onu saraya çağırır və o vaxtdan qardaşının yanında qalır, istər Qəznədə olsun, istərsə də yürüşlərdə onu müşayiət edir. Hicri təqvimi ilə 412-ci ildə vəfat edəndə, o hələ gənc idi.

Müqəddimədən belə nəticəyə gəlmək olar ki, böyük müharibələrdən və parlaq qələbələrdən sonra, şahzadə Nasr, Mahmudun qardaşı kimi təqdim olunur. Mətnin içərisində, Hindistana həsr olunmuş fəsildə, müəllif qeyd edir ki, o, Mahmudun tarixini nağıl edərkən bu ölkə haqqında başqa məlumatlar da verəcək. Qeyd olunmuş hissələrdən belə nəticəyə gəlmək olar ki, əlimizdə olan əsər, Mahmudun hakimiyyətindən xeyli əvvəl, hicri ilə IV əsrin sonlarında və ya V əsrin əvvəllərində, 412-ci ilə qədər, təxminən şahzadə Nasrin öldüyü vaxtlarda qələmə alınmışdır. Bu tarixi dəqiqləşdirməyə ehtiyac var [6; 13-15].

İstanbul əlyazmasının oxuduğumuz birinci fəsli Müqəddimədən (İbn Xaldunun) götürülərək yüngül dəyişikliklə əsərə əlavə edilmişdir. O, əsərin obyektini çox dəqiqliklə qeyd edir, dünya xronikası çərçivəsində əfsanəvi və mifoloji şəxsiyyətlərlə əlaqədar əsas ənənələri özündə əks etdirir, unudulmaz hadisələri nağıl edir.

Əl- Baxarzinin vasitəsi ilə İbn Haldundan bilirik ki, Əs-Sə`əlibi öz qeyri adi ad-sanı ilə müasirlərindən fərqlənirdi. O, böyük antalogiyasının dəfələrlə təkrar olunan hissələrini, məlumat qaynaqlarını xüsusi qayğı ilə hər yerdə qeyd edərək, təsadüfi görüşləri, və ya istifadə etdiyi əlaqələri, yalnız şerlərini nümunə göstərdiyi çoxsaylı şairləri, böyük alimlərli, yüksək məmurları, vəzirləri və həmçinin öz dövrünün hökümdarlarını tanıtdırır, onlar haqqında məlumat verirdi. O, görkəmli şəxsiyyətlərin

ağızlarından çıxan qiymətli sözlərdən sitatlar gətirir, öz əsərlərini onlara ithaf edirdi. Özünün əksər görüşlərindəki söhbətlərdə o, Mahmudun qardaşını xatırlayır. Onun bu şahzadənin nəslindən olduğunu təsdiq edir. Aydın hiss olunur ki, Əmir Əbul Müzəffər Nasr ona özü qeyd etdiyi kimi, "Ğurar əxbər əl-muluk" adlı əsər üzərində işin başlanmasını əmr etmişdi [6; 17,19-20].

Əs-Sə`əlibinin asan memuar üslubunda yazmağına baxmayaraq, o, təkrar etməyi sevirdi. Öz yazılarının çoxunda eyni dil üslubunu nümayiş etdirir, eyni metaforadan, eyni təsəvvürlərdən, Qurandan götürülmüş eyni ifadələrdən, eyni hadisələrdən istifadə edir, bəzi ritorik ifadələr, oxşatmalar digər mənbələrdən götürülsə belə. Bu janrın çox saylı hissələri "Ğurar" və ya "Yatimat əd-dəhr" və ya "Mubhic", və ya "Lataif al-Ma`arif", "Tamsil va l-Muhadara", "Nəsc ən-Nazm", "Xass əl-xass" və xüsusilə "Sihr əl-bəlağa" da nəzərə çarpır, belə təsadüf ola bilməz.

Əsər böyük sayda Makedonyalı İskəndərə, Sasanilər sülaləsinin hökmdarlarlına aid edilən kəlamlar və ifadələrlə yekunlaşır. Bu şahların nitqlərindən götürülmüş hissə-hissə kəlamlar və ifadələr qədim İran saraylarının xronikasında da saxlanılırdı, bu barədə bəzi saray məcmüələrində və müxtəlif ərəb yazıçıları tərəfindən də məlumat verilir. "Ğurar"da oxunanlar, oxşar terminlərlə Əs-Sə`əlibinin digər əsərlərində də: Tamsil əl-Mohadara, Lataif əs-Sahaba, Ahasin əl-Mahasin, Kaas əl-Kaas, Bard əl-Akbad, İcaz və l-İdcazda da nümunələr kimi verilir. Şəxsiyyətlərin adları, kəlamların müəllifləri hərdən fərqlənirlər; "Ğurar" da bəzi aforizmlər əfsanəvi Bəhmən şahın adı ilə, İcaz əsəri isə Bəhmənin atası İsfəndiyazın adı ilə bağlanır, Ərdəşirin dili ilə söylənilir; digər birisi, "Ğurar"da qeyd olunduğuna görə Ənuşiravana aiddir, lakin bəzi kəlamlar Məhəmməddən götürülüb. Bu variantlardan berə görünür ki, müəllif sadəcə olaraq diqqətsizlik edir, bir neçə əsərdən olan məlumatlar və ya kəlamlar iki müxtəlif fəsillərdə verilir [6; 15,18-19].

Əldə etdiyi tarixi nəticələri sübut etmək üçün müəllif tərəfindən yazılmış əsərlər iki qrupa bölünür: onun əsasən öyrəndiyi, izlədiyi dünya xronikası, burada yalandan söz belə gedə bilməz; və heç bir müstəqil tədqiqat aparılmadan, digər əsərlərdən istifadə edilərək yazılanlar. O, "Ğurar əxbər muluk əl-furs va siyarihim" əsərinin müxtəlif hissələrində Həmzə İsfahanlının, İbn Xordadbəhin, Təbərinin xronikalarından və digər

müəlliflərin əsərlərindən sitatlar gətirir [7; 63,67-68, 330, 468,471], [6; 9-13, 34, 42].

Əs-Sə`əlibinin İbn Xordadbəhin xronikasından götürdüyü məlumatlar Zərdüşt [5; 257-262] haqqında əfsanəvi tarixə, Bəhmənin və ya Ərdəşirin [5; 378] fəaliyyətinə addir. Bəhram Gur [5; 556 başlayaraq] haqqında ərəb və fars şerləri və Məzdəkin ölümü haqqında geniş məlumatlar da [5; 596-603] əsərdə istifadə olunub. Qeyd etməliyik ki, bu cür faktlar ət-Təbəridə də mövcuddur.

Maninin nəzəriyəsindən danışarkən müəllif Əl-Məqdisinin "Bədəvilər və tarix kitabı"ndan sitat gətirir. Hindlilərin adətlərindən və xristianlardan bəhs edən birinci fəslin əvvəlində o, əl-Məqdisinin bütöv adını göstərməklə, həmin əsərdən söz açır [5; 501].

H. Zotenberg "Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi" əsərinin müqəddiməsində əs-Sə`əlibinin "Ğurar əxbər muluk əl-furs va siyarihim" əsərini, Firdovsinin "Şahnamə"si ilə müqayisə edir. Bu müqayisədən belə nəticə ortaya çıxır ki, əs-Sə`əlibinin əsərinin bəzi hissələri Şahnamə ilə eyni mənbədən qaynaqlanır. Müxtəlif müəlliflərdən birbaşa götürülmüş və onların adından sitat gətirilən hissələr başqa bir sənəddən də götürülmüşdür. Halbuki, bu bənzərliklər və bu fərqlənmələr təbii olaraq onunla izah edilir ki, Firdovsi və Əs-Sə`əlibi eyni mənbədən qaynaqlanan ayrı-ayrı hekayələrlə tanış olmuşlar.

Əs-Sə`əlibinin "Ğurar əxbər muluk əl-furs va siyarihim" əsərinə maraq göstərməyimizin əsas səbəbi, burada Azərbaycan haqqında məlumatların olmasıdır. Beləki, əsərdə Sasanilər dövrünün ilk mərhələlərində fars hökümdarlarının fəaliyyəti haqqında, o dövrdə siyasi tarixin əsas mərhələləri, daxili problemlərin həllində türklərin köməyindən istifadə, erkən türklərin və xəzərlərin tarixi haqqında məlumatlar var [5; 119-121,124-126]. Əsərdə həmçinin, Sasanilər dövrünün şərhi, zərdüştlüyün meydana gəlməsi, Zərdüşt haqqında məlumatlar, onun Muğanda anadan olması haqqında və onun təliminin yayilmasi haqqında [5; 256-260, 262], maniçilik və Məzdək hərəkatı haqqında, bu hərəkatların Azərbaycan ərazilərinə də şamil olunması haqqında [5; 275-278, 281, 283], Bəhram Gurun Azərbaycan ərazisində türk xaqanı ilə müharibələri haqqında [5; 319-325, 328, 331-335], ticarət

yollarının bu ərazilərdən keçməsi haqqında, Xosrov Ənuşiravanın Azərbaycan ərazisindəki inzibati fəaliyyəti haqqında, şəhərlərdə müdafiə səddlərinin tikilməsi haqqında (Dərbənd, Çor), Azərbaycan ərazisində yeni şəhərlərin salınması və burada baş verən Bəhram Çübin üsyanı haqqında [5; 672-679, 681, 683-684], Sasanilərin son dövrləri haqqında, həmçinin, VII əsrin 30-cu illərində (xəlifə Ömər ibn əl-Xəttabın hakimiyyəti dövründə) Azərbaycan ərazisində ərəb işğalçıları ilə mübarizə aparan qoşunlar haqqında, onların yerli komandanların rəhbərliyi altındakı (Rüstəm əl-Azəri) müqavimət hərəkatı haqqında məlumatlar var [5; 723-728, 733, 735].

Bizim tədqiqat obyektimiz olan "Ğurar axbar muluk al-furs va siyarihim" əsərində tarixi faktlarla yanaşı maraqlı rəvayətlər də yer alır, bu da müəllifin ədəbiyyatçı olmağından irəli gəlir. Hesab edirik ki, əsər Azərbaycanın erkən orta əsrlər tarixinin mənbəyi kimi böyük əhəmiyyət kəsb edir və onun araşdırılması elmi maraqdan irəli gəlir.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Хабибуллаев А.Т. Антология «Ал-и'джаз ва-л-иджаз» ас-Са`алиби как литературный памятник. АНРУ Институт рукописей, Ташкент, 1994.
2. Усмонов Ф.И. Абумансур ас-Са'алиби и его «Татиммат ал-йатима» как источник по арабоязычной персидско-таджикской поэзии X века. Душанбе, 2011.
3. Абдуллаев И. Поэзия на арабском языке в Средней Азии и Хорасане X - начала XI вв.,Ташкент, 1984, 294с
4. Байхаки Абу-л-Фазл. История Масъуда (1030-1041). Перевод с персидского, введение, комментарий и приложение А.К. Арендса. Изд-во: Наука, Москва, 1989, 1003 с.
5. سيرهم . دمشق . ١٠٢١ ابو منصور عبد الملك بن محمد بن اسماعيل الثعالبى . غرر اخبار ملوك الفرس و
6. Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris, 1900, p. 816.
7. Крачковский И.Ю. Избранные сочинения, Т-II, М.-Л., Изд-во Академии наук ССР, 1955-60, с.702

A. Shiraliyeva

THE LIFE AND CREATIVITY OF ABU MANSUR AL-HUSAYN IBN MUHAMMAD IBN ISMAIL AS-SA'ALIBI (961-1038)

SUMMARY

Arabic scholar Abu Mansur al-Husayn ibn Muhammad ibn Ismail as-Sa'alibi (961-1038) was born in Nishapur in the family of a merchant fox skins. Here he got his early education, deeply learned Arabic and Arabic literature. As-Sa'alibi visited many countries and cities of the Arabian Peninsula, Spain, Iran, Azerbaijan, Khorasan, Mesopotamia, Khorezm, etc. He is the author made up of about 1021 four-volume work "Gurar akhbar muluk al-furs wa

siyarihim"(Selected messages the kings of the Persians and their biographies).
In this work there is information about Azerbaijan during the reign of Sassanid, of Zoroaster and the spread of his teachings, about the wars of Bahram Gur with the Turks Hahagans in Azerbaijan, on the construction of cities and the revolt of Bahram Chub in Azerbaijan, and the Arab armies battle with the forces of Azerbaijan under the command of Rustam al-Azeri during the reign of the Caliph Omar ibn al-Khattab.

А. Ширалиева

ЖИЗНЬ И ТВОРЧЕСТВО АБУ МАНСУР АЛЬ-ХУСЕЙН ИБН МУХАММЕД ИБН ИСМАИЛА АС-СА`АЛИБИ (961-1038)

РЕЗЮМЕ

Арабский филолог Абу Мансур аль-Хусейн ибн Мухаммед ибн Исмаил ас-Са`алиби (961-1038) родился в Нишапуре в семье торговца лисьими шкурами. Здесь он получил первоначальное образование, глубоко изучил арабский язык и арабскую литературу. Ас-Са'алиби побывал во многих странах и городах Аравийского полуострова, Испании, Ирана, Азербайджана, Хорасана, Мавераннахра, Хорезма и др. Он автор составленного около 1021 г. четырехтомного труда «Гурар ахбар мулюк ал-фурс ва сийарихим» (Отборные сообщения о царях персов и их жизнеописаниях).
В произведении имеются сведения об Азербайджане во время правления Сасанидов, о Зороастре, о распространении его учения, о войнах Бахрама Гура с тюркским хаганом на территории Азербайджана, о строительстве городов и восстании Бахрама Чубина в Азербайджане, о сражениях арабской армии с войсками Азербайджана под командованием Рустама ал-Азери в период правления халифа Омара ибн ал-Хаттаба.

QƏDİM TÜRK YAZILI ABİDƏLƏRİ İLƏ SKANDİNAVİYA RUNALARI ARASINDA OXŞARLIĞA DAİR

Vüsalə ƏFƏNDİYEVA

Açar sözlər: Orxon –Yenisey kitabələri, Göytürk, Skandinaviya runaları, Futhark, Odin
Key words: Orkhon-Yenisey inscriptions, Goyturk, the Scandinavian runes, Futhark, Odin
Ключевые слова: Орхоно-Енисейские надписи, Гек-тюрки, Скандинавские руны, Футарк, Один

Orxon hərfləri ilə yazılı kitabələr haqqında tarixçi Cüveyni XII əsrdə "Talih-i Cihanküşa" adlı əsərində söz açmışdır. Qədim Çin qaynaqlarında da türklərin bu cür abidələr yaratdıqları haqqında məlumat var. Orxon-Yenisey abidələri adı ilə adlandırılan bu kitabələr Göytürk abidələri kimi məşhurdur. Buna nümunə olaraq Gül-Tigin abidəsini misal göstərmək olar. Bu abidə İltirış Xaqanın oğlu, Bilgə Xaqanın kiçik qardaşı Gül-Tiginin vəfatından sonra (685-ci il fevralın 27-si) onun şərəfinə qoyulmuşdur. Bir çox çağdaş tədqiqatçılar bu daşüstü mətnləri şeir, nəzm örnəkləri hesab edir və onların üslub xüsusiyyətlərini ən çox "**Kitabi Dədə Qorqud**" mətninə yaxın olduğunu qeyd edirlər. (2,21) Kitabədə yazılır: *"Türk millətinin adı, sanı yox olmasın deyə, atam Xaqanı və anam Xatunu ucaltmış olan Tanrı, dövlət verən Tanrı, Türk millətinin adı, sanı yox olmasın deyə, məni o taxta oturtdu. Tanrı lütf etdiyi üçün, mən də qutlu olduğum üçün Xaqan oldum".* Bu abidələrin yaranması türklərin tarix səhnəsinə çıxması, onların oyanışı və mədəni yüksəlişinin nəticəsidir.

VI yüzillikdə Altay, Mərkəzi Asiya və Sibirdə türk tayfaları birləşib bir dövlət yaratdılar. Türk xaqanlığı adını alan bu dövlət VI-IX yüzilliklərdə hökm sürmüşdü. Dövlətin başında xaqan dururdu, ali toplantılar isə qurultay sayılırdı. Qəbilə başçısına bəy, ondan aşağı gələnlərə isə tikin və şadi, xalqa isə budun və ya qara budun deyilirdi. Dinləri atəşpərəstlik, şamanizm idi.

Üç qitədə tarix boyu geniş ərazilərə yayılan türklər, getdikləri yerlərdə bir çox mədəniyyət mərkəzləri yaratmış və bununla əlaqədar

---

Əfəndiyeva Vüsalə Elşad qızı – AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı

müxtəlif yazılar və əlifbalar istifadə etmişlər. Bu əlifbalar içərisində dördü geniş ölçüdə istifadə olunaraq türklərin ümumi milli əlifbalarını formalaşdırmışdır. Bunlar Göytürk, Uyğur, Ərəb və Latın əlifbalarıdır. (3,4)

Göytürk və ya Orxon yazısı türk yazı dilinin ilk əsrlərində istifadə olunmuş, sonra onun yerini ümumi yazı olaraq Uyğur yazısı almışdır. İslamiyyətdən sonra da uzun zaman yazılan Uyğur yazısı yerini ərəb əsilli Türk yazısına verdi. Uzun zaman yan yana istifadə olunan bu iki yazıdan sonuncusu 1928-ci ildə yerini dördüncü və son milli əlifba olan Latın əsilli türk yazısına vermişdir.

Lakin XVIII və XIX əsrlərə qədər elm dünyası qədim türk yazılı abidələrinin harada və nə vəziyyətdə olması haqqında məlumat əldə etməmişdir.

Orxon -Yenisey abidələrinin aşkarlanma tarixi

Orxon əlifbasından daha öncəki dövrə təsadüf edən və məzar daşlarından ibarət tək tük kəlimələrlə müəyyən adları bildirən Yenisey abidələri üzərində aşkarlanmış əlifbada 150-dən çox işarə vardır. Bu işarələrin sonradan Orxon əlifbasında 38 hərflik bir əlifbaya çevrilməsi müəyyənləşmişdir.

Yenisey abidələrinə aid məlumatların tapılması Philipp Johan von Tabbert (Strahlenberq) adlı şəxslə bağlıdır. 1709-cu ildə Rusiya və İsveç arasında Poltova döyüşündə İsveç zabitlərindən biri Strahlenberq ruslara əsir düşdü və Sibirə sürgün edildi. On üç illik əsirlik həyatında Şimali Rusiyanı dolaşan Strahlenberq Yeniseydəki qədim türklərə aid bəzi kitabələr aşkarladı. Bunlar Orxon kitabələrindən 200 il öncə yazılmışdı. Bu isveçli zabit 1722-ci il ölkəsinə geri döndükdən sonra 1730-cu ildə öz xatirələrini yazmış və Yenisey abidələrindən bəhs etmiş və tarixçilərin türk yazılı abidələrinə marağını artırmışdır (2,22). 1889-cu ildə rus tarixçisi M.M.Yardintsev Orxon yazılarını aşkar etdi, lakin yazıları oxuya bilmədi. 1890-cı ildə fin heyəti, 1891-də Vasili Radlofun başçılığı ilə rus heyəti abidələrin olduğu yerə gedib və onların şəkillərini çəkərək elm dünyasına bəyan etdilər, lakin yazıların oxunmasına hələ də müvəffəq olunmadı. Nəhayət 1893-cü ildə danimarkalı alim Vilhelm Tomsen Orxon yazılarını oxuya bildi.

İlk olaraq yazılarda çox təkrarlanan “tengri” (tanrı), “türk” və “Kül

Tigin” sözlərini oxumağa müvəffəq olan danimarkalı alim V. Tomsen bununla bütün türk yazılarını deşifrələmiş və türk yazı mədəniyyəti və əlifbası barədə kəşfi ilə dünya elminə dəyərli töhfə vermişdi. Son olaraq gənc türk alimi Talat Tekin Amerikada Orxon türkcəsinin mükəmməl bir qrammatikasını və kitabələrinin yeni nəşrini etmişdir. (2,23)

Orxon əlifbası və yazısı

Orxon yazısının Türk yazı dilinin başlanğıcında ən azı bir neçə əsr istifadəsi məlumdur. Orxon abidələrindən bir-iki əsr öncəsinə aid Yenisey kitabələrində görülən, sonra daha təkmilləşdirilmiş formalarına Orxon abidələrində rast gəlinən bu yazının Miladın ilk əsrlərinə qədər gedib çıxdığı təxmin edilə bilər. Hətta son zamanlarda türk elm mərkəzlərindən Miladdan çox öncəyə aid türkcə bəzi qayaüstü yazıların tapılmasına dair iddia və fərziyyələr yayılmışdı. Lakin ümumilikdə Orxon yazısının yaşı V-IX əsrlərə aid edilir.

Orxon yazısı



Orxon əlifbasında bəzi hərf formalarından yazının türk mənşəli olduğunu aydın görmək olar. Doğrudan da “ox” mənasını verən hərfinin oxa, “y” səsini verən hərfinin yaya, “s” oxunan hərfinin süngüyə, “b” səsini verən balığa, “t” oxunan hərfinin tağa - dağa bənzədiyini ilk baxışda görmək olar. (12)

Orxon hərflərinin əsas xüsusiyyətləri düz cizgilərdən meydana gəlməsi və bir-biri ilə bitişik yazılmamasıdır. Bu da runalarda olduğu kimi

bu yazıların taxta, daş kimi bərk cismlər üzərində cızıla bilməsi ilə əlaqadər olmasıdır. Bu yazı sağdan sola və ya yuxarıdan aşağı doğru yazılır. Kəlimələr, aralarına üst-üstə iki nöqtə qoymaqla bir birindən ayrılır.

Yuxarıda qeyd olunduğu kimi Orxon əlifbasında 38 hərf var. Bunlardan 4-ü sait, 34-ü isə samit hərflərdir. Müasir türk dilində əlbəttə ki, bu sayda samit mövcud deyildir. Bəzi samitlər bu əlifbada bir neçə hərflə ifadə edilir. Bir sıra samitlərin, yanındakı saitlərin qalın və incə olmasına görə iki ayrıca işarəsi vardır. Bundan əlavə, bəzi qoşa səs, qoşa samit işarələri də mövcuddur. Deməli bu əlifbanın əksər hissəsi samit hərflərdən təşkil olunmuşdur. **A** və **e** üçün - , **ı** və **i** üçün bir hərf , **o** və **u** üçün , **ö** və **ü** üçün bir hərf olmaqla cəmi dörd saitdən ibarətdir. Orxon əlifbasında sözlərin daxilində və sözün əvvəlində saitlərin yazılmaması və onların çox zaman sözün sonunda yazılması diqqəti çəkir. Sözlərin əvvəllərində **a** və **e** saitlərinin yazılmaması Orxon yazı sisteminin maraqlı xüsusiyyətidir.(2,29)

Orxon abidələri ilə dövrün digər kitabələri arasında hərflərin formaları baxımından bəzi fərqlər var. Buna görə də bəzi hərflərin müxtəlif formaları ilə qarşılaşa bilərik. Tonyukuk kitabəsində aşkarlanan bəzi hərflər yalnız bu abidəyə aiddir. Məsələn, **s** və **ş** hərfləri üçün istifadə olunan- □ və baş kəlməsi üçün istifadə olunan- işarəsi.

Suyabda (hazırkı Qırğızıstan) tapılmış Orxon yazısı

Runa əlifbası və Skandinaviya

Runa əlifbasının konkret hansı zaman kəsiyində istifadə olunması hər zaman mübahisə və tədqiqat mövzusu olmuşdur. Runa sözü Old Norse-dan (Qədim Şimal dili) götürülmüş mənası "sirr, möcüzə" deməkdir. Runa yazılarının yayılma arealı çox genişdir. Runalar Dəmir və Vikinq dövrlərində, Qrenlandiyadan tutmuş Qara dənizə qədər, Men adasından Afinaya qədər yayılmışdır. İslandiyada çox az, Danimarkada 500, Norveçdə 750, ən çox İsveçdə -Uppland ərazisində 1000 və ümumi İsveç ərazisində 3000 runa yazıları aşkar edilmişdir. İsveç runalarına Halsinge runaları da deyilir. (4,28) Qeyd edək ki, Danimarka (SKÅNE) – Norveç runa yazıları İsveç runa yazılarından fərqlənir. Bəzi alimlərin fərziyyəsinə görə, əlifba Etrusk və Latın əlifba sisteminə əsaslanaraq yaradılıb.

Skandinaviya ərazisində Runa hərflərinin iki forması mövcud olmuşdur. Qədim Futhark 24 hərfdən ibarət olmuş və IV əsrə aid edilir. Cavan Futhark isə Vikinqlər dövründə yəni VIII əsrdən etibarən istifadə edilməyə başlanmışdır. Bu dövr ərzində ilkin qədim futhark əlifbası daha da asanlaşdırılaraq 24 işarədən 16 işarəyədək azaldılmışdır. Avropada təxminən 3500 daş abidələr üzərində, xüsusilə İsveç və Norveç ərazisində tapılmış abidələrdə bu yazılar mövcuddur. (5,419) Bu daş kitabələrdən ən qədimi 1903-cü ildə İsveçdə tapılmış Kyvler daşı hesab olunur.

24 işarədən ibarət qədim Futhark

24 işarədən ibarət qədim runa yazıları xüsusilə aşağıdakı İsveç abidələri üzərində aşkarlanmışdı:

1. Stanqada (Qotland) yerləşən **Kylver** fermasında tapılmış V əsrə

aid daş kitabə İsveçdə aşkarlanmış bu dövrə aid ən qədim yazılı abidə hesab olunur.

2. Upplandda tapılmış **Möjbro daşı**

3. Blekingedə tapılmış **İstaby daşı** (10,26)

Runa əlifbası – FUTHARK, əlifbanın ilk altı hərflərinin birləşməsi olaraq belə adlandırılır. Skandinaviya xalqı artıq VI əsrdə bu əlifbadan istifadə edirdi. Lakin vikinqlərin 700-1050-ci illərdə istifadə etdikləri əlifbada ancaq 16 hərf var idi. Futhark əlifbası Şimali Avropada german tayfaları tərəfindən III -XVII əsrlərdə istifadə olunmuşdur.(1,285)

16 işarədən ibarət cavan Futhark

Hərflərin üfüqi və şaquli xətlərdən ibarət olması deməyə əsas verir ki, bu hərflər məhz taxta və digər bərk cisimlər üzərində cızma vasitəsilə həkk olunub. Futhark yazılarında da Orxon kitabələrində olduğu kimi sözlər bir-birindən aralarında üst-üstə iki nöqtə qoyulmaqla seçilirdi. (1,283) Qədim Futhark əlifbasının hər bir hərfinin adı, sıra nömrəsi, ifadə etdiyi məna, aid olduğu məşğulliyət sahəsi, planeti və rəngi vardır. Məsələn, sıra nömrəsi 2 olan Uruz işarəsinin xarakteristikasına diqqət yetirək. Hərfin mənası - "fiziki və əqli güc", "mərdlik", tərcüməsi - "vəhşi öküz" deməkdir. Xarakteri - vəhşi, azadlıq təkanvericisi, həm emosional həm də fiziki gücü özündə birləşdirir. Rəngi-tünd yaşıl, ağacı-tozağacı, elementi - Yer, Allahları isə Tor və Urddur.(8,72) Bu tərzdə bütün əlifbanın xarakateriskası mövcuddur.

Orxon əlifbasını qədim Skandinaviya əlifbasına bənzədiyindən türk runa yazısı, runik türk yazısı da adlandırırlar. Qədim Futhark əlifbasında diqqət çəkən məqam isə hərflərin adlarında türk söz və adları ilə olan oxşarlıqlardır. Məsələn, haqqında danışdığımız Uruz (2) hərfi, Othilla (23), Mannaz (20), Algiz (15) hərflərinə nəzər salaq. Bu haqda bəzi alimlər tərəfindən irəli sürülmüş hipotezalar vardır. Belə ki, Orxon-Yenisey abidələri və şimal runa yazıları arasında bənzərliklərin heç də təsadüfi olmadığını iddia edən fikirlərə inansaq adlandırmada mövcud olan oxşarlıqlar təbiidir.

Eləcə də, bu oxşarlıq Azərbaycan ərazisində Şəki rayonunun Daşbulaq kəndində "alban qəbristanlığı" adlandırılan yerdən daşların üzərində tapılmış yazılarda da mövcuddur. Qədim türk yazıları üçün tipik nümunə olan daş yazıların birində aşağıdakı cümlə həkk olunmuşdur:
[Ö]z atı [U]ruz. Tərcüməsi: Öz adı Uruz[dur].

Adlarda olan oxşarlıqlara gəlincə isə,Uruz adı ilə qədim dastanımz "Kitabi-Dədə-Qorqud" dan tanışıq. Dədə Qorqud boylarında oğuz igidlərinin ən səciyyəvi nümayəndələrindən biri olan Uruzun adı Kitabi-Dədə-Qorqud dastanının II, III, X, XI boylarında çəkilir. Bu dastanda da Uruz mərdlik və qorxmazlıq ifadəsi kimi istifadə olunur. (6) Othilla və Athilla adlarının etimolgiyası və mənalarına diqqət etsək görərik ki,Othilla – Runa yazılarında "ev,ailə başçısı", Athilla isə "ata", "baş ata", "qəhrəman ata" anlamına gəlir.

Stanqada (Qotland) yerləşən Kylver fermasında tapılmış daş kitabə

Yuxarıdakı şəkildə İsveçdə aşkarlanmış Kylver daşı təsvir olunmuşdur. Burada heç bir simvol iki dəfə təkrarlanmadığı üçün bu daşüstü işarələr əlifba kimi qəbul edilmişdir. Bu şəkildəki işarələr Orxon hərfləri kimi sağdan sola və aşağıdan yuxarıya doğru yazılmışdı. Yazıda 24 simvoldan əlavə 5 simvol da var. Onlar yazının davamı hesab olunur və bu simvollardan bəzisi yazı içərisində təkrarlanır.



Bu şəkildə isə türk tədqiqatçısı Turqay Kurum yuxarı cərgədə Kylver daşı üzərindəki runalar ilə aşağı cərgədə Göytürk hərflərini qarşılaşdırmış və bu daş üzərində sağdan sola həkk olunmuş yazını oxumağa çalışmışdır.T.Kurum burada yazılmış cümləni belə oxuyur: "Bilge ışığı indi bizzat kendisi okunun ucuyla ağzından çıkan sözləri oydu bu dik taşa". Beləcə bu tədqiqatçı qədim runa yazılarını özündə əks etdirən, İsveçdə aşkarlanmış digər iki daş kitabələrə də özünəməxsus şərh vermişdir. (11)

T.Kurumun ehtimalına görə yuxarıdakı daşüstü oymalarda 24(o), 23 (d), 22 (ng) saylı hərflərin sıralanmasına diqqətlə nəzər yetirsək görərik ki, sağdan sola oxunan zaman *Odin* adı ortaya çıxır. Skandinaviya mifologiyalarına görə Odin baş allah-allahların atası hesab olunurdu. Təkgözlü təsvir olunmuş Odin mifologiyaya görə bir gözünü müdriklik əvəzində bəxşiş etmişdir. Hətta məşhur islandiyalı tarixçi Snorre Sturlason tərəfindən qələmə alınmış Qədim Edda-da Odinin həyat ağacı olan Ygdrasildən asılması və runalar haqqında biliklərin ona təlqin olunması təsvir olunmuşdur.(8,21)

Eyni qayda ilə yuxarıdakı şəkildə qədim türk yazısında da bu hərflərin birləşməsi *müdriklik, bilik* mənasını verir.

Aşağıdakı cədvəldə isə qədim skandinaviya runaları ilə Orxon-Yenisey əlifbasının oxşar hərflərini qarşılaşdırdım. Lakin cədvəldən də göründüyü kimi hər iki əlifbanın bənzər hərfləri müxtəlif səsləri ifadə edir. Bu da bizə skandinaviyalıların türklərdən hərflərin oxunuşunu deyil,

yazı formalarını mənimsəmələrini ehtimal etməyə imkan verir.

N	**Qədim Futhark**	**Orxon-Yenisey hərfləri**
1.	Kauno	O/U
2.	Laguz	Y/İ
3.	İhvaz	A/Ä
4.	Tiwaz	Ok K 2 T
5.	İsa	S
6.	Wunjo	Y2
7.	Naudiz	Ng
8.	Uruz	T2
9.	Ansuz	G
10.	Gebo	D
11.	Othilla	B
12.	Algiz	Iç

13.	Dagaz	Baş
14.	Ehwaz	İd
15.	Berkanan	K (Yenisey)
16.	Thuriaz	Ky (Yenisey) Yq,Qy (Orxon)
17.	İngwaz	M (Yenisey)

Orxon abidələri və Göytürklər

Orxon abidələri Göytürk dövründən qalma kitabələrdir. *Türk* sözünə ilk dəfə Göytürklər dönəminə aid Orxon abidələrində rast gəlinmişdir. Göytürklər 552–744-cü illərdə fasilələrlə Mərkəzi Asiya və Çinin bir hissəsində hökmranlıq etmiş türk dövlətidir. Adı müxtəlif mənbələrdə, Bilgə xaqan və Kül Tigin yazılarında *Türük*, *Kök Türük* və bəzi yanaşmaya görə *Ökük Türük*, Tonyukuk yazılarında isə *Türk* şəklində xatırlanmaqdadır. Göytürklərdən Çin mənbələrində *Tūjué* (çin. 突厥) şəklində bəhs olunur.

Göytürk* xaqanlığı həmçinin adında "türk" sözü işlənən ilk dövlətdir. Dövlətin qurucusu və ilk öndəri Bumin xaqandır. VI əsrin ilk yarısında türk dövlətinin başında avarlar dururdu. 552-ci ildə Bumin xaqan avarların idarəsinə son verərək Göytürk xaqanlığını yaratdı. O dövrdə böyük xaqanlığın mərkəzi dövlətin şərq qismində idi. Bumin xaqanın qardaşı İstəmi xaqan 576-cı ilə qədər ölkənin qərb qolunu idarə

*Bu gün Göytürk kimi yazdığımız adın əsl forması "Göktürk"dür."Gök" sözü həm göy, həm Tanrı (Göy Tanrı), həm də boya (göy,mavi) bildirmişdir."Türk"sözünün gerçək anlamı isə "güclü" deməkdir.

edirdi. Göytürk xaqanlığı Çin, Sasani və Bizans ilə hərbi, siyasi və iqtisadi əlaqələr qurmuşdu. (2,16)

Bumin xaqan Göytürk hakimiyyətini qurduğu ildə də həlak oldu və sırayla üç oğlu böyük xaqanlığı idarə etdilər. Birinci 553-də, ikincisi 553-572-də, üçüncüsü də 572-581-ci il tarixlərində hakimiyyəti idarə etdilər. Bunlardan ikincisi olan Mukan zamanında dövlət Mançuryadan İrana qədər uzanan qüvvətli bir imperatorluq halına gəldi. 630-cu ildə dövlətin şərq tərəfi Çin hakimiyyətinə keçdi, lakin Çin əsarəti uzun sürmədi və Kutluğ xaqan və ya ikinci adı İltirış xaqan Çin hakimiyyətinə son verərək 680-682 illərdə dövləti yenidən birləşdirdi.

İltirış xaqanın Bilgə və Kül Tigin adlı iki oğlu vardı. Bilgə xaqanın dövründə dövlət daha da qüvvətləndi. 731-ci ildə Kül Tigin, 734-cü ildə Bilgə xaqanın ölümündən on il sonra Uyğurlar dövləti ələ keçirərək 745-ci ildə Göytürk hakimiyyətinə son qoydular.

Məhz Orxon abidələri bu türk xaqanı olan Bilgə Xaqanın dövrünün məhsuludur. Birinci abidə, Kül Tigin abidəsini Bilgə xaqan 732-ci ildə tikdirmiş, ikincisi olan Bilgə Xaqan abidəsini də ölümündən bir il sonra 735-ci ildə öz oğlu tikdirib. Üçüncü Tonyukuk abidəsi isə 720-725-ci illərdə Bilgə xaqanın özü tərəfindən tikilmişdir. (2,17)

Kül Tigin abidəsi xaqan olmasında və dövlətin qüvvətlənməsində əsas rol oynamış qəhraman qardaşına Bilgə xaqanın duyduğu minnətdarlıq hisslərinin ifadəsidir.

Bilgə xaqan abidəsi də forması və tərtibi baxımından birinci abidəyə çox bənzəyir. Bu abidə 735-ci ildə Bilgə xaqanın oğlu tərəfindən atasına xatirə olaraq tikilmişdir.

Tonyukuk abidəsini Bilgə xaqanın dövrünə qədər dövlət idarəsinin baş köməkçisi olan baş komandan Tonyukuk qocalıq dövründə tikidirmişdir. Bu abidədə digər iki abidəyə nisbətən sətrlər soldan sağa doğru düzülmüşdür. (3,10)

Orxon yazısı ilə yanaşı digər altı kitabə də tapılmışdır, lakin bunlardan ən mühümü və böyükləri yuxarıda adları qeyd olunmuş üç abidə hesab olunur. Orxon abidələrinə Orxon kitabələri də deyilir. Sözsüz ki, bunlar kitabədir, lakin həm maddi, həm də mənəvi baxımdan bu kitabələr abidə hesab olunur.

İsveç və Türk dilləri arasında bənzərliklər

İsveç tarixinin yaradıcılarından biri olmuş, tarix üzrə professor Sven Lagerbrinq təxminən 250 il öncə yazdığı bir kitabda isveç və türk dilləri arasındakı oxşarlıqlardan bəhs etmiş, mifoloji bənzərlikləri əsas gətirərək isveçlilərin əcdadlarının türk olduğunu söyləmişdir.

Sven Lagerbrinq (1707-1787) Cənubi İsveçdə dünyaya gəlmiş, İsveçin Lund universitetində təhsil almış, 1742-ci ildə tarix professoru olmuşdur. Ən önəmli əsərləri dörd cildlik İsveç İmperiyası Tarixi əsəridir. 1764-cü ildə "İsveç və Türk dilləri arasında bənzərliklər"* [1] adında kitab yazmışdır. Bu kitab dövrünün məşhur dil tədqiqatçısı olan professor Johan İhreyə yazılan bir məktub şəklindədir.(7,21) S. Lagerbrinq bu əsərində yazmışdır: "Bizim əcdadlarımız Odinin yoldaşları olmuş türklərdir. Bununla bağlı əlimizdə kifayət qədər dəlilimiz var. Bəzi insanlar sizi çaşdıraraq bildirir ki, biz qotlardan törəmişik. Məni bu iddiadan sonra gözdən düşməyim belə maraqlandırmır. Hər bir halda Odin və onun tərəfdaşları türklər olmuşlar."

Skandinaviya mifologiyasına görə vikinqlərin baş allahı sayılan Odin Asiyadan gəlmiş və Skandinaviya ərazisində məskunlaşmışdır. Bu mövzuda S.Lagerbrinq Ptolomey və Snorre Sturlason kimi məşhur tarixçilərə istinad etmişdir. Yunan tarixçisi Ptolomey Odin və onun tərəfadarlarının Tanais (Don) çayının şərqində yerləşən ərazidən gəldiyini göstərmişdir. İslandiya tarixçisi S. Sturlason isə onların Tyrklandı tərk edərək bura köçdüklərini bildirmişdir. Bu ölkənin isə Qafqaz sıra dağlarının və Xəzər dənizinin şimalında yerləşdiyini göstərmişdir.

İsveç tarixçisi Sven Lagerbrinq isveçlilərin türk mənşəli olduqlarını iddia etmiş və Odinin qəbiləsinin gətirdiyi türk dilinin isveç dilini zənginləşdirdiyini demişdir. Bununla da özünü sübuta yetirmək üçün 200-ə qədər türk sözünün isveç dilində istifadə olunduğunu göstərmişdir. Bunlara aid bəzi nümunələrə baxaq: (7,46-57)

Azərbaycanca	**Türkcə**	**İsveç dilində**
Ata	Ata	Ätt
Balta	Balta	bulta (vurmaq)

*Bu kitab hal-hazırda İsveçin Kral Kitabxanasında saxlanılır.

Basdırmaq	Göm	Göm
Borclu	Borçlu	Borgen
Dib	Dib	djup
xaqan	Hakan	Håkan
kənd	Köy	Koja
kişilik/vicdanlı olmaq	Erlik	Ärlig
Qaz	Kas	Gås
məna	Mena	Mening
Pişik	Kedi	Katt
Su	Su	Sjö
təpə	Tepe	Top
var olmaq	var olmak	Vara
Yurd	Yurt	Jord

Türk tədqiqatçısı Turqay Kurum da runik yazıların Skandinaviya ərazisinə Odin ilə birlikdə gəldiyini söyləyir. T. Kurum Skandinaviya runa yazılarını Göytürk yazılarının köməyi ilə deşifrələməyə çalışmışdır. Yuxarıda qeyd olunduğu kimi Runa yazıları ümumilikdə iki hissəyə bölünür: 24 simvollu qədim runik yazı və 16 simvollu vikinq dövrünə aid runalar. Futhark adlandırılan runalara aid 3500 qədər qayaüstü kitabələr aşkarlanmış, bunlardan yalnız on faizi qədim runa əlifbasına aid edilir.(1,284)

Vikinq dövrünə məxsus 16 simvoldan ibarət yazılar isə soldan sağa doğru mükəmməl bir şəkildə şimal dillərində oxunur və XVII əsrə qədər Skandinaviyada istifadə olunmuşdur. Maraqlısı odur ki, 24 işarədən ibarət olan qədim Futhark Göytürk yazıları kimi sağdan sola yazılır. Bu yazılar tanrı Odinin vaxtından qalma "sehirli yazı" adlanır. Çunki qədim Futharkı skandinaviya dillərində oxumaq mümkün olmamışdır və buna görə də onların mistik xarakter daşıdığı və müəyyən sehrbazlıqda istifadə olunduğu ehtimal olunurdu. Buna görə də runa hərfləri skandinaviya dillərində "sehrli, sirli" mənalarını daşıyır. (8,13)

Skandinaviya və Almaniyada aşkarlanan ev əşyalarının üzərində tapılmış runa yazıları skandinav dilləri ilə oxunmadığına görə bəzi alimlər

tərəfindən qədim türk əlifbası ilə oxunmuş, lakin sonradan bu əşyaların bu ərazilərə ticarətlə gətirildiyi ehtimal olunmuşdur.
Hər iki yazı təxminən eyni dövrə təsadüf etdiyindən Orxon yazıları aşkarlandığı zaman elm dünyası bu yazıların vikinqlər tərəfindən Orta Asiyaya aparıldığına inanmış, lakin V.Thomsen bu yazıları oxuduqdan sonra bu əlifbaların bir-birilə əlaqəsinin olmaması düşünülmüşdür.

Sven Lagerbringin müəllifi olduğu və Abdullah Gürgün tərəfindən türk dilinə tərcümə edilmiş " İsveçrenin türkçe ile benzerlikleri" adlı kitabında A.Gürgünün gəldiyi qənaətə görə Skandinaviyada tapılmış 24 simvollu (əslində 24 işarədən artıq) yazı sistemi hunların hakimiyyəti dövründə və ya Hun imperatorluğu dağıldıqdan sonra oraya köçmüş, bu gün türk dili dediyimiz dilin bəlkə də unudulmuş bir qolunu istifadə edən qəbilələrə məxsus olması ehtimal edilir. (7,108)

Daşüstü kitabələr qədim cəmiyyətlər və mədəniyyətlər haqqında məlumat toplamaq üçün əvəzolunmaz vasitə hesab olunur. Çox təəssüflər olsun ki, müxtəlif alimlər tərəfindən sübut olunmağa çalışılan fərqli fikirlər ortaya çıxmış çoxsaylı suallara cavab tapmaqda bizə kömək olmur. Qədim yazıları təsvir edən kitabələr çox olmasa da, onlar əlimizdə olan ən dəyərli tapıntılar hesab olunur. Nəyəsə nail olmaq üçün bizim daha çox tapıntılara və hərtərfli tədqiqata ehtiyacımız var.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Brink Stefan: The Viking world, Routledge Press, New York, 2009, səh. 281-290
2. Ergin Muharrem: Orhun abideleri, Istanbul, Turkiye 2008
3. Ergin,Muharrem:Türk Dil Bilgisi, Bayrak Basım, İstanbul, 2008, s. 3.
4. Jansson Sven B.F., Runes in Sweden; translated by Peter Foote, Gidlunds, Varnamo, Sweden 1997. (English edition of Runinskrifter i Sverige, AWE/Gebers 1963)
5. Jones Gwyn: A History of the Vikings, Great Britain, Clays Ltd., 2001, səh. 419
6. Kitabi-Dede Qorqud, Bakı, 1962
7. Lagerbring, Sven: İsveççenin Türkçe ilə benzerlikleri, İsveçlilerin türk ataları, tərcümə edən: Abdullah Gürgün, 2. basım, Analiz Basım Yayın Tasarım Gıda, Galatasaray-İstanbul, 2010
8. Oswald Bob: Discovering runes, UK, 2008
9. Sawyer Peter: The Oxford illustrated history of the vikings,New York,1997
10. Wilson, M. David: The Vikings and their origins, New York, 2001, s.26-27
11. http://archive.worldhistoria.com/does-the-runic-and-gok-turk-monuments-have-the-same-origins_topic7373.html
12. http://www.antalyaonline.net/futhark/FUTHARKT.HTM
13. http://www.sunnyway.com/runes/origins.html

V.Efendiyeva

THE SIMILARITIES BETWEEN OLD TURKIC INSCRIPTIONS AND THE SCANDINAVIAN RUNES

SUMMARY

This paper describes the history, distigushing features, interpreting of both the ancient Turkic script of Orkhon-Yenisey inscriptions and the Scandinavian runes. This article analyzes the similarities between Orkhon inscriptions derived from Goyturk period and the Scandinavian runes called Futhark. Moreover, the author indicates the justified results of Swedish historian S.Lagerbring on the similarities between Turkish and Swedish languages in his book written in 1764.

В.Эфендиева

СХОДСТВА МЕЖДУ ДРЕВНЕТЮРКСКИМИ ПИСЬМЕННЫМИ ПАМЯТНИКАМИ И СКАНДИНАВСКИМИ РУНАМИ

РЕЗЮМЕ

В статье говорится об открытии, расшифровке, истории и основных особенностях Орхоно-Енисейских памятников, которые являются древнетюркскими письменными источниками. Здесь также анализируются сходства между имеющими две различные формы скандинавскими рунами, именуемыми Футарком и сохранившимися со времен Гектюрков Орхонскими письменностями. Автор также дает информацию о шведском историке С. Лагербринге, утверждающем о сходстве турецкого и шведского языков и обосновавшим свои идеи в книге, написанной в 1764 году.

XI-XII ƏSRLƏRDƏ AZƏRBAYCANDA MEMARLIQ VƏ ŞƏHƏRSALMA MƏDƏNİYYƏTİ

(“İRANIN KEMBRİC TARİXİ” ƏSƏRİ ƏSASINDA)

Sevda ABDULLAYEVA

Açar sözlər: memarlıq, şəhər, minarə, məscid, Səlcuqlar dövrü, şəhər qalıqları, fraqment,tarixçi, “İranın Kembric Tarixi” çoxcilidliy

Key words: Architecture, city, minaret, mosque, Seljuk period, The remains of the city, fragment,historian, Cambridge history of İran

Ключевые слова: Архитектура, город, минарет, мечеть, период Сельджуков, остатки город, фрагмент, историк, книга «Кембриджская история Ирана»

Səlcuqilər dövründə memarlıq və şəhərsalma sahələri də özünün çiçəklənmə dövrünü yaşadı. Onu da bildirək ki, bütün Şərqdə olduğu kimi Azərbaycanda da memarlıq və şəhərsalma VII-IX əsrlərdə mədəni mühitin başlıca sahəsi olmuşdur. Lakin zaman keçdikcə həmin abidələr ictimai və təbii səbəblər nəticəsində tarix səhnəsindən silinmiş və həmin memarlıq incilərindən yalnız fraqmentlər qalmışdır. Azərbaycana islamın gəlişindən sonra həmin dövrün zərdüşt və xristian dini obyektlıəri məscidə çevrilirdi, yəni islam ehkamları və tələbləri əsasında təşkil edilirdi. Bu dövr üçün memarlıqda əsas obyekt məscidlər idi. Bu dövrdə Azərbaycanda tikilən məscidlərdə yerli xüsusiyyətləri əks etdirən ornamentlər əksini tapırdı. Buna misal olaraq Şamaxıdakı Cümə məscidini, Ağsudakı və Sündü kəndindəki məscidləri misal göstərmək mümkündür. Araşdırmalar zamanı sübut olunmuşdur ki, Şamaxıdakı Cümə məscidi və Ağsudakı məscid də VIII əsrdə tikilmişdir. Sündü məscidinin isə 920-ci ildə tikilməsi və dəfələrlə bərpa olunması haqqında məlumatlar vardır. Səlcuqlar dövründə bütün sənət sahələri geniş dəyişmələr və inkişaflar baxımından qabarıq mövqeyə malikdir, belə ki, bu dövrdə İranda böyük məscidlər vucuda gəldi və burada mərkəzi həyət və onun ətrafında olan 4 eyvan İran dini memralığının əsasını təşkil edirdi. Divarların fəsadlarında kərpicdən istifadə edilirdi və bu kərpiclərin sənət və hünər imkanları fəsadlarda gözə çarpırdı və kərpicdən fərqli

---

Sevda Abdullayeva – Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı

naxış və fiqurlar əmələ gətirirdilər. Kərpiclərin yonulması və yonulmuş kərpiclərdən binaların bəzədilməsi XI əsrdən yayılmağa başladı və XII əsrin sonlarına qədər davam edib kamilləşdi. Səlcuqlar dövrünün axırlarından bəzəklərdə tabaşirdən, həmçinin rənglərdən istifadənin əhəmiyyəti artdı, firuzə rəngli kaşıların üzlərinin şirələnməsi memarlıq bəzəklərində təbiq olunmağa başladı. Demək olar ki, İranda Səlcuq memarlığının əsası məscid kimi binaların tikilməsindədir. Bu məqsədə çatmaq üçün Sasani memarlıq elementlərindən (günbəz, eyvan və həyət) istifadə edərək, digər müxtəlif metodlar və tikintilərdə tağlı üslubun tətbiqi ilə bu dövrdə İran memarlığının dəqiq xarakteri və keyfiyyətinin formalaşdırmasına nail olmuşlar. Beləliklə, konkret İran memarlığı forması, dini və qeyri-dini məqsədlər üçün tikilən binalarda 4 eyvan və onun ətraf elementlər planı Səlcuqlar dövrününün memarlığının təməlini təşkil edirdi. XI əsrdə memarlığın çiçəklənməsi və kamilləşməsinin şahidiyik. Bu dövr dinin yayılması və siyasi iqtidarın güclənməsilə təsadüf etdi. Səlcuq dövrü memarları Sasani dövrü formalardan istifadə edərək, o elementləri məharətlə tətbiq etməklə böyük məscidlərin necə tikilməsini öyrənib, dini binalar, xüsusilə məscidlərin 4 eyvanlı memarlıq stilini dəbə saldılar, belə ki, bir çox binalar xüsusilə İran və Azərbaycan ərazilərinin memarlığının əsas hissəsi 4 eyvan stili üzərində tikilməyə başladı. Bu memarlıq stili yalnız İran ərazisində olmamaış, bəlkə Səlcuqların hakimiyəti altında olan bütün müsəlman torpaqlarda yayıldı. Səlcuqlar dövründən sonra İranda və Azərbaycanda tikilən mühüm məscidlərə qısaca nəzər salanda görünür ki, bu dövrün memarlığı sonrakı dövrlər üçün xeyli miqdarda örnək və nümunə olmuşdur, hətta müasir dövrdə də məscidlərin dizaynında bu növ memralıq stili davam edir. Ümumiyyətlə məscidlərin ümumi planı aşağıdakı xüsusiyyətlərə malikdir: "Binanın uzanma xətti olan məhvərin başlanğıcında eyvanın qapısı yerləşir. Məscidin daxili öz sahəsinin qabağında yerləşir. Daxili önlüyün ətrafındakı tağları 4 eyvan ilə hasarlanır ki. İki eyvan uzunluq məhvərində, ikisi isə en məhvərdə yerləşir. Məscidin künbəz altı sahəsi tağların arxasında yerləşir. Əsas eyvan məscidin uzunluq məhvərində və giriş eyvanın qarşı tərəfində yerləşir və kvadrat formalı künbəz altı sahəyə açılır, onun cənub divarında məscidin uzunluq məhvərinin sonunda mehrab yerləşir" (1, 7 cilddə. II c. s.277; 19 s.37.). Bütün bu elementlərə

malik Səlcuqlar dövrünə aid ən mühüm məscidlərdən İsfahan cümə məscidi, Zəvvarə cümə məscidi, Ərdistan cümə məscidi, Bərsian cümə məscidi, Qolpayqan cümə məscidi və Qəzvin cümə məscididir. Həmin dövr minarələri də arxitektura baxımından çox cəlbedici idi. Minarələr adətən məscidlərin kənarında tikilirdi. İslam memarlığında minarələrin özəl mövqeləri var. Məscidin bu elementi müəzzinin (əzan verən) səsini çatdırmaq və namaz qılan kütlənin çağırılması üçün nəzərdə tutulmuşdur. O zaman tikililərin bəzəkli və gözəl olmasına diqqət yetirilməsi xüsusi önəm kəsb edirdi. Belə ki, bu yerlər müxtəlif kərpic, kaşı bəzəklər sənətinin nümayişi yerinə çevrilirdi. Belə fərz edilir ki, minarələrin bəzədilməsi, naxışlanması və rənglərlə boyanması IX əsrin ortalarında tətbiq edilmişdir. Bu dövrdən sonra minarələrin gövdəsi və xarici hissəsinin hər yeri kərpic, tabaşir və rəngli kaşılardan istifadə edilərək Quran ayələri və Nəbəvi (s) hədislər ilə bəzədilirdi (21, s.51-55.). Hündür minarələrin tikilişi bunu deməyə əsas verir ki, bu minarələr yalnız işıqlandırma, əzan demək və namaza çağırış məkanı kimi istifadə edimamiş, daha çox məscidlərin bəzəyi kimi istifadə edilmişdir. Minarələrin hündürlüyü, baxışları yuxarıya yönəldərək insana böyük varlığı göstərir. Demək olar ki, məscidlərdə minarələrin mövcud olması insanın xaliqə və təbiət qüvvələrinə yaxınaşdırmaq vasitəsi də hesab edilir, bu səbəbdən minarələrin bəzədilməsi və gözəlləşdirilməsinə xeyli diqqət yetirilirdi. Belə ki, minarə yalnız bir hünərin göstəricisi olmamış, bəlkə onların bəziləri bəzək, xəttatlıq sənətlərin məcmuəsi və müxtəlif həndəsi fiqur və gül kollarından ibarət olmuşdur. İlkin zamanlarda minarələrin tikilməsində məkanın seçilməsi üçün konkret qayda-qanun yox idi. Bəzən məscidin 4 küncündə, bəzən giriş qapısından ayrı, bəzən binaya bağlı, bəzən də məscid binasının müəyyən məsafəsində tikilirdi. Səlcuqlar dövrü minarələrin tikilməsi geniş miqyasda inkişaf edərək təkamül etdi və xüsusi əhəmiyyətə malik oldu. Bu dövrdə minarələrin icad edilməsi məscidlərin nişanı və şəhərə gələn karvanların yönəticisi (yol göstəreni) kimi geniş yayılmışıdr. Minarələrin tikilməsi zaman keçidində dəyişikliklərə məruz qaldı. Səlcuq dövründəki minarələrin bir çoxu dudkeş formasında olmuşdur. Səlcuq dövrünə müxtəlif növ minarələr, o cümlədən qısa, qalın, hündür və yuxarı hissəsi nazik və incə olan minarələr aiddir. Bu minarələrin hündürlüyü yüksək olduğu səbəbindən

əzan demək üçün az istifadə edilirdi. Müəzzinlər məscid damından əzan deyirdilər. Əslində hündür və diametri az olan minarələr daha çox bəzək və ziynət əhəmiyyəti daşıyırdılar. Onların gövdələrin kiçik, yaxud geniş olması, həlqələri, bəzək və karnizləri özünəməxsus gözəlliklərin təzahürü idi. (20, s.69, s.62-72.).

Orta əsrlər Azərbaycan şəhərlərinin görkəmi, memarlıq obyektləri barədə məlumatlar həmin dövrün ərəbdilli qaynaqlarında öz əksini tapmışdır. Demək olar ki, bütün orta əsr şəhərlərində örtülü su kəmərləri və saxsı borulardan quraşdırılmış kəhrizlərin mükəmməl şəbəkəsi var idi. Bu dövrdə iri və xırda arxlar (kanllar) sisteminin varlığı əksəriyyət üçün səciyyəvi idi. Orta əsrlər iri Azərbaycan şəhərgahlarından biri olan Gəncə şəhərgahı (şəhər yeri) müsir Gəncənin şimal-şərqində yerləşirdi (4, s.4.; 5; 6, s.47).

Azərbaycanda şəhər həyatı səlcuqilərin gəlişindən sonra da ümumi inkişafdan qalmadı. Bu dövr Azərbaycan şəhərlərinin, şəhər mədəniyyətinin, memarlığın çiçəklənməsi və tərəqqisi ilə xarakterizə olunur. Bu dövrdə memarlıqda yeni "səlcuq üslubu" özünü göstərirdi. Memarlıq həmin illərdə Azərbaycanda üç üslub istiqamətində (Şirvan-Abşeron, Naxçıvan-Marağa, Arran memarlıq məktəbləri) inkişaf edirdi. «Bu dövrdə Azərbaycan memarlığında iki istiqamət təşəkkül tapdı. Lokal (yerli) memarlıq məktəblərinin Azərbaycan memarlığının sonrakı inkişafında mühüm rol oynamış Naxçıvan və Şirvan-Abşeron məktəblərinin yaranması prosesi başa çatdı» (21, s.229.). Abşeronda Səlcuqilər dövrünə aid memarlıq incilərindən biri də xalq arasındaa "Sınıqqala" adı ilə tanınmış, 1078/79-cu ildə inşa olunmuş məsciddir. Bu abidə Şirvan-Abşeron memarlıq məktəbinin nadir incilərindən sayılır. Onun tarixinin araşdırılması göstərir ki, məscid ustad-rəis Məhəmməd ibn Əbubəkrin göstərişi ilə tikilmişdir. Bu abidənin daş kitabəsində "əl-ustad əl-rəis" ifadəsi əksini tapmışdır. Bu da onu göstərir ki, XI əsrin II yarısında Şirvan və Arran şəhərlərində şəhər rəisləri ictimai-siyadi həyatda mühüm rol oynayır. Sözügedən dövrdə rəislər şəhər tacirlərinin və sənətkarlarının mənafeləri naminə fəaliyyət göstərmişlər. Rəislər siyasi mübarizədə onlara arxalanırdılar. Maraqlıdır ki, daş kitabədə Şirvanşahın adı yoxdur. Buradan aydın olur ki, həmin dövrdə Şirvanşah Fəribürz Səlcuqilərə tabe olmuşdu və rəislərin siyasi mövqeyi güclənmişdi. Mənbələrdə o dövrdə

Qəzvin-Həmədan memarlıq məktəbi haqqında da məlumat verilir. O zaman bu ərazilər İraqi-Əcəm vilayətinə daxil idi. Azərbaycan memarlıq məktəblərində əsasən əhəngdaşı (Şirvan-Abşeron), daş və kərpic (Arran) və bişmiş kərpic (Naxçıvan-Marağa) materiallarından istifadə olunurdu. Azərbaycanda olan memarlıq məktəblərinin hər birinin özünəməxsus xüsusiyyətləri var idi. Şirvan-Abşeron məktəbi abidələrinə daha dayanıqlı, sadə və çox zaman asimmetrik (qeyri-mütənasib) kompozisiyalar xas idisə, Arran memarlıq məktəbi obyektlərində yaraşıqlı kompozisiya, daha az zərif ayrıntılar və incə görkəm öz əksini tapırdı. Naxçıvan-Marağa memarlıq məktəbinə isə bişmiş kərpic xas idi. Memarlıq abidələrində dövrlə əlaqədar olaraq islami ənənələr öz əksini tapırdı. Bu dövr «məscidləri mehrablarının önündə günbəzli salonun-məqsurənin olması Səlcuq dövrünün monumental dini tikililəri üçün səciyyəvidir» (1, 7 cilddə. II c. s.450.). Həmin dövrdə tikilən məscidlər "səlcuq köşkü", "səlcuq məqsurəsi" adları ilə tanınırdı. O zamanlar Azərbaycana səyahət etmiş Yaqut əl-Həməvi ölkəmizdə olan "çoxlu qalalar"dan söhbət açır. Qalaların çoxluğunu mütəxəssislər ölkədə siyasi qeyri-sabitliyin göstəricisi kimi təqdim edirlər. Ərəb səyyahı da bunu xüsusi olaraq qeyd edir. Bu dövrdə olan müdafiə qurğuları iki qrupa bölünürdü: Qala divarları və qalalar (qəsrlər). «Yaqutun bir çox Azərbaycan qalaları haqqında məlumatı orijinal və əvəzsizdir. Belə ki, vəfatından sonra baş vermiş ikinci moğol yürüşü, eləcə də sonrakı əsrlərdə olmuş başqa hadisələr Yaqutun olduğu və gördüyü qalalardan çoxunu yerlə-yeksan etmiş, onlar haqqında bizə yalnız Yaqut kimi alimlərin məlumatı qalmışdır» (3, s.71.). Bir fakta xüsusi toxunmaq lazımdır ki, Yaqut yalnız Azərbaycanın cənub tərəfində olmuşdur. O, qeyd edirdi ki, «Bu ölkədə qarışıqlıq və müharibələrin araları kəsilmir. Buna görə də şəhərlərinin çoxu xaraba, kəndlər isə boş (əhalisiz) qalıb» (3, s.125.). O dövr şəhərlərinin çoxu (Şamaxı, Bakı, Gəncə, Təbriz və b.) qala divarları ilə əhatələnmişdi. O dövr tikililəri içərisində Qala-qəsrlər xüsusi yer tuturdu. Bunlardan ən mühüm obyektlər Abşeron yarımadasına tikilmişdi. Bunlara "Abşeron qəsrləri" deyilirdi. Bu sistemə saray, məscid və müvəqqəti sığınacaq üçün nəzərdə tutulmuş qala da daxil idi. Bunların içərisində ən qədimi Mərdəkan qəsri sayılır. Bu qalanın 1187-ci ildə tikilməsi abidədəki daş kitabədə yazılmışdır. Daş lövhədəki yazıya əsasən qala 1204-cü ildə

tikilmişdir (11, s.230.). Bakı şəhəri XII əsrdə qala divarları ilə əhatələndi. Məlumatlar əsasında güman etmək olur ki, qala divarları I Əxsitanın atası III Mənuçöhr tərəfindən hördürülmüşdü. Bəzi mütəxəssislərə görə isə o, qala divarlarını bərpa etdirmişdi (11, c.230.). Şirvan memarlıq məktəbi XII əsr-XIII əsrin əvvəllərində özünün çiçəklənmə dövrünü yaşayırdı. Mənbələrdə Gülüstan qalası haqqında da məlumatlar vardır. Həmin qala XII əsrdən xeyli əvvəl Şamaxı yaxınlığında inşa olunmuşdur. «Bakı şəhərinin qala hissəsində XI əsrdən əvvələ aid olan yerüstü memarlıq abidələri qalmamışdır. VIII əsrə və daha əvvələ aid olan müxtəlif tikililərin qalıqları şəhərin daha qədim hissəsində-Bakı təpəsinin zirvəsində, torpaq altında qalmışdır» (11, c.146.).

Səlcuqilər dövrünə aid abidələr içərisində Bakıdakı Qız qalasının da adı çəkilir. Bəzi mütəxəssislərin fikrincə bu abidə Şumer dövründən eramızın XII əsrinədək aid olan bir zamana aiddir. Abidə haqqında elmi mübahisələr hələ də davam etməkdədir. Araşdırıcıların əksəriyyəti bu fikirdədir ki, qala müdafiə məqsədi ilə tikilmişdir və XII əsrdən Bakının müdafiə sisteminə daxil olan bir qurğudur (11, c.148-153.). Qalanın təyinatı onu da ortaya qoyur ki, Bakı və onun ətrafında möhtəşəm müdafiə qurğuları olmuşdur və 28 metr ucalığında olan bu memarlıq obyekti müdafiə qurğuları sistemində mərkəzi mövqe tutmuşdur. Bir sıra mütəxəssislər də o fikirdədirlər ki, bu abidə islamaqədərki dövrdə inşa olunmuş və səcdəgah rolunu oynamışdır (12, c.54-63; 9, c.98-112.). Hansı məqsəd üçün tikilməsindən asılı olmayaraq Qız qalası bənzərsiz və nadir memarlıq abidəsidir və Azərbaycan memarlığında xüsusi çəkisi olan sənət incilərindən biridir.

Səlcuqilər dönəmində mühüm memarlıq abidələrindən sayılan abidələr içərisində günbəzlər də az əhəmiyyət kəsb etmir. Bu cür yaraşıqlı günbəzlərə misal olaraq Marağada tikilmiş qülləvari Qırmızı günbəz türbəsidir. Bu türbə 1148-ci ildə Marağada tililmişdir və ən qədim müsəlman xatirə tikililərdən biri sayılır (7, s.139.). Qırmızı günbəz Marağanın ən qədim tarixi binası olmuş, bu binanın gövdəsi kvadrat formalı bürcə oxşayır. Belə ki, incə yonulmuş daşlar bürcün dabanının üzərində yerləşir. Bürcün binası dördkünc günbəzə bənzəyir və onun əsas üzlüyü piramidal formalı olmuşdur və zaman keçidində aradan getmişdir. Aşağı hissələrində isə günbəzin bir az izləri qalmışdır. Binanın bu

hissəsinin altında dördkünc günbəzin altında daxma düzəldilmişdir. Bəzi arxeoloqların fikrincə, bu daxmalar cəsədlər və qəbir daşları üçün düzəldilmişdir. Günbəzin qapısı şimal tərəfdən olmuşdur və 7 pillə ilə günbəzə bağlanır. Xarici fasadlar tağlardan ibarətdir ki, hər iki tərəfdən iki tağın haşiyələri kitabələrdən ibarət olmuşdur və yanları daş və kərpicdən düzəldilmişdir ki, günbəzin giriş qapısının şimal tərəfində yerləşir və 7 pillə vasitəsi ilə günbəzin daxilinə bağlanır. Günbəzin xarici mənzərəsi hər tərəfdən daş və kərpicdən hörülmüş divarlarla müşayiət edilir. Günbəzin qapısı üstündə olan bəzəklər, xüsusilə mavi rəngli kaşılar, gəc işləri, kərpicdən ibarət kufi xətt ilə kitabə, digər bəzəklər ilə birgə binanın gözəlliyini artırır. Bəzi arxeoloqların nəzərincə, bu günbəzin kərpic düzmələrinin incəliyi, həmçinin qırmızı günbəzdə kərpicdən tikilən sütunlar islam və dünya memarlığının şah əsərlərindən sayılır. Bu binanın digər üstün xüsusiyyətlərindən biri kərpicdən olan zəminin mavi və firuzə rəngli kaşıların kompozisiyadır, həmçinin gəcdən bəzəklər, xətlər, naxışlar və həndəsi fiqurlar bu binanın ən mühüm xüsusiyyətlərindəndir ki, bəzi arxeoloqlara görə, bina Səlcuqilər dövrünə aid olaraq, onun tikilmə tarixini 542 h.q. ili/1148 miladi ili təyin etmişlər. Günbəzin qapısı üstündə kufi xəttində olan kitabə binanın banisni və binanın tikilmə tarixini göstərir. Burada ərəbcə yazılarda binanın Əbduləziz ibn Mahmudun əmrı ilə tikilməsini göstərir. Bir başqa kitabədə üfüqi formada olaraq, binanın tarixi qeyd edilmişdir. Şərq tərəfindəki kitabədə Quran ayələri, qərb tərəfdə olan kitabədə binanın və memarının adı yazılmışdır. Beləliklə, məlum olur ki, Qırmızı günbəzin Əbdül Əziz ibn Məhəmməd tərəfindən 542-ci h.q./1148 miladı tarixində tikintisi tamamlanmış və onun memarı Məhəmməd Həsən oğlu olmuşdur. Bu günbəzin adı daha çox öndə işlədilən qırmızı rəngli kərpicləri səbəbindən götürülmüşdür (18, s. 196-197.).

Səlcuqilər dönəminə dair Marağa şəhərinin ikinci tarixi binası Dairəvi bürc sayılır ki, tikintisində də işlənən incə işlər və bəzəklərinə görə Qırmızı günbəz ilə müqayisə etmək olmaz. Lakin bu binada işlədilmiş kaşılar o dövrdə kaşıçılıq və boyama sənayesinin xeyli dərəcədə inkişaf etdiyindən xəbər verir. Bu bürcün qapısı üstündə kufi xəttində iki kitabə yerləşmişdir. Yuxarıdakı kitabə çərçivə daxilində, aşağı kitabə isə qapıüstü tağın altında yerləşir. Bürcün aşağı hissəsində bir daxma yerləşir.

Elə bu səbəbdən də bu bürc Marağının məqbərə və məzarlığına da aid edilir (18, s.197.).

"1186-cı ildə Naxçıvan şəhərinin qərbində ucaldılmış, «Atabəy günbəzi» adı ilə tanınan «Möminə Xatun türbəsi» bişmiş kərpiclə hörülmüşdür. Abidənin memarı Əcəmi Naxçıvani olmuşdur. Türbə zəngin naxışlarla bəzədilmişdir. Abidə xırda kərpiclə üzlənmiş, prizmaşəkilli binadır. Məqbərənin yeraltı qismində onguşəli, bədii baxımdan zəngin olan sərdabə vardır. Bu dini kompleks mərkəzi günbəzli məsciddən, Möminə Xatun türbəsindən, cinahlarda minarələri olan giriş baştığından, məscidin vəqfi olan mədrəsələrdən və s. binalardan ibarət idi. Kompleksdən yalnız Möminə xatun türbəsi qalmışdır, həmin abidənin hündürlüyü hal-hazırda 25 metrdir. Kompleks Məhəmməd Cahan Pəhləvanın birinci zövcəsi Möminə Xatunun şərəfinə inşa olunmuşdu. 1162-ci ildə memar Əcəmi ibn Əbubəkr ən-Naxçıvaninin layihəsi və başçılığı altında tikilmiş, «şeyxlərin başçısı» Yusif ibn Kuseyr üçün nəzərdə tutulmuş türbə də Naxçıvandadır. Türbə səkkizbucaqlı şəkildə inşa olunmuşdur. Abidə bişmiş kərpiclə hörülmüş, kərpiclər əsasında türbənin üzərində həndəsi naxışlar əmələ gətirilmişdir. Azərbaycan ərazisinin mürəkkəb relyefə, sıx çaylar şəbəkəsinə malik olması ölkədə xeyli körpülər tikilməsinin başlıca təbii səbəbi idi. 11 və 15 aşırımlı Xudafərin körpüləri bu tarixi dövrün əzəmətli abidələrindəndir. Körpünün müasir görkəmi XIII əsrə aid olsa da, 15 aşırımlı körpünün hələ VII əsrdə tikildiyi ərəbdilli qaynaqların məlumatları ilə təsdiqlənir. Körpü iri çay daşlarından inşa olunmuşdur və relyef xüsusiyyətləri məharətlə nəzərə alınmışdır. 11 aşırımlı körpüdə də bu cür inşaat prinsiplərinə əməl olunmuşdur. Qazax bölgəsindəki «Qırmızı körpü» («Sınıq körpü» adı ilə tanınır) XII əsrə aid olan memarlıq obyektidir, 4 aşırımlıdır və uzunluğu 175 metrə yaxındır. Bu memarlıq obyekti Azərbaycanda ilkin quruluşunu saxlamış yeganə çoxaşırımlı körpüdür. Bu tarixi dövrdə yaradılmış Cuqa (Culfa) körpüsünün yalnız dayaqları qalmışdır. Lakin orta çağ qaynaqlarında onu «dünya körpülərinin ən gözəli» adlandırmışlar. Gəncəçay üzərindən atılmış 3 çoxaşırımlı körpünün (XI-XII əsrlərə aiddir) yalnız dayaqları və bəzi fraqmentləri qalmışdır" (7, s.139-140.).

Mütəxəssislərin fikrincə, XI əsrdən başlayaraq XIII əsrin əvvəllərinədək Azərbaycanda mədəniyyətin başqa sahələrində olduğu

kimi, memarlıqda da dönüş mərhələsi sayılır. Bu həm də elə bir dövrdür ki, Azərbaycan memarları bütün Şərqdə məşhurlaşmışdılar. Onların adları qala divarlarında əks olunmuşdur. Bunlara misal olaraq Tirmizi şəhərində olan ribat və karvansaranı, Cam minarəsini misal göstərmə olar. Həmin dövrlərdə Azərbaycanın əksəriyyət şəhərlərində, o cümlədən Şamaxı, Bakı, Təbriz, Beyləqan, Naxçıvan, Marağa, Bərdə, Gəncə, Dərbənd şəhərlərində Azərbaycan memarlığının nadir inciləri yaradılırdı. Bu şəhərlər içərisində Şamaxı şəhəri XII əsrdən etibarən Azərbaycan tarixində mühüm əhəmiyyət kəsb edərək qaynar həyat tərzinə malik şəhər kimi tanınırdı. Azərbaycanın ictimai-siyasi, iqtisadi həyatında bu şəhərin müstəsna rolu var idi. Bu şəhər Səlcuq imperiyasının parçlanmasından sonra özünü toparlayaraq Şirvanşahlar kimi bir dövlətin mərkəzi şəhərinə çevrilmişdi. Lakin 1191-ci ildə Azərbaycan atabəyi Qızıl Arslan Şamaxını ələ keçirəndən sonra Şirvanşah I Əxsitan dövlətin paytaxtını müvəqqəti olaraq Bakı şəhərinə köçürdü. Cəmi bir il sonra, yəni 1192-ci ildə baş verən güclü zəlzələ Şamaxı şəhərini yerlə yeksan etdi. Bu da onun Şirvanşahların paytaxtı kimi qalmasına əngəllər yaratdı və paytaxt daimi olaraq Bakı şəhərinə keçirildi (17, v.5. p.640.; 15, c.100-106.).

Orta əsrlər (Səlcuqilər dövrü) Azərbaycan mədəniyyətindən danışanda ölkəmizin qədim diyarından olan Naxçıvandan danışmmaq olmur. Bu dövrdə Naxçıvanda memarlığın inkişafı üçün olduqca əlverişli şərait yaranmışdı. Bu dövr Naxçıvan mədəniyyəti gözəl saraylar, mədrəsələr, məscidlər, köşklər, məqbərələr və məbədlərlə xarakterizə olunur. Naxçıvanda Azərbaycan Atabəylərinin hakimiyyəti zamanı iki mədrəsə tikilmişdi. Bu mədrəsələr Möminə Xatun məqbərəsinin vəqf mülkiyyəti idi. Mədrəsələr vəqfin gəlirləri hesabına maliyyələşirdi. «Şəhər Atabəy Şəmsəddin Eldənizin dövründə, Azərbaycan Atabəyləri dövlətinin paytaxtlarından biri olarkən, özünün ən böyük çiçəklənmə dövrünə çatmışdı» (2, s.189-193.). Azərbaycan şəhərlərinin anası sayılan Təbrizin sürətli inkişaf dövrü Atabəy Qızıl Arslan dövründə baş verdi. «Təbrizin Azərbaycanda iri memarlıq məktəbinə çevrilməsi məhz orta əsr Azərbaycan memarlığının inkişafında dönüş mərhələsi sayıla biləcək XI-XII əsrlərə düşür» (8, s.64-65.). Ərəblər Azərbaycana gələnə qədər Ərdəbil ölkənin ən iri şəhərlərindən biri sayılırdı. Digər bir mərkəzi şəhər isə Gəncə idi. «Azərbaycan Atabəylərinin hakimiyyət dövrü şəhər

həyatının çiçəklənməsi əsridir. Mənbələrin məlumatının azlığı və XII-XIII əsrlərdəki Azərbaycan şəhərlərinin arxeologiyasının öyrənilməməsi (bunu təəssüf hissilə qeyd edirik) tədqiqatçı üçün böyük çətinliklər törədir. Bununla belə yazılı abidələr şəhərlərin qaynar həyatının mənzərəsini yenidən canlandırmaq imkanı verir. Bu dövrün ən iri şəhəri Qafqaz miqyasında deyil, həmçinin bütün Yaxın və Orta Şərqdə ən mühüm ticarət-sənaye mərkəzi olan Gəncə idi. Gəncə əvvəlcə Səlcuq sultanlarının – canişinlərinin paytaxtı, sonra isə Eldənizlərin paytaxtlarından biri olmuşdur» (2, s.185.). Yazılı və arxeoloji mənbələrini məlumatlarına görə o zaman Gəncədə 0,5 milyona qədər əhali yaşayırdı (16; 13;14).

Yuxarıda yazılanlar bir daha göstərir ki, XII əsrdə Azərbaycanda memearlıq və şəhərsalma mədəniyyət yüksələn xətlə inkişaf edirdi. Eyni zamanda İranın Kembric tarixi çoxcilidliyində də bütün bunlara geniş yer ayrılmışdır. Lakin təəssüflər olsun ki, kitabda inkişaf edən memarlığı və şəhərsalma mədəniyyətini fars memarlığı və şəhərsalma mədəniyyəti kimi təqdim etmişdirlər.

Nəticə

Məqalədə XI-XII əsrlərdə Azərbaycanda memarlıq və şəhərsalma mədəniyyətindən söhbət açılır. Eyni zamanda məqalədə Səlcuqların Azərbaycan ərazisinə gəlməsindən sonra nəinki memarlıq və şəhərsalma mədəniyyətinin ləngiməsindən, əksinə daha da inkişaf etməsi haqqında tutarlı faktlar yer almışdır. "İranın Kembric tarixi" kitabında təəssüflər olsunki, bu inkişafı farslarla bağlamışdırlar. Biz isə öz növbəmizdə muxtəlif faktlara söykənərək Azərbaycanda olan bu inkişafın farsların deyil türklərin adı ilə bağlı olduğunu göstərməyə çalışmışıq.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı: Elm, 2007, 608s. +24 illüstrasiya.
2. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər) Bakı, Elm, 1984, 268 səh.
3. Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı: Çaşıoğlu, 1999, 244 s.
4. Gəncə. Tarixi oçerk. Bakı: Elm, 2010, 362 s., s.4.,; 323.Gəncə tarixinin aktual problemləri /III elmi-praktik konfransın materialları. Gəncə: Elm, 2010, 362 s.
5. Gəncə tarixinin aktual problemləri /III elmi-praktik konfransın materialları. Gəncə: Elm, 2010, 362 s.
6. Hacıyev Q. Bərdə şəhərinin tarixi (b.e.ə. III-b.e. XVIII). Bakı: "T" Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2000, 324 s.

7. Qasımov X.S. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: Azpoliqraf, 2008, 448 s.
8. Muradov V. Orta əsr Azərbaycan şəhərləri. Bakı: Maarif, 1983, 157 s. 54 şəkil., s.64-65.
9. Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку: Азернешр, 1986, 311 с.
10. Ашурбейли С. Государство Ширваншахов (VI-XVI вв.). Баку: Элм, 1983, 344 с.
11. Ашурбейли С.Б. История города Баку. Период средневековья. Баку: АГИПО, 1992, 404 с.
12. Велиев Сейран. Древний, древний Азербайджан. Историко-географические очерки. Баку: Гянджлик, 1987, 172 с., с.54-63.
13. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Ремесло и ремесленные центры. Баку: Элм, 1982, 281 с.
14. Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку: Элм, 1987, 212 с.
15. Джидди Г.А. Средневековый город Шемаха (IX-XVII вв.). Историко-археологическое исследование. Баку: Элм, 1981, 175 с.
16. 16.Эволюция восточных обществ: Синтез традиционного и современного. Москва: Наука, 1984, 581 с.
17. The Cambridge history of İran. In eight volumes. Volume 5. The Saljuq and mongol periods. edited by J.A.Boyle. Cambridge at the university press, 1968, 770.
18. Əz Səlcuğiyə ta Səfəviyə (Səlcuqlardan Səfəviyyə qədər), Meşkati Nəsrullah, Tehran, 1964, Bank Bazərqani İranin nəşriyyati, 433 s., s. 196-197.
19. Memariye İran dər doreye İlxanian, Nevisənde: Donald Vilber, Motərcem: Əbdullah Fəryar, sale 1346, 300s.
20. Menare və menareye təzini dər asare tarixiye İran, Honər və mərdom, s.69, Honər və mərdom, doreye 11, Menare və menareye təzini dər asare tarixiye İran, Əbbas Zəmani,Fərvərdin 1380, şomareye 41-42., şomareye 121, (Abane 1351), s.62-72.
21. Peydayeşe menare dər eslam, Pədid avərənde:Məhmud Fazele Yəzdi motləq. şomareye nəşriyye: 15, sale 1373,mahe 5-6, 56s.

S. F.Abdullayeva

ARCHITECTURE AND URBAN CULTURE AT XI- XII CENTURIES IN AZERBAIJAN (ON THE GROUND OF THE WORK " THE CAMBRIDGE HISTORY OF IRAN")

SUMMARY

At the article is talked about architecture and urban culture at XI-XII centuries in Azerbaijan. Also at the article took place fit facts as after coming saljuks to the territory of Azerbaijan Architecture and urban culture didnt delayed on the contrary the further developted. Unfortunately at the book Cambridge history of İran all these devlopment was closed with persians. We, in turn, based on different facts tried to show this devlopment in Azerbaijan, with closed turks, not persians.

С.Ф.Абдуллаева

АРХИТЕКТУРА И КУЛЬТУРА ГРАДОСТРОИТЕЛЬСТВА АЗЕРБАЙДЖАНА В XI-XII ВЕКАХ (НА ОСНОВЕ РАБОТЫ «КЕМБРИДЖСКАЯ ИСТОРИЯ ИРАНА»)

РЕЗЮМЭ

В статье говорится об архитектуре и города строительства в Азербайджане в XI-XII веках. В то же время в статье даны достоверные факты о том, что во время правления Сельджуков на территории Азербайджана Архитектура и города строительства не задерживали, а наоборот, развивались намного быстрее. Но,к сожалению в книге «Кембриджская история Ирана» это развитие связывали с фарсами. И, мы в свою очередь, основываясь на различные факты, постарались показать, что это развитие связано не с именами фарсов, а тюрков.

AZƏRBAYCAN TORPAQLARININ ERMƏNİ KİLSƏSİ TƏRƏFİNDƏN ƏLƏ KEÇİRİLMƏSİ

Güntəkin NƏCƏFLİ

Açar sözləri: Qaraqoyunlu Cahanşah, erməni kilsəsi, Səfəvi dövləti, Azərbaycan torpaqları, ermənidilli mənbələr.

Key words: Garagoyunlu Jahanshah, Armenian Church, Safavi state, Azerbaijani lands, Armenian- language.

Ключевое слово: Гарагоюнлу Джаханшах, Армянская церковь, Сефевидского государства, землях Азербайджана, армяноязычное источники.

Qriqorian missionerləri istisna edilməklə ermənilərin Azərbaycan torpaqlarında peyda olması prosesi erməni katolikosluğunun Kilikiyadan Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisinə köçürülməsindən sonra başlanmışdır. Belə ki, Qaraqoyunluların hakimiyyəti dövründə Çuxursəd vilayətinin tarixində sonralar bütün Azərbaycan üçün son dərəcə ağır problemlər yaradan bir hadisə də baş verdi: Qaraqoyunlu hökmdarı Cahanşahın icazəsi ilə 1441-ci ildə erməni katolikosluğunun fəaliyyət mərkəzi Kilikiyanın Sis şəhərindən İrəvan yaxınlığındakı Üçkilsə (Üçmüədzin*) monastırına köçürüldü [17,54,98,100 və s.]. Bununla Cənubi Qafqazda qriqoryanlığı yayan erməni missionerləri üçün əlverişli şərait yarandı.

Bu vaxtdan Azərbaycanın Çuxursəd diyarında yerləşən Üçkilsə bütün ermənilərin dini mərkəzinə çevrildi. Semion İrəvanlı yazır: "1441-ci ildən başlayaraq günümüzədək (1765-ci il nəzərdə tutulur – G.N.) erməni

---

Güntəkin Nəcəfli –t.ü.f.d. , AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi

* ***Üçkilsə*** və ya ***Üçmüədzin*** qədim Azərbaycan-Alban monastırı idi. ***Üçmüədzin*** sözünün tərkibindəki "üç" sözü Azərbaycan türkcəsində say, "müədzin" isə ərəb dilində azan verən, vəzifələndirilən anlamındadır. Matenadaranda saxlanılan orta əsrlərə aid alqı-satqı sənədlərində də məbədin adı Üçkilsə şəklində yazılmışdır [bax: 9,73]. Ermənilər tərəfindən saxtalaşdırılaraq "***Eçmiədzin***" adlandırılan bu məbədin (sonralar kilsənin) adının erməni dilində heç bir mənası olmadığından hətta, "Cambr"ın rus dilinə tərcümə edilmiş variantına şərh yazan P.T.Arutyunyan uzun-uzadı izahlardan istifadə edərək sözün mənasını fransizca izah etməyə çalışmışdır [bax: 7,374].

katolikosları öz vəzifəsinə müsəlman (Azərbaycan –G.N.) hökmdarlarının razılığı və hökmdar tərəfindən imzalanan xüsusi icazə sənədi ilə təyin olunur" [17,54]. Bu dini mərkəzin daima Azərbaycan dövlətlərindən asılı olmasına baxmayaraq, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi hökmdarları erməni katolikoslarını himayə edərək onlara sərbəstlik verdilər.

Qeyd etmək lazımdır ki, erməni katalikosluğunun mərkəzinin 1441-ci ildə Çuxursəd (İrəvan) bölgəsinə köçürülməsinə qədər burada ermənilərə məxsus heç bir kənd və yaxud torpaq sahəsi olmayıb. Hətta, erməni katalikosluğunun yerləşdiyi, İrəvan şəhərindən 18 km. uzaqda yerləşən Valarşabad kəndi və onun mülkləri 1443-cü ildən başlayaraq hissə-hissə müxtəlif vasitələrlə Azərbaycan türklərindən alınmışdı. Erməni dilində heç bir izahı olmayan Valarşabad toponimi Arşakilər (Arsaklılar) sülaləsindən olan Sanatrukun oğlu Valar şahın (194-216) adı ilə bağlıdır. Uzun tarixi dövr ərzində Valarşabad kimi işlənmiş bu toponim erməni qaynaqlarında da təhrif olunaraq "Vağarşapat" ("Վաղարշապատ") formasına salınmışdır [Bax: 15;16]. Şopenə görə, Valarşabadın əsası Valar şah tərəfindən qoyulmuşdu [Bax: 13,116].

Məsələn: Azərbaycan Qaraqoyunlu hökmdarı Cahanşahın razılığı ilə Üçkilsə katolikosu təyin olunan (1443) Qriqor Makulu, tanınmış azərbaycanlı nəsilnin nümayəndəsi, azyaşlı Səid bəyin mülkü olan Üçkilsə (Valarşabad) kəndinin bir hissəsini 8 min 40 dinara, [17,99-100] 3 il sonra isə qalan hissəsini və əlavə 6 kəndi müsəlman Rüstəmdən 90 min dinara satın ala bilmişdi [17,100-103].

Xaricdəki havadarlarının və xristian missionerlərin hesabına varlanan erməni kilsəsi Azərbaycan hakimlərindən pulla ermənilərə yeni-yeni torpaqlar və kəndlər alaraq Azərbaycanın tarixi torpaqlarında özlərinə daimi məskənlər yaradırdılar. Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin himayəsindən istifadə edən Üçkilsə katolikosları və onlarının Avropadakı havadarları Azərbaycanın qərb torpaqlarında ermənilərin kök salıb çoxalmasına başçılıq etmişlər. Bunu Üçkilsə katalikoslarının Azərbaycan hökmdarlarının qılığına girərək onlardan aldıqları kəndlərin, torpaqların və digər əmlakın* Matenadaranda saxlanılan alqı-satqı

* Bax: Paraqrafın sonuna əlavə edilmiş cədvəl №2.

sənədləri tam açıqlığı ilə sübut edir [17;9;10;11;8].

Çuxursəd bölgəsindəki Azərbaycanın torpaqlarını ermənilərin hansı yollarla ələ keçirilməsi ilə bağlı Matenadaranda saxlanılan 1687-ci il tarixli bir sənəd olduqca maraqlıdır. Həmin sənəddə qeyd olunur ki, biz (yəni ermənilər - G.N.), Azərbaycan türklərinə məxsus olan torpaqları "…ya satın alır, ya zəbt edir, ya sahibinin əlindən çıxarır, ya rüşvət verib alır, ya bəxşiş kimi əldə edir və yaxud da zorla ələ keçiririk" [7,28]. "Cambr"ın rus dilinə tərcümə edilmiş variantına ön söz yazan P.T.Arutyunyan bu sənədi şərh edərkən etiraf etməli olur ki, "məhz bu yollarla XV-XVIII əsrlərdə erməni kilsəsinin və dünyəvi feodallarının torpaq mülkiyyəti formalaşmışdı" [7,28].

Qara Yusifin (1410-1420) ölümündən sonra Azərbaycan Qaraqoyunlu dövlətində yaranmış mürəkkəb vəziyyətdən yararlanan erməni kilsəsi Azərbaycanın Çuxursəd, Naxçıvan və Qarabağ bölgəsinə məxsus kəndləri müxtəlif yollarla satın almağa başladı. Bütün bu prosesləri erməni müəllifi A.D.Papazyanın Matenadaranda saxlanılan fars dilli sənədlər əsasında tərtib etdiyi sənədlər toplusunda [11] da izləmək mümkündür. A.D.Papazyanın təqdim etdiyi sənədlərin hətta erməni dilində olan variantlarında dəfələrlə Çuxursəd, Naxçıvan və Qarabağ vilayətlərinin "Azərbaycan ölkəsi"nə ("Ազէրբայշանի երկրի") məxsus olması yazılmasına baxmayaraq sənədləri rus dilində şərh edən müəllif bu "Azərbaycan ölkəsi"ni "Ararat ölkəsi" kimi təqdim etməkdən çəkinməmişdir [11,55,60,203 və s.].

Qeyd etmək lazımdır ki, Üçkilsə və onun ətrafındakı Azərbaycan torpaqlarında məskunlaşan ermənilərin burada daha da möhkəmlənməsinə Səfəvi hökmdarı I Şah Abbas (1587-1629) geniş imkanlar yaratmışdır. Belə ki, onun fərmanı ilə ermənilərə Səfəvi dövlətinin xarici ticarət əlaqələrinin həyata keçirilməsində geniş imtiyazlar verilmiş, dövlətin ərazisində yerləşən erməni kilsələrinə xüsusi güzəştlər edilmişdi [12,181-182]. Bunu o zaman Üçkilsədə məskunlaşan ermənilərin özləri də təsdiq edirdilər. Bununla bağlı bir fakta diqqət yetirək. Üç kilsədəki erməni icmasının başçısı Filippos (1633-1655) Səfəvi hökmdarı II Şah Abbasa (1642-1666) müraciətində yazırdı: "Hazırda bizim vilayətdə yaşayanların (yəni ermənilərin – G.N.) əksəriyyəti buraya müxtəlif vilayətlərdən siz

əlahəzrət hökmdarın tükənməz qayğısı və sevgisi nəticəsində köçürülüb. Üç kilsədəki 300 mömin gecə-gündüz sizə dua edir ki, onlar burada yaşamaları üçün tamamilə əlahəzrət hökmdarın mərhəmətinə borcludurlar" [10, 368-369]. Bütün bunlar Azərbaycanın şimal-qərb torpaqlarında yaşayan ermənilərin yerli deyil, bu torpaqlara gəlmə olduqlarını bir daha təsdiq edir.

Ermənilərin Azərbaycan torpaqlarını müxtəlif vasitələrlə ələ keçirərək burada məskunlaşmasında qeyd etdiyimiz kimi, erməni kilsəsi və onun Avropadakı havadarları əsas rol oynamışdır. Erməni keşişi T.Kiğamiyans "Erməni hərəkatının tarixçəsi" əsərində ermənilərin "qurtuluş hərəkatı"nın onların vahid mərkəzdən Qriqoriyan kilsəsi tərəfindən idarə olunduqları zamandan başlandığını qeyd edərək yazırdı ki, Şərqə əl uzatmağa çalışan avropalılar XVI-XVII yüzilliklərdə Kilikiyadan İrana (Səfəvi dövləti ərazisinə - G.N.) köç edərək burada məskunlaşan ermənilərin dini duyğularını alovlandırırdılar [4,3-4]. Dini missionerlər Avropadan göndərilən maddi vəsait hesabına Şərq ölkələrində məskunlaşan ermənilər üçün pulsuz xəstəxanalar, məktəblər açır, mətbəələr qurur, gizli silahlı dəstələr yaradır və onların vasitəsi ilə sadə insanları və dindarların bir çoxunu öz təsirləri altına alırdılar. T.Kiğamiyansa görə, onların məqsədləri ermənilər, o cümlədən Şərq dövlətlərinin tərkibində yaşayan xristianları Roma papasının təsiri altına almaq və bundan yararlanaraq Avropa dövlətlərinin əllərini İslam məmləkətinin qibləgahı üzərinə qoymaq idi [4,2-3].

Qeyd edək ki, VI əsrdən başlayaraq bizim günlərədək hər bir erməni ailəsi kilsə fonduna ianə şəklində müəyyən "üzvlük haqqı" ödəmişdir. Təsadüfü deyil ki, bu vəsait ermənilərin özgə torpaqlar ələ keçirmək uğrunda mübarizəsinə həmişə maddi dəstək rolunu oynamışdır.

Erməni qriqoryan kilsəsinin Azərbaycan torpaqlarını müxtəlif vasitələrlə ələ keçirməsi XVI-XVII əsrlər, XVIII əsrin birinci qərinəsində baş vermiş Səfəvi-Osmanlı müharibələri və onun acı nəticələri ilə sıx bağlıdır. Çünki, qeyd olunan müharibələr zamanı yerli müsəlman əhalisi Azərbaycan türkləri ya qırılıb tələf olur, ya da şiə məzhəbindən olduqlarına görə Osmanlı ordusunun hücumları zamanı doğma torpaqlarını tərk etməyə məcbur olurdular. Bu müharibələrdə yaranmış vəziyyətin hər bir məqamdan məharətlə istifadə edən erməni kilsəsi yeni-

yeni Azərbaycan torpaqlarını osmanlılardan satın alırdılar.

Dövrün qaynaqlarına istinad edən Türkiyə tarixçisi F.Kırzıoğlunun məlumatına görə, 1583-cü ilin avqustunda Fərhad paşanın başçılıq etdiyi Osmanlı ordusu İrəvan bölgəsinin Şörəyel və Talın mahallarına daxil olan zaman yerli əhali öz torpaqlarını tərk edib Ağrıdağ və onun yaxınlığındakı yaylaqlara çəkilmişdi [5,13]. Belə hallarda yaranmış fürsətdən istifadə edən erməni kilsəsi osmanlıların işğal etdikləri Azərbaycan kəndlərini onlardan əlverişli qiymətə satın alır və Türkiyənin müxtəlif vilayətlərindən buraya axışan ermənilər həmin ərazilərə yerləşdirirdi.

Osmanlı ordusunun Azərbaycana yürüşləri zamanı yerli müsəlman əhalisinin tərk etdiyi torpaqların erməni kilsəsi tərəfindən satın alınmasını təkcə Çuxursəd bəyləribəyliyində deyil, Gəncə-Qarabağ bəyləribəyliyində də izləmək mümkündür. İbrahim Rəhimizadənin "Kitabi-Gəncineyi-fəthi-Gəncə" əsərində verilmiş məlumatlarda da eyni vəziyyətin təkrar olunduğunu görürük [2,196,199]. H.Məmmədov İbrahim Rəhimizadənin "Gəncineyi-fəthi-Gəncə" əsərinə istinadən qeyd edir ki, "1588-ci ildə Gəncə-Qarabağ bəylərbəyi, Məhəmməd xan Qacar Osmanlı ordusunun Gəncə şəhərinə yaxınlaşmasından bir neçə gün əvvəl tabeliyində olan 50 minə qədər insanı və öz ailəsini əyalətdən çıxarıb, Araz çayını keçərək Qaradağda yerləşdirsə də, bura gəlmiş Osmanlı ordusu onları tamamilə məhv etmişdir. Gəncə-Qarabağ əyalətinin qeyri-müsəlman olan məlikləri isə gəlib osmanlılara itaətini bildirdilər və bunun müqabilində öz vəzifələrində qalmaqla yanaşı, həm də yeni torpaqlar da aldılar". Rəhimizadənin qeyd etdiyi yeni torpaqların müsəlmanların (türklərin) qoyub getdiyi yaşayış məskənlərinin olması heç bir şübhə doğurmur [1,15].

Uzun müddət ara vermiş Səfəvi-Osmanlı müharibəsinin XVIII əsrin I rübünün sonlarında yenidən başlaması yuxarıda qeyd etdiyimiz eyni vəziyyəti yenidən təkrarladı və Azərbaycan türklərinin azalmasına səbəb oldu. Belə ki, 1725-ci ilin avqustunda Gəncə şəhərini ələ keçirmiş osmanlılar şəhərdə heç kimin qalmadığını görmüşdülər. "Şəhər əhalisi Gəncəni tərk etmiş və "Müfəssəl dəftər"də qeyd edildiyi kimi, ətraf kəndlərə və nahiyələrə köçmüşdülər. ...Osmanlılar şəhər boş qalmasın deyə Gəncə yaxınlığında olan Kilsəkəndi şəhərə birləşdirərək ermənilər üçün süni şəkildə bir məhəllə yaradıb, adını da "məhəlleyi-Kilsə kəndi"

qoydular" [1,16].

Gəncə-Qarabağ əyalətinin türk-müsəlman əhalisinin yaşadığı məskənlərini məcburən tərk etməsini yalnız Gəncə şəhərində deyil, demək olar ki, əyalətin bütün nahiyələrində izləmək mümkündür. H.Məmmədov bu haqda yazır: "Yevlaq-Qaramanlı, Bərdə, Bayat nahiyələrinin sahibsiz qalan kəndlərinin əhalisinin hamısı, Otuzikilərin bir qismi Şirvan əyalətinə, Şahsevən, Kəbirli və Kəngərli tayfalarının, demək olar ki, hamısı Muğan düzünə, Salyan bölgəsinə köçmüşdülər" [1,16]. 1723-1735-ci illərdə baş vermiş Səfəvi-Osmanlı müharibəsinin nəticəsində Azərbaycanın Gəncə-Qarabağ bölgəsində türk-müsəlman əhalinin məcburən tərk etdiyi bəzi kəndlərin siyahısı məqalənin sonuna əlavə edilmiş cədvəldə verilmişdir. *

Beləliklə, İstər İrəvan, istərsə də Gəncə-Qarabağ bölgəsində türk-müsəlman əhalinin doğma torpaqlarını tərk etməsi Osmanlı hakimiyyətini qəbul edən yerli xristianlar və həmçinin Osmanlı ərazisindən Səfəvi torpaqlarına gələn ermənilər tərəfindən torpaqlarımızın satın alınması ilə nəticələndi. Həmin bölgələrin türk-müsəlman əhalisinin sayı isə süni şəkildə azaldı.

Üçkilsə katolikosları Azərbaycanın qərb torpaqlarında ermənilərin sayını artırmaq üçün əllərinə düşən hər bir imkandan istifadə edirdilər. Məsələn, Nadir şah Muğanda tacqoyma mərasimindən sonra Azərbaycan xanlarının hamısına erməni əsirləri payladı. Bu zaman şahın qılığına girmiş katolikos Abraham Kretasi xristian məliklərinin köməyi ilə Azərbaycan torpaqlarında ermənilərin sayını artırmaq üçün Xorasandan və müxtəlif yerlərdən alınmış erməni əsirlərin bir qismini də İrəvana bölgəsinə göndərdi [6,252-255].

Məhz yuxarıda qeyd olunan səbəblər nəticəsində ermənilər zaman keçdikcə Azərbaycanın şimal-qərb torpaqlarında - öncə Çuxursəd bəylərbəyliyinin, sonra isə İrəvan xanlığının və Qarabağın əsasən dağlıq hissələrində məskunlaşa bildilər. Bu proseslərin nəticəsi ermənilərin Azərbaycan torpaqları hesabına özlərinə dövlət yaratmaq ideyasına təkan verdi. Səfəvi dövləti zəifləyən kimi onun ərazisində bərqərar olan erməni

* Bax: Paraqrafın sonuna əlavə edilmiş cədvəl №1.

qriqoryan kilsəsi özünə Avropada havadarlar axtarmağa başladı və bu niyyəti baş tutmadıqda üzünü Rusiyaya çevirdi [bax:14;8].

XVII əsrin sonu – XVIII əsrin əvvəllərindən başlayaraq Avropa dövlətləri Osmanlı və Səfəvi imperiyalarının, həmçinin Şərqin digər islam dövlətlərinin torpaqlarını ələ keçirmək üçün fəal işğalçı siyasət yeritməyə başladılar. Müsəlman dövlətlərinin daxili işlərinə müdaxilə etmək üçün onlar bu bölgələrdə məskunlaşmış xristianların, xüsusilə də daxildə pozuculuq və təxribatçılıq əməlləri törətmək üçün ermənilərin yardımına bel bağlayırdılar. Əslində "xristianlara yardım" bəhanəsi Avropa dövlətləri üçün öz siyasətlərini həyata keçirməkdə bir vasitə idi. Onların bu məqsədlərindən yararlanan ermənilər öz bədnam niyyətlərini həyata keçirməyə başlayırlar.

Cədvəl №1.

1723-1735-ci illərdə baş vermiş Səfəvi-Osmanlı müharibəsinin nəticəsində Azərbaycanın Gəncə-Qarabağ bölgəsində türk-müsəlman əhalinin məcburən tərk etdiyi kəndlərin siyahısı (Cədvəl H.Məmmədov verdiyi məlumat mənbə əsasında daha da təkmilləşdirmə və əlavələrlə tərtib etdilmişdir).

Sıra N-si	*Nahiyə, liva və qəzaların adı*	*Kəndlərin ümumi sayı*	*Əhalisi tamamilə tərk edilmiş kəndlərin sayı*	*Məlumatın hazırlandığı səhifələr*
1	*Xaçın*	*78*	*37*	*342-362*
2	*Keştək*	*37*	*19*	*374-379*
3	*Vərəndə*	*61*	*22*	*380-400*
4	*Dizaq*	*76*	*31*	*401-428*
5	*Köcəz*	*19*	*14*	*429-432*
6	*Arasbar*	*75*	*66*	*472-484*
7	*Həkəri*	*26*	*25*	*485-488*
8	*Zarıs*	*14*	*14*	*433-434*
9	*Keştasf*	*7*	*7*	*435*

Cədvəl №2.

Erməni katalikosluğunun 1441-ci ildə Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisinə Üçkilsəyə köçürülməsindən sonra erməni kilsəsinin ələ keçirdiyi Azərbaycan torpaqları (Cədvəl XVIII əsr Üçkilsə katalikosu Simeon İrəvanlının "Cambr" əsərinin erməni dilində olan variantına əsasən hazırlanmışdır [bax:17, 99-129;8,225-231].

Sıra №si	*Erməni kilsəsinin ələ keçirdiyi Azərbaycan torpaqları*	*Məlumatın hazırlandığı səhifələr*	*Erməni kilsəsinin ələ keçirdiyi Azərbaycan torpaqlarının əsil sahibləri və ermənilərin həmin mülkü hansı yollarla ələ keçirməsi haqda məlumat*
1	*Valarşabad kəndi və onun mülkləri (Qərbi mahalı)*	*99-108*	*Kəndilk dəfə tanınmış Azərbaycanlı nəslinin nümayəndəsi, azyaşlı Səid bəyə məxsus idi. 1443-cü ildə Üçkilsə katolikosu Makulu Qriqor (1443-1455) bu kəndin bir hissəsini ondan satın ala bilir.Lakin,çox keçməmiş mübahisə yaranır, azərbaycanlı Mələk xatun və 14 nəfər miras sahibi iddia qaldıraraq satılan mülkü geri qaytara bilir. 1445-ci ildə katolikos Qriqor yenidən müsəlman Rüstəmdən bu kəndin bir hissəsini ala bilir.* *XVII əsrdə Üçkilsə katolikosu Serdpion (1603-1625)İrəvan bəylərbəyi Əmirgünə xan Qacara(1604-1625) kəndin və onun mülklərindən alınan verginin Üçkilsəyə məxsusluğunu təsdiq etdirə bilir.* *İrəvan bəylərbəyi Təhmasibqulu xan (1625-1635) kəndin mülklərini geri qaytarıb xəzinə torpaqlarına qatdı və Valarşabad kəndini şəxsi mülk kimi satıb-bağışlamaq hüququnu yalnız onun ilk sahibləri olan müsəlmanlara (Azərbaycan türklərinə- red.) verdi.* *II Şah Abbas (1642-1667) dövründə Üçkilsə katolikosu Flippos (1633-1655) şahın qılığına girərək kəndin guya kilsəyə məxsusluğunu təsdiqlədə bildi.* *Əmirgünə xanın oğlu Abbasqulu bəy (1663-1666) Valarşabad kəndinin mülklərini yenidən geri qaytarıb xəzinə torpaqlarına qatdı. Üç kilsə katolikosu Culfalı Hakop (1655-1682) Süleyman şahın (1667-1694) qılığına girərək kəndi raqam olaraq ala bilir.* *Üçkilsə katolikosu Naxapet (1691-1709) şah Sultan Hüseyndən (1694-1722) bu kəndi və onun mülklərini yenidən rəqam alaraq möhkəmləndirə bilir.* *Osmanlı sərkərdəsi Rəcəb paşanın (1724-1727) qılığına girən Üçkilsə kAtolikosu Astvasatur (1714-1730) Valarşabad kəndi və kəndin mülklərinin kilsəyə məxsusluğunu təsdiqlədə və digər kəndləri** də ələ*

			keçirə bildi. Nadir şahın (1736-1747) qılığına girən Üçkilsə katolikosu Kənəkirli Abraham (1734-1736) bu kəndəlrin guya Üçkilsəyə məxsus olmasını təsdiqlədə bildi
2	Oşaqan kəndi (Qərbi mahalı)	37,108-112	Kənd ilk dəfə olaraq Üçkilsə tərəfindən Səədlu tayfasından olan Sultan bəydən alınıb. Kənd muğanlı tayfasından olan Azərbaycan türklərinin irsi mülkiyyəti olub. Yerli Azərbaycan türkləri - Baba, Bəngəli və Bəyim kəndi geri qaytara bilsə də yenidən katolikosa satmağa məcbur olurlar. Bu alqı-satqı sənədi türk dilindədir. Sonra ayrı-ayrı vaxtlarda yerli sakinlər Həsən və Hüseyn, Sultan bəyin nəvəsi İsmayıl bəy, Məclumqulu bəy, Zeynəbşah, Təhmasib bəyino ğlu Məclum bəy, Əmiraslanbəyin oğlu Hüseyn bəy və digərləri bu kəndi və onun mülklərini geri qaytara bilir. Lakin, Osmanlı sərkərdəsi Rəcəb paşanın (1724-1727) qılığına girən katolikos Astvasatur kəndi ələ keçirərək kilsəyə məxsusluğunu təsdiqlədə bildi.
3	Franqanos (Qərbi mahalı)	112-114	İrəvanlı Əmir bəyin oğlu Abdullanın mülküdür. O, kəndi Hacı Xızır oğlu Hacı İbrahimə və Süleymana satdı. Bundan sonra kənd digər Azərbaycan türklərinin Aralıq kənd sakini Əli ağaya,onun ölümündən sonra oğlanları İbrahim, Yaqub və Məhəmmədə, qızı Hüri xanıma və ölən qardaşları Teymur xanın arvadına, daha sonra isə Hüseyn xanın qızı Bəyim xanıma məxsus olub. Lakin, kəndi Üçkilsə katolikosu Culfalı Akop ələ keçirə bilir. Katolikos Abrahamın dövründə kənd yenidən öz keçmiş sahiblərindən olan Mustafa bəy tərəfindən geri alınır. Səfəvi-Osmanlı müharibələri nəticəsində kənd xaraba qalır. 1760-cı ildə Üçkilsə katalikosu Şamaxılı Hakop (1759-1763) müxtəlif yerlərdən ermənilərin bu kəndə köçürülməsinə İrəvan xanı Hüseynəli xan Qacardan (1759-1783) icazə aldı. Beləliklə, Üçkilsə monastırı yenidən kəndi zəbt edərək öz mülkiyyətinə keçirə bildi.
4	Məsdərə (Qərbi mahalı)	114-115	XVI əsrdə kəndin sakini Müqəddəm Bağır xanın oğlu Məhəmməd ağa kəndi Tərxan Sarkis oğlu adlı bir ermənıyə satır. Dəfələrlə əldən-ələ keçən bu kənd XVIII əsrin əvvəlində Üçkilsə katolikosu Culfalı Aleksandr (1707-1714) tərəfindən ələ keçirilir. Alqı-satqı sənədi türk dilindədir.

5	*Kirəşli və ya Piridərviş (Aparan mahalı)*	*116-117*	*Kəndi katolikos Qriqor əmir Rüstəmdən alıb. Sonralar katalikos Culfalı Akopun dövründə Qasım adlı müsəlman kəndin ona aid olduğunu bildirən şikayət edir, lakin İrəvan xanı və Şeyxülislam bu şikayəti təmin etmir. XVII əsrin sonlarında Hacıbəy Şahgəldinin oğlu Allahverdi bəy Qacar kəndin mülklərini geri qaytara bilir.* *XVIII əsrin əvvəllərində İrəvanlı Eminin oğlları Əliqulu və Zeynalabdin anasından qalma alqı-satqı sənədlərini məhkəməyə təqdim edərək kəndin onlara məxsusluğu haqda idda qaldırır. Katolikos Naxapet pul ödəyərək kəndi əlində saxlaya bilir.* *Nadir xan Əfşarın qılığına kirən katolikos Abraham 1735-ci ildə kəndi yenidən ələ keçirərək Üçkilsəyə məxsusluğunu təsdiqlədə bildi.*
6	*Muğni (Qərbi mahalı)*	*117-119*	*Kəndi ilk dəfə katolikos Qriqor əmir Rüstəmdən alıb. Lakin Culfalı Akopun dövründə İrəvanlı Əbdülbaqi və oğlu Əlidostu II şah Abbasa (1642-1667)kəndin mülklərinin onlara aid olduğunu və katolikosun qeyri-qanuni istifadə etdiyi haqda şikayət etdi. II şah Abbas İrəvan xanı Nəcəfqulu bəyə bu məsələni həll etməyi tapşırır. Ancaq, Əbdülbaqiqin ölümü şikayətin həll olunmasını yarımçıq qoyur. Əbdülbaqinin arvadı Şəhribanu xanım qardaşı Yusiflə bu məsələni yenidən qaldırdı. Lakin, müxtəlif vasitələrlə şeyxülislamı ələ alan Üçkilsə xadimləri məsələni kilsənin xeyrinə həll edə bildi.* *1760-cı ildə İrəvanlı Hüseynəli xanın vəziri İbrahim ağa kəndin mülklərini geri qaytara bilsə də 1768-ildə Üçkilsə bu kəndi yenidən ələ keçirə bildi.*
7	*Dibəkli (Aparan mahalı)*	*119*	*XVI əsrin sonlarında kəndin mülklərini Qoyulhisarlı Vəli ağanın oğlanları Məhəmməd ağa və Əhməd ağa xəlifə Alpoud Xəlilin oğlu İbrahim xəlifəyə satdı.* *1682-ci ildə Qacarlar tayfasından olan Hacıbəyli Şahgəldinin oğlu Allahverdi Qacar bu kəndin mülkləri ilə yanaşı Kirəşli və Keşişkəndi də geri qaytara bildi. Lakin, XVIII əsrin əvvəllərində Vardapet Stepan İrəvan xanına (Çuxursəd bəylərbəyi –red.) şikayət edərək kəndin mülklərini yenidən satın ala bilir. Nadir şahın (1736-1747) qılığına girən Üçkilsə katolikosu Abraham Kənəkərli (1734-1736) bu kəndin Üçkilsəyə məxsus olmasını təsdiqlədə bildi.*
8	*Keşişkənd və ya Aydındəvriş və ya*		*Kənd Gülfərhad ağaya məxsus olub. 1082-ci(XVII əsrin 70-ci illəri) ildə katolikos Akop onun oğlu*

	Çələbikənd (Qırxbulaq mahalı)	120	Gülismayıl ağadan kəndin mülklərini satın almışdır. Bir müddət sonra Gülismayıl ağa İrəvan xanı Səfi xana şikayət edir. Kəndin mülklərini satın alan Üçkilsə katolikosları həmdə onun qədim alqı-satqı sənədlərini əldə edə bilmişdilər.
9	Noraqyuq (Qırxbulaq mahalı)	121	Əvvəllər Məhəmmədqulu xanın olub, Sarkisin oğlu Akopcan (türkcə ona Manşır və ya Sarı xan deyirlər) II şah Abbasa(1642-1667) şikayətə gedərək kəndi ələ keçirə bilir və 1660-cı ildə Üçkilsəyə satır.
10	Nork (Qırxbulaq mahalı)	122	Təbrizli Əhməd bəyin oğlu Əlidost və İrəvanlı Müslümün oğlları Məhəmməd Sadiq və Məhəmməd Maqsud Əmirgünə xanın oğlu Nəzərgünə xana satmışdır. 1674-cü ildə Üçkilsə katolikosu Culfalı Akop (1655-1682) bütün mülkü ilə bərabər kəndi Sarıxan adlı bir nəfərdən alan zaman onun qədim sənədlərini də əldə edə bilmişdir.
11	Eqvard (Qırxbulaq mahalı)	122-123	Kəndin mülkləri ilk öncə Muradbəyə məxsus idi. II şah Abbasa şikayət gedən ermənı Akopcan kəndi əldə edə bilir. Sonralar bu kəndin mülkləri xalisə olaraq dövlətin ixtiyarına keçmişdi. Lakin, 1768-ci ildə Hüseynəli xanın (1759-1783) dövründə yenidən Üçkilsə katolikoskları tərəfindən ələ keçirilə bilir.
12	Yayıcı (Dərəçiçək mahalı)	124-125	Bu kənd vaxtilə İrəvanlı Xoca Setə (Sarıxana)məxsus olub. 1660-cı ildə Üçkilsə katolikosu Culfalı Akop əldə edə bilmişdir.
13	Əmirqyuq (Dərəçiçək mahalı)	124-125	Kənd əvvəlcə Məhəmmədqulu xana məxsus olub. Xoca Akopcan II şah Abbasın yanına şikayətə gedərək kəndi ələ keçirə bilir və bir az sonra kəndi Üçkilsəyə satır.
14	Məlikqyuq (Aparan mahalı)	125	Kənd əvvəlcə Alpoudlu İbrahimin oğlu Rzaquluya məxsus olub. Lakin, kəndi Üçkilsə katolikosu Culfalı Akop əldə edə bilmişdir.
15	Bətrinc (Qərbi mahalı)	125-126	Bətrinc kəndini Üçkilsə katolikosu Makulu Qriqor əmir Rüstəmdən alıb. Ölkədə vəziyyət gərginləşən kimi müsəlmanlar kəndin mülklərini geri qaytara bilir. Qədim alqı-satqı sənədinə görə isə Hüseyn bəyin oğlu Əlican bəy kəndin mülklərin Yaqub bəyin oğlu İbrahim bəyə satmışdı. Lakin, Üçkilsə katolikosu Culfalı Akop kəndi Şahəhmədin oğlu Bayrambəydən alaraq kilsənin mülküyətinə qata bilir.
16	Çaşırlı (Qərbi mahalı)	126-127	Kənd əhalisi kəndi qədimdən öz razılığı ilə vəqf olaraq kilsəyə verib. Ehtiyacları olduğu dövrdəisə kənd əhalisi onun mülklərini geri alıb. Üçkilsə katolikosu Culfalı Akop dövründə isə kənd tamamilə kilsənin mülkiyyətinə keçib.

17	*Çopanis (Qərbi mahalı)*	*127*	*Əvvəlcə Babi oğlu Edqar kəndin mülklərini Həmədanlı Mollayusif oğlu Amanallaha satmışdır. XVII əsrdə Üçkilsə katolikosu Yeqiazarın dövründə, 1687-ci ildə Hacıbəyli Yusif ağa kəndin mülklərinin ona məxsus olduğu haqda iddia qaldırır. Lakin, katolikosun müavini vardapet Petros Şeyxülislama buğda və arpa ödəyərək kəndin mülklərini və sənədlərini ələ keçirə bilir.*
18	*Qaraqoyunlu və ya Yolkəsən (Qərbi mahalı)*	*127-128*	*Kənd Xoca Sukiaza məxsus idi. XVII əsrdə kəndin mülkləri Üçkilsə katolikosu Filippos tərəfindən satın alınıb.*
19	*Əştərək (Qərbi mahalı)*	*128-129*	*Kəndi ilk dəfə Üçkilsə katolikosu Makulu Qriqor Əmir Rüstəmdən alıb. Müəyyən dövrlərdə müsəlmanlar tərəfinədn geri alınıb. Lakin, XVII əsrdə Üçkilsə katolikosu Flippos kəndi yenidən ələ keçirəbilir.*
20	*Aqavnatun (Qərbi mahalı)*	*129*	*Bu Üçkilsə katolikosu Makulu Qriqorun satın aldığı 7 kənddən biridir. 1768-də kilsə onu İrəvanlı Süleyman bəy Qacardan satın ala bilmışdır.*
21	*Noraqovit (Qərbi mahalı)*	*129*	*Ermənilər tərəfindən ələ keçirilməsinin dəqiq tarixi haqda məlumat yoxdur.*
22	*Byurakan (Qərbi mahalı)*	*129*	*Ermənilər tərəfindən ələ keçirilməsinin dəqiq tarixi haqda məlumat yoxdur.*
23	*Hacılar (Qərbi mahalı)*	*129*	*Ermənilər tərəfindən ələ keçirilməsinin dəqiq tarixi haqda məlumat yoxdur.*

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. // Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). // Bakı, 2000.
2. İbrahim Rəhimizadə Hərəmi. "Kitabi-Gəncineyi-fəthi-Gəncə" // Osmanlı ordusunun Azərbaycana yürüşləri (XVI əsrin sonu). (Nəşrə hazırlayan, ön sözün və şərhlərin müəllifi: Rauf Şeyxzamanlı). Bakı, 2007.
3. İrəvan əyalətinin icmal dəftəri. // Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akd. - Z.Bünyadov, t.e.n. H.Məmmədov. // Bakı, 1996.
4. Kiğamyans T. "Erməni hərəkatının tarixçəsi" (erməni dilindən tərcümə Mirzə Fətəli İsmixanova məxsusdur). Bakı, "Açıq söz", 1917. // Əski əlifbadan çevirən Q.Camalov. AMEA A.Bakıxanov adına Tarix İnstitutunun arxivi, İnv: AXC /4152.
5. Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi (1451-1590). Ankara, 1976.
6. Абраам Кретаци. Повествование. (Критический текст, пер. на русский язык и ком.Н.К.Корганяна). Ереван, 1973.
7. Ереванци С. Джамбр. Памятная книга, зерцало и сборник всех обстоятельств святого престола Эчмиадзина и окрестных монастырей. Пер. С.Малхасянца. под.ред. П.Т.Арутюняна. Москва, 1958.

8. Наджафли Г. Азербайджан в XVIII-XIX веках. Бишкек, 2010.
9. Персидские документы Матенадарана, I. Указы. Выпуск первый, (XV-XVI вв.), Сост. А.Д.Папазян. Ереван. 1956.
10. Персидские документы Матенадарана, I. Указы. Выпуск второй, (1601-1650 гг.), Сост. А.Д.Папазян. Ереван. 1959.
11. Персидские документы Матенадарана, II. Купчие. Выпуск первый, (XIV-XVI вв.), Сост. А.Д.Папазян. Ереван. 1968.
12. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении XVI начале XIX вв. Л. 1949.
13. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её соединения к Российской империи. СПб., 1852.
14. Эзов Г.А. Сношения Петра Великого с армянским народам, СПб, 1898.
15. Փավստոս Բուզանդ: Հայոց պատմութուն: «Հայդետհրատ», Երեվան,1947, [Favsdos Buzand. Erməni tarixi. “Erm.dövlət nəşriyyatı”, İrəvan, 1947].
16. Մովսէս Խորէնացի: Հայոց պատմութուն: «Հայդետհրատ», Երեվան,1940, [Musa Xorenli. Erməni tarixi. “Erm.dövlət nəşriyyatı”, İrəvan, 1940].
17. Սիմէօնէ Երեւանցիոյ: Ջամբռ: Գիրք, որ կոչի յիշակարան արձանացուցիչ, հայելի եւ պարունակող բնավից որպիսութեանց Սրբոյ Աթոռոյս, եւ իւրոյ շրջակայից վանօրէիցն: Վաղարշապատ: ՌՀԻԳ: [Simeon İrəvanlı. Cambr. Müqəddəs Üçmüədzin kilsəsinin və ətraf monastırların toplusunun müffəssəl aynası və xatirə kitabı. Vaqarşapad, 1873].

G.Nadjafli

THE SEIZURE OF AZERBAIJANI LANDS BY ARMENIAN CHURCH

SUMMARY

In 1441, with the permission of the Garagoyunlu ruler Jahanshah the center of the Armenian Catholicosate was transferred from the town of Sis of Cilicia to the monastery of Uchkilse (Ucmuadzin) near Iravan and thereby appeared favorable conditions for Armenian missionaries spreading the Gregorian belief. The Armenian Church enriched at the expense of its patrons abroad and Christian missionaries purchasing the new lands and villages of Azerbaijan rulers for Armenians created their permanent dwellings on the historical Azerbaijani lands. Taking advantage from the weakening of the Safavi state Armenians put forward the idea of creating an Armenian state on the seized Azerbaijani lands.

In the article on the basis of the Armenian- language sources in the form of a special table was prepared and presented the list of the Azerbaijani lands seized by the Armenian Church.

Г.Наджафли

ПРИСВОЕНИЕ ЗЕМЕЛЬ АЗЕРБАЙДЖАНА АРМЯНСКОЙ ЦЕРКОВЬЮ

РЕЗЮМЕ

С разрешения правителя государства Гарагоюнлу Джаханшаха в 1441 году центр деятельности армянского катаколисата был переведен из киликийского города Сис в селение Учкилсе (Учмуэдзин), расположенный близ Иревана. Так возникли благоприятные условия для деятельности армянских миссионеров, распространяющих григорианство. Армянская церковь, обогащавшаяся за счет иностранных покровителей и христианских миссионеров, приобретала за деньги у азербайджанских правителей всё новые земли и селения. Тем самым армянам удалось создать для себя постоянные поселения на исторических землях Азербайджана. В условиях ослабления Сефевидского государства армяне выдвинули идею создания собственного государства на землях Азербайджана.

В статье на основе армяноязычных источников представлен составленный в форме специальной таблицы перечень присвоенных армянской церковью азербайджанских земель.

QARAYAZIÇI ÜSYANI ƏRƏFƏSİNDƏ OSMANLI-SƏFƏVİ SİYASİ MÜNASİBƏTLƏRİ

Amənə KƏRBƏLAYEVA

Açar sözlər: Səfəvi, Osmanlı, böhran, feodal, Avropa, Asiya
Key words: Safavids , Ottoman ,Crisis, feudal, Europe, Asia
Ключевые слова:Сефевидов, Османцы, кризис, феодальный, Европейская, Азия

Səfəvilərlə Osmanlılar arasında 1590-cı ildə İstanbul müqaviləsinin bağlanmasına baxmayaraq, Macarıstanda osmanlıların Avstriya ilə münasibətləri gərgin olaraq qalırdı. 1593-cü ildə Avstriya ilə müharibə başladığı vaxt Moldova, Valaxiya, Serbiya və Bolqarıstanda baş verən güclü üsyanlar nəticəsində Osmanlı dövləti həmin yerlərdə böyük miqdarda qoşun saxlamalı olurdu. Nəhayyət, tədqiqatçıların düzgün hesab etdikləri kimi 1596-cı il Xaçova meydan savaşında fərariri lik edən və yoxlamada bilinməyən timar (torpaq mülkiyyəti- A.K) sahiblərinin tutulub edam edilməsi və mallarının əllərindən alınması tarixdə "Cəlali fitrəti" hadisələrin fəallaşmasına təkan verdi [1,səh 14]. Qaynaqların araşdırılması göstərir ki, fərarilik edənlərin sayı təxminən otuz min nəfər olmuşdur [2,səh 180-187]. Bütün adı hallanan hadisələr Qara Yazıçının başçılığı ilə üsyanın başlamasına zəmin yaradırdı. Həmin vaxt Osmanlı dövlətini qorxuya salan Səfəvilərlə yeni müharibənin başlanması haqqında söhbətlərin yayılması idi [1, səh 21-22]. Arakel Təbrizli Qara Yazıçı üsyanının başlama tarixinin erməni tarixi ilə 1046-cı il, yəni 1597-ci illdə başlamasını qeyd edir [3,səh 569].

Göründüyü kimi Cəlali hərakatını bir mənalı olaraq kəndlilərin antifeodal azadlıq hərakatı kimi qiymətləndirmək olmur. Bir tərəfdən qazıların suxtələrlə əlaqəli olması, sipahilərin bu hadisələrdə qoşulmasıi, digər tərəfdən isə sıravi xalq arasından çıxan ləvənd və suxtələrin xalqı talan edib soyması şəraitində əhalinin bəzən onları qoruması və sığorta etməsi üsyanın birmənalı olaraq o cür dəyərləndirilməsinə imkan vermir. Bu mənada biz burada Mustafa Akdağın fikirləri ilə [4,səh 90] tam

---

Amanə Kərbəlayeva-AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı

razıyıq.

Həqiqi adı Əbdülhəlim olan Qara Yazıçının qaynaqlarda və tədqiqatlarda mənşəyi və tutduğu vəzifələr haqqında müxtəlif fikirlər mövcuddur. "Qara Yazıçı" adının mənşəyi ilə bağlı qeyd olunduğu bir məlumata əsasən "Yazıçı" adı ona vaxtı Hələb Paşası yanında, digər bir xəbərə görə isə sökbanlar bölüyünün katibi olduğu üçün verilmişdir [1,səh 20]. Qara Yazıçı Onun haqqında olan məlumatlar çox kasıb və ziddiyyətlidir. Məsələn Hüseyn Hesaməddin Osmanlı arxiv məlumatlarına əsaslanaraq Qara Yazıçını Urfa bölgəsinin sakini Kılıclı nəslindən olan Əlinin oğlu hesab edirdi [5, səh 56]. Onun ardınca da A.S.Tveritinova və A.D.Noviçev Qara Yazıçının həmin bölgədən olduğunu qeyd edirdilər [6, səh 128]. Bu müəlliflərdən fərqli olaraq erməni tarixçisi Arakel Təbrizlinin Brossetin nəşrinə əsaslanan Mustafa Akdağ Qara Yazıçını Çorumlu bir türk oğlu hesab edirdi [4, səh 76]. Erməni tarixçisi Arakel Təbrizlinin rus dilinə tərümə olunan əsərində isə bu haqda deyilir ki, müəllif Urfada eşitdiyinə görə "sultan Məhəmmədin hakimiyyəti vaxtında Çorum şəhərciyində Yazıçı adlı [kimsə] peyda oldu və onun Həsən adlı qardaşı var idi. [Bu] Yazıçı kübar nəslindən deyildi, sadə insanlardan idi və digrlərindən heç nə ilə fərqlənmirdi" [3, səh 569].

1007/1598-1599-cu il hadisələri ilə bağlı İbrahim Əfəndi Peçevinin məlumatına əsasən "Qara Yazıçı, Sivasa bağlı sancaqlardan birində bir sancaqbəyin kaymakamı (vəkili) idi. Bu sancaqbəyi əsgərləri ilə səfərdə idi" [2, səh 237]. Həmin vaxt Qara Yazıçı Tarsus-Silifkə bölgəsinə üsyan edən suxtələrin çıxışlarını yatırmağa göndərilmişdi [3, səh 21]. Daha sonra Peçevidən öyrənirik ki, "o sırada İstanbuda eyni sancaq başqasına verildi. Amma yeni sancaqbəyinin müsəlləmi (kaymakamın- məmur təmsilçisi - A.K.) gəlincə Qarayazıçı onu qəbul etmədi. Yeni sancaqbəyinin çoxlu adamla gəlməsi gözləndiyindən, Qara Yazıçı da özünə adam topladı və gələn yeni sancaqbəyi öldürüdü. Sonra da, yanına çoxlu əskərlə gələcəyini başa düşdükdə, üsyan bayrağını qaldırdı və ətrafdakı bütün quldur və ləvəndləri hərəkətə gətirərək, özünə bağladı" [2, səh. 237]. Daha sonra isə qaynaqdan anlaşılır ki, Qara Yazıçı Coruma sonradan gəlmədir ki, bunu biz Arakel Təbrizlinin "Çorum şəhərciyində Yazıcı adlı [kimsə] peyda oldu" məlumatından da görürük. Buna görə də Mustafa Akdağın Qara Yazıçının Çorumlu olması haqqında fikri ilə

razılaşa bilmərik.

Məsələn, Əbdülqadir Əfəndinin "Vəkayinamə"sinə görə vaxtı ilə Həbəş bəylərbəyi olan Hüseyn Paşa Qaramanda üsyan etdiyi zaman Qara Yazıçı Tartus livasında "sökban bölükbaşı idi" [2, səh 77].. Katib Çələbi Əbdülhəlimin bəylərbəyi yanında gah sükbanbaşılıq, gah da subaşılıq etməsini qeyd edir [10, səh 289]. Mehmed Paşa Solakzadə isə Qara Yazıçını Şam qullarından olduğunu göstərir [7, səh 34]. Onun məlumatından aydın olur ki, "Mərhum Sərdar İbrahim Paşa, Uvyar səfərinə əzimət etməzdən əvvəl, Qara Yazışı deməklə məaruf haydutluk və üsyanla vəsflənmiş bir şəxs Sivas əyalətində ortaya çıxıb, təskinlik zirvəsinin təpəsinə uruc edərək (qalxaraq) yanına hesabə gəlməz şərirləri (pis adamları) cəm eylədi" [7, səh 34].

Maraqlıdır ki, Mustafa Akdağ Arakel Təbrizlinin Qara Yazıçı haqqında bir qədər sonrakı məlumatını nəzərə almır. Orada isə deyilir ki, " 1048 [1599] ildə, martın 17-də elə bir şaxta idi ki, Qırx müqəddəs bayramın təntənəli keçirməsinə mane oldu ... Həmin il Qara Yazıçı gücləndi və oktyabrın 9-da Urfa qalasını tutdu - [həmin] şəhəri ki, əvvəllər orada yaşayırdı. Bu Qara Yazıçı əslən Kappadokiyalı idi; suxtə olarkən [!! – A.K.] o bir müddər Urfada yaşayıb /bir/ molladan təhsil alırdı, sonra tüfənkçi oldu, əskər oldu və müxtəlif qələbələri ilə tanınan məşhur əyyanların /yanında/ xidmət etdi, sonralar isə müstəqil olduqdan sonra, dostlarını yığaraq hökmdara qarşı üsyan etdi..." [3, səh 632].

Beləliklə araşdırdığımız qaynaqlar və tədqiqatlardan göründüyü kimi, bir məlumata görə Qara Yazıçı feodaldır, digər məlumata görə isə sadə əsillidir, hətta bir vaxt suxtə də olub. Buna görə biz bu məsələdə Mustafa Akdağla razılaşırıq. Onun mənşəyindən asılı olmayaraq, qaynaqlardan aydın olan budur ki, cəlali rəislərinin çoxu sipahilərdirsə, Qara Yazışı özü də sıradan biri ola bilməzdi. Qaynaqlar "ərbab-i ihtilalin (pozuqların) başbuğları" olaraq Qara Yazıçının köməkçilərinin adlarını çəkir: Əbdülhəlimin qardaşı Dəli Həsən, Amasiyalı Dəli Zülfüqar, Malatiyalı Qaraqaş Əhməd, Ankaralı Qələndəroğlu Mehmed, Gavur Murad, Təkəli Mehmed, Tokatlı Ağaçtanpiri, Sivaslı Səid və Hüsyen oğlu İshak, Adanalı Sevindik, Bağdadlı Uzun Xəlil,, Qalıldodaq Mahmud, Köprülü Sarı Şaban. Bu cəlali rəislərin hər birinin idarəsində 3-5-nə qədər üsyançı toplanmış və beləliklə də 30 minə yaxın olan bu qüvvəyə Qara

Yazıçı başçılıq etmişdir [5, səh 57]..Burada təqdim olan adlar və regionlardan göründüyü kimi, təriqət problemləri burada əhəmiyyətli deyildi. Bununla belə baş verən hadisələr osmanlı kübar cəmiyyətində sürətlə baş verən təbəqələşmədən xəbər verir. Daha çox iltizam, sələmçilik və rüşvətxorluqla əlaqəli olan iri torpaq sahiblərinin bir qismi daha çox Saraya bağlı olduğu halda, onların zülmündən əziyyət çəkən orta və xırda dirlik sahibləri üsyançılara üz tuturdular[6, səh 60]. Fikirlərimizi Gümrücəli Qoçubəyin məlumatı ilə əsaslandıra bilərik. O, yazırdı: "Yer üzündə fitnə və fəsadların, şər və pozğunluğun yayılmasına, haydut və eşkiyanın qüvvətlənməsinə ən böyük səbəb ziyamət və timar sahiblərinin dirliklərinin əllərindən almış olmasıdır. Halbuki həqiqətən din əsgəri bunlar idi. Bugün bunların əminamanlığı əllərindən alındı, özləri adı ləğv edildi, fitnə, fəsad və qarışıqlıq aləmi bürüdü"[8,səh 121]

Amma bizi burada daha cox maraqlandıran Qara Yazıçının bu hərəkatdakı məqsədidir. Məsələn vaxtı ilə Əhməd Refik yazırdı ki, "Amadoluda üsyanı idarə edənlərin məqsədi qarətçilik deyildi. Onların hədəfi osmanlıların əlini bu ölkədən büsbütün çəktirmək idi. Anadolu xalqının mühüm bir qismi osmanlı hakimiyyətindən qurtulmaq istəyirdi". Düşünürük ki, bu faktlar bir daha Qara Yazıçı üsyanının antifeodal mahiyyətli olması haqqında fikirləri rədd etməyə əsas verir!

Vaxtı ilə Hüseyn Hüsaməddin Qara Yazıçı üsyanını dəyərləndirərək bu üsyanı türklərin hakimiyyətdə olan "qeyri türklər"ə, onların xalqa verdiklərə zülmə qarşı mübarizəsi kimi dəyərləndirmişdir [5səh.363]. Eyni zamanda müəllifin yazdığından aydın olur ki, Qara Yazıçı dövlətdən ayrılmaq məqsədini güdürdü [5,səh363]. Lakin Hüseyn Hüsaməddini tənqid edən A.S.Tivertinova yazır ki, müəllif bu fikirləri ilə sinfi ziddiyyətləri milli ziddiyyətlərlə əvəz edərək Osmanlı dövlətində baş verən sosial gərginliyi aradan götürməyə çalışır [6,səh 85]. Əlbətdə ki, müasir dövrdə bazar iqtisadiyyatının sürətlə inkişafı və cəmiyyətdə təbəqələşmənin genişlənməsi şəraitində "sinfi mübarizə" haqqında fikirlər öz əhəmiyyətinin itirmiş hesab edilməlidir. A.S.Tveritinovanı tənqid edən Mustafa Akdağ eyni vaxtda yazılı qaynaqlara əsaslanaraq Qara Yazıçının dövlət yaratmaq haqqında fikirləri əsassız sayır. [4,səh 85] Məlumatların və tədqiqatların ziddiyyətli olmasına baxmayaraq, biz də öz növbəmizdə onun bu fikirlərini əsas tutaraq, bunları təsdiqləyən bir sıra fakt təqdim

edək. Vaxtı ilə bu məsələ ilə məşğul olan Hüseyn Hüsaməddinin tədqiqatlarında göründüyü kimi, tədqiqatçı cəlalilərin pul kəsdirməsi haqqında fərman əldə edə bilmişdi [5,səh363]. Lakin onun bu fikirlərini qəbul etməyən Mustafa Akdağ yazır ki, zərbhanələrə nəzarət edən qazı, bəy və dəftərdarlar, bəzən saxta ağça kəsdirmək vasitəsi ilə mənfəət əldə edirdilər və yuxarıda qeyd olan tədqiqatçı bu hadisələrlə bağlı fərmanı yanlış olaraq qəbul edib[4,səh 85].

Türkiyə Başbakanlık arxivinin materiallarına əsaslanan Mustafa Akdağın təqdim etdiyi faktlar arasında belə maraqlı bir fakt təqdim edilir. Həmin məlumatlarda deyilir ki, Qara Yazıçının soyğunlarında iştirak edən və Sivas bəylərbəyinin dövriyyə bölükləri ilə də xeyli fəaliyyətdə olan Əbdüssalam Çavuş adında birii Qara Yazıçının son dəfə məğlub olmasından sonra qaçaraq Xaymna tərəflərinə qaçmış və on dostu ilə yaxalanaraq Ankara məhkəməsinə verilmişdir. Orada onların əşyaları arasında aparılan araşdırmada "Qara Yazıçı möhürü ilə möhürlü və ... imzası ilə necə tezakir-i [təzkirələr] mütəaddidə" aşkar olunmuşdur. Məlumatın şərhində Mustafa Akdağ yazır ki, bu cür təzkirələrin yazılması altı-bölük başçılarında görünməkdədir. Tədqiqatçı qeyd etdiyi kimi sancağlardakı "altı-bölük xalqına aid xüsusi bir qazıya və ya kəndxudalarına məktub yazmaq xüsüsəndə , altı-bölüyün altı başçısı da imza edirdi" [4,səh 85]. Lakin faktın maraqlı cəhəti bundadır ki, əgər Qara Yazıçı hərəkatı, üsyan, yaxud Türkiyə ədəbiyyatında deyildiyi kimi "ayaklama" kimi dəyərləndirilir və adı çəkilən şəxs bu hərəkatın danılmaz lideridirsə, deməli o mövcud iqtidara qarşı yönəlib. Buna görə də burada "mührü ilə mərhum və imzasının olması artıq onun müstəqil siyasət yeritməsindən xəbər verməkdədir. Deyilənləri digər faktlar təsdiqləyir. Həmin hadisələrin başlanğıcını dövlətin əsas sənədləri əsasında müşahidə edən Mustafa Səlanikidə biz çox mühüm bir faktla rastlaşırıq [9, səh41]. Müəllif əsəsərin heç bir yerində Qara Yazıçının dövlət yaratmaq haqqında bir söz açmasa da, onun bu düşüncədə olduğunu sübut edir. Məsələn, əsərin iki yerində o Qara Yazıçının Urfa qalasını mühasirəyə alıb tutduğundan sonra Səlaniki onun "şah" olması və "tuğrası" haqqında söz açır, bir yerdə "Həlim şah, müzəffər bad (olsun)", digər yerdə isə "Həlim şah nutk-i (danışığı) taban (parıldayan)" [9, səh41. Bizim bu fikirlərimizi Katib Çələbinin Qara Yazıçının "hökmü hümayun" haqqındakı məlumatı

da təsdiqləyir. Keysəridən olan Mehmed adlı birisinə fərmanda qeyd edilir ki ".. bu hükm-ü hümayunu verdim və buyurdum" [18,səh41. A.S.Tveritinova bu fakta diqqət verərək isə qeyd edir ki, Naimada bu məlumat "və əmrəti" kimi verilir [18, səh98-99].

Baxmayaraq ki, Mustafa Akdaq məlumatları təhlil edərkən yazır ki, "Cəlali üsyanlarında nə dövləti, nə də ki əndişəyə düşürəcək tərəf yoxdur. Cəlaliləri bəhanə edərək səfərə getmək istəməyən əsgərlərə və üməraya yazılan fərmanlarda bu qənaət daima ifadə olunmuşdur" [4, səh 83]. Əlbətdə ki, biz yuxarıda qaynaqlarda olan məlumatları əsas tutaraq tədqiqatçının bu fikri ilə razılaşa bilmərik, çünki hər bir dövlət belə məsələri həll edərkən qoşunun daxilində nizamı qorumaq, əks tərəfi isə daxildən parçalamaq üçün bu cür üsullara əl atırdı [9, səh 41]. Bunu da qeyd edək ki, Mustafa Selaniki hətta Qara Yazıçını tuğrakeşi kimi Zeydi çavuşu, veziriəzəm isi Hüseyn paşa olduğunu yazır. Beləliklə, Qara Yazıçının özünü "həlim şah" adlandırması, sultan məmurlarını qovaraq [10, səh 289], əhalidən vergi toplaması, döyüşdə fərqlənən əsgərləri vergilərdən azad etməsi [11, səh115]. birmənalı olaraq onun dövlət yaratmaq iddiasında olduğunu sübut edir.

Peçevinin məlumatından anlaşdığı kimi Qara Yazıçının üsyanına əsas səbəb onun sultanın əmri ilə kaymakam adından və Sivasdakı torpaqlarından məhrum edilməsi idi.. Katib Çələbinin məlumatına əsasən Qara Yazıçının başçılığı ilə üsyanın baçlıca səbəb 15 il ərzində aparılan müharibələr, qoşunun burda uzun müddət olmaması və bundan istifadə edən at və silah əldə edib qarətçiliklə məşğul olub sonra da yuxarıda adı çəkilən şəxsin ətrafında birləşməsi oldu" [10, səh 289]. Eyni məzmunlu məlumatlara biz Naima və Mustafa Nuri paşanın yazdıqlarında da görürük [11,səh 14]. A.S.Tveritinova hesab edir ki, əslində Qara Yazıçı 1596-cı ildə hökümətə itaətsizlik etmişdirsə, bir üsyan başçısı kimi 1599-cu ildə hərəkətə keçmişdir [6 ,səh 54]. Bu hadisə ona yeni qüvvələrin qoşulmasına şərait yaratdı.

Qara Yazıçı ilə eyni vaxtda (1599-cu il) Qaraman üsyanını yatırmağa göndərilmiş və vaxtı ilə Həbəşistan bəylərbəyi olmuş Hüseyn paşa da hüruc etdi. Onun mənşəyi haqqında bəzi uyğunsuzluqlara baxmayaraq, məlumatdan aydın görünür ki, o bir paşa kimi kübar nəslin nümayəndəsi idi [6 ,səh 56]. Burada maraqlı cəhət də ondan ibarət idi,

məlumatlara görə Hüseyn paşa özəlliklə osmanlı ticarəti əllərində olan yəhudilərin mal və mülklərini yağma edir və onlara qarşı bir dərin nifrət bəsləyirdi.

Bu xəbər sultan sarayına yetişən kimi [9 ,səh 816-817]. 1599-cu ilin əvvəlində ona qarşı 1000 iç il ərləri ilə Mehmed Çavuşu göndərdi. Ağsaray döyüşündə Mehmed Çavuş məğlub olaraq Konyaya çəkildi [11 ,səh 58]. . Bu sırada Qarayazıçı Harput, Malatya və Maraşı tutdu. Bu basqınlar nəticəsində varlılar İstanbula qaçmalı oldu. Hökümət Avstriya ilə müharibə üçün qoşun topladığı şəraitdə vəzir-i əzəm Sinan paşa həmin ilin avqustunda Mehmed paşanı göndərir və o 1000 yeniçəri ilə Diyarbəkrə gəlir. Bu dəfə Hüseyn paşa döyüşdən yayınaraq, adamları ilə birlikdə Maraşa Qara Yazıçının yanına gəlir [9 ,səh 818-819,829]. Artıq 1599-cu ilin oktyabrında Qara Yazıçı Hüseyn paşa ilə birlikdə Urfanı tutaraq özünə iqamətgah edir. Mehmed paşanın qalanı geri almaq tədbirləri nəticəsiz qalır [1 ,səh 23]. və o müharirədən əl çəkməli olur. Bunun nəticəsində qaladakı toplar da üsyançıların ixtiyarına keçdi [9 ,səh 829] . Bu hadisə bir daha da Qara Yazıçının nüfuzunu artırdı. Burada o özünə tuğrabaşı və vəzir təyin edir [9 ,səh 829] .

Bu dəfə üsyançılara qarşı Mehmed paşanın başçılığı ilə böyük ordu göndərilir. Hələb və Dəməşq bəylərbəylərinin və bəzi kürd bəylərin köməyi ilə Mehmed paşa Urfanı mühasirəyə aldı. 73 günlük mühasirədən sonra qalada olanların vəziyyəti ağır olduğundan [1 ,səh 25], 1599 –cu ilin sonunda Mehmed paşa Qara Yazıçı ilə danışıqlara başladı. Əldə edilmiş razılığa görə Ayntab sancağı əvəzində Qara Yazıçı vəziri Hüseyn paşanı iplə qaladan aşağı sallayaraq 1600-cı ilin fevralın 7-də onu Mehmed paşaya təslim etdi və o İstanbula aparılaraq orada edam olundu [9 ,səh 847] . Peçevi Qara Yazıya Çorum sancaqbəyliyi əvəzində barışığa getdi [18 ,səh 237] . Bunu Mehmed paşa Solak-zadə də təkrarlayır[13 ,səh 417-418] . Təbii ki, Qara Yazıçının Hüseyn paşa ilə belə rəftar etməsi onların ayrı-ayrı təbəqlərdən olduğundan və aralarında birincilik uğrunda gedən mübarizədən xəbər verir.

A.S.Tveritinovanın qənaətlərinə görə Qara Yazıçını bu uğurları bilavasitə I Şah Abbasın Osmanlılara müharibə ərəfsində olması və gizli kömək etməsi ilə bağlı idi, çünki daxili problemlər Türkiyəyə İran təhlükəsi qarşısında aciz edirdi [6, səh 70] .

Amma Sultan hakimiyyəti bununla qənaət olmadı və tezliklə Mehmed paşaya Qara Yazıçı üzərinə yenidən yürüş etməsi haqqında fərman göndərdi Bu xəbəri alan Qara Yazıçı Kayseri qalasına sığındı [11 ,səh 351] . Peçevinn yazdığına görə Sinan paşanın tədbirlərindən xəbərdar olan Qara Yazıçı " ... rəhmətlik Şeyxülislam Sünullah Əfəndinin qardaşı olan Çələbi Qazı ilə bir araya gələrək Sinan paşa oğlunun zülmləri haqqına məktublar yazdı. Hətta, "Cəlalilərinki ilə qarşılaştırılacaq olursa Sinan paşa oğlunun zülmləri daha çoxdur və üsyan məsələsində ondan da irəlidir. ... Məhsulu rüşvətlə dağıdır, rəiyyətə zahirdə sahib sonra bədəli olan pulu toplamaqla itaətdən çıxır" [2 ,səh 238]. Solak-sadənin məlumatına əsasənsə Çələbi Qazı "Cəlali Qara Yazıçıdan otuz min quruş alaraq, inan paşanın oğlunu məzul etdi [vəzifədən aldı]" [7 ,səh 430-432] . Göründüyü kimi sultan dövlətdə rüşvətxorluğun yüksək səviyyədə olduğunu bilərək, bu addımla sosial gərginliyi aradan götürməyə çalışırdı. Peçevinin yazdığına görə bu hadisədən sonra Sinan paşa sərdarlıqda uzaqlaşdırılır və yerinə Hacı İbrahim paşa təyin edilir. Lakin Kayseri yaxınlığında Hacı İbrahim paşa məğlub oldu və yerinə vəzirzadə Həsən paşa təyin edildi [2 ,səh 238]. Qara Yazıçının Keysəri hakimiyyəti təxminən bir il davam etdi və baş verən hadisələrn sonra o artıq özünü müstəqil bir hökmdar kimi aparmağa başladı [6,səh 72] . Burada Hüseyn Hüsaməddinin yazdığına görə Sivas bəyi Dəli Mahmud paşa, Amasiya mütəssəlimi Zülfüqar ağa və təzəliklə Sivasa bəylərbəyi göndərilən Şərkəs Mahmud paşa qoşuldular [5 ,səh 351] .

Həsən paşaya bu yürüşdə Diyarbəkr, Şam, Hələb və başqa ərəb ölkələri əsgərləri verildi. Bu sırada Qara Yazıçı əvvəl Sivas, sonra da Canik dağlarına sığındı və orada 1602-ci ilin mayın 13-22 arasında öldü [2 ,səh 238]. Hökümətin əlinə keçməsin deyə, kəndxudası Şahverdinin məsləhəti ilə onun "pis leşini qırx, əlli parça etmişlər və hər birini başqa-başqa yerlərdə basdırmışdılar". [2 ,səh 238] Bəzi məlumatlar görə Qara Yazıçı əcəli ilə deyil, öz adamları tərəfindən öldürüldü [5 ,səh 351]. Şahverdinin sonralar osmanlı xidmətinə keçməsi [2 ,səh 239] Qara Yazıçının xəyanət nəticəsində öldürülməsi haqqındakı fikri təsdiqləyir. Çox güman ki, onun ətrafında toplaşan iri feodallar şura yaradaraq, Qara Yazıçını şah, yaxud sultan görmək istəməyib, şura ilə hesablaşmasını istəyirdilər [6 ,səh 76] .

Lakin qaynaqların göründüyü kimi, Qara Yazıçının ölümü ilə Cəlali fitrəti başa çatmadı, çünki "asilər, adı keçən cəhənnəm yolunu tutunca, yerinə qardaşı Dəli Həsən keçdi" [2 ,səh 295] . Dəli Həsənin qardaşının yerinə keçməsi ilə Anadolu kəndlisi böyük zülmlərə məruz qalaraq torpaqlarını tərk etməyə məcbur oldular ki, 1603-1610-cu illər hadisələri Anadolu tarixində "böyük qaçqınlıq" dövrü kimi tanınır.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Griswold J.W. Anadoluda büyük isyan (1591-1611). Çev. Ülkün Tansel. İstanbul.2000. s.39
2. Peçevi İbrahim Efendi Peçevi tarihi. II. Hazırlayan Dr. Bekir Sıtkı Baykal. Ankara. 1992. S.180-187; Akdağ Mustafa Türk halkının dirilik ve düzenlik kavqası. "Celali isyanları". CEM yayımevi. İstanbul.1995. s. 373
3. Даврижеци Аракел Книга историй. Перевод с армянского, предисловие и комментарий Л.А.Ханларян. Москва. Издательство «Наука», Главная редакция восточной литературы. 1973. С.569
4. Akdağ Mustafa Medrese isyanları. // İstanbul Universitesi. İktisad Fakültesi Mecmuası, 1-4, 1949, s.361-387
5. Hüsameddin Hüseyn Amasiya tarihi III, İstanbul, 1927, s. 348; Erdoğan Meryem Kaçan Karayazıcı isyanı // Osmanqazi Universitesi Sosial bilimler dergisi.c.4, sayı 2. Aralık 2003, s.56
6. Твертинова А. С. Восстание Кара-Языджи-Дели Хасана в Турции. Изд. АН СССР. М.1946, с.53-54 /85 с./; Новичев А.Д. История Турции. I. Эпоха феодализма (XI – XVIII веках) . Изд. Ленинградского университета. Л.1963. с.128
7. Solak-zade tarihi. Dr. Vahid Çabuk. Kultur bakanlığı yayınları: 1089. Kaynak eserler dezisi. 34. C.II
8. Смирнов В.Д. Кочибей Гömюрджинский и другие османские писатели XVII в. о причинах упадка Турции. СПб.1873. с.121.
9. *Selaniki Mustafa*., *Târîh-i Selânikî,* M. İpşirli (éd.), Istanbul, 1999,Edebiyat Fakultesi Basimevi. S.834-837
10. Katib Çelebi Fezleke. İstanbul. c.I, 1286 (1869/1870) Ceride-yi havadis, s.286-289
11. *Naima Tarih*. C.I. İstanbul.1864, 231-232, c. II, s.2-3; *Mustafa Nuri Paşa*. Netayicü-i-vukuat, c.I. İstanbul.1327, s.14

A.Karbalayeva

OSMAN SAFAVIDS POLITICAL RELATIONS ON THE EVE OF THE REBELLION QARAYAZICHI

SUMMARY

As you see both either in the reign of Safavids or Ottomans states feudal relationships were for dominating uphelding. The two kinds of estate property owned by feudas had a formal estate feature held the base (core) of the feudal production (manufacture) Even in some places (regions) of Azerbaijan at the above mentioned times (or periods) family – community relationsips existed (unhelpd). Since those times it has become impossible to put an end to trubulent crisis critical position

А.Карбалаева

ОСМАНО-СЕФЕВИДСКИЕ ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ НАКАНУНЕ ВОССТАНИЯ ГАРАЯЗЫДЖИ

РЕЗЮМЕ

В статье особое место занимают османо-сефевидские войны 1578-1590 гг. Основным театром военных действий были азербайджанские земли. Союзниками османов в этой войне были Крымские татары, которые совершили несколько походов в Ширван. Война завершилась тяжелым поражением сефевидов, которые потеряли практически весь Северный Азербайджан. По заключенному в Стамбуле 1590 году договору азербайджанские земли были разделены, большая часть которых отошла к османам.

AZƏRBAYCAN HÖKMDARLARININ KATİBİ

Rəna MƏMMƏDOVA

Açar sözlər: Mirza Mehdi xan Astarabadi, Nadir şah, vəqf, məktublaşma
Key words: Mirza Mehdi Khan Astarabadi, Nadir Shah, insha, vaqf, correspondence
Ключевые слова: Мирза Мехди хан Астарабади, Надир шах, инша', вакф, переписка

Əlbəttə, Azərbaycan xalqının şərəfli və ləyaqətli bir tarixi yol keçdiyini heç kəs inkar edə bilməz. Xüsusilə də Şah İsmayıl Xətainin qurduğu nəhəng dövlətin ümumdünya tarixinə və mədəniyyətinə verdiyi töhfələr bu gün də öz dəyərini itirməyib. Azərbaycan dilini dövrün elitar təbəqəsinin həyat və yaşam normasına çevirən bu dövləti yaradan şəxsin yürütdüyü daxili və xarici siyasətlə dərindən tanış olduqca onun zamanı nə qədər qabaqladığına heyrət edirsən. Onun insanpərvərlik və humanizmə söykənən, Şərqə və Qərbə inteqrasiyaya hesablanmış siyasi idarəçilik metodunu sonrakı hökmdarlar da ustalıqla davam etdirmişlər. Səfəvilər, Əfşarlar, Qacarlar...

Təbii ki, bu hökmdarların siyasi mübarizəsini, dövlətçilik prinsiplərini, idarəçilik metodlarını zamanında qələmə alıb salnamələşdirən tarixçilər, katiblər, münşilər olmasaydı, bu gün həqiqəti yalandan, tarixi gerçəkliyi əfsanədən ayırmaq çox çətin olardı. Onlar, görünür, tarixi proseslərin gələcəkdə hansı məcraya doğru gedəcəyini qabaqcadan hiss etdiklərindən, böyük hadisələri gününə, ayına, bəzən saatına qədər dəqiq qeyd etməyə çalışıblar. Belə tanınmış inşa müəlliflərindən misal olaraq aşağıdaki məşhur alimləri göstərə bilərik: I Şah Abbasın (995/1587-1038/1629) tarixçisi və katibi İskəndər bəy Münşi, II Şah Abbasın (1052/1642-1077/1666) münşisi, öz istedadına görə "Vahid" təxəllüsü qazanmış Tahir Qəzvini və s. Onlardan biri də Mirzə Məhəmməd Mehdi xan Astarabadi olmuşdur. İki Səfəvi hökmdarının, sonra Nadir şahın (hakimmiyyətdə olan illər: 1148/1736-1160/1747) yanında münşi vəzifəsində çalışan bu tarixçinin "Tarixi-cahanqoşayi-Nadiri", "Dürrəyi-Nadirə", "Münşəat" (İnşa) əsərləri ən

---

Rəna Məmmədova-- tarix üzrə fəlsəfə doktoru, M.Füzuli adına Əlyazmalar İnstitutu

ciddi tarixi mənbəələrdən sayılmaqdadır. Çox təəssüf ki, bu gün Azərbaycan oxucusu bu şəxsin yazdıqlarından bir tarixi mənbə kimi geniş surətdə bəhrələnsə də, onun özü haqqında demək olar ki, heç nə bilmir. Biz bu boşluğu nəzərə alaraq, Mirzə Məhəmməd Mehdi xan Astarabadi haqqında oxuculara məlumat vermək qəranına gəldik. Bəri başdan qeyd edək ki, yazını hazırlayanda daha çox farsdilli mənbələrdən istifadə etmişik.

Mirzə Məhəmməd Mehdi xan Məhəmmədnəsir Astarabadi adlı bir şəxsin oğlu olmuşdur (Arunova və Əşrəfyan səhvən onu Nizaməddin Məhəmməd Haci əl-Hüseyn əs-Səfəvi kimi təqdim etmiş və Səfəvi nəslinə aid etmişlər. Bax 1, s.10). Əfşar dövrünün görkəmli elmi və ədəbi şəxsiyyətlərindən biri olan Mirzə Məhəmməd Mehdi xan Astarabadi öz istedadı hesabına məmləkət münşisi məqamına yüksəlmiş və zəmanəsinin hadisələri barədə tarix yazmaqla əbədiyyət qazanmışdır. O, yüksək yazıçılıq istedadına malik olmuş və bu sahədə son dərəcə böyük uğur qazanmışdır. Onun inşaları ilə tanış olarkən yumor və satira hissi baxımından dövrünün adlı-sanlı ədəbiyyat və söz ustalarını kölgədə qoyduğunu görürük. Bundan əlavə, o öz mədəniyyəti, əxlaqı ilə də əsrinin insanlarında fərqlənmişdir. Mirzə Mehdi xan Nadir şah kimi bir şəxsin müşaviri, müşayiətçisi, həmsöhbəti və xidmətçisi olmuşdur. Nəzərəçarpacaq bədən quruluşuna malik olan bu universal zəka sahibi təvazökar, ehtiyatla söz deyən, geniş və xarüqəladə biliyə malik olmuşdur. Fitnə və narazılığın son dərəcə yüksəldiyi, maraqlı hadisələrin bir-birini izlədiyi dövrdə sağlam və şərəfli bir həyat sürmüş, ata-babasından qalan məmləkətə layiqincə xidmət göstərmişdir.

Mirzə Məhəmməd Mehdi Astarabadi yüksək zövq və şairlik istedadına da malik olmuşdur. O, istedadlı qələm sahibi kimi ilhamlı və dərin məzmunlu şeirlər yazmış və yeri gəldikcə ayrı-ayrı əsərlərində onlardan istifadə etmişdir. M.M.Astarabadi mükəmməl və monumental nəsr əsərlərini onların məzmunu ilə səsləşən incə beytlərlə bəzəmişdir. O, şeirlərinə "Kövkəb" imzasını qoyurdu. Düşüncə sahiblərinin əksəriyyəti və hətta onu tənqid edənlər də Nadir şahın katibi Mirzə Mehdi xan Astrabadidən başqa heç kəsin "Kövkəb" təxəllüsü ilə şeir yazmadığını bildirirlər (2, s.çahar). Bütün bu cəhətlər onun statusunu yüksəltmiş və tədricən onu Əfşariyyə xanədanının qüdrətli hökmdarının divan işlərinin

yerinə yetirilməsində bir növ şərikə çevirmişdir.

Mirzə Məhəmməd Mehdi xan Astarabadinin Səfəvilərin yüz əlli illik paytaxtı olan İsfahan şəhərinə cəzb və cəlb olunmasında heç bir qəribəlik olmamışdır. Çünki balaca Mirzə Mehdi vaxtilə öz ata evindən çıxıb elm və ədəb öyrənmək üçün bu şəhərə gələndə heç güman eləməzdi ki, çətin və mürəkkəb yolları olduqca qısa müddətdə qət edə biləcək. Amma edə bilmişdi. (3, s.5) O, ilk gənclik çağlarında Şah Sultan Hüseynin mürəkkəb və ziddiyyətli divan aparatında münasib bir mövqe tuta bilmiş və şah sarayının yazıçı və katibləri arasında mötəbər məqama yüksəlmişdi.

Onun İsfahanda həyatının necə keçməsi barədə əlimizdə sənəd yoxdur. Rəvayətə görə, Səfəviyyə paytaxtında Şah Sultan Hüseynin padşahlıq etdiyi dövrdə o, bu şəhərdə yaşayan Astarabad camaatının diqqətini cəlb etmiş, öz elmi, biliyi, bacarığı, xüsusilə də əxlaqi mükəmməlliyi, ictimai-siyasi hadisələrdən baş çıxarması hesabına İsfahanda yaşayan astarabadlı həmyerlilərinin ümumi nümayəndəsi olmuşdur (2, s.pənc-şeş).

Mirzə Məhəmməd Mehdi xanın fəaliyyətinin və həyatının sonu barədə əlimizdə dəqiq məlumat yoxdur. Həmçinin Mirzənin həyat şəraitini, övladlarının və nəvələrinin sayını, adını, nişanəsini mükəmməl şəkildə özündə əks etdirən sənədə, tarixi rəvayətə, mötəbər bir mənbəyə rast gəlmirik. Bu da səbəbsiz deyil. Belə ki, Nadir şah öldürüləndən sonra Əfşarlar dövlətində aləm qarışdı, qardaş-qardaşa rəhm etmədi və bundan sonra şahın münşisinin də adı bir daha çəkilmir, onu gördüm deyən olmur. Bu şəxsin adının itib-batması və onun görünməz olması Mirzənin Nadir şahla yaxınlığının sonda böyük xətərə səbəb ola biləcəyi ehtimalı ilə bağlı idi. Çünki Nadir şahın gecə-gündüz həmsöhbəti, yol yoldaşı, munisi, səfiri, məmləkətin münşisi və tarixçisi olmuş bir insanın həyatı təhlükəsiz ola bilməzdi. Düşmənlərin və iddiaçıların qorxusundan çar-naçar ölkədən getməli olan Mirzə Məhəmməd Mehdi xan Astarabadinin son siyasi sığınacaq yeri Bağdad olmuşdur. O, burada gizlənmiş və xidmət etdiyi şəxsin ölümündən sonra ömrünün qalan iyirmi ilini naməlum şəraitdə və inzivada keçirmişdir. Deyilənə görə, öz fateh və qüdrətli hamisindən sonra onun nə iş gördüyü, necə öldüyü və onun başının üstündə kimin ağladığı heç kəsə bəlli olmamışdır (3, s.6).

Tarixçi Əbdülhüseyn Nəvai "Nadir və onun yadigarı" əsərində onun bir övladına işarə etmiş və bir neçə qız nəvəsi olması barədə "Hədiqətüş-şüəra"dakı məlumatı diqqətə çatdırmışdır (4, s.173). Lakin bütün bu cəhdlərə baxmayaraq Mirzə Məhəmməd Mehdi xan Astrabadinin həyatı indiyədək təfsilatı ilə yazılmamış və bu işə girişənlərin fəaliyyətləri demək olar ki, nəticəsiz qalmışdır. Belə ki, 1294/1877-ci ildə Nəsrəddin şah Qacar müxtəlif əsrlərdə yaşamış "görkəmli üləmaların, adlı-sanlı mühəddislərin, yüksək məqamlı müctəhidlərin, kərəm əhli olan ariflərin, hikmət sahibi olan şəxslərin, həqiqi münəccimlərin" həyatlarını öyrənilməsi və bu barədə kitab yazılması haqqında fərman vermiş və bu işin yerinə yetirilməsini Etizadüs-səltənəyə tapşırmışdır, o da öz növbəsində bütün İranətrafı vilayətlərə xəbər göndərərək bu ölkəylə bağlı tanınmış şəxslər haqqında məlumatların şah sarayına çatdırmalarını xahiş etmişdir. Şahın bu fərmanı əsasında Astarabad hakimi də Mirzə Məhəmməd xanın həmyerlisi olan tanınmış alim Məhəmməd Saleh bin Məhəmməd Tağı Astarabadiyə bu işi tapşırmış və onun icrasını tələb etmişdir. Amma o da ortaya ciddi və yeni bir fakt qoya bilməmişdir (3, s.7).

Mirzə Mehdi xan Astrabadinin "Tarixi-cahanqoşayi-Nadiri" saray xronikası Nadir şah Əfşarın şahlıq dövründə baş verən hadisələr barədə ən dəqiq məlumatları özündə ehtiva edir. Əsər çox şirin və oxunaqlı bir dildə yazılmışdır. Bununla bərabər, bəzən Mirzə Mehdi xan öz canının qorxusundan hadisələri ya tərsinə, ya eyhamla, ya da ikimənalı şəkildə danışır. Yalnız Nadir şahdan sonra hadisə və əhvalartların nisbətən açıq, aydın bir üslubda nəql edildiyini görürük. AMEA-nın Əlyazmalar İnstitutunda bu əsərin 39 nüsxəsi saxlanılır (5, s.69).

"Dürrəyi-Nadirə" əsəri mürəkkəb və çətin dildə yazılmış, adlarla, təşbihlərlə, mübaliğələrlə doludur. "Dürrəyi-Nadirə" hərbi yürüşlərin şərhinə, Nadir şah Əfşarın döyüşlərinə həsr edilmişdir. Müəllif bu əsərində öz dövrünün idarəçilik, mədəniyyət, iqtisadi və ictimai məsələlərinə qətiyyən toxunmamışdır. Əsərdə imza olmasa da, yazının səbk və üslubundan onun Mirzə Məhəmməd Mehdi xan Astarabadiyə məxsus olması aydın görünür. Əlyazmalar İnstitutunda bu əsərin 7 nüsxəsi mühafizə olunur (5, s.223).

"Münşəat" Mirzə Məhəmməd Mehdi xan Astarabadinin

məktublarının məcmuəsidir. Bu əsər fərmanların, səltənət, idari və siyasi məktubların cəmindən ibarətdir. Ancaq onu da qeyd edək ki, Mirzə Məhəmməd Mehdi xan Astarabadiyə aid edilən və "Münşəat" adı altında təqdim edilən və çap olunan bu əsər səhv, çatışmazlıq və nöqsanlarla doludur. Ola bilsin ki, Mirzə Məhəmməd Mehdi xan Astarabadinin "Münşəat"ı adı ilə bu gün mövcud olan məcmuədəki məktubların heç də hamısı ona aid deyil, çünki Nadir kimi zəhmli, qəzəbli, tez qeyzə gələn bir insanın idarəsində çalışan hazırlıqlı bir katibin belə naqis və ixtisarla dolu kitabı ortaya qoyması mümkünsüzdür. Məcmuə onun ölümündən sonra hazırlandığı üçün başqa katiblərə məxsus məktub və ya məktublar da bura düşə bilərdi.

Mirzə Mehdi xanın katibliyinin ilk çağları təzkirələrin və tarixi sənədlərin əksəriyyətində öz əksini tapıb. "Məxzən-ül inşa"da onun sehirkar və qüdrətli qələmindən çıxmış çoxsaylı məktublar yer almışdır. Bu kitabı köçürən Məhəmməd Sadiq Hüseyni adlı bir şəxsdir. Kitab Mirzə Məhəmməd Mehdi xan Astarabadini ölümündən təxminən 50 il sonra Tehranda Seyid Mehdinin Dar-ül Təbaeyində Mirzə Mehdi xanın "Münşəat"ından çox gözəl və səliqəli bir xətlə köçürülmüşdür (6, s.4). Lakin kitabda çoxlu səhvlər, xüsusilə də, Quran ayələrinin zikri ilə bağlı qüsurlara, texniki xətalara yol verilmişdir. Bu səhvlərin katiblər tərəfindən buraxıldığını güman etmək olar. Bundan əlavə, məcmuədə gedən ərəb və fars dilindəki şeirlərin də nə müəllifləri, nə də mənbələri göstərilmişdir. Onların səhv-düz bir-birinə qarışmaları həmin şeirlərə etimad göstərməyə imkan vermir. Müəllif və yaxud müəllifləri bəlli olmayan bu şeirlərin əksəriyyəti qitə, qəzəl, rübai və təkbeyt və s. janrlardadır. Bəzi təkbeytilər tanınmış şairlərdən, məsələn, Səədi kimi sənətkardan götürüldüyü üçün onları müəyyənləşdirmək elə də çətin deyil, amma böyük əksəriyyəti müəyyənləşdirmək mümkün deyil. Məsələni qəlizləşdirən məqamlardan biri də Mirzə Məhəmməd Mehdi xan Astarabadinin özünün zövq əhli və istedad sahibi olmasıdır. "Məxzən-ül-İnşa"dakı şeirlərin çox ehtimal bəziləri, xüsusən də, təkbeytlər məhz onun özünə aiddir. Mirzə Mehdi xanın digər bir əsəri olan "Sənglax"ın xətti nüsxəsi nisbətən çoxdur və onun fotosurəti xüsusi müqəddimə ilə birlikdə İngiltərədə də çap olunmuşdur. Həmin müqəddimədə deyilir: "Mirzə Məhəmməd xan Astarabadinin həyatı, fəaliyyəti barədə məlumat çox azdır. Xüsusən onun

həyatının başlanğıcı və axırları daha çox mübhəmlik pərdəsinə bürünsə də, onun Əfşariyyə sülaləsinin qəhrəman başçısının xüsusi münşisi və tarixçisi olması danılmaz faktdır. Nadir şah 1160/1747-ci ildə qətlə yetirilsə də, Mirzə Məhəmməd Mehdi xan "Tarixi-cahanqoşayi-Nadiri"ni 1161/1748-ci ildə başa çatdırmışdır. Başqa sözlə desək, "Sənglax" kitabı başa çatmazdan 11 il əvvəl bu faciə (Nadirin qətli-R.M.) baş vermişdir. Deməli, "Sənglax" əsəri üzərində iş qəməri tarixi ilə 1172-73/1759-cu ildə başa çatmışdır. Bu zaman Mirzə Mehdi xan Astarabadinin harada olması, nə iş görməsi, hansı vəzifədə çalışması, necə həyat sürməsi və s. barədə təəssüf ki, əlimizdə xırdaca bir məlumat belə yoxdur" (7, s.5).

Yuxarıda qeyd etdik ki, Mirzə Məhəmməd Mehdi xan Astrabadi şeir də yazmış və rəvayətə görə, Kövkəb təxəllüsünü qəbul etmişdir. Onun tərcümeyi-halında yazıldığına və başqa şahidlərin də bildirdiyinə görə, "Kövkəb" başqa bir şəxsin adı olmuşdur. Təzkirəçilər də "Kövkəb" təxəllüsü barədə yekdil fikirdə deyillər. Lakin Mehdi xanın əsərlərində, xüsusən də, onun "Münşəat"ında rast gəldiyimiz şeirlərdən bəzilərinin ona məxsus olduğunu ehtimal etmək mümkündür.

Kövkəb təxəllüslü Mirzə Mehdi xanın bağbanbaşı haqqında yazdığı fərmanının 3-cü bəndindən aydın olur ki, Şah Sultan Hüseyn Səfəvinin çiçəklənmə dövründə "bütün bağlara, imarətlərə, mülklərə və orada görülən işlərə", başqa sözlə desək, "səltənət mülklərinin rəyasəti"nə nəzarət Mirzə Mehdi xana həvalə edilmişdir (8, v.415a).

Mirzə Mehdi xan Astrabadinin ən dəyərli və ən möhtəşəm əsərlərindən biri "Münşəat" məcmuəsi hesab olunur. Bu əsər yazı üslubuna, dəst-xəttinə, dəqiqliyinə və mükəmməlliyinə görə öz janrında tayı-bərabəri olmayan bir nümunədir. Hökm və fərmanlar silsiləsindən ibarət olan "Münşəat" məcmuəsinin nüsxələri müəllifin ölümündən sonra müxtəlif yerlərə səpələnmiş və onlar arasında fərqlər yaranmışdır. Bununla bərabər, arxasında Mirzə Mehdi xanın öz möhürü olan hökm və fərmanlar məcmuəsi bu gün də İran İslam Respublikasının Milli Kitabxanasında saxlanılır. Əlyazmalar İnstitutunda bu əsərin 20 nüsxəsi mühafizə olunur (5, s.69).

Qeyd etdiyimiz kimi, "Münşəat" Nadir şah Əfşarın hakimiyyətdə olduğu dövrün sultan və hakimlərinə ünvanlanmış fərmanlarından, əmrlərdən, o cümlədən şahın öz övladlarına göndərdiyi tövsiyələrdən,

Nadirin dövlət nümayəndələrinə və məmurlara verdiyi göstərişlərdən, dostyana, dostlara və öz yaxınlarına qayğısını göstərən məktublardan ibarət bir məcmuədir. Bu məktublar bir çox tarixi faktlara, hadisələrə işıq salır, "Dürrəyi-Nadirə"də və "Tarixi-cahanqoşayi-Nadiri"də əksini tapmayan mətləbləri, bir çox ehkam və fərmanları burada görə bilirik. Məsələn, Nadir şahın uzaq Hindistana qoşun yeritməsinin səbəbi və məqsədi ilə bağlı uzun zaman ortalıqda çoxsaylı versiyalar olmuş, bu faktı hər bir tarixçi və tədqiqatçı öz baxışına uyğun şəkildə izah edərək, fərqli mülahizə irəli sürmüşdür: Belə ki, bəziləri bunu Nadirin qızılpərəstliyi, tamahkarlığı və var-dövlət hərisliyi kimi qələmə vermiş, onu acgözlüyün və dünyagirliyin bu yola vadar etdiyini bildirmişlər, digərləri onun bu ölkəyə qoşun yeritməsinin səbəbini dünyanı fəth etmək istiqamətində bir addım kimi şərh etmiş, hökmdarın geniş hind torpaqlarına gözünün düşməsi kimi izah eləmişlər.

Həqiqət isə yalnız Nadir şahın münşisinin əsərindən bəlli olur. Mirzə Məhəmməd Mehdi xan Astarabadinin bəzi məktublarından aydın olur ki, əfşar dövlətinin qurucusunun özbək-əfqan düşmənlərinin bir qismi o zaman Hindistana qaçdığı üçün Nadir şah onları təqib etməyə məcbur olmuşdur. Nadir şah Mirzə Məhəmməd Mehdi xan vasitəsilə Hindistan padişahı Məhəmməd xan Gürganiyə məktub yazaraq ondan fərariləri dərhal həbs etməyi və cəzalandırmağı tələb etmişdir. Lakin hind padişahı Nadirə cavabında onun düşmənlərini cəzalandırmaq barədə heç bir vəd verməmiş, necə deyərlər, sağlam əməkdaşlıqdan boyun qaçırmışdır. Nəticədə Gürgani Nadir şahın nəzərində etimadını itirmiş, iki dövlət arasında münasibətlər son dərəcə gərginləşmiş, böhran müharibəyə gətirib çıxarmışdır. Sonda Nadir şah Hindistan padişahının sərhəddinə qoşun çəkməyə vadar olmuşdur. Beləliklə, tarixi sənədlər tarixi həqiqətin üzərindəki mübhəmlik pərdəsini götürmüş olur.

"Münşəat"da Nadir şahın çoxsaylı sərkərdələrinin, döyüşçülərinin, məmurlarının, sultanlarının və digər vəzifə sahiblərinin adları ilə qarşılaşırıq: onların bəziləri haqqında ruh yüksəkliyi və bəlağətlə danışılır, onlar Nadir imperiyasında böyük rol oynadıqlarına görə şahanə təşviq və səxavətə layiq görülmüşlər, başqa bir qism isə etibarsızlığına və xəyanətinə görə ciddi şəkildə tənbeh olunmuş və onlar haqqında cəza hökmləri çıxarılmışdır. Nadir şahın cəzası amansız olmuşdur (9, s. mim).

Ümumiyyətlə, Mirzə Mehdi xan Astarabadinin "Münşəat"ı dövlət strukturlarının, Əfşariyyə hökumətinin idarəetmə mexanizminin canlı mənzərəsini yaradan nadir tarixi kitablardandır. Biz bu məcmuədə xeyli sayda məsul vəzifə sahibinin, yüksək dövlət strukturunda çalışan saray əyanının, alim və ruhanin xidmətlərinə görə mükafatlandırılması və cəzalandırlması prosesinin necə baş verdiyini ardıcıllıqla izləyə bilirik. O dövrün ədliyyə sistemi, məhkəmə qanunları şəriət hökmlərinə söykənsə də, dünyəvi mahiyyəti də inkar etmir. Ümumiyyətlə, tarixi tədqiq edənlər "Münşəat"ı araşdırmaq yolu ilə XVIII əsrdə Əfşariyyə imperiyası ərazilərindəki ictimai-siyasi vəziyyəti, sosial-iqtisadi münasibətləri, ailə-məişət qaydalarını və bütövlükdə tarixi hadisələri izləmək və dəyərləndirmək imkanı qazana bilərlər.

"Münşəat"da toplanan sənədlər Şah Sultan Hüseynin (1105/1694-1135/1722), onun oğlu II Şah Təhmasibin (1135/1722-1145/1732) və Nadir şahın hakimiyyətləri dövründə yazılmış sənədlər aşağıdakilardan ibarətdir:

1. Məmurların təyin edilməsi haqqında Şah Sultan Hüseyn tərəfindən verilmiş fərmanlar (rəqəmlər) (10, v.27b, 30b; 11, v.37b, 41a);
2. Məmurların təyin edilməsi haqqında II Şah Təhmasib tərəfindən verilmiş fərmanlar (rəqəmlər) (8, v.414a, 414b; 12, v.172b, 175)
3. Məmurların təyin edilməsi haqqında Nadir şah tərəfindən verilmiş fərmanlar (rəqəmlər)(8, v. 416a, 420a; 12, v.175b, 178b)
4. 1746-ci ildə Osmanlı İmperiyası ilə Nadir şah arasında bağlanmış sülhnamə (sülh müqaviləsi) (8, v.403a)
5. Nadir şahın fəthnaməsi (zəfərnamə) (10, v.38a; 11, v.17b)
6. Mirzə Mehdi xanın vəqfnaməsi (vəqf fərmanı) (12, v.141a; 13, v.8b)
7. Nadirin böyük oğlu Rza Qulu Mirzənin nikah müqaviləsi (11, v.3a; 13, v.3a)
8. Nadir şah tərəfindən verilmiş İbrahim xanın əfv edilməsi haqqında fərman (12, v.152b; 13, v.22b)
9. Nadir şahın İran vilayətlərinin hakimlərinə məktublar (10, v. 36b; 11, v. 24b; 7, v.416a; 12, v.157b)
10. Nadir şahın Hindistan fəthindən sonra sahzadə Rza Qulu Mirzəyə məktubu (8, v.434a).

Əsasən Nadir şaha aid edilən və məcmuəyə daxil olan diplomatik məktubları aşağıdaki kimi qruplaşdırmaq olar:

1. Nadir şahın Moğol imperatoru Məhəmməd şaha məktubları (8, v.405b, 406b, 407a, 407b; 10, v.52b; 11, v.63a, 64a; 12, v.193b);
2. Nadirin Osmanlı sultanına məktubları (8, v.397a, 399a; 10, v.182b, 183b; 11, v.51b, 52b, 53b);
3. Nadirin rus çarları ilə məktublaşması (8, v. 428a; 11, v.55a, 56a, 62b; 12, v.186a,187b,193a);
4. Nadir tərəfindən Mərkəzi Asiya hakiminə ünvanlanmış məktub (8, v. 409a)

O dövrün vəqf mülkiyyəti, onun hansı qanunlarla və necə tənzimlənməsi də maraq doğuran məsələlərdən biridir. Biz Mirzə Mehdi xan Astarabadinin öz kitabxanası barədə verdiyi qərara və vəsiyyətnaməyə əsasən Əfşariyyə dövrünün vəqf qaydaları haqqında konkret bilgi əldə edə bilirik. Burada kitabxana vəqfnaməsinin araşdırılmasından tutmuş mülkiyyətin bağışlanma hüququnun yaranması və itməsinə qədər, vəqf və vəqfalma prosesinin gedişinə kimi bütün məsələlər öz əksini tapmışdır.

Xatırladaq ki, Mirzə Məhəmməd Mehdi xan Astarabadi öz kitabxanasını vəqf etmiş, onun qapılarını dövrün üləma və ariflərinin üzünə açmışdır. Kitabxananın idarə edilməsi hüququnu ilk öncə böyük oğluna həvalə edən şah katibi kitabların oxucuya necə verilməsi, nəzərdə tutulmuş kitabların sifariş edilməsi qaydası, onların qorunması, kitabın dəqiq qaytarılma vaxtı (əksər halda 30 günü aşmırdı) və s. əhatə edən mükəmməl təlimat da hazırlamışdır. Fikrimizcə, Mirzə Məhəmməd Mehdi xanın qoyduğu qaydalar təkcə vəqf məsələsini deyil, kitab tarixini öyrənənlər üçün də əhəmiyyətli sayıla bilər.

"Münşəat"da o dövrün bayramları, el şənlikləri, mərasimləri və digər adət-ənənələri də geniş şəkildə öz əksini tapmışdır. Bayramlar son dərəcə təntənəli və təmtəraqlı olmaqla, daha çox kütləni əhatə edərmiş. Şənliklər müxtəlif oyun növləri, yarışlarla başlar, qaliblərin mükafatlandırılması ilə başa çatarmış. Kitabda el bayram və mərasimləri ilə bağlı verilən məlumatların etnoqraflar, tədqiqatçı alimlər üçün maraqlı olacağı şübhəsizdir.

Məcmuədə Mirzə Mehdi xanın Nadir şahın fərmanlarından biri ilə

bağlı geniş şərhinə rast gəlirik. Bu, Nadir şahın qardaşı İbrahim xan Zəhiriddövlənin Dağıstan təcavüzkarları ilə döyüşdə məğlub olması ilə bağlı verilmiş qərardır. Qəzəblənmiş Nadir şah qardaşını sərt cəzalandırmış, deyilənə görə, hətta onu qırmancla döymüşdür. Yalnız onun sevimli sərkərdələrindən olan Allahyar xan tərəfindən İbrahim xanın bağışlanması ilə bağlı məktubdan sonra şah onu bağışlamışdır. Allahyar xanın məktubu şaha elə təsir etmişdir ki, o, qardaşının günahına göz yummalı olmuşdur (3, s.7).

Məcmuədəki məktublarla yaxından tanışlıq Nadir şahin katibinin yazı sənətində çox incə zövqə, yüksək bədii üsluba və ilhama malik olduğunu göstərir. O, özünün möhtəşəm kitabxanasının vəqf edilməsi barədə yazarkən düzgün şəriət vəqfi yolu ilə getdiyini bildirmişdir. Məcmuədə bu barədə deyilir: "Kitabxananın idarəçilik hüququ əvvəl onun oğul övladına, ondan sonra nəsilbənəsil onların övladlarına, onlar dünyadan gedəndən sonra qohumlarına, yaxınlarına, onlardan sonra isə üləmalara verilməlidir. Əlbəttə, özünün ölümündən sonra kitabxana böyük oğluna, ondan sonra da bir nəsildən digər nəsilə keçir. Gələcək barədə düşünən Mirzə Mehdi xan Astarabadi kitabların satılmasını, bağışlanmasını və əmanət verilməsini, yaxud bir yerdən başqa yerə köçürülməsini deyil, onların vəqf olunmasını vəsiyyət edir. Onun vəsiyyətinə görə, kitab heç kəsə bir aydan artıq müddətə və qəbzsiz verilə bilməz, vəqfın qayda-qanununu heç kəs poza bilməz" (3, s.7).

"Münşəat"da tez-tez qitə, qəzəl, məsnəvi ilə də qarşılaşırıq. Rəvayətlərə əsasən, bu beytlərdən bir çoxunu elə Mirzə Məhəmməd Mehdi xan Astarabadiyə aid olduğu ehtimal edilir. Əliqulu xan Valeh 1162/1748-ci ildə yazdığı məşhur "Riyaz-üş-şüəara" əsərində Mirzə Məhəmməd Mehdi xan Astarabadinin bütün ədəbi növlərdə, qitə, qəsidə, qəzəl, məsnəvi janrında şeirlər qələmə aldığına işarə etmişdir. "O, zahirən "Kövkəb" təxəllüsünü qəbul etmişdir" (3, s.8).

Nadirin katibinin məktublarının məzmunundan görünür ki, o, dini fərzlərə - oruca, namaza, xümsə, zəkata münasibətdə son dərəcə mömin olmuş, məktublarında lazım gəldikcə çoxlu ayələrdən yerli-yerində nümunələr gətirmişdir. Öz dövrünün üləmaları haqqında yazdığı məktublarda yalançı və zahirpərəst zahid və arifləri tənqid və tənbeh etmiş, onları ibadət və dini fərzlərə dəqiq əməl etməyə çağırmış, yol

göstərmiş və nəsihətlər vermişdir.

Yuxarıda qeyd edildiyi kimi, Mirzə Məhəmməd Mehdi xan Astarabadinin "Münşəat" əsəri Nadir şah Əfşar dövrünün araşdırılması və tədqiqi baxımından son dərəcə qiymətli və əhəmiyyətli bir mənbədir. Təəssüf ki, "Münşəat"ın pərakəndəliyi, dağınıqlığı, çoxsaylı nüsxələrin meydana çıxması bir çox anlaşılmazlıqların və qeyri-dəqiqliklərin yaranmasına səbəb olmuşdur. Nüsxələri yazanların xətt fərqləri tədqiqatçıların və araşdırmaçıların işini xeyli çətinləşdirmişdir.

Bu tarixi bir faktdır ki, Əmir Əlişir Nəvai Mirzə Məhəmməd Mehdi xan Astarabadinin sevdiyi qələm sahibi olmuş, münşi ondan ilham almış və hər vəchlə onu təqlid etməyə çalışmıdişdir. Ancaq bu iqtibaslar içərisində bəzən onun elə ifadəsini və cümləsini görürük Əmir Əlişir Nəvainin yazdıqlarından daha cəlbedici və cəzbedici olur. Ə.Nəvainin əsərlərinin xəttatlar tərəfindən üzü köçürülmüş nüsxələrində çox tez-tez buraxılmış söz və ifadələrə rast gəlinir. Həmin söz və ifadələrin yerinə qoyulmasında Mirzə Mehdi xan elə bir ustalıq göstərir ki, onun Nəvaiyə məxsus olub-olmamasını müəyyənləşdirmək mümkün olmur.

Yuxarıda qeyd etdiyimiz bütün məktublar Nadir şahın münşisinin ölümündən sonra toplanmış, sistemləşdirilmiş, Qacar dövründə "Məxzən-ül-İnşa" məcmuəsinə daxil edilmişdir. "Münşəat" onun yaradıcılıq üslubunu, məharətini və sənətkarlıq qüdrətini çox bariz şəkildə nişan verir. Doğrudur, Mirzə Məhəmməd Mehdi xanın əsərlərini oxuyanda onlar bəzən anlaşılmaz, bəzən isə çox sadə görünür. Bunu o dövrün siyasi sistemi ilə əlaqələndirmək lazımdır, belə ki, məktubun kimə ünvanlanması onun dil və üslub quruluşunu müəyyənləşdirirdi. Şah və sultana yazılan məktubla, qəbilə başçısına yazılan məktub arasında fərqi tam təbii qəbul etmək lazımdır.

Mirzə Mehdi xan Astrabadi təkcə tarixçi olmamış, həm də bir dilçi kimi fəaliyyət göstərmiş, türk dilinə dair "Məban-il-lüğət" kimi mükəmməl bir əsər özündən sonra yadigar qoymuşdur. Müəllif onu "Sənglax" kitabının müqəddiməsinə daxil etmişdir.. "Sənglax" və "Məban-il-lüğət" fərqli əsərlər deyil, əslində onlar bir-birini tamamlayır. Hər iki kitab elə bir kitabdır, onlar ərəb dili lüğətinə, coğrafi və fars adlarına həsr edilmişdir. Başqa sözlə desək, o, bu əsərdə çətin ərəb və türk sözlərini, fars istilahlarını sadələşdirmişdir.

"Sənglax" ədəbi əsərdir. Şeirlərin mürəkkəb lüğəvi mənasından və xüsusi səbkə malik olan Əlişir Nəvainin əsərlərinin şərhindən bəhs edir. Bu kitab Nadir şahın ölümündən 13 il keçəndən sonra tamamlansa da, o, Nadir şahın sağlığında yazılmağa başlandığından onun adına ithaf edilmişdir.

Bir sözlə, Mirzə Mehdi xan Astrabadinin əsərlərinin dili nə qədər qəliz və mürəkkəb olsa da, bu, həmin əsərlərin dəyərini qətiyyən azaltmır. Bu əsərlər Azərbaycan tarixinin ən dəqiq və ən real səhifələridir. Burada biz Səfəvi dövrünün sonlarını və bütövlükdə Əfşariyyə dövrünün tam mənzərəsini görürük. Mirzə Mehdi xan öz zamanında təkbaşına bu gün böyük insititutları gördükləri işlərdən daha möhtəşəm və əzəmətli bir işi görüb başa çatdıra bilmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra Mirzə Məhəmməd Mehdi xan Astrabadinin əsərlərinə maraq son dərəcə güclənmiş və onların bəzilərinin tərcümə edilməsi işi AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunun əməkdaşlarının planlarına daxil edilmişdir. Çünki bu əsərlər tariximizin, Azərbaycan dövlətçiliyinin ən mürəkkəb və vacib dövrlərini işıqlandırır. Fikrimizcə, belə bir salnaməçinin, tarixçinin ölkəmizdə tanıdılması, oxuculara təqdim edilməsi günün vacib məsələlərindəndir.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Арунова М.Р., Ашрафян К.З. Государство Надир-шаха Афшара. Очерки общ. Отношений в Иране 30-40 годов XVIII века. Москва, 1958
2. Astrabadi Mirzə Mehdi xan. Cahangüşayi-Nadiri. Be ehtimami-Seyyid Əbdullah Ənvar. Tehran, 1377 (fars dilində)
3. Astrabadi Mirzə Mehdi xan. Güzidə əz Münşəati-Mirzə Məhəmməd Mehdi xan Astrabadi münşiyül-məmaliki-Nadir şah Əfşar. Be kuşişi-Nəsrulla Bəyat. Tehran, 1383 (fars dilində)
4. Nəvai Əbdülhüseyn, Nadir şah və bazmandeganəş həmrah ba namehayi-səltənəti və əsnadi-siyasi və idari. Ba tövzihat və həvaşiyi-doktor Əbdülhüseyn Nəvai. Tehran, 1368 (fars dilində)
5. Каталог персидских рукописей. Сочинения по истории и географии. Под ред. Р.Мамедовой. Баку, 2013
6. Hüseyni Məhəmməd Sadiq, Məxzənül-İnşa. Tehran, 1314 (fars dilində)
7. Sir Gerard Clauson, Sanglax. A Persian Guide to the Turkish Language. Facsimile Text with an Introduction and Indices by Sir Gerard Clauson "E.J.W. Gibb Memorial" Series. New series No. 20, 1960, London
8. "İnşa", AMEA-nın Əlyazmalar İnstitutu, ş. M-139
9. Astrabadi Mirzə Mehdi xan. Dürrəyi-Nadirə. Be ehtimami-Seyyid Cəfər Şəhidi. Tehran, 1384 (fars dilində)

10. ”İnşa”, AMEA-nın Əlyazmalar İnstitutu, ş. B-6299
11. ”İnşa”, AMEA-nın Əlyazmalar İnstitutu, ş. B-3948
12. ”İnşa”, AMEA-nın Əlyazmalar İnstitutu, ş. B-2601
13. ”İnşa”, AMEA-nın Əlyazmalar İnstitutu, ş. B-5952

Р.Мамедова

СЕКРЕТАРИ АЗЕРБАЙДЖАНСКИХ ПРАВИТЕЛЕЙ

РЕЗЮМЕ

Данная статья посвящена Мирза Мехди хану Астарабади, жившему и творившему в один из самых противоречивых периодов истории Азербайджана. Сочинения Астарабади, который служил катибом или мунши (секретарь) при последних Сефевидах и Надир шахе Афшаре, проливают свет на многие события второй четверти XVIII в. Ценность произведений Астарабади заключаются в том, что сведения из них дают возможность внести некоторую ясность в противоречивые мнения, существующие о Надир шахе Афшаре. Кроме того, автор статьи отмечает необходимость перевода трудов Астарабади на азербайджанский язык.

R.Mammadova

SECRETORIES OF AZERBAIJANI RULERS

SUMMARY

This article is dedicated to Mirza Mehdi Khan Astarabadi, who lived and worked in one of the most controversial periods of the history of Azerbaijan. Works of Astarabadi, who served as katib or munshi (secretary) under the last Safavids and Nadir Shah Afshar, enlightened on many events of the second quarter of the XVIII century. Value of Astarabadi’s works is that the immediate information allowed to bring some clarity into the conflicting opinions about Nadir Shah Afshar. In addition, the author emphasises the need for the translation of Astarabadi’s works into Azerbaijani language.

CON BEL VƏ İOHANN QUSTAV GERBERİN ƏSƏRLƏRİ XVIII ƏSRİN İLK OTUZİLLİYİNDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİNİ ÖYRƏNMƏK ÜÇÜN BİR MƏNBƏ KİMİ

Asif İMANLI

Açar sözlər: Səyahətlər kitabı, Xəzərətrafı ərazilərin sosial-iqtisadi vəziyyəti, rus hakimiyyəti, işğal

Ключевые слова: Книга путешествия, социально-экономическое положение Прикаспийские территории, русское правительство, оккупация

Key words: Travel book, socio-economic situation, Caspian surrounded, The Russian Government, occupation.

XVIII əsrin birinci otuzilliyi Azərbaycan tarixində dərin tənəzzül vəziyyəti hesab olunduğu üçün bu dövrün iqtisadi həyatı nisbətən az öyrənilmişdir. Lakin göstərilən dövr ölkəmizin sonrakı inkişafında mühüm iz buraxdığından həmin dövrü, o cümlədən sosial-iqtisadi vəziyyəti öyrənməyə ehtiyac var. C.Belin səyahətnaməsi və İ.Gerberin əsərləri bu dövrdə Azərbaycanın iqtisadi həyatını təsvir etməyə çox kömək etdiyindən məqalədə biz onların tədqiqinə daha çox önəm vermişik.

C.Bel (Onu Bel d Antermoni də adlandırırlar-A.İ.) 1716-1718-ci illərdə Azərbaycanda olmuş A.P.Volınskinin başçılıq etdiyi şah sarayına göndərilən [6, 21] elçiliyin həkimi olmuşdur. Rəsmən həkim olsa da C.Bel çox müşahidəçi idi və gördüyü ən maraqlı və diqqətəlayiq şeyləri, eşitdiklərini qələmə alırdı. Sonralar, 1722-ci ildə C.Bel rus qoşunlarının Xəzəryanı əyalətlərə yürüşündə də iştirak etmiş, daha sonralar isə Uzaq Şərqə, o cümlədən Çinə səyahət etmişdi. C.Bel səyahətləri zamanı gördükləri və eşitdiklərini 1763-cü ildə İngiltərədə kitab halında çap etdirmişdi. Bu əsər bir neçə dilə tərcümə olunaraq nəşr olunmuşdur. Belin səyahətnaməsi 1770-ci ildə M.Popov tərəfindən fransızcadan ruscaya çevrilərək çap edilmişdir [7]. Həm də Belin qeydləri Volınskinin səfarətinin rəsmi yol jurnalından müsbət mənada fərqlənirdi. Belə ki, əgər rəsmi jurnalda başlıca diqqət hərbi, siyasi və qismən də sosial-iqtisadi

---

Asif İmanlı- AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

məsələlərə ayrılırdısa C.Belin qeydlərində daha çox Azərbaycanın etnoqrafiyası, flora ilə faunası haqqında məlumatlar əksini tapmışdır. Həm də onun qeydləri daha obyektiv səciyyə daşıyır. Əgər Volınski və onun rus köməkçiləri elçiliyin keçdiyi yolda yerli əhaliyə düşmən münasibət bəsləyirdilərsə Bel yerli əhaliyə daha humanistcəsinə yanaşırdı.

İohann Qustav Gerber (Gorber, Carber) mənşəcə Almaniyanın Brandenburq vilayətindən olub Peyts şəhərindən idi. Saksoniya ordusu leytenantının oğlu idi. Cavan yaşlarında hərbi xidmətə daxil olan Gerber 1706-cı ildə Saksoniyanın Rusiya ilə birlikdə qatıldığı İsveçə qarşı Şimal müharibəsində iştirak etməyə başlamışdır. Bəzi məlumatlara görə 1710, digər məlumatlara görə isə 1715-ci ildə poruçik rütbəsində Rusiya xidmətinə daxil olmuşdur[22,s.111]. İsveçlə "Şimal müharibəsi" adını almış müharibə gedirdi (1700-1721-ci illər) və Gerber də həmin müharibədə iştirak edərək fərqlənir və 1721-ci il oktyabrın 11-də mayor rütbəsinə yüksəldilir[11,s.5].

I Pyotrun Xəzəryanına 1722-ci ildə gerçəkləşdirdiyi yürüşdə iştirak edən Gerber ordunun əsas hissəsi ilə geri qayıtmayaraq beş il bölgədə qalır. O, 1724-cü il İstanbul osmanlı-rus müqaviləsi əsasında Qafqazda Rusiya və Osmanlı imperiyaları arasında sərhədləri müəyyənləşdirməkdən ötrü təşkil olunmuş komissiyanın tərkibində iştirak etmişdir. Buna görə də 1726-1727-ci illərdə sərhədin keçəcəyi rayonları öyrənmiş və torpaq xəritəsi tərtib etmişdir. Həm də xəritəyə izahat da yazmışdır[11,s.4].

İ.Gerberin əsəri tam şəkildə 1760-cı ildə "Qulluqçuların Əylənməsi və Faydası üçün Aylıq Əsərlərdə" nəşr olunmuşdur[11,s.9]. 1937-ci ildə M.A.Polievktov Gerberin bir iqtisadi layihəsini nəşr etdirmişdir[13,s111]

İ.Gerberin əsərinin digər bir variantını M.O.Kosven 1958-ci ildə "Dağıstanın tarixi, coğrafiyası və etnoqrafiyası"qaynaqlar toplusunda "Xəzər dənizinin qərb tərəfindəki ölkə və xalqların təsviri" adı altında nəşr etdirmişdir. V.Hacıyev 1979-cu ildə İ.Q.Gerberin əsərinin "Təsvir" variantının geniş təhlilinə həsr olunmuş kitab nəşr etdirmişdir. O, Gerberin bu məşhur əsərinin müxtəlif dillərdə bir neçə nüsxəsinin olduğunu qeyd edərək, bu nüsxələr arasında oxşarlıqları və fərqləri üzə çıxarmışdır. İ.Gerberin daha bir əsərini qeyd etmək lazımdır. 1729-cu ildə yuxarıda adı çəkilən prof. Bayer dissertasiya yazmışdı. Gerberin Xəzəryanı regiondan qayıtdığını eşidən Bayer Gerberin bu regionun dərin

bilicisi olduğunu bilərək öz dissertasiyasını rəy üçün ona göndərmişdir. Gerber bəzi qeydlər yazaraq Bayerə göndərmiş və onlar dissertasiya ilə birlikdə nəşr olunmuşdur [11,s.9].

Bu layihəni nəşr etmiş M.A.Polievktov yazır ki, həmin əsərdəki faktiki material 1728-ci ildə İ.Gerber tərəfindən tərtib olunmuş Xəzəryanı vilayətlərin təsvirinə uyğun gəlir və bir növ onu tamamlayır[13,s.111]. Polievktovun yazdığına görə Gerber bu əsərində 1728-ci ildə yazdığı əsərində qısa şəkildə toxunduğu neft, duz, tütün, zəfəran, pambıq, üzümçülük, qoyunçuluq və yun istehsalı, dağ-mədən sərvətləri, mineral tapıntılar və ticarət haqqında daha geniş məlumat vermişdir[13,s.113].

"Xəzəryanı vilayətlərin təsviri" əsəri və onun daha mükəmməl forması olan "Xəbərlər" İ.Gerberin yeganə böyük əsəridir. Belə hesab olunur ki, bu əsər müəllifin şəxsi müşahidələri və yerlərdə topladığı faktlar əsasında yazılıb. I Pyotrun yürüşünə həsr olunmuş və müəllifi göstərilməyən bir əsərin də [9,s.12] İ.Gerber tərəfindən yazıldığı güman edilir. Hər iki müəllif bir sıra Azərbaycan şəhərləri, ticarətin vəziyyəti, o cümlədən karvansaralar haqqında maraqlı məlumat verirlər.

C.Bel düşdüyü karvansaraların birində 500 adam qaldığını yazır. Karvansaraları mühafizəçilər qoruduğundan onlar təhlükəsiz idi. Biri digərindən 1 günlük məsafədə yerləşən karvansaraların ortasında həyət, kənarında isə otaqlar olurdu [7,s.52]. C.Bel Təbrizdən İsfahana gedən yolda şah Şəfi tərəfindən tikilmiş və minlərlə adam yerləşən karvansara görmüşdü [7,s.52]. Azərbaycanın bir çox şəhərləri, xüsusən də Dərbənd, Şamaxı, Təbriz, Gəncə, Bakı, Ərdəbil və başqaları karvan yollarının düyün nöqtələri idilər. C.Bel Dərbənd haqqında məlumat verərək onun möhkəmləndirilmiş şəhər olduğunu qeyd edir. Şəhərin dənizdən dağa qədər uzanan daş hasarla əhatələndiyini yazan C.Bel bildirir ki, buradan heç bir ordu keçə bilməz. Qalada güclü qarnizon dururdu [7,s.43]. Bu şəhərlər arasında Bakı daha əlverişli mövqeyə malik idi. Bakı karvan yollarının üstündə yerləşməklə yanaşı, həm də Xəzərin ən böyük limanı olduğundan bura tacirləri cəlb edirdi. İ.Gerber Dərbənd və onun həmin dövrdəki vəziyyəti və idarəçiliyi ilə bağlı daha geniş məlumat verir. Onun yazdığına görə şəhər ətrafında gözəl bağlar vardı. Üzümlüklər xüsusən əla idilər və heç yerdə beləsini tapmaq mümkün deyildi. Ancaq dərbəndlilər üzümdən yaxşı şərab hazırlaya bilmirdilər [11,s.200].

Dərbənd əyaləti şimaldan Qaytaqla həmsərhəd idi və ondan Darbaq çayı ilə ayrılardı. Cənubda əyalət 30 verst məsafədə Samur çayına qədər uzanırdı. Qərbdə isə 5-8 verst məsafədə uzanaraq Tabasaran ilə həmsərhəd idi [11,s.201]. İ.Gerberin yazdığına görə şah dövründə Dərbənd sultanlığından arxların, şəhər divarlarının və ictimai binaların saxlanması, mülki məmurlara və hərbçilərə məvacib vermək üçün vergi toplanırdı. Əlavə olaraq şah xəzinəsindən ildə 5 min tümən göndərilirdi ki, sultan lazım bildiyi kimi xərcləsin. Bundan başqa Quba və Tabasaran sakinləri sultanın istədiyi yerdə xidmət göstərməli idilər [11,s.202]. İ.Gerberin məlumatına görə, Dərbənd sakinlərinin hamısı müsəlman şiəməzhəb idilər. Türk, tatar və fars sözlərindən qarışıq olan dildə (yəni Azərbaycan türkcəsində - A.İ.) danışırlar, ruhanilər təmiz farsca yazırlar. Dərbənd sakinlərinin əksər hissəsi döyüşçü idi. Min süvari və iki min piyada toplamaq mümkün idi. Onlar məvacib alırdılar, eləcə də əkin yerləri vardı və mal-qara da saxlayırdılar. Bağçılıqla daha çox məşğul olurdular [11,s.203-204]. İ. Gerber dərbəndlilərin çox sədaqətli və xeyirxah olduqlarını yazırdı[11,s.204]. Şəhərdə çoxlu İran, gürcü, erməni və hind taciri və rəssamları vardı. Rusiya işğalı dövründə Dərbənd əyalətindən xəzinəyə vergi toplanmırdı. Yalnız şəhərə gətirilən və şəhərdən aparılan mallardan gömrük rüsumu alınırdı ki, bu da ildə 1000 rubldan çox təşkil etmirdi [11,s.204].

Müəllif göstərir ki, Dərbənd biri-birinin ardınca yerləşən dörd hissədən ibarətdir. Onlar bir bütöv hasarla əhatə olunsalar da, aralarında daha kiçik divarlar var. Yuxarı şəhər, yaxud qəsr ən kiçik hissədir və qərbdə dağ yamacında yerləşir. Oradan şəhərin digər üç hissəsini atəş altında saxlamaq olar. Rus işğalı dövründə burada rus qarnizonu yerləşdirilmiş və başqa heç kimin orada yaşamasına icazə verilmirdi [11,s.196]. İ.Gerberin fikrinə əsasən şəhərin hər iki orta hissəsin də naib, tacirlər və digər sakinlər yaşayırdılar. Şəhərin dəniz kənarında yerləşən aşağı hissəsində isə heç kim yaşamırdı [11,s.196]. Müəllifi bu da heyrətə gətirmişdi ki, yuxarı dağlardakı bulaqlardan axan su qismən kiçik borularla, qismən svodların altında kanallarla (bir çoxu görünmür və hardadır məlum deyil), yerin altından çəkilib [11,s.198]. İ.Gerber qeyd edirdi ki, yüxarı şəhərdə, həm də yerin altında çoxlu su ilə dolu ambarlar var və onları elə örtüblər ki, üzdən orda suyun olduğu görünmür

[11,s.198]. İ.Gerber şəhər ətrafında həddən çox məqbərələrin, onların üzərində türk, ərəb, fars, xaldey və qədim kufi yazılarını olduğunu yazır. Doğrudur, bu zaman İ.Gerber kufi yazısını yanlış olaraq ayrıca dil hesab edir, [11,s.199] halbuki kufi ərəbcə xət növüdür.

İ.Gerber Dərbəndlə qonşu olan Tabasaranda hakimin-maysumun vəfatından sonra oğlunun bu vəzifəyə seçilməsinin Dərbənd sultanı tərəfindən təsdiqləndiyini yazır [12,s.104-105].

XVIII əsrin əvvəllərində Dərbənd şəhərinin uzunluğu 1730 sajen (1 sajen =2,134 m), eni ən dar yerində 100 sajen idi [12,s.86].

Dərbənd sultanları həm də mövcud silahlı qüvvələrin komandiri idilər. Dərbənddə bir də qurçi (qorçu) bölüyü vardı[11,s.203]. İ.Gerberin yazdığına görə bu bölüyə yalnız şahin göstərişi ilə döyüşçülər təyin edirdilər. Bir növ şah qvardiyaçıları sayılan qorçuların böyük hörməti vardı. Bu cür qorçu bölükləri, Səfəvi dövlətinin yalnız əhəmiyyətli şəhərlərində vardı [12,s.85-86]. İ.Gerber digər əsərində yazır ki, Dərbənd sultanlığının sərhədləri şəhərdən şimala 15 verstə cənuba Samur çayına kimi 30 verstə qədər uzanır. Dənizdən qərbə dağlara doğru Tabasarana qədər isə 4-6-8 verstə qədər uzanır [12,s.85].

C.Bel Bakı nefti haqqında maraqlı fikirlər söyləmişdir: "Bakının ətrafında çoxlu miqdarda neft bulaqları vardır. Bu, bir növ qara və çox asanlıqla yanan yer yağıdır...İranlılar ondan lampalarda yandırmaq üçün istifadə edirlər. Yağışdan sönmür, ancaq pis iyi var. Mən bulaq suyu kimi şəffaf neft görmüşəm [6,s.49]. F.M.Əliyevin düzgün olaraq qeyd etdiyi kimi neft heç yerdə şəffaf şəkildə çıxmadığından yəqin ki, C.Bel "bulaq suyuna bənzər" neftdən danışarkən süni surətdə təmizlənmiş ağ nefti (kerosini nəzərdə tutur) [2,s.35]. Neft və duz mədənləri icarəyə verilirdi [5.s.1077].

Azərbaycanın digər mühüm şəhəri Şamaxı Şərqdən Qərbə gedən karvan ticarət yollarının qovşağında yerləşirdi. C. Bel Şamaxı şəhəri haqqında qiymətli məlumatlar verir. O yazırdı: "Şamaxı şəhəri qırxıncı şimal enliyində yerləşir. Qədimdə o, Midiyanın bir hissəsini təşkil edirdi. Hazırda isə Şirvan adlanan böyük bir əyalətin paytaxtıdır. Şəhər dağın cənub ətəyində amfiteatr şəklində salınmışdır. O (Şamaxı), böyükdür, lakin canişinin, hakimin və bəzi varlı tacirlərin evlərindən başqa (şəhərdə) evlər pis tikilmişdir. Onun küçələri dar və əyridir."[7,s.59] Şamaxının

havasının çox gözəl olduğunu yazan C.Bel yerli əhalinin türk dilində danışdığını xüsusi qeyd edir.

C.Bel Şamaxının ticarətindən bəhs edərək yazır: "Bu şəhərdə (Şamaxıda) xüsusilə xam ipəklə ticarət aparılır. Ətraf qəzalardan toplanan xam ipək ingilislərin və hollandların İsfahanda təsis etdikləri şirkətlər tərəfindən alınır və böyük bir qismi Hələb şəhərinə göndərilir. Burada həmçinin pambıq da satılır. Lakin yerli əhali onu özü alır və ondan müxtəlif parçalar toxuyur [7,s.60]. Müəllif maraqlı bir məlumat verir: şəhər ətrafında dağın zirvəsində çoxlu pəncərələri və zalları olan hündür bir bina var idi ki, hər gün günəş çıxanda və batanda orada zurnalar, nağaralar və şipovok çalmaqla bir növ konsert verilirdi [7.s.59-60].

Şamaxıda çoxlu məscidlərin və geniş karvansaraların, hamamların olduğunu da qeyd edən C.Bel Şamaxıdan 2 mil şimalda hündür Gülüstan dağının olduğunu, bu qalanın şərq qalalarına heç də oxşamadığını yazır [7,s.61]. C.Belin yazdığına görə Şamaxı ətrafında yetişdirilən buğda, arpa, üzüm və bir çox müxtəlif meyvələr də şəhər bazarına gətirilirdi[7,s.61]. Şamaxıda yaşayan xristianlar Şamaxı üzümündən ləzzətli şərab hazırlayırdılar [7,s.61]. Təəssüf ki, C.Belin Şamaxıya birinci və ikinci səyahəti arasında Azərbaycanda taun tuğyan etmişdi. Təkcə Şamaxıda və onun ətraflarında 70 min adam ölmüşdü [19,s.60]. Dövrün tələtümlərinə baxmayaraq Şamaxıda sənətkarlıq və ticarət tamamilə sıradan çıxmamışdı. Şamaxıda ipəkçilər, toxucular, misgərlər, sərraclar, başmaqçılar, bürünc və mis üzərində gözəl naxış çəkən nəqqaşlar, silahqayıranlar və basqa sənətkarlar qızğın fəaliyyət göstərirdilər [2,s.39-40]. Şimalı Azərbaycanın digər böyük şəhərləri Gəncə, İrəvan, Şəki, Lənkəran və Quba haqqında C.Bel məlumat vermir. Çünki o, bu şəhərlərdə olmamışdır. Azərbaycanın cənubunda ən böyük şəhər Təbriz idi. Təbrizdə olmuş C.Bel yazır ki, Təbriz əyalətin ən böyük şəhəri və xanın iqamətgahı olub çox böyükdür və və çoxsaylı əhalisi var. O, Tavr dağı ilə əhatələnmiş münbit vadidə yerləşir. Şəhərdə hələ də əzəmətinin nişanəsi olan qədim tikililərin qalıqları görünürdü. Onların içərisində Belin dediyinə əsasən məscidə çevrilmiş qədim məbəd də vardı. Onun tavanını çoxlu porfir sütunlar saxlayırdı, bəzilərinin rəngi yaşıla çalırdı, digərləri qızılı çaları olan müxtəlif rənglərdə idi. Ölçüləri çox dəqiqdir. C.Bel onların gözəlliyini təsvir etməkdə çıtinlik çəkdiyini yazır. Səyyahı

mərmərin çoxluğu da heyrətə gətirmişdi [7,s.68]. C.Bel yazırdı ki, Təbrizdə küçələr dar və əyri-üyrüdürlər, evlər əsasən çiy kərpicdən tikilib, bəylərbəyinin və bir sıra yüksək rütbəli məmurların evləri daşdan inşa olunub və kifayət qədər gözəl görkəmləri var. Evlərin damları yastıdır, döşəmələrə xalılar və ayaqaltılar sərilir. Əsilzadə şəxslərin ön həyətdə sütunları dördbucaqlı kərpicdən hörülmüş, müxtəlif güllər əkilərək bəzədilmişdir [7,s.69]. Səyyah Təbrizdə çoxlu gözəl minarələrlə bəzənmiş məscidlərin olduğunu yazır. Burada hündür bir qüllədə var idi ki, Şamaxıda olduğu kimi orada da axşam və səhər bir növ konsert verilirdi. Şəhərdə karvansaralar da çox idi. C.Bel şəhər ətrafının tamamilə açıq olduğunu, müdafiə üçün qala və istehkamın olmadığını yazır [7,s.70]. Təbrizin çox mühüm iqtisadi mərkəz olduğunu ildə bu şəhərdən və eyni adlı vilayətdən şah xəzinəsinə 100 min tümən gəlir toplanması da sübut edir. XVIII əsr rus müəllifi M.Çulkov Təbriz bazarının Səfəvi dövlətində ən böyük və zəngin bazar olduğunu, bu şəhərdə 15 min dükan olduğunu, Təbriz bazarının "Qeysəriyyə" yəni şah bazarı adlandırıldığını qeyd edərək yazırdı: "İsfahanın özü də daxil olmaqla bütün İran dövlətində Təbriz kimi zəngin və məşhur ticarət şəhəri yoxdur. Təbriz təkcə İran daxilində deyil, həmçinin Rusiya, Türkiyə, Tatarıstan, Hindistan, habelə Qara dəniz sahilləri ilə ticarət aparır."[24,s.600].

Beləliklə, C.Beli və İ.Gerberin Səyahətnamələrinin tədqiqi göstərir ki, XVIII əsrin əvvəllərində baş vermiş ictimai-siyasi təlatümlər Azərbaycanın sosial-iqtisadi vəziyyətinə xeyli mənfi təsir göstərsə də Avropa ilə Asiyanı birləşdirən yolların qovşağında yerləşdiyindən, uzaq keçmişdən müxtəlif ölkələrdə geniş ticarət əlaqələri formalaşdığından ölkə şəhərləri hələ də iri ticarət-sənətkarlıq mərkəzləri kimi qalmaqla davam edirdilər.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1.Avril Phillips. Voyages en divers e tats d Europe et Acic. Voyage der tartoric Livresckond (frans.dilindən tərcümə S.Aşurbəylinin). AMEA T.İ.Elmi Arxivi, inv.477.
2.Əliyev F. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı, Azərb.SSR EA Nəşriyyatı, 1964,123 s.
3.Hanvey Conas. An historical accountof the Caspian Sea: with the authors journal of travels from England through Russia into Persia and bask through Russiya, Germany and Holland". London-1754.
4.Məmmədov S. Azərbaycan tarixi (XV-XIX əsrin birinci otuzilliyi).B:"Maarif", 2002.

5.АКАК. Дополнения к I тому.с.1077.
6.Алиев Ф. М. Миссия посланника Русского государства А.П.Волынского в Азербайджане в 1716-1718 гг. Баку, Элм, 1979.
7.Белл Джон. Белевы путешествия в Россию в разныя асиятския земли: а имянно: в Испоган, в Пекин и Константинополь. Перевел с французского Михайло Попов. Часть первая, СПб., 1776.
8.Выдержкииз“Letters curienses et difianters etg Cole te Maze, Bachond, Heurian ets).Перев. Абезгуза НА ИИ НАН, инв. 471.
9.Гаджиев В.Г. Сочинение И. Гербера «Описание стран и народов между Астраханью и рекою Курой находящихся» как исторический источник по истории Кавказа. «Изд. Наука», Москва1979. 272 с. 10.Гейдаров М.Х. Торговля и торговые связи Азербайджана в позднем средневековье. Баку-1999
11.Гербер И.Г. Известия о находящихся с западной стороны Каспийского моря между Астраханью и рекою Курой народах и землях и о их состоянии в 1728 году. Сочиненное полковником артиллерии Иваном Густавом Гербером//Сочинения и переводы к пользе и увеселению служащия. 1760 г.
12.Гербер И.Г. Описание стран и народов вдоль западного берега Каспийского моря. 1728 г.// История, география и этнография Дагестана XVIII-XIX вв. (архивные материалы). Москва, Изд. восточной литературы, 1958, сс. 60-118.
13. Гербер И.Г. Замечания, клонящиеся к истинной выгоде Вашего Величества в тех завоеванных персидских провинциях, которые по персидским трактатам остались за Его Величеством Всероссийским. Вах:Полиэвктов М.А. Проект хозяйственной эксплуатации оккупированных в XVIII в. Россией прикаспийских областей Кавказа. Материалы по истории Грузии и Кавказа. Вып. IV, Тб. 1937.
14. Государственный Архив Астраханской области, фонд 394, дело 539.
15. Джалалян Е.Х. Краткая история страны Албанской (1702-1722 гг.). Пер. с древнарм. Языка Т.И.Тер-Григоряна (Предисловие и подготовка к изданию акад. З.М.Буниятова). Баку-1989.
16.Донесения французского консула в Петербурге Лави и уполномоченного министра при русском дворе Капредона с 1722 г. по 1724 гг. от де Кампредона к королю. Петербург, 20 сентября 1723г. СИРИО, т.49, д.380
17.Журнал посланника Волынского 1715-1718 гг. В кн.: Зевакин Е. Азербайджан в началеXVIII в. Известия общества обследования и изучения Азербайджана. №8,вып.IV,Баку-1929
18.Корнелий де Брюин. Извлечения из путешествия Корнелия де Брюина (Перевод с французского Абезгуза). AMEA T.İ.Elmi Arxivi, inv.2009
19.Лавров Л.И. Стихийные бедствия на Кавказе до XIX в. // Кавказский этнографический сборник.т.VIII,Москва-1984,сс.67-70.
20.Лопухин А. Журнал путешествий через дагестан. 1718 г.// История, география и этнография Дагестана. Москва, Изд. восточной литературы, 1958, 1958, сс.6-59
21. Мустафазаде Т.Т. Русско-турецкие отношения в первой трети XVIII века. Баку, Elm,1993. 240 с.
22.Полиэвктов М.А. Европейские путешественники XIII-XVIII вв. по Кавказу, Тифлис, 1935
23.Спасский П.И. Укрепление Дербента. Баку, 1929.
24.Чулков М.Д. Историческое описание российской коммерции при всех портах и

границах от прежних времен до ныне настоящего и всех преимущественных узаконений по оной государя Петра Великого и ныне благополучно царствующей государыни Екатерины Великия, сочиненное Михайлом Чулковым.т.2, кн.2, СПб., 1785, 626с.

25.Garber Yohan. Nachrichten von denen an der vesthichen seite der Caspishen see zwishen Astrachan und dem Flusse Kur beindlichen Volkern und Landschaften und der Selben Zustande in dem Jahre 1728. Sammling russisher Geschichte (CPb.) 1970, IV,1/2.

А.Иманлы

ТРУДЫ ДЖОН БЕЛЛА И ИОГАННА ГУСТАВА ГЕРБЕРА КАК ИСТОЧНИК ПО ИЗУЧЕНИЮ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ ПОЛОЖЕНИЙ АЗЕРБАЙДЖАНА В ПЕРВОЙ ТРЕТИ XVIII ВЕКА

РЕЗЮМЕ

В статье на основе трудов Дж. Белла и И.Гербера освещено социально- экономическое положение Азербайджана в первой трети XVIII века. В трудах обеих авторов имеются пространные сведения о городе Дербенде, его положении и система управлении. Из приведенных в этих трудах сведений по городу Баку выясняется, важные место нефт в экономики города, высокий уравеню добычи нефти и умения получат белой нефти. И Дж. Белл и И.Гербер отмечают, что несмотря на потрясений и разрушений Шамахы еще продолжал играть роль крупного торгово – ремесленного центра. Из сведений привядимых И.Гербером выясняется, что разбежавшие во времена смут многие крестьяне во второй половине 20-х годов XVIII века постопенно вазвращались в свой жилища.

A.İmanli

THE WORKS OF JON BELL AND IOHAN GUSTAV GERBER AS THE SOURCE FOR LEARNING THE SOCIO-ECONOMIC SITUATION OF AZERBAIJAN IN THE FIRST THIRTY YEARS OF 18-th CENTURY.

SUMMARY

The socio-economic situation of Azerbaijan in the first thirty years of 18-th century was investiqated in the article. In works of both authors there is an extensive information about Derbent , its situation, management. According to the information about Baku oil played a qreat role in the town's economy, oil production and kerosene producing level was high for that period. Both J. Bell and I. Gerber noted that despite the shocks and destructions Sheki still was an important handicraft and trade center. It is also mentioned in I. Gerber's information that peasants who left their homes during disturbances in the second half of the 20-th years gradually were returning back to their places.

QARABAĞ XVIII ƏSRİN BİRİNCİ YARISI OSMANLI-SƏFƏVİ MÜHARİBƏLƏRİ DÖVRÜNDƏ

Xədicə ABBASLI

Açar sözlər: Qarabağ, Osmanlı imperiyası, I Pyotr, Səfəvi dövləti
Keywords:Garabagh, Ottoman empire, Peter the Great, Safavi state
Ключевые слова: Карабах, Османская империя, Петр Великий, Государства Сефевидов

Bir vaxtlar dünyanın ən qüdrətli imperiyalarından biri olan Səfəvi dövləti XVII əsrin sonu – XVIII əsrin əvvəllərində dərin iqtisadi, ictimai-siyasi böhran keçirirdi. İmperiyanın çox yerini separatçılıq hərəkatı bürümüşdü.Daim isti dənizlərə çıxış əldə etmək arzusunda olan I Pyotr qonşusunun ağır vəziyyətindən istifadə edib onun torpaqlarını ələ keçirmək qərarına gəldi və 100 minlik ordu ilə 1722-ci ildə cənuba yürüş etdi.Həmin il avqustun sonunda Dərbəndi döyüşsüz ələ keçirən Çar Osmanlı sarayının kəskin etirazı və bir sıra başqa səbəblər üzündən Rusiyaya qayıtmalı oldu. Lakin kiçik hərbi dəmir ekspedisiyaları göndərməklə Xəzəryanı regionda işğallarını davam etdirdi.

Rusiyanın Xəzərsahili vilayətlərdə strateji əhəmiyyəti olan bir sıra məntəqələri ələ keçirməsi Osmanlı imperiyasının hakim dairələri arasında ciddi narahatlığa səbəb oldu. 1722-ci ilin payızında Osmanlı sultanı imperiyanın şərq əyalətlərinin paşalarına Ərzurumda toplaşmaq və buradan Cənubi Qafqaza hücum etmək haqqında əmr verdi [2, s.60]. Ərzurum hakimi İbrahim paşanın komandanlıq etdiyi bu ordunun qarşısında Qərbi İranı və Cənubi Qafqazın şərq torpaqlarını, habelə Xəzər dənizi hövzəsində mühüm strateji əhəmiyyəti olan Bakını ələ keçirmək vəzifəsi qoyulmuşdu [6, s.13]. Həmin ordu 1723-cü il iyunun 12-13-də heç bir müqavimətə rast gəlmədən Tiflisi ələ keçirdi və Gəncə-Qarabağ bəylərbəyiliyinin sərhədlərinə yaxınlaşdı.

İbrahim paşanın başçılıq etdiyi 60 min nəfərlik ordu 1723-cü ilin oktyabrında Gəncə şəhərinə yaxınlaşdı və onu mühasirəyə aldı. Bu dövrə

Xədicə Abbaslı – AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

aid mənbələrdən birində göstərilirdi ki, Osmanlı əsgərlərinin 18-20 gün ərzində şəhərə daxil olmaq üçün göstərdikləri bütün cəhdlər gəncəlilər tərəfindən dəf edilmişdi. Cəmisi 10-12 min nəfərlik şəhər qarnizonu 60 min nəfərlik Osmanlı ordusunun hücumlarının qarşısında geri çəkilmədi. Osmanlı komandanlığının gəncəliləri susuz qoymaqla təslim olmağa məcbur etmək cəhdi də heç bir nəticə vermədi [9, s.LXVI, s.73].

Qarnizon və şəhər əhalisi özlərinə gələrək gözlənilmədən osmanlıların düşərgəsinə hücum etdilər. Hər tərəfdən sıxışdırılmış osmanlı qoşunu topları və ərzağı ataraq qaçdı. Bu döyüşdə onlar 3 min əsgər itirdilər [2, s. 60; 19, s.87-88].

Bir başqa məlumatdan aydın olur ki, osmanlılar şəhərə yaxınlaşarkən gəncəlilər guya şəhəri onlara təslim etməyə hazır olmaları haqqında uzun çəkən danışıqlar apardılar və bununla şəhərin içində düşmənə tələ qurmaq üçün vaxt qazandılar. Osmanlı ordusu şəhərə daxil olan kimi onun geriyə yolu bağlandı. Bundan sonra hər tərəfdən hücuma məruz qalan osmanlı ordusu şəhərin küçələrində hərəkət edə bilməyərək çox ciddi itkiyə məruz qaldı və tələsik Gəncəni tərk edərək Tiflis istiqamətində qaçmağa başladı [4].

Osmanlı ordusunun Gəncə uğrunda gedən döyüşlərdə ağır məğlubiyyətə uğradılmasında Gəncə-Qarabağ bəylərbəyi Məhəmmədqulu xanın da rolu olmuşdu. Qeyd etmək lazımdır ki, Məhəmmədqulu xan 1723-cü ilin yayında osmanlılar tərəfindən Tiflisdə həbs edilmişdi. Lakin o, həbsdən qaçmağa nail olmuş, tezliklə azərbaycanlılardan və gürcülərdən ibarət ordu topluya bilmişdi. Məhəmmədqulu xan osmanlıların Gəncə üzərinə yürüşə başlamalarından 12 gün sonra gəncəlilərin köməyinə gəlmişdi [16, s.73]. Bir tərəfdən gəncəlilərin ciddi müqavimət göstərməsi, digər tərəfdən isə Məhəmmədqulu xanın güclü ordu ilə köməyə gəlməsi xəbəri osmanlı ordusunu geri çəkilməyə məcbur etdi. Uğursuzluğa düçar olmuş osmanlı ordusunun bir hissəsi Tiflisə, digər hissəsi isə Ərzuruma çəkildi [6, s.13-14, 16, 10, s.73].

Lakin osmanlılar Gəncəni ələ keçirmək fikrindən imtina etməmişdilər. Osmanlı ordusunun gözlənilən hücumunun qarşısını almaq üçün Gəncə-Qarabağ bəylərbəyiliyinin bütün əhalisi, o cümlədən gəncəlilər ciddi hazırlıq işləri görürdülər. Gözlənilən hücum təhlükəsi

Səfəvilər dövlətində başlanmış qarışıqlıqdan istifadə edərək Gəncə-Qarabağ bəylərbəyiliyinə tabe olmaqdan imtina etmiş Qarabağın xristian məliklərini daha çox təşvişə salmışdı. Məhz osmanlı təhlükəsi xristian məliklərini separatçılıqdan, müvəqqəti də olsa, imtina etməyə və Gəncə-Qarabağ bəylərbəyinin hakimiyyətini yenidən qəbul etməyə məcbur etdi [10, s.116].

1725-ci ilin yazında Azərbaycan torpaqlarının böyük bir hissəsini işğal etmiş Osmanlı ordusu Gəncə-Qarabağ bəylərbəyiliyini ələ keçirmək üçün hazırlıq işlərinə başladı. 1723-cü ildəki uğursuzluğun bir daha təkrar olunmasını istəməyən osmanlı komandanlığı Gəncənin işğalına bu dəfə daha ciddi hazırlaşmışdı. Gəncə üzərinə göndərilən ordunun komandanı vəzifəsinə təcrübəli sərkərdə Sarı Mustafa paşa təyin edilmişdi. Türkiyənin vassalı olan Krım xanına da Gəncəyə hücum edən osmanlı ordusuna yardım göstərmək haqqında əmr verilmişdi. Beləliklə, osmanlı komandanlığı Gəncə istiqamətində silah və sursatla yaxşı təchiz olunmuş 40 min nəfərlik ordu cəmləşdirmişdi [5, s.71].

Osmanlı ordusunun Gəncə-Qarabağ bəylərbəyiliyinə hücumu 1725-ci ilin fevralında başlandı. Həmin vaxt ümumi sayı 6 min nəfər olan üç osmanlı hərbi hissəsi Qarabağa daxil oldu və Vərəndə ətrafında olan 33 kəndi işğal etdi. Lakin osmanlı ordusu burada uzun müddət tab gətirib qala bilmədi. Həmin il martın əvvəllərində üsyan qaldıran əhali işğal edilmiş kəndlərdə yerləşən osmanlı əsgərləri üzərinə qəfil hücum edərək onlara ağır zərbə endirdilər. Bu orduya başçılıq edən 3 paşadan 2-si öldürüldü, Saleh paşa adlanan üçüncüsü isə əsir götürüldü [9, s.LXXXII].

Osmanlı komandanlığı 1725-ci ilin yayında əsas diqqəti mühüm strateji əhəmiyyəti olan Gəncə şəhərinin ələ keçirilməsinə yönəltdi. 1723-cü ilin acı təcrübəsini nəzərə alan osmanlı komandanlığı, yuxarıda deyildiyi kimi, Sarı Mustafa paşanın komandanlığı altında Gəncə üzərinə 40 min nəfərlik ordu göndərdi və az sonra bu ordunun sayı iki dəfə artırıldı [6, s.77]. Lakin osmanlı ordusu şəhəri heç də asanlıqla ələ keçirə bilmədi. Hamılıqla silaha sarılan gəncəlilər iki ay ərzində düşmənə ciddi müqavimət göstərdilər. Bununla belə, bütün ölkə ərazisinin artıq osmanlılar tərəfindən işğal edilməsi və şəhərdə aclığın başlanması müqaviməti davam etdirməyə imkan vermədi. 1725-ci il sentyabrın 6-da

əhali tərəfindən tamamilə tərk edilmiş Gəncə şəhəri osmanlı ordusu tərəfindən işğal edildi [5, s.72].

Lakin Gəncə şəhərinin işğal edilməsi hələ heç də bəylərbəyiliyin tamamilə işğal edilməsi demək deyildi. Qarabağın dağlıq hissəsində müqavimət xüsusilə güclü idi [15, s.82]. Bu bölgənin həm müsəlman, həm də xristian əhalisi əlçatmaz dağlara çəkilərək özlərinə sığınacaqlar düzəldir və osmanlı hakimiyyət orqanlarına tabe olmaqdan boyun qaçırırdılar. Belə sığınacaqlardan biri haqqında hadisələrin müasiri olmuş A.Kretatsi məlumat verərək yazırdı: «Biz çox hündür, sıldırım qayalı dağlar arasında yerləşən pisiyanlı Qorçu bəyə məxsus obaya və Xınzırak adlı tatar (azərbaycanlı-X.A) kəndinə gəldik və qəribə mənzərə gördük. Kəndlərdən sağda və solda yerləşən qayalarda, başgicəlləndirici hündürlükdə...mağaralar qazılmışdı ki, onlarda da ailələr məskunlaşmışdı. Təəccüblü burasıdır ki, onlar [mağaralara] dəri kəmərlərin köməyilə qalxır və düşürdülər... Qayaların üstünə də həmin üsulla qalxırdılar: kəmərləri yoğun kəndirlər vasitəsilə yuxarıya elə çəkirdilər ki, yadellilərdən heç kim oraya düşə bilməsin» [14, s.156; 16, s.303].

1726-cı ildə Qarabağda osmanlı işğal rejiminə qarşı güclü üsyan baş verdi. Bu üsyana Qarabağın dağlıq hissəsində yerləşən sığnaqlardan birinin başçısı Avan yüzbaşı rəhbərlik edirdi. Üsyanın daha geniş miqyas almasına yol verməmək üçün osmanlı komandanlığı Şamaxıda olan Sarı Mustafa paşanın komandanlığı altında Qarabağa ordu göndərdi. Sarı Mustafa paşa üsyanın əsas mərkəzi olan Şuşa kəndini yalnız 8 gün davam edən döyüşlərdən sonra ələ keçirə bildi [5, s.101-102].

1727-ci ildə baş vermiş üsyan öz miqyasına görə daha geniş xarakter daşıyırdı. Üsyanın əsas iştirakçılarını Dizaq və Bərgüşad mahallarında yaşayan kürd mənşəli qaraçorlu, Hacıəli və Mahmudi tayfaları, habelə Muğan düzündə yaşayan şahsevənlər təşkil edirdilər. Osmanlı komandanlığı bu üsyanı yatırmaq üçün Təbriz sərəsgərinin başçılığı altında 15 min nəfərlik süvari ordu göndərdi. Lakin osmanlı əsgərlərinin əksəriyyəti öz həmdinlərinə qarşı silah qaldırmaqdan imtina etdilər. Bu osmanlı komandanlığını üsyançılarla sülh bağlamağa məcbur etdi. Müqaviləyə görə əhalinin siyahıya alınması zamanı qaraçorlu tayfası

xass hüququ ilə dövlət torpaqları alır və bu torpaqlardan əldə etdikləri gəlirin yarısını Gəncə sərəsgərinin sərəncamına verməyi öhdələrinə götürürdülər. Onlar eyni zamanda sığnaq ermənilər ilə əlaqəni kəsəcəklərinə də söz verirdilər [5, s.101-102; 9, s. LXXXIX].

XVIII əsrin 20-ci illərinin sonlarında Azərbaycanda osmanlı işğal rejiminə qarşı üsyanlar daha geniş miqyas almışdı. Qaradağda, Ərdəbildə, Xalxalda, Şirvanda və Marağada sayı on minlərlə olan üsyançı dəstələri fəaliyyət göstərirdi. Osmanlı sultanı işğal bölgələrindəki bu üsyanları yatırmaq üçün böyük hərbi qüvvələr ayırmağa məcbur olurdu [11, s.373-374]. Gəncə-Qarabağ bəylərbəyiliyi yenə də azadlıq hərəkatının əsas mərkəzlərindən biri kimi qalmağa davam edirdi.

Mənbələrlə yaxından tanışlıq göstərir ki, bu dövrdə Azərbaycanda, o cümlədən Gəncə-Qarabağ bəylərbəyiliyində azadlıq hərəkatının getdikcə güclənməsinə İranda gedən proseslər də təsir göstərirdi. Belə ki, Nadir xanın yüksəlişi və onun əfqan və osmanlı işğalçılarına qarşı mübarizəsinin genişlənməsi məhz bu dövrə təsadüf edir. Öz düşmənlərinə qarşı döyüş meydanlarında uğurla müharibə aparan Nadir xan, çox güman ki, qanuni hökmdar hesab edilən II Təhmasibin adından işğal altında olan ərazilərin əhalisi ilə də əlaqə yaratmış və onları osmanlılara qarşı mübarizəni daha da gücləndirməyə çağırmışdı.

XVIII əsrin 20-ci illərinin sonu 30-cu illərinin əvvəllərində Azərbaycanda osmanlı işğal rejiminə qarşı azadlıq hərəkatının daha geniş vüsət almasını osmanlıların həyata keçirdikləri vergi siyasətinin getdikcə daha ağır xarakter alması ilə də izah etmək olar. «Gəncə-Qarabağ bəylərbəyiliyinin müfəssəl dəftərinin» məlumatlarının təhlilinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, osmanlı hakimiyyət orqanları işğalın ilk illərində nisbətən mülayim vergi siyasəti yeridirdilər. Lakin 1727-1728-ci illərin siyahıya alınmalarından sonra Gəncə-Qarabağ bəylərbəyiliyində əhali üzərinə qoyulan vergilərin həcmi Türkiyənin özündə əhalidən toplanan vergi normalarından da ağır xarakter almışdı. Bu isə öz növbəsində digər Azərbaycan torpaqlarında olduğu kimi, Qarabağda da əhalinin vergiləri ödəməkdən imtina etməsinə və osmanlı vergi yığanlarına qarşı mübarizənin genişlənməsinə gətirib çıxarırdı. Sultanın 1731-ci ilə aid fərmanlarından birində göstərilirdi ki, «Gəncə

vilayəti ilə qonşuluqda yaşayan lənətə gəlmiş sığnaq kafirləri artıq bir neçə ildir ki, qanuni vergi ödəmirlər, itaətsizlik göstərməyə başlamışlar, elə buna görə də onları əməllərinə görə şəriətin qaydalarına uyğun olaraq məhv etmək və cəzalandırmaq zərurəti yaranmışdır» [7]. Osmanlı hakimiyyət orqanları itaətsizlik göstərən Qarabağ əhalisini cəzalandırmaq üçün xeyli qüvvə səfərbər etməyi planlaşdırırdı. İrəvan hakimi İbrahim paşaya, Bəyazid hakimi Mahmud paşaya, Kürdüstan əmirinə, Dağıstan, Şirvan və Gəncə hakimlərinə bu barədə xüsusi fərmanlar göndərilmişdi [9, s.XCVI-XCVII].

Göründüyü kimi, Osmanlı dövləti Azərbaycan torpaqlarını, o cümlədən Gəncə-Qarabağ bəylərbəyiliyinin işğalı və itaətdə saxlanılması üçün xeyli vaxt və qüvvə sərf etməli olmuşdu. Lakin bir tərəfdən Osmanlı dövlətinin özünün dərin tənəzzülə uğraması, digər tərəfdən yerli əhalinin ciddi müqavimət göstərməsi Azərbaycanda Osmanlı istilası dövrünün uzun müddət davam etməsinə imkan vermədi.

Gəncə-Qarabağ bəylərbəyiliyini işğal edən osmanlılar burada özlərinin idarəçilik sistemini tətbiq etdilər. Lakin bu sistem mahiyyət etibarı ilə Səfəvilər dövrünün sistemindən çox da fərqlənmirdi. İşğal edilmiş əraziləri əllərində daha uzun müddət saxlamağı və buradan mümkün qədər daha çox gəlir götürməyi qarşılarına məqsəd qoyan osmanlılar vergilərin tətbiqində onsuz da ağır olan əvvəlki qaydaları saxlamağa və yerli əyanları ittifaqa cəlb etməyə üstünlük verirdilər.

XVIII əsrin 30-cu illərinə yaxın bölgədə yaranmış hərbi-siyasi şərait Səfəvilər dövlətinin ərazi bütövlüyünün bərpası uğrunda başlanmış mübarizənin uğurla başa çatdırılması üçün əlverişli şərait yaradırdı. Bir tərəfdən 1730-cu ildə Türkiyədə baş vermiş dövlət çevrilişi, digər tərəfdən Türkiyə ilə rəqabət aparan Rusiyanın Nadir xana bu dövlətə qarşı mübarizədə hər cür dəstək verməsi Azərbaycan torpaqlarının osmanlı işğalından azad edilməsi imkanlarını xeyli artırırdı. Nadir xanın 1730-cu ildə keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Həmədan, Kirmanşah, Marağa, Təbriz və Ərdəbil osmanlı istilasından azad edildi [11, s.53-54; 12, s.99].

Lakin II Təhmasibin fərasətsizliyi ucbatından əldə edilmiş bu uğuru inkişaf etdirmək mümkün olmadı. Belə ki, Nadir xanın Heratda baş

vermiş üsyanı yatırmaqla məşğul olmasından istifadə edən II Təhmasib osmanlılara qarşı hərbi əməliyyatlara başladı və İrəvan ətrafında ağır məğlubiyyətə uğradı. Nadir xanın 1730-cu ildə osmanlı işğalından azad etdiyi, demək olar ki, bütün torpaqlar yenidən itirildi. Bu məğlubiyyət nəticəsində 1732-ci il yanvarın 16-da Kirmanşahda bağlanmış sülh Osmanlı imperiyasının İrəvan, Gəncə, Qarabağ, Tiflis və Şirvanda hökmranlığının II Təhmasib tərəfindən təsdiq edilməsinə gətirib çıxardı [11, s.376].

Kirmanşah müqaviləsinin bağlanması II Təhmasibə hakimiyyəti bahasına başa gəldi. 1732-ci ilin avqustunda Nadir xan onu hakimiyyətdən kənarlaşdırıb kiçik yaşlı oğlunu III Abbas adı altında şah elan etdi, özü isə onun qəyyumu oldu [13, s.139-141; 17, s.31-32]. Bununla da dövlətdə hakimiyyət faktiki olaraq Nadir xanın əlinə keçdi. Osmanlı imperiyası tərəfindən işğal edilmiş bütün torpaqları geri qaytarmağı qarşısına məqsəd qoyan Nadir güclü ordu toplayaraq 1733-cü ilin yayında hərbi əməliyyatlara başladı və Bağdad yaxınlığında baş verən döyüşdə osmanlı ordusunu məğlubiyyətə uğratdı. Elə həmin ilin dekabrında bağlanmış Bağdad müqaviləsinə görə Osmanlı sultanı son 10 ildə işğal etdiyi Səfəvi torpaqlarını geri qaytarmağı öhdəsinə götürdü.

Osmanlı sultanının Bağdad müqaviləsini şərtlərini yerinə yetirməkdən imtina etməsi Nadir xanın yenidən hərbi əməliyyatlara başlaması ilə nəticələndi.

Dağıstan yürüşünü uğurla başa çatdıran Nadir xan 1734-cü ilin payızında Azərbaycana qayıtdı və burada osmanlı ordusunun əsas dayaq məntəqələrindən biri olan Gəncə qalasını mühasirəyə aldı. Lakin osmanlı qarnizonu möhkəm direniş göstərdi və 8 ay müqavimət göstərdi.

1735-ci ilin iyununda Üçmüəzzin yaxınlığında Nadir Abdulla paşanın başçılıq etdiyi böyük osmanlı ordusunu darmadağın etdikdən sonra qala qarnizonunun təslim olmaqdan savayı çarəsi qalmadı. Bu döyüş, əslində Nadirin Osmanlı imperiyasına qarşı apardığı müharibənin taleyini həll etdi. Bu döyüşdən sonra müqavimət göstərməyin mənasız olduğunu başa düşən osmanlı komandanlığı Tiflis, İrəvan və Gəncədəki qarnizonlarına müqaviməti dayandırmaq haqqında sərəncam verdi.

Ölkə ərazisini yadelli işğallardan tamamilə təmizləməyə nail olan

Nadir xan 1736-cı ilin martında çağırdığı qurultayda səfəvilərin son illərdəki formal hakimiyyətinə son qoyaraq şah seçildi. Nadirin şah seçilməsi Gəncə-Qarabağ bəylərbəyiliyinin də həyatına ciddi təsir göstərdi. Muğan qurultayında Gəncə-Qarabağ bəylərbəyiliyini idarə edən Ziyadoğluların, habelə, Otuziki, Kəbirli və Cavanşir tayfalarının Nadirin şah seçilməsinə qarşı çıxış etməsi bəylərbəyiliyin həm idarə edilməsi, həm də inzibati sərhədləri məsələsinə təsirsiz ötüşmədi.

Nadirin şah seçilməsinə qarşı çıxış edən bu tayfalarla onun sonrakı münasibətləri haqqında Mirzə Adıgözəl bəy məlumat verərək yazır: «Bunlar Muğan qurultayında, gizlin və aşkar olaraq, son dərəcə çalışdılar ki, Səfəvilərdən başqa bir kimsə padşah olmasın və özgə bir şəxs səltənət başına söykənməsin. Demə ki, bunların bütün fikirlərini Nadir şaha xəbər aparır və bütün sözlərini onun hüzuruna çatdırırmışlar... Ziyad oğlanları qədim bir ocaq və böyük bir dudman olduqlarına görə, Nadir şah onlara özgə bir cəza və başqa bir siyasəti rəva görmədi. Qazax və Borçalı ellərini öz xanları ilə bərabər Gürcüstan əmirlərinə və uca mərtəbəli valinin hökmünə tabe idi. Cavanşir, Otuziki və Kəbirlidən ibarət olan Qarabağ elləri haqqında da, icrası vacib olan fərman çıxdı ki, onları köçürüb Xorasanın Sərəxs torpağına aparsınlar» [3, s.30].

Nadir şah Gəngə-Qarabağ bəylərbəyiliyinin inzibati quruluşunda digər dəyişikliklər də etdi. Onun əmrilə Qarabağın xristian məlikləri Gəncə-Qarabağ bəylərbəyiliyinə tabe olmaqdan azad edilərək birbaşa şahın özünə müraciət etmək hüququ qazandılar. Mirzə Adıgözəl bəy yazır ki, Nadir şah «Xəmsə məliklərinə də əmr verdi ki, Gəncə xanlarının itaət zəncirini mənim möhkəm hökmüm vasitəsilə xas və avam camaatın boynundan kənar edin. Özünüzü tamamilə azad sayın» [3, s.30]. Nadir şah bu addımı atmaqla, şübhəsiz ki, iki məqsəd güdürdü. O, bununla, bir tərəfdən Osmanlı imperiyasına qarşı müharibələr zamanı ona yardım göstərmiş xristian məlikləri mükafatlandırır, digər tərəfdən isə onun hakimiyyətini tanımaqdan imtina edən Ziyadoğluları cəzalandırırdı.

Öz hakimiyyətini bərqərar edən Nadir şah onu daha da möhkəmləndirmək üçün daha bir sıra mühüm addımlar atdı. Bu addımlar arasında Azərbaycanın inzibati-ərazi sistemində edilən dəyişiklik əsas yer tuturdu. Onun əmri ilə indiyədək nisbətən müstəqil fəaliyyət göstərən və

ayrı-ayrılıqda birbaşa şahın özünə tabe olan Şirvan, Gəncə-Qarabağ, Təbriz və Çuxursəəd bəylərbəyilikləri Azərbaycan adlandırılan daha böyük inzibati vahiddə birləşdirildi. Bu vilayətin başçısı vəzifəsinə Nadir şah öz qardaşı İbrahim xanı təyin etdi. Həmin hadisələrdən bəhs edən mənbələrdən birində göstərilirdi ki, Nadir şah bütün Azərbaycanın, İrəvanın və Gürcüstanın idarəçiliyini İbrahim xana tapşırdı, onu «bəylərbəyi, hakim və rəis edərək yerdə qalan bütün xanlardan yuxarıya qoydu» [14, s.148-150].

Nadir şahın yeritdiyi daxili siyasətin əsas məqsədi güclü mərkəzləşdirilmiş dövlət yaratmaq və bu dövlətin maliyyə sistemində ciddi qayda-qanunun hökm sürməsini təmin etmək idi.

Daimi müharibələr aparan və bu məqsədlə güclü ordu saxlayan Nadir şah maliyyə vəsaitinə böyük ehtiyac duyurdu.

Nadir şah dövlətinin əsas gəlir mənbəyini özünün hədsiz ağırlığı ilə seçilən vergilər təşkil edirdi. Bu dövrdə vergilərin həcmi əvvəlki dövrlə müqayisədə daha da artırılmış, fövqəladə vergilərin toplanması adi hala çevrilmişdi.

Fasiləsiz davam edən müharibələr, vergilərin ağırlığı, onların toplanılması zamanı yol verilən zorakı üsullar ölkənin təsərrüfat həyatına olduqca mənfi təsir göstərir, xalq kütlələrinin vəziyyətini acınacaqlı hala gətirib çıxarırdı. Vəziyyət o həddə gəlib çıxmışdı ki, kəndlilər torpağı əkib-becərmək, yetişdirilmiş məhsulu yığmaq imkanından məhrum olmuşdular. Heç də təsadüfi deyil ki, XVIII əsrin 30-cu illərində Azərbaycanın digər bölgələri kimi, Gəncə-Qarabağ vilayətində də tez-tez aclıq baş verirdi. Hadisələrin müasiri olmuş A.Kretatsi yazırdı ki, «yalnız Muğanda deyil, həm də bütün Təbriz vilayətində və burada Dizaqda və Gəncədə, Qazaxda, Loridə, Gürcüstanda ... Naxçıvanda və İrəvanda çörək çatışmırdı» [14, s.144]. Yaranmış vəziyyət Nadir şah imperiyasını içindən laxladır, ayrı-ayrı bölgələrdə mərkəzdənqaçma meyllərinin güclənməsinə gətirib çıxarırdı.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. 7 cilddə. III c. (XIII-XVIII əsrlər). Bakı, «Elm», 1999, 584 s.
2. Qarayev E. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində. Bakı, ADPU, 2005, 160 s.
3. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr. Bakı, Yazıçı, 1989, s.104-148.

4. Molla Məhəmməd əl-Cari. Çar salnamələri (ərəbcədən tərcümə, giriş, şərhlər və qeydlər S.Suleymanovanındır). Bakı, Səda, 1997, 146 s.
5. Danişmend İ. H. Osmanlı tarihi xronoloji, si. IV cild. İstanbul, 1956.
6. Mustafazadə T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, «Elm», 2007, 372 s.
7. Акты сборные Кавказской Археографическиц комиссией. Т.1, Тифлис, 1866, док. 636.
8. Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупаций в Азербайджане в первой половине XVIII в. Баку, Элм, 1975, 230 с.
9. Армяно-русские отношения в первой трети XVIII века. Сб. документов. Издво АН Арм. ССР, т.2, ч.1, Ереван – 1964.
10. Арутюнян П.Т. Борьба армянского и азербайджанского народов в 20-х годах XVIII века за присоединение к России // Ученые записки Института Востоковедения СССР. Т.III. с.116.
11. Ереванци А. История войн 1721-1736 гг. Ереван, изд-во Арм-ФАНА, 1939, 93 с.
12. Иванов М.С.Очерки истории Ирана. М., 1952, 467 с.
13. История о персидское шахе Тахмас Кули-хане. Пер. с.франц.С.Решетова. СПб., 1762, 397 с.
14. Кретаций А. История о случившихся с ним событиях и о Надир шахе персидском (пер. с арм. Т.И.Патканова) // AMEA TİEA, f.1, siy. 2, iş 800.
15. Мамедов С.А. Исторические связи азербайджанского и армянского народов во второй половине XVII – первой трети XVIII века. Баку, «Элм», 1977, 240 с.
16. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII века. Баку, «Элм», 1993, 240 с.
17. Новая история Ирана. Хрестоматия. М., Наука, 1988, 327 с.
18. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв. Ленинград, Изд-во ЛГУ, 1949, 382 с
19. Ханвей Д. Исторический очерк британской торговли на Каспийском море, с журналом автора о путешествии из Англии через Россию в Персию и обратно через Россию, Германию и Голландию, т. II (пер. с англ. Яз. Л.М.Кирякова). AMEA TİEA, f.1, iş 158.

Kh. Abbasli

GARABAGH DURING THE OTTOMAN-SAFAVI WARS IN THE FIRST HALF OF THE XVIII CENTURY

SUMMARY

In the paper basing on the primary sources is studied the process taken place in Garabagh, in the historically integral part of Azerbaijan during the Ottoman-Safavi wars in the first half of the XVIII century. Despite the desperate resistance, the Ottomans managed for a time (1723-1735) to seize the territory of Garabagh beylerbeylik. Talented military leader Nadir Afshar was able to restore the power of the state and regain its territory, including Garabagh from the Ottoman Empire. But due to that the Garabagh beylerbeys were from the Ziyadoglu dynasty during the reign of Nadir a radical change took place in the fate of Garabagh.

Х. Аббасли

КАРАБАХ ВО ВРЕМЯ ОСМАНО-СЕФЕВИДСКИХ ВОЙН ПЕРВОЙ ПОЛОВИНЫ XVIII ВЕКА

РЕЗЮМЕ

В статье на основе первоисточников изучаются процессы, происходившие в Карабахе в первой половине XVIII века, в период османо-сефевидских войн. Несмотря на отчаянное сопротивление сефевидских войск, османам удалось на время (1723-1735 гг.) захватить территорию Карабахского беглербекства. Однако, вскоре талантливому полководцу Надиру Афшару удалось восстановить прежнюю мощь государства и вернуть его территории, захваченные ранее Османской империей, в том числе Карабах. В то же время, при правлении Надира шаха в судьбе Карабаха произошли коренные изменения. Поскольку правившие беглярбекством представители династии Зиядоглы выступили против избрания в 1736 году Надира шахом, он ограничил их права, а некоторые территории беглярбекства передал в состав других административных единиц.

XIX ƏSRİN ORTALARINDA ŞİMALİ AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ MAARİFİN İNKİŞAFI TARİXİNDƏN

Rəna BAXIŞOVA

Açar sözlər: Şimali Azərbaycan, Qarabağ, Şuşa, nizamnamə, mədrəsə,şəriət.
Key words: Northern Azerbaijan, Garabakh, Shusha, charter, madrasa,shariat
Ключевые слова:Северный Азербайджан,Карабах, Шуша, хартия, медресе, шариат

Ərəb xilafəti dövründə meydana gələn və uzun tarixi yol keçmiş, ümumilikdə müsəlman məktəbləri adlanan, dini xarakter daşıyan məktəb və mədrəsələr XIX əsrin 30-cu illərinə qədər Azərbaycanda, demək olar ki, yeganə təhsil ocaqları olaraq qalırdı. Məktəb mahiyyətcə aşağı, mədrəsə isə yuxarı təhsil dərəcəsi hesab edilirdi [7,s.42]. Məktəblər Şimali Azərbaycanın, demək olar ki, bütün kəndlərində mövcud idi və ibtidai təhsil verməklə mədrəsəyə hazırlıq rolunu oynayan məktəblər əsasən məscidlərin nəzdində və ya mollanın evində yerləşirdi. Təhsil müddəti 4 il və ya artıq olan bu məktəblərdə şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmırdı [8, s.11].

Məktəb və mədrəsələrin müəyyən edilmiş nizamnaməsi yox idi. Məktəblərdə dərs ilinin başlanmasının və qurtarmasının müəyyən, konkret vaxtı yox idi, qəbul il ərzində davam edirdi. Dövlət tərəfindən onlara biganə yanaşılması və nəzarətin olmaması təlim kursunda da özünü göstərirdi. Məktəblərin müəyyən edilmiş tədris planı, rəsmi dərs cədvəli yox idi. Beləki, təlim planı və proqramını məktəbin rəhbəri özü tərtib edirdi. Məktəb və mədrəsələrdə tədris ərəb və fars dillərində aparılırdı [7, s.45].

Məktəblərdə təhsil pullu, mədrəsələrdə isə pulsuz idi. Mədrəsələr ayrı-ayrı şəxslərin vəsaiti hesabına təsis edilir, onu açan şəxsin adını daşıyır və onun vəsaiti hesabına fəaliyyət göstərirdi. Əksər vaxtlarda isə mədrəsələr iri məscidlərin nəzdində yaradılırdı ki, bu da dini müəssisələrin vəsaiti (ianələr, nəzirlər və s.) hesabına saxlanılırdı.

Mədrəsələrdə təlimin mahiyyəti əsasən ərəb dili, müsəlman

Rəna Rizvan qızı Baxışova – AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi

ilahiyyatı və hüquqşünaslığının tədrisindən ibarət idi. Burada ərəb dili, şəriət, tarix, coğrafiya, hesab, həndəsə fənləri və s. tədris olunurdu [7, s.48-50].

XIX əsrin əvvəllərində məktəblər Şimali Azərbaycanın digər şəhərlərinə nisbətdə Şuşada və Şamaxıda daha çox idi. Pedaqogika üzrə elmlər doktoru, professor Hüseyn Əhmədovun yazdığına görə, XIX əsrin 30-cu illərinə aid mənbələrdə Şuşada və Qarabağın digər bölgələrində 9 məktəb və 1 mədrəsənin olduğu göstərilir. Təkcə Şuşa şəhərində 6 məktəb və 1 mədrəsə fəaliyyət göstərirdi ki, burada 143 şagird oxuyurdu. Məktəblərin üçü isə Əlidərə, Nuadı və Boyəhmədli kəndlərində idi [7,s.51].

Başqa bir mənbədə isə göstərilir ki, gənclərin təhsili üçün Şuşada 10 məktəb var idi. Onlardan biri Bazel missionerlərinin Yevangeliya cəmiyyəti tərəfindən təsis edilmişdi. Burada 40 gənc pulsuz olaraq şəriəti, erməni dilini, hesabı və coğrafiyanı öyrənirdilər. Bu məktəbdə həmçinin yunan və ingilis dilləri tədris olunurdu. Şuşadakı digər bir erməni məktəbində 30-dan yuxarı uşaq təhsil alır. Üçüncü belə məktəb isə erməni qadın monastrı yanında təsis edilmişdir. Burada 10 erməni uşağı təhsil alırdı. Qaynaqda qeyd olunurdu ki, qalan 7 məktəb tatar (azərbaycan – B.R) məktəbidir; onlardan altısında 143-dən artıq şagird tatar (azərbaycan – B.R) və fars dillərində oxuyur və İran tarixini öyrənir; yeddinci məktəbi qazi özü idarə edir, molla olmağa hazırlaşan 20 gəncə ərəb dili, islam qaydaları, hesab, astrologiya və tibb tədris edir. Beləliklə, Şuşada təhsil alanların sayı hər iki cinsdən 240-a qədərdir [14, s.310].

Bazel missionerləri tərəfindən açılan məktəbin təsis tarixini H.Əhmədov öz əsərlərində 1827-ci il olaraq göstərir [7, s.63; 9,17]. Burada qeyd edilən 7 "tatar" məktəbi və onun təsnifatına diqqətlə nəzər yetidikdə isə belə nəticəyə gəlmək olur ki, bu, H.Əhmədovun qeyd etdiyi Şuşa şəhərində fəaliyyət göstərən 6 məktəb və 1 mədrəsədir.

Bundan başqa, məhəllə mollalarının evlərində də məktəblər var idi. Bu məktəblərdə Azərbaycan, ərəb, bəzilərində isə fars dilində oxu və yazı öyrədilirdi. Mədrəsələrdə isə ərəb dili, şəriət, hesab, astrologiya və tibb tədris edilirdi.

XIX əsrin ortalarında məktəblərin say dinamikasında müəyyən artım nəzərə çarpırdı. Hüseyn Əhmədovun Gürcüstan Respublikası Mərkəzi

Dövlət Arxivində saxlanılan mənbələrə əsasən verdiyi məlumata görə, 1859-cu ildə təkcə Şuşa şəhərində 10 məscid məktəbi mövcud idi ki, bu məktəblərdə də 280 nəfər oxuyurdu. Bu məktəblərdə oxuyan şagirdlərin sayı 16 ilə 51 arasında dəyişirdi. Şagirdlərə şəriət, Azərbaycan və fars dilləri, həmçinin hüsnxətt öyrədilirdi.

Şuşa qəzasının kəndlərində isə 18 məscid məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə Azərbaycan, fars, ərəb dilləri və hüsnxətt öyrədilirdi. Kənd məscid məktəblərin oxuyan şagirdlərin ümumi sayı 474 nəfər idi. Belə ki, Mərzili və Köçərli məktəblərinin hər birində 11, Ağdam məktəbində 12, Bərdə məktəbində 13, Hindarx və Qaradağlı məktəblərinin hər birində 15, Aşağı Lənbəran məktəbində 47, Boyəhmədli kənd məktəbində 50, ən çox şagirdə malik Yuxari Lənbəran kənd məktəbində isə 53 nəfər təhsil alırdı [7, s.51-52].

Məscidlərin nəzdində fəaliyyət göstərən məktəblərdən başqa məktəbdarların evində, müxtəlif xidmət müəssisələrində (dükan, emalatxana və s.) fəaliyyət göstərən məktəblər çar məmurlarının nəzarətindən kənarda qaldığından burada təhsil alan şagirdlərin sayı dövrün müvafiq statistikasında öz əksini tapmamışdır. Bu faktı da nəzərə alsaq belə nəticəyə gəlmək olar ki, əslində bu dövrdə təhsil alanların sayı statistik rəqəmlərdə göstərilənlərin sayından çox idi.

Müsəlman məktəbləri tədris üsulunun çətinliyinə, təhsilin məzmunundakı qüsurları ehtiva edən mənfi tərəfləri ilə yanaşı ilkin savadın verilməsi və klassik Şərq ədəbiyyatının yaxşı öyrədilməsi kimi müsbət halları özündə cəmləşdirirdi. [7,s.56].

Təbii ki, müsəlman məktəblərindəki tədris çarizmin Azərbaycandakı siyasi məqsədlərini təmin etmirdi. İşğaldan sonra Çar Rusiyası Cənubi Qafqazda yerli xalqları itaət altında saxlamaq, ruslaşdırma siyasəti yeritmək, xalqın çarizmə qarşı mübarizəsinin qarşısını almaq, onları Rusiyaya yaxınlaşdırmaqla öz hakimiyyətini möhkəmləndirmək məqsədi güdürdü. Bütün bu amillər ənənəvi məktəblərdən fərqli məktəblər açmaq zərurətini gündəmə gətirirdi.

Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalının gedişində istila olunmuş ərazilərdə təsis edilmiş hərbi və mülki idarələrdə Azərbaycan dilinə və bu dili bilən tərcüməçilərə böyük ehtiyacın yaranması savadlı mütəxəsislərin hazırlanması məsələsini tez-tez

müzakirə obyektinə çevirirdi. General A.P.Yermolovun 1819-cu il yanvarın 21-də Rusiya xalq maarifi naziri Şişkova yazdığı məktubunda qonşu dövlətlərlə yaranmış əlaqələr və dövlət qulluğunda göstərilən xidmətin yararlılığı baxımından Azərbaycan dilini bilən savadlı şəxslərə və tərcüməçilərə ehtiyac olduğunu bildirmişdir. [2,s.134]. Bu məqsədlə 1823-cü ildə Qarabağ əyalətinin Cavanşir mahalında ildə 23 oğlan uşağının təhsil aldığı ilk normal "zemstvo" adlandırılan məktəb açılmış və həmin məktəbin saxlanmasına hökumət tərəfindən 1490 rubl ayrılmışdı [13,4]. Lakin bu məktəb də müvəffəqiyyət qazana bilmədi.

Şuşaya səfərində şuşalı uşaqların Bazel missionerləri tərəfindən açılmış məktəbdə alman dilini necə həvəslə öyrəndiklərindən və burada rus dilinin tədris edilməməsindən təəssüflə bəhs edən Tiflisin hərbi qubernatoru, general-adyutant N.M.Sipyagin 1827-ci il oktyabrın 10-da 359 saylı rəsmi məlumatında Cənubi Qafqazın bir sıra şəhərlərində rusdilli məktəblərin açılması ideyası ilə çıxış edirdi [3,s.62].

Bu baxımdan, Cənubi Qafqazda rusdilli məktəblərinin açılması haqqındakı təkliflər ilə tanış olan baş komandan Paskeviç maliyyə naziri knyaz Livenə ünvanladığı 1829-cu il 25 aprel tarixli 254 saylı müraciətində yerli şəraitlə bağlı olaraq Tiflis hərbi qubernatorunun əsaslı şəkildə şərh edilən təklifləri ilə razı olduğunu yazırdı [3,66]. Tez bir zamanda Cənubi Qafqazda rusdilli məktəblərinin açılması haqqında əsasnamə layihəsi hazırlandı. Şimali Azərbaycanda Avropa Rusiyasındakı məhəllə məktəbləri tipində tədris müəssisələrinin açılması haqqında əsasnamə layihəsi mərkəzi çar hökuməti tərəfindən 1829-cu ilin avqustun 5-də "Cənubi Qafqaz məktəbləri haqqında əsasnamə" adı ilə qanuniləşdirildi [16,573].

Beləliklə, 1830-cu il dekabrın 30-da Nikolay Mixaylovskinin rəhbərliyi ilə Şuşa şəhərində Yevangeliya cəmiyyəti tərəfindən onlara bir il müddətinə pulsuz verilmiş binada Şuşa qəza məktəbi 19 şagirdlə fəaliyyətə başladı" [8,9; 7,65; 1,12].

Bir çox çətinliklərə baxmayaraq açılan, əhalinin rəğbətini qazanan qəza məktəblərində bir müddətdən sonra təhsilin səviyyəsinin zəifliyi və bir sıra mühüm qüsurlar özünü göstərməyə başladı. Qəza məktəbləri təhsilin səviyyəsi və məzmununa görə Rusiyadakı məhəllə məktəblərinə bərabər olduğundan xan, bəy, zadəgan, məmur və tacir uşaqlarının təhsili

üçün kifayət deyildi. Eləcə də 1829-cu il əsasnaməsindəki təhsil müddətinin qısalığı, tədris edilən fənlərin azlığı, dərs vəsaitinin çatışmazlığı [16,573] kimi qeyri-qənaətbəxş hallar ölkənin məktəb və maarifə olan ehtiyacını ödəmədiyindən qəza məktəblərini üçsinifli məktəblərə çevirmək, tədris fənlərinin sırasını genişləndirmək, həndəsəyə giriş, coğrafiya, tarix, rəsm fənlərini daxil etmək, müəllimlərin sayını artırmaq üçün 1835-ci il mayın 12-də Cənubi Qafqaz məktəblərinin ikinci nizamnaməsi təsdiq edildi. Nizamnamədə yeni məktəblərin açılması və mövcud qəza məktəblərinin təkmilləşdirilməsi nəzərdə tutulmuşdu [7,67-68; 4,97-99, dok.67]. Bu dəfə qəza məktəblərinin məqsədi yuxarı təbəqələr arasında ibtidai savadı yaymaqdan əlavə şagirdləri Tiflis gimnaziyasında təhsillərini davam etməyə hazırlamaqdan ibarət idi. Birinci sinif hazırlıq sinfi idi. II və III siniflərdə şəriət, rus dilinin qrammatikası, coğrafiya, tarix, hesab və həndəsəyə giriş, hüsnxətt, rəsm və yerli dil tədris edilirdi [1,13; 10,182]. Tədris planında Azərbaycan dilinə həftədə cəmi 4, rus dilinə isə 8 dərs saatı təyin edilmişdi. Tədris fənləri rus dilində keçirilirdi, yerli dillər II və III siniflərdə tədris edilirdi. Azərbaycan dili ruslar üçün də məcburi fənn idi [7,69; 10,182] ki, bu da çarizmin əraziyə nəzarət edə bilmək siyasətinin bir hissəsi idi. Şuşa qəza məktəbi də yeni nizamnamə ilə işləməyə başladı.

1835-ci ildə mərkəzi hökumət tərəfindən qəza məktəbləri üçün xüsusi məktəb binalarının tikilməsi üçün layihə təsdiq edilsə də, çarizmin Qafqazdakı məmurları dövlət xəzinəsindən bu işə pul ayırmaq istəmir, əhalinin qabaqcıl hissəsinin maarifə olan marağını görüb məktəb binalarını əhalidən toplanan ianələr hesabına tikməyi təklif edirdilər. 1836-cı ilin aprelində Şuşada gümüş pul ilə 2424 rubl ianə toplanmışdı, əlavə 2623 rubl da toplanması nəzərdə tutulurdu [7, s.97-98].

Yerli əhalidən dövlətin xeyrinə qulluq edənlərin az olmasının, XIX əsrin 40-cı illərinə kimi Şimali Azərbaycanda xalq maarifi və məktəblərini idarə edən xüsusi bir orqanın olmamasının nəticəsi olaraq hər yeni yerli ali hakim - canişinin Cənubi Qafqazda məktəb təhsilini öz istəyinə uyğun qurmağa çalışması baxımından hökumət qarşısına qoyduğu məqsədə çata bilmirdi [1,s.14].

1840-cı il aprelin 10-da çar hökumətinin Cənubi Qafqazda inzibati islahat haqqındakı qanununa əsasən ölkədə komendant üsul-idarəsi ləğv olundu,

ümumrusiya inzibati sistemi təsis edildi [9, s.32; 14,132] və Cənubi Qafqaz mərkəzi şəhəri Tiflis olan Gürcüstan-İmeretiya quberniyası və mərkəzi Şamaxı olan Xəzər vilayətinə bölündü ki, Şuşa qəzası Xəzər vilayətinə daxil edildi [9,32].

İslahatlar xalqın tələbini ödəməyən qəza məktəblərinin məzmununda dəyişikliklər edilməsini labüdləşdirdi və canişin M.S.Vorontsov məktəblərin yeni nizamnaməsinin hazırlanması zərurətini irəli sürdü [1,s.14]. Canişin M.S.Voronsovun başçılığı ilə Cənubi Qafqazda ölkənin idarə edilməsi üçün yararlı məmurlar hazırlamaq, Cənubi Qafqaz diyarı üzrə xüsusi tədris darirəsi yaratmaq [11,s.12-19], Cənubi Qafqaz diyarını imperiyanın digər hissələri ilə birləşdirmək, mövcud tədris planında rus dilinin, həmçinin yerli dillərin öyrədilməsini gücləndirmək, rus dilini düzgün bilmək, yerli əhalidən olan şagirdlərə bu dildə mükəmməl danışmağı öyrətmək, rusların yerli dilləri, ilk növbədə isə Azərbaycan dilini əsaslı öyrənməsinə nail olmaq və s. b. k. digər prinsiplər əsasında 1848-ci il dekabrın 18-də Cənubi Qafqaz məktəblərinin yeni əsasnaməsi qəbul edildi [5,s.126-127,dok.104].

Yeni əsasnaməyə görə Qafqaz Tədris Dairəsi Tiflis, Kutaisi, Şamaxı-Dərbənd, Stavropol və Qara dəniz sahilindən ibarət beş direksiyaya bölündü. Şuşa qəza məktəbi Şamaxı-Dərbənd məktəblər direksiyasının tabeliyinə verildi [10, s.96-97; 16,s. 97-98].

Zadəgan və məmur uşaqlarına aşağı idarələrdə işləmək üçün müvafiq təhsil vermək, şəhərli silkinə mənsub və digər azad hüquqlu insanların uşaqlarına lazımi biliklər vermək, ali və digər azad silklərdən olanların uşaqlarını gimnaziyaya hazırlamaq məqsədi daşıyan nizamnaməyə görə dövlət, kilsə və mülkədar kəndlilərinin uşaqları qəza məktəblərinə qəbul edilmirdi. Qəza məktəblərində yenə də təhsil haqqı yox idi, təhsil müddəti üç sinifdən ibarət olaraq qalırdı. Məktəblərin tədris planına şəriət, rus dili və qrammatikası, yerli dil, hesab, coğrafiyanın ibtidai əsasları, dəftərxana qaydalarına aid qısa məlumat və hüsnxətt daxil edilmiş, tarix, həndəsədən başlanğıc kimi fənnlər ixtisar edilmişdi [1, s.14; 17,s.98,106-107]. Əgər ehtiyac olardısa, qəza məktəblərində nəzərdə tutulan fənlərdən əlavə kənd təsərrüfatının və ticarət elmlərinin ibtidai əsasları da tədris edilə bilərdi. Bunun üçün 4-cü sinif açılmalı idi [7,s.72].

1853-cü il oktyabrın 29-da dördillik sınaq müddətinə "Qafqaz təhsil

dairəsi və onun tabeliyində olan tədris müəssisələrinin nizamnaməsi" təsdiq edildi ki, onun əsas məqsədi Rusiyadakı xalq maarifi sistemini Qafqazda da tətbiq etmək idi [7,s.78]. İrticanın nisbətən zəifləməsi ilə əlaqədar olaraq əvvəlki əsasnamədə ixtisar edilmiş bir sıra fənlər bu əsasnamədə bərpa olundu və fənlərin sayı şəriət, rus dili, coğrafiya, tarix, riyaziyyat, təbiət tarixi, qanunşünaslıq, yerli dil, hüsnxətt və rəsm olmaqla 9-a çatdı. Hər bir məktəbin illik xərci xəzinədən olub, gümüş pul ilə ildə 10300 rubl idi [12,s.50,89]. Yeni əsasnaməyə görə, Qafqaz Tədris Dairəsində inzibati dəyişiklik baş verdi və bunun nəticəsi olaraq, Şuşa qəza məktəbi Tiflis məktəblər direksiyasının tabeliyinə verildi [12,s.29-30; 18,s.498-499].

1860-cı il iyulun 2-də Qafqaz məktəblərinin yeni nizamnaməsi təsdiq edildi ki, bununla tədris müəssisələrinin daxili quruluşuna toxunulmasa da QTD ləğv edildi və bu islahat nəticəsində Şuşa qəza məktəbi Bakı məktəblər direksiyasının tərkibinə daxil edildi [8,s.172; 6,s.189, dok.114].

Lakin Qafqaz məktəbləri haqqında qəbul edilmiş məktəb nizamnamələrinin heç biri təcrübədə özünü doğrultmadı [15,s.40]. Həmçinin digər dövlət məktəblərinin meydana gəlməsi ilə əlaqədar olaraq son 10 il ərzində qəza məktəblərindəki şagirdlərinin say dinamikasında qeyri-sabitlik müşahidə olunurdu. Doğrudur, 50-60-cı illərdə Şuşa qəza məktəbi ən çox şagirdi olan məktəb kimi fərqlənirdi, ancaq bəzi neqativ səbəblər bu məktəbə təsir etmişdi. Şagirdlərin say dinamikasına nəzər salsaq görərik ki, məktəbdə 1850-ci ildə 110, 1851-ci ildə 131, 1852-ci ildə 171, 1853-cü ildə 191, 1854-cü ildə 180, 1855-ci ildə 246, 1856-cı ildə 175, 1857-ci ildə 210, 1858-ci ildə 210, 1859-cu ildə 185, 1860-cı ildə 185 şagird təhsil almışdır [9,s.114]. Azərbaycanlı şagirdlərin sayında da azalma müşahidə olunurdu. 1837-ci ildə Şuşa qəza məktəbində şagirdlərin sayı 60 nəfər olduğu halda 1858-ci il yanvarın 1-nə olan məlumata görə, bu say 15 nəfərə düşmüşdü.

Qəza məktəblərindəki vəziyyət onların yenidən qurulması zərurətini meydana çıxartdı. 1865-1866-cı dərs ilindən etibarən bu islahatlar Şimali Azərbaycan məktəblərinə də sirayət etdi. Belə ki, Cənubi Qafqazda şagirdlərin sayına görə öndə olan Şuşa qəza məktəbi də genişləndirildi, yeni siniflər və şöbələr açıldı [15,s.49]. Göstərilən dərs ilində şagirdlərin

çoxluğuna görə Şuşa qəza məktəbi bütün Cənubi Qafqaz qəza məktəbləri içərisində irəlidə idi. Burada 240 şagird var idi ki, onların da xeyli hissəsini azərbaycanlılar təşkil edirdi [7,s.100].

Qəza məktəblərinin yenidən qurulmasını təmin edən 1867-ci il iyunun 25-də qəbul edilmiş nizamnamə maarifi aşağı təbəqələrdə yaymaq, müəllimlərin pedaqoji fəaliyyətini artırmaq, rus dili dərslərinin sayını artırmaqla bərabər yerli xalqlardan olanlara öz dillərinin tədrisinə icazə verilməsi, qəza məktəblərində arzu edənlər üçün latın və Avropa dillərinin tədrisinə icazə verilməsi, Qafqaz Təhsil Dairəsi yenidən bərpa edilməsi və s. kimi müsbət cəhətlərə malik idi. [7,s.176-177; 19,s.1016-1031].

Cənubi Qafqazda yenidən qurulan 7 qəza məktəbindən biri Şimali Azərbaycanda Şuşa qəza məktəbi oldu. 1868-ci ildən etibarən mövcud qəza məktəbləri üç əsas sinifli məktəblərə çevrildi. Şuşa qəza məktəbinin tədris planına fransiz dili daxil edildi ki, bu onun Bakıya yaxınlığı və Bakıda real gimnaziyanın mövcudluğu ilə əlaqədar idi. Xüsusilə Şuşada tacir silkindən olanlar digər ölkələrlə ticarət əlaqələri qurmaq üçün fransız dilini öyrənməyə daha çox səy göstərirdilər [7,s.181].

XIX əsrin 20-60-cı illərində tətbiq edilən məktəb əsasnamələri təcrübə, sınaq xarakteri daşıyırdı və çarizmin müstəmləkə maraqlarını özündə ehtiva edirdi.

Hökumətin 22 noyabr 1873-cü il qərarı ilə yerli məktəb nizamnamələri ləğv edildi, bütün ölkə məktəblərinə vahid imperiya üzrə nizamnamələr tətbiq edilməyə başlandı, rus dilinin tədrisi daha da gücləndirildi [1,s.16].

Mərkəzi hökümətin Cənubi Qafqazda Rusiya şəhər məktəblərinə uyğun məktəblər yaratmaq haqqında 1872-ci il nizamnaməsi mövcud qəza məktəbləri əsasında şəhər məktəbləri yaratmaq fikrini gündəmə gətirəndə də Qafqaz Təhsil Dairəsinin hamısı (popeçiteli) Cənubi Qafqaz qəza məktəbləri içərisində ən çox şagirdi olan Şuşa qəza məktəbini şəhər məktəbinə çevirməyi təklif etdi və Şimali Azərbaycanda Avropa tipli dünyəvi təhsilin əsasını qoyan, Şuşanın inkişafında danılmaz rola malik Şuşa qəza məktəbi 1874-cü ildə şəhər məktəbinə çevrildi. [7,190].

Beləliklə, həm Ərəb xilafəti dövründə meydana gələn və uzun tarixi yol keçmiş müsəlman məktəbləri, həm də çarizmin işğalından sonra meydana gələn Şuşa qəza məktəbi Qarabağda ziyalı təbəqəsinin yetişməsində,

ərazinin ictimai-siyasi, iqtisadi-mədəni həyatında əhəmiyyətli rol oynamışdır.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Ağayev Ə.Ə. 150 yaşlı Şuşa məktəbi. Bakı: Maarif, 1983, 64 s
2. Акты собранные Кавказской Археографической Комиссией. Т. 6, ч. 1. Тифлис: Типография Главного управления Наместника Кавказского, 1874, 942 с.
3. Акты собранные Кавказской Археографической Комиссией. Т.7, Тифлис, Типография Главного управления Наместника Кавказского, 1878, 994 с.
4. Акты собранные Кавказской Археографической Комиссией. Т.8, Тифлис, Типография Главного управления Наместника Кавказского, 1881, 1009 с.
5. Акты, собранные Кавказской Археографической Комиссией. Т.10, Тифлис: Типография Главного управления Наместника Кавказского, 1885, 982 с.
6. Акты, собранные Кавказской Археографической Комиссией. Т.12, Тифлис: Типография Главного управления Наместника Кавказского, 1904, 1558 с.
7. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006, 580 s.
8. Əhmədov H.M. XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi və məktəb // V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitunun "Elmi əsərləri". XI seriya, 1767, №3. s. 3-14
9. Əhmədov H.M. Seçilmiş pedaqoji əsərləri. 5 cilddə, I c., Bakı: "Elm" və ABU nəşriyyatı, 2001, 450 s.
10. Журнал Министерства народного просвещение. часть 62, отдель 1. СПб., Типография Императорской Академии Наук, 1849, 968 с.
11. Журнал Министерства народного просвещение. часть 62, официально-учебная прибавления, СПб., Типография Императорской Академии Наук, 1849, 968 с.
12. Журнал Министерства народного просвещение. часть 80, отдель 1. СПб., Типография Императорской Академии Наук, 1853, 680 с.
13. Кавказский календарь на 1890 г., приложение №2, Издан по распоряжению Главноначальствующаго гражданской частию на Кавказе при Закавказском Статистическом Комитете /Под ред. Е. Кондратенко. Тифлис,1891, 652 с.
14. Обозрение Российских владений за Кавказом. Часть III, СПБ, Типография Департамента Внешней Торговли, 1836, 396 с.
15. Памятная книжка Кавказского учебного округа на 1880 г. Тифлис, Типография Главного Управления Наместника Кавказского и Михельсона, 1880, 841 с.
16. Полное Собрание Законов Российской Империи. Собрание второе. Т. 4. 1829 год. СПб., печатано в типографии 2 отделении собственной его императорского величества канцелярии, 1830, 1666 с. Закон 3060.
17. Полное Собрание Законов Российской Империи. Собрание второе. Т, 23 отделение второе. 1848 год. СПб., Типография 2 отделении собственной его императорского величества канцелярии, 1849, 534 с, закон 22838
18. Полное Собрание Законов Российской Империи. Собрание второе. Т, 28 отделение первое. 1853 год. СПб., Типография 2 отделении собственной его императорского величества канцелярии, 1854, 705 с, закон 27646
19. Полное Собрание Законов Российской Империи. Собрание второе. Т. 42, отделение первое. 1867 год. СПб., Типография 2 отделении собственной его императорского величества канцелярии, 1871, 1209 с, закон 44748

R. Bakhishova

FROM HISTORY OF DEVELOPMENT OF EDUCATION IN THE GARABAGH REGION OF NORTH AZERBAIJAN IN MIDDLE OF THE XIX CENTURY

SUMMARY

Traditional schools that occurred during the researching period existed almost in all the towns and villages of Northern Azerbaijan. These educational institutions have played a big role in education of the Azerbaijan people throughout many many centuries.

This education system which did not meet the political positions of the czar in the area, was substituted by the Russian-language education. As a result of the Russification policy in the area occurred European-type schools giving Russian education. One of the first schools of this type in the South Caucasus was Shusha uyezd school in Garabagh region of North Caucasus. Being always in the first rows this school played an important role in cultural life of the area.

Р. Бахышова

ИЗ ИСТОРИИ РАЗВИТИЯ ПРОСВЕЩЕНИЯ В КАРАБАХСКОМ РЕГИОНЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В СЕРЕДИНЕ XIX ВЕКА

РЕЗЮМЕ

В исследуемый период во всех городах и селах Северного Азербайджана сохранилась традиционная мусульманская система образования. Эти учебные заведения сыграли большую роль в просвещении Азербайджанского народа на протяжении многих столетий.

После завоевания Северного Азербайджана Россией эти школы уже не соответствовали стратегическим целям царизма и поэтому власти придавали особое значение созданию в регионе новой, российской системы образования. В результате этой политики в Северном Азербайджане возникли учебные заведения, в которых обучение велось на русском языке. Первая уездная школа в Северном Азербайджане была открыта в городе Шуша Карабахского региона в 1830 году. За период своего существования Шушинская школа сыграла положительную роль в развитии культурной жизни Карабахского региона Азербайджана.

ZƏNCAN XANLIĞININ SÜQUTU VƏ ZƏNCAN ABDULLA MİRZƏNİN DÖVRÜNDƏ (1809-1828)

Qənbər KƏRƏMİ

Açar sözlər: Fətəli şah Qacar, Abdulla Mirzə, Zəncan, hakimiyyət
Keywords: Fathali shah Qajar, Abdullah Mirza, Zanjan, Rule
Ключевые слова:Фатали шах Гаджар, Абдулла Мирза, Зенджан, правительство

ما در این مقاله به حاکمیت یکی از فرزندان فتحعلیشاه در زنجان که می توان پایان خان نشینی این بولگه نامید، پرداخته ایم .

Fətəli şah bir vahed dövlət yaratmaq üçün çoxlu oğlan və qız övladı dünyaya gətirməklə böyük bir rəhbər ata imici yaratdı.

او از ابتدای سلطنت خود مناطق مختلف ایران را از خان ها گرفته و به فرزندان خود می سپرد. فرزند یازدهم او به نام عبدا... میرزا به حکومت زنجان منصوب شد، به وضعیت این بولگه در زمان حاکمیت نامبرده پرداخته شده است .

Ağa Məhəmməd şahın ölümündən sonra 1797-ci (1212 h.q.) ildə Fətəli şah səltənət tacını başa qoymaq üçün çətinliklər yarandı. O cümlədən İsfahana hakim təyin etdiyi yeganə qardaşı ona qarşı üsyan qaldırdı. Üsyanı yatırtmaq üçün o İsfahana getdi. Ağa Məhəmməd xanın dayısı böyük əmir Süleyman xan Etizadüddövlə hakimiyyətin Ağa Məhəmməd şahdan Fətəli şaha keçməsi ilə müəyyən çətinliklərin yarandığını görüb ətrafındakıların, o cümlədən Zəncanın xanı Abdulla xan Usanlunun təhriki ilə Tehranı tutub şahlıq tacını başına qoymaq arzusuna düşdü. Ancaq şahın qardaşı təslim olan kimi, o təcili paytaxta qayıtdı (5, s.1448). Fətəli şah göstərişi ilə əsasən Süleyman xan onu təhrik edənləri, o cümlədən onlardan biri olan Abdulla xan Usanlını tutub Tehrana göndərdi. Tehranda Fətəli şahın göstərişi ilə Abdulla xan Usanlının hər iki gözlərini kor etdilər (148, Ic., s.98 Dörd ildən sonra – 1801-ci (1216 h.q.) o dünyadan köçdü (1, s.85-87).

Usanlının ölümündən sonra 1216-cı ildə Fərəculla xan Əfşar, Fətəli şah tərəfindən Zəncanın hakimi təyin edildi. Adıçəkilən 8 ilə yaxın, yəni (1809) 1224-ci ilə qədər Zəncanın hakimi olmuşdur. Fərəculla xan

---

Qənbər Kərəmi- AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

Əfşarların Arəxlu tirəsindəndir. O, ostanın qərbinə tabe olan Uryad sərkərdələrindəndir. Məhəmməd Haşim Asəfin yazdığına görə, O Zəncanın qərbindəki Uryadın hakimidi.(1, s.67-68) İran-rus müharibələri başlayarkən adıçəkilən İran ordusuna komandirlərindən biri kimi çoxlu sayda rəşadətlər göstərdiyi üçün bu xidmətlərinə görə şahın nəsqəçibaşçısı təyin edildi.

Hər halda bu müddət ərzində o və oğlu Əmənulla xan Xəmsə və Kürdüstanın əmiri olmuşlar.

Fətəli şah bir vahed dövlət yaratmaq üçün çoxlu oğlan və qız övladı dünyaya gətirməklə böyük bir rəhbər ata imici yaratdı.

Birinci övladı,Məhəmmədəli Mirzə 1203-cü (1789 m.) ildə anadan olmuşdur.O, Qəzvin, Kermanşah, Süleymaniyə, Zəhab, Sonqor, Həmədan və Luristanın ümumilikdə hakimi olmuşdur. (5, III c., s.1622-1629).

İkinci oğlu-Məhəmmədqulu Mirzə Üçüncüsü-Məhəmməd Vəli Mirzə

Dördüncüsü-Abbas Mirzə 46 il ömür sürdü. 26 oğul sahibi idi. (1789) Onun anası Qacarların Yuxarıbaş tayfasından idi. O, atasından qabaq öldü. Onun oğlu İranın şahı oldu. Böyük oğlunun adı Məhəmməd idi (10, I c., s.524-546).

On birincisi - Abdulla Mirzə 1211-ci il(1796) Cəmadiyül-əvvəl ayının 24-də cümə günü anadan olmuş və 1263-cü ildə(1848) vəfat etmişdir (9, s.969-1150).

1214-cü .q 1799m ildə ilə körpə yaşlarında olmalarına baxmayaraq müxtəlif övladlarını müxtəlif məntəqələrinə hakim təyin etdi. O ilk təşəbbüsdə on yaşlı Abbas Mirzəni Süleyman xan Qacarın sərdarlığı ilə Azərbaycanın hakimi təyin etdi .

1798-ci (1214 q.) ilin başlanğıcında Abbas Mirzəni Naibüssəltənə elan edib Azərbaycan hökumətinə, Hüseynəli Mirzə Şiraz hakimliyinə, Məhəmmədvəli Mirzəni Mazandaran hakimliyinə və böyük oğlu Məhəmmədəli Mirzə Dövlətşah isə Kermanşah və İranın qərb hissəsinin hakimi təyin etdi (9, s.103).

Con Malkolm yazir "Hakimiyyətdə olan Fətəli şah təqribən bütün İranı oğlanları arasında bölüşdürmüşdü. Bununla yanaşı hər şahzadəyə bir vəzir təyin edilmişdir ki, mülkün daxili işləri idarəsi və cavabdehlik ona həvalə edilmişdir. Bəzi vaxtlar təyin olunmuş vergini toplamaq şah

tərəfindən ayrı-ayrı şəxslər, qoşun başçılarına həvalə olunurdu "(8, s.779).

Abdulla Mirzə Daranın hakimiyyəti

Abdulla Mirzə Daranın Zəncandakı hakimiyyət illərini Zəncanın müasir tarixində dönüş nöqtəsi hesab etmək olar. 1224-cü1809 ildə o Xəmsənin hakimi təyin edildi. Təqribən 20 il ərzində, yəni 1244-1828ci ilə qədər Zəncanın hakimi oldu. Onun tikdirdiyi binalardan bu günə qədər tam salamat və mükəmməl qalanları Qeysəriyyə bazarı və Zəncanın "Məscidi-Əzəm"idir. Onun tikdirdiyi hökumət sarayı indi yox olmuşdur və həmin həyət "Səbzəmeydan" adı ilə məşhurdur. On oğlu var: Məhəmmədhəsən Mirzə, İsaq Mirzə, Yaqub Mirzə, Lütfulla Mirzə, Xəlilulla Mirzə, Əbdülməcid Mirzə, Əbdülrəşid Mirzə, Ənuşirəvan Mirzə, Əbu Səid Mirzə (6, s.20).

Onun övladlarından Lütfulla Mirzə varlı, dövlətli olmuşdur. Onun başqa bir oğlu sarayda miraxur (tövlə başçısı), yaxud at tövləsinin rəisi, bu günün dili ilə desək nəqliyyat üzrə məsul vəzifəsində çalışırdı.

1809-cu (1224 q.) ildə 13 yaşlı nəvvab şahzadə Abdulla Mirzə Xəmsə və Zəncanın hakimi təyin edildi. Əminin(Aqa Məhəmməd şahın) sədaqətli nökərlərindən ali divana yaxın olan Aqa Məhəmməd xanın böyük mustovfisi Məhəmməd Zəki Əliabadı Mazandaraninin övladı Mirzə Məhəmmədtaqı Mustofini vəzir və onun tərbiyəçisi təyin etdi.

«Tarixi-Zülqərneyn» əsərində, şahzadələrin titula Xəmsədən başqa digər əyalət və vilayətlərə, o cümlədən Bərucərdə, Məlayer və Bəstama hakim vəzifəsinə təyinatı göstərilir. O, Abdulla Mirzəni Azərbaycan və İraq məmləkətlərinin müştərək rayonu olan Xəmsəyə hakim, Mirzə Məhəmmədtağı Əliabadi Mazandaranini isə onun vəziri təyin etdi .(9, s.298).

Vəzirlərin mərkəzi hökumət tərəfindən seçilməsi maliyyə toplanışı və silahlı qüvvələrə nəzarətin mərkəzi hökumətin əlində olması məqsədini güdürdü.

1812 (1227 q.) ilin fərvərdin ayında (21 mart-20 aprel. tərc.) Fətəli şah Soltaniyə tərəfə hərəkət etdikdən sonra göstəriş verdi ki, Xəmsənin ixtiyar sahibi Abdulla Mirzə, eləcə də Məlayir və Nəhavəndin hakimi Şeyxəli Mirzə ya böyük toy məclisi təşkil edilsin (9, s.327).

Çoxları Xəmsəyə həsədlə baxırdılar. Burada hündür və yaraşıqlı

binalar tikildi, cənnət kimi bağlar salındı. Tarom blokunda gözəl bir mənzərə yaradıldı. Orada monolit daşlar üzərində yazılar var. Şahzadə nücum elminə bələd, şeir deməkdə öz qardaşları içərisində əvvəlinci olan bir şəxs idi. On bir min beytdən ibarət şeir kitabı olmuşdur. Onun şairlik ləqəbi «Dara» idi. Ancaq şahın ona verdiyi ləqəb «Qiyasülmülk» idi.(1,s.29)

1812-ci il(1227 q.) Abdulla Mirzə də Naibüssəltənəyə olan öz qardaşlıq məhəbbəti ilə zəmanə övladlarına nümunə olacaq bir hərəkətlə hal-əhval tutmaq üçün Xəmsədən Təbrizə gəldi. O, israr etdi ki, onu Qarabağa göndərsin. Lakin Abbas Mirzə bu qənaətdə idi ki, özü oraya getməsə ruslar Cəfərqulu ağanı azad etməyəcəklər. Xəmsənin ixtiyar sahibi Abdulla Mirzə də şahın əmrilə Ərdəbilə yollandı. (4, s.363)

Kaspar Druvel göstərir ki, Zəncan eyni adlı çayın üstündə salınmış böyük bir şəhərdir. Ora Xəmsə hökumətinin paytaxtıdır. Şəhərin əhalisi çoxdur. Şahın oğlunun yaşı 15-dən çox deyil. O, Fətəlişahın Soltaniyə şəhərində olan sarayını tərifləyir. Şah hər il şəhərin xərabəliklərinin yarım fərsəngliyində gəzintiyə çıxırdı. Ordugahın (düşərgənin) əhatəsindəki təpənin başında balaca saray var idi. Yam-yaşıl düzənliyi, gözəl mənzərələri var idi. Təpənin üzərində olan bu saray firəng papağını xatırladırdı. Ora qadınlara məxsus idi.(3,s.349-50)

Moris Dukutez bue Aqost Dokutez buyenin oğludur. Əslən Almaniyalı olan bu şəxs Rusiyada anadan olmuşdur. O, 1817-ci (1233 q.) ildə «Səfərnamə» əsərini yazmışdır. Həmin il Rusiyanın böyük səfiri ilə İrana səfər etmişdir. Onun «Səfərnamə»si alman dilində yazılıb, əvvəlcə fransız dilinə, sonra isə fars dilinə tərcümə olunmuşdur.

1819-cu il noyabr ayının 30-da səfir xəbər tutdu ki, Abdulla Mirzə onun şəhərə gəlişini təmtəraqla qarşılasın. General təmtərağı çox sevmirdi, digər tərəfdən də istidən çox əziyyət çəkirdi. Bu məqsədlə o gecə yola düşdü ki, şəhərin əhalisi yuxudan durmamış oraya daxil olsun. Bizi çox gözəl və çox böyük bir evdə yerləşdirdilər. Bura Abdulla Mirzənin imarətindən o qədər də uzaq deyildi. Şəhərin varlı adamları və ağsaqqalları onun görüşünə gəldilər. O, şahzadə Abdulla Mirzənin görüşünə getdi. Şahzadə generalın yol yoldaşlarına da miz hazırlatmışdır.

24 yaşlı Abdulla Mirzə şahın oğlanlarından biri idi. O, Abbas Mirzəyə çox oxşayırdı və onun əhsən deməsi və alqışlamasından qürur

duyurdu. Onunla səmimi olmaq və göstərişlərini layiqincə yerinə yetirməsindən xoşu gəlmək üçün nizamlı qoşun yaradıb sarayının yaxınlığında əsgərlər üçün yaraşıqlı və təmiz bina tikdirmişdir.

1820-ci il iyun ayının beşində Soltaniyəyə getdik. Fətəli Şah da oraya gəlirdi. Abdulla Mirzə bir neçə gün öncə bizimlə xudahafizləşib təcili atasının hüzuruna getmişdi.

İmperator Aleksandr Əlahəzrət İran şahına hədiyyələr göndərmişdi. Heç bir maneə olmadan Həştərxandan Xəzər dənizi vasitəsilə İran torpağına-Soltaniyəyə çatdı. Şah isə iyunun 19-da oraya daxil oldu.

Avqust ayının 29-da Soltaniyədən geri döndü və axşam Zəncana çatdıq. İmperatorun bayramına görə 30-da Zəncanda qaldıq. Məhəllə camaatı mahnılar və çilçırağa görə bizi dövrəyə aldılar. Sanki keçmiş dostluğumuzu bilirdilər və buna görə də bizim şənliyimizdə iştirak edirdilər. Onu da bilirdilər ki, Əlahəzrət şah bizə yüksək qonaqpərvərlik göstərib və dostluq əhdnaməsini imzalamışdır. (2,s.145)

Robert Kerpurter-tanınmış yazıçı öz «Səfərnamə»sini 1821-ci ildə Londonda çap etmişdir. Orada Zəncanın Xəmsə adlı kiçik bir bölgənin mərkəzi olduğu və şahın oğlanlarından birinin – Abdullah Mirzənin - hakimliyi ilə idarə olunduğu göstərilir.(13,s.272).

Abdulla Mirzə dövlətli ailədən idi. Bizim şəhərə girişimizdən öncə Zəncandan Tehrana gəlmişdi. Onun böyük qardaşı Abbas Mirzə İran taxt-tacının varisi idi. Onun şəhərə girişinə görə heç bir hazırlıq işləri görməmişdilər. O, çox narahat olmuşdur və göstəriş verdi ki, onlara lazım olan nə varsa, alsınlar. Sanki o yad bir adam idi.

Corc Kəpel 1827-ci ildə öz «Səfərnamə»sini Londonda çap etmişdir. 1824-cü (1240 q.) ildə də o İrana səfəri barədə yazmışdı. Zəncanın Qeysəriyyə bazarı və şah məscidi tikilən zaman orada olmuşdur (12 ,s.153).

«Zəncan Xəmsə bölgəsinin mərkəzidir. Oranın hakimi şahın oğlanlarından biri – Abdullah Mirzə- idi. Böyük və əhalisi çox olan bir şəhər idi. Oranın torpaq hasarı var. Oranın bazarı Həmədan və Kermanşah bazarından qəşəng idi; Bağdad bazarı ilə müqayisə oluna bilərdi. Bu bazar Şərq darvazasından qərb darvazasınadək uzanmışdır. Onun damı açıq rəngli qamışla bağlanmışdır. Nağaralar ehtiyac duyulan mallarla dolu idi. Təzə bazar (Qeysəriyə) hələ tikilib qurtarmamışdır. Onun blokları böyük

bazara tərəf idi. Dairəyə və imarətin qabağına qədər çəkilmişdir. Bəzi dükanlar təkmilləşdirilmişdir. Bazarın damı qövs şəklində idi, möhkəm düzəldilmişdi. Bazarla üzbəüz sarayın qabağında əla məscid tikilib qurtarmaq üzrə idi.

Məscidin üz divarı minalanmış kərpicdən, kafel, çini məmulatları ilə bəzədilmişdir. Məscidin I mərtəbəsi tikilib başa çatmış, künbəzi isə daşdan yonulmuşdur. O üçbucaq şəklində gözəl tərtib olunmuşdu. Şəhərin şərq darvazası səmtində ətrafda mehmanxana var idi (Daş karvansara)».

Ceymz Edvard Aleksandr ingilis dövlətinin rəsmi göndərdiyi şəxs olub «Səfərnamə» yazmış və 1827-ci ildə həmin əsərini Londonda çap etdirmişdir. İran-Rus müharibəsi zamanı İranda olmuşdur.

«…Bu gün şah ordusundan camaata təzə xəbər çatdı ki, Vəliəhd hücumu edərək rusların 1200 hərbi qərargahını tutub onları məğlub etmişdir (11,s.178). O, Abdullah Mirzəni şəxsən görmüş və onun çox tamahkar və zalım olduğunu yazmışdır. Müəllifin yazdığına görə o 35 yaşlı şəxs kimi görünürdü. Kənd əhli şaha nifrət etdikləri üçün onları yolda kötəkləmişdilər. Çünki ordu əkin sahələrinə ziyan vururdu.

1828-cu (1244 q.) ildə Abdulla Mirzə Xəmsə hökumətindən qovuldu və o Darülxüləfaya (Tehrana) qəldı. Onun yerinə şahın 35-ci oğlu Abdulla Mirzənin ögey qardaşı Süaössəltənə ləqəbli Fəthulla Mirzə təyin edildi. O, 1811-ci (1226 h.q.) ildə doğulmuşdur. 18 yaşında ikən Zəncanın hakimi oldu (6,s.127).

Abdulla Mirzə və qardaşı Əlirza Mirzə Darülxilafətdə idilər. O, 1832-ci (1248 q.) ildə Rüstəmüt-hükəmadan tələb etdi ki, Zəncanın tarixini yazsın. Bir qoca kişinin söylədiklərinə əsasən yazıçı Nadir şah Əfşardan sonrakı və Fətəli şahın hakimiyyətinə qədərki Zəncanla bağlı hadisələri qələmə aldı.

1831- ci (1247 q.) ildə taun epidemiyası nəticəsində çoxlu sayda əhali qırıldı. Ruslarda müharibə nəticəsində camaat aclıq və səfalətə düçar oldu.

1833-cü (1249 q.) ildə Abbas Mirzə xəstələnərək öldü. Bu zaman onun 46 yaşı və 26 oğlu var idi. Onun böyük oğlu Məhəmməd Mirzə babasından sonra İranın şahı oldu. Əslində bu Ağa Məhəmməd xanın vəsiyyətinə əsasən həyata keçirilirdi. O, hələ sağlığında vəsiyyət etmişdi ki, Fətəli şah Yuxarıbaş tayfasından qız alsın və ondan olan uşağı vəliəhd

etsin, Abbas Mirzənin oğluna onun adını qoyub sonra öz yerində oturtsun.

1834-cü (1250 q.) ildə Fətəli şah padaqra xəstəliyindən İsfahan ordusunda vəfat etdi. Şahzadələrin böyüyü Rüknəddövlə ləqəbi Əlinağı Mirzə şahın qulluğunda dayanmışdı. O, məxsusi cəvahiratı, səltənətə məxsus cəvahiratı, səltənətə məxsus qiymətli əşyaları qardaşı İmamverdi Mirzəyə tapşırıb şərəfli xaqanın cəsədini bir taxt üstünə qoyub dəbdəbə və cahcəlalla Quma apardılar. Rəcəb ayının dördündə Quma çatdılar və onu əvvəlcədən müəyyən olunmuş məqbərədə dəfn etdilər.

Üç günlük fasilədən sonra Rüknəddövlə ətrafındakı şəxslərlə Tehrana gəldi, Asifəddövlə isə bəzi işlərə görə Qumda qaldı.

Fətəli şahın vəfatından sonra Abdullah Mirzə dərhal İsfahan ordusundan ayrılıb Zəncana tərəf hərəkət etməyə başladı. Onun məqsədi əvvəlki hakimiyyətini qardaşından geri almaqdan ibarət idi. O, 10 gün müddətində Zəncanın kənd və qəsəbələrdən, Zəncan ətrafındakı Çərgər kəndində yaşayan Həlvəs camaatından 3000-ə qədər piyada və atlı qoşun toplayıb Zəncan şəhərinin bir fərsəxliyində (6 km-tərc.) düşərgə saldı. O, yaxşı qoşun topladığını və Zəncan əhalisinin Şüanssəltənəyə nisbətdə onu himayə edəcəklərini ehtimal edib öz kiçik qardaşına bir məktub yazdı:

«Uzun illərdir ki, mən Zəncanın hökmdarı olmuşam və bu şəhərə çox zəhmət çəkmişəm. İş elə gətirdi ki, bir gün İranın padşahı olan atamız məndən incidi və mənim balaca qardaşım olan səni məndən üstün tutub Zəncanın hakimliyini və əlavə olaraq Kürdüstanı da sənə verdi. İndi artıq padşah əbədi dünyaya qovuşmuşdur. Savab olardı ki, böyük qardaşımın yolunu saxlayıb mənim evimi özümə qaytarasan və Kürdüstanın hakimliyi ilə kifayətlənəsən. Əgər inkişafın yol verməsə, düşmənçilik və mübarizə qapısından çıxsan topladığım bu qoşunla hücum edib Zəncan şəhərini mühasirəyə alacağam və onda şəhər mənim əlimə keçəcək, sən isə xəcalətli və təhqir olunmuş olacaqsan».

Şüaossəltənə cavabında belə yazdı:

«Padşahların insanları tanımaqda xüsusi bacarıqları olur; xüsusilə Fətəli şahın bizi tanımasında. Çünki səltənət duyumundan daha çox ata kimi öz övladlarını sınaqdan keçirib nəhayət mənim üzərimdə dayanmışdır ki, məni hər iki məmləkətin hakimi etsin. Bu işi mən padşahın fərmanı ilə əldə etdiyim üçün şəriətlə də rəva olmaz ki, bu mülkü padşahın fərmanı olmadan əldən verim. Əgər sən başqa bir iş

görmək istəsən və atanın fərmanından kənara çıxsam, mənim sübh tezdən müharibəyə başlayıb döyüşmək üçün şəhərdən çıxmağa heç bir qorxum yoxdur».

Bu iki məktub «Nasexüt-təvarix»də qeyd olunmuşdur. Şüanssəltənə həmin gecə müharibə tədarükü gördü, 1500 atlı, 1000 nəfər piyada, 500 nəfər qulam (nökər) və başqa adamları, eləcə də 4 top arabası və 100 ədəd kiçik top toplayıb səhər tezdən şəhərin darvazasından bayıra çıxdı.

O, tərəfdə Abdullanın ətrafındakılar Şüanssəltənənin güclü qoşununu görüb onlarla döyüşə girmədən asanlıqla qənimət əldə edə bilmədiklərimi hiss edib günəş çıxmazdan iki saat əvvəl dağılışdılar və Abdulla Mirzə naçar qalıb geri çəkildi. Sonra o Təbrizdən hərəkət edib, şahlığı öhdəsinə götürmək üçün Tehrana gedən Məhəmməd şahın ordusuna qoşuldu.(10,s.598-599)

ما در این مقاله فرایند تمرکز گرایی را که فتحعلیشاه به وجود آورد با اشاره به تاریخ زنجان خانلوقی به تصویر کشیدیم و نتیجه گرفتیم که تمرکز حتی پس از مرگ فتحعلی شاه نیز قوام لازم را گرفته بود .

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Asəf Məhəmməd Haşım. Tarix-e dar-ül-ərəfan-e Xəmse. Həsən Hüseynəli Zəncan, Enteşarate Pinar, 1378, 87 s.
2. BueDukuez, Moris, Müsafirət be İran dər məiyyət səfir kəbir Rusiye dər sal-e 1817 m. Tehran, Enteşarat-e Əmir Kəbir, , mütərcim Mahmud Hidayət, 1348ş. 322 s.
3. Druvil Qaspar. Səfəre dər İran. Mənuçehr Etimad Muqəddəm. IIÇape, Enteşarate Şəbaviz, 1365ş, (349s.).
4. Dünbüli Əbdürrəzzaq (1176-1243 q). Məaser-e sultaniyyə. Enteşarat-e Ruzname-ye İran, 1383, 664s.
5. Etimad Əs-səltəne (1298 q). Tarixe müntəzəme nasiri. Məhəmməd İsmayıl Rizvani. Cild 2. Tehran, Dünya-ye ketab, 1364.
6. Etzad os səltənə 1259 q (Fətəlişah oğlü) Eksir ot təvarix,, cəmşid kiyanfər ,tehran ,vismən ,1370,664s
7. Hidayət Rzaqulu. Rozət-üs səfa-ye Naseri. Qum. Çap hökmət, 1339, celd 14.
8. Malkom Con. Tarixe Iran. Tərcome İsmayıl Heyrət. Tehran, Enteşarate Sənayi, 1383, 767 s.
9. Xavəri Şirazi (1190-1267 q). Tarixe Zülqərneyn. 2 celd, Tehran, Enteşarate Məcles, 1380, 428 və 354 s.
10. Sepehr Məhəmməd Təqi (1216-1297 q). Nasix ət-təvarix. Cəmşid Kiyanfər, II cild, Tehran, Əsatir, 564 və 622 s.
11. Edward, Alexander, j, Travels from India to England through Persia, London 1827
12. Keppel, the hon G: personal narrative of a journey from India to England London 1827.
13. Ker porter, Rabert, travels in Georgia, Persia Armenia ancent babulonia and…durinq the years 1817-1818 and 1820 vol I London 1821.

Г. Кереми

ПАДЕНИЕ ЗЕНДЖАНСКОГО ХАНСТВА И ЗЕНДЖАН В ПЕРИОД АБДУЛЛА МИРЗЫ (1809-1828)

РЕЗЮМЕ

После смерти Ага Мухаммед шаха при восхождение на престол для Фатали шаха возникли определенные трудности. Кроме этого поднял восстание, назначенный правителем Исфахана единственный брат шаха.Для подавления восстания он направился в Исфахан. Дядя Ага Мухаммед хана Сулейман хан Этизадудовле, воспользовавшись трудностями перехода власти от Ага Мухаммед шаха к Фатали шаху, по наушению своего окружения, в том числе Зенджанского хана Абдулла хана Усанлу, захватил Тегеран и попытался захватить шахский престол.

Q.Karami

THE COLLAPSE OF KHANATE MIRZA ABDULLA AND ZANJAN IN ZANJAN (1809-1828)

SUMMARY

Fatali shah many boys and girls to create a vahed state by bringing children into the world by a large image of the father.After the death of Muhammed Shah Aga Fatali shah in 1797 to put an end to difficulties arose in the crown of the kingdom. The only brother of Isfahan including a judge and rebelled against him. He went to Isfahan to suppress the revolt. Agha Muhammad Khan, the emir's uncle Suleiman Agha Muhammad Khan Etizaduddovlə government Fatali shah, and there have been some difficulties with the passage of the king around, including at the instigation of Zanjan Khan Abdullah Khan Usanlunun was Tehran's desire to put on the crown of kingdom fell.

О МИГРАЦИОННЫХ ПРОЦЕССАХ В АЗЕРБАЙДЖАНСКИХ ЗЕМЛЯХ ТИФЛИССКОЙ ГУБЕРНИИ В XIX- НАЧАЛЕ XX вв.

Нигяр ЭЙВАЗОВА

Açar sözlər: Borçalı, köçürmə, miqrasiya, ərazi, quberniya.
Key words: Borchali, relocation, migration, territory, province
Ключевые слова: Борчалинская зона, перевод,миграция, территория,губерния

В XIX - в начале XX вв. значительное количество азербайджанцев проживало на территории Тифлисской губернии, некоторые районы которой являются историческими, исконно азербайджанскими землями. Одним из таких районов являлась Борчалинская зона, вся низменная часть которой, как отмечал А.М.Аргутинский-Долгоруков, была занята исключительно азербайджанцами.[1,с.18]В частности, в Башкечидской низменности Борчалинского региона было расположено 66 населённых пунктов. Из них вплоть до начала XX в. в 46 селениях проживали азербайджанцы, в 4-х селениях – русские, в 3-х сел. – армяне, в 3-х сел. – грузины, в 9-ти сел. греки вперемешку с грузинами и армянами и в 1 селе-немцы . [9, с.74]

Армяне и греки стали проникать сюда из Турции. Так образовались греческие и некоторые армянские села.[7,с.111] Известны случаи, когда состоятельные армяне скупали земли и заселяли их армянами. Так, один из армянских капиталистов – Арамянц переселил из Эриванской губернии армян-крестьян, построил для каждой семьи отдельные избы из двух комнат с чердаком, крытых черепицей, отвёл огороды и усадебные места. За всё это переселенцы обязаны были отплачивать Арамянцу своим трудом на его хлопковых плантациях.[5,с.66]. Говоря о миграциях населения, нельзя не упомянуть о сезонных кочёвках азербайджанского населения. Занимаясь земледелием большая часть этого населения ко

Nigar Eyvazova- AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun işçisi

времени жатвы отгоняла свой скот в горы. Поэтому жатва производилась , главным образом, наёмными рабочими – персидско-подданными, айсорами и др. Эти отходники прибывали в Борчалы с начала июня. Рабочие двигались через Александропольский уезд и направлялись сначала в низменные части района, где к этому времени уже создавали хлеба. Убрав здесь хлеб, рабочие двигались все выше и выше и до самых возвышенных территорий доходили к середине августа, когда и здесь уже созревал хлеб. Покончив с жатвой и покосами, рабочие уходили обратно в Южный Азербайджан.[2,с.104]

Помимо пришлых отходников здесь использовался труд местных отходников.[3,с.176] Из Южного Азербайджана в Борчалы ежегодно приходили до 10 тыс. наёмных работников. Большая их часть доходила до Борчалы пешком, но были и такие, которые нанимали вскладчину фургоны и арбы.[6,с.160]

В массе наёмных рабочих из местного и пришлого элемента громадный перевес приходился на долю пришлых рабочих, при этом на первом месте стояли отходники из Южного Азербайджана.[4,с.2-3]Оседлые азербайджанские крестьяне назывались оба, а те, кто занимался отгонным скотоводством, назывались эль. Все эли имели свои жилища на равнинах (кишлаги), а летом они отгоняли свой скот на яйлаги: Кайкулу, Лёк-Карагадж, Балакоч, Башкечид, Эрдживан, Каракалхан, Ширек, Гейче и др.[5,с.66]

По данным переписи 1897 года по всей Тифлисской губернии мусульмане (а это были в основном азербайджанские и ахыскинские турки) составляли 189028 чел., или около 18% всего населения губернии.[8,с.111] А по некоторым уездам Тифлисской губернии удельный вес мусульманского населения был довольно высок. Так, в Ахалкалакском уезде из 76489-72709 д.об.п., Ахалцихском уезде из 68837-37958 д.об.п., Борчалинском уезде из 128587-37742 д.об.п., Сигнахском уезде из 102313-5599 д.об.п., а в Тифлисском уезде из 234632-16161 д.об.п. являлись мусульманами. И если в двух первых уездах т.н. «магометане» были в основном тюрки – ахискийцы или же, как иногда их называют тюрки-месхетинцы, то в трёх последних под названием «магометанин» шли, в основном, азербайджанские

тюрки. Так, в Тифлисском уезде их удельный вес составлял около 6-7%, в Борчалинском – почти 30%, а в Сигнахском – 5,5.% всего населения уезда. Только в результате интенсивных переселений христианского, в основном – армянского населения в эти края, азербайджанские тюрки постепенно превращались в этнические меньшинства.

Массовые миграционные процессы в этих регионах не прекращались на протяжении всего рассматриваемого периода. И в этих процессах особенно активно участвовало именно мусульманское население. Так, в нижеприведённой таблице отражены данные о численности и удельном весе иностранцев, проживавших в 1897 г. в Тифлисской губернии:

Таблица 1

Подданство	**муж.**	**жен.**	**об.пола**	**% отнош.**
Персидское	6.108	2.034	8.142	52.8
Турецкое	4.203	1.305	5.508	35.7
Германское	282	307	589	3.8
Австро-Венгерское	175	116	291	1.8
Французское	60	132	192	1.2
Итальянское	158	101	259	1.7
Швейцарское	94	86	180	1.2
Великобританское	40	28	68	0.4
Греческое	35	20	55	0.1
Шведское	15	5	20	0.1

Бельгийское	14	6	20	0.1
Сербское	12	9	21	0.1
Испанское	11	1	12	0.1
Госуд.Центр. Америк.	9	2	11	0.1
Черногорское	8	1	9	0.1
Датское	6	6	12	0.1
Север.-Амер. Соед. Штат.	4	7	11	0.1
Прочих государств.	17	10	27	0.2
Всего:	11.254	4.176	15.427	100.0

Согласно данным этой таблице, среди иностранноподданных самыми многочисленными были именно т.н. персидскоподданные (8142 д.об.п. или же 52.8% всех иностранноподданных). Думается, что нет никаких сомнений в том, что здесь речь идёт об азербайджанских тюрках из Южного Азербайджана. Следом шли османские подданные (5508 д.об.п.; 35.7%), и германские подданные (589 д.об.п. 4%). А на долю представителей всех остальных государств приходилось всего 986 д.об.п., или же 7,5%.

Кроме иностранноподданных в этой губернии было также немало (28662 д.об.п.), т.н. временнопребывающих. Что интересно, основная масса временнопроживающих также приходилась на долю азербайджанских регионов губернии, т.е. Тифлисского, Борчалинского и Сигнахского уездов, а также Закатальского округа, что отражено в нижеследующей таблице 2.

Таблица 2

Уезды и города в них	Наличное население			В числе наличного населения было:	
	м.п.	ж.п.	обоего пола	Временно пребывавших в местечке переписи	Иностранных подданных
Тифлисский уезд	95.240	64.350	159.590	3.548	9.242
г.Тифлис	95.240	64.350	159.590	3.548	9.242
Ахалкалакский уезд	37.903	34.806	72.709	1.001	396
г.Ахалкалаки	3.232	2.208	5.440	88	229
Ахалцихский уезд	36.807	32.030	68.837	743	402
г.Ахалцих	8.579	6.778	15.357	165	294
Борчалинский уезд	2.508	2.045	128587	7.802	224
сел.Шулаверы	2.508	2.045	4.553	63	224
Горский уезд	102.837	88.254	191.091	1.990	576
г.Гори	6.405	3.864	10.269	139	43
Душетский уезд	35.848	31.871	67.719	905	106
г.Душет	1.745	821	2.566	246	21

Сигнахский уезд	55.958	46.355	102.313	5.413	88
г.Сигнах	4.492	4.502	8.994	119	28
Телавский уезд	35.895	30.872	66.767	603	60
г.Телав	7.379	6.550	13.929	146	26
Тионетский уезд	16.431	17.722	34.153	494	12
г.Тионеты	582	507	1.089	13	1
Закатальский округ	45.418	38.806	84.224	2.313	67
г.Закаталы	2.021	988	3.009	67	49
Всего в губернии	**575.447**	**475.585**	**1.051.032**	**28.662**	**15.427**
В том числе в городах	**132.183**	**92.613**	**224.796**	**4.594**	**10.157**

Как видно из вышеприведённых данных, в Тифлисском уезде были зарегистрированы 7398 д.об.п. (25.81% всех временно-проживающих в губернии), Борчалинском – 7802 д.об.п. (27.22%), Сигнахском – 5413 д.об.п. (18.89%) и Закатальском округе – 2313 д.об.п. – (8.07%); а в целом более 80% всех временнопроживающих жили именно в азербайджанских районах Тифлисской губернии. Большинство временнопребываюших являлись отходниками, среди которых было очень много выходцев из Южного Азербайджана. В целом в этой губернии было зарегистрировано всего 1051032 д.об.п.

наличного населения (из них224796 д.об.п. в городах). Среди них временнопребывающих было 28662 д.об.п., а иностранноподданных – 15427 д.об.п.

Большой интерес вызывают данные о распределении наличного населения по месту рождения. Эти данные, приведенные в нижеследующей таблице, дают представление о текучести миграции местного и неместного населения:

Таблица 3

Распределение наличного населения по месту рождения

Уезды и города в них	**Всего обоего пола**	**Состав наличного по месту рождения**			
		местные	**других уездов Тифлисской губернии**	**других губерний**	**других государств**
Тифлисский уезд	234.632	131.658	33.166	60.498	9.310
г.Тифлис	159.590	69.686	27.539	54.084	8.281
Борчалинский уезд	128.587	116.247	2.691	6.695	2.954
сел.Шулаверы	4.553	4.003	118	278	154
Сигнахский уезд	102.313	93.844	4.825	3.596	48
г.Сигнах	8.994	8.510	208	255	21
Закатальский округ	84.224	73.134	1.102	9.951	37

г.Закаталы	3.009	1.281	436	1.277	15
Всего в губернии	1.051.032	870.974	63.201	101.988	14.869
В том числе в городах	224.796	120.632	31.787	63.042	9.335

По всей Тифлисской губернии местное население составляло около 86-87% всего наличного населения. Среди наличного населения (1.051.032 д.об.п.) были также многочисленные уроженцы других уездов Тифлисской губернии (63.201 д.об.п.), других губерний Российской империи (101.988) и других государств (14869).

Что же касается отдельных уездов, то самый высокий показатель уроженцев других уездов Тифлисской губернии был в Тифлисском уезде (33166 д.об.п.), далее шли Сигнахский (4825) и Борчалинский уезды (2691) и Закатальский округ (1102). По численности уроженцев других государств на первом месте также был Тифлисский уезд (9310 д.об.п.), затем шли Борчалинский (2954) ,Сигнахский (48) уезды и Закатальский округ (37 д.об.п.).

Данные таблицы указывают на то, что из 284222 неместных уроженцев Тифлисской губернии 227601 чел. (80%) приходятся на долю указанных 4-х регионов. Причём, в Тифлисском уезде неместные составляли около 68% всех неместных по губернии, Борчалинском уезде – 4,5%, Сигнахском уезде – 3%, Закатальском уезде 4,5%.

Очень интересные данные о временноотсутствующих среди постоянного населения содержатся в материалах переписи населения 1897 г. Если по Тифлисской губернии среди всего постоянного населения (1051216 д.об.п.) временноотсутствующие (28846 д.об.п.) составляют всего 2,74%, то по Борчалинскому уезду – 2,6%, по

Сигнахскому уезду – почти 3,1% и Закатальскому округу – 3%. Очевидно, что в составе сельского населения огромное большинство принадлежит именно уроженцам того же уезда, где они и жили. По губернии их было почти 871 тыс. из более чем миллионного населения. В одноименном уезде их было 133 тыс., в Борчалинском – 136 тыс., в Сигнахском – почти 94 тыс. и в Закатальском округе – более 73 тыс. д.об.п. И среди сельского населения наблюдалась такая же картина. Но немало было также уроженцев других уездов той же губернии (по губернии таковых было 43,6 тыс. д.об.п.), уроженцы других губерний (69,8 тыс.), уроженцы других государств (2276 д.об.п.). Например, среди населения Борчалинского уезда уроженцев других уездов, губерний и государств было 12340 д.об.п., что составляло около 11% всего населения. А в Сигнахском уезде их удельный вес (8469 д.об.п.) составлял более 9%.

За исключением Тифлисского уезда во всех уездах подавляющее большинство всех неместных уроженцев составляли выходцы из других регионов Кавказа. В Борчалинском уезде выходцы из других регионов Кавказа составляли более половины всех неместных, в Сигнахском уезде – почти 40%, а по Закатальскому округу – почти 95% всех неместных.

Таким образом, в тех регионах Тифлисской губернии, где испокон веков проживало автохтонное азербайджанское население, происходили похожие миграционные процессы, что и в других краях Северного Азербайджана: иммиграционные процессы с каждым днём усиливались, население становилось более мобильным, увеличивалась масса как неместных, так и отсутствующих в составе постоянного и наличного населения.

ИСТОЧНИКИ И ЛИТЕРАТУРА

1.Аргутинский-Долгоруков А.М. Борчалинский уезд в экономическом и коммерческом отношениях . Тифлис, 1897,с.18.
2.Аргутинский - Долгоруков А.М. Указ.работа, с.104.
3.Панцхава А.Я. Вопросы аграрной истории Грузии в I пол.XIXв.,Тбилиси,1976,с.176.
4 Первая всеобщая перепись населения России 1897 г. LXIX. Тифлис. Губ., 1905, , с.2-3
5.Петрович П.. Хлопководство в Закавказье Тифлис, 1912, с.66

6. Петрович П Указ.работа с.160
7.Сборник материалов для описания местностей и племен Кавказа ,вып. 31, Тифлис, 1902, с.111
8.Там же.
9.Экономический быт государственных крестьян Тифлис. губ. Тифлис,1897 ,с.74.

N. Eyvazova

XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TİFLİS QUBERNİYASININ AZƏRBAYCAN TORPAQLARINDA BAŞ VERMİŞ MİQRASİYA PROSESLƏRİ HAQQINDA

XÜLASƏ

Məqalədə əzəli Azərbaycan bölgələrindən olan Borçalıda XIX əsrin sonlarında baş vermiş miqrasiya proseslərinə nəzər salınmışdır. Müəllif mötəbər mənbələr əsasında bu bölgənin 66 kəndindən 20 kəndin sonralar köçürülənlər hesabına salındığını sübut etməklə yanaşı, çarizmin müstəmləkə siyasəti nəticəsində bu bölgənin azərbaycanlı əhalisinin bir hissəsinin xaricə mühacirət etdiklərini göstərir. Bölgədə tez-tez baş verən miqrasiyalardan olan buraya kəsbkarlığa gəlmələr, maldarların mövsümü yerdəyişməsi və habelə yerli azərbaycanlıların şəhərlərə işləməyə getmələrinə daha çox diqqət yetirilən məqalədə Borçalı qəzasında baş vermiş miqrasiya proseslərinin Sığnax qəzasına və habelə Zaqatala dairəsinə də təsirsiz ötüşmədiyi qənaətinə gəlinmişdir. Həmçinin Tiflis quberniyasının azərbaycanlıların yaşadıqları ərazilərdə baş vermiş miqrasiya prosesləri müqayisəli təhlil edilmişdir.

N.Eyvazova

ABOUT MIGRATION PROCESSES IN THE AZERBAIJANI LANDS OF TIFLIS PROVINCE in the 19th- early 20th CENTURY

SUMMARY

In the article are considered the migration processes, occurred in one of the ancient Azerbaijani regions - Borchali at the end of the 19th century. The author, based on the authentic sources proves, that 20 of the 66 villages of the region have been formed later by settlers, and in addition to, shows, that as a result of the colonial policy of the tsarism, part of the Azerbaijani population of this region emigrated abroad. In the article have been givenattention on such migration processes, as coming here for getting means of livelihood, seasonal migration of the cattle-breeders as well as going to work to the cities of the local Azerbaijanis, that frequently took place in the region. The author drew a conclusion that the migration processes, taking place in Borchali district left its mark in Signakh district and Zaqatala circle. The comparative analysis of migration processes was done in Tiflis province – in the territories, populated by the Azerbaijanis.

TÜRKLƏRİN ƏCDADLARI SKİFLƏRİN SLAVYANLARIN DA ƏCDADLARI OLMASINA DAİR.

Rəşid MƏHƏRRƏMOV

Açar sözlər: Türk, iskit, etnik kökü, slavyanlar, "patriotlar".
Key words: Turks, Scyhians, ethnic, origin, Slavs, Patriots
Ключевые слова: тюрок, скиф, этнический корень, славяне, «патриоты».

Keşməkeşli tariximizin çağdaş dövründə çox maraqlı və haqqında elmi polemikalar bu gün də səngiməyən iskitlərin etnik mənsubiyyəti həm də əcdadlıq payı kifayət qədər aktuallıq kəsb edən milli-tarixi problemlərdən biridir. Sovet dönəmində bu məsələ hakim ideologiyanın maraqlarına uyğun olaraq irandilli etnos kimi qiymətləndirilmiş, bütövlükdə türk xalqları tarixinin tədqiq edilməsi yasaq edilmişdi. Yalnız SSRİ-nin süqutundan sonra bu problem yenidən gündəmə gəlmiş və ayrı-ayrı tarixçilərin vacib tədqiqat obyektlərindən birinə çevrilmişdir. Məsələn, M.F.Zəkiyevin 2003-cü ildə nəşr edilən "Türklərin və tatarların mənşəyi" (rus dilində) əsəri xüsusi maraq doğurur. Zəkiyev bu problemlə bağlı bir sıra əcnəbi tarixçilərin əsərlərini incələyərək maraqlı və təkzibedilməz faktlar gətirir ki, bu faktlar iskitlərin irandilli olmaları mifini tamamilə alt-üst edir. Dmitri Verxoturovun 2005-ci ildə işıq üzü görən "İskitlər türklərlə slavyanlar arasında" (rus dilində) adlı məqaləsi internet sayıtlarında yerləşdirilmişdir. Bu məqalədə iskitlərin təkcə etnik mənsubiyyəti deyil, həm də türk-slavyanların ortaq əcdadları olmaları iddiası da irəli sürülür. [14] Məqalədə məhz bu məsələlərin təhlilinə cəhd göstəriləcəkdir.

Skiflərin etnik mənsubiyyətinin qiymətləndirildiyi ən etibarlı mənbə hesab edilən Herodotun "Tarix" əsərindən sonra rus tarixşünaslığında A.İ.Lızlovun "Skifiya tarixi" çox qiymətli mənbə hesab edilməlidir. Yeri gəlmişkən Andrey Lızlov iskitlərin tarixi ilə çox ciddi maraqlandığından, iskit tarixi haqqında əsər yazmaqla kifayətlənməmiş, həm də Herodotun "Tarix" əsərini rus dilinə tərcümə etmişdir. Düzdür, müəllif iskitlərə və bütövlükdə türklərə münasibətdə qərəzli mövqe tutmaqdan çəkinməmiş,

---

Rəşid Məhərrəmov – t.ü.f.d. Gəncə Dövlət Universitetinin dosenti

hətta slavyan xalqlarını türklərə qarşı birgə mübarizəyə də səsləmişdir. Lakin onun əsərində türklərlə bağlı qərəzli mövqe sərgilənsə də, onun əsərinin və bütövlükdə müəllifin münasibətinin əhəmiyyətli cəhəti ondan ibarətdir ki, iskitlərin türkdilli olmaları onun tərəfindən etiraf edilmişdir. [1. s.55]

XVIII əsrdən başlayaraq, rus xalqının qədim mənşəyi, həm də iskitlərdən törəməsi haqqında nəzəriyyə rus-türk elmi tərəfindən tamamilə qəbul edilirdi və praktik olaraq heç bir şübhə doğulmurdu.

Bildiyimiz kimi iskitlər haqqında təsəvvürlərdə dönüş XVIII əsrin əvvəllərindən I Pyotrun xahişi ilə avropalı alimlərin, slavyanların tarixini tədqiq etməyə başladıqları zaman baş verdi. Qeyd etmək lazımdır ki, bu tədqiqat I Pyotra sırf elmi maraq üçün deyil, hər vasitə ilə imperiyaya çevirməyə çalışdığı dövlətinin beynəlxalq nüfuzunun möhkəmləndirilməsindən, bir də əcdadlarının qədimliyini əsaslandırmaqdan ötrü lazım idi. Digər tərəfdən, öz vəsiyyətlərində Şərqə tərəf irəliləmək zərurətini qeyd edən, türk torpaqlarının işğal edilməsinin "xaç atası" I Pyotr (bu torpaqların işğalının əsasını qoyan IV İvan olsa da) rus xalqının mənşəyinin qədimliyini möhkəmləndirməyi türk torpaqlarının işğalının etnik əsaslandırılması kimi başa düşürdü. Bu, o demək idi ki, skif və sarmatlardan törəyən slavyanların (rusların - R.M.) türk torpaqlarına sahib çıxmaq haqları var, necə ki, IV İvan Kazan xanlığını işğal edib, özünü Kazan xanı elan etmək haqqını anası Yelena Qlinskayanın türk əsilli olması ilə əsaslandırırdı. Təsadüfi deyildir ki. İskitlərin və sarmatların slavyanların əcdadları olması fikrinin əsasını qoyan, Pyotrun slavyanların tarixini tədqiq etməyi xahiş etdiyi Georq Vilhelm Leybinis idi. 1708-ci ildə o etiraf etdi ki, "sarmatlar adı altında qədimdə slavyan adı hələ məlum olmayan dövrdə sarmatlar adlandırılan bütün slavyan tayfalarını nəzərdə tuturam".[12]

Lakin XVIII-XIX əsrlər ərzində digər bir nöqteyi-nəzər, iskitlər türklərin əcdadlarıdır-versiyası mövcud idi və "iskit" adı altında müxtəlif dillərdə danışan bir çox xalqların yığcam, ümumi adının nəzərdə tutulduğu fikri irəli sürülürdü. Rus, alman və türk-tatar tədqiqatçıları V.N.Tatişşev, N.M.Karamzin, K.Noymann, R.Y.Şafarik, Geza Kun, Xasan Qata al Qabaşi, Hadi Atlasi, Sədri Maksudi Arsal, Zəki Vahidi Toqan, Adilya Ayda Arsal, M.Z.Zəkiyev, Oljas Süleymenov, İlhami

Durmuş və s. bu fikirdə idilər.

Herodotun dəqiq və etibarlı məlumatlar verən tarixçi olduğunun etiraf edildiyi dövrdə onun əsərinin aydın olmayan bu və ya digər məsələlərinə əsaslanaraq, bu versiyanı müdafiə etmək imkanı qalırdı. Lakin XIX əsrin 80-ci illərində Herodoyun məlumatlarının etibarlılığı dəqiqləşdikdən sonra belə şübhələr öz zəminindən məhrum oldu. Bundan əlavə, nəzəriyyə və hipotezlərdə müxtəlif dəqiqləşdirmələrə gətirib çıxaran iskit tayfalarının maddi-mədəniyyəti haqqında arxeoloji materiallar üzə çıxdı. Odur ki, skif və sarmatların slavyanların əcdadı olmasını artıq qəbul etmək olmazdı. Lakin Herodotun məlumatlarında Skifiyanın tərkibinə daxil olan bu və ya digər tayfaların slavyanlara aid olduğunun etiraf edilməsi imkanı qalırdı. Sonrakı mübarizə məhz bunun ətrafında cərəyan etməyə başladı. [15]

Hər şey bu və ya digər xalqların necə yerləşməsindən və onların areallarının hansı arxeoloji mədəniyyətlərlə üst-üstə düşməsindən (uyğun gəlməsindən) asılı idi. Bu XX əsrin 40-cı illərində vətənpərvərlik müfologiyasının formalaşmasının növbəti mərhələsi ilə eyni vaxta düşdü. Bu zaman bir çox tarixçilər Kiyev Rusundan Sovet İttifaqına qədər slavyan dövlətinin şöhrətini və qədimliyini göstərməyə çalışırdılar. Arxeoloqlara belə bir ideya hakim kəsilmişdi ki, madam ki, Nestorun "Müvəqqəti illərə dair povest"ində xatırladılan slavyan tayfalarının yerləşdirilməsinə və onları konkret arxeoloji mədəniyyətlərə bağlamağa nail olunmuşdur, onda elə skifiya xalqları ilə də bunu əldə etmək olar.

Skifiya xalqlarının yerləşdirilməsinin birinci sxemi 1947-ci ildə B.N.Qrakov tərəfindən verildi və bu geniş diskussiyaya səbəb oldu, nəticədə müəllif 1971-ci ildə ona xeyli düzəliş etdi. 1960-cı illərdə isə M.J.Artmanov, A.P.Smirnov və A.J.Teronojkin öz sxemlərini təklif etdilər. [15.s.135]

Nəhayət, iskitlərin Herodotun əkinçi iskitlər adlandırdığı bir hissəsinin slavyanlara aid olmasını qəbul edən kompromis variantı üstünlük qazandı, buna, slavyanların təsərrüfatı şum əkinçiliyinə əsaslanır, deməli, əkinçi iskitlər də slavyanlardır – ümumi mülahizədən başqa konkret dəlil gətirilmirdi. Bir də belə bir versiya irəli sürülürdü ki, iskitlərin bir hissəsi özlərini "skolotlar" adlandırırdılar, ola bilər ki, onlar elə slavyanlar idi.

İskitlərin öyrənilməsi sahəsində XX əsrdə əldə edilən önəmli cəhət ondan ibarətdir ki. Elm və mifologiya əlaqəni kəsərək, müəyyən məsafəyə qədər ayrıldılar. Böyük miqdarda arxeoloji materiallar və zəngin materialların cəlb edildiyi fundamental tədqiqatlar mifologiya üçün iskitlərin bir hissəsi slavyan idi və ya dəqiq desək, slavyanların əcdadları idi, mühakiməsinə zəmini məhdudlaşdırırdı. İskit etnoniminin yığcam, yəni ümumi ad olması və bu ad altında bir çox xalqlar, o sıradan ola bilsin elə slavyanlar başa düşülən fikri müdafiə edən iskit mədəniyyətinin bütün ciddi tədqiqatçıları praktik olaraq razılaşırdılar.[15]

Burada belə bir sual meydana çıxır: bütün bunlar nəyə lazımdır? Slavyanların iskit mənşəyi haqqında bu mif ümumiyyətlə nə üçün meydana gəlmişdir? Axı, arxeoloji məlumatlar göstərir ki, slavyanlar Pripyat çayı ilə Visla, Dnestr və Buq çaylarının yuxarı axarları arasında, Oderdən Dneprə qədər geniş bir ərazidə yaşayan, nisbətən kiçik avtoxton tayfa ittifaqı idi. Onlar yeni torpaqlara yalnız VI əsrdə köçmüşlər və bu proses mənbələrlə, həm də arxeoloji məlumatlarla kifayət qədər etibarlı şəkildə əsaslandırılmışdır.

XV əsrin sonunda Moskva knyazlığının Qızıl Ordanın keçmiş vassalları olan bütün qalan Şərqi rus knyazlıqları üzərində siyasi hakimiyyətləri ucalan zaman Moskvada Moskva hökmdarlarının bütün rus torpaqları üzərində hakimiyyət iddiaarına əsaslanan siyasi rəvayət yaradılmağa başlandı. Burada Roma imperatoru Avqustdan törəyən (onun varisi olan) Prusa bağlanan Moskva hökmdarları sülaləsinin qədimliyi əfsanəsi mühüm rol oynamışdır. Bu əfsanədən ilk dəfə ehtimal edildiyi kimi Savvoy-Spiridon tərəfindən düzəldilən "Vladimir knyazları haqqında rəvayət"də bəhs edilmişdir.

Avropa dövlətlərində bu əfsanəyə heç kim inanmasa da XVI-XVII əsrlər ərzində Moskva hökmdarlarının qədimliyi haqqında ideya tədricən rus xalqının qədimliyi ideyasına çevrildi. 1674-cü ildə Kiyev-Peçorsk monastırı arximandriti İnnokenti Cizelin xeyir-duası ilə slavyan xalqının başlanğıcı haqqında müstəqil (geniş) əsər hazırlandı: bu "Sinopsis yaxud slavyan-rus xalqının... Kiyev şəhərinin ilk knyazlarının başlanğıcı haqqında ayrı-ayrı salnamələrdən qısa külliyat" adlanırdı. Bu başlanğıcını uzaq keçmişdən, iskitlərdən və sarmatlardan götürən slavyan xalqının mənşəyi haqqında tədqiqatdır. Kitab qeyri-adi dərəcədə marağa səbəb

olmuş və 1836-cı ilə qədər, xüsusən XVIII əsrin əvvəllərində 30 dəfə yenidən nəşr edilmişdir. "Sinopsis" Moskva müfinin(əfsanəsinin) bərqərar olmasına və bununla birlikdə rus milli özünüdərkin formalaşmasına çox güclü təsir göstərdi. Lakin hələ də indiyə qədər "Sinopsis"in təsirinin öyrənilməsinə heç bir diqqət yetirilməmişdir. Qərbi Avropa xalqlarının qədimlikdə və zənginlikdə öyünmək üçün əllərində Roma imperiyası kimi tutarlı dəlilləri olduğu halda, Şərqi Avropa xalqlarının heç bir imperiyası və zəngin mədəniyyəti olmamışdır. Onlar üçün iskitlr göydən düşmə tapıntı idi. Bu Moskvaya daha çox lazım idi. Xatırladaq ki, iskitlər rusların "əcdadları" ediləndə moskvalılar Moskva knyazlarını imperator Avqustun nəslindən olduğunu təsdiq etməyə çalışırdılar. Lakin bununla sivilizasiya dünyasına daxil olmaq mümkün olmadıqda mif yaradıcılığı əks istiqamətə yönəlib: axı biz asiyalıyıq, lakin bizim əcdadlarımız elə güclü olmuşdur ki, sizinkilər bizim əcdadlarımızdan qorxmuşlar deyirdilər.[15]

Bu baxış XVII əsrin sonunda meydana gəlsə də, tamam-kamal, yüz il sonra ucadan Mixail Lomonosov tarixi "tədqiqatlarla" məşğul olan zaman üzə çıxdı. Burada bir nüans qeyd edilməlidir. Tədqiqatçı D.Verxoturov bu məsələdən bəhs edərkən Lomonosova aid tədqiqat sözünü dırnaq arasına alır və bunu onunla əsalandırır ki, onun rus tarixi sahəsində hazırlıq səviyyəsi son dərəcə aşağı idi və öz axtarışlarının əsas məqsədi slavyanların qüdrətini isbat etməkdən ibarət idi və bunun üçün o apponentləri ilə siyasi metodlarla mübarizə aparırdı.[15]

Müəllifin bu fikri ilə razılaşmamaq olmaz. Təsadüfi deyildir ki, rus tarixşünaslığında: xalqların qədimliyi siyasi iddialar üçün əsasdır-müddəasını ilk dəfə məhz M. Lomonosov qısaca və dürüst ifadə etmişdir.

İlk baxışda adama elə gəlir ki, burada nə yenilik var? Bu baxış Lomonosova qədər də irəli sürülmüşdür. Lakin bu baxışda Lomonosov yeniliyi ondan ibarətdir ki, rusların əcdadları hesab edilən qədim xalqlar beləcə güclü və qüdrətli olublar və Rusuya imperiyası kimi imperiya yarada biliblər.

Bu, sırf imperiya ideologiyasıdır, özü də elə bir ideologiya ki, qədim və qüdrətli əcdadı olmaq hələ azdır, bu əcdadlar həm də böyük dövlətə malik olsun və bu dövlət bütün ətrafındakı xalqlar üzərində hökmranlıq edib, bununla da öz gələcək nəsillərinə belə olmağı "vəsiyyət" etsinlər.

İskitlərin Avropada məşhur toplum olması ilk növbədə Herodotun "Tarix" əsərinin sayəsində mümkün olmuşdur. Antik dövrdən başalayaraq günümüzə qədər bütün müəlliflər iskitlər haqqında məlumatları praktik olaraq, bu kifayət qədər bitkin, müfəssəl və etibarlı mənbədən əldə etmişlər. Çağdaş tariximizdə iskitlərlə bağlı ciddi tədqiqat işi ilə məşğul olan müəlliflərdən heç kim Herodotun məlumatlarına müraciət etmədən keçinə bilməz. Təsadüfi deyildir ki, məşhur rus-sovet tarixçisi B.A. Rıbakov antik müəllifin əsərinin məhz bu hissəsinə sanballı tədqiqatlarından biri olan "Геродотова Скифия» əsərini həsr etmişdir.

Herodot və digər qədim müəlliflər iskitlərin nə qədər zəngin və qüdrətli olmaları barədə çox yazıblar. Qara dəniz ətrafı ərazilərdəki kurqanlarda aşkarlanan tapıntılar – maddi-mədəniyyət nümunələri, həmin müəlliflərin fikirlərini tam təsdiq etmişdir. Çar kurqanlarının tədqiqi vaxtilə iskit çarlarına məxsus olan çox gözəl qızıl və gümüş məmulatlar aşkar edilməsinə səbəb olmuşdur. Odur ki öz "əcdadlarının" zənginliyi və gücü ilə öyünərək lazım gələndə iskitləri öz əcdadları kimi qələmə vermək iddiası hakim olmuşdur.

Bütün zamanlarda belə bir fikir mövcud olmuşdur ki, iskitlər türkdilli xalqlardır. Bu fikri öz əsərlərində əks etdirən bizanslılar, onlardan sonra avropalılar və rüslar da hmin fikirdə idilər.

Diqqət yetirdikdə aydınca görürük ki,əslində sovet tarixşünaslığında kök salmış rəsmi tarixşünaslığın iddialarına rəğmən kimmerlərin, sakların, iskitlərin türkdilli qədim tayfalar olduğu hələ rus tarixçisi A. Lızlov və V.N.Tatişşev tərəfindən təsdiq edilmiş, sovet dövründə bu fikir yasaq olunsa da əcnəbi tarixşünaslıqda etiraf olunmasına baxmayaraq tariximizin qədim dövrünün "avtoritet" tədqiqatçısı yenə keçmiş ampulasında qalaraq həmin tayfaları irandilli hesab etmişdir.

Hətta siyasi mülühizələrdən iskitlərin türkdilliliyi inkar edilən zamanlarda onlar hind-avropalılara, iranlılara, gah da slavyanlara aid ediləndə də bəzi tədqiqatçılar, iskitlərin türkdilli olması fikrində qalmışlar. Onlar həm də bütün bu adı daşıyanların hamısını türk əsilli hesab edərək iskit-türk nəzəriyyəsi də yaratmışlar. Lakin müasir türkoloqlar, o sıradan M.Z. Zəkiyev bu nəzəriyyəni bitkin hesab etməmişdir. Onun fikrincə iskitlərin hamısı deyil, bir hissəsi türkdür, bir hissəsi isə çoxluq təşkil edən iskitlərin təsiri altında onların adını daşıyanlardır.

İskitlərin türkdilli olmaları haqqında bir çox dəlillər vardır ki, onların əsas ikisi üzərində dayanmaq lüzumu duyuruq. Bunlar dil arqumentləri və arxeoloji dəlillərdir. Tədqiqatçılar göstərir ki iskitlərin türkdilli olmalarını təsdiq edən dəlillərdən ən başlıcası iskitlərin əcdadı Targitay və oğlanlarının adlarının semantikasıdır, yəni mənasıdır. V.İ.Abayevin daha fəal inkişaf etdirdiyi iskit-iran nəzəriyyəsinə əsasən adlar aşağıdakı kimi mənalandırılır:

Targitay – uzun müddətə güclü (möhkəm);

Lipoksay – günəşin parıltısı;

Arpoksay – sular hömdarı;

Kolaksay – günəşin parıltısı;

M.Z. Zəkiyevin tərəfdar olduğu adların türk dili vasitəsilə(türk dilinin köməyi ilə) oxunuşu aşağıdakı kimi səsələnir:

Targitay - əkinçi, xeyirxah nəsil;

Lipoksay –sərhədlərini qoruyan xeyirxah nəsil;

Arpoksay –mülkünü qoruyan xeyirxah nəsil;

Kolaksay –paytaxtını qoruyan xeyirxah nəsil.

Göründüyü kimi iskit adlarının türk semantikası nöqteyi-nəzərincə şərhi daha məntiqli, daha ardıcıldır ki, bunu iskit adlarının iranşünaslar tərəfindən şərhi haqqında demək mümkünsüzdür.

Arxeoloq İ.M.Miziyev 15 türk-iskit arxeoloji- etnoqrafik paralel aparmışdır o sıradan:

Fleyta şəklində sümük boru vasitəsilə atın sağılması üsulu;

Heyvanların qarnında ətin bişirilməsi üsulu;

Torpağa düşən qızıl kotan, boyunduruq, qılınc və kasanın balkarların (Şimali Qafqazda türk xalqı) bürc adları ilə üst-üstə düşməsi;

Kurqanların (qəbirüstü təpə) yaradılması üsulu;

Ölənlərin atla yola salınması adəti;

Keçədən istifadə;

Ölülərin bədəninin mumiyalanması praktikası;

Dəfn adətləri və s.

Buraya onu da əlavə etmək lazımdır ki, belə əlamətlər iskit-Sibir dünyasının bütün arxeoloji mədəniyyətlərində müşühidə edilir. Bu xüsusilə Cənubi Sibirin Taqar mədəniyyətində aşkarlıqla özünü büruzə verir.

Görkəmli tarixçi professor Süleyman Əlyarlının qeyd etdiyi kimi, iskitlərin etnoqrafiyası haqqında biliklər də onların türk yaşayışını üzə çıxarır. Homer kimmerləri, Hesiod, Esxil, Hippokrat, miletli Hekate, Herodot, Strabon və başqa antik yazışılar isə iskitləri "madyan sağan", "at əti yeyən", "qumıs içən" adlandırmışlar. Bu yaşayış qanunu keçmişdə də, indi də yalnız türk xalqlarında olmuş, yalnız onların kültür ənənsi sayılmışdır. İskit məişətində keçə üstün rol oynamış, ondan paltar, baş geyimi hazırlanmış, onunla arabaların üstünü örtmüşlər. Altay türkləri və hunlardan bəri keçə hazırlamaq və geniş istifadə etmək qırğız, qazax, balkar, qaraçaylı və başqa xalqların daima peşəsi olmuşdur. Bu xalqlarda iskitsayağı ətbişirmə vərdişi hələ də qalmaqdadır. Herodot yazır ki iskitlər qazan olmayanda əti sümükdən ayırır, malın qarnına doldurub bişirirlər. Azərbaycanda qoyunun ətini dərisi içərisinə doldurub, təndirdə, ya ocaq külündə bişirmə adəti iskit davranışına bənzəyir. İskitlərin adət və mərasimləri haqqında Herodotun dediklərinin əksəriyyəti Dağlıq-Altaydakı miladdan öncə VIII-VII yüzillərə aid abidələrin dəfn mərasimlərində öz uyğunluğunu tapır.

Göstərilən faktlardan aydın olur ki, iskit tayfalarının başdan-başa irandilli olması barədə Hind-Avropaçı nəzəriyyənin elmi əsası ypoxdur. Onların içərisində türkdilli toplumların varlığı şübhə doğurmur. Görünür, vaxtilə Ön Asiya və Azərbaycana gələn köçəri iskitlərin tərkibində türk qolları çox olmuşdur. Tovuz, Qazax tərəfdə "skifli", "skifli dəlisi" deyimi indi də işlənməkdədir. Assur qaynaqlarının onları işquz, aşquz adlandırması da, təsadüf deyildi. Bir sıra tədqiqatçılar bu anlayışın "iç quz", "iç oğuz" ulu etnonimi ilə bağlı olduğunu yazırlar.

Görəsən, İqrar Əliyev bu təksibedilməz faktları, danılmaz türklük əlamətlərini nədən etiraf etməmişdir. İnsanı heyrətləndirən hal ondan ibarətdir ki, mənşəyimizin tədqiqatçısı mənbələri təhlil edərkən, yalnız onun kimi düşünənlərin əsərlərinə söykənmiş, əcdalarımızı "irandilli" və "qafqazdilli" deyil, türk adlandıran bir alimə belə istinad etməmişdir.

Fikrimizcə, Rus dövlətinin yalnız uzun və şərəfli tarixi olan slavyanlar tərəfindən yaradıldığını hesab etməyə öyrəşən vətənpərvər əhvali-ruhiyyəli tədqiqatçılar arasında bir natamamlıq kompleksi mövcuddur. Burada başqa xalqların Rus dövləti üçün rolu yalnız düşmənçilik və pozuculuq kimi qəbul edilirdi. Əcdadlarımız Vəhşi Çöldən

və Qızıl Ordadan "müdafiə olunduqları kimi" bizə də onu vəsiyyət etmişlər- deyirlər.

Lakin buna baxmayaraq, məsələnin belə qoyuluşunda nə isə bir qeyri-müəyyənlik, qeyri-aydınlıq var. Slavyanların qədimliyi və "slavyan tripoli mədəniyyəti"ndən inamla danışsalar da, dəlillər gətirməkdə, fikirlərini sübut etməkdə tələsmirlər. İlk baxışda inamla yumruqlarını stola vurub "Qədim Rus dövləti haqqında tezis"i müdafiə edirlər, lakin cidanı çuvalda gizlətmək olmadığı kimi, salnamələrdə Kiyev Rusunun formalaşmasında türklər slavyanlardan heç də az deyildir fikrini gizlədə bilmirlər. Hətta böyük "İqor Polku dastanı"nda qıpçaq sözləri kifayət qədərdir, budur məsələnin çətinliyi. Knyaz Svyatoslav qeyri-vətənpərvər yuxu görüb, orada qıpçaq dilində basurmanlarla söhbət edir. Üstəlik Rus imperiyasındakı 200 zadəgan nəslinin 132-si türk mənşəlidir. [16. s. 439] Bu isə artıq tutarlı arqumentdir.

"Patriotlar" bunu heç cür etiraf etmək istəmirlər, demək istəmirlər ki, rus dövlətinin formalaşmasının ən erkən mərhələsində türk xalqları: peçeneqlər, qıpçaqlar, xəzərlər, bulqarlar və başqaları çox böyük rol oynamışlar. Əgər bu etiraf olunsa, onda gərək türklərin rus xalqının formalaşmasındakı təsiri də etiraf olunsun və deyilsin ki, rus xalqı Dunay slavyanları ilə bulqarların qaynayıb-qarışdığı Dunay bulqarları kimi təmiz slavyan deyil, yarım slavyan mənşəlidir. Eramızın VII əsrində türkdilli bulqarlar, əksər əhalisi slavyandilli tayfalardan ibarət olan Dunay regionlarından birinə gələrək Bolqar-türk dövlətini yaratdılar. Lakin bir neçə nəsildən sonra slavyanlar içərisində assimilyasiya oldular, nəticədə slavyan dilli bolqar xalqı formalaşdı. Türkdilli macarlar da sonradan Dunay ətrafına gedərək orada yerli xalqlarla qarışaraq macar xalqını formalaşdırdı. Bax, bu vətənpərvərlər üçün dəhşət idi. Bu, onların dünya görüşünü kökündən sarsıdırdı. Slavyanları o qədər qədimləşdirməli ki, bu qədim keçmişdə heç bir türk olmamışdır- fikrinə çalışmaq məhz buradan qaynaqlanır. Belə olduqda isə, slavyanların qədim və tımiz mənşəyi olmuşdur-deyiminə əsas yaranırdı.

Tarixi saxtalaşdırmağa onları vadar edən ikinci səbəb ondan ibarətdir ki, XIX əsrdə özünün yüksək inkişaf səviyyəsində olan Rusiya imperiyası "slavyanların və pravoslavlığın müdafiəsi" kimi çıxış edirdi. O, Balkanlarda slavyanların və pravoslavlığın müdafiəsi tezisi altında

Osmanlı Türkiyəsinin Balkan vilayətlərində və Qara dəniz boğazları üzərindəki nəzarətinə qarşı gizli niyyətləri ört-basdır edirdi. Lakin imperiya rus intellektuallarının xeyli hissəsi ilə öz slavyan mənşəyini və əsl provaslavlığa əbədi sədaqətini sübut etməyə çalışaraq bu oyunu oynayırdı.

Tarixi saxtalaşdırılan xalqlar mənim xalqım qədim xalqdır, mənim dövlətim qədim dövlətlər sırasına daxildir deyib, eyfariyaya qapılaraq, tarixdən daha çox iddialar umurlar və bu umacaqları nəticə etibarıilə fəlakətlərə aparıb çıxarır. Məsələn, rus alimi Pyotrovski "ermənilər tarixinin qədimliyinə görə tarixlərinə yox, tarixçilərinə minnətdar olmalıdır" deyərkən, bilərəkdən və ya bilməyərəkdən erməni tarixçilərinin əslində cinayət etdiklərinin fərqindədirmi, görəsən. Bu fikri ona görə qeyd edirəm ki, ermənilər tarixlərinin qədimliyinə inanaraq, həm də özgə torpaqlarının onlara məxsus olduğunu yazanlara inanıb cinayətlər törədiblər. Azərbaycan torpaqlarının onlara məxsus olması haqqında saxta tədqiqatlara inanan ermənilər, əslində onların tarixini saxtalaşdıran tarixçilərin qurbanına çevriliblər. Bu baxımdan I Pyotrun təkidi ilə Rus dövlətinin və rus xalqının qədimliyini sübut etməyə çalışmaqla, əzəli türk torpaqlarının işğal edilməsinin etnik əsaslandırılması həm tarixi saxtalaşdırılanların, həm də həmin "tarixi həqiqətdən" çıxış edən istilaçıların cinayət törətməsinə gətirib çıxarmışdır.

Tarixşünaslıqda belə bir deyim var: "elm və mədəniyyət xadimləri xalqlarına nə qədər xidmət etsələr də, onlar yenə də xalqları qarşısında borcludurlar". Mən deyərdim ki, əgər elm və mədəniyyət xadimləri öz xalqları qarşısındakı borclarını tarixin saxtalaşdırılması hesabına ödəyirlərsə, onlar xalqına xidmət etmirlər, əksinə öz xalqına gələcək qarşısında cinayətlər törətmək üçün yalançı və əsassız arqumentlər verməklə onlara yamanlıq edirlər.

Tarixin saxtalaşdırılması mənəvi cinayətdir və bu əməl millətlərarası münaqişələrdə mənəvi cinayətin "qalibi"nə xidmət edirsə, bu həm də hüquqi cinayətlər törədir.

Bütün hallarda iskitlərin slavyanların əcdadları ola bilmələri əfsanəsi ilə ayrlmaq lazımdır. Artıq indi iskitləri slavyanların əcdadları hesab etməyin mümkünsüzlüyünü təsdiq edən kifayət qədər tarixi dəlillər vardır və bundan əlavə, zaman keçdikcə araşdırmaların və arxeoloji tədqiqatların

inkişafı ilə bu dəlillər aratacaq və möhkəmlənəcəkdir.

Mümkündür ki, nə vaxtsa Skifiyaya daxil olan tayfalardan hansısa ilk slavyanlar və slavyanların əcdadı idi. B.A.Rıbakovun «Геродотово Скифия» əsərində öz əksini tapan materiallar belə düşünməyə imkan verir.

Lakin skif-slavyanlar və onların türk kimi tanınması ədsanəsi ilə üzülüşmək, əkaqəni kəsmək tarixçilər və arxeoloqlar qarşısında çətin suallar doğurur. Həm də etiraf etmək lazım gəlir ki, türklər Kiyev Rusunun, qədim Rus dövlətinin və bütün rus xalqının təşəkkülündə şərq slavyanlarına çox güclü təsir göstərmişdir. Kiməsə bu xoş gəlməyə bilər, lakin bundan qaçmaq mümkün olmayacaq.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Историография истории СССР. Досоветский период. Изд. «Высшая школа». М., 1971, 460с.
2. Грач А.Д. Древние кочевники в центре Азии. Изд. «Наука», М.,1980, 256с.
3. Грязнов М.П. Аржан. Царский курган раннескифского времени. Государственный Эрмитаж, Л., 1980. 154с.
4. Кызласов Л.Р. Древняя Тува от палеолито до IX века. Изд. МГУ, М., 1979, 206с.
5. Марков Г.Е. Кочевники Азии. Изд. МГУ, М., 1976, 320с.
6. Мерперт Н.Я. Об этнокультурной ситуации IV-II тысячилетний до новой эры. М., 1988.
7. Мурзин В.Ю. Скифская арханка Причерноморья. Изд. Наукова думка, Киев. 1984. 135.
8. Мурзин В.Ю. Происхождение скифов: основные этапы формирования скифского этноса. Изд. Наукова думка, Киев. 1990. 88с.
9. Мизиев И.М. Об исторических именах «Таргитай» и «Аспарух». Ташкент. 1986.
10. Немировский А.И. Мифы древней эллады. Изд. Просвещение, М., 1992, 321с.
11. Гумилев Л.Н. Люди и природы Великой степы. Вопроси истории, 1973, №11.
12. Закиев М.З. httpIIWWW.реднум.ру/пеWs.
13. Мурад Аджи. Полынь половецкого поля. Москва. Тоо «Пик-контекст». 1994,350с.
14. Мурад Аджи. Европа, тюрки. Великая степь. Изд. «Мысль». М., 1993.334с.
15. Дмитрий Верхотуров. Скифы между тюрками и славянами. httpIIWWWлебед.ком (20050fhn4099. htm.
16. Олжас Сулейменов. Азия. Alma-Ata, 1990, 450 s.

R.Maharramov

ARE ANCESTORS OF THE SLAVIANS WHO ARE THE ANCESTORS OF TURKISH ICHHIDS.

SUMMARY

The article has been devoted studying the national-historical issue about our complicated history in modern period that has importance in the ethnic origin and ancestress of Ischids.

Author showed grounded to the historical thoughts and facts which was given in the modern historical literature and books and articles given in the internet sites, that not only ethnic possession of Ischids, but also matter of being the same ancestor of Turkish and Slavian overturned to the theme of the theme of the exploration.

The author of article showed that the real intension of Russian empire ideologists who said that there is a relationship between Ischids and Slavians tried to make out to their allegations for declaring themselves the owner of occupied Turkish lands.

Р. Магеррамов

К ВОПРОСУ, ЧТО ПРЕДКИ ТЮРКОВ - СКИФЫ ЯВЛЯЛИСЬ И ПРЕДКАМИ СЛАВЯН

РЕЗЮМЕ

Статья посвящена описанию проблемы этнического происхождения скифов. Данная проблема оставалась актуальной для исследователей в разные исторические периоды. На современном этапе имеются разные версии её решения. Автор, основываясь на достоверных фактах, имеющихся в исторической литературе, источниках и статьях, приходит к выводу, что вопрос происхождения предков славян на сегодняшний день остается не до конца изученным.

ŞİMALİ AZƏRBAYCANDA KÖÇKÜNLƏRİN İCTİMAİ-SİYASİ TƏŞKİLATLARININ YARANMASI VƏ FƏALİYYƏTİ

Sevinc HÜSEYNOVA

Açar sözlər: Köçkünlər, sosiomədəni adaptasiya ,ictimai təşkilatlar "daşnakstyün", terror, qurultay, etnik təmizləmə
Key words: immigrants, socio-cultural adaptation, social organizations, Dashnaktsutyun, terrorism, congress, ethnic cleansing
Ключевые слова: переселенцы, социально-культурная адаптация, общественные организации, дашнакцутюн, террор, съезд, этническая чистка

Şimali Azərbaycana və onun qərb bölgələrinə köçürülmüş müxtəlif xalqların XIX əsrin sonu və XX əsrin əvvəllərində yaratdıqları mədəni,xeyriyyə və siyasi təşkilatların fəaliyyəti problemi bir sıra tədqiqatçıların diqqqətini cəlb etmiş,bu mövzuya müxtəlif tədqiqat əsərlərində müəyyən dərəcədə toxunulmuşdur.Buna baxmayaraq bu təşkilatların çoxşaxəli fəaliyyət istiqamətləri və Aərbaycandakı istimai siyasi və mədəni proseslərə təsiri məsələsi öz aktuallığını qoruyub saxlamaqdadır.

Şimali Azərbaycanda məskunlaşan köçkünlər almanlar, ermənilər, yunanlar, ruslar, ukraynalılar yalnız bölgənin iqtisadi həyatında, infrastrukturunda mühüm rol oynamır, ictimai həyata sosiomədəni adaptasiya olunur, öz milli varlıqlarını, adət ənənələrəni qoruyub saxlamağa, ictimai fəallıqlarını gücləndirməyə, ictimai təşkilatlarını yaratmağa çalışırdılar. «XIX əsrin sonu və XX əsrin əvvəllərində alman icması öz ictimai fəallığını ictimai təşkilatlar və xeyriyyə cəmiyyətləri yaratmaqda ifadə etdilər» [26, s. 202]

XX əsrin əvvəllərində Şimali Azərbaycanda bir neçə alman xeyriyyə cəmiyyəti yaradılmışdı. Bunlardan Qadın Yevangel-Lüteran Xeyriyyə Cəmiyyəti 1907-ci il iyulun 20-də qeydiyyatdan keçmişdi. Cəmiyyətin məqsədi Yevangel Lüteran etiqadlı bütün insanlara yardım etmək, onları ərzaq, paltar, mütəmadi olaraq pul vəsaiti, işlə, qocalar evi ilə təmin etmək idi [1, v. 26]

Xeyriyyə cəmiyyətlərinin vəsaitləri üzvlük haqlarından, gecələrin

---

Sevinc Hüseynova- AMEA-nın Tarix İnstitutunun dissertantı

keçirilməsindən, əl işlərinin satılmasından əldə edilirdi. «Öz mövcudluğu dövründə Qadın Yevangel-Lüteran Xeyriyyə Cəmiyyəti əlillər evi tikdi, kilsə məktəblərinə, uşaq koloniyalarına maddi yardım göstərdi, ayrı-ayrı şəxslərə pul vəsaitilə kömək etdi. Cəmiyyət xeyriyyəçiliklə yanaşı, fəal mədəni fəaliyyət də göstərdi. O illərin arxiv və qəzet materiallarından göründüyü kimi cəmiyyət müxtəlif mədəni gecələr, konsertlər, uduşlu-lotereyalar keçirirdi» [26, s. 203]

1912-ci il aprelin 9-da Gənc qızlara yardım üzrə Yevangeliya cəmiyyəti yarandı. Cəmiyyətin əsas məqsədi lüteran etiqadlı gənc qızların müdafiəsi, dini və ümumtəhsil məzmunlu kitablar oxumaq, söhbətlər yolu ilə onların mənəvi inkişafına kömək etmək, yoxsulların xeyrinə əl işləri hazırlanması, onları iş yerlərilə təmin etmək, lazım olduqda onlara pul vəsaiti və ssuda (borc) vermək, onların istifadəsi üçün kitabxana və cəmiyyətin himayəsi altında olan gənc qızlara müvəqqəti bina təşkil etmək idi [2, v. 4]

Xeyriyyə fondları alman koloniyaçıları arasında mədəni-xeyriyyəçilik tədbirləri və təhsil fəaliyyətini həyata keçirirdilər.

1917-ci ildə Rusiya imperiyasında, xüsusilə Qafqazda ağır hərbi vəziyyətin yaranması alman koloniyaçılarının ictimai fəaliyyətini genişləndirdi. Şimali Azərbaycanın qərb bölgəsindəki almanlar da müxtəlif siyasi və ictimai təşkilatlar yaratdılar. Onların nümayəndələri Cənubi Qafqazın Rusiya vətəndaşları olan alman millətinin nümayəndələrinin Diyar qurultayının fəaliyyətində yaxından iştirak edirdilər. Bu dövrdə alman koloniyaçıları ilə bütün Rusiya imperiyasının alman əhalisi öz hüquq, azadlıqları və milli maraqlarının qorunması uğrunda mübarizəyə başladılar. 1917-ci ilin aprelində Moskvada Rusiyanın alman əhalisinin nümayəndələrinin qurultayı keçirildi. 1917-ci il mayın 14-də Tiflisdə Cənubi Qafqazın Rusiya vətəndaşları olan alman nümayəndələrinin diyar qurultayı keçirildi. Qurultayda Şimali Azərbaycanın da alman bütün koloniyalarının nümayəndələri o cümlədən Jelenodan T.Hummel, Annenodan E.Kun, Georgiyevskidən A.Onqemax iştirak edirdi [3, v. 1]

Qurultayda alman koloniyalarının səlahiyyətli nümayəndələri çıxış edərək yaranmış vəziyyət haqqında ətraflı məlumat verdilər. Qurultayda koloniyalarda koloniyaçıların könüllü ianəsi hesabına yerli komitələrin

yaradılması haqqında qərar qəbul edildi. Koloniyaların gələcəkdə qorunub saxlanması üçün vəsait müəyyən edildi. Eyni zamanda qurultayın yerli komitələrinin iş proqramını qəbul etdilər. Bu proqrama əsasən koloniyalarda baş verən proseslər haqqında informasiya və statistik məlumatlar toplanılmalı və qurultaya məruzə edilməli idi. Qurultaydan sonra Şimali Azərbaycanın qərb bölgələrindəki koloniyalarda da Rusiya vətəndaşları olan alman millətinin yerli komitələri yaradıldı. Sonralar 1918-ci ilin fevralında adı dəyişdirilərək Cənubi Qafqaz Milli Alman Şurası adlanan Şuranın tərkibindəki hərbi seksiyadan ibarət alman millətini alayının təsis edilməsi qərara alındı. Alman Şurasının orqanı alman qəzeti «Qafqaz poçtu» qəzeti idi. Alman Şurasının iclasları müntəzəm olaraq Tiflisdə keçirilirdi. İclaslarda alman əhalisinin müxtəlif sosial-iqtisadi problemləri, alman məktəblərindəki vəziyyət müzakirə olunurdu. Alman Şurası Cənubi Qafqaz almanlarının maraqlarını ifadə edirdi [3, v. 16-31].Rusiya İmperiyası dağıldıqdan sonra yaranan Cənubi Qafqaz Alman
Milli Şurası Azərbaycanın və Gürcüstanın milli hökumətləri ilə sıx əlaqə saxlayırdı. Şuranın tərkibinə Qafqaz koloniyalarının məşhur və nüfuzlu nümayəndələri daxil idi.

Tiflisdə Şuranın 1906-cı ildən 1923-cü ilədək nəşr olunan mətbuat orqanı «Qafqaz poçtu» qəzeti koloniyaçılar arasında geniş yayılmışdı. Koloniyalarda kənd idarələri yaradıldı. İdarələrin rəhbərləri koloniyaların ən nüfuzlu şəxslərindən təyin edilmişdi. Jelenendorfda kənd idarəsinə sədri parlament deputatının qardaşı Robert Jakovleviç Kun, sədrin köməkçisi Frits Fridrixoviç Kox təyin edildilər. Kənd idarələri və mərkəzi hakimiyyət arasında sıx əlaqə var idi. Azərbaycanın demokratik hökuməti Alman Milli Şurasının təhsil, mədəniyyət və din sahələrindəki fəaliyyətini dəstəkləyirdi [25, s. 21]

Şimali Azərbaycanın və Cənubi Qafqazın alman koloniyalarının və hökumətin nümayəndələri yubiley mərasimində iştirak edirdilər. AXC parlamentinin rəyasət heyəti «kiçik mədəni özək» kimi səciyyələndirdiyi «Jelenendorfa daha da tərəqqi və rifah» arzuladı [25, s. 21].

XX əsrin əvvəllərində Tiflisdə və çox ehtimal ki, Bakıda da açılan Almaniya konsulluğu alman koloniyaçılarının maraqlarını müdafiə etməyə başladı.

Alman koloniyalarının, xüsusən Jelenendorf koloniyası haqqında materiallara Almaniyanın Xarici almanlar arxivində də rast gəlmək olur. M.Cəfərlinin qeyd etdiyi kimi, alman tarixçisi Leyptsiq Universitetinin ilahiyyatçı alimi Georq Leybrandt Azərbaycanın alman koloniyalarının tarixinə dair kitab yazmaq üçün materiallar toplamışdır. Müəllifin göstərdiyi M.Lindemanın «Almaniyanın XİN-nın siyasi arxivinin fondlarında Rusiya almanları haqqında məlumatlar» kitabında koloniyaçılara aid arxiv materiallarının qorunduğu yer göstərilmişdir [25, s. 22]

Onlar öz alman təsərüfatlarını və özünəməxsusluqlarını qoruyub saxlamaq üçün Əməkçi Üzümçülük-Şərabçılıq İstehsalat İttifaqlarını yaratdılar. İttifaq tezliklə «Konkordiya» adlandı. «Konkordiya» təkcə istehsalatla deyil, ictimai xeyriyyəçilik işlərilə də məşğul idi. «Əhalinin rifahı, yolların və nəqliyyat sistemlərinin tikilməsi üçün böyük kapitallar qoyulmuşdu.Koloniyalarda uşaq bağçaları və körpələr evləri, ixtisaslaşmış məsləhətxanalar yaradıldı. «Konkordiya» təhsilə xüsusi diqqət verirdi, Yelenendorfdakı ikinci dərəcəli məktəbə vəsait ayırmışdı, internat məktəbi açmış, kar-lallar məktəbi yaratmış, aztəminatlı uşaqlara təqaüd verirdi» [5, s. 18].

Erməni köçkünlər isə tamamilə onların əksinə olaraq öz maraqları naminə hətta yeri gələndə himayədarlarına qarşı çıxan xain, nankor, ikiüzlü, yalançı, terrorçu bir toplum rolunu oynadılar.

Ermənilərin bütün ictimai-siyasi təşkilatları bir məqsədə heç vaxt mövcud olmamış xəyali, uydurma «Böyük Ermənistan» yaratmağa xidmət edir, «Armenitlər», «Hncak» («Zəng»), «Daşnaksutyun» («İttifaq») partiyaları köçkünlərin gəldikləri ərazilərdə yaranmış, lakin onların ideyaları bütün ermənilər, o cümlədən köçkün ermənilər üçün bir hökm olmuşdur.

1878-ci ildə Osmanlı imperiyasında baş verən «siyasi hadisələr» Kiçik Asiya ermənilərində müstəqil erməni dövləti yaratmaq ümidi oyatdı. Van şəhərində yaşayan Partiqaleyanın təşəbbüsü ilə «Armenislər» partiyası yarandı [10, v. 6]. Bu təşkilatın əsas məqsədi Osmanlı ermənilərinin «azad mövcudluqları və hüquqları»na nail olmaq üçün «Türkiyə hökumətinə qarşı silahlı müqavimət göstərmək» idi [7, № 9-10].

1887-ci ildə yaranmış digər təşkilat «Hnçak» «erməni məsələsi»ni

Berlin traktatının müddəalarına əsaslanaraq həll etməyi qarşısına məqsəd qoydu [6, v. 82]

1890-cu ildə yaranmış «Daşnaksutyun» partiyası ermənilərin "inqilabçı" fraksiyası idi. Bu partiya öz məqsədinə çatmaq üçün terrordan başlamış, sui-qəsd təşkil etmək, böyük dövlətlərin geopolitoloji məqsədlərindən, beynəlxalq vəziyyətdən, müxtəlif ictimai və siyasi təşkilatlardan istifadə etməyi və s. metodları məqbul hesab edir. Zəruri olduğu halda bu təşkilatlar qlobal miqyaslı problemləri həll etmək naminə ermənilərin özlərini də qurban verməyə hazır idi [23, s.124]

«Daşnaksutyun» Rusiyanın bir çox quberniyalarında gizli erməni məhkəmələri təşkil etmişdilər [14, v. 97]

1895-1896-cı illərdə erməni təşkilatları Osmanlı imperiyası ərazilərində Sasun və Vanda qiyam qaldırdılar.Qiyam yatırıldı və 75 min erməni qaçqını Rusiyada Cənubi Qafqazda Şimali Azərbaycanda yerləşdirildi. Pozulmuş və «inqilabiləşdirilmiş» ermənilər arasında soyğunçuluq və qətl halları artdı [14, v. 97] Bütün bunlar Cənubi Qafqazda,o cümlədən,Şimali Azərbaycanda baş verən proseslərin sız surətdə Osmanlı imperiyaısnda gedən proseslərin davamı və nəticəsi kimi ortaya çıxmasının sübut edir.

1895-1896-cı illərin hadisələri zamanı Qafqaz administrasiyasının sərəncamı ilə Rusiya ermənilərinin vəsait yığılması üzrə komitəsi bağlandı. «Komitəçilər» gizli formada Rusiyaya açıq düşmənçilik fəaliyyətinə başladılar [14, v. 3; v. 19-20]

Qafqaz administrasiyası başqa bir tədbirə də əl atdı. Erməni qaçqınların bir qismini geriyə Osmanlı imperiyasına qaytarmağı qərara aldı [31, s. 88] Lakin bu qərar riskli idi, vəziyyəti daha da mürəkkəbləşdirirdi. Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin növbəti dalğası XIX əsrin ikinci yarısında olmuşdu. Osmanlı ərazisində hökumət əleyhinə baş verən qiyamlar yatırıldıqdan sonra «Daşnaksutyun» və digər erməni təşkilatları tərəfindən terrorizə edilən 35-60 min erməni Şimali Azərbaycanda yerləşdirildi. Köçürülmə siyasəti nəticəsində regionda demoqrafik vəziyyət dəyişdi. Ermənilər yerləşdirməklə çarizm Cənubi Qafqazda etnik-milli ziddiyyətlərin, münaqişələrin və axıdılan qanların toxumunu səpdi. Hnçak (Zəng), Daşnaksutyun (İttifaq) və b. siyasi, terror təşkilat və komitələri quruldu. Xəzər dənizi, Qara dəniz və

Aralıq dənizi arasında tarixdə heç bir zaman olmamış «Böyük Ermənistan» ideyası ermənilər üçün uydurulduu. Məqsədə nail olmaq üçün əsas vasitə terror seçildi. Mövqeləri möhkəmlənən ermənilər yerli xalqlara düşmən münasibət bəsləyərək onları sıxışdırmağa başladılar. Sosial-iqtisadi, siyasi, milli və dini ziddiyyətlər yarandı [20, s. 43]

1901-ci ildə qəbul olunan qanun Osmanlı imperiyasından olan 75 min ermənininin Cənubi Qafqazda Şimali Azərbaycanda qalmasını təmin etdi. Lakin arxiv materialları sübut edir ki «bu 75 000 qaçqından yarısı Türkiyədə vətəndaş müharibəsində bərkimiş başkəsən quldurlardan ibarət idi» [9, v. 12]

Bunların bir qismi rus təbəəliyini qəbul etdi, ayrı-ayrı şəhərlərdə yaşadılar. Onların kəndlərdə bir yerdə kənd-kənd yaşayan qismi Rusiya hüdudlarından kənarda fəaliyyət göstərən «Daşnaksutyun»un təsiri altına düşdü. Bundan sonra həmin təşkilatın dəhşətli təsiri Rusiya hüdudlarında artmağa başladı.

XIX əsrin sonlarında erməni millətçiliyi və rus çarizminin mənafeləri toqquşdu, ermənilərin Rusiya ilə dostluq münasibətlərinə ciddi xələl vuruldu . 1903-cü ildə Qafqazın baş mülki rəisi knyaz Qriqori Qolitsinin sərəncamı ilə erməni qriqoryan kilsə əmlakının müsadirə edilməsi erməni-rus qarşıdurmasını daha da şiddətləndirdi, onu son həddə çatdırdı. «Daşnaksutyun» və digər erməni təşkilatları çar məmurlarına, qubernatorlara qarşı terror təşkil edirdi. «Hnçak»ın təşkil etdiyi sui-qəsd nəticəsində Qafqazın mülki rəisi Q.Qolitsinin başına xəncər zərbəsi vuruldu. 1904-cü ildə o, istefa verməyə məcbur oldu.

Erməni ictimai-siyasi təşkilatları və kilsəsi azərbaycanlılara qarşı qanlı qırğın törətdilər. Qırğınlar o qədər kütləvi xarakter aldı ki, tarixçiləri bu münaqişəni «erməni-müsəlman müharibəsi» kimi qiymətləndirdilər.

Erməni siyasi təşkilatlarından ən çox amansızlığı ilə fərqlənən «Daşnaksutyun» Qafqazın mərkəzi Tiflisdə yerləşərək «Türkiyə və İran Ermənistanlarını» "qurtarmaq" üçün çalışırdı. Halbuki bütün Avropa dövlətləri Türkiyə hüdudlarında «Böyük Ermənistan» yaradılmasının mümkün olmadığını başa düşmüşdülər. «Daşnaksutyun»un 1909-cu ildə qəbul etdiyi proqrama Qafqaz Ermənistanı da daxil edilmişdi. Lakin Qafqazda ermənilərin vəziyyəti dövlət qurmaq üçün əlverişli deyildi. 54 qəzadan ibarət Cənubi Qafqaznın yalnız 5 qəzasında ermənilər əksəriyyəti

təşkil edirdilər. 1905-ci ildə ermənilər silaha sarılaraq Şimali Azərbaycanın qərb bölgələri də daxil olmaqla azərbaycanlıları qırmağa başladı.

Gürcü sosialistlərindən Karibi yazırdı: «Erməni inqilabçılarının, xüsusən «Daşnaksütyun» firqəsinin zühuruna qədər Cənubi Qafqazda sülh və səlamətlik hökm fərmanı idi… Bu müddət ərzində qanlı bir hadisə şəklində milli ədavət görünməmişdir… Daşnaklar gəldilər və gələcək ermənilər üçün sırf ermənilərlə məskun bir ərazi yaratmaq istədilər. Patriarxal Qafqaz kəndlərinə milli ədavət və nifrət hisləri doldu. Ermənilərin silah oynatmalarına türklər də eyni şəkildə cavab verdilər» [30, s. 49]

Qafqaz canişini, ermənipərəstliyi ilə tanınan İ.İ.Vorontsov-Daşkov Rusiya İmperatoruna göndərdiyi məruzənin 12-13-cü səhifələrində ermənilərin işğalçılıq siyasətini etiraf edirdi: «Daşnaksutyun» firqəsinin bu hərəkəti sırf ermənilərlə məskun bir erməni ərazisi vücuda gətirmək qayəsini güdür. Bununla gələcək Ermənistanın muxtariyyəti üçün əlverişli bir zaman hazırlamaq istəyir» [30, s. 49]

Bu partiyaını məşum fəaliyyəti nəticəsində Şimali Azərbaycanın qərb bölgələrində yüzdən artıq türk müsəlman kəndi dağdılmış,əhalisi qırğınlara və talanlara məruz qalmışdı.

«Daşnaksutyun» təşkilatının törətdiyi qırğınlar Şimali Azərbaycanda və bütün Zafqaqaziyada müsəlman icmasının möhkəmlənməsinə səbəb oldu. Birləşmək arzusu Cənubi Azərbaycana da sirayət etdi.

Ermənilərin yerli əhaliyə nifrəti böhranlı anlarda açıq düşmənçiliyə keçdi. 1905-1907-ci illər inqilabının gedişində çarizmin təhriki ilə erməni-azərbaycanlı qırğınları törədildi. «Daşnaksutyun» xüsusi silahlı dəstələr yaratdı, Bakıda, Qarabağ regionunda və Cənubi Qafqazın digər şəhərlərində erməni-azərbaycanlı qırğınları törətdi.

Ermənilərin azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi və törətdikləri kütləvi qırğınlarda növbəti mərhələ Birinci dünya müharibəsi illəri oldu. Çarizm müharibə illərində «Türkiyədə yaşayan qardaşlarının azad edilməsi» şüarı altında erməni silahlı dəstələrini gücləndirdi. Bu dəstələr Anadoluda və Cənubi Azərbaycanda dinc türk əhaliyə qarşı kütləvi qırğınlar törətdilər.

Qafqaz cəbhəsində hərbi əməliyyatlar zonasından çoxlu sayda

erməni Cənubi Qafqaza gəldiyi bir zamanda Qafqaz canişini Qafqazda torpaq islahatı aparmağı düşünürdü. Bu islahatın məqsədi barədə Rusiya Dövlət Şurasının üzvü A.M.Eristov «Birjevıe vedomosti» qəzetində dərc edilmiş məqaləsində yazırdı: «Görməmək mümkün deyildir ki, söhbət yalnız başdan-başa bircə erməni ərazisi yaradılması haqqında gedir» [20].

«Difai»nin rəhbərləri «Daşnaksutyun»a müxalif üzvlər ilə əlaqə saxlayır, azərbaycanlı döyüş dəstələrinə himayədarlıq edir, millətpərəst təşkilat kimi düşmənlərə qarşı amansız mübarizə aparırdı.

1905-ci il noyabrın 27-də Şimali Azərbaycanın qərb bölgəsində Lorudakı Allahverdi Elyar misəritmə zavodunda ermənilər azərbaycanlı fəhlələrə qarşı kütləvi qətllər törətdilər. Zavodda çalışan işçilər «Daşnaksutyun» tərəfindən törədiləcək qətliam barədə əvvəlcədən məlumatlandırılır və onlar işə çıxmırlar. Həmin gün böyük bir silahlı erməni dəstəsi zavodu mühasirəyə alır və onun 16 nəfər azərbaycanlı işçisini qətlə yetirir [4, v. 1]

Bu bölgədə azərbaycanlılara qarşı soyqırımın qarşısını Borçalıda erməni quldurlarına qarşı baş qaldırmış xalq hərəkatı alır. Xalq hərəkatının iştirakçıları Qarayazıda, Başkeçiddə və Sarvan ətrafında «Daşnaksutyun»u maliyyələşdirən varlı erməni sahibkarlarının obyektlərini fermalarını, xutorlarını, zavodlarını dağıdırlar.Çox keçmir ki, hərəkat genişlənir. Dərhal bölgədə Borçalıda, Qazaxda, Qarayazıda yaşayan döyüşkən qarapapaq türkləri dəstə toplayıb daşnakçılara qarşı durdular» [21, s. 43]

Lakin bununla belə canişin Vorontsov Daşkov Cənubi Qafqazda «erməni məsələsi»nə toxunarkən erməni «Daşnaksutyun» partiyasının fəaliyyəti, onunla mübarizə tədbirləri üzərində dayanarkən qeyd edirdi: Nəzərə almaq lazımdır ki, bu təşkilatın Qafqazda güclü inkişafı 1903-cü ilə gedib çıxır. O, erməni xalqının separatizmdə təqsirləndirməyin əksinə onların Rusiyaya sadiqliyini sübut etməyə çalışırdı [17, v. 5]. Halbuki tarixi faktlar göstərir ki, Yelizavetopol quberniyasında antirus, antihökumət fəaliyyətlə və həmçinin «erməni məsələsi»lə məşğul olan çoxlu erməni dərnəkləri mövcud idi [11, v. 1]

Buna görə də Azərbaycan tarixçisi H.Y.Verdiyeva haqlı olaraq Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovun şərhini, yersiz əsaslandırmalarını onun ermənipərəst əhval-ruhiyyəsi, eləcə də antimüsəlman və

antiazərbaycan mövqeyi ilə izah edir [23, s. 130]

Rusiyanın rəsmi hakimiyyət orqanları hələ XIX əsrin sonlarında erməni «Daşnaksutyun» partiyasının antirus fəaliyyəti gücləndiyini, rus hakimiyyət orqanlarına qarşı və ermənilərin gizli hərəkətlərini aşkar edərək onların siyasi cəhətdən etibarsızlığını sübut etdilər. Erməni kilsəsi, «Daşnaksutyun», hətta erməni xeyriyyə cəmiyyətləri və ictimai təşkilatlarının erməni milli hərəkatı ilə bağlılığına «Daşnaksutyun»un bu hərəkatda əsas rol oynadığını təsdiqləyən çoxsaylı faktlar aşkar olundu [8, v. 4]

Erməni kilsəsi, ictimai, siyasi və digər təşkilatların fəaliyyətinə rəsmi hakimiyyət orqanlarını adekvat cavab tədbirləri görməyə məcbur oldu.

Rusiyanın müxtəlif bölgələrində ermənilər və kazaklar arasında toqquşmalar baş verirdi [13, v. 6, 8] Erməni «inqilabçıları» «çarı özlərinin ən barışmaz və qatı düşmənləri elan etdilər» [13, v. 7]

Şimali Azərbaycanın qərb bölgələrində də ermənilər ruslara qarşı terror və sui-qəsd təşkil etdilər. Erməni terror təşkilatları, xüsusən «Daşnaksutyun» yalnız Qafqaz administrasiyasının rus mənşəli məmurlarını deyil, onların tələblərinə tabe olmayan ermənilərı də fiziki cəhətdən məhv edirdilər.

Arxiv materialları da təsdiq edir ki, erməni təşkilatları erməni-azərbaycanlı münaqişəsində «əhalisi qarışıq ərazilərdən azərbaycanlıları təmizləmək məqsədi güdürdü. Onlar qırğınlar zamanı Yelizavetpol quberniyasının xeyli hissəsində bu məqsədi həyata keçirdilər» [6, v. 13]

B.F.Mayevski erməni-azərbaycanlı qırğınının əsas səbəbkarlarının erməni gizli təşkilatları və komitələri olduğunu göstərir: «Onların ən əsas qanlı toqquşmalarda iştirakı heç bir şübhə doğurmayan faktdır. Və beləliklə, aydın oldu ki, Qafqazın indiki münasibətlərində ilk növbədə də ermənilərin özləri günahkar olublar» [33, s. 17]

B.F.Mayevski millətçi erməni təşkilatlarının iç üzünü açaraq onların dağıdıcılıq, quldurluq, terrorçuluq fəaliyyətini sübut edirdi:«Ümumiyyətlə sülhsevər tendensiyalar «Daşnaksutyun»a xas deyil… O, həmişə müdafiədə yox, hücumda olub… Özümə sual verirəm ki, ermənilərin gizli təşkilatlarının fəaliyyəti ermənilər üçün hələ maddi tələfat demirəm, nə qədər göz yaşları, nə qədər insan təsərrüfatına başa

gəlib? Və əgər «Daşnaksutyun» və onun kimi təşkilatlar olmasaydı, ermənilər yoldan çıxmasaydılar, necə firavan yaşayardılar, necə parlaq mövqedən istifadə edərdilər» [32, s. 17] B.Mayevskinin xatirələri həm də ona görə qiymətlidir ki, o, ermənilərin Osmanlı dövləti ərazisində hansı qırğınları törətdiyinin,insanlığa sığmayan qaniçən əməllərinin canlı şahidi olmuşdu.

Tiflisdə 1906-cı il fevralın 20-dən martın 6-dək canişin İ.İ.Vorontsov Daşkovun sədrliyi ilə Cənubi Qafqazın azərbaycanlı və erməni nümayəndələrinin Sülh qurultayı keçirildi. Sülh qurultayında çıxış edən Azərbaycan nümayəndələri Ə.Ağayev, İ.Hacıyev, Ə.Topçubaşov çarizmin müsəlman xalqlarına, xüsusən azərbaycanlılara qarşı müstəmləkəçilik siyasəti yeritdiyini, xristianlara, xüsusən ermənilərə imtiyazlar verdiyini, erməni təşkilatlarının terror, qorxu yolu ilə təmizləmə siyasətini, erməni-Azərbaycan qırğınını təşkil etdiklərini faktlarla sübut etdilər.

Ə.Ağayev Sülh qurultayındakı çıxışında Rusiya imperiyasının ermənipərəst siyasətini kəskin tənqid etdikdən sonra bir millətin öz milli maraqları naminə və başqa millətin maraqlarının ziddinə vəzifəli şəxslərə terror etdiyini, bunun nəticəsində vəzifə adamlarının qorxunun təsiri altında xalqlara qarşı ədalətli münasibətini itirdiyini qeyd etdi. O, müsəlman əhalinin məhz bu cür terrordan əziyyət çəkdiyini və onu həyata keçirən erməni "inqilabi" təşkilatına qarşı silahlı mübarizəyə qalxdığını vurğulayıb, bu təşkilatlar mövcud olana qədər əmin-amanlığın əldə olunmasının mümkünsüzlüyünü göstərdi [21, s. 177]

İ.Hacıyev çıxışında özünümüdafiəyə keçməyin zəruriliyini qeyd edərək dedi: «Bütün imtiyazları ermənilər vermək olmaz axı. Mədəniyyət, təhsil, mətbuat sahəsi onlardadır, hələ bir bombalı inqilabi təşkilatlar da, bizim isə yeganə ümidimiz hakimiyyət tərəfindən qorunmamızdır, terrorla bunu da əlimizdən alırlar. O həddə çatdırmayın ki, biz də bombalara əl ataq» [21, s. 177]

Ə.Topçubaşov erməni-azərbaycanlı qırğınının terror zəminində başlandığından erməni terrorçu təşkilatlarının fəaliyyətinin qadağan olunmasını tələb etdi [21, s.177].

Sülh qurultayına təqdim olunan «Müsəlman nümayəndələrinin proqramı»nın 7, 8, 9-cu maddələrində «Daşnaksutyun» və digər erməni

təşkilatlarının ləğv olunması tələb edilirdi:

7. Vəzifəli şəxslərin üzərlərinə düşən xidməti funksiyaları lazımi qaydada və maneəsiz yerinə yetirilməsinə təminat verən tədbirlərin görülməsi;

8. Müsəlmanlar yaşayan bölgələrdə yerləşən hərbi hissələrdə aşağı rütbəli erməni əsgərlərinin saxlanılmaması;

9. Tərəflərin milli zəminində cinayət törədən canilərin verilməsinə boyun olması [21, s. 169].

Təəssüf ki, bu sülh qurultayı ondan gözlənilən ciddi nəticələri vermədi.Lakin hər cür təhdid və silahlı təcavüz qarşısında gözlənilməz vəziyyətdə qalan müsəlmanların mövqelərinin səsləndirilməsi və tələbləri baxımından sözsüz ki,bu qurultayın əhəmiyyəti az olmamışdır.

M.B.Məmmədzadə yazırdı ki,«mütəşəkkil bir əsgəri qüvvəyə malik, eyni zamanda yeni silahlarla, hətta toplarla mücəhhəz «Daşnak» firqəsi bir tərəfdən silah gücü ilə, bütün ermənilər, digər tərəfdən də Qafqaz hökumətini kəndlərinə tabe edib, ən ümdə məqsədi təqib edir: o da Qafqaz daxilində bütün müsəlmanları qırıb bitirdikdən sonra onların yerini işğal etməkdir. Ermənilərin bu məqsədlərinə nail olduqdan sonra məqsədləri Qafqaziyada erməni xalqı üçün milli, müstəqil bir idarə yaratmaqdır. Firqəmizin başlıca məqsədi ayrı-ayrı Qafqazya xalqları arasında səmimi qardaşlıq və birlik yaratmaqdadır. Hərgah «Daşnak» firqəsi namus və səmimiyyətlə öz hərəkət və fəaliyyətinin həqiqi proqramını aşkar söyləsə və əgər bu proqram ayrı-ayrı Qafqazya millətlərinin hürriyyət və istiqlallarına təcavüz edəcəkləri maddələri əhatə etməzsə o zaman biz öz birlik əlimizi həmişə onlara uzatmağa hazırıq. O, qabaqda olduğu kimi müsəlmanların üstünə xain və qəddarcasına hücumlarına davam edərsə, bizdən layiqli cavabını alar. Qafqazya bitmək-tükənməz qanlı bir halına düşər.

«Daşnak» firqəsi əmin olsun ki, heç bir vaxt biz öz millətimizin xarabazarlığı və külü üzərində erməni millətinin səadət və xoş güzaranlıq qurmasına yol vermərik [8, s. 40]. Bütün bunlara baxmayaraq 1905-1906-ci illərdə «Daşnaksutyun» Cənubi Qafqazın və Şimali Azərbaycanın erməni əhalisinin öz diqqətini öz üzərinə çəkə bilmişdi.Bu partiya o dövrlərdə dəbdə olan inqilabı sosialist şüarları arxasında gizlənərək etnik təmizləmə, “Böyük Ermənistan” yaratmaq kimi məkrli niyyətlərini həyata

keçirməyə çalışrdı.

XX əsrin əvvəllərində «Osmanlı imperiyasından Tiflis və Yelizavetpol quberniyalarına köçürülmüş, eləcə də əvvəllər burada yaşamış ermənilər arasında oyanma, narazılıq artırdı» [9, v. 12] Sözsüz ki,bu narazılığa ciddi bir əsas yox idi.Çünki Qafqazın yerli müsəlman əhalisindən fərqli olaraq xristian,xüsusilə erməni əhalisi üçün Rusiya imperiyası tərəfindən yaradılan həyat şərtləri onların ictimai iqtisadi fəaliyyətləri üçün münbit şərait yaratmışdı.

Lakin artıq Avropa dövlətlərinin də maraq dairəsinə düşmüş erməni məsələsinin "müsbət" həlli üçün «Daşnaksutyun» özünün antiazərbaycan taktikasını açıq-aydın bəyan edirdi: «Hökumətlə müharibəni münasib olduqda Tiflis və ya hətta Peterburqa keçirə bilərik, tatarlarla (azərbaycanlılarla-red.S.H) müharibəni isə başqa yerə keçirmək olmaz» [2, v. 52]

Onu da qeyd etmək lazımdır ki, 1905-1907-ci illərdəki məğlubiyyətlərdən sonra ermənilərin bir qismi arasında «Daşnaksutyun» partiyası nüfuzdan düşdü. Şimali Azərbaycan ermənilərinin bir qismi «Daşnaksutyun»un əleyhinə çıxdı: «Cənubi Qafqazın erməni əhalisi arasında Osmanlıdan gəlmələrə maraq və yardım o həddə qədər azaldı ki, vaxtilə «Daşnaksutyun» tərəfindən yerli ermənilərin evlərində yerləşdiyi Osmanlıdan gəlmə silahlıları onlar qovdular» [5, v. 8]

Azərbaycan tədqiqatçısı H.Y.Verdiyeva tarixi faktlar əsasında «Daşnaksutyun»a bu münasibətin bir neçə səbəbini göstərir: Birincisi, bütün 1907-ci il ərzində «Daşnaksutyun» partiyası MK-nın qərarı ilə bir sıra görkəmli ermənilərin qətli təşkil edilmişdi ki, bu isə erməni əhalisi arasında etirazla qarşılanmışdı. İkincisi, «Daşnaksutyun»un rəhbərləri maliyyə fırıldaqları və partiya pullarını mənimsəməkdə ifşa olundular» [23, s. 134-135] Buna toqquşmalar nəticəsində daşnakların felinə uymuş sadə ermənilər arasındakı itkiləri də əlavə etsək, 1905-1906-cı illərdə qanlı hadisələrin törədicisi və bilavasitə səbəbkarı olan bu partiyanın mövqelərinin zəifləməsinin səbəblərini tamamlamış olarıq.

«Daşnaksutyun» partiyasına belə münasibətin yaranması onu manevr etməyə məcbur etdi. Belə ki, 1910-cu ildə daşnaklar öz proqramlarından erməni xalqının muxtariyyəti haqqında ideyasını çıxartdılar, onu uzaq gələcəyin işi elan etdilər [23, s. 134-135] Sözsüz ki,

bu addım çar hakimiyyət orqanlarının da təzyiqlərini müəyyən qədər azaltmaq üçün taktiki gedişdən başqa bir şey deyildi.Bunu I Dünya müharibəsi ərəfəsindəki yaranmış beynəlxalq siyasi vəziyyətlə də əlaqələndirmək olar.Yaxınlaşan müharibə daşnaklara Rusiya hakim dairələri ilə münasibətlərdə daşnakları ehtiyatlı olmağa vadar edirdi.

Birinci Dünya müharibəsi ərəfəsində «erməni məsələsi» Rusiya hakim dairələri üçün xüsusi əhəmiyyət kəsb etdi. «Böyük Ermənistan» ideyasına, güclü dövlətlərin və erməni təşkilatlarının münasibətlərində fərqlər özünü açıq şəkildə göstərirdi. Bəzi erməni təşkilatları yalnız Osmanlı Türkiyəsində erməni muxtariyyətinin yaranmasına qarşı çıxdılar. Rusiya mətbuatında «erməni məsələsi»nin həlli ədalətsizlik kimi qiymət-ləndirilirdi. Erməni milli inqilabçıları Rusiyanın köməyi ilə Birinci Dünya müharibəsində könüllü dəstələr yaratdılar. Onlar əsasən Osmanlı qoşunundan qaçan fərari ermənilərdən təşkil olunmuşdu.«Daşnaksutyun» könüllülərə silahı yaratmağı, «Ermənistanın muxtariyyətindən imtina etdiyi təqdirdə Rusiya ilə silahlı mübarizə aparmağı» tələb etmişdi.

Yarandığı gündən indiyədək «Daşnaksutyun» azərbaycanlıların və bütün türk dünyasının ən qanlı düşməni olan erməni təşkilatıdır. Azərbaycanın görkəmli yazıçısı M.S.Ordubadi «Qanlı sənələr» əsərində erməni – azərbaycanlı münaqişəsinin dörd səbəbini göstərirdi.

1. Erməni «Daşnaksutyun» Komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdi ki, Qafqazda bir sıra qanlı terrorlar oynadı;
2. Məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığı;
3. Müsəlmanların elmsizliyi və müasir elmlərdən bixəbər olmalarıdır;
4. Ermənilərin avtonomiya idarə muxtariyyəti həvəsində olmalarıdır [9, s. 25]

Ermənilərin azərbaycanlılara məxsus ərazilərə yerləşdirilməsi milli ziddiyyətləri kəskinləşməsinin əsas səbəblərindən biri olmuşdur. Qafqaz canişinliyi xüsusi şöbəsinin rəisi Pisarski Rusiyanın İran ilə sərhəd komissarına 1915-ci il 28 avqust tarixli 3720 №-li məxfi məktubunda yazırdı: «Ermənilərin və azərbaycanlıların bir-birinə nifrət etməsinin səbəbi qəzalara ermənilərin yerləşdirilməsidir».

Ermənilərin Cənubi Qafqaza köçürülməsinə regionun yerli xalqları

etiraz edirdilər. Gürcülərin «Zakavkazskiy Reç» qəzeti ermənilərin Qafqaza köçürülməsini 1828-1829-cu illər müharibəsi ilə əlaqələndirir, başlıca məqsədin onlara torpaq payının ayrılması olduğunu yazırdı. Qəzet ermənilərin geriyə, öz torpaqlarına qayıtmalarının vacibliyini vurğulayır, onlara Qafqazda ərazi verməyin gərginlik yaradacağını qeyd edirdi [22]

Lakin bütün bunlara baxmayaraq, Qafqaz canişinliyinin Qaçqınların işi üzrə ali səlahiyyətli nümayəndəliyi ermənilərin azərbaycanlılara məxsus ərazilərə yerləşdirilməsini planlı şəkildə həyata keçirirdi. Bu özünü ermənilərin "himayəçisi" kimi qələmə vernəyə çalşan çarizmin müstəmləkə maraqlarına tam cavab verirdi. Erməni qaçqınlarına yardım komitəsinin sədri T.Ter-Mikaelyan Qafqaz cəbhəsinin qaçqınların yerləşdirilməsi üzrə baş səlahiyyətli nümayəndəsi general-mayor V.M.Tamamşevə 1915-ci il 18 dekabr tarixli məktubunda ermənilərin yerləşdirildiyini, onlara yemək, xəstəxana və iş xidməti göstərildiyini, işə düzəldildiyini yazırdı. Göründüyü kimi çar Rusiyası erməni kartından faydalanmaq üçün xüsusi canfəşanlıq göstərirdi.

Ermənilərin yerləşdirilməsinin və silahlı dəstələrinin yaradılmasının ağır nəticələri özünü çox da gözlətmədi. 1917-ci il fevral inqilabı nəticəsində Rusiyada Romanovlar sülaləsi devrildi. Yeni yaradılmış Müvəqqəti hökumət «erməni məsələsinə» beynəlxalq xarakter verərək onların nümayəndələrinə müharibə nəticəsində imzalanacaq sülh şərtlərinə «Türkiyə Ermənistanına» muxtariyyət verilməsi haqqında məsələni da daxil edəcəyini bildirdi. Lakin məlum olduğu kimi Rusiyada bolşeviklərin hakimiyyətə gəlişi ilə bu niyyəti həyata keçirmək mümkün olmadı.

Şimali Azərbaycanın qərb bölgəsində köçürülən rus köçkünlərinin sosial-siyasi və iqtisadi həyatında ictimai təşkilatlar mühüm rol oynamışdır. Qafqazda ali hakimiyyət administrasiyasına yaxın olan varlı dairələr Cənubi Qafqaz diyarına rus köçkünlərinin yerləşdirilməsi proqramını bəyənirdilər. Onlar xeyriyyə cəmiyyətləri yaradaraq bu prosesə öz maddi köməklərini göstərmiş oldular. 1897-ci ildə hökumət hələ Cənubi Qafqazda müvafiq qanunverici aktla leqallaşdıranadək «Köçkünlərin ehtiyaclarını ödəmək üçün cəmiyyət»in Cənubi Qafqaz şöbəsi təsis edildi. Knyaz Qolisın – Qafqazın baş mülki rəisi ona göndərilən bu şöbənin nizamnaməsinə dərkənar qoyaraq yazmışdır: «Bu cür şöbənin Cənubi Qafqaznın rus koloniyalaşdırılması üçün olduqca

arzuolunandır» [34, v. 1-55].

1899-cu ildə uzun müzakirələrdən sonra Cənubi Qafqaz şöbəsinə Tiflis şəhərində bina verildi [33, s.33]. Bina Tiflisin kənarında, şəhərdən hərbi Gürcüstan yoluna çıxan yerin yaxınlıqda yerləşmişdi. Qaçqınlar üçün müvəqqəti sığınacaq rolunu oynayır, qaçqınlara pulsuz daldalanacaq, ərzaq alır və onlara burada tibbi yardım göstərilirdi.

Cəmiyyət Daxili İşlər Nazirliyinə tabe edilmişdi. Nazirliyin təsdiq etdiyi Nizamnaməyə əsasən Cənubi Qafqaz şöbəsinin vəzifələri aşağıdakılardan ibarət idi:

- Müvəqqəti işləmək üçün Cənubi Qafqazya gəlmiş rus kəndlilərinə və köçkünlərinə qayğı göstərən hökumətə yardım etmək;

- Vəsaitlə, pul ssudası (borc) müxtəlif əşyalarla maddi yardım etmək, tibbi yardım göstərmək, gecələmək yerləri, yeməkxanalar təsis etmək, köçkünlərin məskunlaşdıqları yaşayış məskənlərində məktəb, məbəd, kiçik kilsələrin, ibadət evlərinin tikilməsi və s. [33,s.34].

Qafqaz administrasiyası cəmiyyətin öz nizamnaməsinə ciddi riayət etməsini tələb edir və onun öz səlahiyyətlərini azacıq da olsa genişləndirməsinə imkan vermirdi.

Qafqazın Baş mülki rəsinin fikrincə, Cənubi Qafqaz şöbəsi bəzən köçkünlər üçün sahələr müəyyən edərkən rəhbər edici və bölüşdürücü rolu öz üzərinə götürür, diyara xüsusi icazəsi olmayan gələnlərə icazə verilməsini xahiş edirdilər. Cəmiyyətin nizamnaməsinə görə, Qafqazın mülki hissəsinin Baş rəisi cəmiyyətin fəxri üzvlüyü hüququndan istifadə etməklə iclaslara və ya komitələrə sədrlik edə bilərdi. Bundan başqa Baş Vali Cəmiyyətdə hərc-mərclik olduğu və nizamnamə pozulduğu hallarda onu bağlaya bilərdi [33, s. 34]

Cənubi Qafqaz şöbəsi ilə birlikdə 1828-ci ildə «Daxili quberniyalardan köçənlər və fəhlələrin ehtiyaclarına kömək edən «Bakı cəmiyyəti» də yarandı. Onun təsis olunmasının səbəbi o idi ki, Bakı şəhəri, Bakı və Dağıstan quberniyalarının digər məntəqələri vasitəsilə Rusiyanın daxili quberniyalarından Cənubi Qafqaz və Zakaspi (Xəzərarxası) diyarlarına qaçqınlar ya daimi yerləşmə və yaxud da müvəqqəti iş üçün gəlirdilər. Bu zaman Bakı qubernatoru bu «Cəmiyyət»in yaradılmasını sürətləndirirdi ki, birincisi, Bakı şəhərində

«bəzən daxili quberniyalardan gələn qaçqınlar və fəhlələr kütləsi toplaşırdı, ikincisi yazın gəlişilə və nəqliyyatın açılışı ilə qaçqınların və fəhlələrin hərəkəti artırdı [35, v.1-1].

«Bakı cəmiyyəti»nin nizamnaməsi 1898-ci ildə təsdiq edildi. Bütün bu xeyriyyə cəmiyyətləri, şübhəsiz ki, Şimali Azərbaycanın qərb bölgələrindəki köçkün ruslara da yardım edirdi.

1902-ci ildə Köçürmə idarəsinin rəisi vəzifəsini icra edən A.V.Krivoşin «Qafqazda köçürülmə işlərilə tanış olmaq, onların ehtiyaclarını öyrənmək məqsədilə ilk dəfə Qafqaza səfər etdi. O, «Rus köçkünlərinə yardım cəmiyyətinin» Cənubi Qafqaz şöbəsinin fəaliyyətindən razı olduğunu bildirdi. Hələ Qafqazın köçkünlər üçün rəsmi icazə verilənədək, bu barədə qanunun dərc olunmasını gözləmədən Cənubi Qafqaz şöbəsi Şimali Azərbaycanın qərb bölgəsindəki Qarayazı qəsəbəsində (qəsəbə artıq Tiflis quberniyasına qatılmışdı) ona müraciət edən geniş kəndli kütləsi üçün sərbəst torpaq sahələrinin siyahısını tərtib etmişdi [27, s. 119].

Köçürülmə işinə hərbi hakimiyyət orqanları da biganə qalmırdılar. Onlar yolçulara pul vəsaiti ilə kömək edir, onlara izahat verirdilər. Rus köçkünləri ölkədə baş verən siyasi proseslərə də biganə deyildi. Bolşeviklər Rusiyadakı sektantçılıq-təriqətçilik hərəkatını «demokratik cərəyanın təzahürlərindən biri» hesab edir, onları sosial-demokratiyaya cəlb etmək istəyirdilər. Şimali Azərbaycanın qərb bölgəsində Yelizavetpol və Qazax qəzalarında kəndlilərin çıxışları baş verirdi [28, s.25].

Çar hökuməti, sağ partiyalar Qafqazın millətçi əhval-ruhiyyəli partiyalarının müstəqillik meyllərinə görə Qafqazı itirəcəklərindən ehtiyat edirdilər. Bununla əlaqədar olaraq liberalların sağ qanadın nümayəndələri- «17 oktyabr İttifaqı» «Qafqaz sorğusunu» III Dövlət Dumasına müzakirəyə təqdim etdilər. Onlar Qafqazda baş verən hadisələrdə Qafqaz administrasiyasını fəaliyyətsizlikdə günahlandıraraq onun ali hakimiyyətinin yenisi ilə dəyişdirilməsini tələb etdilər.

III Dövlət Dumasının 2-ci iclasında Qafqazdakı yerli kəndlilərin ağır vəziyyəti, yerli hakimiyyət orqanlarının rüşvətxorluğu, satqınlığı, hüquq normalarının pozulduğu, zorakılığa yol verildiyi, hətta milli mədəni-maarifçi təşkilatların belə təqib olunduğu faktları aşkar olundu [29, s. 90] «17 oktyabr İttifaqı» fraksiyasının 30 üzvünün ərizəsi nəzərdən

keçirildi və 66 nəfərdən ibarət Xüsusi Köçürmə Komissiyası təsis olundu.

Komissiyaya Qafqaz inzibati ərazi vahidindən seçilmiş III Dövlət Dumasına seçilmış 9 deputatdan 4-ü, habelə Cənubi Qafqaznın rus əhalisinin seçdiyi sağ fraksiyaların nümayəndəsi F.F.Timoşkin də daxil edildilər. Deputat Timoşkin Qafqazda yeni köçkünlərin yerləşdirilməsinin tərəfdarı idi. Dövlət Duması Timoşkinin təklifini qəbul edib, orada rus köçkünlərinin yerləşdirilməsini qərara aldı [24, s. 232]

Şimali Azərbaycanın qərb bölgəsində rus köçkünləri arasında iki meyl vardı: onlardan bəziləri bolşeviklərə qoşularaq beynəlmiləl mövqe tutdular, digərləri isə «Vahid və ayrılmaz Rusiya» tərəfdarları idilər. Muğanda keçmiş cəbhəçilərdən və rus köçkünlərindən ibarət partizan dəstələri də fəaliyyət göstərirdi [22, s. 373].

Beləliklə, göründüyü kimi köçkünlərin Şimali Azərbaycanda yerləşməsinin və ictimai-siyasi təşkilatlarının spesifik xüsusiyyətləri vardır. Alman koloniyaçılarının məskunlaşdıqları yerlərdə yaranmış xeyriyyəçi cəmiyyətləri, yoldaşlıq cəmiyyətləri xeyirxah məqsədi həyata keçirirdi. Almanlar ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmiş,Azərbayacana köçürülmüş digər etnik vahidlərdən fərqli olaraq öz maraqlarını yerli əhalinin mövqeləri ilə uzlaşdıra bilmiş və ikinci vətənləri olan Azərbaycana bu və ya digər şəkildə öz xidmətlərini göstərmişdilər.

Erməni köçkünləri haqqında isə bunu demək mümkün deyil.Onlar əksinə, özlərinin terrorçu ictimai-siyasi təşkilatlarının rəhbərliyi,eləcə də erməni kilsəsinin də "xeyir-duası" ilə bütün Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanın qərb bölgəsində də qırğınlar törədir, etnik təmizləmə və ermənləşdirmə siyasətini həyata keçirirdilər.

Şimali Azərbaycanın rus köçkünləri Rusiya dövlətinin və xeyriyyə fondlarının himayəsi və qayğısını ildə çarizmin xristian etnoloji sosial bazasına çevirməklə yanaşı, həm Dövlət Dumasına öz deputatlarını seçərək, həm də sağ yönümlü partiyalara, eləcə də bolşeviklərə qoşularaq müxtəlif siyasi meylləri ilə fərqlənmişdilər.Lakin onu da vurğulamaq lazımdır ki,rus köçkünlərinin yaratdığı təşkiltaların arasında mövqeləri və imperiyaya,eləcə də Azərbaycana və onun yerli əhalisinə münasibət bir mənalı olmamışdır.Xüsusilə Azərbaycanın qərb bölgələrinə köçürülən təriqətçi ruslar yerli əhali ilə daha sıx münasibətlər qurmuş,onlarla xeyli dərəcədə qaynayıb qarışmışdılar.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. ARDA, f. 46, təs. 2, iş 76, v. 26
2. ARDA. f. 46, təs. 2, iş 154, v. 4
3. ARDA, f. 508, təs. 1, iş 388, v. 1, 16-31
4. ARDA, f. 115, iş 522, v. 1,
5. ARMTNA, P-673, s. 18
6. ARPİİSSA-(Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi), f. 276, t. 9, iş 1, v. 82
7. ARPİİSSA, f. 276, t. 9, iş 1, v. 82, Газета «Гнчак», 1907, № 9, 10
8. ARPİİSSA, f. 276, t. 8, iş 18, v. 4
9. ARPİİSSA, f. 276, t. 8, iş 33, v. 12
10. ARPİİSSA, f. 276, t. 8, iş 33, v. 6
11. ARPİİSSA, f. 276, t.8, iş 35, v. 1
12. ARPİİSSA, iş 256, v. 52
13. ARPİİSSA, f. 276, t. 8, iş 60, v. 6, 7,8
14. ARPİİSSA, f. 276. t. 8, iş 263, v. 3; f. 259, v. 19-20v. 97 v. 97
15. ARPİİSSA, f. 276, t. 8, iş 265, v. 8
16. ARPİİSSA, f. 236, t.8, iş 269, v. 13
17. ARPİİSSA, f. 276, t.8, iş 367, v. 5
18. Məmmədzadə. M. Azərbaycan milli hərəkatı. Bakı: Nicat, 1992, 246 s
19. Ordubadi M.S.. Qanlı sənələr. Bakı: Qarabağa Yardım Komitəsi (QYK), 1995, 20 s.)
20. shusha. az: Ermənilərin Azərbaycan torpaqlarına yerləşdirilməsi və nəticələri 828-1920)
21. Valehoğlu. F.H. Tiflis quberniyasında azərbaycanlılara qarşı 1905-ci il kütləvi qırğınları. Bakı: Turxan, 2013, (240 s.)
22. Борьба за победу Советской власти Азербайджане (1918-1920). Документы и материалы. Баку: Наука, (470 s.)
23. Вердиева Х.Й.: Переселенческая политика Российской империи в Северном Азербайджане XIX – начале XX вв. Баку, 1999, (300)
24. Государственная Дума Третьего Созыва: Стенографические отчеты. СПБ, 1912, (424 s.)
25. Джафарли М.Ш. Политический террор и судьба азербайджанских немцев Баку: Шарг-Дизайн. 1998, (314 s)
26. Зейналова С.М. Формирование европейских этнических обшил на Кавказе (XIX – первая половина XX вв.) Баку: Мутарджим, 2010, (300 s.)
27. Исмаилзаде Д.И. Русское крестьянство и Закавказье (30-е годы XIX – начало XX гг.), Москва, 1982,(290 s.)
28. Ибрагимов З.И. Революция 1905-1907 гг в Азербайджане, Баку: Элм, 1955, (210 s.)
29. Кавказский запрос в Государственой Думе: Полные речи всех ораторов по официальны стенограмом. Тифлис, 1909, 80 s.)
30. Кариби. Красная книга, Тифлис, 1921, 90 s.)
31. Лазарев М.С. Курдский вопрос в 1891-1917 годах. Москва: Изд-во Восточной литературы. 1977, (276 s.)
32. Маевский Б.Ф. Армяно-татарская с мута на Кавказе - Как один фазисов армянского

вопроса. Баку: Наука, 1993, 70 s)
33. Устав Закавказского общества вспомоществования русским переселенцам. (ЗОПВРП) Тифлис, 1899, (70 s)
34. ЦГИА РФ, 391, оп. 2, д. 239 «Об утверждении уставов Московского и Закавказского отделении общества для вспомоществований нуждающимся переселенцев». л. 1-55 об.
35. ЦГИА РФ. 391, оп. 2, д. 483, л.1-1

С.Гусейнова

СОЗДАНИЕ И ДЕЯТЕЛЬНОСТЬ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ОРГАНИЗАЦИЙ ПЕРЕСЕЛЕНЦЕВ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ

РЕЗЮМЕ

Проводимая Российской империей переселенческая политика не прошла бесследно для общественно-политической, социально-экономической и этнокультурной жизни Северного Азербайджана. Созданные под влиянием политических событий в России общественно-политические организации недавних переселенцев сыграли неоднозначную роль в общественной-политической и культурной жизни Северного Азербайджана. Среди них особо надо выделить деятельность армянских политических партий и организаций, которые в начале XX века спровоцировали межнациональные столкновения в Северном Азербайджане, приведшие к гибели сотен безвинных азербайджанцев.

S.Huseynova

ESTABLISHMENT AND OPERATION OF PUBLIC AND POLITICAL ORGANIZATIONS OF IMMIGRANTS IN NORTHERN AZERBAIJAN

SUMMARY

Held by the Russian Empire immigration policy not been in vain for the socio-political, socio-economic and ethno-cultural life of Northern Azerbaijan. Created under the influence of political events in the Russian socio-political organizations of recent immigrants have played an ambiguous role in the social, political and cultural life of Northern Azerbaijan. Among them it is necessary to highlight the activities of the Armenian political parties and organizations, which in the early twentieth century provoced ethnic clashes in northern Azerbaijan, which led to the deaths of hundreds of innocent Azerbaijanis.

1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİ İLLƏRİNDƏ BAKI DƏNİZ LİMANI VƏ YÜKDAŞIMALARIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI

Günay HÜSEYN

Açar sözlər: 1941-1945-ci illər, Bakı limanı, düşmən, təhlükəsizlik
Key words:1941-1945 years, the Baku port, safety, enemy
Ключевые слова: 1941-1945 годы, Бакинский порт, безопасность, враг

1941-ci il iyun ayının 22-də faşist Almaniyası SSRİ-yə hücum etməsi ilə İkinci Dünya müharibəsi yeni bir mərhələyə qədəm qoydu. Müharibənin başlanması ilə əlaqədar Sovet hakimiyyəti iyun ayının 22 və 23 də hərbi vəzifəli adamların orduya səfərbər edildiyini, ölkənin hərbi vəziyyətə keçirildiyini, döyüş sursatı planına dair səfərbərlik planı tətbiq edildiyini elan etdi. 1941-ci il iyunun ayının 30-da Stalin başda olmaqla Dövlət Müdafiə Komitəsi yaradıldı. Ölkədə bütün hakimiyyət, hərbi və təsərrüfat rəhbərliyi bu orqanın əlində cəmləndi [10. 64]. Müharibənin ilk mərhələsində Xəzər dənizindəki limanların, o cümlədən Bakı limanında hərbi təhlükəsizliyin təmin olunması ən başlıca vəzifələrdən biri idi. Təhlükəsizliyin təmin olunması ilə əlaqədar limanda bir sıra müdafiə məqsədli tikinti işlərinə başlanmış, burada yeni avadanlıqlar quraşdırılmış, 18 və 19 saylı gəmi tərsanələri Xəzər Hərbi Donanmasına verilmişdi. Limanın elektrik mərkəzləri, telefon stansiyaları və digər obyektlər dağıdıcı vasitələrdən mühafizə üçün qoruyucu vasitələrlə möhkəmləndirilir, anbar və istehsalat binaları oddan mühafizə boyaları ilə rənglənirdi [4. s.61].

Düşmən təyyarələrinin hücumu təhlükəsi ilə qarşılaşacağını nəzərə alaraq Bakı limanının mühafizəsi artırıldı. Sutkaboyu növbətçilik aparılır, yanğınsöndürənlərin işi gücləndirilirdi. SSRİ Xalq Komissarlığı Soveti 28 iyun 1941-ci ildə "Hava hücumu və kimyəvi silahlar əleyhinə əhalinin məcburi hazırlığı" adlı qərar qəbul etdi və Dəniz Donanması Xalq Komissarlığı bütün gəmi və liman işçilərinin də bu hazırlığı öyrənmələri

---

Günay Hüseyn - AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

əmr etdi. 1 iyuldan 6 iyula qədər bütün Xəzər gəmiçilik idarələri və müəssisələrində "Donanma və sahilboyu müəssisələrin şəxsi heyətlərin hərbi hazırlıqlarının təşkili" əmri nəşr edildi [17.s.18-19]. Liman, gəmi və zavodlarda özünümüdafiə qrupları təşkil edildi. 1941-ci il iyulun ortalarında dəniz nəqliyyatının gəmi və müəssisələrində "Hava hücumu və kimyəvi silahlardan müdafiə hazırlığı" dərnəkləri təşkil olundu.

Bakı liman rəhbərliyinin 12 iyul 1941-ci il qərarı ilə limanın xalq bölükləri yaradıldı. Bölük tezliklə böyüdü və 1 oktyabr 1941-ci ildən ümumi hərbi təlim proqramına başladı. Bakı limanında düşmən təyyarələri zamanı mövcud ola biləcək bombalanmalar zamanı gizlənmək üçün səngərlər qazılır, sərnişin qəbulu yerləri təmir olunur, kənar müəssisələr buradan çıxarılırdı. Vağzalların yanında, onlara yaxın meydançalarda yeməkxana, açıldı. Tibb məntəqələri, ayaqqabı və üst paltarı təmiri işi genişləndirildi [16.s.18-19].

Xəzər dənizinin qərb sahili boyunca kommunikasiyalarının hava hücumundan müdafiəsini cəbhə aviasiyası ilə birgə donanma da yerinə yetirirdi. Donanma qərargahı aviasiya qüvvələri ilə birlikdə gəmilərin birgə əməliyyat keçirmələrinə dair sənədlər işləyib hazırlamışdı. Həmin sənədə görə dənizin qərb sahili boyunca 50 millik mühafizə zolağı müəyyən edilmişdir. Nəqliyyat gəmilərinin gəldiyi vaxt barədə dəniz birləşməsini qərargahı müvafiq hava hücumundan müdafiə məntəqəsinə məlumat verirdi. Onlar da öz növbəsində aviasiya birləşməsinə xəbər çatdırırdı. Nəqliyyat gəmilərinin hava hücumundan mühafizəsi Bakı limanı ilə yanaşı, Mahaçqala və Krasnovodsk limanlarında da həyata keçirilirdi [13.s.50]. Müharibə Xəzər hərbi donanmasının qarşısında üç mühüm vəzifə qoymuşdu: 1) Xəzər akvatoriyasına desant çıxarılmasının qarşısını almaq, 2) Hərbi sursatın və xalq təsərrüfatı məhsullarının keşikçi dəstələrinin müşayiəti ilə daşınmasını təmin etmək, 3) Bakı limanının müdafiəsini təşkil etmək [13. 43-44]. Cənubi Qafqaz quru yolları alman ordularının hücumu və işğalı zamanı kəsilmiş, hərbi hissələrin, döyüş texnikasının, müxtəlif növ xalq təsərrüfatı mallarının, həmçinin neft və neft məhsullarının göndərilməsi yalnız dəniz yolu ilə mümkün idi və gəmilərin Xəzər dənizində mühafizəsini də Xəzər hərbi donanması həyata keçirirdi [7.s.51].

İlk dəfə alman döyüş təyyarələri Xəzərə 26 iyul 1942-ci ildə Volqa

ağzında göründülər. Bundan sonra Volqa-Xəzər yolunda ağır vuruşlar başladı. Xəzər donanmaları və Xəzər Hərbi Donanması onların hücumunu dəf etməyə çalışırdılar.

Gəmilər yanğın əleyhinə hazırlanır və xilasedici vasitələrlə təchiz olunurdular. Gəmilər demək olar ki, təhlükəyə qarşı qaranlıqda üzməli olurdular Neftdaşıyan gəmilərdə silah çatışmazlığı var idi. 1942-ci il sentyabrın əvvəllərində 27 gəminin yalnız bir pulemyotu, 12 tankerə bir 45 mm təyyarəvuran topu var idi [2.s.74]. Lakin gəmilərin düşmən təyyarələrindən mühafizə tədbirləri gücləndirilməkdə davam edir, tezliklə bütün tankerlərdə zenit topları və pulemyotları qurulmuşdu [9.s.41]. 1942-ci ilin ortalarında Xəzər Hərbi Donanmasının tərkibində 6 kanoner gəmisi, 3 üzən zenit batareyası, 3 gözətçi gəmisi, 15 gözətçi kater, 2 tral gəmisi, mina maneələri yaradan və 3 torpeda kateri olduğu halda, artıq 1942-ci ilin noyabrında onun tərkibi 2 böyük və 5 kiçik sualtı qayıq axtarıcısı, 6 zirehli kater, Balıq sənayesi Xalq Komissarlığından səfərbərliyə alınmış 66 gəminin hesabına daha da artırılmışdı [11.s.65].

Bütövlükdə Xəzər Hərbi Donanmasının 1943-cü ildə tərkibində 175 gəmi var idi. Bütün bunlar isə Xəzər Hərbi Donanmasına təkcə 1942-ci ildə 1200 gəmi və barjın göndərilməsinə, düşmən təyyarələrinin 216 hücumunun qarşısını almaq və bu hücumlar zamanı düşmənin 6 təyyarəsinin məhv edilməsinə və 4 təyyarəsinin vurulmasına imkan vermişdi. Məsələn, alman təyyarələri Həştərxana neft aparan "Ağamalıoğlu" tankerini bombalamağa cəhd etdiyi zaman "Qırmızı Azərbaycan" kanoner gəmisi döyüşlərin gediş şəraitində almanların bir bombardımançı təyyarəsini vura bilmişdilər [12.s26].

1942-ci ilin ortalarında Xəzər dənizində vəziyyət qəfil dəyişir. Stalinqrad ətrafında döyüşlərlə yanaşı alman-faşist naviqasiyası dəniz və dəmiryol nəqliyyatına arası kəsilmədən zərbələr vurmağa başladı. Xəzər dənizçiləri dəfələrlə düşmən təyyarələrinin tankerlərə həmlələrini dəf etməli olurdular. 1942-ci ilin 27 oktyabrında Həştərxan rayonunda uçuşlar zamanı "Ağamalıoğlu" tankeri zədələnmişdi. "Ağamalıoğlu" tankeri Bakıdan 10000 ton benzinlə gəlmiş və hələ yükü boşaldılmamışdı. Təyyarələr tərəfindən edilən ardıcıl hücumlar nəticəsində gəmi zədələndi və onu dayandırmaq lazım gəldi. Gəminin partlamağından ehtiyat edərək döyüş sursatları çıxarılmağa başlandı [16.s.9].

1942-ci il 27 oktyabrda 21 nömrəli taxta şalanda yanmış, "Jdanov" tankeri də əhəmiyyətsiz zədə almışdı . 1942-ci ilin 15 noyabrında "Kulubekov" və "Amerika" tankerləri batırılmışdır. Bütövlükdə isə donanma gəmiləri gün ərzində bir neçə dəfə düşmən təyyarələrinin uçuşlarının hücumunun qarşısını almalı olurdular. "Çiçerin" paraxodunun heyəti həmin vaxtlarda bir təyyarə vurmuşdu [1.s.137]. Nəticədə donanma təkcə 1942-ci ildə 1200 gəmi və barjların göndərilməsinə və düşmən təyyarələrinin 216 hücumunun qarşısını almaq, və 6 düşmən təyyarəsinin məhvinə nail olmuşdu [4.s.56].

Alman ordularının cənuba hücumunun başlanmasına qədər Stalinqrada və Qafqaza əsas neft məhsulları və quru yüklər Bakı-Həştərxan, Bakı-Mahaçqala, Krosnovodsk-Həştərxan yolu ilə daşınırdı. 1942-ci ilin iyul-avqustu Qafqaz uğrunda döyüşlərin gərgin ayları idi. Düşmən diviziyaları Qafqaza can atırdı. Düşmən nəyin bahasına olursa olsun, Bakı neftinə yiyələnmək istəyirdi . 1942-ci ilin avqustundan etibarən Bakı-Həştərxan və Bakı-Mahaçqala yolu ilə yük daşınması kəskin şəkildə azaldılmış, Bakı-Krasnovodk-Quryev xətti ilə yük daşınması birdən-birə artırılmış və sonra Orta Asiya dəmir yolu vasitəsilə mənzilə çatdırılmışdır. Yol çox uzun olsa da tamamilə təhlükəsiz idi [4.s.58].

Xəzər hərbi donanmasının birbaşa iştirakı ilə mina əleyhinə mübarizə, mina qoyulmasını müəyyən etmək məqsədi ilə müşahidə sisteminin təşkili, tral vasitələrinin və şəxsi heyətin hazırlığı, mina partlayışından müdafiə vasitələrinin qoyulması və s. tədbirlər aparılırdı. Həmin vaxtlarda almanların taktikası təyyarələrin pulemyot atəşi ilə gəmilərin üzərinə şığıması idi. Belə hücumlar əsasən gündüzlər olurdu. Gecələrin zil qaranlığında isə 3-4 təyyarə qrupları ilə iki-üç istiqamətdən müxtəlif yüksəkliklərdən hücum edirdi. Döyüşün əvvəllərində döyüş gəmiləri, sonra isə nəqliyyat gəmiləri hücuma məruz qalırdılar. Kommunikasiyaların pozulması üçün düşmən təyyarələri minalardan da istifadə edirdi. Almanlar adətən maqnitli və maqnitli-akustik partlayıcı dib minaları qoyurdular. Bütün bunlar alman aviasiyasına Xəzər nəqliyyat donanmasına nəzərə çarpacaq qədər zərər və itki verməsinə imkan vermişdi. Alman təyyarələri gecə və gündüz demədən gəmilərə hücum edirdilər. Belə ki, tək 1942-ci ildə 46 Xəzər nəqliyyat gəmisinə düşmən təyyarələri həmlə etmişdilər. Onlardan 14 gəmi ("Udarnik", "Komintern"

və başqaları) məhv edilmişdi. Dənizçilərdən 57 nəfəri həlak olmuş, 53 nəfəri yaralanmışdır [5.s.14].

1942-ci ilin oktyabrında SSRİ Ali Soveti 45 dənizçini düşmən hücumu nəticəsində məcburi köçürülən əhalinin, hərbi hissələr, quru və neftdaşıma məhsullarının daşınmasına göstərdikləri qəhrəmanlığa görə müxtəlif orden və medallarla təltif etdi. Kasptankerin keçmiş rəisi F.İ.Matyuşev Lenin ordeni ilə təltif olundu. "Moskva" teploxodunun kapitanı M.S.İsmayılov, "Ağamalıoğlu" gəmisinin kapitanı A.B.Rəcəbov, "Ukrayna" paraxodunun matrosu A.Dadaşov, həmin gəminin kapitanı A.Məmmədov "Qırmızı Əmək" ordeni ilə təltif olundular [6.s.43].

1943-cü ilin iyununda almanlar Bakı limanından Həştərxana neft daşıyan gəmilərə hücum etməklə ordunun maşın və hava qüvvələrinin gücünü azaltmağa çalışırdılar. 1943-cü ildə bir neçə alman bombardiri Volqa-Xəzər kanalındakı gəmiləri bombalamağa başladılar. Amma artıq gəmilər və Xəzər hərbi donanması düşmənlə döyüş təcrübəsinə malik idilər. "Bakılılar" paraxoduna, "Novaboqatinsk" barjına , 17 iyunda 11 min ton yanacaqla dolu "Oktyabr" paraxoduna, "Emba" barjı, "Uralsk" paraxodu , "Binəqədi" barjına "Fridrix Engels" paraxoduna hücum edən almanlar hər dəfə pulemyotların atəşi ilə geri çəkilməyə məcbur oldular. Növbəti gün də hücumlar davam etsələr də məqsədlərinə nail ola bilmirdilər. Məsələn. "Krestyanin" və "Çiçerin" gəmiləri bir neçə düşmən təyyarəsin miəhv etmişdi [16. s.64- 65].

Qeyd olunmalıdır ki, Stalinqrad döyüşlərinin ən qızğın vaxtında Xəzər hərbi donanmasının müşayiəti ilə Xəzər dənizində 434472 adam, 46 təyyarə, 791 tank, 346 zirehli avtomobil, 4112 maşın, 22 traktor, 173730 at, 313257 ton döyüş sursatları və digər yüklər daşınmışdı [15.s.50]. Həmin il 8 mindən artıq müxtəlif tipli gəmilərin Volqa-Xəzər dəniz yolu ilə keçməsi təmin edildi [14.s.362].

1943-cü il 20 iyunda Həştərxandan Bakı limanına yüklə dolu barjla qayıdan Bibiheybət paraxoduna düşmənlər hücum etmiş, 12 bomba atılmışdı. Bombalardan biri buksir trosunu qırsa da dənizçilər onu tez düzəldə bildilər. 3-cü dərəcəli mexanik Leltov, ocaqçı Artemyev yaralanmışdı [17. 169].

Xəzər donanması 1943-cü ildə ciddi itkiyə məruz qalmadı. SSRİ Ali Sovetinin Rəyasət heyəti 1943-cü il 6 yanvarda cəbhə ordu

komandanlığı adından alman işğalçıları ilə döyüş cəbhəsində komandanlığının döyüş tapşırıqlarını yerinə yetirməsi və bu zaman göstərilmiş qəhrəmanlıq və mərdliyə görə "Döyüşdə Xidmətlərinə görə" medalı ilə aralarında azərbaycanlıların da olduğu bir sıra dənizçi və liman işçilərinin mükafatlandırdı [3. 6].

Mükafatlandırılanların arasında azərbaycanlıların sayı kifayət qədər idi. Donanmanın fərqlənən kapitanları arasında da döyüş ordeni ilə təltif olunanlar arasında azərbaycanlılar da var idi. Belə ki, "Ağamalıoğlu" tankerinin kapitani veteran Əlibala Rəcəbov 50 ilə yaxın Xəzərdə işləmiş, əməkdə fərqləndiyinə görə Lenin və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif olunmuşdu [8.1944, 13 iyun]. 1942-ci ilin yayında təltif olunanlar arasında teploxod kapitanı M.S.İsmayılov, tanker kapitanı ilk azərbaycanlı qadın kapitan Ş.Ş.Səlimova, matros A.Dadaşov, "Xəzərdonanma"nın siyasi şöbə rəisi M. A. Xanməmmədov və başqaları da var idi [16.s109]. Ş.Ş.Səlimova 1944-cü ilin sentyabrında Qırmızı Ulduz ordeni ilə də təltif olunmuşdu [8. 1944, 13 sentyabr].

Gəmilər 1944-cü ilin sonuna qədər alman təyyarələrindən müdafiə məqsədilə silahlarla üzürdü. Silahlar sonradan orduya təhvil verildi. Müharibə illərində 11 böyük və orta teploxodlar məhv edilmiş, həmçinin 40-dan çox metal barjlar suya batırılmış və ciddi zədələmişdi [16.s.209]. Xəzər Hərbi Donanması da müharibə dövründə düşmənin hava hücumları zamanı 3 gəmi və 1 təyyarə itirmiş, 2 tral gəmisi minaya toxunub partlamışdır [7. 58]. Müharibə illərində iş başında olarkən düşmənlə döyüş zamanı 300 Xəzər dənizçisi həlak olmuş və yaralanmışdır [5.s14]. Ancaq Xəzər Hərbi Donanması böyük güc sərf edərək gəmilərin Xəzər və Volqadan əsasən təhlükəsiz keçmələrini təmin etmişdi.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi :fond 1, siyahı 280 iş 103, 160 v, 1942
2. yenə orada: fond 1, siyahı 313, sv 100, 90 v, 1942
3. yenə orada: fond 1 siyahı 313 sv 123 1943 , 41 v
4. Əliyev N.A. Azərbaycanın hərbi-dənizçilik tarixi. II hissə Bakı:"AAHDM",2005 459 s.
5. Cəfərov İ. Xəzər dəniz nəqliyyatı Sovet hakimiyyətinin yetirməsidir. Bakı 1971. Azərnəşr, 20 s
6. Аббасов М.Г. Вклад Тружеников Баку в достижение победы над гитлеровской Германией. Баку , «Военное издательство»2000. 64 с
7. Буниятов З.М., Зейналов Р.Э. От Кавказа до Берлина. Б, 1990.

8. Бакинский рабочий. 1941-1945
9. Джафаров Н.Д. Некоторые вопросы военно-организаторской работы партийных, советских и обшественных организаций Баку в годы Великой Отечественной войны.- Баку:Элм, 1971, 89 с
10. Гречко А.А. Вооруженные силы Советского государства.Москва: Военное Изд-во. 1974, 344 с
11. Гречко А. Битва За Кавказ. Москва «Воениздат», 1967. 424 s
12. Гритченко А., Меерович Е. На боевой вахте Каспия. Баку: Политотодел ККФ, 1972. 98 с
13. Кадурин Н.Защита Каспийской флотилией морских перевозок . Военно-исторический журнал, 1978, №4
14. Кравченко Г.С.Военная эклномика ССРИ.Москва «Воениздат», 1963. 398 s
15. Победа была бы невозможна без Бакинской нефти, Баку, «Игтысадыят» 2005, 103 с
16. Эдлинский С.Ф.. Каспийский транспортный флот в великой отечественной войне Советского Союза 1941-1945 гг. Москва: «Морской транспорт».1963. 227 с

Г. Гусейн Панах

БАКИНСКИЙ МОРСКОЙ ПОРТ В ГОДЫ ВОЙНЫ 1941-1945 ГГ. И ОБЕСПЕЧЕНИЕ БЕЗОПАСНОСТИ ПЕРЕВОЗКИ ГРУЗОВ

РЕЗЮМЕ

В годы советско-германской войны 1941-1945 годов в результате налетов немецкой авиации Каспийский морской флот потерял несколько десятков судов и до трехсот человек убитыми и ранеными. Несмотря на это, врагу не удалось нарушить транспортную связь Каспийского моря с Волгой. В статье подчеркивается, что благодаря самоотверженному труду бакинских портовиков и моряков в годы войны транспортный флот справился со всеми задачами, поставленными перед ним правительством и военным командованием.

G.Huseyn Panah

DURING THE 1941-1945 YEARS OF WAR ENSURE THE SAFETY OF THE BAKU PORT AND CARGO SECURITY

SUMMARY

At raids of the German aircraft the Caspian fleet lost some tens courts and to three hundred people the killed and wounded. Despite it, to the enemy to break transport communication of the Caspian Sea with Volga. In this article it is emphasized, in the years of war dockers and морякм performed huge work. As a result of dedicated work of seamen the transport fleet coped with all tasks of the government and military command. As a result of consideration of activity of port in the years of war it should be noted that dockers showed mass heroism against Hitlerite aggressors.

SOVET RUSİYASININ TÜRKİYƏ CÜMHURİYYƏTİ İLƏ SİYASİ ƏLAQƏLƏRİNDƏ AZƏRBAYCAN SSR

Yaqut ƏMİROVA

Açar sözlər: Sovet Rusiyasi, Türkiyə Cümhuriyyəti, siyasi əlaqələr, Azərbaycan SSR
Ключевые слова: Азербайджанская ССР, Советская Россия, Турция, политические связи
Keywords: Soviet Russia, the Turkish Republic, political relations.

Bolşevik hökumətinin nümayəndələri öz ideologiyalarını şərq ölkələrində, o cümlədən Türkiyədə yaymaq məqsədi ilə əllərindən gələn heç nəyi əsirgəmirdilər. Bu məqsədlə sovetlər Türkiyənin kapitalist Avropa dövlətləri ilə əlaqələrini pozmağa belə çalışır, lakin özləri də SSRİ-nin Mustafa Kamal hökuməti ilə münasibətlərinin pozulmağından ehtiyat edirdilər. Q.Musabəyov 1927-ci ildə keçirilmiş V Sovetlər qurultayındakı çıxışında Türkiyə ilə dost əlaqələrindən danışarkən bildirmişdir ki, kapitalist dövlətləri bu əlaqələri pozmaq üçün əllərindən gələni edirlər [30, 337]. Həqiqətən də 20-ci illərin sonuna doğru, Türkiyə və SSRİ əlaqələrində mövcud nisbi soyuqluq aradan qaldırılmış, Lozanna sülh müqaviləsinin imzalanmasından sonra, baş verən inciklik arxa plana keçirilmişdir. Bu da onunla əlaqədar idi ki, Türkiyədə milli mücadilənin qələbə ilə nəticələnməsindən sonra baş tutan Lozan konfransı, türk hökuməti ilə Qərb dövlətləri arasında münasibətlərə aydınlıq gətirsə də, Sovet İttifaqı və Cənubi Qafqaz respublikaları ilə əlaqələrinə də təsir edən nəticələr doğurmuşdur. Türkiyənin təklifi ilə boğazlarla bağlı görüşmələrə qatılan Sovet heyəti, konfrans boyunca boğazlarda türk suverenliyini qorumuş və başda ingilislər olmaq üzrə qərbin təzyiqlərinin qarşısını almağa çalışmışdır [11, 25].

Ancaq İngiltərəni konfransın açarı olaraq görən türk tərəfi, sovet tərzini deyil, ingilis tərzini dəstəkləmişdir. Türkiyə tərəfi Lozanna konfransında İngiltərəni təmin edəcək qərarları qəbul edərək, türk-sovet əlaqələrinin yara almasına yol açmışsa da, beynəlxalq vəziyyət hər iki ölkənin bir-birlərindən soyumalarına imkan vermişdir.

Əmirova Yaqut- AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

Kommunizm məsələsinə gəlincə, Türkiyə Lozanna müqaviləsini imzaladıqdan və öz müstəqilliyinə qovuşduqdan sonra, ölkədə mövcud olan kommunizm hərəkatına qarşı daha həssas yanaşmışdır. Bu zaman Sovet hökuməti qarşılıqlı münasibətlərin inkişafını da bu nöqteyi-nəzərdən dəyərləndirmiş, Türkiyədə kommunizmi yayma fəaliyyətlərini daha da genişləndirmişlər. Lakin Türkiyə hökumətinin kommunistlərə qarşı gördüyü əks tədbirlər qarşı tərəfin narazılıqlarına səbəb olmuşdur. Misal üçün, 1929-cu ilin yazında Sovet hökumətinin rəsmi dövlət qəzeti "Pravda" bununla əlaqədar öz səhifələrində daimi olaraq türk hökumətini tənqid edirdi. Buna cavab olaraq isə Türk hökumətinin rəsmi qəzeti "Milliyət qəzeti 6 iyun 1929-cu il buraxılışında belə yazmışdır: "Pravda" gazetesi komunistliyi mukaddes saya bilir, fakat dünyanın hiç bir davası Türkiye nasyonalistliyinin daha az mukaddes bir dava sayılmasına sebep olamaz" [12, 329-330].

Mustafa Kamal 1924-cü il noyabr 1-də Böyük Millət Məclisindəki nitqində "Qədim dostumuz Rusiya Sovet Respublikası ilə münasibətimiz dostluq vadisində hər gün daha ziyadə inkişaf və tərəqqi etməkdədir" deyə bildirirdi.

Sovet-Türkiyə münasibətlərinin inkişafından narahat olan Avropa dövlətləri hər iki ölkə arasında ziddiyyət salmaq üçün müəyyən tədbirlərə əl atmışlar, 1924-cü ilin sentyabrında Ankarada xarici agentlərdən biri Türkiyə hökumətinə saxta sənədlər göstərərək onu inandırmağa çalışmışdır ki, SSRİ ilə İtaliya arasında guya Türkiyəni bölüşdürmək haqqında gizli saziş imzalanmışdır [11, 73].

Cənubi Qafqaz məsələsindən də Antanta dövlətləri bu cür istifadə edir, əslində heç də Cənubi Qafqaz dövlətlərinin müstəqilliyi üçün çalışmır, əslində SSRİ ilə Türkiyənin münasibətlərini pozmağa çalışırdılar.

Bu haqda sovet tarixçiləri məlumat verərək bildirirlər ki, bəzi qərb dairələri 1925-ci ilin axırlarında belə bir şayiə yaymışdılar ki, guya Sovet İttifaqı Türkiyəyə hücum etmək üçün öz ordusunu Sovet-Türkiyə sərhədlərinə toplamışdır.

Sovet hökuməti və Türkiyə, qərb dövlətlərinin bəzi dairələri tərəfindən yayılan bu şayiələri qətiyyətlə təkzib etmişdilər.

1924-cü ilin oktyabrın 19-da G.V.Çiçerin Sovet hökumətinin Türkiyədəki səlahiyyətli nümayəndəsinə teleqram göndərərək bildirmişdir ki, Sovet hökuməti tərəflərdən biri üçüncü bir dövlətə müharibə edərsə tərəflərin bir-birinə qarşı yönəldilmiş düşmən qruplarda iştirak etməməsi üçün dostluq və bitərəflik haqqında Moskva müqaviləsinə əlavə olaraq müqavilə bağlamaq arzusundadır [11, 766].

Nəhayət, 1925-ci ilin avqustunda hər iki ölkə arasında bağlanacaq yeni müqavilənin əsas maddələri haqqında həlledici razılıq G.V,Çiçerinin Avropa səfəri zamanı Türkiyə xarici işlər naziri Tefviq Rüştü Arazla görüşləri nəticəsində əldə edilmişdir. Bundan sonra dekabrın 17- də Parisdə hər iki ölkə arasında dostluq və bitərəflik haqqında müqavilə imzalanmışdır. Müqaviləni Sovet ittifaqı tərəfindən G.V.Çiçerin, Türkiyə Respublikası tərəfindən Tefviq Rüştü Araz imzalamışdılar.

Müqavilədə göstərilirdi ki, adı çəkilən dövlətlərdən hər hansı biri üçüncü dövlətlə müharibə aparsa digəri bitərəf qalmağı öhdəsinə götürür [27, 162]. Onu da qeyd etmək lazımdır ki, bu müqavilə nəticə etibarı ilə dostluq və tərəfdaşlıq müqaviləsi statusunu daşımışdır.

1929-cu ildə bu müqavilənin müddəti Ankarada bağlanmış protokolla uzadıldı. Protokola görə hər iki tərəf digər tərəfi xəbərdar etmədən qonşu dövlətlərlə siyasi razılaşma bağlamaq məqsədi güdən hər hansı danışıqlara başlamağı öhdəliyə götürürdülər [26, sənəd 418]. 17 dekabr 1925-ci ildə "hücum etməmək və bitərəflik haqqında" müqavilə aşağıdakı müddəaları özündə əks etdirirdi:

1. Bir-birlərinə müqavilədə göstərilən müddətdə hücum etməmək;

2. Əgər tərəflərdən hər hansı biri təcavüzə məruz qalarsa digər tərəf, qarışmamalı idi;

3. Üçüncü başqa bir dövlət ilə bir-birləri əleyhinə hər-hansı ittifaqa girməyəcəklər;

4. Hər iki tərəf qərar verdiyi təqdirdə müqavilənin müddəti uzadılacaqdır;

5. Müqavilə üç il müddətinə qüvvədə qalmalı və əgər tərəflərin razılığı olarsa yenidən uzada bilərdi;

a) Tərəflər qonşuları ilə müqavilə imzaladıqları təqdirdə bir-birlərini xəbərdar etməli idilər;

b) Tərəflər donanmalarına gəmi əlavə etdikləri təqdirdə bir-birlərinə xəbər verməli idilər. [23, 741].

Bu müqavilə Lozanna müqaviləsindən sonra dövlətlər arasında yaranan soyuqluğu qismən aradan qaldırdı və qarşılıqlı münasibətləri yaxınlaşdırdı.

Bu barədə Sovet xarici işlər komissarı Litvinov 24 dekabr 1925-ci il tarixli "Pravda" qəzetində yazırdı: "Bu müqavilə heç bir dövlətə qarşı yönəlməyib. Tamamən sülh məqsədi ilə imzalanmışdır və dövlətlər arasında qarşılıqlı münasibətlərin inkişafına xidmət edir. Bununla yanaşı əsas odur ki, indi dünyada sülhün qorunması Millətlər Cəmiyyəti və Lokarno müqaviləsi ilə deyil, bu kimi imzalanan müqavilə tədbirləri nəticəsində həyata keçirilə bilər" [30, 1925, 24 dekabr].

SSRİ və Türkiyə arasında dostluq və bitərəflik haqqında müqavilənin imzalanması hər iki ölkə arasında siyasi, əlaqələrin inkişafına müsbət mənada təsir etmişdir. Bu müqaviləyə əsasən, 1925-ci il mayın 31-də, 1921-ci il mart Moskva və 1921-ci il 13 oktyabr Qars müqaviləsində nəzərdə tutulmuş sərhədlərin müəyyən edilməsi haqqında maddəyə uyğun olaraq SSRİ ilə Türkiyə arasında yeni protokol imzalanmışdır. Hər iki ölkə arasındakı münasibətlərin inkişafına böyük qiymət verən M.Kamal 1926-cı il noyabrın 1-də Böyük Millət Məclisindəki çıxışında deputatlara bu barədə müraciətlə demişdir: "Rusiya ilə bizim münasibətimiz səmimi dostluqdan ibarətdir. Bu da sizin təsdiqinizə təqdim olunan təminat və bitərəflik haqqındakı müqavilənin prinsiplərinə uyğun gəlir. Bizim münasibətlərimizə xas olan əlverişli şəraitdə sərhədlərin qaydaya salınması başa çatmışdır. Ticarət və gediş-gəliş haqqında müqavilə imzalanması üçün aparılan danışıqlar uğurla davam edir" [28, 342].

Bu zaman Sovet-Türkiyə ikili əlaqələrinin inkişafında yenidən başlayan bu yaxınlaşma Sovet Azərbaycanın müstəqilliyi nöqteyi nəzərindən mübarizə aparan mühacirlərin vəziyyətini daha da çətinləşdirmişdir. Bununla əlaqədar, Türkiyədə fəaliyyət göstərən, Azərbaycan Milli Mərkəzi 5 aprel 1927-ci il tarixli çağırışı ilə Azərbaycan xalqına səslənərək, bolşevik işğalına qarşı dirənişin güclənməsini istəmişdir [4, 88].

Bundan başqa çağırışda "Yaşasın azadlıq", "Yurtdaşlar müharibəyə hazırlıqlı olun". "Yaşasın istiklal", "kommunizmə lənət olsun" şüarları ilə çıxışlar etmişlər [1, 91]. Sovet mətbuatı isə bu çağırışları ingilis mühafizəkarlarının bir oyunu olaraq dəyərləndirmişdir.

Bu dövrdə iqtisadi münasibətlərdə olduğu kimi, siyasi münasibətlərdə Türkiyənin getdikcə Qərbə doğru meyl etməsi Sovet Rusiyası tərəfindən mənfi qarşılanırdı.

Xüsusən Mosul məsələsinin Lozannada öz həllini tapmaması, Suriya sərhədləri ilə bağlı Fransa ilə 1926-cı ildə imzalanan müqavilə və 1930-cu ildə Osmanlı hökumətinin borcları ilə bağlı razılaşma, İtaliya ilə 1928-ci il müqaviləsi də sovetlər tərəfindən türk xarici siyasətinin etirazla qarşılanmışdı. Türklərin Qərblə münasibətləri inkişaf etdirmək arzusu Sovetlərin Türkiyəyə qarşı münasibətinə öz təsirini göstərirdi [12, 329-330]. Bütün bunlarla yanaşı, Lozanna müqaviləsində həllini tapmayan bir sıra məsələlər, o cümlədən Mosul məsələsi ilə bağlı aparılan danışıqlar və Türkiyənin bu məsələdə mövqeyi onu Sovetlərdən nə qədər uzaqlaşdırsa da, Birinci dünya müharibəsinin qalibləri ilə Almaniyanı bir-birinə yaxınlaşdırmaq üçün hazırlanan Lokarno sistemi, Sovetləri Türkiyəyə bir o qədər yaxınlaşdırmışdı.

Bir amili qeyd etmək lazımdır ki, Sovetlər 1921-ci ildə bir çox qonşuları ilə bağladıqları müqavilələr sayəsində isti münasibətlər qura bilmişdilər. Ancaq Almaniyanın Qərb dövlətləri ilə olan münasibətlərini poza bilməmişdilər. Bununla əlaqədar, Sovet İttifaqı ilə Qərb dövlətləri arasında iqtisadi münasibətlərin yenidən qurulması məqsədi ilə toplanan 1922-ci ildə Cenevrə konfransı zamanı, Almaniya ilə Sovetlər arasında gizli görüşlər keçirilmiş və 16 aprel 1922-ci ildə Rapollo müqaviləsi imzalanmışdır. Cenevrə konfransı zamanı Transqafqaz respublikalarını təmsil edən Nəriman Nərimanov, xarici işğalçılara qarşı mübarizə aparan BMM hökumətinin mövqeyini burada dəstəkləmişdir. Amma Antanta dövlətləri bu məsələnin Orta Şərqdə savaşan dövlətlərin tərəfsizlik mövqeyinə zidd olduğunu bildirsə də, Nəriman Nərimanov bu məsələni rədd etmiş və türklərin konfransda iştirakının vacib olduğunu bildirmişdir [25, 375].

Ancaq Rapollo müqaviləsindən sonra sovet-alman yaxınlaşması uzun sürmədi. 1 dekabr 1925-ci ildə Fransa, İngiltərə, Almaniya, İtaliya,

Belçika, Polşa və Çexoslovakiya arasında imzalanan Lokarno müqaviləsi Almaniyanın təkrarən sovetlərdən uzaqlaşmasına səbəb oldu. [17, 74-75]. Belə şəraitdə, Avropa səhnəsində meydana gələn bu yeni qruplaşmanı sovetlər özlərinə qarşı yönəldilmiş hərəkat olaraq dəyərləndirmişdilər.

1925-ci il müqaviləsinin imzalanmasından sonra, Türkiyə və Sovetlər arasında münasibətlər həm siyasi, həm də iqtisadi sahələrdə inkişaf etdirdi. Amma bir faktı qeyd etmək lazımdır ki, 1925-ci il müqaviləsi imzalandığı vaxt hələ Türkiyə və Sovet İttifaqı Millətlər Cəmiyyətinin üzvü olmamışdılar. Bu zaman Sovetlər Birliyi, Millətlər Cəmiyyətinin digər kapitalist dövlətləri tərəfindən yaradıldığını və onların əllərində bir vasitə olduğunu iddia edirdi. Buna görə də Sovetlər Birliyi Millətlər Cəmiyyətinə daxil olmadığı üçün, Türkiyənin də bu təşkilata girməsinə mane olmuşdur.

Digər tərəfdən Mosul məsələsinin həllindən sonra, İngiltərə, Millətlər Cəmiyyətinə girməsi üçün Türkiyə üzərinə təzyiqlər etməyə başlamışdır. İngiltərəyə görə Türkiyə Millətlər Cəmiyyətinə girdiyi təqdirdə ölkəsinə qarşı İtaliya və Yunanıstan tərəfindən hazırlanmış təxribatlardan özünü qoruya biləcəkdi. Amma əslində, məqsəd Sovet Rusiyası ilə Türkiyənin münasibətlərini korlamağa yönəlmişdi. Bunun da alınmadığını görən İngiltərə Türkiyəyə qarşı iqtisadi boykot mahiyyəti daşıyan bir sıra tədbirlər həyata keçirmişdir. Lakin İngiltərənin bu təzyiqləri Türk-Sovet münasibətlərini pozmamış, daha da yaxınlaşmasına səbəb olmuşdur [17, 74-79]. Belə ki, 1926-cı ildə Tefvik Rüştü Aras Çiçerinlə görüşmək üçün Odessaya getmiş, üç məsələ ilə bağlı danışıqlar aparmışdır: iki dövlət arasında ticarət müqaviləsinin imzalanması, Millətlər cəmiyyətinə üzvülük məsələsi və Türkiyə ilə İtaliya arasındakı ziddiyyətlər. Tevfik Rüştü Aras Odessadan ayrılarkən Sovet Xarici İşlər Komissarı, Mustafa Kamala çatdırmaq üçün bir məktub da vermişdir. Bu məktubda Sovetlər birliyinin Türkiyənin Balkanlardakı mövqeyini heç bir zaman təhlükə altında qoymayacağı yazılmışdı [17, 74-79].

Sovet İttifaqı rəhbərliyi ilə aparılan danışıqların nəticəsində qərara alınmışdı ki, Türkiyə hökuməti, Millətlər Cəmiyyəti məclisində daimi üzvlük qazanmadığı təqdirdə təşkilata daxil olmasın. Lakin bəlli idi ki, Türkiyənin bu istəyi təşkilatın üzvü olan böyük dövlətlər tərəfindən qəbul edilməyəcəkdir.

Milli Qurtuluş savaşı vaxtı Türkiyə ilə Sovetlər birliyi arasında siyasi və hərbi münasibətlərin inkişaf etməsi nəticəsində, ticarət əlaqələrinin də həcmi artmış, Lozanna sülhünün imzalanmasından sonra isə iqtisadi əlaqələrdə enmələr müşahidə olunmuşdur. Bunun da səbəbini belə izah etmək olar ki, Türkiyə artıq bir dövlət olaraq özünün müstəqilliyini təsdiqləmiş və respublika quruluşunu özünün idarə forması seçmişdir. Bu məsələni də qəbul edə bilməyən sovet hökumətinin bəzi nümayəndələri qarşılıqlı münasibətlərin inkişafına mane olmuşdular.

Bu zaman, 1926-cı ildə Türkiyədən idxal olunan bəzi məhsullara qarşı sovet tərəfi doğru münasibət göstərməmişdir. Məsələn, 1926-cı ilin may ayında Odessa limanında türk mallarına giriş icazəsinin verilməməsi türk hökumətinin etirazına səbəb olmuşdur. Çiçerin ilə Tefvik Rüştü Aras arasında 1926-cı ilin noyabr ayında Odessada keçirilən konfransda da ticari əlaqələrdə mövcud olan problemləri aradan qaldırmaq mümkün olmamışdır. İki dövlət arasında iqtisadi məsələləri nizamlamaq müvafiq və müqavilə mətni hazırlamaq məqsədilə 1927-ci ilin noyabr ayında yenidən qarşılıqlı görüşlər keçirilmişdir. Lakin iki dövlət nümayəndəsi arasında keçirilən görüşlər zamanı tərəflər arasında fikir ayrılıqları da mövcud olmuşdur: 1) Sovetlərin bəzi türk mallarını idxal etmək istəməmələri 2) Türkiyənin bəzi şəhərlərində (İstanbul, İzmir, Trabzon, Mersin, Ərzurum, Konya, Qars və digər şəhərlərində) sovetlərin ticarət müşavirliyini açmaq istəməsi və bunlara ölkə xaricində xüsusi hüquqların verilməsi məsələsi müzakirə olunmuşdur. Danışıqların nəticəsi olaraq 11 mart 1927-ci ildə Ankarada, iki dövlət arasında yenidən ticarət müqaviləsi imzalanmışdır. Müqaviləyə görə Türkiyə məhsullarına qarşı Sovet hökuməti tərəfindən qoyulan qadağalar aradan götürülür. Türkiyə tərəfi ilə Qars və Artvin müstəsna olmaqla yuxarıda adları çəkilən şəhərlərdə sovet ticarət müəssisələrinin şöbələr açmasını və bəzi diplomatik hüquqlar əldə etməsini qəbul edirdi. Buna cavab olaraq sovetlər Türkiyə məhsullarının tranzit ölkə olaraq, üçüncü bir dövlətə daşınan məhsullarından gömrük haqqı almamağı öhdələrinə götürdü. Müqaviləyə əlavə olunan bu bölmə Batum limanının Türkiyə tərəfindən istifadəsinə imkan yaratmışdır. 1927-ci il müqaviləsi iki ölkə arasında ticarət həcmini artırmış, fəqət ticari və iqtisadi məsələlərdə mövcud olan problemləri tamamən aradan qaldıra bilməmişdir.

1928-ci ildən sonra iki dövlət arasındakı siyasi münasibətlər beynəlxalq vəziyyətin təsiri altında inkişaf etmişdir. Belə ki, 1917-ci il bolşevik inqilabından sonra, Qərb dövlətləri uzun müddət Rusiyadakı yeni rejimi tanımamışlar və Sovetlər birliyini dünya siyasətindən təcrid etməyə çalışmışlar. Qərb dövlətlərinin təcavüzünə məruz qalacağı təhlükəsi ilə Sovetlər birliyi qonşuları ilə xoş münasibətlər yaratmağa çalışırdı. Sovetlər Birliyi Millətlər cəmiyyətinin təşkilatçılığı ilə keçirilən konfransa Türkiyənin də dəvət olunmasını istəmişdir. 1928-ci ilin martında türk hökuməti də Cenevrə konfransına dəvət olunmuş və Litvinovun rəhbərlik etdiyi Sovet İttifaqı nümayəndəsinin irəli sürdüyü qərarları dəstəkləmişdir. Türkiyə ilə Sovet İttifaqı arasında münasibətlərin davam etməkdə olduğunu göstərən digər bir amil də birincinin Litvinov adı ilə tanınan protokoluna qatılmasıdır. Belə ki, Amerika xarici işlər naziri Kellog 22 avqust 1928-ci ildə yeni bir protokolla çıxış etmiş, dünyada baş verən münaqişələrin müharibə ilə deyil, sülh yolu ilə həll edilməsini istəmişdir. Bu protokolu 1929-cu ilin 9 fevralında Litvinovun dəvəti ilə Moskvada Polşa, Rumıniya, Latviya və Estoniya ilə yanaşı Türkiyə də 1929-cu il aprelin 1-də imzalamışdır.

1929-1930-cu illərdə Sovet Rusiyası ilə Türkiyə Cümhuriyyəti arasındakı siyasi əlaqələr tədricən zəifləmiş, artıq SSRİ Türkiyənin arxalandığı yeganə böyük dövlət statusundan çıxmışdır.

MƏNBƏLƏR VƏ ƏDƏBIYYAT

1. ARDA: F.28, s.1, iş 55
2. ARPİİSSA: F. 1, s.74, iş 135
3. ARPİİSSA: F.1, s.185, iş 568
4. ARPİİSSA:F.1, s.185, iş 744
5. Azərbaycanda Atatürk Mərkəzinin rüblük nəşrləri, müxtəlif illər
6. Baxışov M. Beynəlxalq münasibətlər tarixi. 1918-2003, Bakı: Şirvannəşr, 2004, 407 s.
7. Əhmədli N. Mustafa Kamal Atatürk. Bakı: AzAtaM., 2002, 218 s.
8. Fətəliyev M. Türkiyə, Yunanıstan və böyük dövlətlər Birinci dünya müharibəsi ərəfəsində və illərində. Bakı: Bakı Dövlət Universiteti, 2005
9. Hüseynov. Q. Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair. Bakı: Azərnəşr, 1970, 112 s.
10. Qasımlı M. Azerbaycan türklerinin milli mücadele tarihi. 1920-1925. İstanbul: Kaknuş, 2006, 137 s.
11. Sofiyev M.M. Türkiyənin ən yeni tarixi. Bakı: Azərnəşr, 1973, 154
12. Armaoğlu F. 20 yüzyıl siyasi tarihi. 1914-1980. I-II cild, İstanbul: 1996, 1006 s.
13. Başak B. Taksimde Anıtlasan Türk - Sovet dostluğu. Aydınlık 23, temmuz 2000, no. 679

14. Cebesoy A. F. Moskva hatıraları. İstanbul: Vatan, 1955, 348 s.
15. Dışişleri Bakanlığı Bilgi Edinme Birimi, ENFD.O.O.-321. 20-2005. 401596
16. Ersevinc M., Akkuş T., Kesirikoğlu. Türk devrim tarihi. İstanbul: Aktuel-Motif, 2004, 564 s.
17. Gönlübol M., Sar C. Atatürk ve Türkiyenin dış politikası. 1919-1938. Ankara: Tıpkı basımevi, 1997, 658 s.
18. Mantran R. Çeviren Server Tamilla. Osmanlı imperatorluğu tarihi II duraklamadan yıkılışa. İstanbul: Alkım, 2007, 839 s.
19. Öner K. Nutuk. Qazi Mustafa Kamal Atatürk. 6. Baskı. Ankara: İnqilab, 2007, 459 s
20. Özalp K. Milli Mücadile. 1919-1922. I-II cildAnkara: Türk Tarih Kurumu, 1985, 1989, 268 s.
21. Özçelik A., Ali FuatCebesoy. İstanbul: Feryal matbaası, 1993, 416
22. Temuçin. F. Erton. Lozan konferansında Türk-Sovet ilişkileri. Türk yurdu. Cilt. 20., sayı 151, mart 2000
23. Ünal T. Türk siyasi tarihi. İstanbul: Kamer, 1998, 458 s.
24. Документы внешней политики СССР, Т.3, Москва: Госполитиздат, 1959, 723 с.
25. Документы внешней политики СССР, Т.4, Москва: Госполитиздат, 1960, 836 с.
26. Документы внешней политики СССР, Т.8, Москва: Госполитиздат, 1963, 862 с.
27. Документы внешней политики СССР, Т.9, Москва: Госполитиздат, 1964, 925 с.
28. КемалАтатюрк. Избранные речи и выступления. Москва: Прогресс, 1966, 439 с.
29. Еремеев Д.Е Становление республиканской Турции (1918-1939-гг). Москва: 2004, 376 с.
30. Правда (газета)
31. «Народы Азии и Африки» (журнал)
32. Собрание узаконений и распоряжений рабочего и крестьянского правительства Азербайджанской ССР за 1924 год. Баку: 1925
33. Шамсутдинов А.М. Турецкая Республика. Краткий очерк истории Турецкой Республики. Москва: Наука, 1962, 212 с.
34. www. cnn.com.
35. www. turkiyat.selcuk.edu.tr.
36. www. resulzade. Azeriblog.com.

Y. Amirova

THE AZERBAIJAN SSR IN THE POLITICAL RELATIONS OF THE SOVIET RUSSIA AND THE TURKISH REPUBLIC

SUMMARY

The representatives of the Bolshevik government did their best in order to spread their ideologies in the Eastern countries, including Turkey. With that end in view the Soviets tried to break off the relations of Turkey with the Capitalist European States. But they were afraid of breaking off the relations of the USSR with Mustafa Kemal Ataturk's government.

In fact, the Entente Countries did nothing for the independence of the South Caucasian States. They only tried to break off the relations between the USSR and Turkey.

Political relations between the Soviet Russia and the Turkish Republic gradually weakened in the 1929s and 1930s. The USSR had already got out of the only state status that Turkey relied upon.

Я. Амирова

АЗЕРБАЙДЖАНСКАЯ ССР В ПОЛИТИЧЕСКИХ СВЯЗЯХ СОВЕТСКОЙ РОССИИ С ТУРЕЦКОЙ РЕСПУБЛИКОЙ

РЕЗЮМЕ

Большевистское правительство усердно распространяло свою идеологию на страны Ближнего Востока, в т.ч. Турцию. С этой целью Советское правительство стремилось препятствовать взаимоотношениям Турции с капиталистическими европейскими странами. При этом, советские дипломаты всячески избегали трений с Мустафой Кемалем. Они делали упор на то, что страны Антанты не были заинтересованы в независимости государств Южного Кавказа и всячески пытались испортить отношения Турции с СССР.

В 1929-1930 годах политические отношения между Россией и Турецкой Республикой постепенно ослабли, Советский Союз вышел из статуса единственного надежного великого государства для Турции.

AGR (AZƏRBAYCAN-RUMUNİYA-GÜRCÜSTAN) LAYİHƏSİNİN AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA ÖLKƏLƏRİ İLƏ ENERJİ ƏMƏKDAŞLIĞINDA ROLU

Anar HÜSEYNOV

Açar sözlər: AQRİ layihəsi, Şahdəniz, Tanap, Tap,maye qaz, Nabukko
Key words: Liquefied natural gas, gas pipe,Tap,Tanap
Ключевые слова: Сжиженный природный газ, Набукко, Танап, Шахдениз

Enerji təhlükəsizliyinin təmin olunması dünyada bütün ölkələrin milli təhlükəsizliyinin ayrılmaz və əsas tərkib hissələrindən biridir. Müxtəlif proseslər - yeni müharibə ocaqlarının yaranması, ölkələr arasında enerji daşıyıcılarının nəqli sahəsində problemlərin yaşanması onu göstərir ki, ayrı-ayrı dövlətlər, əsasən də Avropa İttifaqına daxil olan ölkələr enerji təhlükəsizliyi üçün daha ciddi düşünməli, alternativ nəql sistemlərini yaratmalıdılar. Bu baxımdan zəngin neft-qaz ehtiyatlarına malik Azərbaycan Respublikası alternativ nəql mənbələri axtarışında olan Avropanın və digər dövlətlərin diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının dünyanın enerji təhlükəsizliyində oynadığı mühüm rol birinci növbədə özünün neft-qaz ehtiyatlarını şaxələndirilmiş formada ixrac edə bilməsi imkanlarına sahib olmasından irəli gəlir. Hazırda böyük neft və qaz ehtiyatlarına malik Azərbaycan Respublikasının hasil edilən neft və qazını bütün istiqamətlərə nəql edən 7 boru kəməri vardır. Bu kəmərləri şaxələndirmək və sayını artırmaq üçün də yaxşı imkanlar mövcuddur. Məlum olduğu kimi, Xəzər dənizinin Azərbaycan Respublikasına aid hissəsi təkcə neftlə deyil, təbii qazla da zəngindir. Ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon tondan artıq kondensat həcmində qiymətləndirilən "Şahdəniz" yatağı hazırda dəniz akvatoriyalarında işlənilən ən iri qaz-kondensat yataqlarından biridir. 2006-cı ildən yataqda hasilata başlanılmışdır. Hazırda burada orta gündəlik hasilatı 21 milyon kubmetr qaz və 5 min ton kondensat olan 4 quyu istismar edilir [1. s. 132]. 2006-cı ildən etibarən bu yataqdan hasil olunan qaz Səngəçal terminalında ilkin emaldan keçirilərək ümumi

---

Anar Hüseynov – AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı

uzunluğu 997 kilometr, ötürmə qabiliyyəti ildə 20 milyard kubmetr təşkil edən Bakı-Tbilisi-Ərzurum kəməri vasitəsilə Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinə ixrac olunur.Təsdiqlənmiş inkişaf konsepsiyasına əsasən, ikinci mərhələdə hasilat ildə 16 milyard kubmetr səviyyəsinə çatdırılmalı, 30 hasilat quyusu istismara verilməlidir. İkinci mərhələ üzrə ilk qazın hasilatı 2017-ci ilə proqnozlaşdırılır. Hazırda təbii qazın Avropaya nəqli üçün" Cənub dəhlizi "çərçivəsində bir neçə layihə mövcuddur və Azərbaycan Respublikası bunların hər birinə çox böyük əhəmiyyət verir. Bu layihələrdən biri "Nabukko" *("Nabucco"*- Xəzər bölgəsi və Orta Şərq təbii qaz ehtiyatlarını Avropa bazarlarına çatdırmağı nəzərdə tutan qaz kəməri layihəsi. Kəmərin Türkiyənin Ərzurum şəhərindən Avstriyanın Baumqarten un de Març qəsəbəsinə kimi Türkiyə, Bolqarıstan, Rumıniya, Macarıstan və Avstriyanın Türkmənistan və Azərbaycan qazı ilə təmin olunmasını nəzərdə tutan təbii qaz boru xətti layihəsinin uzunluğu 3300 km-dir,diametri 1400mm olacaq. Nabukko Təbii Qaz Boru Xəttinin minimum 25, maksimum 31 milyard barrel illik daşıma həcminə sahib olması və 2012-ci ildə istismara verilməsi nəzərdə tutulurdu. Xəttin ümumi xərclərinin təxminən 8 milyard dollar olacağı ehtimal edilir.) -dur ki, Azərbaycan Respublikası bununla bağlı bəyannaməyə də imza atıb. Digərləri isə Türkiyə-Yunanıstan-İtaliya və Transadriatik layihələridir. Enerjidaşıyıcıların Qərb bazarlarına nəqli marşrutlarının şaxələndirilməsində ardıcıl səylər göstərən Azərbaycan Respublikası bunların hamısını dəstəkləyir.Təbii qazın Avropaya nəqlini nəzərdə tutan layihələrdən biri də Azərbaycan təbii qazının mayeləşdirilmiş formada Avropaya nəqlini nəzərdə tutan AGRİ (Azerbaijan-Georgia-Romania İnterconnector) layihəsidir.

AGRİ layihəsi ilə bağlı danışıqlar 2008-ci ildən başlayaraq Azərbaycan ilə digər tərəfdaşlar arasında müxtəlif səviyyələrdə aparılmağa başlanılıb. Azərbaycan, Gürcüstan və Rumıniya Respublikaları arasında AGRI (Azerbaijan-Georgia-Romania Interconnector) layihəsinin reallaşması ilə bağlı "Qaz tədarükü sahəsində əməkdaşlıq haqqında" anlaşma memorandumu 2010-cu il aprelin 13-də Buxarestdə imzalanıb. 2011-ci ilin dekabrında isə "SC AGRI LNG Project Company SRL" (AGRI şirkəti) "Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan İnterkonnektor" enerji əməkdaşlığı layihəsinin texniki, maliyyə və iqtisadi rentabelliyini dəyərləndirəcək texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün Təkliflər Sorğusu elan etdi. Layihə çərçivəsində gələcəkdə Azərbaycan təbii qazının Qara dəniz sahillərinə nəql olunması, burada xüsusi terminalda sıxılması, Qara dəniz vasitəsilə tankerlə Rumıniyanın Konstansa limanındakı terminala çatdırılması, daha sonra isə yenidən bu ölkənin ərazisində mövcud qaz infrastrukturu şəbəkəsi ilə Rumıniya və digər Avropa ölkələrinin tələbatlarının ödənilməsinə yönəldilməsi planlaşdırılır. Rumıniyaya Gürcüstan vasitəsilə göndəriləcək Azərbaycan qazının ilk mərhələdə həcmi 2 mlrd. kubmetr, ikinci mərhələdə – 5 mlrd. kubmetr, üçüncü mərhələdə üzrə isə 8 mlrd. kubmetr təşkil etməlidir. Həcmdən asılı olaraq layihənin dəyəri də 1,2-4,5 mlrd. avro məbləğində dəyişə bilər. Lakin yekun həcm və məbləğ texniki-iqtisadi əsaslandırma hazır olandan sonra müəyyənləşəcək. Adıçəkilən layihənin reallaşması üçün Rumıniya Azərbaycan və Gürcüstan Respublikaları ilə əməkdaşlıq edir. Danışıqlara görə təbii qazın daşınması məqsədilə birgə müəssisə yaradılacaq. Bu layihəyə Gürcüstan və Rumıniyada sıxılmış təbii qaz terminalının tikintisi daxildir. Layihənin icrasında «Romgaz», ARDNŞ və Gürcüstanın milli qaz şirkəti iştirak edəcək. Onlar bir beynəlxalq şirkətin də qoşulacağı bir konsorsiuma daxil olacaqlar [2].

2010-cu il sentyabrın 13-də ildə Bakıda AGRI (Azerbaijan, Georgia, Romania İnterconnector) qaz kəməri layihəsi çərçivəsində nazirlərin görüşü keçirilmişdi. Azərbaycanın Respublikası sənaye və energetika naziri Natiq Əliyevin sözlərinə görə " bir neçə ay ərzində tərəflər layihənin inkişafı üzrə öz təkliflərini irəli sürüblər və müntəzəm olaraq müzakirələr aparıblar, yekunda isə Bəyannamə imzalanacaq.

Layihə bilavasitə investisiya axtarışları ilə məşğul olacaq və birgə üçtərəfli müəssisənin yaradılmasını nəzərdə tutur.Macarıstan və Ukrayna dövlətləri də layihəyə maraq göstərirlər..İlkin məlumatlara görə, layihənin gücündən asılı olaraq, onun dəyəri 1,2 milyardla 4,5 milyard avro arasında dəyişir. Hər şey kapital qoyuluşu, əməliyyat xərcləri və yaradılacaq iş rejiminin gəlirliliyindən asılı olacaq. Rejim nə qədər liberal olsa, biz bir o qədər yaxşı şərtlərlə vəsaitlər cəlb edə bilərik. Layihənin nəzərdə tutulmuş gerçəkləşmə müddəti 20 ay təşkil edir, lakin son güc, müddət və investisiyaların həcmi haqqında yalnız texniki-iqtisadi əsaslara hazırlığın yekunlarından sonra danışmaq olar. Azərbaycan- Gürcüstan-Rumıniya birgə müəssisəsi layihəni həyata keçirəcək və onların hər biri bərabər pay alacaqlar. Lakin layihədə hər hansı digər ölkənin iştirakı münasibətləri dəyişə bilər.Mövcud layihəyə "Nabukko" layihəsinə rəqib kimi baxmaq olmaz. Çünki "Nabukko", ilk növbədə, bir neçə ölkənin birləşdiyi böyük həcmli qaz layihəsidir. İlin sonuna qədər Rumıniya və Macarıstan Respublikaları qaz nəqliyyatı şəbəkələrinin birləşdirilməsi üzrə işlər başa çatacaq ki, bu da qazı bu ölkələr vasitəsilə Avropanın qaz paylayıcı mərkəzi olan Baumqartenə (Avstriya) nəql etməyə imkan verəcək" [3].

Hələ 2010-cu il Mayın 12-də Azərbaycan, Rumıniya və Gürcüstan Respublikaları Tbilisidə bu layihənin gerçəkləşməsi üzrə birgə müəssisənin yaradılması barədə protokol imzalamışdılar. Birgə müəssisə mövcud layihənin icraçısı kimi çıxış edəcək. Podratçı şirkətin seçilməsi və maliyyələşdirmənin cəlb edilməsi üzrə tenderin elan olunması üçün bütün lazımi tədbirləri həyata keçirilmiş və Aprelin 13-də isə tərəflər "Maye qaz və onun nəqli sahəsində əməkdaşlıq haqqında" memorandum imzalamşdılar.Azərbaycan Respublikası maye qazının Rumıniyaya nəqli layihəsi maye qaz üçün iki terminalın inşasını - Gürcüstan və Rumıniyada nəzərdə tutulur.

2010-cu il sentyabrın14-də Bakıda Azərbaycan, Gürcüstan və Rumıniya Respublikları arasında AGRI (Azerbaijan-Georgia-Romania Interconnector) layihəsi çərçivəsində birgə müəssisəinin yaradılmasına dair müqavilə və yeni şirkətin nizamnaməsinin layihəsi imzalandı. Müqaviləni və nizamnamənin layihəsini Azərbaycan Dövlət Neftş Şirkəti, Gürcüstan Neft Qaz Korporasiyası və Rumıniyanın «ROMGAS» şirkətinin rəhbərləri imzaladı. Yaradılan şirkətin vəzifəsinə layihənin

texniki-iqtisadi əsaslandırmasını hazırlamaq, ptensial investorları cəlb etmək və s. məsələlər daxil edilmişdir. Yeni şirkət Rumıniya qanunvericiliyi əsasında yaradılmış və paytaxt Buxarest şəhərində qeydiyyatdan keçmişdir. Azərbaycan, Gürcüstan və Rumıniya Respublikaları bu şirkətdə eyni paya (33,3%) malik olacaq, lakin gələcəkdə yeni müəssisədə digər şirkətlər də pay ala bilər. 2010-cu ilin oktyabr ayının əvvələrində Buxarestdə hər üç ölkənin işçi qrupu yeni şirkətin əsasnaməsini müzakirə edib təsdiqləmişdir.Bəyannaməyə aşağıdakı şərtlər daxil edilmişdir: 1.Karbohidrogen resurslarının nəql edilməsinin diversifikasiyasına əsaslanan Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən (LNG İnterconnector) Layihəsinin həyata keçirilməsini dəstəkləyirlər. 2.AGRI Layihəsinin inkişafı üçün müvafiq Hökumətlər əlaqədar tədbirləri dəstəkləyirlər. 3.“Cənub Dəhlizinə” və Avropa enerji təhlükəsizliyinə töhfə kimi Avropa İttifaqı ölkələrinin AGRİ-nin dəstəklənməsinə yönəlmiş zəruri addımlarını həvəsləndirirlər. 4.AGRI Layihəsinin texniki-iqtisadi əsaslandırılmasının hazırlıq işlərinin sürətləndirilməsini təşviq edirlər. 5.Maraqlı dövlətlərin, beynəlxalq maliyyə təsisatlarının və şirkətlərinin, o cümlədən digər maraqlı tərəflərin AGRI Layihəsinin həyata keçirilməsində və inkişafında iştiraklarmı alqışlayırlar.

2010-cu il 14 sentyabır bəyannaməsinin razılaşdırılması məqsədi ilə Bakıda hələ 2010-cu il sentyabrın 6-da ekspertlərin, iştirakı ilə görüş də keçirilmişdir. Üç ölkə prezidentinin Bakı sammitində Avropa Komissiyasının sədri və enerji məsələləri üzrə komissarı da iştirak etmişdir.Gələcəkdə Azərbaycan Respublikası qazını Avropa Birliyinə üzv ölkələrə ixrac etmək üçün Konstansadan Bolqarıstan və Macarıstana iki ayrı boru kəməri çəkilməsi də nəzərdə tutulmuşdur.Layihə çərçivəsində Konstansa (Rumıniya) və dəyəri 4-6 mlrd. avro təşkil edən Kulevi (Gürcüstan) limanlarında maye qaz terminalları yaradılacaq.Bununla əlaqədar Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2010-cu il may ayının 24-də Buxarestdə imzalanmış “Mayeləşdirilmiş təbii qaz (LNG) və onun nəqli sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”-nun təsdiq edilməsi barədə sərəncam imzaladı. Sərəncamda Azərbaycan Sənaye və Energetika Nazirliyinə memorandumun həyata keçirilməsini təmin etmək məsələsi qeyd edilmişdir [4].

Azərbaycan Respublikası ilə Rumıniya dövləti arasında əlaqələri möhkəmlənərək strateji tərəfdaşlığa çevrilməsi hər iki dövlət başçısının intensivləşən Buxarest və Bakı səfərlərindən aydın görünür. Rumıniya prezidenti Trayan Beseskunun Azərbaycan Respublikasına səfəri zamanı hər iki dövlət başçısının "Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yerinə yetirilməsi üçün Birgə Fəaliyyət Planı"-nı imzalaması buna əyani sübutdur. Bakıda Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstanın dövlət başçıları və hökumət nümayəndələrinin AGRİ layihəsi üzrə mühüm Bəyannamə imzalaması ilə Azərbaycan Respublikasının enerji təhlükəsizliyinin təminatında istehsalçı və tranzit ölkə kimi geniş imkanlara malik olması, geostrateji əhəmiyyəti bir daha təsdiqlənmişdir**.**

Enerji layihələrinin şaxələndirilməsində və alternativ mənbələrin yaradılmasında maraqlı olan Azərbaycan Respublikasının iki və çoxtərəfli əməkdaşlığa dəyər verməsi AGRİ layihəsi üzrə texniki-iqtisadi əsaslandırılmasının hazırlanması üçün konkret işlər görülməsini asanlaşdırır. Avropa dövlətlərində enerji təhlükəsizliyi ilə bağlı baxışlar Azərbaycan Respublikasının mövqeyi ilə eynidir. Qitə dövlətləri üçün Azərbaycan Respublikası sabit və mühüm enerji mənbəyi olmaqla sərmayələr üçün etibarlı ölkədir. AGRİ ilk növbədə Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramına doğru yanaşmanın sübutu, enerji bazarını təmin edən alternativ yollar yaratmaq strategiyasına uyğundur. Avropa dövlətlərinə birbaşa dəhliz açan bu layihə Xəzər, Qara, Baltik və Aralıq dənizləri hövzələrində yerləşən dövlətlərin iqtisadi inkişafına təkan verəcək yeni neft-qaz kəmərləri barədə aparılan ciddi müzakirələr, Avropanın qaz və enerji təminatı ilə bağlı perspektivlərin ən önəmli variantı olan Nabukko layihəsi barədə danışıqların intensivləşməsini də təmin edəcək. Yuxarıda qeyd etdiyimiz kimi AGRİ layihəsinin şərtlərinə görə birinci mərhələdə Rumıniyaya (Konstansa limanına) 2,5, sonra isə 8 milyard kubmetr mavi yanacağın ötürülməsi nəzərdə tutulur. Hazırda qaz hasilatını 28 milyard kubmetrə çatdıran Azərbaycan Respublikası üçün göstərilən həcmdə qazın nəqli problem yaratmayacaq. Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında imzalanan "Cənub qaz dəhlizi" birgə bəyannamə kimi AGRİ də regionda enerji əməkdaşlığının yeni mərhələ üzrə inkişafı üçün imkanları artırır [5].

Azərbaycan Respublikası təbii qazının Gürcüstan və Qara dəniz vasitəsilə Rumuniyaya çatdırılması ətrafında gedən danışıqlarda Türkmənistan Respublikasının bu məsələlərdə fəal iştirakı öz aktuallığını daha da artırdı.Buna misal olaraq 2011-ci il mayın 11-13-dek Türkmənistan respublikasının prezidenti Qurbanqulu Berdiməhəmmədovun Rumuniyaya rəsmi səfəri və prezident Trayan Besesku ilə aparılan müzakirələri göstərmək olar.Türkmənistan qazının Azərbaycan Respublikası vasitəsilə Avropaya çatdırılması marşurutu ən uyğun variant hesab edilir .Beləki son illər İran İslam Respublikasının nüvə proqramını həyata keçməsi ətrafınada yaranan çaxnaşmalar,bu ölkəyə tədbiq olunan sanksiyalar (hətta son illər bu sanksiyaların qismən yumşaldılmasına baxmayaraq) gələcəkdə bu ərazidən hər hansı bir enerji marşurutunun keçəcəyi inanadırıcı görünmür**.** AGRİ layihəsinin reallaşması indiki dövrdə daha aktual görünür.Çünki Yaxın Şərqdə və Şimali Afrikada inqilab dalğası (ərəb baharı), Yaponiya Atom Elektrik Stansiyasında baş verən faciəvi hadisələr,Nabukko layihəsinin ləngiməsi Avropa ölkələrinin enerji təhlükəsizliyinə yenidən nəzər yetirməyə məcbur edir [6].

2011-ci il dekabırın 5-də Beynəlxalq tender prosesi keçirilmiş və "AGRI layihəsinin texniki-iqtisadi əsaslandırma ilə bağlı Məsləhət xidmətləri üçün təkliflər sorğusunda" müzakirələr keçirilmişdir. On iki şirkətin arasından “ Penspen Limited “ seçilərək 2012-ci ilin aprelində işə başlamışdır . 28 iyun 2012 ci ildə konsaltinq xidmətləri üçün müqavilə imzalanmışdır. Bu işin noyabr 2012-ci ildə tamamlanması gözlənilirdi. Ukrayna, Koreya, Malayziya, Norveç, Türkiyə, Bolqarıstan, İtaliya, Yaponiya və Serbiya AGRİ layihəsində əməkdaşlıq üçün maraqlı olduqlarını bildirmişdilər. Proqnozlara görə, Aİ-nın təbii qaza tələbatı 57%, 2030-cu ildə 84%-dən çox olacaq. Buna görə də, Avropa İttifaqı ölkələrinin uzunmüddətli enerji siyasətini nəzərə alıb Avropaya təhlükəsiz qaz təhcizatının təmini üçün enerji infrastrukturuna əhəmiyyətli investisiya qoyulmasına maraq gostərir.

Aparılan danışıqların nəticələri onu göstərir ki, layihə səmərəlidir və tezliklə investisiyalar cəlb ediləcək. AGRİ layihəsi “Nabukko”-ya alternativ deyil, Azərbaycanın həm mövcud qaz kəmərləri, həm AGRİ layihəsi, həm də “Nabukko” kəməri ilə nəql ediləcək qədər qaz ehtiyatları vardır və bu layihəsi Azərbaycan Respublikasının Avropa ölkələrinin

enerji təhlükəsizliyinin təmin olunmasında rolunu daha da artıracaq. Avropa ölkələrinə birbaşa dəhliz olan bu layihə, Xəzər, Qara, Baltik və Aralıq dənizləri hövzələrində yerləşən dövlətlərin iqtisadi inkişafına təkan verəcək yeni neft-qaz kəmərləri barədə aparılan ciddi müzakirələr, Avropanın qaz və enerji təminatı ilə bağlı perspektivlərin ən önəmli variantı olan Nabukko layihəsi barədə danışıqların intensivləşməsini də təmin edəcək.

AGRİ layihəsi siyasi-strateji mənada bir neçə cəhətdən də xüsusi önəm kəsb edir: 1. Bəhs edilən layihə Qara dəniz-Xəzər dənizi əməkdaşlığına yeni keyfiyyət bəxş edəcək. çünki hövzə əməkdaşlığının əsasını enerji təhlükəsizliyi təşkil etdiyindən bu layihənin reallaşdırılması həm enerji təhlükəsizliyinin təmin olunması, həm də yanaşı işbirliyi sahələrindəki əlaqələrin dərinləşməsi baxımından xüsusi önəm kəsb edir. 2. Layihəyə perspektivdə Xəzər dənizinin şərq sahilində yerləşən ölkələrin qoşulması ehtimalı təchizat yollarının diversifikasiyasını təmin etməklə bütövlükdə bəhs edilən coğrafi məkanda-regionda siyasi sabitliyin tam təminini zəruri şərtə çevirəcək. Çünki layihənin əhatə olunduğu bölgənin təhlükəsizlik balansının təmini və qorunması bilavasitə "layihənin ömrü"nü və perspektivini müəyyən edəcək. Nəzərə alsaq ki, AGRİ olduqca rentabellidir və ortaq maraqların uzlaşdırılması fonunda reallaşdırılır, onda qeyd edə bilərik ki, layihənin əhatə olunduğu bölgədə siyasi stabillik yüksək səviyyədə təmin olunacaq. Bu da siyasi münasibətlərə yeni keyfiyyət elementləri bəxş edəcək [7].

2013-cü ildə Azərbaycan Respublikası öz təbii qaz ehtiyyatlarından biri olan "Şahdəniz"-2 qaz yatağının işlənməsi üzrə yeni uğurlu strateji addım atdı. Beləki dekabırın 17-də "Şahdəniz" konsorsiumu Xəzər dənizində "Şahdəniz" qaz yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində tikinti işləri üçün iki böyük müqavilə bağladı. Birinci müqavilə Səngəçal terminalında "Şahdəniz-2" üçün yeni qurğuların tikintisi və istismar sınaqlarına dəstək işləri üzrə sənəddir. Bu müqavilənin dəyəri 998 milyon dollar təşkil edir. Bu müqavilə çərçivəsində nəzərdə tutulan işlərə 2014-cü ilin yanvar ayından başlanması planlaşdırılır və bu işlərin 2018-ci ildə başa çatacağı gözlənilir. İkinci müqavilənin dəyəri 974 milyon dollardır. Bu müqavilə çərçivəsində həyata keçiriləcək tikinti işlərinin də 2014-cü ilin yanvar

ayında başlanması və 2018-ci ildə isə başa çatdırılması planlaşdırılır.Şahdəniz tərəfdaşları (satınalma əməliyyatlarından sonra) aşağıdakı şirkətlərdir: BP (operator) (28,8%), ARDNŞ (16,7%), Statoyl (15,5%), Total (10%), Lukoyl (10%), NIKO (10%) və TPAO (9%). Bu faizlərə "BP" və ARDNŞ-nin "Statoyl"dan müvafiq olaraq aldığı yuxarıda qeyd olunmuş iştirak payları daxildir. Bu əməliyyatlar onların yekunlaşması üçün 2014-cü ildə yerinə yetirilməsi gözlənilən şərtlərdən asılıdır [8].

Şahdəniz qazının Türkiyə ərazisində və Avropaya daşınması üçün əlavə boru kəmərininin inşası hələ 2011-ci ilin oktyabr ayında Türkiyənin boru kəməri şirkəti BOTAŞ-la və Türkiyə hökuməti ilə qaz satışı və tranziti sazişləri imzalanmışdır. Bundan sonra, Türkiyə ərazisindən potensial qaz nəqli üçün Trans Anadolu Boru (TANAP) kəməri layihəsinə mühəndis-texniki araşdırmalara başlamaq imkanı verən sazişlər imzalanıb. (2012-ci iliyunun 26-sı İstanbul) Azərbaycan Respublikası qazının Avropaya daşınması üçün üç variant nəzərdən keçirilir: 1.İtaliya marşrutu olan Trans Adriatik Boru kəməri (TAP) 2. Türkiyə-Avropa sərhədindən qazı Şərqi Avropadan keçməklə qərbə aparacaq Nabucco-West.3 Macarıstan, Bolqarıstan və Rumıniyaya qədər uzanacaq Cənub-Şərqi Avropa Boru kəməri (SEEP). Şahdəniz konsorsiumu marşrutun son seçimini 2013-cü il iyunun 28-də etdi. “Şahdəniz” konsorsiumu son iki il ərzində Avropaya təbii qazın nəqli üçün boru kəmərinin bir neçə seçim variantını nəzərdən keçirib və TAP (Trans Adriatic Pipeline) üzərində dayanıb. Uzunluğu 870 km olacaq TAP kəməri Azərbaycan qazını Türkiyə, Yunanıstan və Albaniya ərazisi ilə İtaliyaya çatdıracaq. Layihənin ümumi dəyəri təxminən 2,2 milyard ABŞ dolları təşkil edir.

Həm AGRİ həm “Şahdəniz”-2 layihəsi üzrə yeni müqavilələr, yeni neft kəmərlərinin inşası ilk növbədə Avropa İttifaqının “Şərq Tərəfdaşlığı” proqramının uğurla həyata keçirilməsi üçün geniş imkanlar açacağı, onun icrasının Xəzər regionu ilə Avropa ölkələri arasında iqtisadiyyatla yanaşı, siyasi əməkdaşlığın inkişafına da təkan verəcəyi, Xəzər-Qara-Aralıq dənizlərinin əhatə olunduğu hövzənin enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr verməklə yanaşı, yeni strateji əməkdaşlıq platformalarının yaradılmasına və uzunmüddətli perspektivdə davam etdirilməsinə də təkan verəcək.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. E.M.Hacızadə "Azərbaycanın təbii qaz ptensialı:reallıqlar və virtual cizgilər" Bakı-2001-ci il səh.132.
2. http://www.agrilng.com/agrilng/Home/Actualitati
3. "Respublika", qəzeti. 14 sentyabır 2010-cu il
4. " Xalq qəzeti", 21 sentyabır 2010-cu il
5. "İki sahil", qəzeti 26 aprel 2011-cu il
6. http://www.ia-centr.ru/expert/10528/
7. "Yeni Azərbaycan" qəzeti 17 sentyabır 2010-cu il.
8. "Xalq qəzeti" 18 dekabır 2013-cü il
9. www.nabucco-pipeline.com.

А. Гусейнов

РОЛЬ ПРОЕКТА АГР (АЗЕРБАЙДЖАН-ГРУЗИЯ-РУМЫНИЯ) В ЭНЕРГЕТИЧЕСКОМ СОТРУДНИЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ЕВРОПЕЙСКИМИ СТРАНАМИ

РЕЗЮМЕ

АГР- это проект газопровода, соединяющий Азербайджан, Грузию и Румынию. Основа проекта была заложена в 2010 году в столице Румынии, в городе Бухаресте. Стоимость проекта составляет 4 миллионов евро. Стороны имеют одинаковую долю в проекте - 33,3%. Большой интерес к данному проекту проявили также такие страны, как Венгрия, Украина, Норвегия и Туркменистан. В случае реализации проекта ожидается транспортировка в Европу около 8 миллиардов кубических метров газа.

A. Huseynov

AZERBAIJAN - EUROPEAN COUNTRIES WITHIN THE FRAMEWORK OF COOPERATION IN THE ENERGY AGRI (AZERBAIJAN-GEORGIA-ROMANIA RELATIONS) IN THE PROJECT.

SUMMARY

AGRI- Azerbaijan, Georgia and Romania connecting gas pipeline project. This project was founded in 2010 in Bucharest city. The project will cost $ 4 billion euros. The parties shall have the same share of 33.3%. Hungary, Ukraine, Norway, Turkmenistan and other countries of interest shows the transmission pipeline to Europe is expected to be 8 billion cubic meters of gas.

1980 - ci İLLƏRİN SONUNDA AZƏRBAYCANIN DAĞLIQ QARABAĞ REGİONUNDA ERMƏNİ SEPARATÇILIĞI

Aydın MİRZƏZADƏ

Açar sözlər: Azərbaycan, Ermənistan, Dağlıq Qarabağ , SSRİ, separatçılıq, terror
Key words: Azerbaijan, Armenia, Nagorno-Karabakh, the USSR, separatism, terrorism
Ключевые слова: Азербайджан, Армения, Нагорный Карабах, СССР, сеператизм, терроризм

Giriş: 1980-ci illərin ortalarına doğru SSRİ-də başlayan siyasi, sosial və iqtisadi proseslər istər dünya düzəninə, istərsə də Sovet İttifaqını təşkil edən respublikaların həyatına kardinal dəyişikliklər gətirmiş oldu. Lakin bu proseslərin təhlükəli tərəfi də ortaya çıxdı: qısa bir müddətdən sonra "milliyyətçilik" və "millətçilik" kateqoriyaları arasında fərqin silinməsinə, qeyri-millətdən olan insanlara və mədəniyyətlərə dözümsüzlüyün (ksenofobiyanın) artmasına, nəticədə isə SSRİ-də məskunlaşan xalqların arasında milli ədavətin ortaya çıxmasına, etnik qarşıdurmaların güclənməsinə gətirib çıxardı. 1800-ci və 1900-cü illərin əvvəllərində olduğu kimi, XX əsrin sonlarında da Qafqazın separatçılığa meylli xalqı – ermənilər bölgədə etnik və milli qarşıdurmaların, digər ölkənini ərazisinə iddiaların və işğalçılığın nümunəsinə çevrildilər.

SSRİ-ni təşkil edən bəzi milli respublikalara, o cümlədən Azərbaycana qarşı həyata keçirilən diskriminasiya siyasəti, regionların qeyri-bərabər inkişafı, SSRİ-dəki antidemokratik, totalitar idarəçilik bir müddət sonra daxili ziddiyyətlər törətdi və onun mövcudluğu üçün ciddi porblemlər yarandı. Bu quruluş İ.Stalin və N.Xruşşov diktaturası tərəfindən zorla saxlansa da, L.Brejnev və sonrakı dövrdə daxili ziddiyyətlər pik həddinə çatdı [14, s.105].

SSRİ-də yaşanan ağır sosial-siyasi böhran birbaşa iqtisadi duğrunluqla bağlı idi. Planlı sovet iqtisadiyyatı rentabelli deyildi, üstəlik II Dünya müharibəsindən sonra yaranan sosialist düşərgəsi ölkələrinə (bu ölkələrin böyük bir qismi isə feodal quruluşundan tam ayrılmamış üçüncü

Aydın Mirzəzadə –s.e.ü.f.d., AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı

dünya ölkələri idi) böyük maliyyə yardımları edən sovet hökuməti ölkənin daxilindəki onsuz da qeyri-bərabər sosial-iqtisadi inkişafa malik müttəfiq respublikaların iqtisadiyyatındakı tənəzzülü dərinləşdirirdi. Statistik məlumatlara nəzər salsaq, 1980-ci illərin əvvəllərinə doğru vəziyyətin daha acınacaqlı şəkil aldığını görərik: 1981-1985-ci illərdə SSRİ-də sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı 2,5-3 dəfə aşağı düşmüşdü, əmək məhsuldarlığının orta illik artımı cəmi 3 % təşkil edirdi. İstehsal olunan məhsulun orta illik artımı 1965-1970-ci illərlə müqayisədə, 8,5 %-dən 3,1 %-ə, kənd təsərrüfatında 4 %-dən 1,2 %-ə, mal dövriyyəsi 8,2 %-dən 2,8 %-ə, əsaslı vəsait qoyuluşu 7,6 %-dən 3,3 %-ə enmişdi [5, s.229].

1985-ci ildə "aşkarlıq", "yenidənqurma", "demokratiya" şüarları altında hakimiyyətini başlayan Mixail Qorbaçov daxili böhran nəticəsində tənəzzül yaşayan SSRİ-ni dünyanın siyasi xəritəsində saxlamağa çalışırdı. Halbuki ölkəni bu tənəzzüldən çıxarmaq üçün ilk növbədə iqtisadiyyatın yenidən qurulması, dəqiq desək, demokratikləşdirilməsi lazım idi. İqtisadiyyatda "dövlət kapitalizmi"nin hökm sürdüyü surətdə, siyasi demokratikləşdirmə vəziyyəti dəyişdirə bilməzdi. Əksinə, iqtisadiyyatın sosialistcəsinə qurulduğu, yeni iqtisadi formaların yaranması prosesinin çox zəif getdiyi SSRİ-də siyasi proseslərin nisbətən daha yüksək sürəti böhranı daha da dərinləşdirdi.

Sosial həyat şəraiti durmadan ağırlaşan sovet vətəndaşı "aşkarlıq", "yenidənqurma", "demokratiya" şüarları altında daha artıq siyasi tələblər irəli sürməyə başladı ki, bu da böyük bir əraziyə və əhaliyə sahib olan SSRİ üçün ciddi fəsadlar doğurmaya bilməzdi. Siyasi tələblərə milli məsələ ilə bağlı tələblər də əlavə edilincə, bütün imperiyalar üçün xas olan hadisə SSRİ-də də baş verdi: müttəfiq respublikalarda və muxtariyyət hüququ olan vilayətlərdə mərkəzə tabe olmamaq halları, "millətlərin öz müqəddəratını təyin etmək hüququ" adı altında separatçılıq meylləri pik həddinə çatdı.

1980-ci illərin ortalarına doğru SSRİ-də başlayan siyasi, sosial və iqtisadi proseslər istər dünya düzəninə, istərsə də Sovet İttifaqını təşkil edən respublikaların həyatına kardinal dəyişikliklər gətirmiş oldu.

Daxili böhranı açıq-aşkar təzahür edən Sovet İttifaqının beynəlxalq arenada nüfuzu kəskin şəkildə aşağı düşdü. "Soyuq müharibə"nin başlıca

iki cinahından birini təşkil edən SSRİ-nin ilk növbədə Şərqi Avropadakı sosialist ölkələri ilə böyük problemləri yarandı. Bu proses 1950-ci illərin ikinci yarısından başlasa da, o 1980-ci illərin ortalarında daha kəskin şəkil aldı. Üstəlik, Avropa İqtisadi Birliyinin[1] cənuba doğru genişlənməsi (1981-ci ildə Yunanıstanın, 1986-cı ildə isə İspaniya və Portuqaliyanın Birliyə üzv qəbul edilməsi) Şərqi Avropa ölkələrinin sovet düşərgəsindən ayrılma təhlükəsini artırdı. 1985-ci ildə Avropa Regionlar Assamble-yasının yaradılması, 1986-cı ildə isə Vahid Avropa Aktının qəbulu bu təhlükənin real olduğunu göstərirdi [17, s.65]. Belə ki, həmin illərdə Polşa və Macarıstan kimi dövlətlər "sosialist səddini yararaq" [9, s.489] Avropa İqtisadi Birliyi ölkələri ilə iqtisadi əlaqələrini genişləndirir və hətta müştərək layihələr həyata keçirməyə başlayır.

Sosialist düşərgəsində siyasi və iqtisadi təmayülün bu qədər kəskin şəkildə dəyişməsi SSRİ-nin beynəlxalq nüfuzunu aşağı salmaqla yanaşı, ölkə vətəndaşlarının içərisində də öz dövlətinə olan inamsızlığını artırmış oldu və dolayısıyla daxili sosial-siyasi böhranı gücləndirən amillərdən birinə çevrildi.

Lakin 1980-ci illərin ortalarında SSRİ-də başlayan bu proseslər mütləq mənada neqativ də sayıla bilməz, çünki 1985-ci il aprelində Sov. İKP MK -nın plenumundan sonra sovet rəhbərliyinin elan etdiyi "yenidənqurma, aşkarlıq, plürealizm və demokratiya" şüarı uzun illərdən bəri sovet totalitarizminin buxovları altında qalmış vətəndaşlar üçün bəzi siyasi hüquqların bərpası demək idi. Digər tərəfdən, milli-mənəvi dəyərləri uzun müddət "beynəlmiləl", "sosialist" mədəniyyətlərin içərisində arxa plana keçən, Rusiya mədəniyyətinin və tarixinin əlavəsi olaraq qəbul edilən müttəfiq respublikalarda bu dəyərlərin bərpası üçün şərait yaranmışdı.

Amma bu siyasi proseslərin təhlükəli tərəfi də var idi: tarixə münasibətin dəyişməsi qısa bir müddətdən sonra "milliyyətçilik" və "millətçilik" kateqoriyaları arasında fərqin silinməsinə, qeyri-millətdən olan insanlara və mədəniyyətlərə dözümsüzlüyün (ksenofobiyanın)

---

[1] Avropa İqtisadi Birliyi (European Economic Community) – indiki Avropa İttifaqı (European Union)

artmasına, nəticədə isə SSRİ-də məskunlaşan xalqların arasında milli ədavətin ortaya çıxmasına, etnik qarşıdurmaların güclənməsinə gətirib çıxardı. Bu proseslərin təsiri altında böyük sayda xalqların və millətlərin, etnik qrupların məskun olduğu Qafqaz bölgəsi SSRİ-nin və tezliklə dünyanın "qaynar" nöqtələrindən birinə çevrildi. 1800-ci və 1900-cü illərin əvvəllərində olduğu kimi, XX əsrin sonlarında da Qafqaza gəlmə və separatçılığa meylli xalqı ermənilər bölgədə etnik və milli qarşıdurmaların, digər ölkənini ərazisinə iddiaların və işğalçılığın nümunəsinə çevrildilər.

Ermənilərin uydurma "Böyük Ermənistan" yaratmaq planlarının, Azərbaycana ərazi iddialarının və azərbaycanlılara qarşı soyqırımı siyasətinin yenidən fəallaşmasında təkcə SSRİ-dəki proseslər deyil, xaricdə baş verən hadisələr də güclü təsir göstərmiş oldu. Belə ki, dünya düzəninin kardinal şəkildə dəyişməsi, "soyuq müharibə"nin başlıca iştirakçısı olan Sovet İttifaqının dünya siyasətində rolunun kəskin azalması erməni diasporasının və müxtəlif dövlətlərin, o cümlədən ABŞ-ın və Qərbi Avropa ölkələrinin parlament və hökumətlərində güclü mövqeyi olan erməni lobbisinin güclənməsinə səbəb oldu.

1985-ci ildə erməni millətçilərinin "Daşnak" partiyasının XXIII qurultayında (Afina, Yunanıstan) dünya ermənileri uydurma "Böyük Ermənistan" uğrunda mübarizəni genişləndirmək üçün mübarizəyə çağrılmışdı [12, s.141]. Ermənilərin bu çağırışının arxasında separatçılığın və milli qarşıdurma meyllərinin olması dünya ictimaiyyətini nəinki narahat etmədi, əksinə bəzi beynəlxalq təşkilatların ermənilərin bu iddialarını dəstəkləməsinə səbəb oldu. 1987-ci il iyulun 18-də Avropa Parlamenti 1915-ci il qondarma "erməni soyqırımı"nı tanıdı [19, s.14] və bu hadisə dünyadakı bütün erməni diasporası üzvləri üçün siqnal oldu. Həmin il noyabrın 18-də M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik A.Aqanbekyan Fransanın "Humanite" qəzetinə müsahibə verdi və bu müsahibəsində sovet "alimi" Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi məsələsini vurğuladı, hətta bu məsələ ilə bağlı M.Qorbaçova da bəzi təkliflər verdiyini bildirdi [19, s.20; 10, s.160; 12, s.140].

Akademik A.Aqanbekyanın müsahibəsi sadəcə hər hansı bir ermənin Dağlıq Qarabağla bağlı qondarma iddia irəli sürməsi hadisəsi

deyildi, əks halda bu müsahibəyə dissertasiyada geniş yer ayırmağa dəyməzdi. Məsələnin ciddi tərəfi ondan ibarətdir ki, Aqanbekyan Sov.İKP MK Baş Katibi M.Qorbaçovun strateji köməkçilərindən biri idi. M.Qorbaçovun ətrafında o zaman Şahnazarov, Brutens, Sitaryan kimi erməni mənşəli ali məmurlar da cəmlənmişdi. SSRİ rəhbərliyində ermənilər güclü lobbiyə sahibdirlər və sovet siyasətinə böyük təsir gücü qazanmışlar. Təsadüfi deyil ki, məhz həmin ilin oktyabrında Azərbaycanın milli maraqlarının güclü müdafiəçisi, erməni lobbisinə müqaviməti təşkil edə biləcək və milli qüvvələri səfərbər etməyə qadir olan, SSRİ rəhbərliyinə potensial namizəd Heydər Əliyev tutduğu vəzifədən və Siyasi Bürodan uzaqlaşdırılmışdı. Bir-birilə sıx əlaqəsi olan bu hadisələr ermənilərin Azərbaycana qarşı ərazi iddialarının, azərbaycanlılara qarşı soyqırımı və işğalçılıq siyasətinin kortəbii deyil, planlı şəkildə getdiyini sübut edirdi.

Avropa Parlamentinin qeyd edilən qərarından və A.Aqanbekyanın məlum müsahibəsindən sonra ermənilərin "Qarabağ (Arsax) hərəkatı" başladı. Ermənilərin "Qarabağ Komitəsi" və onun DQVM-dəki bir qolu olan "KRUNK" (rus.: Комитет Революционного Управления Нагорного Карабаха) separatçı-terrorçu təşkilatı açıq fəaliyyətə başladı, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini məqsəd elan edən "Miasum" (Birləşmə) hərəkatı formalaşdı.

"Qarabağ Komitəsi"nin bir qolu olan "KRUNK" Dağlıq Qarabağın tarixi-memarlıq abidələrinin mühafizəsi məqsədilə yaradılmış bir təşkilat kimi təqdim edilsə də, tezliklə onun əsl terror və separatçı təşkilatı olduğu məlum oldu. Təşkilata Xankəndi (Stepanakert) tikinti materialları kombinatının direktoru A.Manuçarov başçılıq edirdi, onun ideoloji şöbəsinin rəhbəri isə o zaman Xankəndi (Stepanakert) ipək fabrikinin partiya komitəsinin katibi R.Köçaryan idi.

Təşkilatın həm ideoloji, həm siyasi, həm də silahlı mübarizə aparması faktları sovet hüquq-müdafiə orqanlarına bəlli olsa da, nə təşkilat, nə də onun rəhbəri barədə o zaman cəza tədbirləri görülməmişdi [12, s.144], yalnız hadisələr qarşısıalınmaz məcraya yönəldikdə "KRUNK"un fəaliyyəti (1988-ci ilin mayın 8-də) qadağan edildi, A.Manuçarov isə cəmi 1,5 il həbs cəzası aldı (22).

1986-1987-ci illərdə başlamış olan bu siyasi proseslərə paralel olaraq

Azərbaycana və azərbaycanlılara qarşı ideoloji terror hərəkatı da başladı. Hərəkatın başlıca formaları Dağlıq Qarabağın guya tarixi erməni torpağı olduğu, ermənilərə qarşı bölgədə soyqırımı siyasətinin aparıldığı, azərbaycanlıların Qafqaza gəlmə xalq olduğu və s. bu kimi cəfəng fikirlərin mətbuata və ədəbiyyata, o cümlədən elmi ədəbiyyata sızması, bu istiqamətdə müxtəlif tipli kitabların kütləvi şəkildə nəşr olunaraq yayılması, separatçılıq çağırışları olan vərəqələrin Qarabağın müxtəlif şəhərlərində paylanması idi.

Bu kitabların içərisində ən məşhuru Zori Balayanın "Ocaq" kitabı idi. Bu kitab hələ 1981-ci ildə İrəvanda, 1984-cü ildə isə Moskvada nəşr olunmuşdu [15]. Kitabda erməni şovinisti Dağlıq Qarabağın və Naxçıvanın erməni torpağı olduğunu sübut etməyə çalışır, türkləri (azərbaycanlıları) Rusiyanın və Ermənistanın düşmənləri elan edirdi. Əslində, Z.Balayan Qarabağın Ermənistana birləşdirilməsinin ideoloji rəhbərlərindən biri idi.

Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin göstərdiyi kimi, "Azərbaycanlılar SSRİ-nin mərkəzi kütləvi informasiya vasitələrində və Ermənistanın müxtəlif mətbuat orqanlarında məqsədyönlü şəkildə həyata keçirilən ideoloji təcavüzə məruz qalmağa" başladılar, bu kampaniyanın başlıca məqsədi "mənfi azərbaycanlı obrazı yaratmaq idi" (7, s.26). Erməni ideoloqlarının geniş miqyaslı fəaliyyəti tezliklə öz nəticələrini verməyə başladı. Bölgədəki erməni əhalinin azərbaycanlılara qarşı əsrlər boyu davam edən nifrətinin yeni dalğası terror hərəkətlərinə yol açdı.

1988-ci ilin yanvar-fevral aylarından başlayaraq Ermənistanda və Dağlıq Qarabağda ermənilərin etiraz dalğaları açıq-aşkar antiazərbaycan xarakteri aldı. İlk qığılcım 1988-ci ilin yanvarında Ağdərə rayonunun Sırxavənd kəndində azərbaycanlı gəncin ermənilər tərəfindən vəhşicəsinə döyülməsi oldu [1, s.33]. Daha sonra Ermənistanın Qafan və Mehri rayonlarında yaşayan azərbaycanlıların bir qrupu (4000 nəfər) ermənilərin təqiblərindən qaçaraq Azərbaycana gəldi [12, s.145].

1988-ci ilin fevralın 12-də və 13-də müvafiq olaraq İrəvanda və Xankəndində (Stepanakertdə) ermənilərin mitinqləri başladı. Mitinqlərdə səsləndirilən başlıca şüarlar azərbaycanlılara qarşı yönəlmişdi. Bu şüarların təsiri altında İrəvandakı mitinqin iştirakçıları şəhərdəki məscidi yandırdılar, Aşıq Ələskərin qəbrini və Səməd Vurğunun abidəsini təhqir

etdilər [12, s.146]. Xankəndindəki (Stepanakerdəki) mitinq də eyni məzmunda keçirildi və azərbaycnalıların Qarabağdan çıxarılması tələbləri irəli sürüldü.

Ancaq nə İrəvandakı, nə də Xankəndindəki (Stepanakertdəki) mitinqlərin və qarşıdurmaların təşkilatçıları və iştirakçıları cəzalandırılmadı. Baxmayaraq ki, fevralın 18-də DQVM Partiya Komitəsinin Büro iclasında bəzi erməni şovinistlərinin həbsi haqqında məsələ qaldırılmışdı, amma Moskvanın təzyiqi altında bu həbslər həyata keçirilmədi [12, s.146]. Əksinə, Azərbaycan KP MK-nın ikinci katibi V.Konovalovun iştirakı ilə keçirilən bu iclasa cavab olaraq, növbəti gün, fevralın 19-da keçirilən DQVM Partiya Komitəsinin Büro iclasında mitinqlərin başlıca səbəbinin vilayətdəki sosial-iqtisadi problemlər olduğu, ermənilərin respublika rəhbərliyi tərəfindən sosial və iqtisadi təqiblərə məruz qaldığı göstərildi [8, s95].

Vilayətin rəhbər işçiləri baş verən proseslərin qarşısını nəinki almadılar, əksinə mitinqlərin tezliklə qətliamlara çevrilməsinə yol açdılar. Belə ki, 1988-ci ilin fevralında DQVM-nin bir çox rayonunda Sovetlərin sessiyaları keçirildi və vilayətin Ermənistana birləşdirilməsini təklif edən qərarlar qəbul edildi. 1988-ci il fevralın 20-də DQVM Sovetinin növbədənkənar sessiyasında isə "DQVM-nin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında" qərar qəbul edildi (2, v.6). Fevralın 21-də isə Sov.İKP MK-nın Siyasi Bürosunda Dağlıq Qarabağ hadisələri müzakirəyə çıxarıldı, fevralın 23-də mərkəz öz nümayəndə heyətini Xankəndinə (Stepanakertə) göndərdi. Sov.İKP MK-nın katibi Q.Razumovskinin başçılıq etdiyi nümayəndə heyəti vəziyyəti nəinki sakitləşdirmədi, əksinə erməni mitinqlərinin təşkilatçılarından biri olan Q.Paqosyanı Vilayət Komitəsinin birinci katibi təyin etdi [8, s.97].

Moskvanın ədalətsiz mövqeyi və respublika rəhbərliyinin acizliyi Ermənistandakı və Dağlıq Qarabağdakı ermənilərin separatçılıq fəaliyyətini və terrorçuluq hərəkətlərini genişləndirmiş oldu. Cəzasız qalan ermənilərin azərbaycanlılara qarşı qətliamları başladı. 1988-ci il fevralın 22-də Əskəran rayonunda ermənilər tərəfindən 2 nəfər azərbaycanlı gənc qətlə yetirildi, 19 nəfər isə yaralandı. Lakin bu hadisə də Azərbaycanın o zamankı rəhbərliyi tərəfindən tam ciddiliyi ilə qəbul edilmədi və "ermənilərin planlarına qarşı düşünülmüş siyasi xətt

hazırlanması ilə nəticələnmədi" [11, s.81]. SSRİ rəhbərliyi isə fevralın 23-də Azərbaycan və Ermənistan əhalisinə müraciət etməklə kifayətləndi [18, s.11-13]. Üstəlik bu müraciətdə, N.Məmmədovun doğru olaraq göstərdiyi kimi, "erməni separatçıları ilə hüquqlarını müdafiə edən Azərbaycan xalqı" eyniləşdirilirdi [12, s.148].

1988-ci il fevralın 26-da Azərbaycana və Ermənistana Moskvanın xüsusi nümayəndələri göndərildi, bu səfərlər zamanı hər iki respublikanın rəhbərləri ilə görüşlər keçirildi. Bu görüşlərin nə qədər effektsiz olduğu artıq fevralın 27-də bilindi. Həmin gün nəinki Xankəndində (Stepanakertdə), eyni zamanda vilayətin digər şəhərlərində də antiazərbaycan mitinqləri keçirildi. Bu mitinqlər vilayətin azərbaycanlı əhalisinə qarşı təqib və soyqırımlarını həyata keçirmək üçün erməni əhali arasında antiazərbaycan ruhunu və niftər hissini gücləndirdi. Bu təmayülün güclənməsi üçün Mərkəzin və erməni ideoloqlarının növbəti addımı isə Sumqayıt hadisələri oldu.

1988-ci il fevralın 28-də SSRİ DTK orqanlarının əvvəlcədən hazırladığı plan əsasında Azərbaycanın böyük sənaye mərkəzi olan Sumqayıtda xüsusi qəsdlər törədildi [16, s.355-363]. Qəsdlərin başında milliyyətcə erməni olan, amma özünü azərbaycanlı kimi təqdim edən E.Qriqoryan dururdu. Sumqayıt hadısələrinin törədilməsində məqsəd burada məskunlaşmış azərbaycanlı qaçqınlarla şəhərin erməni əhalisi arasında qarşıdurma yaratmaq və bir neçə erməni millətindən olan sakini qətlə yetirməklə, Azərbaycanda ermənilərə qarşı soyqırımı siyasətinin aparıldığını dünya ictimaiyyətinə çatdırmaq, Dağlıq Qarabağ ətrafında ortaya çıxmış erməni separatçılığına və terroruna haqq qazandırmaq idi. Sumqayıt hadisələri zamanı 26 erməni ilə yanaşı, 6 azərbaycanlının da qətlə yetirilməsi, 200 mənzilin qarət edilməsi, şəhərin infrastrukturuna böyük ziyan vurulması hadisələrin arxasında sovet/rus və erməni kəşfiyyat orqanlarının durduğunun bariz sübutu idi [12, s.150-151].

Sumqayıt hadisələrini törətməkdə ermənilərin daha bir hədəfi – Dağlıq Qarabağda və Ermənistanda azərbaycanlılara qarşı təqib və terror siyasətini genişləndirmək idi. Azərbaycanda ermənilərin "soyqırımı" xəbəri dünya erməni diasporasının fəaliyyətini genişləndirdi və Ermənistandakı, həmçinin vilayətdəki ermənilərin antiazərbaycan əhval-ruhiyyəssini artırdı. Tezliklə bölgədə azərbaycanlılara qarşı sözün əsl

mənasında iri miqyaslı terror hərəkatı başladı. Hadisələrin yeni mərhələsi üçün başlanğıc 1988-ci ilin martında qoyuldu: martın 10-da Ermənistanda (İrəvanın cənubunda azərbaycanlılara məxsus Mehmandar kəndində) 4 azərbaycanlı qətlə yetirildi, martın 25-də isə Ararat rayonunun azərbaycanlı kəndlərindəki azərbaycanlılar qovuldu, onlkarın evləri isə talan edildi. Mayın ortalarında İrəvan yaxınlığındakı azərbaycanlı əhalinin məskun olduğu kəndlərə basqınlar təkrar oldu [3, s.65-66] Ümumilikdə isə bu müddətdə Ermənistanda 225 azərbaycanlı qətlə yetirildi, 1200 nəfər yaralandı, 230 min azərbaycanlı öz ata-baba torpaqlarından qovuldu, 31 min ev, 165 kolxoz talan edildi [12, s.151].

Ermənilərin Ermənistandakı azərbaycanlılara qarşı amansızlıqları, terror və soyqırımları Dağlıq Qarabağda da separatçılığın genişlənməsi və antiazərbaycan siyasətinin güclənməsi ilə eyni vaxtda gedirdi ki, bu da hadisələrin məqsədyönlü və planlı təşkilindən xəbər verirdi. 1988-ci il martın 6-da DQVM Partiya Komitəsinin Büro iclasında Dağlıq Qarabağ Muxtar Vilayətinin adının dəyişdirilərək Dağlıq Qarabağ Erməni Muxtar Vilayəti adlandırılması, vilayətdə erməni dilinin əsas dil elan edilməsi, vilayətdəki kəndlərin adlarının dəyişdirilməsi və s. bu tipdə separatçı tədbirlər haqqında qərar qəbul edildi və qərar Sov.İKP MK-ya göndərildi [8, s.100]. Qərarı alan Sov.İKP MK-də martın 9-da DQVM ilə bağlı müşavirə keçirildi. Müşavirədən sonra martın 17-də Xankəndinə (Stepanakertə) xüsusi komissiya göndərildi. Komissiyanın fəaliyyəti Azərbaycanda erməni separatçılığının nəinki qarşısını almadı, əksinə gücləndirdi.

1988-ci il martın 24-də "1988-1995-ci illərdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarı bu separatçılığı ört-basdır etməyə yönəldilmişdi [11, s.84]. Bu qərarla vilayətin sosial-iqtisadi inkişafına "külli miqdarda vəsait ayrıldı, vilayətin bir çox məsələlərinin həlli birbaşa İttifaq nazirlik və qurumlarına həvalə edildi" [7, s.25]. Bu vəsait vilayətdəki erməni silahlı dəstələrinin təchizatı üçün böyük maliyyə mənbələrindən biri oldu. Təsadüfi deyil ki, həmin il Xankəndi (Stepanakert) Elektrotexnika Zavodu qumbara istehsal etməyə başladı, Şuşa Radio Zavodu isə minaaxtaran qurğu istehsalına başladı [12, s.15]. Bundan əlavə, Ermənistandan silah

gətirilməsini asanlaşdırmaq üçün İrəvanla Xankəndi (Stepanakert) arasında hava nəqliyyatı genişləndirildi (12, s.158).

Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi yolunda ermənilərin terror hərəkətləri ilə yanaşı, bu dövrdə "hüquqi" fəaliyyətləri də genişləndi. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti Azərbaycan SSR-in tərkibində olan DQVM-nin Ermənistanın tərkibinə daxil edilməsi haqqında qərar qəbul etdi [18, s.84]. Buna cavab olaraq iyunun 17-də Azərbaycan SSR Ali Soveti bu qərarı qeyri-qanuni akt elan etdi (4). Bu qərara məhəl qoymayan DQVM Xalq Deputatları Sovetinin iyunun 21-də növbədənkənar sessiyası keçirildi və SSRİ Ali Sovetinə Dağlıq Qarabağın Ermənistanın tərkibinə verilməsi haqqında müraciət qəbul edildi [21, s.87]. İyulun 12-də DQVM XDS-nin sessiyasında Vilayətin Azərbaycan SSR-nin tərkibindən çıxarılması haqqında qərar qəbul edildi [21, s.34]. Öz növbəsində Azərbaycan SSR Ali Soveti iyulun 17-də DQVM-nin Azərbaycanın tərkibindən çıxarılaraq Ermənsitan SSR-yə verilməsinin qeyri-qanuni olduğu haqqında qərar çıxardı [6, s.98]. İyulun 18-də isə SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında Azərbaycan SSR və Ermənistan SSR-nin sərhədlərinin dəyişdirilməsinin yolverilməz olduğu haqqında qərar qəbul edildi [12, s.161]. Mərkəz guya vəziyyəti sabitləşdirmək üçün DQVM-də "xüsusi vəziyyət" elan etdi.

Ermənistanda və Dağlqı Qarabağda azərbaycanlılara qarşı həyata keçirilən təqiblərə və terror siyasətinə qarşı Bakıda və Azərbaycanın digər şəhərlərində başlayan etiraz dalğası Mərkəzin sərt tədbriləri ilə qarşılaşdı. Bölgədə əsl separatçılığın mənbəyi olan DQVM ermənilərinin qanunsuza hərəkətlərinə və cinayətlərinə son qoymaq əvəzinə, mərkəz Azərbaycanı cəzalandırmaq qərarına gəldi. 1988-ci il noyabr hadisələrindən sonra Bakıda, Gəncədə, Naxçıvanda "xüsusi vəziyyət və komendant saatı" elan edildi, kütləvi həbslər başladı [12, s.162].

Bu tədbirlərlə kifayətlənməyən Moskva 1988-ci il dekabrın 15-də "Azərbaycan SSR və Ermənistan SSR-in bəzi vəzifəli şəxslərinin qanunsuz hərəkətləri haqqında" qərar qəbul etdi və qərara müvafiq olaraq Azərbaycanda (Ermənistanda bu tədbirlər səthi xarakter daşımışdı) 2500-dən çox adam məsuliyyətə cəlb edildi, 222 nəfər məsul şəxs vəzifəsindən azad olundu, onlar haqqında cinayət işi açıldı [12, s.164]. Bu, sovet terrorunun bir xalqa qarşı yönəlmiş növbəti dalğası idi.

1989-cu il yanvarın 12-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında" fərman verdi. Fərmana əsasən, Dağlıq Qarabağın Azərbaycan tərkibində muxtar vilayət statusu saxlanılmaqla bölgədə birbaşa Moskvaya tabe olan "Xüsusi İdarə Komitəsi" yaradıldı. Dağlıq Qarabağ münaqişəsini nizama salmaq üçün yaradılmış və Moskvadan göndərilmiş Arkadi Volskinin rəhbərlik etdiyi Komitə əslində DQVM-nin Azərbaycanın suverenliyi altından çıxarılmasına xidmət edən bir təşkilat oldu [13, s.454].

A.Volskinin vilayətdə yaratdığı terror rejimi ermənilərin həm ideoloji, həm hərbi-siyasi fəaliyyətini genişləndirmələrinə imkan yaratdı. Vilayətin azərbaycanlı əhalisinin təqibləri nəinki səngimədi, əksinə daha da geniş miqyas aldı. Ermənilərin separatçılığı isə görünməmiş vüsət aldı. 1989-cu il avqustun 16-da Xankəndində (Stepanakertdə) ermənilərin "Milli Şurası" yaradıldı və bu Şura vilayətlə bağlı bütün qərarların verilmə səlahiyyətini öz əlinə aldı, bunun ardınca ermənilərin "Milli Müdafiə Dəstələri" yaradıldı [20, s.51]. Bu, bölgədə azərbaycanlılara qarşı soyqırımının bundan sonra daha da genişlənəcəyindən xəbər verirdi.

Həqiqətən, çox az müddət sonra Azərbaycanda erməni terror təşkilatları fəallaşdı. 1989-cu ilin avqustunda Qarabağın Cəmilli, Həsənabad və Daşbulaq kəndlərində azərbaycanlı sakinlər ermənilər tərəfindən soyqırımına məruz qaldı, hər üç kənd terrorçular tərəfindən yandırıldı. Sentyabr ayında Tiflis-Bakı avtobusu partladıldı, terror nəticəsində 5 nəfər öldü, 25 nəfər yaralandı. Oktyabr ayında isə Şuşanın Xəlfəli körpüsü və Əskəran-Ağdam körpüsü ermənilər tərəfindən partladıldı [19, s.176].

Baş verən bu hadisələrdən sonra 1989-cu il sentyabrın 16-da Azərbaycan SSR Ali soveti DQVM-də "Xüsusi İdarə Komitəsi"nin ləğv olunması haqqında SSRİ Ali Sovetinin Rəyasət Heyəti qarşısında vəsatət qaldırdı və noyabrın 28-də SSRİ Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyətin normallaşdırılması tədbirləri haqqına" qərar qəbul etdi. "Xüsusi İdarə Komitəsi" ləğv edildi və onun əvəzində Respbulika Təşkilat Komitəsi yaradıldı, Komitənin rəhbəri vəzifəsinə Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçko təyin edildi [13, s.455].

1989-cu il dekabrın 1-də Zəngəzurun ermənilərə verilməsinin

(01.12.1920) 69-cu ildönümündə Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi və əslində, SSRİ Konstitusiyasını, eləcə də beynəlxalq hüquq normalarını və prinsiplərini kobudcasıan pozaraq Azərbaycana qarşı ərazi iddiasını rəsmən elan etmiş oldu. Yalnız bir həftədən sonra, dekabrın 7-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Ermənistan Ali Sovetinin bu qərarına münasibət bildirərək qərarı "Azərbaycan SSR-in suverenliyinə yolverilməz müdaxilə" kimi dəyərləndirdi [13, s.455].

1989-cu il dekabrın 8-də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları silahlı hücumlarla müşayiət olunmağa başladı.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti və Heydər Əliyevin sülh strategiyası. Bakı, "Elm", 1998
2. AR Pİİ SSA, fond 1, siyahı 83, iş 205
3. Azərbaycan Respublikası. 1991-2001. Bakı, 2001
4. Azərbaycan SSR Ali Sovetinin XI cağırış VII sessiyasının qərarı // "Kommunist" qəzeti, 22 may 1988
5. Azərbaycan tarixi. 7 cilddə. VII cild. Bakı, "Elm", 2003 – 676 s.
6. Dağlıq Qarabağ. Zəka qalib gələcək. Sənədlər və materiallar. Bakı, 1997
7. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin astanasında. Bakı, «Yeni nəşrlər evi", 2001
8. Hacıyev N. Dğlıq Qarabağın tarixindən sənədlər. Bakı, 2005
9. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005 – 752 s.
10. Köçərli T.K. Yaddan çıxmaz Qarabağ, Nəqşi-Cahan Naxçıvan. Bakı, "Elm", 1998
11. Mahmudov Y.M., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər. B: "Təhsil", 2009,144 s.
12. Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik). Bakı, "Təhsil", 2009 – 272 s.
13. Mirzəzadə A. Qarabağ düyünü. Bakı, «Azərbaycan" nəşriyyatı, 2012 – 608 s.
14. Mirzəzadə A. Müstəqil Azərbaycan dövlətinin yaranmasında Heydər Əliyev faktoru // Dirçəliş – XXI əsr, 2012, 168 (xüsusi buraxılış), s.105-109
15. Балаян З. Очаг. Ереван, 1981; Москва, 1984
16. Буниятов З.М. Почему Сумгаит // История Азербайджана по документам и публикациям. Баку, 1990, с.355-363
17. Бусыгина И.Настоящее и будущее «Европы регионов» (проблемы европейского регионализма) // Мировая экономика и международные отношения, 1993, № 9 –с.78-86
18. Нагорный Карабах. Разум победит. Документы и материалы. Баку, 1989
19. Помпеев Ю.А. Кровавый омут Карабаха. Санкт-Петербург, 1992
20. События вокруг НКАО в кривом зеркале фальсификаторов. Баку, 1989
21. Трагедия длиною в два года. Баку, 1990
22. Том де Ваал. Чёрный Сад – bax: http://news.bbc.co.uk/hi /russian/in_depth/newsid_ 4670000/ 4670433 .stm

А. Мирзазаде

АРМЯНСКИЙ СЕПАРАТИЗМ В НАГОРНО-КАРАБАХСКОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНА В КОНЦЕ 1980-Х ГОДОВ

РЕЗЮМЕ

Начиная со второй половины 1980-х годов на Кавказе, особенно в Нагорно-Карабахском регионе Азербайджана усилился армянский сепаратизм. Армения, с молчаливого согласия и поддержки руководства Советского Союза и финансовой помощи из-за рубежа, начала выступать с территориальными притязаниями к Азербайджану. Эти притезания вскоре превратились в политику террора и геноцида против азербайджанского населения Армении и Карабаха. В Армении и Нагорно-Карабахском регионе Азербайджана расширилось антитюркское движение. В результате этой политики в 1988-1989 годы более 200 тысяч азербайджанцев были изгнаны своих исторических земель в Армении. В эти же годы Арменией была нарушена территориальная целостность Азербайджана.

A. Mirzezadeh

ARMENIAN SEPARATISM IN NAGORNO-KARABAKH REGION OF AZERBAIJAN IN THE 1980S.

SUMMARY

The Armenian separatism increased since the second half of 1980s in the Caucasus, especially in the Nagorno-Karabakh region of Azerbaijan. Armenia, receiving financial and ideological support of the leadership of the Soviet Union and abroad, began to make territorial claims. These claims soon turned into a policy of terror and genocide against Azerbaijan. The anti-Turkish movement has expanded in Armenia and Nagorno-Karabakh region of Azerbaijan. As a result of this policy in 1988-1989s of the over 200 thousand Azerbaijanis were driven out of their native lands in Armenia. During these years, Armenia had violated the territorial integrity of Azerbaijan.

28 APREL İŞĞALI RUSİYA TARİXŞÜNASLIĞINDA

Vaqif ABIŞOV

Açar sözlər: Azərbaycan, Sovet Rusiyası, Y.Rathauzer, S.S.Şaumyan, A.İ.Mikoyan.
Ключевые слова: Азербайджан, Советская Россия, Я.Ратгаузер, С.С.Шаумян, А.И.Микоян.
Keywords: Azerbaijan, Soviet Russia, Y.Ratgauzer, S.S.Shaumyan, A.I.Mikoyan.

1920-ci il 28 aprel hadisəsi rus sovet tarixşünaslığının daim diqqət mərkəzində olmuşdur. Sovet tarixçiləri tarix həqiqətləri bir çox hallarda təhrif olunmuş formada şərh etmələrinə baxmayaraq, hər halda onlar elmi dövriyyəyə çoxsaylı əsərlər gətirmişdilər

Rusiya sovet tarixşünaslığında problemin nəzəri və konkret tarixi hadisə kimi işlənməsinin başlanğıcı, əsasən XX əsrin 20-30-cu illərinə təsadüf olunur.

20-30-cu illərdə SSRİ-də aparılan tədqiqatlar sonralar problemin öyrənilməsində mühüm əhəmiyyət kəsb etmişdir. SSRİ-nin dağılmasından sonra "məxvi" hesab olunan sənədlərin işıq üzü görməsi "28 aprel işğalı"nın səbəblərinin yenidən və obyektiv araşdırılmasına xüsusi diqqətin artırılmasına gətirib çıxartmışdır. Xüsusilə, bir sıra ən yeni mənbələrin nəşr olunması problemin araşdırılmasına daha obyektiv yanaşmağa şərait yaratmışdır.

1920-1980-ci illərdə sovet tarixçiləri tərəfindən yazılmış əsərlərin müəyyən bir hissəsində müstəqil Azərbaycan hökumətini zorakı üsulla devirmək planının qabaqcadan hazırlandığı və həyata keçirildiyi qeyd olunmuşdur. Lakin Rusiya sovet tarixçiləri hərbi müdaxilənin Azərbaycan zəhmətkeşlərinin "xahişi" və Azərbaycan Müvəqqəti İnqilabi Komitəsinin müraciəti əsasında baş verdiyini də ön plana çəkmişdilər.

Şimali Azərbaycanda aprel işğalına aydınlıq gətirmək üçün XX əsrin 20-ci illərinin əvvəllərində partiya və sovet hökumət rəhbərlərinin bir-birlərilə teleqram, məktub və sair formalarda yazışmaları müəyyən əhəmiyyət kəsb edir. Bu yazışmaları bir mənbə kimi də dəyərləndirmək

---

Vaqif Şirin oğlu Abışov – t.ü.f.d. AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi

mümkündür. Çünki həmin yazıların müəllifləri 1919-1920-ci illərdə Cənubi Qafqazda baş verən hadisələrin, bilavasitə, əsas aparıcı şəxsləri olumuşdular. Digər tərəfdən, yazışmalar Sovet dövlətində ən yüksək vəsifə tutmuş şəxslərin arasında (V.İ.Lenin, İ.V.Stalin, Q.K.Orconikidze, Q.V.Çiçerin, D.Trotski, S.M.Kirov və başqaları) getdiyindən buradakı məlumatlar bir çox hallarda daha dəqiq və obyektiv xarakter daşımışdı. Əgər belə olmasaydı onda Sovet dövləti düzgün qərar qəbul edə bilməzdi. Bu baxımdan həmin sənədləri daha çox obyektiv sənədlər qrupuna daxil etmək mümkündür.

Lakin həmin sənəd-mənbələr, eyni zamanda, bəzən subyektiv xarakter daşmış və çox vaxt hadisələrə birtərəfli qaydada qiymət vermişdi. Lakin bütün bunlara baxmayaraq, Cənubi Qafqazda, xüsusilə Azəbaycanda baş verən siyasi hadisələrdə bolşevik Rusiyasının tutduğu movqeyin öyrənilməsində olduqca qiymətli və maraqlıdır.

1919-1920-ci illərdə Cənubi Qafqazla əlaqədar partiya və sovet dövlət rəhbərlərinin bir-birlərilə teleqram, məktub və sair formalarda yazışmalarında əsas diqqət Azərbaycanın – Bakının işğalı ön planda durmuşdu.

1920-ci ilin fevral-mart aylarında bolşevik Rusiyasının hərbi qüvvələri tərəfindən Cənubi Qafqazı sovetləşdirmək üçün xüsusi əməliyyat planının hazırlığı getmişdir. Halbuki, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) mövcud olduğu illərdə (1918-1920-ci illər) bu ərazidən bolşevik Rusiyası üçün heç bir təhlükə yaranmamışdı.

Sovet Rusiyası 1920-ci ilin əvvəlində vətəndaş müharibəsi və xarici müdaxilə təhlükəsindən xilas olduqdan sonra Azərbaycana qarşı müxtəlif istiqamətlərdən təzyiqlərə başlamışdır. Çünki Azərbaycan Rusiya üçün olduqca vacib bir ərazi idi: 1) Sovet Rusiyası Şimali Azərbaycanı işğal edərək bu əraziləri yenidən imperiyanın əsarəti altına almaq istəyirdi; 2) Azərbaycanı işğal etmək sonradan Gürcüstan və Ermənistanın işğalının asanlaşdırmış olardı; 4) Cənubi Qafqazın işğal edilməsi Rusiyanın cənub sərhədlərinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynamış olardı; 3) Rusiyanın yanacaqsız qalmış zavod və fabriklərini dircəltmək üçün Azərbaycanın nefti hava və su kimi lazım idi. Bunun üçün neft və neft məhsulları fasiləsiz Rusiyaya axmalı idi.

Bu dövrdə Azərbaycanın işğalı sovet hökumətinin xarici siyasətinin

ana xəttini təşkil etmişdir. Bir neçə fakta diqqət edək: 1920-ci il martın 17-də Lenin Orconikidzeyə göndərdiyi teleqramında qeyd edirdi ki, "Bakını tutmaq bizə olduqca vacibdir. Bütün cəhtləri bu istiqamətə yönəltmək lazımdır. Bununla belə nəzərə almaq lazımdır ki, bəyanatlarınızda olduqca diplomatik olmaq vacibdir və yerlərdə sovet hakimiyyətinin möhkəm hazırlanmasına yüksək əminliklə olmaq lazımdır"(1, v. 1). Bu teleqramdan tam aydın olur ki, Sovet Rusiyasının əsas məqsədi dinc və ya qeyri-dinc yolla Azərbaycanı işğal etmək olmuşdur. Bununla bağlı çox ciddi hazırlıq işləri də görülürdü.

1920-ci il martın 21-də D.Trotski Bakının işğal olunmasının mümkünlüyü ilə əlaqədar olaraq İ.V.Stalinə göndərdiyi teleqrama İ.V.Stalin elə həmin gün cavabında, hərbi hazırlığı nəzərə alaraq, Bakının işğalının mümkün olduğunu qeyd etmişdir.

Əgər 1920-ci il aprelin 21-də Moskvadan gələn əmrə əsasən yalnız Bakının işğalı nəzərdə tutulurdusa, iki gün sonra həm ölkə daxildə, həm də beynəlxalq vəziyyətin Sovet Rusiyasının xeyrinə dəyişməsi, nəinki Bakının, eləcədə bütün Azərbaycanın işğalı ön plana keçmişdir. Ona görə də aprelin 23-də orduya yalnız "Bakı quberniyası deyil, bütün Azərbaycan ərazisini zəbt etmək" tapşırığı verilmişdi(1, v. 1).

1920-ci il aprelin 28-də Bakı işğal olunduqdan sonra Q.K.Orconikidze və S.M.Kirovun Bakıdan V.İ.Leninə göndərdiyi 1920-ci il 4 may tarixli teleqramda formal da olsa "Azərbaycanı təbrik etməyin və onun ümumi formada tanınmasının vacib" olduğu göstərilmişdi(1, v. 1). Lenin isə həmin günün səhərisi, yəni "1920-ci il mayın 5-də Xalq Komissarları Soveti adından Azərbaycan Sovet hökumətini" təbrik etmişdir(2, v. 9-10). Bütün bu təbriklər saxta və baş aldatmaqdan başqa bir şey deyildi. Əslində bu təbrik Azərbaycanın sovet qoşunları tərəfindən işğalı və burada sovet hakimiyyətinin qurulması şərəfinə verilmiş təbrik idi.

Bakıda qurulan Sovet Azərbaycanın hökumət üzvlərinin, demək olar ki, hamısı Moskvanın maddi, hərbi və siyasi köməyi ilə vəzifə almışdılar. Belə olan təqdirdə, Sovet Azərbaycanın hökumət üzvlərinin müstəqil siyasət yürüdəcəklərindən hansı söhbət gedə bilərdi.

Sovet ordusu Bakını yenicə işğal etməsinə baxmayaraq, artıq Azərbaycanın Sovet Rusiyası ilə birləşməsi haqqında danışıqlar

başlanmışdır. Bununla bağlı Q.K.Orconikidze və S.M.Kirovun 1920-ci il mayın 4-də Mərkəzə göndərdikləri teleqramda "Azərbaycanın Sovet Rusiyası ilə hərbi, təsərrüfat və iqtisadi birləşməsin"dən və onlara əlavə səlahiyyət verilməsindən bəhs olunurdu(2, v. 9-10).

Tarixi sənədlərdən məlumdur ki, Azərbaycan sovet ordusu tərəfindən işğal edilməsindən dörd ay keçməmiş RSFSR hökuməti Leninin "bəxş etdiyi" "Müstəqil Sovet Azərbaycan"nın müstəqilliyi məhdudlaşdırılmağa başlanmışdı. Beləki, 1920-ci il avqustun 24-də RSFSR ilə Azərbaycan SSR arasında xarici ticarəti məsələləri, 1920-ci il sentyabrın 30-da poçt, teleqraf və radioteleqram idarələrinin, ərzaq siyasıtinin birləşdirilməsi, vahid iqtisadi siyasətin həyata keçirilməsi, maliyyə, hərbi-iqtisadi ittifaq və hərbi-dəniz məsələləri və s. məsələlər üzrə müqavilələr bağlanmışdır(3, v. 1-6). Bu iki tərəfli müqavilələrin bağlanması nəticəsində Azərbaycanın müstəqilliyinin tədricən itirilməsinə və bir müddətdən sonra isə tamamilə RSFSR hökumətindən asılı vəziyyətə düşməsinə gətirib çıxartmışdır.

1920-ci ilin aprel ayının 28-də sovet qoşunlarının Azərbaycana hərbi təcavüzü və bunun nəticəsi olaraq Azərbaycanda sovet hakimiyyəti qurulmasının "qanunauyğunluğunu" sübut edən marksist-leninçi tarixşünaslığının konsepsiyası Rusiya sovet tarixçiləri tərəfindən hazırlanmışdı. Bu konsepsiya hazırlanarkən XX əsrin 20-ci illərinin əvvəllərində partiya və sovet hökumət rəhbərlərinin bir-birlərilə teleqram, məktub və sair formalarda yazışmaları bir mənbə rolunu oynamışdır.

Azərbaycan sovet tarixşünaslığında da həmin konsepsiya 70 il hakim mövqe tutmuşdur.

Məqalədə problemlə bağlı yazmış Rusiya sovet tarixçilərindən Y.Rathauzer(4), A.Rayevski(5), İ.Q.Dudin(6), V.S.Yemelyanov(7) və başqa tarixçilərin əsərləri təhlil edilmişdir.

Y.Rathauzerin "Sovet Azərbaycanı uğrunda mübarizə. Aprel çevrilişinə dair" adlı əsəri (4) problemlə əlaqədar olaraq müəyyən əhəmiyyət kəsb edir. Lakin əsərin məhdud tərəfi ondadır ki, müəllif bəhs olunan dövrün siyasi hadisələrinə qiymət verərkən ancaq bolşevik mətbuatına və kommunist partiyasının sənədlərinə istinad etmişdir. O, bütün diqqətini bolşeviklərin inqilabi fəaliyyətinə yönəltmişdir.

Y.Rathauzer də başqa sovet tarixçiləri kimi Azərbaycan

Respublikasından bəhs edərkən onu "musavat hökuməti" adlandırmışdı. Sovet ideoloji ənənələrinə sadiq qalan müəllif Azərbaycan Respublikasının hakimiyyəti ilə bağlı "Azərbaycanda terror rejimi qurulmuşdur" (4, s. 14) yazsada, bu fikri sübut edən bir faktı belə göstərməmişdi.

Y.Rathauzer 1920-ci ilin aprel ayının 28-də bolşevik ordusu tərəfindən Azərbaycanda həyata keçirilmiş çevrilişə haqq qazandırmışdı. O, bu çevrilişdə Azərbaycan kommunist partiyasının işini xüsusi olaraq vurğulamışdı.

Beləliklə, Y.Rathauzerin 1928-ci ildə yazdığı "Sovet Azərbaycanı uğrunda mübarizə..." əsərində 1918-1920-ci illərdə baş vermiş hadisələrə birtərəfli yanaşılmış, AXC hakimiyyətini "müsavat hökuməti" adlandırılmış, bir-iki kəndli və fəhlə çıxışları həddindən artıq şişirdilərək ona inqilabi rəng verilmiş, sovet silahının gücü ilə hakimiyyətin devrilməsini "Azərbaycan zəhmətkeşlərinin inqilabi mübarizəsi"nin nəticəsi kimi göstərilmişdi.

Problemlə bağlı yazan digər bir sovet tarixçisi A.Rayevskinin əsəri(5) oktyabr inqilabının on illiyinə həsr olunmuşdur. O, bu əsəri yazarkən hər-hansı bir arxiv sənədlərinə və ya ədəbiyyat materiallarına istinad etməmişdir. Əslində 1920-ci illərdə, problemlə bağlı, sovet tarixşünaslığı hələ yeni yazılmaqda idi. XX əsrin 20-ci illərinin bir çox sovet tarixçiləri bunu etiraf etmişdir. Məsələn: Sur. Şaumyan "Bakı Kommunası" adlı əsərinin ön söz yerinə yazdığı "müəllifdən" səhifəsində qeyd etmişdir ki, mənim əcərim sonradan oktyabr inqilabı tarixçilərinin istifadə edə bicəyi yalnız xam materialdır (8).

A.Rayevski əsərində bütün nifrətini "Müsavat" partiyasının üzərinə yönəltmişdir. Müəllif, mühacirətdə yaşayan ziyalıların Azərbaycanın müstəqilliyinin bərpası uğrunda apardıqları mübarizəni kəskin nifrətlə qarşılamışdır.

Mühacir ədəbiyyatında Sovet Rusiyasını işğalçı, təcavüzkar bir dövlət kimi göstərilirdi. Ona görə də kommunist partiyası sovet tarixçilərinin qarşısında məsələni belə qoyulurdu ki, Sovet Rusiyasının hərbi təcavüzünün "qardaşlıq" yardımı, Azərbaycan xalqının "xahişi" ilə olduğunu göstərsinlər.

A.Rayevski Ankarada M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriy-

yəti" kitabının çap olunması ilə bağlı Mərkəzin həmin kitaba və digər "antisovet" təbliğatlara qarşı yerlərə, o cümlədən Azərbaycan hökumətinə göndərdiyi təlimatdan da bəhs etmişdir. Müəllif əsərdə ingilislərin Zaqafqaziyaya gəlməsinin səbəblərini araşdırır və onların "müsavat hökumətinə" dəstək verməsini "ifşa" etmiş olur. A.Rayevskinin fikrinə görə əgər İngiltərə bir tərəfdən, bolşevik idealarının Zaqafqaziyaya və bütün Asiyaya yayılmasının qarşısını almaq istəyirdisə, digər tərəfdən, Bakı neftini öz əlində saxlamaq və Sovet Rusiyasını məhv etməyə çalışırdı. Müəllif, Müsavat partiyası ilə İngiltərə arasında yazılmamış razılaşmanın mövcudluğunu (görəsən, A.Rayevski bu razılaşmanın olmasıyla bağlı məlumatı hansı mənbədən götürmüşdü) belə izah edirdi: "ingilislər deyirdilər ki, biz sizə fəhlə və kəndlilərinizi cəzalandırmaqda kömək edəcəyik. Lakin bunun əvəzində siz, tamamilə bizim göstərişlərimizə tabe olmalısınız. Sizin Sovet Rusiyasına, Denikinə, başqa zaqafqaziya xalqlarına münasibətləriniz bizim istədiyimiz kimi olmalıdır"(5, s. 10). Bu cümlələri yazan A.Rayevski öz fikirlərini əsaslandırmaq üçün hər-hansı bir sənədə istinad etməmişdir.

O, Azərbaycanın müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınmamasının səbəbini Azərbaycan hökumətinin ingilis müdaxiləçiləri və rus əksinqilabçıları ilə əlaqələrini kəsməməkdə görürdü. Lakin A.Rayevski RSFSR hökumətinin Azərbaycanı işğal etmək planından bir cümlə belə yazmamışdır.

Daha sonra müəllif "Azərbaycan 1920-ci il yanvarın 12-də (tarixi sənədlərdə yanvarın 11-i göstərilir – A.V.) Antanta tərəfindən, tamhüquqlu olmasa da, tanınandan sonra iki yol ayrıcında qaldığını" da qeyd etmişdir(5, s. 60-61). Müəllif yazırdı: "Beləliklə, müsavatçılar imperializm və inqilab arasında qalmışdı və bunlardan birini seçməli idi. Ya onlar Antanta ilə gedəcəklər, onda Sovetlərə qarşı olacaqlar, yaxud da bolşeviklə qalacaqlar, onda da Antanta onlara qarşı olacaqlar"(5, s. 61).

Əslində bu dövrün beynəlxalq mənzərəsi belə idi: Rusiya birinci dünya müharibəsi, vətəndaş müharibəsi və xarici müdaxilə nəticəsində xeyli zəifləmişdir. Müharibədə qalib gələn Antanta dövlətləri isə ona nisbətən güclü görünürdü. Ona görə də Azərbaycan hökuməti öz varlığını qoruyub saxlamaq üçün güclü Antanta dövlətlərinə meyl etməliydi və etmişdir. Avropa dövlətləri Azərbaycanı müstəqil dövlət kimi görmək,

onunla qarşılıqlı müqavilələr əsasında əlaqələr qurmaq siyasəti yürüdürdü.

Azərbaycan Respublikası demokratik, dünyəvi dövlət qurmaq fikrində idi, bunun üçün Avropa dəyərlərindən bəhrələnmək və onlardan kömək almaq fikrində idi.

1920-ci ilin aprel hadisələrindən məlumat verən müəlliflərdən biri də İ.Q.Dudindir(6). O, həmin günlərin hadisələrində aktiv iştirak etmiş bolşeviklərdən biri olmuş, Azərbaycana hücum edən zirehli qatarların komandiri M.Q.Yefremovun yaxın silahdaşı və komissarı olmuşdur.

Onun əsəri Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 50-illiyi ilə əlaqədar olaraq yazılmışdır. Əsərdə XI ordunun Azərbaycana hücumu bədii-tarixi dilldə təsvir olunmuşdu.

Müəllifin yazdığından aydın olur ki, Sovet Rusiyası Azərbaycanı işğal etmək üçün çox ciddi planlaşdırmışdı. İ.Q.Dudin, Bakıya hücum ərəfəsində oradakı vəziyyəti aydınlaşdırmaq üçün Bakı bolşeviklərindən "... Cəbiyev, Mikoyan və Musabəyovun" gəldiyini qeyd etmişdir(6, s. 33). O, Həbib Cəbiyevi və Qəzənfər Musabəyovu Bakı proletariatının görkəmli rəhbərləri kimi təqdim etmişdir. Halbuki, müəllifin qeyd etdiyi şəxslərin Azərbaycan fəhlələri arasında o qədər də nüfuzu olmamışdır. Onlar Azərbaycan Cümhuriyyətinə qarşı Mikoyanın təxribatçı-pozucu qrupuna daxil olan nümayəndələr olmuşdur.

V.S.Yemelyanov da əsərində(7) Azərbaycan Cümhuriyyətinin hakimiyyəti dövrünə münasibətində "ənənəvi" sovet tarixçilərinin yazdıqlarını təkrarlamışdır. O, XI Qırmızı Ordunun Azərbaycana hərbi təcavüzünü "bakı proletariatına və azərbaycan kəndlilərinə yardım göstərmək" kimi qeyd etmişdi(7, s. 171). Müəllifin bu fikri bütün sovet tarixçilərinə xas olan cəhətlərdəndir.

Məqalənin əvvəlində də qeyd olunduğu kimi, sovet dövləti heç vaxt hərbi təcavüzü inkar etməyib, sadəcə bunu Azərbaycan "zəhmətkeşlərinə qardaşlıq" yardımı olduğunu bildirmişdilər. Bu yardım haradan "qardaşlıq" yardımı oldu ki, müstəqil dövlətin razılığı olmadan onun ərazisinə qoşun yeridilmişdi.

Azərbaycan fəhlə, kəndli və əsgərləri heç vaxt əldə silah AXC hakimiyyətini devirmək üçün mübarizə aparmamışdır.

AXC hakimiyyətini devirmək istəyənlər Rusiyanın Azərbaycandakı "beşinci kolon"u adlandırılan, rəhbərliyi, əsasən erməni və rus

bolşeviklərdən ibarət olmuşdur. AXC hakimiyyətini devirmək üçün bütün planlar isə Moskvada hazırlanmışdı.

V.S.Yemelyanov aprelin 22-də XI Qırmızı Ordunun nümayəndələrinin iştirakı ilə Qafqaz Ölkə komitəsinin Bakı bürosunun müşavirəsində aprelin 26-da hakimiyyəti ələ keçirmək planı nəzərdən keçirildiyini qeyd etmişdir(7, s. 171).

Bütün bunlar onu göstərir ki, AXC hakimiyyətini devirmək üçün Sovet hökuməti çox ciddi planlaşdırmış və bu işdə onlara Azərbaycanda olan erməni, rus və bir qrup azərbaycanlı bolşeviklər də yaxından yardım etmişdir.

V.S.Yemelyanov AXC hakimiyyətini xalqa "xəyanət" etməkdə və müstəqil ölkənin "düşməni" adlandırmışdı(7, s. 183).

AXC-nin hökuməti hakimiyyətdə olduğu 23 ay ərzində xalqa xəyanət etməmiş, əksinə Şərqdə ilk demokratik türk-müsəlman dövlətinin qurulmasında, Azərbaycanın ərazi bütövlüyünün müdafiə olunmasında, türk-müsəlman əhalisinin erməni təcavüzündən qorumasında çox böyük rolu olmuşdur.

Aprel çevrilişində yaxından iştirak etmiş A.İ.Mikoyanın əsəri (9) də sovet tarixçilərinin yazdığından o qədər də fərqlənmir. Onun əsərində Sovet Ordusunun Bakıya hücum etmək üçün qabaqcadan hazırlığın getməsindən və ordunun Azərbaycan Cümhuriyətinin devrilmisində xüsusi rol oynamasından geniş bəhs olunmuşdur. Qafqaz cəbhəsinə Tuxaçevski, XV Orduya Levandovski komandanlıq etdiyini, Cəbhənin inqilabi hərbi şurasının üzvü Orconikidze, Ordu İnqilabı hərbi şurasının üzvləri isə Kirov və Mexonoşin olduğunu qeyd edən A.Mikoyan, XI ordunun Azərbaycan sərhədini keçməsini aprelin 27-si göstərmişdir (9, s. 80) . Halbuki, o dövrün rəsmi sənədlərində ordunun sərhədi keçməsini aprelin 26-sı qeyd olunur.

Beləliklə, 70 il bəhs olunan problemdən yazan sovet tarixçilərinin əsərlərini təhlil edərkən aşağıdakı nəticələrə gəlmək mümkündür: 1) Cənubi Qafqazda 1918-1920-ci illərdə baş vermiş siyasi hadisələrə birtərəfli yanaşılmışdır; 2) Azərbaycan Cümhuriyyəti hakimiyyətinin ikiillik fəaliyyəti dövründə görülən sosial-iqtisadi və mədəni tədbirlər haqqında yazılmamış, yazılanlar isə təhrif olunmuş formada göstərilmişdi; 3. Azərbyacan və Rusiya sovet tarixçiləri 1918-1920-ci illərdə mövcud

olmuş Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin "müsavat hökuməti" adlandırmış, onun sosial-iqtisadi, mədəni və hərbi sahədə həyata keçirmiş olduğu tədbirlərin üstündən sükutla keçmişdilər; 3) sovet tarixçiləri tərəfindən bir-iki kəndli və fəhlə çıxışlarını həddindən artıq şişirdilərək ona inqilabi rəng verilmiş, bolşevik ordusunun gücü ilə hakimiyyətin devrilməsini "Azərbaycan zəhmətkeşlərinin inqilabi mübarizəsi"nin nəticəsi kimi qiymətləndirilmişdir; 4) Rusiya sovet tarix elmində 1920-ci il aprel 28 aprel hadisəsinə marksizm-leninizm metodologiyası prizmasından yanaşılmış və tədqiqatlar məsələyə müstəqil Azərbaycan dövlətinin süqutu kimi deyil, sovet hakimiyyətinin qurulması istiqamətində aparılmışdır; 5) 1920-ci il aprelin 28-də sovet ordusu müstəqil Azərbaycan dövlətini devirərək formal olaraq sovet hakimiyyət qurmuş, sonra isə buranı özünün forpostu etmişdir; 6) Azərbaycanın təbii sərvətləri – neft, pambıq, taxıl və s. məhsulları təmənnasız olaraq Rusiya sovet imperiyasının ümumi malı elan edilmişdir; 7) Azərbaycanın idarə olunması və ərazi bütövlüyü məsələləri Sovet hökumətinin nəzarəti altında, Azərbaycanın əleyhinə həll olunmağa başlanmışdır.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Российский государственный архив социально-политической истории (РГАСПИ), ф. 85, оп. 13, д. 6.
2. Российский государственный архив социально-политической истории (РГАСПИ), ф. 85, оп. 13, д. 1
3. Azərbaycan Respubikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər İdarəsi (ARPİİSSA), f. .609, siy.1, iş 82.
4. Ратгаузер Я. Борьба за советский Азербайджан. К истории апрельского переворота. Баку, Типография «3-й Интернационал», 1928, 70 с.
5. Раевский А. Английские «Друзья» и Мусаватские «патриоты». Баку:АЗГИЗ, 1927, 70 с.
6. Дудин И.Г. Прорыв бронепоездов. Бакы: Азернешр, 1970, 65 с.
7. Емельяnov В.С. На заре новой жизни. Баку: Азернешр, 1979, 251 с.
8. Шаумян С.С. Бакинская коммуна. Баку: Красный Восток, 1927, 118 с
9. Микоян А.И. Мысли и воспоминания о Ленине. Москва. 1970, 80 s.

V. Abishov

THE INVASION OF APRIL 28-th in RUSSİAN HISTORIOGRAPHY

SUMMARY

World War I, February and October revolutions of 1917, had dealt a heavy blow on Russia's economic and political life. However, Russia began to revive in the face of the Bolsheviks.

After the defeat of Entante's member states, the external danger over Russia was passed and establishment of a certain internal stability the situation began to change partly in favor of the Bolsheviks.

Bolshevik Russia had begun policy of aggression against the peoples of the South Caucasus that gained independence. Firsly this aggression was directed against the Republic of Azerbaijan.

In 1920-1980 years many Soviet historians mentioned that the plan to overthrow the independent Azerbaijan government by violent means had been prepared in advance in Moscow and implemented. However, the Russian and Soviet historians also focused that the military intervention was on "request" of the Azerbaijani workers.

In the article titled as "The invasion of April 28th in Russian historiography" was analyzed the overthrow of the government of Azerbaijan Republic and the establishment of Bolshevik regime in Azerbaijan.

В.Абышов

ОККУПАЦИЯ 28 АПРЕЛЯ В РОССИЙСКОЙ ИСТОРИОГРАФИИ

РЕЗЮМЕ

Первая мировая война, Февральская и Октябрьская революции 1917 года, нанесли тяжелый удар по экономической и политической жизни России. Тем не менее, Россия начала возрождаться в период власти большевиков.

После поражения государств-членов Антанты и установления определенной внутренней стабильности ситуация начала меняться в пользу большевиков.

Большевистская Россия начала проводить политику агрессии против независимых государств Южного Кавказа. Эта агрессия была направлена и против Азербайджанской Республики.

В 1920-1980-е годы многие советские историки признавали, что план по свержению независимого Азербайджанского государства был заранее подготовлен в Москве. Тем не менее, российские историки утверждали, что военное вмешательство было ответом на обращение азербайджанских рабочих.

В статье данная проблема рассматривается на основе анализа источников и исторической литературы.

1991-Cİ İL "DÖVLƏT ÇEVRİLİŞİ" NİN MİLLİ MÜNAQİŞƏLƏRƏ TƏSİRİ

Ədalət MUSTAFAYEV

Açar sözlər: SSRİ, çevriliş, münaqişə, mühafizəkar, islahatçı, mübarizə
Key words: USSR, revolution, conflict, guarding, reformer, fight
Ключевые слова: СССР, переворот, конфликт, консерватор, реформатор, борьба

1980-ci illərin sonlarında Sovet İttifaqında ərazi iddiaları ilə müşayiət olunan etnik münaqişələr demokratiya, plüralizm adı ilə nəhəng bir imperiyanı süquta doğru aparırdı. SSRİ-də Dağlıq Qarabağ münaqişəsinə qədər Qazaxıstanda (dekabr, 1986-cı il) qarşıdurma baş vermişdi. İnsan itkisi ilə müşayiət olunan bu münaqişəyə Moskvanın kadr siyasəti səbəb olmuşdursa, digər münaqişələrin kökündə ərazi iddiaları dururdu. Belə iddialarla müşayiət olunan etnik münaqişələr postsovet məkanını bürüdü. Moldaviya SSR-də Dnestryanı bölgədə, Gürcüstan SSR-də Abxaziya və Cənubi Osetiyada baş verən qarşıdurmalar, Şimali Qafqazda mərkəzdənqaçma meylləri ilə cərəyan edən döyüşlər, ermənilərin Azərbaycan SSR-nin Dağlıq Qarabağ bölgəsinə ərazi iddialarının qarşısı alınmadıqdan sonra baş verdi.

SSRİ-də "yenidənqurma" siyasəti etnik münaqişələr zəminində həyata keçirildiyindən, ərazi iddialarına "demokratik fikir", "plüralizm" donu geydirərək bu nəhəng imperiyanın çöküşünü sürətləndirənlər olduğu kimi, onun süqutunu istəməyən qüvvələr də var idi. Ancaq onlar imperiyanın məhvə doğru getməsinin qarşısını almaq üçün əməli fəaliyyətə keçəndə artıq gec idi. 1991-ci ilin iyununda SSRİ Ali Sovetinin qapalı iclasında mühafizəkarların liderləri Nazirlər Kabinetinə fövqəladə səlahiyyətlər verilməsini tələb etmişdilər [1,s.309]. Mühafizəkarlar istəklərinə nail olmadıqda sonuncu uğursuz cəhdlərini etdilər, İmperiyanı saxlamaq üçün hər halda onlar sonuncu addımı atdılar. Onlar Krımda istirahət edən M.Qorbaçovu neytrallaşdırıb dövlət çevrilişi etdilər. 1991-ci ilin "Avqust çevrilişi" sonda SSRİ-nin süqutuna həlledici zərbə endirdi [2,s.554].

Ədalət Mustafayev – AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi

1991-ci ilin iyulunda M. S. Qorbaçovun Rusiya və Qazaxstan prezidentləri ilə görüşündə qərara gəlinmişdi ki, avqust ayının sonlarında "yeni İttifaq müqaviləsi" imzalansın. Müqavilənin imzalanmasına bir gün qalmış, avqust ayının 19-da Moskvada baş vermiş çevriliş SSRİ-nin dağılma prosesinin qarşısının alınmasına hesablanmışdı [3;s.4]. Çevriliş nəticəsində hakimiyyətə gələn qüvvələrin ilk bəyanat xarakterli sənədlərində, mühafizəkar qüvvələrin Qorbaçov islahatları nəticəsində yenicə ərsəyə çatmış "demokratiya" üzərinə qəti hücuma keçdiyi aydınlaşdı. 1991-ci il avqustun 19-da səhər Ümumittifaq radiosu və televizyası SSRİ-də hakimiyyətin Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinə keçdiyini elan etdi [3,s.11-12]. Bu hadisə rəsmi dairələr, siyasi qruplaşmalar, sosial təbəqələr arasında fərqli şəkildə qarşılandı, çevrilişin ilk günündə SSRİ-nin rəsmi rəhbəri M.S.Qorbaçovun Forosdakı iqamətgahından hadisəyə münasibət bildirmək imkanı olmadı. Ölkədə ikitirəlik yarandı-milli dövlətlərin yaranmasını istəyən qüvvələrlə, SSRİ-nin qorunub saxlanmasına ümid bəsləyənlər arasında fikir ayrılığı özünü bir daha açıq şəkildə büruzə verdi.

Dövlət çevrilişinin taleyi Moskvada həll olunurdu. 1991-ci ildə "Ağ ev"in qabağında tankların, zirehli hərbi maşınların əhatəsində keçirilən mitinqlərdə Rusiya hökumətini hərbi xuntanın cəngindən qoruyan barrikadalar arxasında azərbaycanlılar da var idi. Siyasi sahədə "Şevardnadze, Yakovlev, Sobçak, Popov, Brazauskas və digər tanınmış demokratlarla birlikdə L.Ş.Hacıyeva da "SSRİ-də Demokratik İslahatlar Uğrunda" Hərəkatın" təşəbbüsçülərindən biri idi [5]. Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin "dövlət çevrilişi" etməsinin hansı nəticələr verəcəyi Azərbaycanda da Xalq Cəbhəsinin 1991-ci il avqustun 19-da verdiyi bəyanatında açıqladı. "Xunta"ya qarşı mübarizəyə çağıran bəyanat kütləvi informasiya vasitələri ilə dünyaya çatdırıldı. Elə kommunist rejiminin mərkəzi olan Moskvada Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsi (FVDK) hakimiyyəti ələ almasınından sonra Rusiya Federasiyasının prezidenti B.Yeltsin bəyanatlarında bu hadisəni "konstitusiyaya zidd dövlət çevrilişi" adlandırdı və RSFSR əhalisini "Komitəyə" tabe olmamağa, qanuni hakimiyyət bərpa olunmayınca, ümumi tətil etməyə çağırdı [6]. Moskvada baş verən hadisələr zamanı B.Yeltsinin tapşırığı ilə RSFSR xarici işlər naziri A.Kozırev Parisə

göndərilmiş və hətta ona Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsi qalib gəldiyi halda xaricdə Rusiya hökuməti təşkil etmək üçün səlahiyyət verilmişdi [7;s.2,516]. Eyni zamanda Yeltsin və onun "komandası" Rusiyanın ittifaqdan ayrılaraq ayrıca dövlət olmasını istəyirdilər [8,s.318].

Azərbaycan KP MK rəhbərliyi dövlət çevrilişini dəstəklədiyindən xalqda narazılıq yaradırdı. 1991-ci il avqustun 22-27 arasında Bakı və Naxçıvan şəhərlərində keçirilən mitinqlərdə hakimiyyətin dövlət çevrilişinə münasibəti pislənildi. Ümummilli lider H.Əliyev 1991-ci il avqustun 24-də Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinə göndərdiyi məktubda "növbədənkənar fövqəladə sessiyasının cağrılmasını təklif edir, ... Azərbaycan rəhbərliyinin hərbi xunta" ilə bağlı mövqeyinin müzakirə olunmasını və qiymət verilməsini təklif edirdi [9,s.179]. "Azərbaycan KP MK rəhbərliyinin" "çevrilişi" dəstəkləməsi prezident A. Mütəllibovun, "Azərbaycan KP MK-nın ikinci katibi Polyaniçkonun" televiziya vasitəsilə verdiyi müsahibələrindən, oxunan müraciətlərindən, Moskvaya göndərilən teleqramlardan aydın görünürdü. Ümummilli lider məktubunda bildirirdi ki, "Azərbaycan KP MK-nın mətbu orqanı olan və DFVK-nın qərarlarını tam yerinə yetirən "Kommunist", "Bakinski raboçi", "Vişka" və b. qəzetlərin fəaliyyətinin dayandırılması barədə qərar qəbul etmək lazımdır" [9,s.180]. Bütün bunlar Azərbaycan Kommunist rəhbərliyinin 20 Yanvar faciəsinin günahkarlarından olan Qorbaçov, Kryuçkov, Yazov və digərləri ilə əlbir olduğunu və onları müdafiə etdiyini göstərən əsaslı faktlardır. Növbəti sessiyada demokratiyaya qarşı hücumu pisləyən ümummilli lider H.Əliyev parlamentdəki çıxışında "xunta"nın əsl mahiyyətini açıqlayır, "Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hərbi xunta ilə əməkdaşlıq edib-etməməsi məsələsi"nin aydınlaşdırılması üçün "parlament komissiya"sının yaradılmasını tələb edirdi [9,s.181-184;10].

Dövlət çevrilişinə cəhdin qarşısı alındıqdan sonra SSRİ məkanında siyasi hadisələr daha da mürəkkəbləşdi. 1991-ci il avqust 29-da Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında ulu öndər Heydər Əliyev "ölkədə, cəmiyyətdə siyasi və iqtisadi böhran, dövlət, hakimiyyət böhranı"nın kəskinləşdiyini, "mürtəce qüvvələrin demokratiya əleyhinə hücumu"nu qeyd edir və dövlət çevrilişinin dəf edildiyini bildirirdi. Bakıdakı mitinqlər fövqəladə vəziyyət rejimində davam etdiyindən

H.Əliyev tələb edirdi ki, "Bakıda fövqəladə vəziyyət dərhal götürülməlidir". O, eyni zamanda keçən "... il yarımda fövqəladə vəziyyəti Bakıda saxlamaq üçün respublika nə qədər vəsait xərcləyib və respublikaya nə qədər zərər" vurulduğunun aydınlaşdırılmasını tələb edirdi [10].

Avqust hadisələrinə qədər Litva, Gürcüstan kimi Sovet respublikaları öz müstəqilliyini elan etmişdi. Dövlət çevrilişinin həyata keçirildiyi günlərdə Estoniya və Latviya, ardınca da Ukrayna və Belarusiya müstəqilliklərini elan etdilər [2,s.554]. Azərbaycan isə hələ də kommunist rejimini qoruyub saxlamağa çalışırdı. Bunu yolverilməz olduğunu bəyan edən ümummilli lider: "Xalqda birlik yaratmaq üçün Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. Bu, Sovet İttifaqı Kommunist Partiyasının tərkib hissəsidir. Sovet İttifaqı Kommunist Partiyası dağılmışdır. Azərbaycan Kommunist Partiyasının bütün strukturları ləğv olunmalıdır, əmlakı milliləşdirilməlidir"-deyə tələb edirdi [10].

В соответствии с контрактами азербайджанские предприятия имеют преимущества на получение заказов от международных консорциумов при условии обеспечения необходимого качества, конкурентоспособной цены продукции и ее соответствия стандартам Американского Нефтяного Института. Это, в свою очередь, способствует созданию иностранными фирмами совместных предприятий (СП) с азербайджанскими партнерами. В мае 2001 года президент США Буш представил свою национальную энергетическую программу. Одним из ее положений предусматривалось наращивание усилий со стороны США с целью расширения участия американских компаний и увеличения объемов добычи в странах Каспийского бассейна. Программой Буша были поддержаны маршруты ОЭТ Баку — Джейхан и газопровода из азербайджанского месторождения «Шах-Дениз» в Турцию. В рамках этого плана намечался пересмотр односторонних санкций, предпринятых США в отношении нефтедобывающих стран. После событий 11 сентября 2001 года, когда резко возросла вероятность неконтролируемого развития событий в Персидском заливе, прежде всего в Саудовской

---

1 Azərbaycan dövlet kitabı. Baki, 2001, s. 118-120

2 Mirzayev R. Road starting from Contract of Century. Baku, 2000. P. 27-40

Аравии, интерес США к Каспийскому региону принял совершенно иные масштабы. При этом речь уже пошла о размещении американских воинских контингентов в этом районе на постоянной основе с целью защиты нефтегазовых промыслов и коммуникаций.

Наряду с американским направлением, важное место во внешней политике Азербайджанской Республики занимало сотрудничество с Великобританией, Францией, Германией.

В октябре 1993 года (уже после прихода к власти в Азербайджане Гейдара Алиева) государственный министр (заместитель главы внешнеполитического ведомства) Дуглас Хогг посетил Баку с тем, чтобы «перепроверить» готовность азербайджанцев к дальнейшим шагам по налаживанию сотрудничества в нефтяной области. Д.Хогг парафировал меморандум о неограниченной свободе перемещения граждан двух государств, а также декларацию о проведении на регулярной основе политических консультаций. В конце 1993 года, во время визита в Баку группы членов британского парламента от партии консерваторов, удалось согласовать детали визита президента Азербайджана в Великобританию, и в феврале 1994 года он впервые прибыл в Лондон. Итогом стало подписание меморандума о сотрудничестве в области нефтедобычи, заложившего основу последующего «контракта века».

В ходе переговоров в Лондоне обсуждались меры по укреплению внутриполитической стабильности, предпринятые Гейдаром Алиевым, его видение перспектив развития страны, возможности мирного урегулирования карабахской проблемы, гарантии английскому бизнесу. Со стороны Великобритании прозвучала четкая поддержка курса Гейдара Алиева на укрепление суверенитета Азербайджанской республики, создание демократического, светского государства. Внешнеполитический курс президента, направленный на развитие стратегического партнерства со странами НАТО, также получил одобрение. Февральский визит Г.Алиева в Великобританию сыграл ключевую роль в реальном становлении независимого Азербайджана как равноправного субъекта мирового сообщества и заложил фундамент внешнеполитической концепции президента Г.Алиева, получившей

впоследствии название «нефтяная стратегия».

Для координации экономического сотрудничества в конце 1995 года был создан Азербайджано-британский торгово-экономический совет, в январе 1996 года было заключено двустороннее соглашение о взаимной защите и поощрении инвестиций. 15 августа 1996 года свой филиал в Баку открыл Британский банк Ближнего Востока (БББВ), являющийся дочерней компанией крупнейшего банка Великобритании HSBS-холдинг. В Баку начали работать представительства ведущих нефтяных компаний Великобритании, которые благотворно влияли не только на развитие промышленности республики, но и на укрепление ее инфраструктуры, на расширение сотрудничества в культурной, образовательной и гуманитарной сферах.

19-24 июля 1998 года президент Азербайджанской республики вновь посетил Великобританию с официальным визитом. Состоялись его встречи с королевой Елизаветой, премьер-министром, а также главами министерств финансов и обороны. Стороны подписали «Совместную декларацию о дружественных отношениях и партнерстве президента Азербайджанской Республики и премьер-министра Соединенного Королевства Великобритании и Северной Ирландии», в которой подтвердили совместную Декларацию о дружбе и сотрудничестве от 23 февраля 1994 г., «как базу ныне существующих превосходных двусторонних отношений», призванную продолжать формировать основу для углубления существующих сфер сотрудничества и «деятельности в новых областях».

Англичане поддержали курс Азербайджана на развитие отношений с Евросоюзом, приветствовали проект ТРАСЕКА по совершенствованию транспортных коммуникаций в каспийском регионе, отметив важность международного сотрудничества в создании и функционировании евроазиатского транспортного коридора.

По окончании переговоров оба лидера присутствовали при подписании трех важных соглашений о долевом распределении добычи нефти и газа, в которых «Бритиш петролеум», «Монумент ойл энд газ» и «Рэмко» являются основными партнерами ГНКАР.

С учетом сильного воздействия на позицию Франции

многочисленной армянской диаспоры отношения с Парижем носят, скорее, политический характер. Дипломатические отношения между двумя странами установлены 21 февраля 1992 года. Французская Республика стала первой страной, которую Гейдар Алиев посетил, будучи на посту Президента Азербайджанской республики. В ходе трехдневного пребывания в Париже в декабре 1993 года он имел встречи с президентом Франции Ф. Миттераном, руководителями парламента и различных ведомств. Обсуждались вопросы участия французских компаний в разведке и добыче азербайджанской нефти на Каспии, а также инвестиций в сельское хозяйство и пищевую промышленность. По итогам визита стороны парафировали два документа - Парижскую хартию и Договор о дружбе, взаимопонимании и сотрудничестве, состоялась церемония открытия Франко-азербайджанской торговой палаты. Одним из наиболее весомых результатов переговоров для азербайджанской стороны явилось подтверждение Парижем принципа неприкосновенности границ, территориальной целостности республики, недопустимости решения спорных вопросов силовыми методами[1], что особенно важно с учетом многочисленной армянской диаспоры во Франции и ее влияния на французскую политику. Как неоднократно заявлял в ходе парижских встреч Г.Алиев, - «Азербайджан открыт для Франции».[2]

В марте 1997 года Президент Азербайджанской республики Гейдар Алиев вновь побывал с визитом в Париже. Встреча с президентом Франции Ж.Шираком 27 марта была посвящена ситуации на Кавказе и перспективам урегулирования карабахского конфликта, поэтому основное внимание уделялось активизации роли Франции как сопредседателя Минской группы ОБСЕ. Одновременно, надеясь повысить заинтересованность Парижа в решении армяно-азербайджанской, нагорно-карабахской проблемы, Гейдар Алиев призвал французские компании активизировать участие в реализации азербайджано-французского соглашения о совместном

---

1 Бакинский рабочий. 1994, 20 января

2 А2егЬаусап - РгапБа: 6тэкс1а§11£т кет§1эптэ5тэ тШшт 1бЬГэ. Вак1, 1997, б. 5

освоении нефтяных месторождений в Каспийском море (подписано в январе 1997 г.). Стороны приняли решение в возможно короткие сроки провести первое заседание азербайджано-французской экономической комиссии, что и было сделано в сентябре 1998 года.[1]

Контакты с Германией в начале носили характер гуманитарной помощи. Однако в 2001-2003 годы экономический компонент азербайджано-германского партнерства заметно усилился. Речь идет, в первую очередь, о восстановлении отдельных энергетических объектов и предприятий нефтяного машиностроения. Дипломатические отношения с Германией установлены 20 февраля 1992 года, а принципы взаимоотношений зафиксированы 22 декабря 1995 года. В ходе официального визита в Берлин летом 1996 года Гейдар Алиев высказался за то, чтобы Германия, как член Минской группы ОБСЕ, активизировала свою помощь Азербайджану в решении армяно-азербайджанской, нагорно-карабахской проблемы. В связи с завершением срока пребывания представителя Финляндии на посту сопредседателя Минской группы ОБСЕ Германия выдвинула в конце 1996 года свою кандидатуру. Азербайджанская республика дало на это согласие, однако из-за возражений России и Армении сопредседателем стала Франция (а вскоре и США).

Основное место в отношениях двух государств занимает экономическое сотрудничество, которое развивается в рамках ежегодно заключаемого меморандума о финансовом и техническом сотрудничестве.

Хотя курс на стратегическое партнерство с США, государствами Западной Европы и Турцией остается приоритетным направлением внешней политики Азербайджанской республики, было бы неправильно рассматривать страну как форпост той или иной внерегиональной державы или пассивный объект чьих-то притязаний. Азербайджанская Республика является самостоятельным участником мировой политики, отстаивая собственные законные интересы в регионе.

---

[1] Шукуров И. Дипломатия мира. Баку, 1997, с. 19-25.

Ключевыми компонентами внешнеполитической концепции Азербайджанской Республики всегда являлись - справедливое решение армяно- азербайджанского нагорно-карабахского конфликта и восстановление территориальной целостности страны, освобождение оккупированных земель, возвращение беженцев в родные места; ускорение интеграции в мировое сообщество и, прежде всего, в евроатлантические структуры, поиск согласия и совпадающих интересов с зарубежными странами и межгосударственными объединениями в процессе решения задач, определяемых национальными приоритетами; активное использование «энергетической дипломатии» для поступательного развития страны, подъема ее экономики, повышения уровня жизни населения, успешного проведения демократических преобразований, укрепления светского, конституционного государства; формирование пояса добрососедства по периметру государственной границы, содействие устранению имеющихся и предотвращению возникновения потенциальных очагов напряженности и конфликтов на Южном Кавказе; воздействие на региональные процессы в целях формирования стабильного, справедливого и демократического миропорядка, строящегося на общепризнанных нормах международного права, включая, прежде всего, цели и принципы Устава ООН; всесторонняя защита прав и интересов азербайджанских граждан и соотечественников за рубежом. Добываемая консорциумом каспийская нефть стала не только источником доходов государства, но и политическим фактором, определяющим ситуацию в регионе. Формируя свою внешнеполитическую стратегию, азербайджанское руководство уделяло большое внимание нефтяной дипломатии, а также разработке средств и методов реализации с ее помощью стоящих перед страной задач. Каспийская нефть привлекало зарубежных нефтяных гигантов, которые инвестировали капиталы в экономику независимого государства.

ИСТОЧНИКИ И ЛИТЕРАТУРА

1. Алиев И. Г. , Мурадвердиев А. Ш. Азербайджанская нефть в мировой политике. Т. 1.- Баку, 1997.
2. Алиев И. Г. , Мурадвердиев А. Ш. Азербайджанская нефть в мировой политике. Т. 2.- Баку, 1997.
3. Алиев И. Г. , Мурадвердиев А. Ш. Азербайджанская нефть в мировой политике. Т. 3.-

Баку, 1998.
4. Азери, Чираг и глубоководная часть Гюнешли как новый объект мировой геополитики // Нефть и капитал, 2001
5. Алиев Г. А. Результат продуманной и дальновидной политики нашего государства // Возрождение XXI век, 1999, № 19
6. Федоров Ю. Каспийский узел // Мировая экономика и международные отношения, 1996.
7. Стоне А. Каспий: некоторые иллюзии и реальности // Нефтегазовая вертикаль, 2001

G.Məmmədova

HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN VƏ NEFT STRATEQİYASININ HAZIRLANMASI

XÜLASƏ

Azərbaycanın neft sənayesi özünün 150 illik tarixi ərzində böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nəticəsində Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, İNOQEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir.

G.Mammadova

DEVELOPMENT OF HEYDAR ALIYEV AND FOREIGN OIL STRATEGY OF AZERBAIJAN

SUMMARY

The article Republic of Azerbaijan on cooperation in the oil, and the European Union is about. During its 150-year history of the oil industry has made tremendous progress. However, not only the people of the twentieth century after independence got a chance to use these resources. Heydar Aliyev's oil strategy of Azerbaijan in the Caspian Sea, deeply thought-energy potential of the region and the development of the first to adopt a new economic model forming, expansion of political and trade between Europe and Asia, the Caucasus transport corridor development, Inogate, implementation of the TRACECA and other major projects in the Caspian and Caucasus plays an important role in the country, has become one of the world's oil.

AZƏRBAYCANI AVROPAYA BAĞLAYAN QAZ KƏMƏRİ

Abbas MƏSİMOV

Açar sözlər: Azərbaycan, Avropa,Qaz kəməri, Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum
Keywords: Azerbaijan, Europe, Gas pipline, Baku-Tbilisi-Jayhan, Baku-Tbilisi-Arzurum
Ключевые слова: Азербайджан, Европа, Газопровод, Баку-Тбилиси-Джейхан, Баку-Тбилиси-Эрзурум

Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın əsasını qoymuş "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin gələcək inkişafının və o cümlədən enerji təhlükəsizliyinin bünövrəsi qoyulmuşdur. Ölkəmiz öz enerji təhlükəsizliyini təmin etmək üçün neft və qaz təbii sərvətindən səmərəli istifadə etməyə səy göstərir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: "Allah Azərbaycan xalqına zəngin sərvətlər bəxş etmişdir. Bizim borcumuz, vəzifəmiz bu sərvətlərdən ehtiyatla istifadə etmək, eyni zamanda bu yataqları ardıcıl olaraq aşkara çıxarıb hərəkətə gətirmək, onlardan müstəqil respublikamızın, inkişafı, xalqımızın rifahı naminə istifadə etməkdən ibarətdir"[1].

Azərbaycan Respublikası məkanında dünyanın qabaqcıl neft şirkətləri ilə irimiqyaslı saziş imzalayan ilk dövlət olaraq enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində irəliyə doğru əhəmiyyətli addım atdı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə xam nefti və təbii qazı Qərb ölkələrinin bazarlarına tətlükəsiz, alternativ marşrutlarla ixrac etmək üçün ən optimal variantlar seçildi.

Qərb İxrac Boru Kəmərinin (QİBK) istismara verilməsi və Bakı – Tbilisi – Ceyhan (BTC) ixrac boru kəmərinin reallaşmağa başlaması, yeni alternativ boru kəməri layihələrinin yaranmasına təkan verdi. Belə əhəmiyyətli layihələrdən biri "Şahdəniz" qaz yatağının aşkarlanmasından sonra irəli sürülmüş olan Bakı -Tbilisi - Ərzurum (BTƏ) qaz kəmərin layihəsidir. (BTƏ boru kəmərinin Azərbaycan Respublikası və Gürcüstan Respublikası ərazisindəki hissəsi Cənubi Qafqaz Boru Kəməri adlanır).

Cənubi Qafqaz Boru Kəməri layihəsinin də memarı və müəllifi ümummilli lider Heydər Əliyevdir. 2001-ci il sentyabrin 29-da Gürcüstan

---

Abbas Məsimov – Azərbaycan Kooperasiya Universitetinin əməkdaşı

Prezidenti Eduard Şevardnadzenin Bakıya rəsmi səfəri zamanı Bakı – Tbilisi qaz kəmərinin tikintisinə dair Azərbaycan Respublikası ilə Gürcüstan arasında saziş imzalanmışdır. Bununla da böyük tarixi əhəmiyyətə malik olan Bakı – Tbilisi – Ərzurum qaz kəməri layihəsinin bünövrəsi qoyulmuşdur.ABŞ başda olmaqla Qərb dövlətləri bu mühüm alternativ qaz kəməri layihəsini dəstəkləyən bəyanat verdilər:

2001-ci il oktyabrın 1 – də ABŞ dövlət departamenti Gürcüstan prezidenti Eduard Şevardnadzenin Bakıya səfəri zamanı ümummilli lider Heydər Əliyevlə Bakı-Tibilisi- Ərzurum qaz kəmərinə dair imzaladığı hökumətlərarası sazişi dəstəkləyən bəyanat yaymışdır. Bəyanatda deyilir:

«Amerika Birləşmiş Ştatları Azərbaycandan Türkiyəyə nəql edəcək Bakı – Tbilisi – Ərzurum qaz kəmərinin tikintisinə dair sentyabr ayının 29 – da Gürcüstanla Azərbaycan arasında bağlanan sazişi alqışlayır. ABŞ bu sazişin bağlanmasında Prezident Heydər Əliyevin və Prezident Eduard Şeverdnadzenin strateji uzaqgörənliyini layiqincə qiymətləndirir. Bu həmçinin layihəyə cəlb olunmuş şirkətlərin gərgin işinin nəticəsidir”.[2]

Qərb istiqamətində yeni alternativ ixrac boru kəməri layihəsi də əvvəlki layihələr kimi ciddi müqavimətlə rastlaşdı. Bakı – Tbilisi – Ərzurum qaz kəməri layihəsinin gerçəkləşməsinə mane olmağa çalışan qüvvələr xüsusilə Rusiya və Ermənistan, o cümlədən də erməni lobbisi əks təbliğatı gücləndirmişdilər. Həmin dövrdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse prezidenti vəzifəsində işləyən, millət vəkili İlham Əliyev bununla bağlı demişdir:

“Bakı – Tbilisi – Ərzurum qaz kəmərinin tikintisi zamanı da onlar eyni şəkildə hərəkət etdilər. Hər imkanda məsələ qaldırdılar ki, nə üçün kəmər ermənistan ərazisindən keçmir? Ona görə ki, Ermənistan azərbaycan torpaqlarını işğal etmişdir, qəsbkarlıq siyasəti yürüdür. Ona görə də bizim aramızda heç bir əməkdaşlıq ola bilməz! Bütün yollar ermənistandan yan keçəcək”.[3]

2001-ci il martın 12- 16 dək olan tarixdə ümummilli lider Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri Azərbaycan Respublikası ilə Türkiyə arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ olmuşdur. Rəsmi səfər zamanı Türkiyə rəhbərləri ilə danışıqlar və görüşlər BTC və BTƏ boru kəmərlərinin layıhələrinin

gerçəkləşməsinə əhəmiyyətli təsir göstərmişdir.

2001-ci il martın 12 – də Azərbaycan qazının Türkiyəyə nəql edilməsinə dair sazişin və BOTAŞ ilə ARDNŞ arasında imzalanmış müqavilənin Bakı – Tbilisi – Ərzurum boru kəmərinin gerçəkləşməsində böyük rolu olmuşdur.

Türkiyənin Böyük Millət Məclisində nitq söyləyən ümummilli lider Heydər Əliyev diqqəti "Şahdəniz" yataqında böyük qaz ehtiyatlarının aşkarlanmasına yönəldərək demişdir:

"Biz düşündük ki bu qazı nə edək? Qazı da Türkiyəyə ixrac etmək lazımdır. Çünki birincisi Türkiyənən buna ehtiyacı var, ikincisi "Şahdəniz" yatağında Türkiyənin payı var... Azərbaycan qazı yenə də Gürcüstan üzərindən Türkiyəyə gələcəkdir. Ilkin anlaşmaya əsasən, 6 milyard kub metr qaz gələcəkdir. Amma sonra bunu 15 -20 milyard kub metrə çatdırmaq olar" [4].

Azərbaycanın "Şahdəniz" yatağından əldə olunacaq qazın Gürcüstan üzərindən boru kəməri vasitəsilə Türkiyəyə nəql edilməsinə dair hökumətlərarası sazişin imzalanması boru kəmərlərinin gerçəkləşdirilməsi yönündə yeni bir mərhələnin əsasını qoydu və Türkiyə ilə Azərbaycan arasındakı siyasi, iqtisadi mədəni əlaqələrin daha da inkişaf etdirilməsi sahəsində mühüm bir addım oldu.

"Şahdəniz" yatağının işlənməsi haqqında qərar bütün dünyüda əks səda doğurdu. ABŞ dövlət departamenti "Şahdəniz"in növbəti mərhələyə qədəm qoymasını alğışladı. Yatağın mərhələlərlə işlənməsi nəzərdə tutulmuşdur və birinci mərhələdə maksimum qaz istehsalının 8 milyard kub metr, ikinci mərhələdə isə 16 milyard kud metrə çatdırılması proqnozlaşdırılmışdır.

"Şahdənizin" birinci mərhələsinə işlənmə, hasilat və nəqletmə sahələri daxildir. Hasilat sualtı kəmərlərlə Səngəçal terminalına daxil olur, terminalda isə qaz və kondensant emal edilir.

Səngəçal layihəsinin nəqletmə hissəsi yeni bir qaz ixracı sistemi Gürcüstandan keçməklə Azərbaycan Respublikasından Türkiyənin sərhəddinədək uzanacaq 690[5]- kilometrlik Cənubi Qafqaz Boru Kəmərinin olacaq. CQBK – nin BTC ilə eyni dəhlizdə tikilməsi nəzərdə tutulmuşdur. Bu ətrf mühitə, sosial sahəyə təsirin minimuma endirilməsinə, vəsaitə və vaxta qənaət etməyə imkan yaratmışdır. Cənubi

Qafqaz Boru Kəmərin tikintisinə 2004 – cü ilin oktyabr ayında başlanılmışdır. Boru Kəmərinin 442 kilometri Azərbaycanın 248 kilometri isə Gürgüstanın ərazisindən keçir.

"Şahdəniz" yatağında hasil olunacaq qaz Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Gürcüstan – Türkiyə sərhəddinə oradan isə dünya bazarına nəql ediləcək. Hasil olunan qazı Gürcüstan Türkiyə sərhəddinə qədər nəql edəcək boru kəməri son məntəqədə (sərhəddə)Türkiyənin milli qaz şəbəkəsinə qoşulacaq.

Prezident İlham Əliyev Varşavada keçirilən Avropa iqtisadi sammitindəki nitqində Azərbaycanda həyata keçirilən 4 ən iri layihəyə sərmayə yatırılması haqqında məlumat verərkən "Şahdənizi "də xüsusi qeyd edərək demişdir.

"Həyata keçirilən 4 neft və qaz layihələri – Azəi- Çıraq-Günəşli neft yataqlarının işlənməsi, "Şahdəniz" qaz yatağının işlənməsi, Bakı – Tbilisi-Ceyhan neft kəmərinin və Bakı – Tbilisi – Ərzurum qaz kəmərinin çəkilişi üzrə hər gün 10 milyon[6] dollar sərmayə yatırılır."[6]

Ümummilli lider Heydər Əliyevin neft strategiyasını inamla davam etdirən Prezident İlham Əlyev BTC –nin tikintisi ilə bərabər Bakı – Tbilisi – Ərzurum boru kəmərinin çəkilməsini də həmişə diqqət mərkəzində saxlamış və bu boru kəmərinin nəinki ölkəmizin, hətta Gürcüstanın və Türkiyənin də enerji təhlükəsizliyində böyük rol oynayacağını qeyd edərək Türkiyənin təbii ehtiyatlar naziri Hilmi Gülər və onun başçılıq etdiyi nümayəndə heyyəti ilə görüşdə demişdir:

"Bakı – Tbilisi – Ceyhan kəməri istifadəyə verildikdən sonra Bakı – Tbilisi – Ərzurum qaz kəmərinin tikintisinə başlanacaq ki bu da təbii qazın qardaş ölkəyə və Avropaya çatdırılmasına imkan verəcəkdir"[7].

BP Azərbaycan şirkətinin 2004 – cü il üçün illik Hesabatında göstərilir ki, Azərbaycan və Gürcüstan respublikalarının ərazilərindən keçən Cənubi Qafqaz Boru Kəməri Bakı – Tbilisi – Ceyhan neft kəməri ilə paralel çəkiləcək və eyni ilə BTC boru kəməri kimi torpağa basdırılacaqdır.

Cənubi Qafqaz Boru Kəmərinin tikintisində və "Şahdəniz" yatağının işlənilməsində 7 milli və beynəlxalq şirkət tərəfdaş qismində iştirak edir. Şirkətlərin konsorsiumda payı göstərilən kimidir: Bİ-Pİ (operator) 25,5 %, STATOİL – 25,5%, NİCO -10%, Total – 10%,

LUKAcip – 10%, TPAO – 9%, ARDNŞ – 10%[8].

Azərbaycan Respublikasının ərazisində Cənubi Qafqaz Boru Kəmərinin qaynaq edilməsi üzrə işlərə 2004 – cü ilin oktyabrında başlanılsa da artıq həmin ilin sonu üçün layihənin 54[9] faizi tamamlanmışdır.

2005 – ci ildə əsas diqqət CQBK – nin qalan seksiyasına yönəldilmiş və boru kəmərinin inşası davam etdirilmişdir. Həmin il üçün kəmərin layihə və əməliyyatlarına 1,1[10] milyard dollar vəsait xərclənilmişdir.

2006 –cı ilin yayında BTC neft kəməri istifadəyə verildikdən sonra Bakı – Tbilisi – Ərzurum boru kəmərinin inşası uğurla davam etdirilmişdir.

Səkkiz illik BP Azərbaycan şirkətinə rəhbərlik etmiş Devid Vudvord 2006 – cı ildə təqaüdə çıxdıqdan sonra, şirkətin Strateji İcra Bölümünün (SİB) yeni prezidenti Bill Şreyderin hesabat məlumatına görə bu ildə Cənubi Qafqaz Boru Kəməri tam istismara verilmişdir.

BP Azərbaycan şirkətinin hesabat məlumatına əsasən CQBK yə birinci istismar qazı 2006 – cı ilin may ayının 21 – də, birinci kommersiya qazı isə 2006 – cı ilin dekabr ayının 15[11] – də verilmişdir. Beləlikə CQBK ilə Gürcüstana qaz nəqlinə başlanmışdır. CQBK uzadılaraq Türkiyəyə sonra isə Yunanıstana qaz ixrac ediləcəkdir. Bununla da Azərbaycanın avropa ölkələrin ilə iqtisadi əlaqələri daha da intensivləşəcəkdir. Prezident İlham Əliyevin dediyi kimi:

"Bu layihələrin həyata keçirilməsi ilə həm Azərbaycanın həm də region dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında yeni mərhələ başlanacaqdır. Bakı – Tbilisi – Ərzurum qaz kəmərinin istismarı Azərbaycan – Yunanıstan münasibətlərini genişləndirəcəkdir."[12]

Avropa ittifaqı ilə əməkdaşlığın genişləndirilməsində Azərbaycanda həyata keçirilən enerji layihələri əhəmiyyətli rol oynayacaqdır. Hələ 2006 – cı ildə prezident İlham Əliyevin Belçikaya işgüzar səfəri zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələri üzrə strateji tərəfdaşlığa dair imzalanmış olan "Anlaşma memorandumu" uğurla yerinə yetirilir.

2007 – ci ildə Bakı –Tbilisi – Ərzurum qaz kəmərinin inşası uğurla davam etdirilərək Gürcüstan Türkiyə sərhəddinə çatdırılmışdır. Bu ilin iyul ayında Cnubi Qafqaz Boru Kəməri vasitəsilə Türkiyənin "BOTAŞ "

şirkətinin qaz nəqli sisteminə ilk təbii qaz yanacağı verilmişdir.

Əvvəlcədən nəzərdə tutulmuş plana əsasən Bakı – Tbilisi – Ərzurum boru kəməri uzadılaraq Türkiyənin qaz kəməri sisteminə birləşdirilməli və yeni xətt tikilərək Türkiyə - Yunanıstan sərhəddinə çatdırılmalı idi. Türkiyə ilə Yunanıstanın qaz kəmərləri şəbəkələrini birləşdirəcək bu boru kəməri inşa edilərək 2007 – ci ilin noyabr ayında Türkiyə - Yunanıstan sərhəddinə çatdırılmışdır. Boru kəmərinin uzunluğu 296,5 kilometrdir, onun 210 kilometri Türkiyənin 86, 5[13] kilometri Yunanıstanın ərazisindən keçir.

2007 – ci il noyabrın 18 – də Türkiyənin Yunanıstanla sərhəddə yerləşən İpsala sərhədd-keçid məntəqəsində yeni inşa olunmuş qaz kəmərinin açılış mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin baş naziri R.T.Ərdoğan, Yunanıstanın baş naziri K.Karamanlis, Türkiyənin energetika və tıbii ehtiyatlar naziri H.Gülər, ABŞ-ın energetika naziri S.Bodman və digər rəsmi şəxslər iştirak edirdilər. H.Gülər mərasimi açaraq Türkiyə - Yunanıstan boru kəməri vasitəsilə təbii qazın Avropa bazarlarına ötürüləcəyini bildirdi. ABŞ-ın energetika naziri Samuel Bodman bir sıra beynəlxalq layihələrə və təşəbbüskarlığa görə prezident İlham Əliyevə təşəkkür edərək bildirdi ki, ABŞ bu layihələrə böyük önəm verir.

Layihənin əhəmiyyətini qeyd edən Yunanıstanın baş naziri K.Karamanlis qeyd etdi ki, gələcəkdə bu kəmər İtaliya sərhəddinə qədər uzadılacaq. O, Azərbaycan – Türkiyə -Yunanıstan – İtaliya dördtərəfli iş birliyini beynəlxalq iş birliyinin nümunəsi kimi səciyyələndirdi.

Türkiyənin baş naziri R.T.Ərdoğan Bakı – Tibilisi – Ceyhan və Bakı – Tibilisi – Ərzurum neft qaz layihələrini yüksək qiymətləndirərək qeyd etdi ki, bütün işlərdə qarşılıqlı əməkdaşlığa önəm verən Türkiyə, bölgədə böyük enerji dəhlizinə çevrilir. O,bildirdi ki, boru xəttinin Adriatik dənizindən keçməklə İtaliyaya çatdırılmasından sonra Yunasıstana 3,6 milyard kub metr, İtaliyaya isə ildə 8 milyard kub metr qaz nəql edilməsi proqnozlaşdırılır.

Sonra R.T.Ərdoğan dedi ki, Azərbaycan neft və qazının dünya bazarlarına çıxarılması beynəlxalq aləmdə əməkdaşlığın əsl nümunəsidir və sülhə, əminamanlığa, tətlükəsizliyə xidmət edir.

Azərbaycan prezidenti İlham Əliyev öz çıxışında enerji sahəsində

əməkdaşlığdan danışaraq demişdir:

"Bu gün Türkiyə ilə Yunanıstan arasında qaz xətlərinin birləşməsi bölgəyə yenilik gətiribdir enerji sahəsində mövcud olan əməkdaşlığın yeni formatı yaranıb və mən əminəmki bu başlanğıc çox uğurlu olacaqdır"[14].

Ölkəmizin rəhbəri bu başlanğıcı ilk addım adlandırmış və ümidvar olduğunu bildirmişdir ki, bundan sonra yeni addımlar atılacaq bölgədə sabitliyin, əməkdaşlığın, təhlükəsizliyin, o cümlədən enerji təhlükəsizliyinin rəmin olunması üçün bütün lazımi tədbirlər görüləcəkdir.

Əvvəllər neft ölkəsi kimi tanınan Azərbaycan "Şahdəniz" qaz yatağı aşkarlandıqdan və Bakı – Tibilisi – Ərzurum boru kəməri çəkildikdən sonra qaz ixrac edən ölkə kimi tanınmağa başlamışdır. Bununla bağlı prezident İlham Əliyev demişdir:

"Azərbaycanın neft tarixi çox qədimdir Ancaq qaz ölkəsi kimi Azərbaycan təzə - təzə özünü dünyaya təqdim edir. Biz o ölkəyik ki, hələ keçən il xaricdən 4,5 milyard kub metr qaz idxal edirdik. Amma Azərbaycanda aparılan böyük işlər nəticəsində... bu gün Azərbaycan artıq qaz idxal etmir əksinə öz qazını qonşu ölkələrin bazarlarına ixrac edir"[15].

Azərbaycan BTƏ boru kəməri vasitəsilə üç ölkəyə - Gürcüstana, Türkiyəyə, 2007 – ci il noyabrın 18 – dən isə Yunanıstana qaz ixrac edir. Prezident İlham Əliyev bu iş birliyini yüksək qiymətləndirərək belə xarakterizə etmişdir:

"Bu gün üç ölkənin əməkdaşlığı məhz bu formatda müşahidə olunur. Istehsalçı, tranzit ölkə və qazı istehlak edən tərəf. Üç tərəf vahid formatda öz səylərini birləşdirir. Üç tərəfin maraqları tam şəkildə təmin olunur və əminəm ki, bu bütün başqa ölkələr üçün nümunə ola bilər"[16].

Bakı – Tibilisi – Ərzurum boru kəməri ilə Azərbaycan qazının Türkiyə ərazisindən keçməkə Yunanıstana çatdırılması nəinki bu iki ölkənin arasında iqtisadi əlaqələrin genişlənməsinə, hətta siyasi münasibətlərin də yaxşılaşmasına müsbət təsir göstərmişdir. Türkiyə ilə Yunanıstan arasında siyasi mülayimləşmənin baş verməsi bunun əyani sübutudur. Hər iki ölkənin baş nazirlərinin qarşılıqlı səfərləri bu fikri bir daha təsdiq edir. Sevindirici haldır ki, Türkiyə ilə Yunanıstan arasında siyasi gərginliyin zəyiflədilməsi və iqtisadi əlaqələrin genişləndirilməsində Azərbaycan xoşməramlı vasitəçilik missiyasını yerinə yetirir. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev demişdir:

"Əminəm ki, bu gün burada, Türkiyə Yunanıstan sərhəddində yaranan yeni əməkdaşlıq forması dahada genişlənəcəkdir. Bu formata yeni ölkələr daxil olacaqlar. Əməkdaşlığın yeni formaları üzə çıxacaqdır"[17].

CQBK istismara verildikdən sonra ahəngdar işləyir və ötürmə qabiliyyəti xeyli artırılmışdır. 2007 – ci ilin sonunda CQBK – nin gündəlik qaz ötürmə qabiliyyəti 22,08[18] min kub metrə çatdırılmışdır. İl ərzində kəmərin orta məhsuldarlığı (gündə) 8,97 milyon kub metr olmuşdur.

"Şahdəniz" layihəsinin əməliyyatçısı olan "BP" Azərbaycan şirkətinin son məlumatına görə yataqdan gündə orta hesabla 22 milyon kub metr qaz və 45,4[20] min barel kondensat çıxarılır. Yatağın birinci mərhələ işlənməsi dövründə hasilatın ən yüksək səviyyəsi 9 milyard kub metr qaz və gündə təxminən 50 min barel kondensat çıxarılacaqdır.

Layihənin ikinci işlənmə mərhələsində ildə 16[21] milyard kub metr qaz istehsal ediləcəkdir. Bu mərhələdə Bakı – Tbilisi -Ərzurum kəməri ilə Türkiyəyə və Avropa ölkələrinə qaz ixracı daha da artırılacaqdır.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Heydər Əliyevin Neft Strategiyası I hissə Bakı 2001 səh. 51
2. "Azərbaycan" qəzeti 3 oktyabr 2001 – ci il
3. İlham Əliyev "Azərbaycanıma inanıram" Bakı 2007 səh. 168
4. "Azərbaycan" qəzeti 24 mart 2001 – ci il
5. BP AzərbaycanDavamlı inkişaf haqqında Hesabat arxivi 2004 səh. 8
6. İlham Əliyev 4 c "İnkişaf- məqsədimizdir Bakı 2009 səh.24
7. Yenə orada səh.201
8. "Зеркало" qəz.323 iyun 2007 – ci il
9. BP Azərbaycan Davamlı inkişaf haqqında Hesabat arxivi 2005 səh.16
10. BP Azərbaycan Davamlı inkişaf haqqında Hesabat arxivi 2006 səh. 21
11. İlham Əliyev 5 c "İnkişaf – məqsədimizdir" Bakı 2010 səh. 21
12. Yenə orada " Azərbaycan" qəzeti 20 noyabr 2007 – ci il
12.Yenə orada
12.Yenə orada
13. BP Azərbaycan Davamlı inkişaf haqqında Hesabat arxivi 2007 səh.7
13.Yenə orada səh. 19
14. "Azərbaycan" qəzeti 15 avqust 2001 – ci il
14. Yenə orada

А.Месимов

ГАЗОПРОВОД, СВЯЗЫВАЮЩИЙ АЗЕРБАЙДЖАН С ЕВРОПОЙ

РЕЗЮМЕ

В статье рассматривается вопрос подготовки и осуществления проекта газопровода Баку – Тбилиси – Эрзурум и превращения Азербайджана в страну экспортера газа в Европу.

A.Masimov

GAS PIPELINE CONNECTING AZERBAIJAN TO EUROPE

SUMMARY

The article discusses the preparation and implementation of the project of the gas pipeline Baku - Tbilisi - Erzurum gas pipeline and make Azerbaijan gas exporting country in Europe.

NATO-NUN QLOBAL STRATEGİYASI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

Almaz ƏLİYEVA

Açar sözlər: NATO, Avropa, Amerika, qlobal, strategiya
Key words: NATO, Europe, America, global, strategy
Ключевые слова: НАТО, Европа, Америка, глобальный, стратегия

Amerika Birləşmiş Ştatları və Avropanı birləşdirən Avratlantika ideyasını özündə təcəssüm etdirən NATO XX əsrin beynəlxalq münasibətlər tarixinə öz möhürünü vurdu. 1949-cu il aprelin 4-də Vaşinqton müqaviləsinin imzalanması ilə əsası qoyulan təşkilat ötən əsrin, demək olar ki, bütün təlatümlü siyasi hadisələrində bu və ya digər şəkildə iştirak etmiş, soyuq müharibənin əsas fiqurlarından biri olmuşdur.

Lakin 90-cı illərin əvvəllərində sosializm sisteminin süqutu, NATO-nun əsas rəqibi olan Varşava Müqaviləsi Təşkilatının dağılmasından sonra təşkilatın fəaliyyətində ideoloji boşluq əmələ gəldi. Baxmayaraq ki, təşkilat soyuq müharibədə qalib gələrək 40 ildə daşıdığı idarzueoloji yükdən azad olmuşdu, lakin onun mübarizəsinin özəyini təşkil edən ideoloji dəyərlər də öz əhəmiyyətini itirmişdilər. Artıq nə Sovet İttifaqı qalmışdı, nə də onun proletar inqilabını dünyaya ixrac edərək ümumdünya inqilabına nail olmaq ideyası real görünürdü. Bir sözlə, NATO ideoloji böhrana düçar olmuşdu. Təşkilatın ölüm-qalım məsələsi dünyada ciddi müzakirə mövzusuna çevrilmişdi.

Bəzi tədqiqatçılar haqlı olaraq iddia edirdilər ki, Varşava Müqaviləsi Təşkilatının süqutundan sonra növbəti məntiqi addım Qərbin demokratik dəyərlərini "bolşevik" irticasından qorumaq üçün yaradılmış NATO-nun buraxılması olmalı idi. Lakin nə qədər paradoksal olsa da, məhz yeni beynəlxalq şərait bu addımı qeyri-mümkün edirdi. Tədqiqatçı A.Əzimli bunun səbəblərini aşağıdakı kimi qruplaşdırır:

1. İdeoloji qarşıdurmadan qaynaqlanan gərginlik aradan qalxsa da, Sovet İttifaqı və Yuqoslaviyada hadisələrin nəzarətdən çıxması göstərdi

---

Almaz Əliyeva – Dövlət İdarəçilik Akademiyasının doktorantı

ki, Avropada sabitlik üçün yeni təhlükələr meydana gəlmişdir. Buna görə də, geri çəkilmək bağışlanmaz bir səhv olardı;

2. Sovet-Amerika qarşıdurmasının geosiyasi əsaslarına həsr olunmuş "Oyun planı" əsərində məşhur Amerika politoloqu Z.Bjezinski göstərirdi ki, bu rəqabətin əsas hədəfi Avrasiya materiki üzərində nəzarətin yaradılması olmuşdur. Dünya okeanı və kosmosa nəzarət bu materikin kimin təsir dairəsində olmasından asılıdır. Sovet İttifaqı dağıldıqdan sonra Qərb bloku materikə demək olar ki, tam nəzarət etmək imkanı qazandı. Belə olan təqdirdə, 40 il gözlənilən bu imkanı əldən qaçırmaq nə dərəcədə düzgün olardı?

3. NATO-nun keçmiş baş katibi M.Vernerin söylədiyi kimi, Alyansın buraxılması Avropanın ABŞ-dan və Kanadadan uzaqlaşması təhlükəsini daşıyır. Məhz amerikalıların qitədəki siyasi və hərbi iştirakı, Sovet təhlükəsi qarşısında ehtiyatlılıq Avropa dövlətləri arasında hakimiyyət və təsir uğrunda tarixi mübarizənin qarşısını alan əsas amillər idi. Nə Avropa Birliyi, nə də Qərbi Avropa Birliyi təhlükəsizlik təmin olunmasa və bu təhlükəsizlik üçün etibarlı təminat olmasa idi ümumavropa inteqrasiyasını təmin edə bilməzdilər. AB nə qədər sıx və güclü bir qurum olsa da, ABŞ-sız təhlükəsizliyi təmin etmək və böhranları həll etmək iqtidarında deyil;

4. Post-kommunist məkanında yaranmış etnik və dövlətlərarası münaqişələrin həll edilməsi və yenilərinin meydana çıxmasının qarşısının vaxtında alınması üçün effektiv mexanizmə ehtiyac yaranmışdı. Bu qəbildən olan münaqişələrin Avropada sabitlik üçün əsas təhlükə mənbəyinə çevrildiyi üçün NATO öz hərbi strukturlarının effektivliyini nəzərə alaraq sülhyaratma funksiyasını da öz üzərinə götürmək məcburiyyəti qarşısında qalırdı. Bu aspektdən də baxanda görürük ki, NATO-nun hərbi mövcudluğu zərurətə çevrilmişdi.

5. NATO Avropa ilə Amerikanı birləşdirən yeganə vasitədir. Əgər Alyans Avropa təhlükəsizliyi və ümumavropa inteqrasiyası üçün həlledici əhəmiyyət daşıyırsa, ABŞ-ın iştirakı da Alyans üçün bir o qədər həlledici əhəmiyyətə malikdir. [2, s.18-22]

Müəllifin fikirləri ilə əsasən razı olduğumuzu bildirərək sonuncu bəndə bir az dəyişiklik etmək istərdik. Belə ki, NATO-nun qalmasını təmin edən əsas səbəblərdən biri ABŞ-ın Avrasiya materikindəki öz hərbi

mövcudluğunu təmin etmək istəyidir. Bunun üçün ən effektiv mexanizm Şimali Atlantika Müqaviləsidir. Buna görə də, nə qədər ki, NATO-da əsas söz sahibi olan ABŞ-ın strateji planlarında dünya hegemonluğu iddiası var, bu ölkə təşkilatın dağılmasına yol verməyəcək, əksinə, onun Şərqə doğru genişlənməsinə səy göstərəcək.

NATO-nun qlobal strategiyası da məhz bu cür müddəalar üzərində qurulur. Belə ki, 1955-ci il mayın 14-də yaradılan və SSRİ-nin diqtəsi ilə fəaliyyət göstərən Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan sonra dünyada yeganə hərbi-siyasi təşkilat kimi qalan NATO özünün yeni funksiyasını müəyyənləşdirməyə, beynəlxalq həyatda öz yerini və rolunu təyin etməyə, əhatə dairəsini genişləndirməyə səy göstərir. Digər tərəfdən, sosializm sistemi çökdükdən sonra, tarazlığı pozulmuş dünyada yaranmış yeni dövlətlərdə mövcud olan iqtisadi, siyasi böhran, milli, etnik və ərazi münaqişələri təkcə Avropada dövlətlərarası münasibətlər üçün deyil, eyni zamanda bütün beynəlxalq münasibətlər üçün təhlükə törədir. Belə şəraitdə NATO baş verən proseslərə öz münasibətini dəqiqləşdirməyə, münaqişələrin aradan qaldırılmasında xüsusi rol oynamağa, həmin ölkələrin demokratiya yolu tutmasında, azad bazar iqtisadiyyatına keçməsində və islahatlar aparmasında yeni imkanlarını təklif etməyə çalışır. [1, s.91]

NATO-nun qlobal strategiyasına bir qrup keçmiş Sovet respublikalarında da loyal münasibət müşahidə olunur (xüsusilə də Yanukoviçə qədərki Ukrayna və Gürcüstanda). Almaniyalı professor Lotar Rühl bu münasibətin arxasında duran məqamları araşdıraraq onların niyyətini aşağıdakı kimi ifadə edir: "Onlar Alyansa üzv olaraq Rusiyanın artan təhdidlərinə qarşı öz müstəqilliklərini və təhlükəsizliklərini sığortalamaq istəyirlər. Bu ölkələr hazırda Rusiyaya qarşı özlərini müdafiəsiz hiss edirlər. Onların digər bir niyyəti isə, Qərbdən demokratik və iqtisadi islahatlara lazımi dəstək almaq, ümumiyyətlə Qərbi Avopa ilə aradakı bağları bərkitməkdir." [3, s.14]

Lakin transatlantizm fəlsəfəsi və NATO-nun qlobal strategiyası dünyada heç də hamı tərəfindən birmənalı qarşılanmır. Zaman-zaman hökm sürən anti-transatlantizm tendensiyası bu gün də mövcuddur. Bunun səbəblərini mərhum alilimiz R.Mustafayev aşağıdakı kimi ifadə edir: "Təəssüflər olsun ki, NATO-nun əsas prinsiplərinin bir hissəsi,

transatlantizm fəlsəfəsi də daxil olmaqla, hazırda genişlənmə dinamikasını izah etmək qüdrətində deyildir. Bu prosesin sabitliyini təmin edəcək ideoloji mexanizm heç kəsdən gizli deyil ki, yerində sayır. Bəlkə də buna görədir ki, biz bu gün tez-tez transatlantizm fəlsəfəsinin böhranı, yeni strateji tezislərin işlənib hazırlanma zərurəti barədə səriştəli mülahizələr, fikirlər eşidirik."

Göründüyü kimi, global strategiya zərurətdən doğmaqla yanaşı, üstünlükləri ilə bərabər məlum nöqsanlardan da xali deyildir. Bu nöqsanlar ideoloji sahədən başlayıb texniki sahəyə kimi, münasibətləri əngəlləyir. Nəticədə fəaliyyətin çeviklik, qətiyyətlilik göstəriciləri aşağı düşür, təşkilatdaxili korrupsiya üçün münbit şərait yetişir.

Ümumiyyətlə NATO-nun qlobal strategiyası nədir?

Yeni strategiyanın əsas ideyası–"qlobal NATO"-nun, elə bir hərbi ittifaqın yaranmasıdır ki, o öz məsuliyyət sferasını genişləndirərək, bütün dünyanı əhatə edə bilsin. Vaşinqton və Brüsseldə bu planları "avroatlantik təhlükəsizlik strukturlarının qloballaşdırılması" adlandırırlar.

NATO-nun qlobal strategiyasının əsas məqsədlərindən biri ABŞ-ın və blokun aparıcı dövlətlərinin maraqlarının qlobal miqyasda qorunmasıdır. Hərbi mənada söhbət Atlantikadan Orta Şərqə qədər təsir dairəsinə yenidən baxılmasından, quru və dəniz hərbi əməliyyatları üçün yeni meydanlardan istifadə edilməsindən gedir. Bu strategiya həm də BMT TŞ-nın yaxud ATƏT-in qabaqcadan sanksiyalarını almadan müstəqil güc tətbiqini nəzərdə tutur. Beləliklə, blokun öz məsuliyyət zonasından kənarda güc tətbiq etməklə aksiyalar keçirmək iddiası açıq-aşkar görünür.

Rusiyaya gəlincə isə, həm Vaşinqtonda, həm də Brüsseldə yüksək rütbəli hərbçilər bu ölkənin geniş ərazilərində böyük miqdarda zəif qorunan nüvə silahlarının olmasından narahatdırlar. Onların fikrincə, qeyri-sabit Rusiyada bu qorxunc silah nəzarət altına alınana qədər NATO bloku öz hərbi potensialını təkmilləşdirməli və onu Şərqə doğru sıxışdırmalıdır.

NATO-nun 2009-cu il aprelin 2-də Strasburqda keçirilmiş sammitindən əvvəl Alyansın yenidən formalaşdırılmasına dair inqilabi təkliflərin irəli sürülməsi də təşkilatın qlobal iddiaları haqda dediklərimizi təsdiq edir. O zaman Rusiyanın nüfuzlu "Kommersant" qəzeti yazırdı:

"Sammit zamanı ABŞ blokun yenidən formalaşdırılması konsepsiyasını təqdim etməyə hazırlaşır. Konsepsiyaya görə NATO məhdud sayda ölkələrin üzv olduğu hərbi-siyasi blokdan Avstraliya, Yaponiya, Cənubi Koreya kimi ölkələrin də daxil olduğu dünya təşkilatına çevriləcək. Perspektivdə isə alyansın BMT-ni əvəz etməsi planlaşdırılır..." [4]

ABŞ-ın NATO-dakı yeni səfiri postuna alyans üzrə nüfuzlu Amerika ekspertlərindən biri kimi tanınan İvo Daalderin təyin olunması heç də təsadüfi deyildi. Daalder Demokratiya Liqası yaradılması ideyasının çoxdankı tərəfdarıdır. Bu ideya ilə prezidentliyə keçmiş respublikaçı namizəd Con Makkeyn çıxış edirdi. Makkeyn bildirirdi ki, BMT dünyada demokratiya ideyalarını müdafiə edə bilmədiyindən bu təşkilatı əvəz edən, zərurət yaranarsa, demokratiyanın müdafiəsi üçün hərbi güc tətbiqini də mümkün sayan beynəlxalq təşkilatın yaranmasına ehtiyac var. [5]

Göründüyü kimi, NATO-nun qlobal strategiyası onu hətta müsir beynəlxalq münasibətlər sisteminin təminatçısı olan BMT ilə də qarşı-qarşıya qoyur. NATO-nun beynəlxalq təhlükəsizlik sahəsindəki rolunun artdığını göstərən bu tendensiya, digər tərəfdən beynəlxalq münasibətlər sistemi üçün müəyyən təhdid yaradır. Çünki o, son nəticədə təkqütblü dünya sisteminin rəsmiləşdirilməsinə xidmət edir.

Beləliklə, soyuq müharibədən qalib çıxan NATO yeni bir mübarizəyə qədəm qoymuşdur. Öz "yaranma zərurətini" itirmiş təşkilat indi mövcud olma zərurətini əsaslandırmağa çalışır. Bu məqsədlə qloballaşma yolunu tutmuş NATO artıq əvvəlki kimi yalnız hərbi aksentə əsaslanmır, digər (qeyri-hərbi) sahələrə də nüfuz etməyə çalışır. Bu, təşkilatın ikinci niyyətindən xəbər verir: təşkilat həm də universallaşmağa çalışır.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, "Mütərcim", 1997, 124 s.
2. Əzimli A. Azərbaycan-NATO münasibətləri (1992-2000). Bakı, "Adiloğlu", 2001, 226 s.
3. Rühl L. NATO's opening to the East and the future security architecture for Europe. // Deutschland, No.3, June 1997, p.14-17.
4. Газета «Коммерсант», 15 март 2009 г.
5. http://history.howstuffworks.com/john-mccain.htm

А.Алиева

ГЛОБАЛЬНАЯ СТРАТЕГИЯ НАТО И ЕЕ ОСОБЕННОСТИ

РЕЗЮМЕ

В статье анализируется суть новой стратегии НАТО, раскрываются цели и задачи военного Альянса в свете глобализации и пути претворения их жизнь в современных условиях.

A.Aliyeva

THE GLOBAL STRATEGY OF NATO AND ITS PECULIARITIES

SUMMARY

The article analyzes the essence of main idea of the new strategy of NATO. It also describes the previous purposes and duties of the Alliance in the light of the globalization of this military block and indicates the realization ways of the NATO's goals under the existing conditions of nowadays.

«АРМЯНСКИЙ ВОПРОС» НА ПАРИЖСКОЙ МИРНОЙ КОНФЕРЕНЦИИ И РЕШЕНИЕ ЕГО СУДЬБЫ В ДОГОВОРАХ 1920-1921 ГОДОВ

Фируза ХАЯТОВА

Ключевые слова: Парижская мирная конференция, «армянский вопрос», Великобритания.
Key words: The Paris Peace Conference, ‹‹armenian question››, Great Britain
Açar sözlər: Paris sülh konfransı, ‹‹erməni amili›› , Böyük Britaniya

В феврале 1919 года на Парижскую мирную конференцию, созванную странами-победительницами в Первой мировой войне, прибыло две армянские делегации. Одна из них была возглавлена Погосом Нубаром, вторая от Армянской республики – А.Агроняном. Обе делегации обратились с просьбой к союзникам признать национальные требования армян.

Министр иностранных дел Франции С.Пишон предложил армянским делегатам подготовить меморандум. 12 февраля 1919 года этот меморандум был представлен. Армяне требовали:

1) признать армянское государство в пределах семи армянских провинций и Киликии с присоединением к ним территории Армянской республики на Кавказе. Одна из союзных держав или лига наций должны гарантировать целостность и неприкосновенность территории создаваемого армянского государства.
2) Одна из союзных держав должна была получить мандат на Армению сроком на 20 лет.
3) Армения должна получить компенсацию за понесенные ею потери, насильно депортированные в годы войны армяне должны получить возможность вернуться на родину. Должны быть наказаны виновные за массовые избиения армян.

Этот документ не получил поддержки западных стран.

Фируза Хаятова - диссертант Института Истории НАНА

Союзные державы были заняты выработкой мер против потерпевшей поражение в первой мировой войне Германии ине торопились с обсуждением Турецкого вопроса, с которой и был связан армянский вопрос. Армянский вопрос стал предметом обсуждения на конференции в Сан-ремо и нашел отражение в Севрском договоре.

Договор, заключенный США, Британской империей, Францией и др. союзниками с Германией 18 июня 1919 года получил название Версальского мирного договора. Именно этот документ означал окончание первой мировой войны 1914-1918 годов.

По статье 116 Германия признавала независимость всех территорий, входивших в состав бывшей Российской империи на момент начала Первой мировой войны, т.е. к 1 августа 1914 года. Германия признавала отмену Брестского мира 1918 года и всех других договоров, заключенных ею с большевистским правительством России.

Статья 117 Версальского договора фиксировала непризнание Германией легитимности большевистской власти в России и обязывала Германию признать все договоры и соглашения союзных и объединившихся держав с независимыми государствами, образованными по всей территории бывшей Российской империи.

По мнению экспертов, проявился конфликт интересов Великобритании и США.

В целом политика Великобритании после подписания Версальского договора преследовала цель сохранить территориальную целостность прежней царской России. В отличие от нее США стремились «демократизировать Россию» на основе права наций на самоопределение, чтобы исторгнуть республики Южного Кавказа. Поэтому в мае 1919 года В. Вильсон не принял английского приглашения утвердиться на Южном Кавказе, т.к. не хотел будущих проблем с Россией. А Великобритания не соглашалась на мандат итальянцев, которые, по их мнению, не смогли бы сохранить мир в регионе и противостоять России.

Напомним, что в декабре 1918 года Великобритания, как и все Союзные державы, не признавала независимые образования в ее границах. (Только в январе 1920 года они пошли на этот шаг де

факто. Лишь весной 1920 года в связи с успешным наступлением Красной Армии в прикаспийских районах и разгромом армии белогвардейцев и вынужденной эвакуации ее остатков на Крымский полуостров на совещании межсоюзнического Верховного совета в Париже были приняты акты о признании независимости Азербайджанской Республики, Армении и Грузии. Таким образом, Великобритания старалась сохранить свое влияние на Южном Кавказе. США пошли на такой шаг позже, чем Британия) [6, 170, 239].

Члены армянской делегации вовсю старались представить карту Армении как Армянскую республику со столицей в Эривани и турецкими провинциями. Однако ложность карты привела к тому, что армяне упали в глазах Франции, Великобритании и США. Британский вице-консул Т. М. Гранди направил А. Хатисяну оценку шефа Форин оффиса Дж. Н. Керзона, что признание де факто «безусловно касается Армении в ее нынешнем состоянии со столицей в Эривани, но никоим образом не касается Турецкой Армении» [7, 68-69].

Сам Ов. Качазнуни писал об абсурдности этих устремлений: «Ни армянское правительство, ни руководящая партия Дашнакцутюн и в мыслях не имели такого абсурдного проекта. Наоборот, наша делегация, как директиву повезла из Эривани весьма скромные требования соответственно нашим скромным силам. Как же случилось, что делегация выставила требование «от моря до моря»? Это странно и невероятно, но армянский Париж выдвинул это требование, а наша делегация поддалась господствующему в колониях настроению, - явление, весь знакомое нам. Было сказано делегации, что если она не выставит этих требований, турецкие армяне (в лице национальной делегации) отделят свой вопрос от вопроса «Араратской республики и независимо от нас обратятся к державам. Помимо этого указывалось, что Америка не примет мандата на маленькую Армению, а на Армению «от моря до моря» примет» [17, 44].

Адъютант Уоккера заявил М.Арзуманову: «Вы, армяне, удивительные люди. Когда мы были в Эривани, то Качазнуни просил предоставить пропуск для пяти лиц, а сейчас приехал в Тифлис и просит дать пропуск для 15 человек в качестве специалистов: по

Müasir dünyaya sürətlə inteqrasiya edən Azərbaycan Respublikasında da fiziki tərbiyə və idmanın inkişafı dövlət siyasətinin prioritet sahələrindən biridir və ölkənin son onillikdə bu sahədə qazandığı böyük uğurlar həmin siyasətin bariz nümunəsidir. Respublikada fiziki tərbiyənin təşkili işinə böyük önəm verilməsinin digər bir vacib şərti isə vətəndaşların, xüsusilə gənclərin şəxsiyyət kimi formalaşmasında idmanın oynadığı böyük rol ilə əlaqədardır. Məhz bu səbəbdən, ölkədə idmanın inkişafı məsələləri ilə bağlı qurum – nazirlik də məhz gənclərlə əlaqədar siyasətin mühüm istiqaməti kimi nəzərdə tutulmuşdur. Bu siyasətin tərkib hissəsi kimi Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli, 179 saylı fərmanı və Azərbaycan Respublikası Milli Məclisinin 26 iyul 1994-cü il tarixli, 861 saylı qərarı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradılmışdır [2;s5]. 2001-ci ildə ölkədə turizm sahəsini durğunluqdan çıxarmaq, onun potensial imkan və perspektivlərini üzə çıxarmaq, ehtiyatlarından səmərəli istifadə etmək, bu sahənin yüksələn xətlə inkişafını təmin etmək və qabaqcıl sahələrdən birinə çevirmək istiqamətində çox mühüm bir addım atılmışdır: Prezident Heydər Əliyev "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında" 18 aprel 2001-ci il tarixli fərmanı ilə bu sahəyə nəzarəti Gənclər və İdman Nazirliyinə həvalə etmişdir [5].

30 yanvar 2006-cı ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 359 saylı fərmanı ilə Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yaradılmışdır [5].

Müasir dövrdə fiziki tərbiyənin və idmanın şəxsiyyətin, xüsusilə gənclərin formalaşmasında böyük rolunu nəzərə alaraq, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi qarşısında mühüm vəzifələr nəzərdə tutulmuşdur və nazirlik böyük uğurla bu siyasəti həyata keçirir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2006-cı il tarixli 392 saylı fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin əsasnaməsi təsdiq edilmişdir və bu əsasnamədə digər vəzifələrlə yanaşı, nazirliyin əsas vəzifələri sırasında ümumbəşəri və milli dəyərlərə, demokratik cəmiyyətin qurulması yolunda qarşıda duran

məsələlərə gənclərin cəlb edilməsi də nəzərdə tutulmuşdur. Gənclərin təhsil və sosial problemlərinin həllinə öz səlahiyyətləri çərçivəsində yardım etmək, onlar üçün yaradıcı mühitin formalaşdırılmasına köməklik göstərmək, gənclərin hüquqlarının qorunması və sosial müdafiəsi sahəsində aidiyyəti icta hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları ilə birgə iş aparmaq, gənclərin işlə təmin olunmasına şərait yaratmaq bu sənəddə konkret vəzifələr olaraq göstərilmişdir [3; 4; 5].

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin gənclər siyasəti ilə bağlı vəzifələri içərisində aşağıdakılar da xüsusi yer tutur:

• Gənc ailələrin sosial, məişət problemlərinin aradan qaldırılmasına dair aidiyyəti icra hakimiyyəti orqanları qarşısında məsələlər qaldırmaq, proqramlar hazırlamaq;

• Gənclərin narkomaniya, cinayətkarlıq və digər zərərli vərdişlərdən uzaqlaşdıraraq sağlam həyat tərzinə uyğun yetişdirmək üçün öz səlahiyyətləri daxilində profilaktik tədbirlər görmək;

• Tələbə gənclərin dövlət quruculuğu prosesində və ölkənin ictimai-siyasi həyatında iştirakına, onların yaradıcılıq potensialının üzə çıxarılmasına dair aidiyyəti icra hakimiyyəti orqanları ilə birgə müvafiq proqramlar hazırlayıb həyata keçirmək;

• Şəxsiyyətin harmonik, hərtərəfli inkişafı, gənclərin əməyə, Vətəni müdafiəyə hazırlanması, onların sağlamlığının möhkəmləndirilməsi, asudə vaxtlarının səmərəli təşkil edilməsi sahəsində bədən tərbiyəsinin və idmanın rolunun artırılmasına dair tədbirlər görmək;

• Ölkədə bədən tərbiyəsi və idmanın təşviqini və təbliğini təmin etmək, tədris müəssisələrində və məktəbəqədər tərbiyə müəssisələrində bədən tərbiyəsi və idman vasitəsilə uşaqların, məktəblilərin və tələbələrin sağlamlığının qorunmasını və möhkəmlənməsini təmin etmək, belə müəssisələrdə uşaq və yeniyetmələrin fiziki hazırlığı üzrə normativləri hazırlamaq;

• Ölkədə uşaq-gənclər idman və ixtisaslaşdırılmış olimpiya ehtiyatları, uşaq-gənclər idman məktəbləri şəbəkəsini yaratmaq, fəaliyyətlərini istiqamətləndirmək, koordinasiya etmək, idman məktəbləri üçün nümunəvi tədris proqram və planlarını hazırlamaq və təsdiq etmək;

• Əlil olan gənclərin bədən tərbiyəsi və idmanla məşğul olanları, idman yarışlarında iştirak etmələri üçün əlverişli şərait yaratmaq, belə gənc-

lər arasında ölkə və beynəlxalq idman yarışlarını, o cümlədən Paralimpiya və Surdolimpiya Oyunlarını, Ümumdünya Xüsusi Olimpiya Oyunlarını təşkil etmək və bu yarışlarda əlil idmançıların iştirakını təmin etmək (5).

Şübhəsiz, dövlətin gənclər strategiyası ilə bağlı bu vəzifələrin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin hüquqları da genişdir və bu siyasətin uğurla həyata keçirilməsinə xidmət edir:

- Müvafiq sahəyə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək:
- Müvafiq sənədə dövlət siyasətinin əsas istiqamətlərinə dair təkliflər vermək;
- Müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;
- Öz səlahiyyətləri daxilində müvafiq sahəyə investisiyaların cəlb olunmasına dair təkliflər vermək;
- Qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlara, xarici dövlətlərin aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;
- Müvafiq sahə üzrə beynəlxalq miqyaslı tədbirlərin keçirilməsinə dair təkliflər vermək;
- Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq, təkliflər vermək;
- Bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində müvafiq sahə üzrə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görmək;
- Müvafiq sahədə müxtəlif treninq, kurs, seminar və digər tədbirlər təşkil etmək;
- Müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;
- Qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər və

digər nəşrlər buraxmaq, internet saytı yaratmaq və ondan istifadə etmək;

• Qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada aidiyyəti icra hakimiyyəti orqanları ilə birlikdə tövsiyələr, təlimatlar və digər normativ sənədlər hazırlamaq və təsdiq etmək;

• Gənclərin, xüsusilə də gənc ailələrin mövcud sosial-məişət problemlərini təhlil etmək və onların aradan qaldırılmasına dair təkliflər vermək;

• Bədən tərbiyəsi və idmanın inkişafının əsas istiqamətlərinin kompleks təhlilini və proqnozlaşdırılmasını həyata keçirmək;

• Uşaq-gənclər idman və ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəblərindən statistik hesabatları toplamaq, təhlil etmək və aidiyyəti icra hakimiyyəti orqanlarına təqdim etmək;

• Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək [5].

Göründüyü kimi, Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsində dövlətin qayğısı, konkret olaraq dövlət strategiyasının tərkib hissəsi kimi, respublikada fiziki tərbiyənin və idmanın inkişafına xüsusi yer verilməsi, müasir gəncliyin formalaşmasında bu institutların aparıcı amillərdən olduğunu bir daha sübut edir.

Fiziki tərbiyə və idman – mədəniyyətin və sosial həyatın tərkib hissəsidir. Onun inkişafı cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafının da göstəricisidir və müasir dövlət siyasətinin prioritetlərindəndir. Azərbaycan Respublikasında gənclərin fiziki tərbiyəsinə və idmanın inkişafına böyük önəm verilməsi, gənclər siyasətinin idmanın inkişafı ilə qarşılıqlı əlaqədə həyata keçirilməsi bu gün respublikanın qloballaşan və inteqrasiya edən müasir dünyada aparıcı yerini müəyyən edən amillərdən olmuşdur.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının bəzi nazirliklərinin yenidən təşkil edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // http://www.mys.gov.az/ministry/aboutm
2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // http://www.mys.gov.az/ministry/aboutm
3. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqındaƏsasnamə //

http://www.mys.gov. az/docs/esas
4. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı // http://www.mys.gov.az/docs/esas
5. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin rəsmi saytı –http://www.mys.gov.az
6. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // http://www.mys.gov.az/ministry/aboutm
7. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı – www.president.az
8. İlham Əliyev. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müraciətlər. Fərmanlar. XV cild. Dekabr, 2005 – mart, 2006 / Red. R. Mehdiyev. Bakı: A 2014, 384 s.
9. Дубровский В.И. Спортивная физиология. Москва: Владос, 2009
10. Выдрин В. М. Спорт в современном обществе. Москва: Физкультура и спорт, 2007
11. Холодов Ж.К., Кузнецов В.С. Теория и методика физического воспитания и спорта. Москва, 2003

G.Aslanli

ROLE OF PHYSICAL EDUCATION AND SPORT IN THE FORMATION OF MODERN YOUTH IN AZERBAIJAN

RESUME

Physical education - part of the overall culture of the society, one of the spheres of social activity aimed at improving the health, development of physical abilities and use them according to the needs of social practice. This is a special and independent field of culture. the role of physical culture in the formation of the basic qualities and personality traits is very high.
In Azerbaijan, the development of physical culture and sport is an integral part of the state strategy and youth policy. Azerbaijani youth plays an important role in the country's sporting events. This policy contributes to the formation of a new generation of healthy, identify talented young people, contributing to the country's future.

Г. Асланлы

РОЛЬ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ И СПОРТА В ФОРМИРОВАНИИ В АЗЕРБАЙДЖАНЕ СОВРЕМЕННОЙ МОЛОДЕЖИ

РЕЗЮМЕ

Физическая культура – часть общей культуры общества, одна из сфер социальной деятельности, направленная на укрепление здоровья, развитие физических способностей человека и использование их в соответствии с потребностями общественной практики. Это особая и самостоятельная область культуры. Роль физической культуры в формировании основных качеств и свойств личности очень велика.

В Азербайджане развитие физической культуры и спорта является составной частью государственной стратегии и молодежной политики страны. Молодежь Азербайджана играет важную роль в проведении спортивных мероприятий страны. Эта политика способствует формированию нового здорового поколения, выявлению талантливой молодежи, вносящей вклад в будущее страны.

SİYASİ İDEOLOGİYANIN ƏSASLARI VƏ FUNKSİYALARI

Afət HƏSƏNOVA

Açar sözlər: siyasi ideologiya, milli dəyər, mənəvi dəyər
Key words: политическая идеология, национальные ценности, моральные ценности
Ключевые слова: political ideology, national values, moral values

Cəmiyyət obyektiv inkişaf yolu keçərək insanların düşüncə və həyat tərzlərinin əsas və ümumi cəhətləri ilə müəyyənləşən qanunauyğunluqlar əldə etmişdir. Məhz həmin qanunauyğunluqlar xalqlar, cəmiyyətlər, ölkələr arasındakı fərqlərin mühüm səbəblərindən biri olmuşdur. Müasir dünyada bu müxtəlifliklərdən doğan ziddiyyətlər hər bir xalqın milli-mənəvi və dini dəyərlərinin qorunması məsələsini günümüzün aktual məsələlərindən birinə çevirmişdir. Bu baxımdan, cəmiyyətin dinamik inkişafını təmin etmək üçün bütövlükdə cəmiyyətin və onun vətəndaşlarının gündəlik həyatına müsbət təsir edə biləcək praktik əhəmiyyətə malik ideologiyanın yaradılması vacib şərtlərdən hesab edilir. İdeologiya hər bir xalqın həyatında oynadığı əhəmiyyətli və vacib rolla onun milli-mənəvi dirçəlişinə, siyasi varlığını isbatlamağa və dövlətçiliyini möhkəmləndirməyə xidmət edir .

İdeologiya XIV əsrdə - ilk ictimai böhranların yarandığı dövrdə meydana gəlməyə balamışdir. Bu dövr sekulyar proseslərin başlanğıcı, yəni ictimai və fərdi şüurun dini düşüncələrdən azad olduğu vaxta təsadüf edir [1].

İdeologiya - partiyaların, siyasi cərəyanların, ictimai hərəkatların, elm məktəblərinin dünyagörüşü, idealları və məqsədlərini əks etdirən siyasi, sosial, hüquqi, fəlsəfi, mənəvi, dini estetik fikir və baxışlar sistemidir. İnsanların ətraf reallığa, ictimai münasibətlərə, sosial problemlərə, sosial qruplar və təbəqələrə münasibəti, eyni zamanda onların maraqları və sosial-iqtisadi inkişaf məqsədləri də məhz ideologiyada dərk edilir, əks olunur və qiymətləndirilir [7].

Hər bir xalqın vahid məqsədlər uğrunda birləşməsi üçün zəruri olan

---

Afət Həsənova - magistr

ideologiya dövlətçilik konsepsiyasında real əsaslarını tapır. İdeologiyanın tələbləri sırasında dövlətçiliyin, milli mənafeyin müdafiə edilməsi, milliyyətindən asılı olmayaraq hər bir vətəndaşın haqlarının ümumbəşəri tələblər səviyyəsində qorunması, milli azlıqların və etnik qrupların dilinin, mədəniyyətinin, adət-ənənələrinin inkişafına şərait yaradılması, idarəedici orqanlarda onların düzgün təmsil olunması və s. amillər mühüm yer tutur.

Ümummilli Lider Heydər Əliyevin cəmiyyəti vahid ideya və məqsəd ətrafında birləşdirəcək, həmçinin, ölkənin daxili və xarici siyasətində kütləvi şüuru səfərbər edəcək mexanizm kimi yaratdığı "Azərbaycançılıq" milli ideologiyası ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında real surətdə birləşdirmək ideyasının verballaşdırılması kimi, 1992-1993-cü illərdə xüsusilə geniş yayılan şovinist və separatçılıq əhval-ruhiyyəsinə qarşı mübarizə kimi meydana gəldi [7].

İdeologiya - iqtisadi, dini, milli, hüquqi və digər müxtəlif formalarda ifadə oluna bilər [5] və hər bir ideologiya azadlıq, insan haqları, bərabərlik, ədalət, nizam və s. bu kimi müəyyən dəyərlər toplusuna əsaslanmışdır. Sadalanan bütün dəyərlər insanlar üçün onların siyasi həyatlarının vacib tərəflərini əks etdirir [3]. Bu baxımdan, ideologiyaya siyasi ideologiyaya çevrildikdə inkişaf etmiş, formalaşmış hesab edilir, yəni bütün cəmiyyət üçün kollektiv dəyərləri və maraqları mütləq şəkildə ifadə etmiş olur [5].

Siyasi ideologiya siyasi ideyalar, nəzəriyyələr və maraqlar üçün hesablanmış ideologiyadır. O siyasi həyatı müəyyən siyasi elitanın məqsədləri və maraqları nöqteyi nəzərindən anladan və şərh edən müəyyən konsepsiya əks etdirir. Hər bir ideologiya cəmiyyətin siyasi və sosial-iqtisadi gedişinə dair öz baxış nöqtəsinə, həmçinin cəmiyyət qarşısında duran məsələlərin həlli üçün öz metod və vasitələrinə malikdir. Buna görə də siyasi ideologiyanın əsas funksiyası ictimai şüura hakim olmaqdır. Bununla yanaşı siyasi ideologiyaya aşağıdakı funksiyalar aiddir:

- müəyyən sosial icmanın (qrupun, sinfin, millətin) maraqlarını ifadə etmək və qorumaq;
- özünün siyasi hadisələri və siyasi tarixi qiymətləndirmə meyarlarını ictimai şüura çatdırma;
- insanların ümumi hesablamalar, dəyərlər, siyasi təsəvvürlər bazası

əsasında inteqrasiyası (birləşdirilməsi);

- insanların davranışının ümumideologiya normaları və dəyərləri əsasında təşkil edilməsi və tənzimlənməsi;
- siyasi davranış motivlərinin əsaslandırılması və sosial icmaların qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi üçün səfərbər edilməsi;
- hakimiyyətin qanuniləşdirilməsi: hakim elitanın fəaliyyətinin səmərəli şəkildə əsaslandırılması (müdafiə edilməsi) [5].

Qeyd etmək lazmdır ki, siyasi ideologiya elit təbəqənin öz maraqlarını təmin etməsi məqsədilə vətəndaşları qrup şəklində birləşdirmək, aşağı təbəqə ilə əlaqə qurmaq, siyasi məkanda müəyyən tədbirlər ardıcıllığını təmin etmək üçün bir alətdir. Bu və ya digər qrupun maraqlarınına görə ideya formalaşdırılması məhz elitanın taktikası və səlahiyyətindən asılıdır. Belə ki, siyasi ideologiya vətəndaşların məhz siyasi davranışının ideoloji orientasiyasını müəyyən etmək üçün nəzərdə tutur.

Siyasi ideologiyaya aşağıdakı funksional səviyyələrə ayırmaq olar:

- nəzəri-konseptul: Bu səviyyədə müəyyən təbəqənin (millətin, dövlətin), yaxud siyasi inkişafın müəyyən məqsədlərinin tərəfdarlarının dəyər və ideallarını əks etdirən əsas müddəalar formalaşdırılır;
- proqram-siyasi (proqramlaşdırma): Bu səviyyədə sosial-fəlsəfi prinsiplər və ideallar proqramlaşdırılr, siyasi elitanın konkret şüarlarına və tələblərinə şevrilir. Beləliklə də idarəetmə qərarlarının qəbul edilməsi və vətəndaşların siyasi davranış stimullaşdırılması üçün əsas formalaşdırırır.
- aktuallaşdırılmış: Bu səviyyə vətəndaşlar tərəfindən bu ideologiyanın məqsəd və prinsiplərinin mənimsənməsi dərəcəsini, həmçinin təcrübədə və davranışda onlardan istifadə həddini xarakterizə edir.

İdeologiyanın ictimai rəyə təsirinin aşağı düşməsi və ya sosial dəyərlərin siyası əlaqələrə və münasibətlərə təsirinin mümkünlüyünü inkar edən texnokratik təsəvvürün yayılması siyasətin deideologizasiyasına aparır. Eyni zamanda, ideologiyann məcburi tətbiqi də cəmiyyətdə siyasi gərginliyi artırır.

İstənilən ideologiyanın vəzifələri öz ətrafında çox sayda insanı birləşdirmək, beləliklə də onların fəaliyyətini öz məqsədlərini həyata keçirmək istiqamətində yönəltmək; hər hansı xüsusi ictimai qrup tərəfindən seçilmiş cəmiyyətin siyasi, iqtisadi və sosial inkişaf strategiyasının düzgünlüyünə iman yaratmaq; sosial həyatın yaxşılaşacağına ümid

yaratmaq; cəmiyyəti tam olaraq birləşdirmək [6].

Beləliklə, siyasətin vacib komponentlərindən olan ideologiya sosial həyatda mühüm rol oynayır və ictimai şüura hakim olur. Siyasi ideologiya vətəndaşların məhz siyasi davranışının ideoloji istiqamətini müəyyənləş-dirməyi nəzərdə tutur.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Ömərov V. İdeologiya anlayışının mahiyyəti "Səs" qəzeti, 2012, 6 yanvar.
2. Mehdiyev R."Azərbaycançılıq - milli ideologiyanın kamil nümunəsi" "Azərbaycan" qəzeti, 2007, 09 noyabr.
3. Артемов Г.П. Формы проявления политической жизни. Политическое сознание. Политическая идеология . http://society.polbu.ru/artemov_politsociology/ch26_all.html
4. Основные политические идеологии http://www.grandars.ru/college/sociologiya/osnovnye-politicheskie-ideologii.html
5. Политические идеологии. http://www.politictime.ru/poti-226.html
6. ПОЛИТИЧЕСКАЯ ИДЕОЛОГИЯ: ПОНЯТИЕ И СУЩНОСТЬ http://www.grandars.ru/college/sociologiya/osnovnye-politicheskie-ideologii.html
7. Райзберг Б.А. Современный социоэкономический словарь. М., 2012.

А. Гасанова

ОСНОВЫ И ФУНКЦИИ ПОЛИТИЧЕСКОЙ ИДЕОЛОГИИ

РЕЗЮМЕ

Идеология, являясь компонентом политики, играет важную роль в общественной жизни и общественном сознании. Политическая идеология определяет идеологическую направленность политического поведения граждан. Исходя из этого в статье рассмотрены основы политической идеологии, а также указаны её функции и задачи.

A.Hasanova

BASES AND FUNCTIONS OF POLITICAL IDEOLOGY

SUMMARY

Ideology is a component of the policy and plays an important role in public life and public consciousness. Political ideology determines the ideological orientation of the political behavior of citizens. Based on this тhe article includes the basics of political ideology, also identifies its functions and tasks.

İKİNCİ DÜNYA MÜHARİBƏSİ VƏ 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNİN BAŞLANMASI SƏBƏBLƏRİ AZƏRBAYCAN SOVET TARİXŞÜNASLIĞINDA

Şəfa MÖVSÜMOV

Açar sözlər : İkinci dünya müharibəsi, 1941-1945-ci illər, sovet, tarixşünaslıq, Azərbaycan, faşist Almaniyası,
Key words : World War II, 1941-1945 years, Soviet, historiography, Azerbaijan, Nazi Germany
Ключевые слова: Вторая мировая война, 1941-1945 годы, совет, историография, Азербайджан, фашистской Германии

XX əsr bəşər tarixində ən dəhşətli qırğınlara səbəb olan İkinci Dünya Müharibəsində 61 dövlət və 1.700 milyon insan iştirak etmişdir.Müharibə 40 ölkənin ərazisində getmiş və 110 milyondan çox insan səfərbər olmuşdur. Bu müharibə 50 milyon insanın həyatına son qoymuş, 100 milyondan çox insan yaralanmış və ya şikəst qalmışdır.Sovetlər Birliyi bu müharibədə 29 milyon nəfər itki vermişdir [1. səh.-14].

İkinci Dünya Müharibəsi 1 sentyabr 1939-cu ildə Almaniyanın Polşaya hücumu ilə başlamış, 2 sentyabr 1945-ci ildə Yaponiyanın təslim olması ilə başa çatmışdır. Avropada öz işğallarını həyata keçirən Hitler Almaniyasının 22 iyun 1941-ci il SSRİ üzərinə hücuma keçməsi ilə başlanan sovet-alman müharibəsi 9 may 1945-ci Almaniyanın məğlubiyyəti ilə başa çatmışdır. Sovet tarixşünaslığında bu müharibə "Böyük Vətən Müharibəsi", 9 may isə "Faşizm üzərində qələbə günü" kimi qeyd olunmuşdur.

SSRİ-nin tərkibində olan digər respublikalar kimi Azərbaycan da bu dəhşətli müharibədə iştirak etməli oldu. 700 min azərbaycanlı silaha sarılaraq Sovetlər Birliyi tərəfində faşizmə qarşı mübarizəyə qalxdı. Hitlerçilərin Sovet torpaqlarından çıxarılmasından tutmuş Berlinədək qovulmasında iştirak edən xalqımızın müharibə illərində bütün iqtisadiyyatı hərb üzərində qurulmuşdur.Bütün bunlar sovet tarixşünaslığında qələbənin əldə olunmasında vahid Sovet İttifaqının tarixi nailiyyəti kimi vurğulanmış, Azərbaycan xalqının müharibədə əldə edilən qələbəyə

Şəfa Mövsümov – AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı

verilən tövhə tam şəkildə işıqlandırılmamışdır. Şimali Azərbaycan Sovet İttifaqının tərkibində olduğuna görə bu dövrün tədqiqatçıları xalqımızın müharibədə iştirakını tədqiq edərkən sovet ideologiyasının sərt tələblərindən kənara çıxa bilməmiş, dövrün hadisəsinə vahid "sovet xalqı"nın həmrəyliyi və qardaşlığı baxımından qiymət verməyə məcbur olmuşlar.

"Motorlar müharibəsi" adlanan bu müharibədə Bakı neftinin əvəzsiz əhəmiyyəti olsa da Azərbaycan sovet tarixşünaslığında bu problemə demək olar ki, toxunulmamışdır. SSRİ-də hasil edilən neftin 80 faizini, aviasiya benzininin 85 faizini verən Bakı şəhərinə qəhrəman şəhər adının verilməsinə sovet rəhbərliyi biganə yanaşmış, arxa cəbhənin qəhrəmanlığını tam işıqlandırmamışlar.

İkinci Dünya Müharibəsinin başlanma səbəbləri sovet tarixşünaslığında necə əks olunmuşsa Azərbaycan sovet tarixşünaslığında da həmin ideologiya əsas götürülmüş, baş verən hadisələrə sovet ideologiyası prinsipləri əsasında qiymət verilmişdir. Sovet tarixşünaslığında olduğu kimi Azərbaycan sovet tarixşünaslığında da müharibə başlamazdan öncə Avropada bazar iqtisadiyyatı ziddiyyətlərinin yeni dünya müharibəsinə gətirib çıxarılması göstərilmişdir.Müharibənin başlama səbəbləri kimi Avropa ölkələri göstərilmiş, SSRİ dünyada ədalətin və sosializm qardaşlığının dayağı, sülhün keşiyində duran yeganə dövlət kimi göstərilmişdir. Müharibənin başlama səbəbləri hər vəchlə Avropa ölkələrinin üzərinə atılır. ABŞ və İngiltərənin Hitler Almaniyasının SSRİ üzərinə təcavüz etməyə dəstəkləməsi göstərilmişdir.

İkinci Dünya Müharibəsinin tərkib hissəsi olan 1941-1945-ci illər müharibəsi Azərbaycan sovet tarixşünaslığına "Böyük Vətən Müharibəsi" kimi daxil olmuşdur. Hitler Almaniyasının SSRİ üzərinə 22 iyun 1941-ci ildə etdiyi hücumla başlanan bu müharibə 9 may 1945-ci ildə Sovet İttifaqının qələbəsi ilə başa çatmışdır.SSRİ-nin tərkibində olan digər respublikalar kimi Azərbaycan SSR də bu müharibədə iştirak etmiş və qələbənin qazanılmasında öz müstəsna töhfəsini vermişdir.

Hər şeydən əvvəl Almaniya ilə SSRİ arasında baş vermiş 1941-1945-ci illər müharibəsinin daxil olduğu İkinci Dünya müharibəsinin başlanması səbəbləri sovet, həmçinin Azərbaycan sovet tarixşünaslığında Qərb ölkələrinin siyasi və sosial-iqtisadi böhranı, yeni bazarlar ələ keçirmək, xalqları müstəmləkə əsarətinə salmaq üçün Avropa ölkələri

arasında ziddiyyətlərdən meydana gəlməsi göstərilmişdir.

Azərbaycan SSRİ dövlətinin tərkibində olduğuna görə dövrün sərt sovet ideologiyası tələbləri əsasında yazılmış tarixi ədəbiyyatlarda müharibənin başlanma səbəbi kimi Hitler Almaniyasının SSRİ-yə xaincəsinə hücum etməsi vurğulanmışdır.Qeyd olunuşdur ki, SSRİ ilə faşist Almaniyası arasında 23 avqust 1939-cu ildə bir-birinə hücum etməmək haqqında Ribbentrop-Molotov paktı imzalansa da Hitler bu müqaviləni pozmuş və Vətənimizə basqın etmişdir. Əslində bu paktın əsas müddəaları uzun illər sovet cəmiyyətindən gizlədilmiş və qeyd olunan müqavilə Almaniyanın Avropadakı işğallarının Sovet hökuməti tərəfindən tanınması idi.Həmin məxfi sənədə əsasən Litva və Qərbi Polşa Almaniyanın maraq dairəsinə, Latviya,Estoniya, Finlandiya, Bessarabiya və Polşanın şərq vilayətləri SSRİ-nin nüfuz dairəsinə aid edilmişdi [2.].

1939-cu il 23 avqust müqaviləsi sübut edir ki, Avropada müharibə ocağının yaranması və Faşist Almaniyasının şirniklendirilməsində SSRİ-nin də rolu olmuşdur. Azərbaycan sovet tarixşünaslığında qeyd olunan müqavilə SSRİ ilə Almaniya arasında bir-birinə hücum etməmək kimi qiymətləndirilmiş, Hitlerin SSRİ-yə hərbi müdaxiləsi həmin müdaxilənin pozulması kimi qələmə verilmişdir.

Məhz bu paktdan sonra 1 sentyabr 1939-cu ildə Almaniya Polşaya hücum etdi.Bu təcavüzə cavab olaraq Fransa və İngiltərə Almaniyaya müharibə elan etmiş , bununla da İkinci Dünya müharibəsi başlanmışdır.

1939-cu ilin 28 sentyabrında Almaniya ilə SSRİ arasında daha bir protokol imzalandı.Bu protokola əsasən Baltikyanı ölkələr , Bessarabiya, Finlandiyanın bir hissəsi və Şimali Bukovina SSRİ-yə birləşdirilmişdir. Göründüyü kim, SSRİ-nin Almaniya ilə Avropanın qeyd olunan ərazilərinin bölüşdürülməsi məsələsi isə dövrün tələbindən irəli gələrək Azərbaycan sovet tarixşünaslığında qeyd olunmamışdır. İkinci Dünya müharibəsinin əsl başlanma səbəbi yalnız faşist Almaniyasının üzərinə qoyulmuşdur. SSRİ Avropada və dünyada sülhün qoruyucusu,xalqlar arasında sosialist həmrəyliyinin qurucusu kimi göstərilmişdir.

Azərbaycan sovet tarixşünaslığında həm İkinci Dünya müharibəsi və o cümlədən. 1941-1945-ci il müharibəsinin başlanma səbəblərinə müəlliflər dövrün ideoloji tələbindən asılı olaraq vahid mövqedən qiymət vermişlər. Müharibənin başlanma səbəbləri Sovet tarixşünaslığından heç

də əsaslı olaraq fərqlənməmişdir. 1941-1945-ci il müharibəsinə aid tədqiqatlardan olan "Azərbaycan SSR-in xalq təsərrüfatı Böyük Vətən Müharibəsi illərində" (Bakı - 1985, Azərbaycan SSR EA, redaktorlar: Ə. Ə.Mahmudov, Q.Y.Əbdülsəlimzadə) əsərində İkinci Dünya müharibəsinin başlanma səbəbləri göstərilməmiş, dünya müharibəsini doğuran amillərə toxunulmamışdır. Yalnız əsərin "Nəticə"sində İkinci Dünya müharibəsinin "dünya imperializm sisteminin ən irticaçı dairələrinin hakimlik iddialarından" meydana gəlməsi göstərilmişdir [3. səh.-175]. 1941-1945-ci il müharibəsinin başlanma səbəbi kimi dünyada birinci sosializm ölkəsi olan SSRİ-ni məhv etmək üçün alman faşistlərinin öz satellitləri ilə qəflətən hücum etməsi vurğulanmışdır. Qeyd edilmişdir ki, almanlar Sovet İttifaqının ucsuz-bucaqsız ərazisinə, zəngin sərvətlərinə, çoxmilyonlu işçi qüvvəsinə sahib olmaq üçün SSRİ-yə xaincəsinə basqın etmşlər. Həmin əsərdə Hitlerin SSRİ üzərinə hücumunun əvvəlcədən düşünülmüş və hərtərəfli razılaşdırılmış təcavüzkarlıq aktı olmasına toxunulmuşdur. Almaniyanın əlaltısı olan Rumıniya, Finlandiya və İtaliyanın SSRİ-yə müharibə elan etməsi, Fransadakı faşistpərəst Vişi hökümətinin SSRİ ilə diplomatik münasibətləri kəsməsi, İspaniyanın sovet-alman cəbhəsinə "mavi diviziya" göndərməsinin SSRİ-nin müharibəyə cəlb edilməsinə və 1941-1945-ci illər müharibəsinin başlanmasına səbəb olmuşdur [3.səh.-4].

1959-cu ildə Calal Hüseynovun "Böyük Vətən Müharibəsi illərində sovet xalqının mənəvi-siyasi birliyi" adlı nəşr edilmiş kitabı 1941-1945-ci illər müharibəsini araşdırmaq baxımından dəyərli əsərdir. Lakin adından göründüyü kimi əsər "sovet xalqı"nın müharibədə qələbəsi üçün mənəvi-siyasi birliyinə həsr olunub, kommunist partiyasının ideoloji təsiri əsərdə aparıcı yer tutur. Qeyd olunan əsərdə İkinci Dünya müharibəsini doğuran səbəblər göstərilməmiş, əsərdə yalnız 1941-1945-ci illər müharibəsinin başlanmasının səbəblərinə toxunulmuşdur. Müəllif qeyd edir ki, müharibə sovet xalqı üçün əlverişli olmayan bir şəraitdə baş vermiş,faşist ordusu tam səfərbər olmuş, Avropadakı işğallarda döyüş təcrübəsi əldə etmiş və Avropa sənayesinin hitlerçilərin əlində olmasını almanların üstünlüyü kimi vermişdir [4.səh.-7]. C.Hüseynov müharibədə sovet xalqının qələbəsini dünya sosializmi üçün mühüm töhfə hesab edir və göstərir ki, bu qələbə imperializm və irtica üzərində qələbədir. Dünya demokratiyasının

qurulması və müstəmləkə ölkələrində azadlıq hərəkatında sovet xalqının qələbəsi ümumbəşəri tarixi qələbə kimi tərənnüm olunur.Müharibənin başlanma səbəblərinin tam göstərilməməsinə baxmayaraq əsərdə müharibəyə aid dəyərli faktlar vardır.Əsər yazılarkən ayrı-ayrı partiya orqanlarının arxivindən və dövri qəzet-jurnal materiallarından istifadə edilmişdir.

Azərbaycan SSR-in 1941-1945-ci illər müharibəsində iştirakından bəhs edən əsərlərdən biri də Məzahir Abbasovun 1960-cı ildə nəşr olunmuş "Azərbaycan kommunist partiyası Böyük Vətən Müharibəsi dövründə cəbhəyə yardımı qüvvətləndirmək uğrunda mübarizədə əsəridir. Əsər respublikamızın ayrı-ayrı rayonlarının cəbhəyə yardımı və bunun təşkilində o vaxtkı partiya rəhbərlərinin fəaliyyəti baxımından çoxlu faktlarla zəngindir.Lakin əsərdə 1941-1945-ci illər müharibəsinin və onun daxil olduğu İkinci Dünya müharibəsinn başlanması səbəblərinə, demək olar ki, toxunulmayıb.Bununla belə əsər müharibə üçün Azərbaycan iqtisadiyyatının oynadığı rolu öyrənmək baxımından dəyərlidir.

Azərbaycan SSR-in 1941-1945-ci illər müharibəsinə həsr edilmiş əsərlərdən biri də T.Y.Əfəndiyevin 1965-ci ildə rus dilində çap olunmuş "Azərbaycan Böyük Vətən Müharibəsi illərində (1941-1945)" adlı mühazirə mətnidir.Burada İkinci Dünya müharibəsini doğuran səbəblərə toxunulmamış, 1941-1945-ci illər müharibəsinin başlanma səbəbi kimi Almaniya və onun müttəfiqlərinin SSRİ-nin işğal etməklə dünya ağalığı iddiası olması göstərilmişdir. Həmçinin burada, SSRİ ilə Almaniya arasında hücum etməmək haqqında müqaviləsinin (23 avqust 1939-cu il Ribbentrop-Molotov paktı) pozulmasının səbəbləri kimi Almaniya günahkar qeyd olunmuşdur. Müəllif qeyd edir ki, 1941-1945-ci illər müharibəsinin bir səbəbi də Hitlerin sosialist ölkəsini özünə tabe etmək, onun ərazisini alman imperialist kapitalistlərinin istifadəsinə vermək istəməsidir [6.səh.-4].

İkinci Dünya Müharibəsinin başlama səbəbi kimi Almaniyanın 1918-ci ildəki məğlubiyyətinin əvəzini çıxması kimi yenidən silahlanması T. Ə. Novruzovun 1963-cü ildə rus dilində çap olunmuş "Böyük Vətən Müharibəsi dövründə Azərbaycanın kolxozçu kəndlilərinin əmək qəhrəmanlığı" kitabında vurğulanıb.Burada qeyd olunmuşdur ki, Hitler Almaniyasının SSRİ-yə hücumunda məqsəd Bakını öz ordusuna tabe

etmək və Qafqaz xalqlarını əsarət altına almaq olmuşdur. Rus xalqının və Cənubi Qafqaz xalqlarının dostluğu sayəsində Hitlerin planı baş tutmadı [7.səh-9]. Müəllif qeyd olunan əsərdə göstərir ki, Hitler SSRİ-də yaşayan xalqları "ikinci dərəcəli xalqlar", almanları isə "ali irqin nümayəndələri" adlandırmışdır. Qafqazın işğal etmək planının alman faşistlərinin hələ 1918-ci ildən olduğu göstərilib [7.səh-12].

1941-1945-ci illər müharibəsi və Azərbaycan SSR-in bu müharibədə iştirakı məsələləri AMEA-nın müxbir üzvü Qaraş Mədətovun əsərlərində daha çox əks olunmuşdur.Müəllifin əsərləri bu dövrün tədqiqi baxımından Azərbaycan sovet tarixşünaslığında xüsusi yer tutur.Onun 1965-ci ildə nəşr olunmuş "Azərbaycan Böyük Vətən müharibəsində (1941-1945)" adlı əsəri on iki fəsildən ibarət olmaqla müharibənin başlanmasından tutmuş faşist Almaniyası üzərində qələbəsinədək olan bütün mərhələni əhatə edir.Hərb,partiya və elmi arxivlər əsasında yazılmış bu əsərdə müəllif I fəsildə müharibənin başlanması səbəblərini göstərmişdir. Lakin müəllif İkinci Dünya müharibəsinin başlanması və Avropada müharibə ocağının yaranması səbəblərinə toxunmamışdır.Qeyd edilir ki, Almaniya Sovet İttifaqına qəfil hücum etmişdir və iki ölkə arasındakı bir-birinə hücum etməmək haqqında müqaviləni pozmuşdur. Q.Mədətov haqlı olaraq göstərir ki, Hitlerin "Barbarossa" planına əsasən 1941-ci ilin qışınadək Sovet ordusu darmadağın edilməli idi. 1940-1941-ci illərdə işlənib hazırlanan bu məxfi plan ildırımsürətli müharibə taktikasına əsaslanırdı. Bu əsərdə müharibənin başlanmasına aid faktlardan danışarkən müəllif qeyd edir ki, almanların SSRİ-yə hücumundan əvvəl sovet xalqının ağır vəziyyəti o vaxtkı rəhbər İ.V.Stalinin üzərinə düşür.Sovet ordusunun istedadlı sərkərdələri, V.K.Blyuxov, A. İ. Yeqorov, M.N.Tukaçevski və digərləri günahsız olaraq məhv edilmiş, ordudan uzaqlaşdırılmış, qoşun hissələri lazımınca silahlanmamış,SSRİ-nin sərhədləri lazımınca möhkəmləndirilməmiş, müasir döyüş təcrübəsinə malik yenidən qurulmamışdır ki, bu da Hitlerin SSRİ-yə hücuma sövq edirdi [8.səh.-13].

Əsərdə SSRİ-nin Uzaq Şərqdə qoşun saxlamasının səbəbi Almaniya ilə müttəfiq Yaponiyanın, cənubda isə Türkiyənin düşmənçilik mövqeyində durması kimi göstərilir.Hansı ki, Hitlerin SSRİ-yə hücumundan əvvəl Sovet Ordusunun Mancuriyaya müdaxiləsi əslində işğalçılıq planı idi.

Burada xüsusi olaraq göstərilir ki, Sovet rəhbəri İ. Stalinin diqqətsizliyi ləngliyi və sovet-alman müqaviləsinə həddən çox inanması, hətta Hitlerin yaxın günlərdə SSRİ-yə hücumu barədə ən etibarlı mənbədən verilən xəbərə inanmaması Sovet xalqına baha başa gəldi [8.səh-14].

Bununla belə, müəllif müharibənin başlanmasında sovet rəhbəri Stalinin qətiyyətsizliyini partiya və dövlət idarə sistemində Lenin "prinsiplərinin" kobudcasına pozulması kimi izah edir, Sovet rəhbərliyinin ayrı-ayrı respublikalarda, o cümlədən, Azərbaycan SSR-də İ.Stalinin həyata keçirdiyi repressiya və yaratmış olduğu totalitar partiya sisteminin uğursuz daxili siyasətinə toxunmamışdır.

Bu dövrün öyrənilməsi baxımından əhəmiyyətli olan əsərlərdən olan Əziz Kərimovun 1962-ci ildə çapdan çıxmış "Böyük Vətən Müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi" əsərində İkinci Dünya Müharibəsinin başlanması səbəbləri barədə yazılmayıb. Yalnız Hitlerin Avropanın bir çox ölkələrini işğal etməsi və dünya ağalığı iddialarına toxunulub. Qeyd olunur ki, Sovet İttifaqının mövcudluğu faşistlərin dünyaya hegemonluğu yolunda ən böyük maneə idi. Məhz buna görə də Almaniyanın hakim dairələri çoxdan işləyib hazırladıqları SSRİ-yə hücum planıyla Moskva və Leninqradı işğal etməli, Həştərxan-Arxangelsk xəttinə çatmalı, Ural və digər sənaye mərkəzlərini ələ keçirməklə qələbəyə nail olmalı idilər [9.səh-7]. Digər tədqiqatçılar kimi Əziz Kərimov da Almaniyanın SSRİ-yə hücumunu 1939-cu ildə iki ölkə arasında bağlanmış hücum etməmək haqqında müqaviləni xaincəsinə pozması kimi qiymətləndirmişdir.Bu əsərdə də Hitlerin işğalçılıq planlarında Qafqazın, xüsusi ilə, Bakı neftinin ələ keçirilmək kimi məxfi fikirlərinin olması əks olunmamışdır.

Azərbaycan sovet tarixşünaslığında 1941-1945-ci illərin hadisələrini və tarixi məsələlərini rəsmi sənədlər, əmr və sərəncamlar, eləcə də, çoxsaylı qəzet materialları əsasında öyrənmək baxımından 1976-cı ildə rus dilində çap olunmuş "Azərbaycan SSR Böyük Vətən Müharibəsi illərində (1941-1945-ci illər).Sənədlər və materiallar məcmuəsi" əsəri çox dəyərlidir. Giriş, 3 fəsil və əlavələrdən ibarət olan əsərdə dövrün araşdırılması baxımından xeyli faktlar var. Bununla belə əsərdə İkinci Dünya və 1941-1945-ci illər müharibəsinin başlanma səbəbləri və müharibənin meydana gəlməsinə səbəb olan amillər göstərilməyib. Yalnız

əsərin giriş hissəsində qeyd olunur ki, Sovet xalqının və onun şanlı silahlı qüvvələri kommunist partiyasının rəhbərliyi altında Hitler Almaniyasının və onun əlaltılarının ölkəmizə xaincəsinə təcavüzünün qarşısını almışdır. Göründüyü kimi, redaksiya heyəti tərəfindən nəşr olunan bu əsərdə müharibənin başlanma səbəblərinə toxunulmayıb [10.səh-5].

Azərbaycanın 1941-1945-ci illər müharibəsində iştirakına aid əsərlərdən biri də 1968-ci ildə müəlliflər heyəti tərəfindən nəşr olunmuş "Azərbaycan komsomolu" əsəridir. Giriş və 7 fəsildən ibarət olan əsərin yalnız "Vətən uğrunda" adlanan dördüncü fəslində xalqımızın müharibədə iştirakına aid ümumi məlumatlar verilib. Müharibənin başlanma səbəbi kimi Alman faşistlərinin dünyada demokratiya və sosializmin dayağı olan SSRİ-ni işğal etmək, Sovet torpaqlarını ələ keçirmək və ölkə zəhmət-keşlərinin sosialist nailiyyətlərini mənimsəmək istəməsi göstərilmişdir [11. səh.-194]. Göründüyü kimi əsərdə bu böyük müharibənin başlan-masının əsl səbəbləri qeyd olunmayıb. SSRİ-yə edilmiş hücum sovet xalqına edilən hücum kimi xarakterizə edilmiş, faşistlərə qarşı mübarizə isə sosializm və Lenin "prinsiplərinə" sadiq , Kommunist Partiyasının bütün sovet xalqını səfərbər etməsi kimi tədqiq olunmuşdur.

Yuxarıda qeyd olunan əsərlərdən fərqli olaraq İkinci dünya müharibəsinin başlanması səbəblərinə Əhəd Bağırzadənin 1970-ci ildə nəşr olunmuş "Azərbaycan ziyalıları Böyük Vətən Müharibəsi illərində" adlı monoqrafiyasında rast gəlinir.Giriş, altı fəsil və Nəticədən ibarət olan birinci fəsildə İkinci Dünya Müharibəsinin başlanması səbəbləri göstərilmişdir. Müəllif qeyd edir ki, bu müharibə təsadüfən meydana gəlməyib, Birinci Dünya müharibəsinin davamıdır. Tədqiqatçı haqlı olaraq qeyd edir ki, İkinci Dünya müharibəsinin başlanma səbəbləri inhisarçı kapitalizmin yüksək mənfəət götürməsi, başqa xalqları əsarət altına alması və imperialist siyasət yeritməsidir. Dünyanın yenidən bölüşdürülməsi, yeni xammal mənbələrini işğal etmək və "dünya ağalığına can atmaq İkinci Dünya müharibəsinə gətirib çıxardı [12. səh.-21]. Əsərdə ABŞ, İngiltərə, Yaponiya və digər kapitalist ölkələri bu müharibənin əsas səbəbkarları kimi göstərilir, SSRİ isə dünyada ardıcıl sülh siyasəti yeridən, kommunizm və demokratiya uğrunda öz xalqının müdafiəsinə qalxan dövlət kimi təqdim olunub.

Əsərin müəllifi yazır ki, Avropa ölkələri ümumi böhrandan çıxmaq

üçün Sovet İttifaqı əleyhinə vahid cəbhə yaradan ABŞ, İngiltərə və Fransa 30-cu illərdən başlayaraq Almaniya, İtaliya və Yaponiyanın SSRİ-yə hücum edəcəyini düşünərək bu ölkələrə kömək edirdilər [12.səh.-22]. Almaniyanın hərbi sənayesinin genişləndirilməsi – ordu, dəniz və hava donanması yaratmaq üçün borc verilməsi alman militarizmini Sovet İttifaqına hücuma yönəldirdi [12.səh.-23].

Həmin əsərdə daha sonra İkinci Dünya müharibəsi ərəfəsində Sovet İttifaqı sülhsevər siyasət yeridən ölkə kimi göstərilmişdir. Həmçinin burada qeyd olunur ki, İkinci Dünya müharibəsinin başlanması təhlükəsini görən Sovet rəhbərliyi bunun qarşısını almaq üçün başqa ölkələrə müraciət etmiş, kollektiv təhlükəsizlik sistemi yaratmaq, qəsbkarlıq əleyhinə qarşılıqlı kömək üçün müqavilə bağlamaq təklifini irəli sürmüş olsa da, İngiltərə, Fransa və digər kapitalist ölkələr SSRİ-nin bu təklifini rədd etmiş və nəticə etibarilə Avropada müharibə ocağı yaranmışdır [12.səh.-23].

Burada həmçinin Almaniyanın Sovet İttifaqına 22 iyun 1941-ci il səhər saat 4-də edilmiş xaincəsinə basqınında Almaniyaya İtaliya, Macarıstan, Rumıniya, Finlandiya, Bolqarıstan və İspaniyanın kömək etməsi də qeyd edilmişdir. Beləliklə, müəllif müharibənin başlama səbəblərini göstərməklə Sovet İttifaqının bu müharibədə ədalətli mövqeyini kommunist partiyasının tələbi kimi qoymuş, Faşist Almaniyasının SSRİ-yə hücumunun qarşısını almasını sosializmin dayağı olan ölkənin öz sosialist vətənini, öz əməyi ilə yaratmış olduğu bütün sərvətləri müdafiə etməsi kimi göstərilib.O da qeyd olunmuşdur ki, sovet xalqının müharibədə məqsədi təkcə SSRİ-nin Almaniya hücumundan qorumaq deyil, həmçinin faşist zülmü altında inləyən Avropa xalqlarına azadlığa çıxmaqda kömək etmək istəməsidir.

Azərbaycan sovet tarixşünaslığında əks olunan 1941-1945-ci illər müharibəsinin başlanması səbəbləri Valentina Belyayevanın rus dilində 1957-ci ildə nəşr olunan əsərində də müəyyən qədər öz əksini tapmışdır.”Azərbaycan fəhlələrinin əmək qəhrəmanlığı Böyük Vətən Müharibəsi illərində (1941-1945-ci illər)” adlanan əsərin birinci fəslində müharibənin başlanma səbəbləri göstərilmişdir. Müəllif qeyd edir ki, müharibənin meydana gəlməsi Avropada kapitalizm böhranının yaratdığı tarixi şəraitdən baş vermişdir. Faşistlərin SSRİ-yə hücumunda əsas məqsəd dünyada

olan yeganə sosialist ölkəsini aradan götürmək üçün anqlo-amerikan və fransız imperialistlərinin birgə qəsbkarlıq siyasətidir [13. səh.-8].

Bu dövrün tədqiqi ilə məşğul olan digər müəlliflər kimi, Almaniyanın SSRİ-yə 22 iyun 1941-ci il hərbi təcavüzü iki ölkə arasındakı 1939-cu ilin avqustunda bağlanmış hücum etməmək haqqında müqaviləyə ziddir. Burada o da qeyd olunur ki, kapitalizm və sosializm arasındakı ziddiyyətlərə baxmayaraq İkinci Dünya müharibəsinin başlanması təkcə SSRİ-yə qarşı deyil,həm də kapitalist ölkələrinə qarşı da başlanılmışdır [13.səh-9].

Haqlı olaraq əsərin müəllifi yazır ki, ikinci imperialist müharibəsi müasir kapitalist inhisarçılarının öz gücləri əsasında dünyanın iqtisadi və siyasi inkişafının dəyişməsi nəticəsində, bir tərəfdən Almaniya, Yaponiya, İtaliya, digər tərəfdən ABŞ, İngiltərə və Fransa arasında baş verdi.Bu qruplaşmaların hər biri qarşı tərəfi məğlub etməklə dünyaya hökmran olmaq və bununla da, iqtisadi böhrandan çıxmağa çalışırdılar [13. səh-9].

Qeyd olunan dövrün araşdırılması ilə məşğul olan tədqiqatçılar İkinci Dünya və 1941-1945-ci illər müharibəsinin başlanma səbəblərini göstərməyə çalışdıqda dövrün inzibati-amirlik sisteminin təsir etdiyi ideoloji təsirlərdən kənara çıxa bilməmişlər. Müharibənin başlama səbəbləri kommunist partiyasının tələbləri prinsipində izah edilirdi ki, bütün bunlar həmin dövrün Azərbaycan sovet tarixşünaslığında tam və obyektiv tədqiq olmasına imkan verməmişdir.

Bununla belə, müəlliflər haqlı olaraq müharibənin başlama səbəbləri kimi Avropada müharibə ocağının yaranmasında Hitler və onun əlaltılarının təsirini qabartmışlar. Bəşəriyyət, o cümlədən xalqımız üçün böyük insan itkisinə səbəb olan bu müharibənin qarşısının alınmamasında Avropanın qabaqcıl kapitalist ölkələri olan Fransa, İngiltərə, İtaliya və başqalarının laqeydliyi göstərilmişdir. Qeyd olunan əsərlərdə müəlliflərin müharibənin başlama səbəblərinə az yer vermələrinə baxmayaraq həmin tədqiqatlar 1941-1945-ci illər müharibəsinin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Əmrahov M. İkinci Dünya Müharibəsi (1939-1945-ci illər),Bakı -2004
2. wikipediya.ru
3. Mahmudov Ə. Q. Əbdülsəlimzadə, Azərbaycan SSR xalq təsərrüfatının Böyük Vətən Müharibəsi illərində, Bakı – 1985
4. Hüseynov C. Böyük Vətən Müharibəsi illərində sovet xalqının mənəvi siyasi birliyi, Bakı – 1959
5. Abbasov M. Azərbaycan Kommunist partiyası Böyük Vətən Müharibəsi dövründə cəbhəyə yardımı qüvvətləndirmək uğrunda mübarizədə, Bakı – 1960
6. Эфендиев Т. Азербайджан в годы Великой Отечественной Войны (1941-1945), лекция, Баку – 1965
7. Новрузов Т. Трудовые подвиги колхозного крестянство Азербайджана в период Великой Отечественной Война, Баку – 1963
8. Mədətov Q. Azərbaycan Böyük Vətən Müharibəsində, Баку – 1965
9. Kərimov Ə. Böyük Vətən Müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi, Bakı – 1962
10. Азербайджанский ССР в период Великой Отечественной Война 1941-1945 г.г. Сборник документ и материалов, том I, Баку – 1965
11. Azərbaycan komsomolu, Bakı – 1968
12. Bağırzadə Ə. Azərbaycan ziyalıları Böyük Vətən Müharibəsi illərində, Bakı – 1970
13. Беляева В. А. Трудовой героизм рабочих Азербайджана в годы Великой Отечественной Войны (1941-1945 г.г.) , Баку – 1957

Sh. Movsumov

THE CAUSES OF WAR AND THE PROGRESS OF THE MILITARY OPERATIONS IN AZERBAIJAN SOVIET HISTORIOGRAPHY

SUMMARY

The Second World War and the reasons for the start of the 1941-1945 war the Soviet historiography. The reasons for the outbreak of the Second World War discussed very little the Soviet historiography. Researchers at the start of his works, the causes of the Second World War in Europe as the crisis of capitalism and the aggressive policy of Hitler's Germany in Europe, pursuing world domination was shown to be the case. The authors of the aggressive policy of the USSR is the redistribution of the world untouched, the reasons for the start of the Second World War and Hitler's aggressive policy, the establishment of the war in Europe as a result of the formation were studied.

The war between Germany and the USSR, which is part of the Second World War the history of the Soviet Union the "Great Patriotic War" as it was called. This is a war to the Soviet Union on 22 June 1941, Germany launched a surprise attack and ended with the victory of the Soviet Union on 9 May 1945. The reason for starting the war as a German fascism to destroy the Soviet Union, millions of Soviet people and its rich resources and cheap labor force to be used as shown in the plan. Researchers are calling for the protection of the Soviet Union against fascist Germany in the Great Patriotic USSR in the war called the Great Patriotic War.

Ш.Мовсумов

ВТОРАЯ МИРВОВАЯ ВОЙНА И ПРИЧИНЫ НАЧАЛА ВОЙНЫ В АЗЕРБАЙДЖАНСКОЙ СОВЕТСКОЙ ИСТОРИИ

РЕЗЮМЕ

На протяжении 70 лет Азербайджанская советская историография формировалась в рамках единой концепции, становой хребет которой составляла марксистско-ленинская методология при оценки исторических событий. Согласно данной методологии исторические события рассматривались сквозь призму идеологии Коммунистической партии о миропорядке, борьбы между социализмом и капитализмом и т.д. В этом же ракурсе рассматривались причины начала Второй мировой войны, места в ней советско-германской войны 1941-1945 гг., роли Советского Союза в победе над фашизмом. Исходя из этого советская историография пыталась скрыть многие «белые пятна» о роли Советского Союза в развязывании Второй мировой войны, сваливая основную вину на фашистскую Германию. В историографии господствовал тезис о внезапности и вероломности нападения Германии на СССР, в нарушение советско-германского пакта о ненападении от 23 августа 1939 года. При этом скрывалось наличие в этом пакте секретных протоколов, по которым стороны делили Европу на сферы влияния и планомерно начали осуществлять данный раздел в 1939-1941 годы, путем захвата стран, перешедших в эту сферу. Таким образом, советская историография преподносила захват Западной Украины, Западной Белоруссии, стран Прибалтики как добровольное вхождение этих территорий в состав СССР перед угрозой фашистского завоевания.

AKADEMİK ZİYA BÜNYADOVUN YARADICILIĞINA DAİR

Elməddin QULİYEV

Açar sözlər: Azərbaycan, Ziya Bünyadov, tarixçi, yaradıcılığ
Key words: Azerbaijan, Ziya Bunyadov, historian, creativ
Ключевые слова: Азербайджан, Зия Буниятов, историк, творчества

Azərbaycanın 1991-ci ildə öz müstəqılliyini bərpa etməsi ilə yerli və xarici tarixçilər arasında onun tarixinə, bütövlükdə Azərbaycanın, o cümlədən onun Cənubi Qafazda və dünya siyasətində tutduğu mövqeyinə maraqlar daha da artmışdı. Şübhəsiz ki, son 180 il ərzində bu sahədə müəyyən uğurlar əldə olunmuşdur. Bu sırada yazılı mənbələrin öyrənilməsi ilə yanaşı, arxeoloji və etnoqrafik tədqiqatların aparılması, Cənubi Qafqazda yaşayan xalqaların tarixinin ayrı-ayrı məsələlərinə xüsusi diqqət ayrılmasına imkanlar yaratmışdır.

Azərbaycan tarixşünaslığı yarandığı günə qədər yurdumuzun tarixini müxtəlif qaynaqlar əsasında öyrənilmişdir. Lakin hazırda da Azərbaycan, o cümlədən Cənubi Qafqaz xalqlarının tarixinin tam dəqiqliyi ilə öyrənilməsi haqqında danışmaq tezdir. Bunu yaradan səbəblərindən başlıcası 1828-cü Türkmənçay müqaviləsidir ki, həmin vaxtdan etibarən Şimali Azərbaycanın tarixi Rusiyanın Qafqaz siyasəti, Cənubi Azərbaycan tarixi isə İranın paniranizm siyasəti baxımından tədqiq edilmişdir ki, həmin nəzriyyələrin əsasını isə sonralar avropamərkəzçilik və "kəsrəviçilik" [4] təşkil etdi. Başlıcası, bütün bu cür tədqiqatlar tarixi-coğrafi məfhum kimi Azərbaycan ərazisini təşkil edən vilayətlərin tarixinə və onun etnik məsələlərinin öyrənilməsinə həsr edilsə də [2.s 3-4], bir tərəfdən yazılı qaynaqların azlığı, digər tərəfdən, qaynaqların məqsədli şəkildə təhrif edilməsi, birtərəfli araşdırılması tariximizin qeyri elmi izahına gətirib çıxarmışdır [6. s.3].

Qafqazşünaslığın bir qolu kimi azərbaycanşünaslıq hələ XIX əsrin ortalarında yaranmağa başlamışdır. Bu baxımdan A.Yankovski, B.Dorn, İ.Şopen, Gerland E., Q.Hübşman, İ.Marquart, M.Justi, Bartold V.V. Baratov S. və digərlərin əsrlərini qeyd etmək olardı ki, bu tədqiqatlarda

---

Elməddin Quliyev - AMEA-nın Tarix İnstitutunun dissertantı

daha çox tarixi coğrafiya və etnik məsələrin həllinə, dil problemlərin öyrəniləsinə yer verilirdi [61, s.97-192; 57; 31; 65; 25; 26; 39, 123-136; 24; 67; 68; 66]. Adı çəkilən əsərlər yazıldığı dövrdə tədqiqatçıların istifadəsində olan qaynaqlar tam öyrənilməmişdi və burada qaynaq qıtlığı hiss edilirdi. Digər tərəfdən adı çəkilən müəlliflər yalnız antik və erməni qaynaqlarına üstünlük verirdilər. Bu cür elmi yanaşma isə qərəzli, daha çox xristian / ermənipərəst/ mövqeyi ilə seçilirdi. Onu da qeyd edək ki, məhz bu vaxt M.Brosset, K.Patkanovun və N.O.Eminin, Aniyskiy A. redaktəsi ilə qədim erməni və gürcü dillərində yazılan qaynaqlar fransız və rus dillərinə tərcümə edilərək tədqiqatçıların istifadəsinə verilirdi [64; 21; 56; 37; 16; 15].

XX əsrin əvvəlində Qərbdə və Rusiyada bolşevik inqilabından sonra Avropada bu məsələ ilə bağlı Baynes N.M., Dirr A.A., Marquart J, Minorsky V.F. məşğul olmuşdular [63; 30; 69; 70]. Sonralar bu məsələrlə bağlı sovet dövrünün tədqiqatçıların əsərlərində rast gəlirik. Əlbəttə ki, bu dövrdə tədqiqatçıların ixtiyarına yeni yazılı qaynaqlar verilmiş, aparılan arxeoloji qazıntılar ilk məəxəzlərdə olan məlumatları daha da zənginləşdirmişdir. Lakin bu dövrün tarixixçiləri öz tədqiqatlarında marksimlenininzm sinfilik nəzəriyyəsinin əsas müddəlarından çıxış edərək faktiki cüzi fərqlə rus/qərb tarixçilərinin ənənəvi baxışlarını müdafiə etmişdilər [17. 121-144; 19; 40; 41; 53; 52; 54]. Bu tədqiqatların bütün müsbət cəhətlərinə baxmayaraq, yenə də onlarda erməni təəsübkeşliyi və qərəzliyi müşahidə edilir. Bəziləri isə Qafqaz Albaniyasını regionda olan dövlətlərdə müqayisədə geridə qalmış kimi qələmə verirlər [54, 84-87? 93? 144? 150, 354; 51].

Z.M.Bünyadovun yaradıcılığından danışarkən şübhəsiz ki, biz onun tənqid etdiyi erməni tarixçünaslığına xüsusi diqqət verməliyik. Bu problemləri işıqlandırmaqla biz bir daha bu dahi şəxsin doğma Azərbaycanına və onun xalqına hansı dərəcədə xidmət etməsini dəyərləndirə bilərik. Ümumiyyətlə erməni tarixşünaslığı hazırda da Albaniyanı Emənistanın şərq əyaləti kimi təqdim etməkdədir [11, 166-189]. Onların qənaətinə görə 30-60-cı illər istisna olmaqla IV əsrin sonunda "erməni-alban sərhəddi Kür çayı boyunca keçirdi və Sakasena, Arsax, Utik, Qardman və başqa vilayətləri Ermənisatana daxil idi" [38, 180]. Hətta M. Maştosun əlifbasını "icad" etməsi haqqında rəvayətə

əsaslanan erməni tədqiqatçıları bir az da irəli gedərək ermənilərlə albanların etnik mənsubiyyətində bərabərlik işarəsi qoydular. Onların bu iddiarına görə "tarixi Aqvaniya"da, yalnız ermənilər yaşayırdılar [38, 180, 228]. Z.M.Bünyadovun yaradıcılığı ərəfəsində bu məsələlərlə məşğul olan erməni tarixçilər arasında A.Mnasakanyan, L.M.Melikset-bek, S.T.Yeremyan, A.Q.Abramyan, S.S.Malxasyansın və başqaların adlarını çəkmək olar [8; 42; 43; 44; 45; 48;].

Deyildiyi kimi Azərbaycan tarixşünaslığının yaranması bilavasitə hələ 1828-ci ildə Abbasqulu Ağa Bakıxanovun yazdığı "Gülüstan-i-İrəm" əsərindən başlayır [42[a], 3]. XX əsrin 20-50-cı illərində Azərbaycan tarixinin qədim və orta əsrlər dövrünün öyrənilməsinin yeni mərhələsi başlayır. Amma əvvəllər olduğu kimi, bu vaxt da bizim tarixlə məşğul olanların əksəriyyəti qeyri azərbaycanlılar idi. Bu vaxt erməni və ermənidilli qaynaqlarının bir çoxu rus dilinə tərcümə edilməsinə baxmayaraq, tədqiqatçıların istifadəsində dövrü işıqlandıran müsəlman qaynaqları daha çox N.A.Karaulovun tərcüməsində olan, çox vaxt dəqiq tərcümə edilməyən qaynaqlar idi [58; 46; 47]. Həmin vaxt P.K.Cəuzi tərcüməsində bəzi ərəb qaynaqları nəşr edilir [58; 22; 36]. Onun dini ideoloji mübarizə ilə bağlı bir sıra əsərləri çap edilir [33]. Bu dövrdən başlayaraq SSRİ dağılana kimi Azərbaycan tarixinin bütün sahələri kommunizmin sinfilik ideologiyası baxımından öyrənilirdi. Sovet tarixşünaslığı da ənənəvi olaraq etnogenez məsələsində Azərbaycanın/ Albaniyanın etnik mənsubiyyəti bilavasitə qafqazdillilərlə, cənub bölgülər isə irandillilərlə bağlayırdı [59; 60; 12]. Lakin bu dövrdə də mühacir tarixşünaslığında Albaniya əhalisinin qədimdən türk mənşəli olması haqqında tutarlı fikirlər səslənirdi [5].

Lakin keçən əsrin 50-ci illərin ikinci yarısında 60-cı illərin əvvəlində Azərbaycan tarixşünaslığında yeni mərhələ başlayır. Bu dövrdə qədim və orta əsrlər dillərini bilən mütəxəssislər yaranır. Artıq Azərbaycan tarixi erməni tərcümələrindən deyil, bilavasitə orijinaldan öyrənilir və iranşünas və erməni tarixçilərinin inhisarından alınır. Əlbəttə ki, bütün bu tədqiqatların ən yüksək zirvəsi Z.M.Bünyadovun adı ilə bağlıdır. Azərbaycan tarixşünaslığı A.A.Bakıxanovdan başlandığı kimi Azərbaycan tarixşünaslığının medeyevistikası da məhz Z.M.Bünyadovdan başlayır [20, 68-71].

Keçən əsrin 60-cı illərindən başlyaraq Azərbayan tarixinin öyrənilməsi istiqamətində şərqşünaslıq və medeyevistika problemlərinin işıqlandırılması məsələlərində bir çox yerli tarixçilərimizi geridə qoyan Z.M.Bünyadov qısa müddət ərzində Vətənimizdə və onun hüdudlarından çox-çox uzaqlarda şöhrət qazana bildi. O öz fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslıq məktəbinin şöhrətini ölkənin hüdudlarından uzaqlarda yayaraq Orta əsrlər Şərqi və Ərəb xilafəti, Azərbaycan, Qafqaz və Orta Asiya tarixi üzrə görkəmli mütəxəssis kimi dünyada tanınmış, geniş oxucu kütlələrinin rəğbətini və məhəbbətini qazana bilmışdır [1, 10]. Hətta ölümündən bu qədər vaxtın keçməsinə baxmayaraq hazırda da Azərbaycan şərqşünaslığında və tarixşünaslığında tədqiqatlarının əhatə dairəsinə görə onun bərabəri yoxdur. Akademik Nailə Vəlixanlı qeyd etdiyi kimi bu alimin elmi tədqiqatları üçün tematik və zaman məhdudiyyətlər yox idi [29]. O yaradıcılığının 45 illik müddəti ərzində 450 dən çox elmi əsər yazmışdır ki, onların arasında bir neçə monoqrafiya, coxlu sayda tərcümələr və onlara şərhlər, elmi əsərlərə resenziyalar, Azərbaycan Ensiklopediyası üçün hazırlanan onlarla məqalələri yer tutur [29; 1, 11].

Ziya müəllim ilk dəfə tədqiqatlarında yurdumuzun sosial-iqtisadi inkişafı, siyasi tarixinin bir sıra məsələlərini çoxsaylı ayrı-ayrı dillərdə yazılmış qaynaqlara əsaslanaraq işqlandırmışdır. Qeyd edildlyi ki, Ziya müəllimin yaradıcılığında zaman və məkan məhdudiyyəti yox idi. Z.M.Bünyadovun tərcümə və tətqiq etmiş qaynaqlar vasitəsi ilə din və etnik, sosial və dövlət quruluşu, sərhədlər məsələlərində özündən əvvəlki bütün tədqiqatçıların mülahizələrini təhlil edib orada olan qüsurlarını göstərə bilmişdi [6, 7-8], yəni Ziya müəllimin sözləri desək, tariximizin hər bir mərhələsi onun həmişə diqqət mərkəzində idi [29]. Onun ətraflı və tezis kimi işıqlandırdığı bir çox məsələlər sonra da bu sahədə tədqiqatlar aparmış alimlərimiz üçün əsas vəsait olmuşdur. Azərbaycan tarixşünaslığında meydana gələn "tarixi coğrafiyanın" əsası məhz Z.M.Bünyadov tərəfindən qoyulmuşdur [34, 3].

Z.M.Bünyadovun yaradıcılığnı dəyərləndirənədə onun doktorluq dissertasiyasına rəy verən müəllimi Yevgeni Aleksandroviç Beləyevin fikir vermək yerinə düşər. Ümumiyyətlə Y.A.Belyayevin bu fikirlərni Z.M.Bünyadovun bütün yaradıcılığına şamil etmək olar. Alim bu barədə

yazırdı: "Z.M.Bünyadovun əsəri Azərbaycan vətəndaş tarixinin elə bir mərhələsinə həsr edilib ki, o indiyə kimi heç bir mütəxəssisin diqqətini cəlb etməmişdir. Bundan başqa orta əsrlər feodal Azərbaycanın elmi araşdırması bütövlüklə bu ölkənin yeni və ən yeni dövrünün düzgün dərk olunması üçün vacib şərtdir" [28, 139].

Beləliklə, Azərbaycan tarixşünaslığında "inqilabi mərhələ" Z.M.Bünyadovun 1965-ci ildə nəşr etdiyi "Azərbaycan VII-IX əsrlərdə" monoqrafiyasıdır. Bu əsər alban, erməni, gürcü, bizans, ərəb, suriya salnamələri əsasında yazılmışdır [2, 7-38]. Müəllif bu dövrlə məşğul olan digər alimlərin tədqiqatlarına müraciət edərək olanarı arxeoloji və numizmatik materiallarla zənginləşdirib, bura elmin başqa sahələrini də cəlb edirdi [29].

Adı çəkilən qaynaqlara əsaslanan Z.M.Bünyadov tarixdə ilk dəfə olaraq alban ideologiyasının tarixini: xristianlıq, Alban kilsəsi, onun quruluşu, alban ədəbiyyatı öyrənilmişdir. Müəllif Erməni Qriqorian kilsəsisinin Müstəqil Alban Kilsəsinin hüquqlarını məhdudlaşdırılmasında və 1836-cı ildə ləğvində rolunu göstərmişdir [2, 39-70; 42[a], 160-161]. Alban mədəniyyətinin mövcudluğunu inkar edən S.T.Yeremyan kimi bəzi erməni tədqiqatçılardan fərqli olaraq Z.M.Bünyadov tədqiqatlarında alban dili və alban mədəniyyətinin ardıcıl itməsinin səbələrini araşdırır [29]. Alim bu haqda yazırdı: " o vaxta qədər ki Qanzasarda alban patriarx taxt-tacı mövcud idi və fəaliyyət göstərirdi erməni katolikosluğu yeni məskən saldığı torpaqlarda ehtiyatla və geri baxaraq fəaliyyət göstərirdi. Lakin Eçmiədzin Müqəddəs Sinodu satın aldıqdan sonra onun köməyi ilə alban patriarx taxt-tacını ləğv edən kimi, erməni katolikosluğu tezliklə alban aşağı kilsə təşkilatlarının gəlirlərini əlinə alır və Qarabağ albanlarının sələfləri arasında fəal olaraq qriqorian təriqətinin yayılmasına başlayır. Onların bir hissəsi qriqorianlığı qəbul etməyərək İslama keçdilər, və bu ikili parçalanmaya misal kimi, yalnız qarabağlılara xass olan "məlik" sözləri ilə başlanan Azərbaycan-erməni soyadları mövcudluğu (Məlik-Yeganovlar, Məlik-Şahnəzərovlar, Məlik-Ağacanovlar ..və sair) [55, 3].

Z.M.Bünyadov alban əlifbasının guya Mesrop Maştos tərəfindən "icad" edilməsi haqqında erməni tədqiqatçılarına [53, 327] cavabında yazırdı ki, "İstər yazılı mənbələr, istərsə xüsusilə arxeoloji qazıntı materialları göstərir ki, V əsrin əvvəlində Azərbaycanın şimal hissəsinin

öz əlifbası olmuşdur və bu əlifbanın gürcü və erməni əlifbaları ilə ümumi oxşar cəhətləri var imiş Mingəçevirdəki qazıntı zamanı tapılan alban əlifbası parçası təsdiq edir ki, VII-VIII əsrlərdə Arranın öz yerli yazısı var idi və bu yazı ölkədə ərəb hökmranlığı daha qurulmazdan əvvəl mövcud olmuşdur. Belə güman etmək olar ki, Arranda yazılı mənbələr və ədəbiyyat xəlifə Əbd ül-Malikin ... hökmranlığı dövründən başlayaraq məhv edilmiş və ya sıxışdırılıb aradan çıxarılmışdır ... Əhali arasında savadlı təbəqələrin azlığı və qriqotyan kilsəsinin təzyiqi üzündən sıxışdırılıb unuduldu və təbii olaraq məhv oldu. Erməni dili alban dilini əvəz "etdi" [2, 58].

Alimin apardığı araşdırmalar arasında Azərbaycanın VI-VIII əsrlərdə qonşuları ilə münasibətləri də diqqəti cəlb etməkdədir. Buradakı vəziyyəti tam açıqlayan müəllif bütün təfsilatı ilə xəzərlərin bu torpaqlara yürüşlərini, onların buradaki hakimiyyət illərini, iran-bizans müharibələrini açıqlaya bilmişdi [42[a], 161]. Belə ki, Z.M.Bünyadov tarixşünaslıqda ilk dəfə alban patriarxı Vironun siyasi fəaliyyətini düzgün dəyərləndirə bilmiş, onun iran və xəzər hakimiyyəti dövründəki rolunu qiymətləndirə bilmişdir [2, 58; 42[a], 161]. 627-630-cu illər hadisələri ilə M.İ.Artamonovun fikri razılaşmayan Z.M.Bünyadov yazır ki, bu vaxt xəzərlər cənuba yürüş etdikləri zaman məğlub olaraq Albaniyanı tərk etməyib [19, 65; 42[a], 162], yalnız Qəbələ ətrafında öz əvvəlki mövqelərinə qayıtdılar [2,54-55].

Albaniya sərhədləri ilə bağlı S.T.Yeremyan başda olmaqla digər erməni tədqiqatçıların bu məsələdə fikirlərini alt-üst edərək [53, 310] Albaniyanın VI-IX əsrlərdə siyasi mənzərəsini araşdıran Z.M.Bünydov düzgün olaraq qeyd edir ki, VI əsrdə ölkədə mərzbanlıq rejimi hökm sürürdü, VII-VIII əsrlərdə isə dövlətə Mehranilər başçılıq edirdi. Araşdırmadan aydın olur ki, onlar nominal olsa da VIII əsrin başlanğıcına kimi bütün ölkə, yaxud onun bir hissəsini idarə edirdilər. Z.M.Bünyadov Albaniyanın VII-IX əsrlərdə cənub və şimal-qərb sərhədlərini düzgün müəyyənləşdirərək, Süniki Albaniyanın tərkibində olduğunu göstərərək, Araz çayını sərhəd olaraq dəqiqləşdirmişdir. Eyni mənzərəni biz Girdmanın yerləşməsi ilə də görürük. O Hunani məntəqəsini Kürlə Xrami çaylarının kəsişdiyi yerdə yerləşdirərək, onu Albaniya ilə İberiya arasında sərhəd məntəqəsi kimi müəyyən edib P.İnqqorkovun səhv olduğunu sübuta yetirmişdir [27; 87-91].

Daha maraqlısı budur ki, Z.M.Bünyadov Albaniya ərazisində iki Şəkinin olmasını sübut edə bilmiş və bununla da bir çox mübahisəli məsələrin ayırd olunmasına yol açımışdır [2, 176-180]. Sonralar Azərbaycanın / Arranın qərb sərhədləri məsələsinə bir daha qayıdan Z.M.Bünyadov sübut edə bilmişdir ki, hətta XII əsrdə də torpaqlarımızın qərb hüdudları Ani və Dəbil hüdudlrından başlayırdı" [3, 52]. Bu məsələlərin həlli ilə isə o daha mürəkkəb problemi - erməni qaynaqlarında hansı Naxçıvandan söhbət getdiyini müəyyən edə bilmişdir [2, 105; 3, 191].

Ərəblərin Azərbaycana yürüşlərini hərtərəfli tədqiq edən Z.M.Bünyadov dəqiqliyi ilə bu dövrdə yaranan ictimai münasibətlər, yeni vergi sistemi, ideologiya haqqında maraqlı məlumatlar əldə edə bilmişdir. Azərbaycanın şimal və cənub bölgələrinin Xilafət tərkibində mövqeyini tədqiq edib tənqidi araşdıraraq mərhum alimimiz adı çəkilən dövlətin dağılması ərəfəsində burada yaranan feodal dövlət qurumların və mülklərin yaranması, xürrəmilər hərəkatının tarixinin səbəbləri və mahiyyətini, adının mənşəyini və bu problemlə bağlı bir çox digər məsələləri üzə çıxara bilmişdi.

1981-ci ildə Z.M.Bünyadov Əhməd ibn Əsam əl-Kufinin "Kitab əl-futuhdan" Azərbaycana aid olan hissələri rus dilinə tərcümə etmişdir. Bu əsər vasitəsi ilə tədqiqatçı indiyə qədər ərəblərin işğalı dövründə Azərbaycan tarixi, xürrəmilər haqqında məlum olmayan məlumatları üzə çıxara bilmişdi. "Azərbaycan VI-IX əsrlərdə" monoqrafiyasının Azərbaycan dilində olan nəşrinə yazılan ön sözdə müəllif bu yeniliklər haqqında belə yazır: "... 1965-ci ildə rusca çap olunan mətnlə bu kitabın məzmunu demək olar ki, eynidir. Yalnız xürrəmilər hərəkatının rəhbəri Babək haqqında əldə edilmiş yeni məlumat əlavə edilmişdir [2, 5]. Bütün bunlar bütün Azərbaycan sevərlərə yeni bir tövhə sayılmalıdır.

Qaynaqlarda şəhərlər haqqında xəbərlərin az olmasına baxmayaraq, Z.M.Bünyadov bu boşluqları arxeoloji məlumatlarla zənginləşdirir, onların quruluşu və sosial statusunu müəyyən edir [2, 149-150; 3, 199], hətta qaynaqlarda qeyd olunan, lakin yeri təyin edilməmiş şəhərlər və qalaların harada yerləşməsini müəyyən edir. Tədqiqatların maraqlı məqamlarından biri də budur ki, Z.M.Bünyadov monoqrafiyalarında Azərbaycanın daxilində və onunla qonşuluqda yerləşən şəhərlər arası məsafələri, keçidləri və ticarət yollarını dəqiqliyi ilə izləyir [2, 141-162].

Tədqiqatçı düzgün olaraq qeyd edir ki, ərəblər bizanslıların Qara dənizdən keçən əsas ticarət yollarını pozaraq, bu yolları şərqə, Xəzərə keçirmişdilər, "bu isə Xəzər ətrafında şəhərlərin coşqun inkişafına səbəb olmuşdur" [2, 150]. Monoqrafiyanın maraqlı məqamlarından biri də Sasani və Xilafət dövründə Azərbaycan ərazisində işlədilən pullar haqqında araşdırmalardır [2, 148]. Eyni mənzərəni biz alimin növbəti monoqrafiyasında da izləyirik [3, 185-208].

Azərbaycan tarixinin mürəkkəb və hələ də tam həllini tapmayan məsələlərdən biri etnogenez problemləridir. Burada müəllif ərəblərin Azərbaycana köçürülməsi, və bu prosesin yerli etnik mənzərəyə nə dərəcədə təsir etməsi haqqında araşdırma aparır. Z.M.Bünyadovun Müaviyyənin Abid ibn Şariyəyə yerli türklərlə bağlı verdiyi sual və digər qaynaqlardan gətirdiyi faktlar müəllifin "türkləşmə" məsələsinə münasibətini tam açıqlayır [2, 174]. Həmin konsepsiyanın nümayəndələrinə akademik düzgün olaraq cavab verir ki, "türkləri Azərbaycan ərazisinə kənardan gəlmiş bir ünsür hesab etmək ... səhvdir, çünki onda, yerli böyük və çox yığcam türk tayfa təşəkküllərinin varlığına göz yumulur" [2, 171].

Öz ilk samballı əsərində Azərbaycan feodal dövlətlərinin tarixnin öyrənilməsində böyük uğurlu addım etdikdən sonra Z.M.Bünyadov "Azərbaycan Atabəylər dövləti" tarixini yazmaqla onun həm Azərbaycan xalqının təkamül tarixində, həm də ki regionun siyasi, iqtisadi mədəni həyatında rolunu və əhəmiyyətini işıqlandıra bildi. Məhz Atabəylər dövləti dövründə Azərbaycanın ictimai və mədəni həyatı "Qızıl əsrini" yaşamaqla öz İntibah mərhələsinə ucalır. İlk monoqrafiyada olduğu kimi, burada da Ziya müəllim çoxlu müxtəlif dilli qaynaqlar öyrənməklə Eldənizlər dövlətinin az işıqlandırılmış səhifələrini öyrənmişdir. Bu dövlət haqqında olan qısa və pərakəndə olan tədqiqatları qaynaqlardan mühüm məlumatlarla zənginləşdirərərək, o tarixşünaslıqda ilk dəfə olaraq bu dövlətin tarixini ardıcıl olaraq işqlandıra bildi [29]. Onun bu məsələ ilə bağlı tədqiqata cəlb etdiyi əvəzsiz qaynaqlar istər Azərbaycan, istərsə də Cənubi Qafqaz, Ön Asiya və Orta Asiya xalqalarını tarixinin öyrənilməsi üçün böyük tövhə idi. Bu cəhətdən XII əsr müəllifi olan Sədrəddin əl-Hüseynin "Əxbər əd-dövlət əs-səlcuqiyyə" və XIII əsr ərəb müəllifi Şihab əd-din ən-Nəsəvinin "Sirat əs-sultan Cəlal əd-Din Mankburnı" adlı əsərlərini qeyd etmək olar [13; 14; 9, 13-15]. Adı çəkilən monoqrafiyanın

və qaynaqların ışıq üzü görməsi müəllifə sonralar 1986-cı ildə "Xarəzmşahlar-Ənuştəginilər dövləti" tarixini yazmağa imkan yaratdı.

Hər üç əsərdə XI əsrin sonundan, yəni Səlcuq imperiyasının tənəzzülündən Atabəylər dövlətinin yaranmasına kimi əvəzsiz məlumatlar əksini tapmışdır. Bu məlumatlar əsasında Z.M.Bünyadov tədqiq olunan regionun feodalları arasında olan gərgin münasibətləri araşdırmağa imkan verdi. 1980-ci ildə "Azərbaycan Atabəyləri dövləti" Dövlət mükafatına layiq görüldü. Z.M.Bünyadovun Xarəzm tarixi və mədəniyyətinin öyrənməsi və Aral dənizinin ekoloji məsələlərinin həllində fəaliyyəti Özbəkistan rəhbərliyi tərəfindən yüksək qiymətləndirildi və o Urgənc şəhərinin fəxri vətəndaşı seçildi [9, 13-15; 23, 77-79].

Əgər özünün birinci monaqrafiyasında Ziya Bünyadov orta əsr qaynaqlarını diqqətlə tədqiq edərək alban etnosunu qriqorianlaşaraq ermənilləşmələrinin səbələrini araşdırıb, erməni tarixçilərinin məqsədyönlü olaraq alban yazılı qaynaqlarının məhvini və bizim tariximizin necə saxtalaşdırəldığını göstərmişdirsə, artıq burada mərhum akademik bir vətənpərvər kimi çıxış edərək ermənilərə elmi əsaslarla layiqli cavab verir [29].

1987-ci ilə qədər Z.M.Bünyadov erməni alimlərinin fikirlərini ifşa edərək, onların "nailiyyətlərinin" heç bir elmi əsası olmadığını sübut etmiş. Artıq bu dövrdən başlayaraq o ermənilərin və onların havadarlarının riyakarlığını tam aşkarlığı ilə ifaşa etməyə başladı. Qeyd olunmalıdır ki, Ziya müəllim yazılı qaynaqları araşdırakən heç vaxt diqqətini yalnız öyrəndiyi mövzu ətrafında cəmləşdirməzdi. "O elmdə heç vaxt ərazi və milli məhdudiyyətlər etməzdi, və öz yaradıcılığı ilə sübut edərək, göstərmişdir ki, elm həqiqətən sərhədsiszdir. "... Ermənilər Ziyanı şovinizmdə, millətçilikdə, pantürkçülükdə və panislamizmda ... günahkarlandıranda - bu qoca, xəstə ilanın fışıldaması kimi qəbul edilir" [7, 184]. "Qarabağ böhranı" başlayanda o ermənilərin riyakarlığını ifşa edərək "Hansı Naxçıvan", "Еще один подпевала или «разыскания» Роберта Хевсена», «Niyə Sumqayıt?», «Müftəxor geyri formallar», «Biz hara gedirik?», «Əfsanələr və əfsanə yaradanlar» adlı məqalələrlə çıxış edir. Bu da diqqətə layiqdir ki, Z.M.Bünyadov seçki platformasının 5-ci bəndidə Respublika ərazisində erməni ekstremizminin bütün təzahürlərinin ləğvini irəli sürmüşdü [7, 194].

Məhz bu vaxt repressiyalara məruz qalanların işlərini araşdırarkən

"İttihad", "Qırmızı terror", Bakı və Bakı komissarları haqqında bəzi şeylər" adlı əsərlərini yazaraq erməni daşnakları və onları himayə edən Şaumyan başda olmaqla bolşeviklərin siyasətini üzə çıxara bilmişdi [7, 201].

Beləliklə də, Z.M.Bünyadovun yaradıcılığını qiymətləndirdikdə demək olar ki, onun Azərbaycan tarixşünaslığında yaratdığı məktəb, onun oxucuların diqqətinə bağışladığı tərcümələr hələ uzun müddət bir çox tətdqiqatçıların əsas masaüstü qaynaqlarından biri olacaqdır. Mərhum akademikin fəaliyyətini onun dediyi sözlərlə dəyərləndirmək olar: "Hər bir tarixçinin ali borcu xalqına xidmətindədir, və bunun bu ximəti onun yazdığı əsərlərindədir" [29].

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Baxşəliyeva G. Akademik Ziya Bünyadovun həyat və yaradıcılıq yolu //Orta əsrlər şərqinin tarixşünaslığı və mənbəşünaslığı. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi simpoziumun Materialları (Bakı, 7-8 may 2012-ci il). Bakı. Elm.2012
2. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə . Bakı Azərnəşr.1989
3. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti. Bakı. Elm. 1984
4. Kəsrəvi S.A. Şəhriyaran-e qumnam. Fars dilindən tərcümə M.Pənahyanın. AMEA-nın Tarix İnstitunun Elmi Arxivi. № 2668
5. Mirzə Bala Azərbaycan tarixində qədim türk Albaniya. Jurnal "Azərbaycan". 1989, № 10 s.118-130
6. Məmmədov Tofiq Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı. Təhsil. 2000
7. Ölümdən güclü. Tahirə Bünyadova Ziya mənim taleyimdir. Ziya Bünyadov müasirlərinin xatirələrində. Bakı Elm.200
8. Абрамян А.Г. Мовсес Хоренаци. Ереван. Армгиз. 1962
9. Абдухалимов Бахром Вклад академика З.М.Буниятова в изучение истории Центральной Азии//Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi simpozimun MATERİALLARI (Bakı, 7-8 may 2012). Orta əsrlər şərqinin tarixşünaslığı və mənbəşünüslığı. Bakı.Elm.2012
10. Адонц Н. Армения в эпоху Юстиниана. СПб.1908
11. Акопян А.А.Албания-Алуанк в греко-латинских и древнеармянских источниках // Историко-философский журнал. 1987, № 3
12. Алиев Играр О некоторых вопросах истории древнейших мидийских племен. Тр. Института истории и философии АН Азерб. ССР, т. Азерб. ССР, т. V, 1954
13. Ал-Хусайни.Садр ад-Дин Али Ахбар ад-даулат ас-сельджукийа. пер. З. М. Буниятова М. Восточная Литература. 1980
14. Ан-Насави Шихаб ад-Дин Мухаммад Жизнеописание султана Джалал ад-Дина Манкбурны.Пер. с арабского, предисловие, комментарии, примечания и указатели З.М.Буниятов. Изд. Элм.1973

15. АнийскийА.Древнеармянские историки, как исторические источники.. Одесса.1899 /133 с./; 16.Армянская география VII (приписываемая Моисею Хоренскому) . Текст и перевод с древнеармянского с присовокуплением карт и объяснительных примечаний. Издал. Патканов К.П. СПб.1877
16. Артамонов М.И. Древний Дербент. Советская Археология. 1946. Т. VIII
17. Артамонов М.И. История хазар. Л. Гос. Эрмитаж. 1962
18. Артамонов М.И. Очерки древнейшей истории хазар. Л.Гос.соц.эконом.1936
19. Асадов Фарда О книгах и о жизни З.М.Буниятова. // Статьи о Зие Буниятове. Azərbaycan şərqşünaslığı. № 2(8)•2012
20. Асохик Всеобщая история Степаноса таронского Асохика по прозванию, писателя XI столетия. Переведена с армянского и объяснена Н.Эминым. Москва.1864
21. Баладзори. Книга завоевания стран: Текст (араб.) и перевод. /Пер. П К. Жузе. - В кн.: Материалы по истории Азербайджана, вып. 3, Баку. 1927
22. Балтабаев Хамидулла «Государство Хорезмшахов-Ануштегинидов» как литературный источник Центральной Азии XI- XIII вв.// Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi simpozimun MATERİALLARI (Bakı, 7-8 may 2012). Orta əsrlər şərqinin tarixşünaslığı və mənbəşünüslığı. Bakı.Elm.2012
23. Баратов С. История Грузии. Тетрадь II-III.История средних веков.СПБ.1871
24. Бартольд В.В. Историко-географический обзор Ирана.. Спб.1903
25. Бартольд В.В. Новое известие о стенах Дербента. Записки Восточного отделения., т.XXI, с.IV-V
26. Буниятова Тагира Зия – моя судьба. Сильнее смерти. Зия Буниятов в воспоминаниях современников. Баку.Elm.2002
27. Буниятов З.М. Albanica III. О локализаии области Гардман. Изв. АН Аз.ССР, Сер. общ. Наук.1964, № 4
28. Велиханлы Н. ЗИЯ МУСА ОГЛЫ БУНИЯТОВ — ВЫДАЮЩИЙСЯ УЧЕНЫЙ АЗЕРБАЙДЖАНА //http://ziyabunyadov.com/ziyabunyadov/docs/ru. Pdf
29. Дирр А. Грамматика удинского языка – Сборник материалов для описания местности и племен Кавказа. Вып. XXXII. Тифлис. 1909
30. Дорн Б. Каспий. О походе древних русских в Табаристан. Изд. В приложении к Зап..Академии Наук, т.26. СПб.1875
31. Еремян С.Т. Идеология и культура Албании в III-VII вв. Очерки истории СССР III-IX вв. М.1958,
32. Жузе П.К. Папак и папакизм. К истории коммунистического движения в Азербайджане в IX в. по Р.Х. //Известия Бакинского Государственного Университета. Баку, Вып.2. 1921
33. Историческая география Азербайджана. Под ред. З.М.Буниятова. Элм. Баку. 1987.
34. Йакуби. История: Текст и перевод, /Пер. П. К. Жузе. — Материалы по истории Азербайджана. , вып. 1.Баку, 1927
35. Йакут Извлечения из географического словаря Якута ал-Хамави. Ер. П.К.Жузе. Баку.1942. НАИИНАНА. Инв. № 505
36. Каганкатваци М. История агван Моисея Каганкатваци. Пер. с др. арм.К.Патканова. Спб.1861
37. Каланкатуаци М. История страны Алуанк. Пер. Ш.В.Смбатяна. Изд. АН Арм.ССР. Ереван 1984

38. Комаров А.В.Укрепления Дербента и Кавказские стены. Доклад 27 сентября 1881 г. на V Археологическом съезде. Труды V Археологического съезда в Тифлисе. М.1887
39. Крымский А.Е. Вопросы истории Северного или Кавказского Азербайджана (классической Албании) – в сб. К деятельности Ольденбурга С.Ф.. Ленинград. Изд. АН СССР, 1934
40. Магомедов Р.М. Древний Дербент – свидетель далекого прошлого Дагестана. Махачгала.Даггиз.1940
41. Малхасянц С.С. К проблеме Моисея Хоренского. Ереван. Арм.ФАН СССР, 1940
42. Мамедова Ф.Кавказская Албания и албаны. Центр исследований Кавказской Албании. Баку.2005
43. Манандян Я.А. Критический обзор истории армянского народа. Т.1. Ереван. 1944
44. Манандян Я.А. Маршруты персидских походов императора Ираклия. Византийский временник. 1950, т.III
45. Манандян Я.А. О торговле и городах Армениии в связи с мировой торговлей с древних времен (V в. до н.э. -XV н.э.). Ереван. Ереванский Университет, 1954
46. Масуди Книга сообщений и знаний. Н.А.Караулов. СМОМПК. Вып.XXXVIII, Тифлис,1908, отд. I
47. Мукаддаси Лучшее разделение для познания климатов. СМОМПК. Вып.XXXVIII, Тифлис,1908, отд. I
48. Меликсет Бек Л.М. К истории Удин. Тбилиси. Труды Тбил. Гос. Унив-та. 1942, т.XXIII
49. Меликсет Бек Л.М. К вопросу о генезисе армянского, грузинского, албанского алфавитов. ТМИА т.II, Баку. Изд. АН Азерб.ССР. 1957
50. Новосельцев А.П. Генезис феодализма в странах Закавказья. М.Наука. 1980
51. Новосельцев А.П. К вопросу о политической границе Армении и Кавказской Албании в античный период. – в сб. Кавказ и Византия. Ереван. Вып.1. 1979
52. Новосельцев А.П. Пути развития феодализма. М.Наука. 1972
53. Очерки истории СССР. Кризис рабовладельческой системы и зарождение феодализма на территории СССР. Т. I-III. Под ред.Б.А.Рыбакова. Москва. АН СССР.1958
54. Тревер. К.В. Очерки по истории и культуры Кавказской Албании (IV в. до н.э.-VII н.э.) Москва-Ленинград. 1959
55. Хасан-Джалалян Есаи Краткая история страны албанской (1702-1722) . Перевод с древнеарм. Языка Т.И.Тер-Григоряна. Предисловие и подготовка к изданию академика З.М.Буниятова // Академия Наук Азербайджанкой ССР, Институт Истории. Источники по истоии Азербайджана. Баку. Элм. 1989.
56. Хоренский Моисей История Армении. Перевод с др.арм. Н.О.Эмина. Москва.1893
57. Шопен И. Новые заметки на древние истории Кавказа и его обитателей. Спб.1866
58. Якуби История. Н.А.Караулов. СМОМПК. Вып.XXXII, Тифлис, 1903, отд.
59. Ямпольский З.И Азербайджан в период зарождения феодализма – (III-VI вв.)– Научный архив Ин-та Истории АН Азерб. ССР.1953, дело № 2787
60. Ямпольский З.И. Материалы о происхождении азербайджанского народа. Изв. Ан. Азерб. ССР. 1956, № 1
61. Янковский А. О древней Кавказской Албании. ЖМНП. СПб. 1846, ч.2, отд. II, с/97-192
62. Agathange Histoire du regue de Tiridate. V.Langlois. Fragmenta historicorum.. t.6.Paris.1870

63. Baynes N.H. Rome and Armenia in the forth century. The English Historical Review., XXV, New-York-Bombey-Calcutta.1910
64. Brosset M. Histoire de la Georgia. St.Petersbourg 1819
65. Gerland E. Die Persischen Feidzige des Kaisers Heraklius. BZ.1894
66. Hubshman H. Die Altarmenischen Ortsnamen Mitniner Karte. Indogermnischen Forschungen. Bd. SVI, h-3-5 – Strassburg, 1904.
67. Justi I. Iranischen namenbuch. Magdeburq
68. Marquart J.Osteuropäsische geoqrapische und ostasisiatische Streifzüge- Etnologische und historisch-topograpische Studien yur Geschihte des 9 und 10 Jahr hunderts (c-840-940)/ Leipzig.1903 /526 c./ 69.Marquart J.Skizzen zur historischen Topographie und Geschite von Kaukasien Das Itinerar von Artaxata nach Armstika auf der romischen Welkarte – Handes Amsorva, 11-12 1928
69. Minorsky V.F. Shekki. E.J.1927

E. Guliyev

ABOUT THE CREATIVITY OF Z.M.BUNYADOV

SUMMARY

The article was devoted to the creativitiy of Ziya Bunyadov. In the article was studied the issues of Azerbaijan history than before starting of Z. Bunyadov's creativity.

The main focus is directing to the baseless suppositions of Armenian researchers and their supporters (mainly Albanian history, church history and the history of Azerbaijan's historical borders, ethnogeny issues). In the article was given the scientific contributions of author on Azerbaijan and East history, translated historical sources by him, the opinions of famous scientisties about his researches.

Э.Гулиев

О ТВОРЧЕСТВЕ АКАДЕМИКА ЗИИ БУНИЯТОВА

РЕЗЮМЕ

Данная статья посвящена изучению научного наследия З.М.Буниятова. В статье рассматривается состояние изучения истории Азербайджана до начала научных изысканий ученого. Основное внимание уделяется разоблачению безосновательных утверждений армянских исследователей и их покровителей, в частности, по вопросам истории Азербайджанского государства Албании, ее границ, религии и этногенеза азербайджанского народа. Особое внимание уделено вкладу ученого в изучение истории Азербайджана и мусульманского Востока – переводам источников с арабского, турецкого, русского и армянского языков. Также приводятся цитаты из различных трудов выдающихся ученых-востоковедов о научной деятельности Зии Буниятова.

DİLLƏRARASI ƏLAQƏLƏRİN TARİXİ

Səbinə ALMƏMMƏDOVA

Açar sözlər: Azərbaycan, dil, tarix, əlaqə, terminologiya
Key words: Azerbaijan, language , history, connection, terminology
Ключевые слова: Азербайджан, язык, история, отношение, терминология

Özünün tarixi inkişaf dövründə insanlara xidmət edən dillər bir-biriləri ilə müxtəlif əlaqələrə girmiş və bu əlaqələr də öz növbəsində müxtəlif cür nəticələnmişdir. «Hər bir dil kollektivi tez və ya gec digər kollektivlə əlaqəyə girir və təbii olaraq əlaqəyə girmiş kollektivlərdən biri ikidilli olur, bununla da dil təmasları üçün şərait yaranır» [1,s.119]. Dillər arasında yaranan ilkin əlaqələrin tarixi başlanğıcını müəyyənləşdirmək çox çətindir və bəlkə də mümkün deyil. Müasir elm bu əlaqələrin tarixini ancaq fərziyyələr şəklində irəli sürür. Amma bu əlaqələrin köklərinin tarixin ən dərin qatlarına gedib çıxdığı heç kəsdə şübhə yaratmır. «Məntiqi təfəkkürün formalaşdığı, millətlər və xalqlar arasında iqtisadi və hərbi əlaqələrin meydana gəldiyi ən ilkin dövrlərdən başlayaraq dillər arasında da müxtəlif çeşidli münasibətlər təzahür etmişdir" [2,s.6].

Cəmiyyət yarandığı dövrdən başlayaraq insanlar bir yerdə qalmamış, miqrasiyalar nəticəsində yer üzünə səpələnmişlər. Məhz bu dövrdən, ilk insan yerdəyişmələri, qəbilələr və tayfalar arasında ibtidai əlaqələrdən başlayaraq dillər arasında da müəyyən əlaqələr yaranmışdır. Bu əlaqələri-sosial və dil əlaqələrini bir-birindən ayırmaq olmaz. Sosial əlaqələr informasiya mübadiləsinin xarakter və sferası ilə sıx surətdə bağlıdır. Məhz cəmiyyət və dil qarşılıqlı olaraq biri digərinin inkişafında katalizator rolunu oynamış, onun inkişafında stimulverici amil olmuşdur. Dilsiz cəmiyyətin, cəmiyyətsiz isə dilin mövcudluğunun mümkünsüzlüyü sübuta ehtiyacı olmayan aksiomdur. Dünya tarixində bir sıra ölü dillərin mövcudluğu (latın, sanskrit) buna bariz nümunədir.

Dilçilik ədəbiyyatında dilin inkişafından danışarkən dildaxili (intralinqvistik) və dilxarici (ekstralinqvistik) amillərdən danışılır.

Alməmmədova Səbinə – Fil.ü.f.d., dosent AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi

Dillərarası əlaqələr məhz dilxarici amillərə daxildir. Bu amillər isə ümumilikdə bütün sosial əlaqələri əhatə edir.

«Sosial əlaqələr də hər şeydən əvvəl, digər əlaqələr kimi informasiyanın qarşılıqlı mübadiləsidir» [3,s.9]. Sosial əlaqələr dillərarası əlaqələrdən kənarda mövcud deyil və onların ayrı-ayrılıqda mövcudluğu mümkün də deyil. Çünki sosial əlaqələrin özləri fərdin ünsiyyətindən kənarda mövcud deyil. Məhz bu formatda, yəni dillər arasında müəyyən əlaqələr yarandıqdan sonra hər hansı digər əlaqələrin, o cümlədən sosial əlaqələrin mövcudluğundan danışmaq olar.

Dillərarası əlaqələrin yaranma səbəblərindən danışarkən ilk növbədə dillərin tarixi inkişaf yoluna nəzər yetirmək və cəmiyyətin inkişafında onun rolunu müəyyənləşdirmək lazımdır. Artıq qeyd edildiyi kimi, cəmiyyətdən kənarda dil mövcud deyil. Bu səbəbdən də cəmiyyətin tarixi inkişafı dilin inkişafı ilə sıx bağlıdır.

Dilin inkişafının cəmiyyətin inkişafından asılılığından danışarkən dilçilər dilin inkişafının bilavasitə olmasa da, dolayısı ilə insan cəmiyyətinin dəyişməsindən asılılığını qeyd edirlər [4,s.366]. Bu səbəbdən də dillərarası əlaqələrdən danışarkən cəmiyyətin tarixi inkişafını və onun bu əlaqələrdə rolunu qeyd etmək lazımdır. Bildiyimiz kimi, cəmiyyət öz tarixi inkişafı dövründə 4 əsas ictimai-iqtisadi formasiyadan keçmişdir. İbtidai icma quruluşu, quldarlıq quruluşu, feodalizm quruluşu və kapitalizm quruluşu. Bəzi müəlliflər isə, xüsusən də sovet dövrü tarixçiləri sosializmi də ayrıca dövr kimi qeyd edirdilər.

İlkin olaraq ibtidai-icma quruluşunda cəmiyyətin və dillərin inkişafına diqqət yetirək. Bu dövrdə insanlar əsasən ovçuluq, balıqçılıq və yığıcılıqla məşğul olurdular. Xırda dəstələrdən ibarət insan toplumları müəyyən kiçik əraziləri əhatə edir və bu xırda cəmiyyətlərdə tələbat ilkin dövrlərdə əsasən qəbilə daxilində həll olunduğundan digər qəbilələrlə əlaqə yaratmaq cəhdləri demək olar ki, yox dərəcəsində idi. Maldarlıq və əkinçiliyin inkişafı daha geniş əraziləri əhatə etdiyindən qəbilələrarası əlaqələrin güclənməsinə səbəb olur və artıq neolit dövründə qəbilədaxili izdivacların qadağan edilməsi əlaqələrin genişlənməsində stimulverici rol oynadı. Bu artıq qəbilələrin birləşməsinə doğru atılan ilk addım idi.

«İbtidai icma quruluşunda dil (qəbilə dili) aşağıdakı əlamətlərinə görə xarakterizə edilir: ərazi fasiləsizliyi; birləşmə və çarpazlaşma; daimi

və dərin kontaktlar; bölünmə, dilin daxilində qrup dillərinin (məsələn kişi «dili», qadın «dili») mövcudluğu; lüğət tərkibinin surətlə dəyişməsi bəzi sözlərin qadağan edilməsi (tabu) və əvəzinə yeni sözlərin işlədilməsi (evfemizm). Bu hadisələrdən bəziləri qəbilə dilləri dövründə bitmir, sonralar da davam edir ” [4,s.395].

İbtidai dövrün digər xüsusiyyətlərindən biri də bu dillərdə ümumi anlayışı ifadə edən sözlərin, demək olar ki, tamamilə olmamağıdır. Məsələn, «Avstraliya aborigenlərinin dilində müxtəlif bitki növlərinin çoxlu adı var, amma ümumiyyətlə bitki anlayışını verən söz yoxdur» [2,s.3].

Xüsusi mülkiyyətin yaranması, ictimai bərabərsizliyə gətirib çıxardı ki, onun da nəticəsində ibtidai icma quruluşu öz yerini quldarlıq quruluşuna verdi.

Quldarlıq quruluşunun səciyyəvi xüsusiyyətlərindən biri də qulların olması idi. Qullar əsasən digər dövlətlərlə döyüş zamanı əldə edildiyindən onlar da xalqlararası qarşılıqlı əlaqənin intensivləşməsinə səbəb olurdu.

Məlum olduğu kimi, ilk dövlətlər məhz quldarlıq dövrünün məhsuludur. Dövlətin yaranması artıq vahid sərhədlərin, idarəçilik sisteminin ticarət birliyinin və ən əsası dil birliyinin yaranma zərurətini yaratdı. Bu səbəbdən də ilkin dövlətlərin yaranması dillərin inteqrasiyası və inkişafına gətirib çıxardı. Dövlətin yaranmasına qədər böyük sosiumlar (qəbilə, tayfa və tayfa birlikləri) daha çox dil birliyinə görə (qan qohumluğuna) birləşirdisə, dövlət əksinə, bir qayda olaraq ərazi əsasında formalaşır və bu ərazidə olan bütün müxtəlifdilli sosiumları özündə cəmləşdirirdi. Eyni dövlətin ərazisində müxtəlif dildə danışan bir neçə qəbilə və tayfa birliyi qala bilər, eyni zamanda, eyni tayfa dövlətin sərhədləri çərçivəsində bölünə bilərdi.

Dövlətin yaranması ilə dövləti idarə etmək üçün vacib şərtlərdən biri-vahid dilin olması problemi meydana çıxır. Buna görə də, dövlətin əsas idarəedici qüvvələri öz dillərini dövlət dili elan edir və idarəetmədə, orduda, sarayda bu dildən istifadə etməyə başlayırlar. Bu dövrdə, eyni zamanda, yazı problemi də meydana çıxır. Dövlətin yaranması ilə əlaqədar olaraq dillərarası əlaqələrin ən mürəkkəb forması olan bilinqvizmin (ikidilliyin) yaranması və genişlənməsi prosesi baş verir. Bu

da, artıq qeyd edildiyi kimi, dövlətin yaranmasından sonra vahid dilin yaranma zərurətindən irəli gəlirdi. Tayfalardan yalnız birinin dili rəsmi status alır, yerdə qalan tayfa nümayəndələri artıq hakim dili öyrənmək məcburiyyətində qalırdılar. Beləliklə, orduda xidmət edən və ya hər hansı nüfuza malik, müəyyən vəzifə tutan digər tayfa nümayəndələri hakim tayfanın dilini öyrənməklə ilkin ikidillilərə çevrilirdilər.

Bununla yanaşı, məhz bu dövrdə yazılı dilə ehtiyac yaranır və yazılı dilin müxtəlif formaları formalaşır. Hələ Roma imperiyasında vətəndaşlıq hüququ qazanmaq istəyən hər bir əcnəbi birinci növbədə latın dilini təmiz mənimsəməli idi. Latın dili imperiyaya daxil olan xalqların dillərini sıxışdırır və onlara güclü təzyiq göstərirdi. Təbiidir ki, vətəndaş olmağa çalışan qeyri latınlar da ana dillərinə latın dilinin ayrı-ayrı ünsürlərini gətirirdilər. Sonralar dini kitabların latınca öyrənilməsi, yazıda yalnız üstünlük verilməsi imperiyanın əyalətlərindəki "barbar" dillərə daha güclü təsir etməyə başlamışdı. Artıq latın sözləri həm də ədəbiyyatın və yazının təsiri ilə başqa dillərin leksikasını yeniləşdirir, burada özünə geniş yer tutmağa başlayırdı.

Bununla yanaşı, məhz bu dövrdə yazılı dilə ehtiyac yaranır və yazılı dilin müxtəlif formaları formalaşır. Yazılı dil dialekt xarakteri daşımır və şifahi formalardan fərqlənirdi. Ancaq bu, çox az təbəqəyə mənsub olan dil idi və əsasən əhalinin varlı təbəqəsini əhatə edirdi. Daim dəyişən xalq danışıq dili ilə müqayisədə bu dil çox sabit və mühafizəkar idi. Amma heç də bütün dillər öz yazılı formalarını tezliklə yaratmadı. Məsələn, bütün Qərbi Avropada orta əsrlərdə ancaq Roma imperiyasından qəbul edilən latın, slavyan ölkələrində kilsə, şərq ölkələrində isə ərəb və fars dilləri yazılı dil rolunu oynayırdı. Belə hadisələr müasir dövrdə də Afrikanın bir sıra ölkələrində qalmaqda davam edir. Məsələn, Nigerdə və Seneqalda bütün dövlət müəssisələrində fransız, Nigeriya və Qambiyada ingilis, Anqola və Mozambikdə isə portuqal dilindən istifadə edilir. Bu dövlətlərdə xarici dildən dövlət dili kimi istifadənin zəruriliyi Afrika xalqlarının çoxunda hələ də ədəbi dilin tam formalaşmamağı, dialekt fərqlərinin çoxluğu, elmi texniki və hüquqi terminologiyanın yaradılmamağı ilə izah edilir. Lakin müəyyən bir dövr keçdikdən sonra hər bir xalqın yazılı dili formalaşır. O əvvəlcə kənar dili şəxsi yazışmalardan və bədii ədəbiyyatdan, sonra isə dövlət sənədləşməsindən

və ən nəhayət hətta dini ayinlərdən də çıxara bilir.

İslam dininin meydana gəlməsi və müsəlmanlığın yayılması ərəb dinin təsirini təmin etmiş oldu. Müsəlman ölkələrində ərəb dilinin öyrənilməsi və mədəni həyatda xilafətin dövlət dilindən istifadə olunması tələb edilirdi. Burada "Qurani-Kərim" in tərcüməsiz, yalnız ərəb dilində öyrənilməsi tələbinin də böyük rolu var idi. İslamdan qabaqkı dövrlərə aid "cahiliyyə mədəniyyəti" adlanan amilin tamamilə məhv edilib sıradan çıxarılması, daha qədim kitabələrin və əlyazması abidələrinin baxımsız qalması xilafətin ayrı-ayrı ərəb ölkələrində yeritdiyi dil siyasətinin nəticəsi idi və bununla dillərin bəziləri isə öz əski milli leksikasının böyük bir hissəsini arxaik fond kimi itirib yaddaşlardan sildi. Əvəzində ərəb dilindən yeni-yeni dini fəlsəfi və mədəni iqtisadi leksik vahidlər qəbul edilirdi.

Beləliklə, dinin və sakral ədəbiyyatın yayılması hərəkatı qərbdə - latın, şərqdə -ərəb dillərinin hegemonluğunu təmin etdi. Ədəbi-mədəni dil kimi bu iki dil yüzillər boyu milli dillərə təsir etdi, onların leksik-semantik, fonetik, qrammatik, üslubi yeniləşmələrində hissediləcək rol oynamış oldu. Bu isə qərb və şərq dillərində regionalizmlər adlana biləcək beynəlxalq sözlər fondunun yayılmasına səbəb oldu. Ümumiyyətlə, dünyanın insan yaşayan bütün ərazilərində bu cür tarixi qruplaşmalar baş vermişdi. Məsələn, nax və türk dillərinin qarşılıqlı məkan əlaqələr mürəkkəb olmuşdur. Faktlar göstərir ki, bu əlaqələr region daxili səciyyə daşıyırdı. Lakin ümumdünya inkişaf prosesində linqvistik aspektdə latın və ərəb amili daha qabarıq sezilirdi "dinin dili" amili özünü göstərirdi [5, s.8].

Dövrün səciyyəvi xüsusiyyətlərindən biri xalq dillərinin formalaşmasıdır. Feodalizm dövrü üçün də xarakterik olan xalq dilləri kapitalizmə qədərki dövrü əhatə edir. Ədəbi dilin yaranması və təşəkkülü bu dövrdə formalaşır. Azərbaycan ədəbi dilinin təşəkkül dövrü də tam olaraq təxminən XI-XIII əsrlərdə başa çatır [6, s.52].

Feodalizm dövrü, eyni zamanda, feodal pərakəndəliyi ilə tarixə düşüb. Ziddiyyətli də olsa, bu dövrdə mədəni inkişaf baş verirdi. Feodal parçalanmaları dialekt müxtəlifliyinin güclənməsinə gətirib çıxarırdı. Bir sıra dilçilik ədəbiyyatlarında məhz bu dövr dialekt müxtəlifliyinin yarandığı dövr kimi xarakterizə olunur. «Bu dövrdə müxtəlif tayfaların

məhəlli ərazi dialektləri meydana gəlir. Bu dialektlər həm dövlətin öz ərazisi daxilində (fransız ***patois,*** alman ***mundorten,*** rus ***говоры***) feodal dağınıqlığından və ayrı-ayrı vilayətlərin ayrılmasından həm də əhalinin qarışması ilə əlaqədar olaraq müxtəlif substratların təsiri ilə bağlı bir-birinə həm yaxın, həm də uzaq ola bilər" [7,s.496]. Demək olar ki, bütün dilçilər dialektlərin məhz bu dövrdə yarandığı fikrini dəstəkləyirlər. «Dialekt feodal dağınıqlığı dövründə yaranır [8,s.180]. Bəzi dilçilər isə bu fikri rədd edirlər. Onların fikrincə, dialekt feodalizmdən əvvəlki dövrün, ibtidai icma dövrünün qəbilə dillərinin qalığıdır» [4,s.397]. Bu fikirlə qismən də olsa razılaşmaq olar, amma bır şeyi nəzərdən qaçırmaq olmaz ki, məhz feodalizm dövründə dialekt parçalanması gücləndi. Bu dövr üçün səciyyəvi xüsusiyyət dialektlərin bir-biri ilə və ədəbi dillə olan qarşılıqlı əlaqəsidir ki, o da dilçilik ədəbiyyatında diqlossiya kimi nəzərdən keçirilir. «Əgər bilinqvizm eyni zamanda mövcud olan iki dilin qarşılıqlı əlaqəsidirsə, diqlossiya bir dilin daxilində eyni zamanda mövcud olan müxtəlif formaların bir-biri ilə qarşılıqlı əlaqəsidir [9,s.117].

Qədim və orta əsrlərdə dillərarası əlaqələrin yaranma səbəblərindən danışarkən ilk növbədə ticarət əlaqələrindən və xalqların müxtəlif səbəblərlə bağlı yerdəyişmələrindən də danışmaq lazımdır. Qədim ticarətin yaranması istehsal edilən məhsulun çoxalması və onların dəyişdirilməsi zərurətindən yaranırdı. İnsanların yığıcılıqdan əkinçiliyə və heyvandarlığa keçidi, daha sonralar isə sənətkarlığın yaranması, mal mübadiləsi və ticarətin inkişafını şərtləndirən əsas amillərdəndir.

İlkin ticarətin yaranmasından danışarkən tədqiqatçılar onun sosial inkişafa təsirinin iki tərəfini qeyd edirlər: «bir tərəfdən məhz ticarət əlaqələri vasitəsi ilə əyalətlər sivilizasiyaların qədim mərkəzləri ilə əlaqəyə girir, digər tərəfdən ticarət həm mərkəzdə həm də əyalətlərdə sosial və mülki bərabərsizliyə gətirib çıxarırdı» [10,s.253]. Məhz ticarət siniflərarası bərabərsizliyi təmin etdiyindən dövlətin yaranmasında mühüm rol oynadı.

Ticarət getdikcə öz əhatəsinə daha çox insan kollektivlərini cəlb edir və beləliklə kollektivlərarası əlaqə gücləndikcə dillərin qarşılıqlı əlaqəsi də güclənir, dillər biri-birindən söz alır, müəyyən ümumi anlayışlar meydana çıxırdı. Buna ticarət əlaqəsi zamanı predmetlərin bir xalqdan digərinə keçməsi də təkan verirdi. Prosesin güclənməsində ticarət

yollarının da mühüm əhəmiyyəti olmuşdur. İnsanlar daha çox bu yollar üzərində məskən salır, qədim şəhərlər bu yolların üzərində tikilir və çox zaman bu yollara nəzarəti ələ keçirmək üçün dövlətlər yaranırdı. Müxtəlif ölkələrdən olan tacirlər ticarət yolları ilə daha çox hərəkət edir, bu da öz növbəsində mədəniyyətlərin inteqrasiyasına, o cümlədən dillərarası əlaqələrin güclənməsinə gətirib çıxarırdı. Buna misal olaraq Böyük İpək yolunu göstərmək olar. «Uzun müddət qədim sivilizasiyaların məskəni olan, şərq və qərb mədəniyyətlərini özündə ehtiva edən Çin və Bizans arasında əsas ticarət yolu olan bu strateji əraziyə demək olar ki, Hun imperiyası tam nəzarət edirdi: (e.ə. I minilliyin sonundan eramızın əvvəllərinə qədər) 552-ci ildə bu yola nəzarəti I Türk xaqanlığı ələ keçirdi. Daha əvvəl isə bu yolun mərkəzində Orta Asiyada Soqdiana dövləti mövcud idi. Bu dövlət bütün yol boyu xalqların təmaslarında böyük rol oynamışdır. Təbii ki, bütün bu proseslər yol boyunca məskunlaşan çoxsaylı xalqların mədəniyyətlərinin və dillərinin inkişafında özünü göstərməyə bilməzdi. Məsələn, qədim türk runik yazısının soqdi əlifbasının təsiri ilə yarandığı qeyd edilir» [11,s.53].

Eyni hadisələrə digər yerlərdə də rast gəlmək olur. Məsələn, «orta əsrlərdə Qərbi Avropa ölkələri və İtaliya arasında ticarət yolu üzərində bir neçə şəhər yarandı. Bu strateji mövqeləri bir çox dövlətlər ələ keçirmək istəyirdi. Avstriya habsburqları buna daha çox can ataraq işğalçılığa başladılar və Habsburqlarla mübarizə aparmaqdan ötrü Şviç, İri və Untervald əyalətləri birləşdi. Bu isə gələcək İsveçrənin tarixi əsası oldu. Onların birliyi haqqında 1291-ci ildə imzalanan sənəd isə İsveçrə dövlətinin rəsmən yarandığı il hesab olunur» [12, s.140].

Göründüyü kimi ticarət yolları tam müxtəlif etnoslardan təşkil olunmuş bir dövlətin yaranması zərurətini yaratdı. Bildiyimiz kimi, İsveçrədə dörd müxtəlif mənşəli etnos yaşayır. Maraqlı cəhət isə bundan ibarətdir ki, İsveçrə Avropanın üç ən qədim və həcminə görə böyük xalqı olan alman, fransız və italyanlarla həmsərhəd olsa da, zaman-zaman bu dövləti parçalamaq cəhdlərinə baxmayaraq öz müstəqilliyini günümüzə qədər qoruyub saxlaya bilib. «Məhz bu xalqların təsiri ilə İsveçrədə german mənşəli isveçrəlilər, fransız mənşəli isveçrəlilər və italyan mənşəli isveçrəlilər ayrıca etnik cəmiyyət kimi formalaşmış və yerli xalqla birlikdə gələcək dövlətin əsasını qoymuşlar [11,s.136].

Bir çox dilçilər bu ərazilərdə almandilli və romandilli əhali arasında dəqiq sərhədlərin olmamağını qeyd edirlər. «Məhz bu dövrdə, təxminən on beşinci yüzillikdə İsveçrə dil ittifaqını xarakterizə edən linqvistik kontaktların (interferensiya) mənbələri yaranır» [13,s.94]. Ilkin dövrlərdə tərcüməçilərin, səyyahların sonralar isə lüğət tərtibatçılarının da dillərarası əlaqələrin inkişafında müstəsna xidmətləri olmuşdur.

Dünyanın etnik xəritəsini dəyişən əhali miqrasiyası həmişə olmuşdur. Bu mənada dünya tarixində yerdəyişmələr insan cəmiyyəti yaranandan bu günə qədər davam edir. «Ümumiyyətlə bir şeyi nəzərə almaq lazımdır ki, insan tarixi antropoloji, dil və mədəni məxsusluğu baxımından həmişə kontaktlar və qarışmalar tarixi olmuşdur [14,s.15].

İnsanların bu cür lokal yerdəyişmələri bəzən qlobal xarakter almış, bəlkə də, bütün dünyanı əhatə edə biləcək bir səviyyəyə çatmışdır. Belə yerdəyişmələrə xalqların böyük köçünü misal göstərmək olar. Bu hadisənin başlanmasına hunlar bir növ başçılıq etdilər. Hunlar öz dövlətlərini qurduqdan sonra bütün Böyük İpək yolunu nəzarətdə saxlayırdılar. Onların Mərkəzi Avropaya gəlişi ilə xalqların böyük köçü başladı. Bu hadisə Qərbi Avropada X əsrdə macarların əvvəlki Pannoriya ərazilərinə qayıtması ilə bitdi. Xalqların böyük köçü dillərarası əlaqələrin inkişafında xüsusi rol oynadı. Belə ki, bu hadisədən sonra dünyanın etnik xəritəsi, demək olar ki, tam dəyişdi. Bir sıra xalqlar yeni ərazilərə köçdülər, bu da öz növbəsində dillər arasında əlaqələrin intensivləş-məsinə, tamam yeni forma və məzmun kəsb etməsinə gətirib çıxardı.

Bəşəriyyət öz tarixi inkişafı dövründə son olaraq kapitalizmə qədəm qoyur. Bu dövrdə böyük sənaye mərkəzləri və şəhərlərin inkişafı ilə əlaqədar olaraq bu yerlərə müxtəlif ərazilərdən əhalinin axını başlayır. Bu da dillərarası əlaqələrin daha intensiv xarakter almasına şərait yaradır. İri sənaye şəhərlərinə axının güclənməsi və urbanizasiya prosesləri dialektlərin getdikcə zəifləməsi, vahid ədəbi dilin güclənməsi və milliləşməsi ilə nəticələnir. Şəhərlərdə coğrafi ərazi vahidləri ilə bağlı olmayan və müəyyən zümrələrə xidmət edən dialektlər formalaşır. Dövlətdaxili dil problemləri daha da güclənir, milli burjuaziyanın formalaşması ilə əlaqədar dövlətin ərazi çərçivəsində qalan milli azlıqlarda da fəallaşma başlayır. Nəticə etibarı ilə bu da dövlətdaxili münaqişələrin güclənməsi ilə şərtlənir. Dövrün əsas xüsusiyyətlərindən

biri də milli dillərin formalaşmasıdır. Bir sıra dilçilər milli dilin formalaşmasını kapitalizm dövrü ilə bağlayırlar [15,s.228; 16,s.10; 7,s.50]. Azərbaycan dilinin milliləşmə dövrü isə təxminən XVI-XVIII əsrlərə aid edilir [17,s.197]. Müəyyən tədqiqatlarda isə bu hadisənin Azərbaycanda kapitalizmin artıq bərqərar olduğu bir dövrə, XIX əsrin ikinci yarısına təsadüf etdiyi göstərilir [15,s.229].

Artıq qeyd etdiyimiz kimi, bu dövrdə millətlər və milli dillər formalaşır. Milli dilin formalaşması və möhkəmlənməsi zərurəti məktəblərin güclənməsini, milli mətbuatın və milli teatrın yaranmasını ön plana çıxarır. Sonrakı dövrlərdə radio və televiziyanın yaranması və inkişafı da bu prosesi sürətləndirir. Bütün bunlar ədəbi dilin möhkəmlənməsi prosesini gücləndirir. Diqlossiyaya getdikcə daha az təsadüf edildiyi halda, bilinqvizm geniş vüsət almağa başlayır. Bu da, ədəbi dil bərqərar olduqca dövlətin idarəetmə sistemində iştirak etməyə can atan milli azlıq nümayəndələrinin getdikcə daha çox dövlət dilinə meyl etməsi ilə bağlıdır. Burada dövlətin dil siyasətinin da mühüm rolu vardır. Məlumdur ki, hər bir dövlət öz dilinin inkişafında və təbliğində maraqlıdır. Lakin kapitalizm dövründə dövlətlər bu məsələyə daha çox diqqət yetirməyə başlayırlar. Bəzi tədqiqatçılar bəzən bilinqvizmi də dil siyasətinin nəticəsi kimi qələmə verməyə çalışırlar. Lakin nəzərə almaq lazımdır ki, ikidilliliyin yaranması dil siyasətindən daha əvvəlki dövrlərə gedib çıxır və bu hadisəni heç də son dövrlərə aid etmək düzgün olmazdı. Lakin dil siyasətinin də bilinqvizmin inkişafında müstəsna xidmətləri olmuşdur. Bu da, artıq qeyd etdiyimiz kimi, daha çox dövlətin yaranması ilə bağlıdır.

Ancaq bu dövrdə məktəblərin yanmasından xüsusi danışmaq lazım gəlir. Məhz məktəblərin kütləviləşməsi, orta və ali təhsil sisteminin güclənməsi və milli xarakter alması bilinqvizmin geniş yayılmasında stimulverici rol oynadı. Təhsilə marağın artması və dövlətin bu sahəyə göstərdiyi maraq dövlət dilinin getdikcə güclənməsinə gətirib çıxarır. Bu proses həm dövlətin ərazisində yaşayan digər xalqların dillərinin, həm də dialekt və şivələrin zəifləməsi ilə müşahidə olunur. Nəticədə, vahid ədəbi dilin möhkəmlənməsi prosesi güclənir. «Çoxmillətli dövlətlərdə hakim millət milli azlıqların dillərini sıxışdırır və digər milli dillərin istifadəsini ancaq məişət ünsiyyəti ilə məhdudlaşdırır. Bu hadisə böyük millət şovinizmi adlanır (məsələn, əhalisinin milli mənsubiyyəti nöqteyi

nəzərdən "loskut" olan Avstriya-Macarıstanda alman dilinin hökmranlığı; balkan xalqlarının türkləşdirilməsi; çar Rusiyasında kiçik xalqların məcburi ruslaşdırılması və s.)» [7,s.510].

Bilinqvizmin yayılmasını şərtləndirən amillərdən biri də bu dövrün ziyalı və varlı təbəqəsinin xarici dilə yaranan meyli ilə əlaqədardır. Varlılar özlərini kasıb təbəqədən ayırmaq üçün digər bir dili öyrənib bu dildə danışmağa üstünlük verir və bunu aristokratiyanın nümunəsi kimi qələmə verirlər. Buna Rusiyada XVIII-XIX əsrlərdə fransız dilinə güclü meyl edilməsini, Azərbaycanda da bu dövrdə bir çox xarici dilləri (rus dili, Türkiyə türkcəsi, ingilis, fransız və s.) öyrənmək meyllərinin güclənməsini misal göstərmək olar. Bəzən isə, bu, özünü ədəbi dilə olan münasibətdə də göstərir. Belə ki, yuxarı təbəqəyə məxsus insanlar ədəbi dilin ancaq onlara məxsus olduğunu və bu dilin ümumxalq danışıq dilindən fərqlənməsinin vacibliyini qeyd edirlər. XX əsrin əvvəllərində Azərbaycanda da buna oxşar vəziyyət mövcud olmuşdur. Müasir Türkiyədə indinin özündə də ədəbi dilə ümumxalq danışıq dili arasında müəyyən fərq özünü göstərir. Bir sıra ölkələrdə isə bu həm də ölkədə orta və ali təhsilin hələ tam möhkəmlənməsi ilə bağlıdır. Məlumdur ki, müstəqilliyin ilkin dövrlərində xaricdə təhsil almaq zərurəti yaranır ki, bu da xarici dilin ölkədə geniş yayılmasına gətirib çıxarır. Lakin müəyyən bir dövrdən sonra milli dil güclənməyə başlayır, milli şüur formalaşır və bu meyllər getdikcə zəifləyir. Bir sıra hegemon dövlətlər də bu işdə maraqlı olduqlarından bunun üçün xüsusi tədbirlər görür, müxtəlif ölkələrdə liseylər açır, mətbuat orqanları, mədəniyyət mərkəzləri yaradır və s. Bu xüsusən müstəqilliyini yeni qazanmış ölkələrdə daha çox hiss olunur.

Dillərarası əlaqələrdən danışarkən son illər dünyada baş verən prosesləri nəzərə almamaq olmur. Xüsusən sovet dövləti dağıldıqdan sonra dünyada soyuq müharibənin və qütbləşmənin bitməsi, qloballaşmanın geniş vüsət alması, əlaqələrin getdikcə daha da artan sürətlə inkişafı, qlobal internet şəbəkəsinin inkişafı peyk televiziyaların adi hal alması, distans təhsilin getdikcə adiləşməsi, iqtisadi maraqların digər maraqları üstələməsi fonunda xalqların və dillərin inteqrasiyası prosesləri daha çox maraq doğurur.

Son illər dillərarası əlaqələrdən danışarkən bu prosesin daha çox əraziləri əhatə etməsindən danışmaq lazımdır. Belə ki, artıq dünyada

iqtisadiyyatın qloballaşması fonunda, demək olar ki, bütün digər millətlərdə və dövlətlərdə ingilis dilinə maraq köklü şəkildə dəyişmişdir. İndi hər kəs ingilis dilinə maraq göstərir və bu dili öyrənməyi zəruri sayır. Digər tərəfdən xarici dil öyrənmək bütün ölkələrin təhsil sisteminin prioritet sahələrindən biridir. Bütün bunların məntiqi nəticəsidir ki, bilinqvizm və multilinqvizm kütləvi hal alır. Artıq bilinqvizmdən fərdi, psixoloji hal kimi deyil, kütləvi hal kimi danışılır.

Göründüyü kimi, Avropada dillərin və mədəniyyətlərin inteqrasiyası fonunda eyni zamanda diferensiasiya prosesləri də surətlə davam edir. Demək olar ki, bütün azlıqların dilində məktəblər açılıb, mətbuat və informasiya azadlığı verilib. Sözsüz ki, milli dilin inkişafında məktəblərin xüsusi rolu var. Bu mənada demək olar ki, bütün milli azlıqların dillərində məktəblər var. Bu da inkişafın necə müxtəlif səpgidə getməsinin bariz nümunəsidir.

Dillərarası əlaqələrin öyrənilməsini stimullaşdıran amillərdən biri də son illər miqrasiyaların geniş vüsət almasıdır. Bu proses bütün dövrlərdə aktual olmuşdur. Lakin, son dövrlər bu proses daha çox intensivləşmişdir. Artıq qeyd edildiyi kimi kapitalizmin yaranması ilə iri sənaye şəhərlərinə miqrasiyalar güclənir.

İş axtarmaq məqsədi ilə iqtisadi cəhətdən az inkişaf etmiş yerlərdən sənaye cəhətdən inkişaf etmiş ölkələrə miqrasiyalar isə xarakterə ölkədaxili miqrasiyalardan fərqlənir. Buna misal olaraq Avropanın inkişaf etmiş ölkələrinə, ABŞ-a və Kanadaya dünyanın müxtəlif ölkələrindən olan axını göstərə bilərik. Məsələn, Amerika Birləşmiş Ştatlarını götürək. Bu ölkə yarandığı gündən ingilis mühacirləri tərəfindən əsası qoyulan dil və mədəniyyətin əsasında formalaşmışdır. Sonradan buraya müxtəlif ölkələrdən emiqrantlar köçməyə başlamışdır. Onlar Amerika ideyalarını qəbul etsələr də, ingilis dilinin təsirinin çox güclü olmasına baxmayaraq, öz dil və mədəniyyətlərini saxlamağa çalışmışlar.

XX əsrin əvvəllərində belə ABŞ-da alman məktəbləri mövcud idi və I dünya müharibəsi zamanı bir çox ştatlarda belə məktəblərin bağlanması ilə bağlı fikirlər səslənirdi. Lakin 1968 və 1974-cü illərdə ABŞ-da «ikidilli təhsil haqqında» qanun «Bilingual Education Act» qəbul edilir və bunun üçün dövlət büdcəsindən xüsusi vəsait ayrılır [18,s.88].

Göründüyü kimi, emiqrantların təhsil və dil problemləri müasir

dövrdə Avropada da Amerikada da xüsusi əhəmiyyət kəsb edir. Miqrasiyanın son dövrlər bu qədər geniş yayılması dillərarası əlaqələrin də genişlənməsi ilə nəticələnir. İngilis dilinin amerikan variantının öz sələfindən getdikcə daha çox fərqlənməsi də məhz bu proseslərin güclənməsinin nəticəsidir. Məsələn, ABŞ-da ən çox emiqrantlar ispandilli ölkələrdən olduğundan bu ölkədə təxminən 15 milyona yaxın ispandilli əhali yaşayır. Sözsüz ki, bu qədər əhali dilin inkişafında öz təsirini göstərməyə bilməz.

Söylənilənlərdən belə nəticəyə gəlmək olar ki, dillər arasında əlaqələr müxtəlif səbəblərdən baş verə bilər. Məhz buna görədir ki, hətta bəzi dilçilər bu sahəni ayrıca dil sahəsi kimi öyrənilməyi məqsədəuyğun sayırlar. Dillərarası əlaqələri öyrənərkən həm sosiolinqvistik, həm etnolinqvistik, həm də psixolinqvistik metodlardan istifadə etmək lazım gəlir. Dillərarası əlaqələrin yaranma səbəbləri isə daha çox tarixi şəraitlə bağlıdır. Artıq qeyd etdiyimiz kimi, bu səbəblərdən danışarkən ilk növbədə ta qədimdən bu günə qədər olan tarixi hadisələri nəzərdən keçirmək lazımdır. Bu əlaqələrin yaranmasında və intensivləşməsində mövcud olan ilkin şərtlər kimi xalqların bır yerdən digər yerlərə köçməsi, ilkin qəbilə və tayfadaxili əlaqələr, müxtəlif dövrlərdə baş verən müharibələr, ticarət əlaqələri, dövlətin yaranması və onun dil siyasəti, təhsil sisteminin yaranması və ən nəhayət müasir radio və televiziyaların yaradılması, internet və distans təhsilin getdikcə daha çox yayılması, miqrasiyanın adi hal almasını göstərmək olar. Bütün bunların hamısı dil əlaqələrinin yaranma səbəblərini şərtləndirən amillərdir.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Джидалаев Н.С. К характеристике Türcica Dagestanica // Вопросы Тюркских языков и взаимоотношения их с другими языками /Материалы всесоюзной иаучной конференции по тюркским языкам проводимой в г. Баку с 14-18 октября 1969 г.,
2. Abbasova B. Sözalma hadisəsinin əsasları. Bakı. Azərnəşr, 1995, 91 s.
3. Журавлев В.К. Внешные внутренние факторы языковой эволюции. М., «Наука», 1982, 328с.
4. Rəcəbli Ə.Ə. Nəzəri dilçilik, Bakı, Nurlan, 2003, 515 s.
5. Мусорин А.Ю. Основы науки о языке // www/ binetti. ru \ studia\ musorin/-1.-1.-1/shtm\ ft 3.
6. Xudiyev N.M. Azərbaycan ədəbi dilinin sovet dövrü, Bakı. Maarif, 1986, s.402
7. Реформатский А.А. Введение в языковедение. М. Аспект пресс. 2001, s.536
8. Кодухов В.И. Общее языкознание. М., Высш. школа, 1974, с.303

9. Швейцер А.О. Нокольский, Л.Б.Введение в социолингвистику. М., Высш. школа, 1978, с. 216
10. Первобытная переферия классовых обществ до начало Великих географических открытий. М., «Наука», 1978, с.301
11. Qumilyov L.N. Qədim türklər. Bakı. Gənclik.1993, 538s.
12. Листова Н.М. К вопросы о формировании Щвейцарской начальной общности // Сов, s,140
13. .Сергиевский М. В. Введение в романское языкознание М., Из.лит.на иност. яз.1952. с.280
14. Сумбатзаде А.С. Азербайджанцы –этногениз и формирование народа. Баку. Элм, 1990, с. 304
15. Qurbanov A.M. Ümumi dilçilik. 2-ci cild Bakı. Maarif, 1993, s.548.
16. Rəcəbov Ə.Ə. Həmzəyeva E.H. Bilinqvizm problemləri // Azərbaycan –rus – ikidilliyi. Bakı. Bakı Universitetinin nəşriyyatı, 1991, s. 398 s.3-10
17. Cəfərov N.Q. Azərbaycan türkcəsinin milliləşməsi tarixi. Bakı. Azərbaycan Dövlət Kitab Palatası, 1990, s.208
18. Сигуан М., Макки У.Ф. Образование и двуязычие. М.; Педагогика, 1990, 184с.

С. Алмаммедова

ИСТОРИЯ МЕЖЪЯЗЫКОВЫХ СВЯЗЕЙ

РЕЗЮМЕ

Со времени создания человеческого общества люди не задерживались на одном месте, распространяясь в результате миграций по всему земному шару. Именно со времени первых перемещений людей, создания ранних связей между родами и племенами, возникли определенные межъязыковые связи. В статье история развития человеческого общества рассматривается в тесной связи с развитием языка.

S. Almammadova

HISTORY INTERLANGUAGE LINKS

SUMMARY

Since the creation of the society people did not stay in one place, spreading as a result of migration around the globe. That is since the first movement of people, the creation of early relationships between genera and tribes had some cross-language communication. The article examines the history of the development of society, in close connection with the development of language.

AZƏRBAYCANDA AİLƏ MƏİŞƏTİNİN BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR
(qəhrəmanlıq dastanları əsasında)

Təranə QULUZADƏ

Açar sözlər: ailə, nikah, toy, övlad
Key words: family, marriage, wedding, child
Ключевые слова : семья, брак, свадьба, ребенок

Ailə və ailə məişətinin öyrənilməsi elmi, nəzəri və praktiki əhəmiyyət kəsb edərək etnoqrafiya elminin qarşısında duran mühüm problemlərdən biri kimi diqqəti çəkir. Tarixi kateqoriya fonunda xarakterizə edilən ailə, cəmiyyətin özəklərindən biri sayılaraq onunla daha sıx bağlıdır. Məhz buna xitabən cəmiyyətdə baş verən dəyişikliklər, daha açıq desək, irəliləyişlər və ya geriləmələr ailəyə də öz təsirini göstərir. Deməli, ailə və ailə məişətinin araşdırılması həm də cəmiyyətin özünün, onun keçib gəldiyi tarixi dönəmlərin tədqiqidir.

Xatırladaq ki, mənbələrin kasadlığı ücbatından xalqımızın qədim və orta əsrlər dövrünün ailə-məişət məsələlərini lazımi səviyyədə araşdırmaq o qədər də asan deyildir. Buna baxmayaraq, şifahi xalq yaradıcılığı nümunələrinin, eləcə də qəhrəmanlıq dastanlarından toplanan bu və ya digər etnoqrafik materialların yardımı ilə ailə və ailə məişəti məsələlərini araşdırmağa, müəyyən elmi nəticələr əldə etməyə nail olmaq mümkündür.

Ailə, tarixi dönəmlərin müəyyən inkişaf mərhələsində nikah və qan qohumluğu əsasında təşəkkül taparaq eyni məişət birliyinə və birgə yaşayış tərzinə mənsub olan insanların ən kiçik kollektivi kimi xarakterizə edilir. Ailə həm də adətlərin, mərasimlərin, qayda-qanunların, bu və ya digər mənəvi dəyərlərin yerinə yetirildiyi, əməl olunduğu özək sayılır. (10, 297)

Etnoqraf alimlər ailənin iki-böyük və kiçik formada olmasını qeyd edirlər. (8, 84) Etnoqrafik ədəbiyyatda ailə icması, mürəkkəb ailə və yaxud patriarxal ailə adıyla məlum olan böyük ailələr adından da göründüyü kimi, bir neçə nəslin nümayəndələrindən ibarət olaraq atanı,

---

Təranə Nəsimi qızı Quluzadə - AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işçisi

oğulu, nəvəni, nəticəni, həmçinin qardaşların ailələrini birləşdirən kiçik ictimai kollektiv, təsərrüfat özəyi idi. (10, 298)

Azərbaycanda böyük ailə icmasının nə zaman parçalanması barədə dəqiq məlumatın olmaması məsələnin bir qədər qəliz yeridir. S.Tolstov Orta Asiyada (17, 132), M.Dyakonov isə İranda böyük ailələrin V əsrdə parçalandığını yazırlar (15, 19). Azərbaycan alimi Q.Qeybullayev böyük ailələrin Azərbaycanda da həmin dövrdən parçalanmağa başladığını qeyd edir (8, 88).

Qalıq halında olsa da, patriarxal ailələr öz mövcudluğunu qoruyub saxlayırdı. Bu barədə istər şairlərimizin yaradıcılığından (1, 70), istərsə də orta əsr Azərbaycan dastanlarından məlumat almaq mümkündür. Məsələn, «Qurbani» dastanından bir epizoda diqqət yetirək: «… Xudafərin körpüsü ilə Araz-Kür qovşağı arasında Arazboyu yeddi yüz yetmiş iki ev yaşayırdı. Bunların hamısı Dirili Hüseynalı xana baxırdı. Hüseynalı xan çox arxalı, çox varlı, dövlətli bir xan idi. Hüseynalı xanın atadan-anadan doğma Mirzəli xan adında bir qardaşı var idi. Mirzəli xan çox yumşaq xasiyyətli bir adam idi. Özünün də züryətdən heç nəyi yox idi. Qardaşlar nə qədər ki, ataları sağ idi, bir yerdə yaşayırdılar. Elə ki, ata öldü, Hüseynalı xan öz oğlanlarına arxalanıb qardaşı Mirzəli xanı evdən çıxardı (7, 204). Göründüyü kimi, burada həm böyük ailənin mövcudluğunun, həm də onun dağılması prosesinin şahidi oluruq. Ümumiyyətlə, azlıq təşkil etsə də, böyük ailələr XIX əsrin sonu – XX əsrin əvvəllərində də mövcud olmuşdur. Bu haqda etnoqrafik ədəbiyyatda da məlumat verilir (8, 90; 16, 16; 9, 145).

Böyük ailələrdə istər subay, istərsə də ailəli oğullar valideynləri ilə birlikdə yaşayırdılar. Əsas başçı ata sayılırdı. Ailədə böyük-kiçik məsələsinə yetərincə önəm verildiyindən hərə öz danışığında, oturub-durmağında, davranış qaydalarında diqqətli olmağa çalışardı. Bütün ailə üzvləri ataya hörmətlə yanaşardı. Onun məsləhəti və göstərişi hər bir ailə üzvünün qulağından sırğa kimi asılardı. Həlli müşkül məsələlər onun əncam çəkməsiylə həll olunurdu. Ailənin bütün əmlakı onun ixtiyarında idi. O, kiçicik bir səhvi görməməzliyə vursa da, böyük səhvləri bağışlamaz, ailənin ağır səhv işlətmiş istənilən üzvünü əmlak hüququndan məhrum edərək evdən qova bilərdi (3, 213). Ata öldükdə isə ailəyə başçılıq etmək səlahiyyəti böyük oğula keçirdi.

Etnoqrafiya elminin vurğuladığı mövcud fikrə görə yaranmasının və inkişafının ilkin dövründə böyük ailələrdə qarşılıqlı münasibətlər adətlərlə tənzim olunan demokratik prinsiplərə uyğun həyata keçirilirdi.

Böyük ailələrin parçalanması və ailədə oğulun evləndikdən sonra atadan ayrılması kiçik (nuklear) ailələrin yaranmasına səbəb olurdu. Bu zaman əmlak bölgüsü də baş verirdi. Əmlak həm şəxsi, həm də ümumi mülkiyyətdən ibarət olaraq şəriət qayda-qanunları əsasında bölüşdürülürdü. Yəni qardaşlara eyni miqdarda, qıza qardaşa verilən payın yarısı qədər, anaya isə şəxsi mülkiyyətə (zinət əşyaları, dizdayağı, kəbin haqqı və s.) malik olduğu üçün bu payın səkkizdə biri düşürdü. Yaşlı valideynlərə «xeyratlıq», subay qardaşa «əryənnik», subay qız üçün isə «cehizlik» müəyyən edilirdi (8, 100-102).

Etnoqrafik ədəbiyyatdan bəllidir ki, ailə bütün dövrlərdə gərəkli sayılan üç funksiyanı yerinə yetirmişdir: nəsilartırma, təsərrüfat məşğuliyyəti və uşaqların tərbiyəsi (8, 111).

Ümumtürk düşüncəsinə görə, nəsli davam etdirmək üçün hər bir türk ailəsinin öhdəsinə düşən bir müqəddəs borcu var. Bu da dünyaya yeni körpə gətirməkdir. Təsadüfi deyil ki, körpəsiz-uşaqsız ailələrə münasibət heç də birmənalı olmamışdır. Biz bunun əksini «Kitabi-Dədə Qorqud» dastanının «Dirsə xan oğlu Buğac xan boyu»nda da görürük: «Xanlar xanı Bayındır xan ildə bir dəfə şadlıq edib, oğuz bəylərini qonaq edərdi. Yenə şadlıq məclisi qurub, atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerdə ağ otaq, bir yerdə qırmızı otaq, bir yerdə qara otaq qurdurmuşdu. «Kimin oğlu-qızı yoxdursa, qara otaqda oturdun, altına qara keçə döşəyin, önünə qara qoyun ətinin qovurmasından gətirin. Yeyir-yesin, yemirsə-dursun getsin» demişdi. «Oğlu olanı ağ otağa, qızı olanı qırmızı otağa yerləşdirin. Oğlu-qızı olmayanı allah qarğayıb, bizdə qarğayarıq; qoy bilsin» demişdi (4, 132). M.Təhmasibin haqlı mülahizəsinə görə, xanlar xanı Bayandur xan «oğlu olanı ağ otağa, qızı olanı qızıl otağa, övladı olmayanı qara otağa qondurun» - yerləşdirin deməklə övlad qayğısına qalmayanları utandırmış, nəsil artırmağın, onu davam etdirməyin nə dərəcədə böyük əhəmiyyətə malik olduğunu başa salmaq, dərk etdirmək istəmişdir (13, 386).

Ümumiyyətlə, qəhrəmanlıq dastanlarında övladı olmamaq istər qadın, istərsə də kişi üçün dözülməz bir dərd kimi daha qabarıq görünür. Bu hal «Koroğlu» dastanı üçün də səciyyəvidir:

«Günlərin bir günü yenə də Çardaqlı Çənlibeldə kef məclisi qurulmuşdu. Xanımlar, dəlilər, mehtərlər geyinib-kecinib Koroğlunun, Nigar xanımın sağ-solunda əyləşmişdilər.

Koroğlunun Cünun aşığı da bu kef məclisində idi. Bir tərəfdə oturub Koroğlunu gözləyirdi ki, nədən desə ondan oxusun. Hamı kefdəydi. Bunların içində bircə Nigar xanım qəmgin idi.

Koroğlu bunu görüb soruşdu:

- Ay Nigar xanım, kef bizdə, damaq bizdə, mal-dövlət bizdə, sən niyə belə qəmginsən?

Koroğlunun cavabından Nigar xanım bir də aynaya - güzgüyə baxdı. Ah çəkib (şeir ixtisarla verilir) dedi:

Necə baxım ev-eşiyə,
Yaralı könlüm üşüyə.
Toz bürümüş boş beşiyə,
Şirin layla çalan yoxdu.

* * *

Çənlibeli güllər bəzər,
Güllər saralsa kim üzər?
Hər quş balasıynan gəzər,
Niyə sənin balan yoxdu?

* * *

Nə dərd olsa məni tapar,
Sonsuzluq bir yanım çapar.
Yarılğan uçar, toz qopar,
Görərsən ki, qalan yoxdu.

Nigarı dərdə gətirən,
Cəsədin qəbrə yetirən,
Koroğlu namın götürən
Yurdunda son olan yoxdu.

Nigar xanımın sözlərindən Koroğlu da qəmləndi. Onu da dərd aldı. Aşıq Cünun işi belə görüb sazı sinəsinə basıb dedi:

Yanında əyləşib alagöz Nigar,
İgidlər, dəlilər bütün hər nə var,
Aşıq Cünun şoğa gələr, oxuyar,
Bir de qoç Koroğlu, nədən məlulsan?

Aşıq Cununun oxumasından Koroğlunun qəlbi coşa gəldi, köhnə yaraları təzələndi, sazı aldı, görək nə dedi:

Sənə deyim, Aşıq Cünun,
Gözlərimdə yaş inildər,
Bir igid oğlan ucundan,
Şeş atanda, beş inildər.

* * *

Koroğluyam, sözüm çoxdu,
Sözlərim peykanlı oxdu,
Hansı iyidin sonu yoxdu,
Ocaq sönər, daş inildər (5, 85-87)

Onu da qeyd edək ki, ta qədim zamanlardan üzü bəri insanlar övladsızlıq bəlasından, nəsil-soy, el-oba qınağından qurtarmaq üçün çeşid-çeşid tədbirlərə əl atmış, gecə-gündüz allaha dua qılmış, ocağa-pirə gedib şam yandırmış, yetim-yesirə, kasıb-kusuba nəzir-niyaz paylamış və onların alqışları, duaları sayəsində istəklərinə nail olmuşlar. Belə hala "Kitabi-Dədə Qorqud" dastanının "Dirsə xan oğlu Buğac xan boyu"nda da rast gəlirik. Məsələn, Bayındır xanın məclisindən qalxıb evinə gələn Dirsə xan başına gələn rüsvayçılığın səbəbini qadınında görərək qəzəblənir və ağır cəza verəcəyi ilə onu hədələyir. Ərinin hədə-qorxusu müqabilində qadını ona belə söyləyir:

Ay Dirsə xan, mənə qəzəblənmə!
İnciyib acı sözlər söyləmə!
Yerindən qalx, ayağa dur,
Yer üzündə böyük çadır qur!
Ayqır, buğra, qoç qırdır!
İç Oğuzun, Daş Oğuzun bəylərini üstünə yığ!
Ac görsən, doydur; çılpaq görsən, geyindir!
Borclunu borcundan qurtar!
Təpə kimi ət yığ, göl kimi qımız sağdır!
Böyük şadlıq məclisi qur, allahdan arzunu dilə.

Bəlkə bir ağzı dualının alqışı ilə
Tanrı bizə bir yetkin övlad verə, - dedi.

Dirsə xan arvadının sözü ilə böyük məclis qurdurdu, allahdan istəyini dilədi. Atdan ayğır, dəvədən, buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Daş Oğuz bəylərini ora topladı. Ac gördüsə, doydurdu. Yalın gördüsə, geyindirdi. Borclunu borcundan qurtardı. Təpə kimi ət yığdı. Göl kimi qımız sağdırdı. Əl götürüb arzularını dilədilər. Allah bir ağzı dualının alqışı ilə övlad verdi. Arvadı hamilə oldu. Bir neçə müddətdən sonra bir oğlan doğdu. Oğlancığı dayələrə verdi, saxlatdı… (4, 133-134). Göründüyü kimi, xanımının sözlərinə əməl edən Dirsə xan acı doyurub, çılpaqları geyindirərək onların dua-alqışına gəlir və övlad sahibi olur.

Xatırladaq ki, dastanlarda övladı olmayanların övladlığa uşaq götürmələri barədə də məlumat verilir. Məsələn, "Koroğlu" dastanında biz bunun bir daha şahidi oluruq:

- Mən xotkarlara, paşalara qan udduran, yollar kəsən, alaylar basan qoç Koroğluyam. Mənim övladım yoxdu, gəldim Eyvazı aparım, özümə oğul eyləyim, yeddi min, yeddi yüz yetmiş yeddi dəliyə sərdar tikim. Gəl məni dəlilərin, xanımların yanında xəcalət eləmə. Eyvazı əlimdən alma. Məndən sənə xeyir dəyər. Eyvaz da istədiyi vaxt sənin yanına gələr (5, 99). Bu söhbətdən sonra qəssab, Koroğlunun inadından dönməyəcəyini bilərək Eyvazı ona oğulluğa verir.

Xalq arasında mövcud olan adətə görə uşağı olmayan qadın övladlığa götürdüyü şəxsi köynəyindən keçirərdi. Bu adətə Koroğlu dastanında da rast gəlirik:

"Nigar xanımın sözü ilə yeddi min yeddi yüz yetmiş yeddi dəli at belinə doldu. At, qılınc, xələt götürüb Koroğlu ilə Eyvazı pişvaz elədilər.

Görüşdülər, danışdılar, şadlıq məclisi quruldu. Qoyunlar kəsildi, ətlər doğrandı, kabablar yeyildi, içkilər içildi. Güldülər, oynadılar, oxudular, damaxlar duruldu, keflər açıldı. Nigar Eyvazın üzündən öpdü, köynəyinin yaxasından keçirib özünə oğul elədi" (5,104).

Etnoqrafik araşdırmalar göstərir ki, dastanlarda ailə daxilində qadınla kişi arasındakı münasibətlər qəbilə adət-ənənəsinə əsaslanırdı (2, 189). Belə ki, qəbilənin istər ictimai, istərsə də təsərrüfat həyatında kişilərlə birgə qadınlar da iştirak edərdi. Ovçuluq və çöl işləri ilə təkcə

kişilər yox, qadınlar da məşğul olurdu. Qızlar, qadınlar həm də döyüş meydanlarında, ox atmaqda, at çapmaqda, güləş tutmaqda heç də kişilərdən geri qalmırdı. Məsələn: «Dirsə xan oğlu Buğac xan boyu»-ndakı bir təsvirə diqqət yetirək:

«Dirsə xanın arvadı qayıdıb geri döndü. Dözmədi, qırx incə qızı özü ilə götürüb, bədəvi ata mindi, oğlunu axtarmağa getdi. Qışda-yazda qarı-buzu əriməyən Qazlıq dağına gəldi çıxdı. Alçaq yerləri gəzdi, çapıq uca yerlərə çıxdı». (4, 136-137). Yaxud, «Bayborənin oğlu Bamsı Beyrən boyu»-nda Banıçiçəyin Beyrəklə qarşılaşdığı səhnəni izləyək:

"İgid, haradan gəlirsən?! Beyrək dedi: "İç Oğuzdan!" "İç Oğuzdan kimin nəyisən?" "Bayborə bəy oğlu Bamsı Beyrək dedikləri mənəm». Qız dedi: "Bəs nə məqsədlə gəlmisən, igid?" Beyrək dedi: "Baybican bəyin bir qızı var, onu görməyə gəldim!" Qız dedi: "O elə qız deyildir ki, sənə görünə! Amma mən Banıçiçəyin dayəsiyəm. Gəl indi səninlə ova çıxaq. Əgər sənin atın mənim atımı keçsə, onun atını da keçər. Həm də ox ataq. Məni keçsən, onu da keçərsən; həmçinin səninlə güləşək. Məni bassan, onu da basmış olursan".

Beyrək dedi: "Yaxşı, indi atlanın!" İkisi də atlanıb meydana çıxdılar. At sürdülər. Beyrəyin atı qızın atını keçdi. Ox atdılar. Beyrəyin oxu qızın oxunu ötdü. Qız dedi: "Ay igid, heç kimin atı mənim atımı, kimsənin oxu mənim oxumu keçməyib. İndi gəl səninlə qurşaq tutaq!" Beyrək dərhal atdan endi. Güləşməyə başladılar; iki pəhləvan kimi bir-birinə sarmaşdılar. Gah Beyrək qızı, gah da qız Beyrəyi yerə vurmaq istəyir. Beyrək sarsıldı, fikirləşdi: "Bu qıza basılsam, Qalın Oğuz içində başıma qaxınc, üzümə rişxənd olacaq". Qeyrətə gəldi. Qarmalayıb qızın sinəbağını ələ keçirdi. Döşündən tutdu. Qız qurcandı. Bu dəfə Beyrək qızın incə belindən yapışdı, fırladıb arxası üstə yerə vurdu». (4, 152-153). Eləcə də "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"-da Qazanın xanımı Boyu uzun Burla xatun qırx incə belli qız-oğlanla Qara ayğırını minib qılıncına qurşanaraq "Başımın tacı Qazan gəlmədi", - deyərək onun izinə düşür. Və gəlib ərinə yetişərək onunla birlikdə düşmənə qarşı qılınc işlədir (4, 174). "Qanlı qoca oğlu Qanturalı boyu"nda da Selcan xanım "altdan yaraqlanıb, üstdən geyinib" nişanlısı Qantural bəylə birlikdə düşmənə qan uddurur (4, 188). "Koroğlu" və "Qaçaq Nəbi" dastanında da eynən belədir. Burada da xanımlar nişanlıları, ərləri ilə birlikdə kürək-

kürəyə verir, onlarla döyüşdə iştirak edib düşmənə qalib gəlirlər. Məsələn, "Koroğlu" dastanından bəlli odur ki, "Koroğlu olmayanda Nigar Çənlibeldə çox böyük müdrikliklə sərkərdəlik eləyir, dəlilər arasında bölgü aparır, döyüşə gedəsiləri döyüşə göndərir, Çənlibeldə qalasıları burada saxlayır. Lap çətin ayaqda özü başda olmaqla Çənlibelin bütün xanımlarını silahlandırıb səngərlərə çıxardır" (12, 73). Eləcə də Zərnişan xanım öz amalı uğrunda nişanlısı Həsənlə birlikdə atası Qara paşaya və qardaşlarına qarşı vuruşaraq comərdlik göstərir. (5, 346) "Qaçaq Nəbi" dastanında Nəbi Həcəri qorxmazlığına görə məcazi anlamda pələngə bənzədərək özündən qoçaq adlandırır:

Mehdinin əlindən dad edir fələk,
Nəçənnik dad çəksin əlimdən gərək,
Həcərə yaraşır, desinlər, pələng,
Mahalda deyirlər, qaçaqdı Nəbi!
Arvadı özündən qoçaqdı, Nəbi! (6, 125)

Qəhrəmanlıq dastanlarında ailə münasibətlərinin əsasında mülkiyyət münasibətləri deyil, qadına məhəbbət və hörmət münasibəti durur (11). Azərbaycan oğuz türklərinin ailəsində qadın müqəddəs varlıq kimi Tanrı səviyyəsinə qaldırılır. "Salur Qazanın evinin yağmalandığı boy"da düşmən tərəfindən əsir götürülən boyu uzun Burla xatunla oğlu Uruzun söhbəti bu baxımdan maraq doğurur. Boyu uzun Burla xatun düşmənin hiyləsini oğluna anladaraq "sənin ətindən, ay oğul, yeyimmi? Yoxsa iyrənc tipli kafirin döşəyinə girimmi? – deyə soruşduqda "Ağzın qurusun, ana! Dilin çürüsün, ana!" "Ana haqqı-tanrı haqqı" deyilməsəydi, qalxıb yerimdən durardım, yaxandan-boğazından tutardım. Ağzından-üzündən qan şoruldayardı" (4,145) cavabını verərək atasının namusunu qorumağı, düşmənə tanınmaması üçün oğul ətindən çəkilən qovurmadan başqası bir yeyəndə, onun iki dəfə yeməsini israr edir Uruz.

Anaya səcdə qılmaq, onun müqəddəsliyinə, böyüklüyünə tapınmaq, onu ucalardan uca tutmaq, haqqında sözü gedən boyda lap açıqlığı ilə görsənir. Belə ki, Salur Qazan düşməni Şöklü Məlikdən əlindən çıxmış var-dövlətini, qırx igidlə oğlunu, qırx incə bellə birlikdə Burla xatunu yox, məhz anasını geri qaytarmağı tələb edərək:

Ay Şöklü Məlik!
Qızıl taclı uca evlərimi götürüb gəlmisən,

sənə kölgəlik olsun!
Qiymətli xəzinəmi, bol gümüşümü götürmüsən,
sənə xərclik olsun!
Qırx incə belli qızla Burla xatunu gətirmisən,
sənə əsir olsun!
Qırx igidlə oğlum Uruzu gətirib gəlmisən,
sənin qulun olsun!
Tövlə-tövlə şahanə atlarımı gətirib gəlmisən,
sənin miniyin olsun!
Qatar-qatar dəvələrimi gətirib gəlmisən,
sənin yükünü daşısın.
Qoca anamı gətirmisən, ay kafir, anamı ver mənə!
Savaşmadan-vuruşmadan qayıdım geri,
dönüb gedim! – deyir (4, 146-147).

Ailədə istər doğma anaya, istərsə də ümumilikdə bütün qız-qadınlara hörmət göstərmək digər qəhrəmanlıq dastanlarında ("Koroğlu", "Qaçaq Kərəm", "Qaçaq Nəbi" və s.) da həmişə ön planda görsənir. Məsələn, "Qaçaq Nəbi" dastanından bir epizoda diqqət yetirək:

"Nəbi bərk hirsləndi, aynalını çəkdi, bəyləri qırmaq istəyəndə müəllim Rəhim bəyin arvadı Natəvan xanım yaylığını onun ayaqlarının altına atdı, gözlərinin yaşını töküb dedi:

- Ay Nəbi qağa, əgər səndə igidlik qanı varsa, mənim ləçəyimi qana bulama! Bu üzüqaraları bu dəfə də mənə bağışla!

Nəbinin qolları boşaldı, közün üstünə su tökən kimi, acığı yatdı. Natəvan xanımın yaylığını yerdən götürüb özünə verdi:

- Bağışla, bacı, səni incitdim. Bunların nə qədər günahları olsa da sənə bağışlayıram, - sonra üzünü naçalnikə çevirib dedi: - Ay qurumsaqlar, sizi bu zənana bağışlayıram" (6, 269).

Məlumdur ki, qadın ləçəyi, qadın yaylığı xalqımız arasında ar, namus, şərəf, ləyaqət rəmzi sayılmışdır. Qadın namusunu tapdalamaq, şərəf və ləyaqətini alçatmaq isə etnik ənənə sistemimizə yad olduğundan Nəbi Natəvanı dinləmiş, onun ləçəyini basıb, düşmənlərinə silah çəkməmişdir.

Onu da qeyd edək ki, dastanlarda qadına göstərilən hörmət-izzətlə yanaşı, bəzən onların ərənliklərinə, igidliklərinə sayğı qarışıq qısqanclıq

hissi də görsənir. Məhz bunu duyan qadınlar "feodal-patriarxal münasibətlərin təzyiqi ilə formalaşan ailə-məişət münasibətlərini" (14, 82) yaddan çıxarmayaraq, qəhrəmanlıq mücəssəməsi olsalar da, özlərini mövcud vəziyyətə uyğun aparırlar. Biz bunun əksini "Kitabi-Dədə Qorqud" dastanının "Qanlı qoca oğlu Qanturalı boyu"nda Selcan xanımın Qanturalıya dediyi sözlərdən də görürük:

İgid bəy, öyünərsə ər öyünsün-aslandır!
Lovğalanmaq arvad üçün nöqsandır.
Öyünməklə arvaddan kişi olmaz (4, 190).

Beləliklə, aparılan etnoqrafik tədqiqatdan məlum olur ki, orta əsr qəhrəmanlıq dastanlarında ailənin əsas forması kiçik-monoqam ailə tipindən ibarət olmuş və ailədaxili münasibətlər dövrün qayda-qanunları əsasında təmizlənmişdir. Bu amili dastanlarda cərəyan edən hadisələrin təsviri də açıq-aydın göstərir.

MƏNBƏLƏR VƏ ƏDƏBIYYAT

1. Bünyadova Ş. T. Nizami və etnoqrafiya. Bakı: Elm, 1992.
2. Dadaşzadə M. «Dədə Qorqud» dastanlarında Azərbaycan etnoqrafiyasına dair bəzi məlumatlar // Azərbaycan etnoqrafik məcmuəsi, № 3, Bakı: Elm, 1977.
3. Əliyev Ə.T. Gürcüstan azərbaycanlılarının böyük ailələri haqqında (XIX əsrin sonu – XX əsrin əvvəlləri) // Azərbaycan arxeologiyası və etnoqrafiyası, № 2. Bakı: Nafta-Press nəşriyyatı, 2008.
4. «Kitabi-Dədə Qorqud» (tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadənindir). Bakı: Yazıçı, 1988.
5. «Koroğlu» (hazırlayıb tərtib edənlər: İ.Abbaslı və B.Abdulla). Bakı: Lider nəşriy yatı, 2005.
6. «Qaçaq Nəbi». (Tərtib edəni Ə.Axundov). Bakı: Azərnəşr, 1961.
7. «Qurbani» // Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979.
8. Qeybullayev Q.Ə. Azərbaycanlılarda ailə və nikah. 2 hissədə, 1-ci hissə. Bakı: Elm, 1994.
9. Qeybullayev Q.Ə. XIX əsrdə Azərbaycanda böyük ailələrin qalıqları məsələsinə dair // Azərbaycan tarixi məsələləri. Bakı: Azərb. SSR EA-nın nəşriyyatı, 1966.
10. Rəcəbov Q. Ailə // Azərbaycan etnoqrafiyası. 3 cilddə, 2-ci cild. Bakı: Şərq-Qərb, 2007.
11. Rəcəbli Q. «Dədə Qorqud» oğuzlarında ailə-nikah münasibətlərinin bəzi məsələləri haqqında // «Elm» qəzeti, № 33-34 (554-555), 11 oktyabr 2000-ci il.
12. Sadıq İ. Koroğlu kim olub. Bakı: Azərnəşr, 1998.
13. Təhmasib M.N. Bir neçə söz. // Azərbaycan dastanları. 5 cilddə 1-ci cild. Bakı: 1965.
14. Veysəlova V.A. Azərbaycan məhəbbət dastanları etnoqrafik mənbə kimi. Bakı: Nurlan, 2002.
15. Дьяконов М.М. Очерки истории Ирана. М., Наука, 1961.
16. Кисляков Н.А. Очерки по истории семьи и брака у народов Средней Азии и Казахстана. Л., Наука, 1969.
17. Толстов С.П. Древний Хорезм. М., Наука, 1948.

T. N. Guluzade

"THE SOME MATTERS RELATED FAMILY-LIFE IN THE AZERBAIJAN (BASED ON THE HEROIC EPICS)"

SUMMARY

The article deals with the family and family-life in the Azerbaijan heroic eposes. The forms of families, the relations inside family, partition in the family, childlessness and the measures taken against it are interpreted in this article on the base of the rich literature materials. At the end the author comes to the conclusion that at the Middle Ages although the patriarchy family form was preserved, the main form of the family was the little- monogamy and the relations inside family were regulated according to the order of that period.

Т. Н. Гулузаде

К НЕКОТОРЫЕ ВОПРОСАМ СЕМЕЙНОГО БЫТА В АЗЕРБАЙДЖАНСКИХ (ПО МАТЕРИАЛАМ ГЕРОИЧЕСКИХ ЭПОСОВ)

РЕЗЮМЕ

Статья посвящена вопросом семьи и семейного быта в азербайджанских героических эпосах. На основе богатого литературного материала изложены формы семьи, внутрисемейный отношения, проблемы бездетности и предпринятые в связи с этим меры. В результате исследования, автор пришел к выводу, что в середине века несмотря на сохранение остатков патриархальных семей, основной и внутрисемейные отношения урегулировались по законам того времени.

BOLONİYA PROSESİ VƏ AZƏRBAYCANIN ALİ TƏHSİL MÜƏSSISƏLƏRİNDƏ KREDİT SİSTEMİNİN TƏŞKİLİ

Gülnaz MAHMUDOVA

Açar sözlər: ali təhsil, qloballaşma, kredit sistemi, Boloniya prosesi, təhsilin keyfiyyəti
Keywords: high education, globalization, credit system, Bologna process, quality of education
Ключевые слова: высшее образование, глобализация, кредитная система, Болонский процесс, качество образования

Hər bir ölkədə olduğu kimi Azərbaycanda da təhsil cəmiyyəti formalaşdıran ən vacib amillərdən biridir. Hazırki dövrdə hər bir dövlətin inkişafında mühüm rolu məhz təhsil oynayır, ona görə ki, dövlət yalnız ağıllı, bacarıqlı, yüksək elmə malik olan insanlarının fəaliyyəti əsasında inkişaf edə, yüksək naliyyətlər qazana bilər. Qloballaşma prosesinin getdikcə gücləndiyi müasir dövrümüzdə ali təhsilin nüfuzu daha da artmış və ona verilən tələblər dəyişmişdir. İndi ali təhsilin qarşısında duran əsas vəzifələrdən biri istənilən şəraitdə, dünyanın hər yerində işləyə bilən yüksəkixtisaslı, rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanmasını təmin etməkdir. Belə mütəxəssislərin hazırlanması isə ali təhsil sahəsində vahid təhsil məkanının yaradılmasını, ayrı-ayrı ölkələrin ali təhsil sisteminin bir-birinə yaxınlaşdırılmasını tələb edir. Avropa Şurasının üzvü olan ölkələrin qoşulduğu Boloniya prosesi məhz bu zərurətdən yaranmışdır.

Azərbaycan Respublikasının Avropa ittifaqına üzvlüyünə qəbul edilməsi, genişlənməkdə olan inteqrasiya prosesləri ali təhsil sahəsində Avropa məkanında baş verən proseslərə ölkəmizin də qoşulmasını zəruri etdi.

Avropa ali təhsil sisteminə inteqrasiyanın nə qədər önəmli olduğu ümummilli lider Heydər Əliyev tərəfindən vaxtı ilə bu cür ifadə olunub: "Azərbaycan müstəqil dövlət kimi Qərb ölkələrinin təcrübəsindən istifadə etməyə çalışır və təhsilin də təkmilləşdirilməsində bu təcrübədən istifadə etmək lazımdır" [2, s.74].

Təhsilin inkişafında, o cümlədən ali təhsilimizin indiki vəziyyətə gəlib çıxmasında ulu öndər Heydər Əliyevin fəaliyyəti danılmazdır.

Gülnaz Mahmudova – AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi

Dövlətimizin inkişafı ilə yanaşı təhsilimizdə də əldə olunan uğurlar ümummili lider Heydər Əliyevin uğurlu, uzaqgörən siyasəti nəticəsində əldə olunub.

Əsas məqsədi Avropa dövlətlərinin vahid ümumtəhsil məkanının yaradılması olan Bolonya prosesinə 1999-cu il, 19 iyunda deklarasiyanın imzalanması ilə start verildi. Hazırda bu prosesə təxminən 50 Avropa ölkəsi qoşulub. 2005-ci il may ayının 19-da Azərbaycan Respublikası da Boloniya prosesinə qoşuldu [4,98].

Boloniya prosesinin məqsədi Avropa təhsil məkanına daxil olmaq imkanını genişləndirmək, təhsilin keyfiyyətini yüksəltmək, tələbə və müəllimlərin mobilliyini artırmaq, ali təhsil məktəblərinin məzunlarına diplomla yanaşı diploma ümumi Avropa əlavəsi vermək, bütün Akademik dərəcələri və kvalifikasiyaları Avropa əmək bazarına yönəltməklə məzunlara işlə təmin olunmaq üçün şərait yaratmaqdır. Boloniya Prosesi bu ideyaların Avropa sərhədləri çərçivəsində reallaşmasına, Avropada vahid elm-təhsil məkanının yaradılmasına xidmət edir.

Boloniya deklarasiyası milli sistemlərin ali təhsilin yaxın və ya üst-üstə düşən ikisəviyyəli proqramlarına (bakalavr-magistr) və ixtisaslarına keçilməsini, təlimin normativ müddətinin azaldılmasını, strukturun eyniləşdirilməsini, təhsilin keyfiyyətinin təmin olunmasının yeni, əsasən, mərkəzləşdirilmiş mexanizm və prosedürlərin tətbiqini, təlimin formotivləşdirilməsi və təlim distansion texnologiyalarının inkişaf elətdirilməsini və s. bəyan etdi. Bütün bu müddəalar deklorasiyanı imzalayan ölkələr üçün məcburidir və 10 illik dövr ərzində gerçəkləşdirilməsi nəzərdə tutulmuşdu. Bu islahatların prioritet vəzifələrindən biri təhsilin açıq dövlət-ictimai sistem qismində inkişaf etdirilməsidir. Azərbaycan Respublikası da ali təhsilin ümumavropa inteqrasiya prosesindən kənar qalmadı.

Hələ Boloniya prosesinin başlamasından xeyli əvvəl Avropa təhsilinin ayrı-ayrı elementlərinin Azərbaycanda ali təhsil müəssisələrində tətbiq edilməsinə başlandı. Ali təhsilə qəbulda test sisteminin tətbiqi, ali təhsilin bakalavr və magistratura mərhələlərinə bölünməsi, qabaqcıl dünya ölkələrinin ali təhsil müəssisələri ilə tərəfdaşlıq əlaqələrinin yaradılması və genişlənməsi və s. bu qəbildən olan addımlar idi.

Boloniya Bəyənnaməsinə qoşulmaq tarixi bir zərurətdir. Yalnız Boloniya Bəyənnaməsinin başlıca müddəlarına əməl etməklə Avropa

məkanında ali təhsil sisteminə inteqrasiya olunmaq mümkündür. Bu müddəalar:

- ikipilləli ali təhsilə keçiddən;
- kredit sisteminin tətbiqindən;
- təhsilin keyfiyyətinə nəzarətin gücləndirilməsindən;
- məzunların işə düzəlməsinin təmin olunmasından;
- təhsilin sosial yönümlüyünün (ömürboyu təhsilin) təmin edilməsindən və s. ibarətdir [4, s. 29].

Boloniya prosesini şərtləndirən bu müddəalar Azərbaycan üçün də səciyyəvidir və bunlar həyata keçirilməsi həlli vacib olan məsələlərdir. Qloballaşan dünyanın bir parçası olan ölkəmizdə ali təhsilin nə qədər önəmli olduğu və yüksək intellektli insan kapitalına olan ehtiyac hər keçən gün daha çox hiss edilir. Bu ehtiyacı qarşılamaq üçün isə ölkəmizin ali təhsil sistemində dinamik inkişafı təmin etmək lazımdır. Bunun üçün müasir dünyanın təhsil yenilikləri ölkəmizdə də tətbiq edilməlidir.

Boloniya prosesinə qoşulmağın üstünlükləri nələrdir?

Çoxsaylı üstünlüklərdən bəzilərini bu cür sıralamaq olar: müəllimlərin müəyyən olunmasında tələbələrin seçiminə üstünlük verilir; hər bir tələbə fərdi planını tərtib etmək və qəbul edilən qərarlarda iştirak hüququ qazanır; tələbələr dərs yükünü özləri seçdikləri üçün (Avropa Kredit Transfer Sistemi-AKTS) universiteti daha tez və ya daha gec muddətə bitirə bilirlər; akademik hərəkətlilik (mobillik) nəticəsində təhsillərini başqa universitetlərdə davam etdirə bilərlər; ali təhsil ixtisasları əmək bazarının tələblərinə uyğunlaşdırılır; ali təhsilin maliyyələşməsində universitetlərə maliyyə müstəqilliyi verilir; bənzər qiymətləndirmə sistemi imkan verir ki, tələbələrin (məzunların) bilik və qabiliyyətləri Avropanın istənilən ölkəsində asanlıqla tanınsın və s.

Boloniya prosesinin əsas tələblərindən biri ali təhsildə kredit sisteminin tətbiqidir. Kredit-fənnin mənimsənilməsinə ayrılan vaxtın və ona sərf olunan əməyin ölçü vahidi kimi çıxış edir. Başqa sözlə, kredit təhsilin nəticələrini müqayisə etmək üçün Avropa məkanında ali təhsildə qəbul olunmuş vahid ölçüdür. Kreditin iki əsas funksiyası vardır: a) tələblərin mobilliyinin təmin edilməsi, yəni digər ali təhsil müəssisəsində ayrı-ayrı fənlərin mənimsənilməsinə şəraitin yaradılması və onun nəticəsinin təhsil aldığı ali məktəbdə tanınması, b) tələbənin öz təhsilalma

trayektoriyasını müstəqil müəyyənləşdirməsi [4, 37]. Kredit sistemi ali təhsildə demokratik prinsiplərin bərqərar olmasını, ədalətliliyi və obyektivliyi, nəticə etibarı ilə təhsilin keyfiyyətinin yüksəldilməsini təmin etdiyindən Boloniya prosesində bu prinsipin xüsusi yeri vardır. Kredit sistemi hər bir tələbənin özünün fərdi tədris planının olmasını, ona fənlərin öyrənilməsi ardıcıllığını müəyyənləşdirməyə imkan yaradılmasını, tələbəyə müəllimi seçmək hüququnun verilməsini, müəllimlərin dərs yükünün tələbələrin fərdi tədris planları əsasında müəyyənləşdirilməsini və s. kimi tələbləri nəzərdə tutur. Bu sistemin ölkəmizin ali məktəblərində tətbiqi istiqamətində atılmış ilk addımlardan biri "Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi Əsasnamə"nin hazırlanması və təsdiq olunmasıdır. Mövcud qaydalara görə tələbəyə hər semestrdə tədris olunan bütün fənlər üzrə 30 kredit müəyyənləşdirilir. Beləliklə, tələbə bir tədris ili ərzində 60 kredit yığmalı olur. Bununla yanaşı, tədrisdə yüksək fəallığı ilə seçilən tələbələrə hər semestrdə 8 kreditdən çox olmamaq şərti ilə bir və ya iki fənn seçməyə icazə verilir.Tələbə yalnız o zaman kredit qazanmış olur ki, o, ali məktəblərdə tətbiq olunan qaydalar üzrə həmin fəndən imtahanı müvəffəqiyyətlə verib müsbət qiymət almış olsun. Kredit yığa bilməyənlər isə həmin fənn üzrə yenidən mühazirələrdə iştirak etməli olurlar.

Dünyanın inkişaf etmiş ölkələrində bu sistem uzun illərdir ki, tətbiq olunur və sınaqlardan müvəffəqiyyətlə çıxmışdır. Çünki bu sistem tələbəyə yüksək səviyyədə biliklər əldə etməyi və yüksək hazırlıqlı mütəxəssis kimi yetişməyi nəzərdə tutur.

Boloniya prosesinə qoşulma milli təhsil sisteminin gələcək inkişafı üçün nə verə bilər? Bizcə Boloniya prosesinə nə dərəcədə hazır olmağımızdan asılı olaraq bu proses bizə ziyanlı və ya xeyirli ola bilər. Bu mənada təhsil sistemində Boloniya prosesi müddəalarının tətbiqinə ciddi hazırlaşmalı, bu prosesi düzgün layihələndirməli, onu respublikada və qlobal təhsil sistemində həyata keçirilən digər təhsil islahatları ilə əlaqələndirməliyik. Əks halda köhnə təhsil modelini dağıdacaq, əvəzində isə səmərəli, yeni təhsil modeli qura bilməyəcəyik. Digər tərəfdən Boloniya prosesinin alternativi də yoxdur. Boloniya Prosesindən imtina və ya ləngimə gələcəkdə milli iqtisadiyyatın qlobal proseslərdən kənarda qalmasına səbəb ola bilər. Nəhayət Boloniya prosesindən imtina ilk

mərhələdə milli universitetlərin əcnəbi tələbələrini itirməsinə, daha sonra isə elə yerli tələbələrin də böyük qismini itirməsinə, beləliklə də milli universitetlərin bazar iqtisadiyyatı şəraitində ciddi maliyyə problemləri ilə üzləşməsinə səbəb olacaq. Çünki, yerli tələbələr tədricən virtual formada əcnəbi universitetlərdə təhsil almağa üstünlük verəcəklər [5, 23].

XXI əsrin başlanğıcında Azərbaycanın siyasi və iqtisadi rolunun gücləndirilməsinin əsas şərti ölkənin rəqabət qabiliyyətliliyinin artmasını təmin etməkdir. İnkişaf etmiş ölkənin başlıca rəqabət üstünlüyü bir çox cəhətdən təhsillə müəyyənləşən insan potensialının inkişafı ilə bağlıdır. İndiki mərhələdə ölkənin davamlı iqtisadi yüksəlişinin açarı məhz bu amillə bağlıdır. Həyat universitetlərdən daha dinamik, daha çevik, elmi-texniki, texnoloji tələbatlara, innovasiyalara və beynəlxalq rəqabətə daha həssas yanaşmağı tələb edir. Ali məktəblərimiz müasir bazar iqtisadiyyatı şəraitində köklü surətdə dəyişməlidir[3,74].

Bəs, görəsən, Azərbaycan ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bu günədək hansı işlər görülüb:

Amma hələlik təhsilimizin Avropa tələblərinə tam cavab verdiyini iddia etmək olmaz. Azərbaycan təhsil sisteminin strukturu ilə bağlı bir sıra formal cəhətlər artıq bizdə nəzərə alınmışdır. İkipilləli ali təhsilə keçid, imtahanlar daha çox dərəcədə testlərə çevrilir və ya yazılı imtahan formaları tətbiq olunur. Bu gün qiymətləndirmədə gah 9 bal, gah 100 bal sistemindən söhbət açılır. Kredit sisteminə imitasiya olunur.

Lakin müasirləşmək, islahatlar aparmaq yalnız formal göstəricilərin dəyişdirilməsi ilə mümkün deyil. Təhsilin məzmununun təkmilləşdirmədən və müasir tələblərə uyğunlaşdırmadan onun formasını tez-tez dəyişdirmək ancaq ziyan gətirə bilər [4, 344].

Boloniya prosesinə qoşulan ölkənin təhsil sisteminin dinamik olması zəruridir. Avropa ölkələrinin təhsil sistemində bu gün dinamik inkişaf mövcuddur. Deməli, Boloniya sisteminə qoşulan digər ölkələrin də çevik təhsil sistemi olmalıdır ki, bu inkişafla ayaqlaşa bilsinlər. Boloniya prosesinin tələbləri daim artır.

Bu gün Boloniya prosesinin daim artan tələbləri sırasında E-Boloniya (elektron Boloniya) konvensiyası mövcuddur. E-Boloniya vahid Avropa virtual təhsil məkanı yaradaraq, universitetlərin vahid virtual şəbəkədə elektron təhsil verməsinə şərait yaradır. Böyük ehtimalla demək

olar ki, yaxın gələcəkdə Boloniya prosesi iştirakçıları qarşılıqlı şəkildə İnternet vasitəsi ilə hər hansı universitetin istənilən auditoriyasındakı tədris prosesinə məsafədən (distant yolla) müşahidə və video-nəzarət imkanları əldə edəcəklər. Bu universitetlər üçün çox məsuliyyətli məsələdir. Bu zaman hər hansı müəllimin istənilən dərsi faktiki olaraq "açıq dərs" statusu qazanacaq, bu "açıq dərsin" hər an dünyanın istənilən nöqtəsində yüzlərlə müşahidəçisi ola bilər. Nəticədə Avropanın istənilən universitetindən yəqin ki, Azərbaycanın hər hansı universitetindəki mühaziräni İnternet vasitəsi ilə dinləmək və onun keyfiyyətin qiymətləndirmək mümkün olacaq. Bu sistemin sürətlə inkişaf etməsi realdır. Çünki, bu zaman Boloniya prosesinin digər mühüm tələbi – tələbə və müəllimlərin mobilliyi məsələsi daha asan həll ediləcək, artıq real mobillik virtual mobilliklə əvəz edilərək, inteqrasiya proseslərini daha da sürətləndirəcək [3,18].

E-Boloniya tələbinin icrası istiqamətində gələcəkdə bizim ciddi problemlərimiz ola bilər. Bir çox ölkələrdən fərqli olaraq bizim respublikada hələlik distant təhsil sistemi yaradılmayıb. Distant təhsil sistemi inkişaf edən ölkələrdə Boloniya prosesinin reallaşması daha asandır, çünki Distant təhsil sistemi qurularkən artıq Avropa standartları nəzərə alınaraq yaradılmışdır. Distant təhsil təcrübəsi əsasında Avropa təhsil standartlarını tətbiq etmək asandır.

Artıq bu gün virtual tələbələrinin sayı bir milyondan artıq olan xeyli universitetlər var. Qlobal xarakterli Meqauniversitetlərdə yaxın gələcəkdə təhsil alan tələbələrin sayı 10 milyonu aşa bilər, texnoloji cəhətdən bu halhazırda mümkün məsələdir. Ali təhsil sistemi keyfiyyətsiz və zəif olan ölkələrin tələbələri hesabına, (həmin ölkələrdəki tələbələrin gələcəkdə qlobal Meqauniversitetlərə axını gözlənilir) Meqauniversitetlərin sürətli inkişafı realdır. Əmək bazarındakı qlobal rəqabət insanları daha keyfiyyətli təhsil almağa sövq edəcək, beləliklə qlobal təhsil rəqabətində Meqauniversitetlər zəif və kiçik universitetləri "məhv edəcəklər". Belə qlobal təhsil rəqabətində kiçik ölkələr və universitetlərə az sərmayə qoyan ölkələr uduzacaqlar.

Boloniya sisteminə qoşulmaqla Azərbaycan təhsili ali ixtisas təhsilinin modernləşdirilməsini sürətləndirmək, ali məktəblərimiz Avropa komissiyası və beynəlxalq donor fondları tərəfindən maliyyələşən birgə Avropa layihələrində iştirak etmək, tələbə və müəllimlər isə Avropa

universitetləri ilə akademik mübadilə aparmaq imkanları əldə edəcəklər.

Müstəqil Azərbaycanın da, Avropa yönlü bir ölkə kimi, milli ali təhsilin köklü, əsaslı ənənələrini qoruyub saxlamaqla Boloniya prosesinə keçməyi qərarlaşdırması, daha böyük inkişafa hesablanmış dövlət səviyyəli tədbir kimi xüsusi əhəmiyyətə malikdir. Tədricən həmin sistemə keçmək vahid Avropa təhsil məkanına məqsədyönlü şəkildə inteqrasiya olunmasına, ən başlıcası isə, yüksək ixtisaslı mütəxəssislərin hazırlıq səviyyəsinin yüksəldilməsinə imkan yaradacaqdır

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. "YUNESKO-Azərbaycan: gələcəyə körpü", Bakı, "Təhsil", 2005, 160 s.
2. Mərdanov M.Azərbaycanın təhsili dünən, bu gün, sabah. Bakı, "Təhsil",2006, 297 s.
3. Xəlilov S. Təhsil, təlim, tərbiyə. Bakı-Azərbaycan Universiteti Nəşriyyatı, 2005, 650 s.
4. Mahmudov M. Boloniya prosesi və Azərbaycan. ADPU-nun nəşri. Bakı, 2008, 340 s.
5. Şükürov A. "Qloballaşmış cəmiyyətlər": dünən, bu gün, sabah. Bakı-Azərbaycan Universiteti Nəşriyyatı, 2006, 191 s.

Г.Махмудова

БОЛОНСКИЙ ПРОЦЕСС И ОРГАНИЗАЦИЯ КРЕДИТНОЙ СИСТЕМЫ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

Как и в других странах, в Азербайджане образование является важным фактором в формировании общества. В данное время образование играет важную роль в развитие каждого государства, поскольку государство может достичь высоких успехов лишь на основе деятельности умных, способных и научно подготовленных людей. В условиях стремительного развития глобализации значение выысшего образования возросло и требования поставленные перед ними изменились.

G. Mahmudova

BOLOGNA PROCESS IN HIGHER EDUCATIONAL INSTITUTIONS OF AZERBAIJAN AND LOAN SYSTEM

SUMMARY

Each study in the country as well as one of the most important factors that shape society. At present the important role education plays in the development of every country, so that the only intelligent, resourceful, able to develop on the basis of the people who have high science, high achievements can win. Gradually increasing the influence of the modern era of globalization of higher education has increased even more, and it has changed the requirements

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏT STRATEGİYASINDA DİASPOR ƏSAS AMİL KİMİ

Yəhya BABANLI

Açar sözlər: miqrasiya, diaspor, lobbi, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü (31 dekabr), Azərbaycan Respublikası Naxçıvan MR

Ключевые слова: миграция, диаспора, лоббизм, День Солидарности Азербайджанцев Мира (31 декабря), Азербайджанская Республика Нахчыванская АР

Key words: migration, diaspora, lobby, The World Azerbaijanis Solidarity Day (31 December), Republic of Azerbaijan Nakhchivan AR

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması, *diaspor* quruculuğunun *formalaşdırılması* və inkişaf etdirilməsi ən strateji məsələlərdən biri kimi mühüm əhəmiyyət kəsb edirdi. Bu amil milli və bəşəri dəyərlərin qorunması baxımından vacib məsələ olduğu üçün dövlət səviyyəsində müvafiq işlərin görülməsini və müasir dövrün tələblərinə cavab verən mexanizm qurulmasını aktual etmişdi. Diasporla iş dövlətin xarici siyasətinin strategiyanın tərkib hissəsinə çevrilmiş oldu ki, həm vətənin hüdudlarından kənarda yaşayan soydaşlarımız onları birləşdirən, hüquqlarını və mənafelərini müdafiə edən müstəqil dövlətlərinin olduğunu bilsin, həm də yeni müstəqillik əldə etmiş dövlətlərini təbliğində, onun möhkəmlənməsində iştirak etsinlər. Bütün sadalanan amillər nəzərə alınmaqla, yeni dünya nizamında aparıcı aktor kimi gündəmə gəlmiş diaspor (lobbi) fenomeni Azərbaycan Respublikasının istər daxili, istərsə də xarici siyasət kursunda xüsusi yer tutmağa başladı [2]. Tarixin yeni mərhələsində diaspor məfhumu öz funksiyasını daha qabarıq şəkildə genişləndirərək yaşadığımız dövrdə beynəlxalq əlaqələrin vacib atributuna çevrilmişdir. Dünyada inteqrasiya proseslərinin sürətləndiyi bir vaxtda diasporu diplomatiyanın, dövlətlərarası münasibətlərin inkişafında mühüm elementlərindən biri hesab etmək olar.

Vacib ünsür kimi ortaya çıxan digər yeniliklər kimi diaspor da milli özünəməxsusluğunu qorumaqla bərabər, dünyada gedən qloballaşma və

Yəhya Babanlı- AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

modernləşmə prosesində mədəniyyətlərarası dialoqun dinamikasınada böyük rol oynaya bilər. Diaspor potensialından müxtəlif dövrlərdə müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Lakin birmənalı söyləmək olar ki, "milli icma" və "beynəlxalq icma" anlamında olan bu fəaliyyət öz mənşə ölkəsi ilə məskunlaşdığı ölkənin yaxınlaşmasına xidmət edə bilər. Əgər bu siyasət qeyri-düzgün aparılarsa, xalqlararası əlaqələrə anomal təsir göstərəcəkdir. Düzgün olmayan strategiya milli ayrı-seçkiliyin yaranmasına gətirib çıxarar və nəticədə etnik partlayışa səbəb olar. Sadalananların məntiqi nəticəsi kimi, belə qərara gəlmək olar: "Hər bir dövlətin xarici siyasət strategiyasında diaspor amili dünyanın müxtəlif regionlarına səpələnən soydaşlarının etnososial və etnosiyasi təhlükəsizliyinin təminatında əsas şərtlərdən biridir və ya diasporun problemi bütövlükdə milli dövlətçilik üçün problemdir" [2].

Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində diasporla iş sahəsində vahid dövlət siyasətinin müəyyənləşdirilməsi çox vacib idi. Ümummilli lider Heydər Əliyev dünyanın mövcud siyasi mənzərəsinə uyğun Azərbaycan diasporunun təşkilatlanması və tərəqqisinə xüsusi diqqət yetirdi. Azərbaycan Respublikasının xarici siyasət strategiyasında diasporu əsas amil kimi ön plana keçdi. SSRİ-nin süqutundan sonra keçmiş ittifaq respublikalarının, eləcə də dünyanın geo-siyasi həyatında yeni mərhələ başlandı. Azərbaycan xalqı da, SSRİ-nin süqutundan sonra öz müstəqilliyini elan edərək tarixə suveren bir dövlət kimi daxil oldu və qısa zamanda özünü beynəlxalq aləmdə tanıda bildi. Bu, Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda yaşayan milyonlarla azərbaycanlının həyatında böyük dönüş yaratdı. Müstəqilliyin Azərbaycana verdiyi dəyərli töhfələrdən biri də tarixən miqrasiya etmiş və məskunlaşmış azərbaycanlılarla əlaqələrin yaranması, genişlənməsi oldu. Dünya azərbaycanlılarının vahid milli kimlik ətrafında birləşdirilməsi dövlət quruculuğunun əsas vəzifələrindən biri kimi meydana çıxdı. Bu isə cəmiyyət və dövlət quruculuğuna keyfiyyətcə yeni yanaşma tələb edirdi. Bunun əsas zəmini Heydər Əliyevin dünya azərbaycanlılarının arasında böyük nüfuza malik olması, milli ideologiyanın yaradıcısı kimi qəbul edilməsi idi. O, milli təəssübkeşliyimizin baş memarı, özünün dəmir iradəsi ilə müstəqilliyimizin ilk illərində Azərbaycan Respublikasının dünya azərbaycanlılarının hüquq və azadlıqlarının təminatçısı olduğunu

rəsmən bəyan etdi və xaricdə yaşayan azərbaycanlılarla sistemli iş aparılmasına başlandı. Azərbaycanda dövlətçilik təfəkkürü və milli mənlik şüuru hələ ötən əsrin 70-ci illərinin əvvəllərindən keyfiyyətcə yeni mərhələyə keçmiş oldu. O dövrdə, sərt imperiya qadağalarına baxmayaraq, Heydər Əliyev müstəsna siyasi çeviklik və uzaqgörənlik nümayiş etdirərək respublikamızın yüksəlişi üçün misilsiz xidmətlər göstərmiş, mükəmməl siyasi-iqtisadi mexanizm qura bilmişdi. Ümummilli liderin milli-mənəvi köklərimizə bağlılığı azərbaycanlıları birləşdirəcək konseptual idealogiyanın - "Azərbaycançılığın" meydana gəlməsinə vəsilə oldu. Tarixçi alim M.Qasımlının qeyd etdiyi kimi: "Həmin dövrdə, dünya azərbaycanlılarının Vətənlə əlaqəsinə xidmət edəcək hər bir imkandan istifadə edilirdi. Onun (Heydər Əliyevin) təşəbbüsü ilə Azərbaycan KPMK bürosunun 1973-cü il 28 avqust tarixli iclasın qərarı əsasında Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyəti nəzdində xaricdə yaşayan həmvətənlərlə əlaqə şöbəsi yaradıldı". Bu dövrdən başlayaraq, "xarici ölkələrlə mədəni əlaqələrin güclənməsi, tərcümə işinin vüsətlənməsi, xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr cəmiyyətinin ("Vətən" cəmiyyəti) yaradıldı". Bu da xaricdə yaşayan həmvətənlərimizin birliyinə və doğma vətənlə əlaqəsinə xidmət edərək, onlarda ana yurda maraq və bağlılığı artırdı. Bunun davamı olaraq, "1976-cı ilin 5 oktyabr tarixində Azərbaycan KP MK bürosunun Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasında xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin işini yaxşılaşdırmaq tədbirləri haqqında qərar qəbul edildi" [4]. Belə ifadə etmək olar ki, tarixin müxtəlif mərhələlərində dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızı vahid məqsəd ətrafında birləşdirən "azərbaycançılıq" ideologiyasının toxumları bu dövrdən başlayaraq səpilmişdir. Məhz Dünya azərbaycanlılarının birliyi, soydaşlarımızın həmrəyliyi ideyası ümummilli lider Heydər Əliyevin xalqımız və Vətənimiz qarşısında göstərdiyi tarixi xidmətlərindən biridir. Bu məsələdə xüsusi həssaslıq nümayiş etdirərək ilk addımı Heydər Əliyev atmışdır. Məhz onun təşəbbüsü ilə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" 1991-ci il 16 dekabr tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişdir. 1993-cü ilin iyun ayının 15-də xalqın

tələbli təkidi ilə ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra hər bir sahədə olduğu kimi xaricdə yaşayan azərbaycanlılarla iş sahəsində mahiyyət və keyfiyyətcə yeni mərhələ başlandı. O, bu gününün təntənə ilə qeyd olunmasına sərəncam verdi. Bu da ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılar arasında bütövlük və vəhdətin yaranmasında mühüm addımlardan biri olmuşdur. Bir daha harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı əmin ola bilmişdir ki, Azərbaycan Respublikası dünya azərbaycanlılarının tarixi Vətəni və öz ata-baba yurdudur. "Ümummilli lider Heydər Əliyevin bütün xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, onların üzləşdiyi problem və qayğılarla maraqlanır, həmvətənlərimizi yenicə müstəqillik qazanmış respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə çağırırdı" [1]. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Konstitusiyasında da xaricdə yaşayan soydaşlarımız diqqət mərkəzində saxlanılmışdır. Məsələn, Konstitusiyanın müvafiq maddələrinin (Maddə 1, II, Maddə 73, III) bəndlərinə görə «Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir» və ya «Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir» [1]. Xaricdə yaşayan azərbaycanlılarla iş müstəqil ölkənin xarici siyasətinin vacib elementlərindən biri kimi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Əsasnaməsində də öz əksini tapmışdır. Onun vəzifələr və funksiyalar sırasında Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və maraqlarının təmin edilməsi ilə yanaşı, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin və əməkdaşlığın inkişafı da nəzərdə tutulmuşdur. Bu da, xaricdə yaşayan azərbaycanlıların mənafeyinin və əsas azadlıqlarının təmin edilməsi məsələsinin Azərbaycan Respublikasının xarici siyasət strategiyasının əsas prioritetlərindən biri olduğunu göstərir. Bu anlayış hər bir sahədə, hər bir uğurda özünü göstərməyə başladı [7].

Bu sahədə əməli işlər görülsə də, 2000-ci ilin əvvəllərinə qədər azərbaycanlıların təşkilatlanması məsələsi ideoloji məsələ olaraq qalırdı. Dünya azərbaycanlılarının 1-ci qurultayının keçirilməsi haqqında 2001-ci

il mayın 23-də Heydər Əliyevin tarixi sərəncam imzalaması isə bu möhtəşəm məsələnin gerçəkləşməsinə istiqamətlənmişdi. Həmin il noyabrın 9-da və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I qurultayı tarixə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. "Ümummilli lider Heydər Əliyevə məxsus olan bu ideya Azərbaycan diasporunun formalaşdırılması prosesini sürətləndirməyə xidmət edirdi" [2]. Ümummilli liderin qurultaydakı nitqini "Azərbaycanlılar, harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən" fikri ilə başlayıb, "Mən fəxr edirəm ki, azərbaycanlıyam" [6] çağırışı ilə bitirən və bu çağırışın əsas deviz olduğu I qurultay həmvətənlərimizin təşkilatlanması prosesində əhəmiyyətli dönüşə aparan müstəsna addım oldu. Diaspor quruculuğunda mühüm sahələrdən biri də xaricdəki soydaşlarımızla bağlı dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi idi. Heydər Əliyevin diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini, xaricdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələrin genişləndirilməsini və inkişaf etdirilməsini, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanı - Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında 2002-ci il 5 iyul tarixli fərmanı (Müasir dövrün reallıqları nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmışdır), 2002-ci ildə 27 dekabr tarixli "Xaricdə yaşayan Azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" qanunu [6] imzalaması və digər bu kimi işlər bir daha sübut edir ki, dünya azərbaycanlılarının milli təkamülünün təminatçısı Azərbaycan dövlətidir. Diasporumuzun dünyada güclü mövqeyi olan mənfur erməni lobbisinə qarşı dayanıqlı və hazır olmasının təmin edilməsi, Azərbaycanın bir xalq və dövlət olaraq mənafeyinin dünya səviyyəsində diasporumuz tərəfindən də qorunmasının mümkünlüyü baxımından yuxarıda qeyd edilən qərarların həlledici rolu var. Ümummilli lider Heydər Əliyev xarici səfərlərki görüşləri zamanı verdiyi mənəvi stimul nəticəsində həmin

ölkələrdə həmvətənlərimiz təşkilatlanmış, onlar doğma vətən - Azərbaycanla sıx əlaqə yaratmağa başlamış, ayrı-ayrı ölkələrdə diaspor quruculuğu genişlənmişdir. Heydər Əliyev tərəfindən qoyulmuş diaspor quruculuğu işinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirməsinin nəticəsidir ki, hazırda dünya azərbaycanlılarının monolitliyi və daha da güclü qüvvəyə çevrilməsi yönündə dövlət siyasəti uğurla inkişaf edərək yeni müstəviyə qaldırılmışdır. 2006-cı ilin martın 16-da Bakı şəhərində keçirilmiş dünya azərbaycanlılarının II qurultayı yeni mərhələdə qarşıda duran əsas vəzifələri müəyyən etmiş, xaricdə yaşayan azərbaycanlıların birliyi ideyasının yeni dünyanın reallıqları kontekstində həyata keçirilməsinin əsas prinsipləri göstərilmişdir. Prezident İlham Əliyev qurultaydakı nitqində Azərbaycanın milli mənafelərinin müdafiəsi işini xarici ölkələrdə yaşayan soydaşlarımızın hər birinin qarşısında duran prioritet vəzifə kimi dəyərləndirmişdir: "Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir vətəni var- Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək" [6].

2006-cı ilin iyununda Türkiyənin Antalya şəhərində keçirilmiş dünya azərbaycanlı ziyalılarının - mədəniyyət və incəsənət xadimlərinin forumu diaspor quruculuğu işinə yeni məzmun vermişdir. Bu forumun əhəmiyyəti azərbaycanlı ziyalıların diaspor hərəkatına geniş şəkildə cəlb edilməsindən ibarət olmuşdur. XX əsr türk dünyasının görkəmli dövlət xadimləri və siyasətçilərinin bir araya gəlməsi ümumtürk problemlərinin həllinə dair müzakirələr aparması, düşüncələri və təklifləri ilə bu işə töhfələrini vermələri forumda xüsusi vurğulanmışdır. Qeyd edilməlidir ki, tarixi bağlılıq və əlaqələr, etnik yaxınlıq, mədəniyyət və dil ortaqlığı, eyni zamanda regionda və dünyada strateji əməkdaşlıq əlaqələrinin mövcudluğu və türk dünyasının dahi şəxsiyyətləri M.K.Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", H.Əliyevin "Biz bir millət, iki dövlətik" fikirlərinə söykənən Türkiyə-Azərbaycan dostluğu bu gün inkişaf etdirilməkdədir. Bunun bariz göstəricisi olaraq, 2007-ci il martın 9-da Bakıda Azərbaycan və türk diaspor rəhbərlərinin I Forumu keçirilmişdir [5]. Forumda türk dövlətləri arasında strateji ortaqlığın inkişaf etdirilməsi, diasporlararası iş birliyi, türk tarixi, sosial-iqtisadi

inkişaf, mədəniyyətlə əlaqəli faktların dünya ictimaiyyətinə çatdırılması, ayrı-ayrı ölkələrdə yaşayan türklər arasındakı münasibətlərin qurulması və yaşadıqları problemlərin aradan qaldırılması sahəsində müzakirələr aparılmışdır. Bundan başqa forumda türk-Azərbaycan diaspor təşkilatları ortaq fəaliyyət protokolu, dünya türklərinə müraciət, Bakı bəyannaməsi, Ermənistanın Azərbaycana təcavüzü və ermənilərin Türkiyəyə qarşı terror və soyqırımı sayıqlamalarına qarşı bəyanat, Ermənistanın Azərbaycan torpaqlarının işğalını pisləyən qərar, sözdə erməni soyqırımını qəbul edən ölkələrə etiraz bəyanatının protokolları qəbul edilmişdir. Forumun nəticələri Türkiyə və Azərbaycan diaspor təşkilatlarının sıx birləşməsinə, Azərbaycan və türk xalqlarının birliyinin və milli mənafelərinin təmin edilməsinə, hər iki dövlətin maraqlarının qorunmasına, tarixin sınaqlarından çıxmış dostluq tellərinin möhkəmlənməsinə öz töhfəsini vermiş və taleyüklü məsələlərin (erməni məsələsi və s.) həllində mühüm rol oynamışdır. Eləcə də diasporumuzun digər bizə yaxın ölkələrin diasporları ilə tərəfdaşlıq məsələsi bu gün diqqət mərkəzindədir. Bu baxımdan Azərbaycan həqiqətlərini dünyada daha ətraflı təqdim etmək, diasporumuzun güclənməsi yolunda olan maneələri daha asan dəf etmək olar. Çünki, digər güclü diasporlarla bu cür tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin qurulması buna daha çox imkanlar açır.

2007-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında da xaricdə yaşayan azərbaycanlıların hüquq və əsas azadlıqlarının təmin edilməsi, onların milli özünəməxsusluğunun və dəyərlərinin qorunub saxlanılması kimi məsələlər öz əksini tapmışdı [9]. "Dünya Azərbaycanlılarının III Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2011-ci il tarixli, 1293 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı Tədbirlər Planı"na əsasən 2011-ci il iyul ayının 5-6-da Bakı şəhərində keçirilməsi yuxarıda sadalanan faktları özündə təzahür etdirir.

Hazırda milli diasporla bağlı məqsədyönlü siyasət yeni çalarlarla davam etdirilməsinin bir göstəricisi isə qabaqcıl gənclərimizin mütəşəkkilliyi uğrunda uğurlu təşəbbüslərin reallaşdırılmasıdır. Məsələn, 2009-cu ilin aprel ayında Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin təşəbbüsü ilə yaradılan Rusiyanın Azərbaycanlı

Gənclər Təşkilatı fəaliyyət göstərdiyi dövr ərzində Rusiyada yaşayan və təhsil alan soydaşlarımızı öz ətrafında birləşdirən, onların Rusiya cəmiyyətinə inteqrasiyasına dəstək verən güclü bir quruma çevrilmişdir [9]. Azərbaycanın Rusiyada yaşayan və çalışan vətənpərvər, qabaqcıl, intellektual gənclərinin bir araya gəldiyi adıçəkilən təşkilat artıq nəhəng ölkənin ictimai arenasında uğurlu debütü ilə diqqət çəkməkdədir. Belə ki, bu mobil təşkilat bu ölkədə yaşayan gənclərimizi bir araya gətirməklə onların Rusiya cəmiyyətinə və elitasına inteqrasiyasını təmin etmək və Azərbaycan mədəniyyətini təbliğ etmək yönündə uğurlu fəaliyyət göstərir. Dünyanın inkişaf etmiş bir sıra dövlətlərində, böyük şəhərlərində azərbaycanlı gəncləri, tələbələri birləşdirən daha bir mütəşəkkil təşkilatın yaradılması da bu yöndə təşəbbüslərin intensivləşdiyini və artıq məqsədyönlü xarakter aldığını göstərir. Xarici ölkələrdə təhsil alan və yaşayan, həmin ölkələrdə təşkilatlanmaqla Azərbaycan həqiqətlərini şüurlu şəkildə dünya ictimaiyyətinə çatdıran, ölkəmizin müsbət imicinin formalaşmasına öz töhfələrini uğurla verməyə başlayan gənclərimizin sayı çoxalmaqdadır. Dövlətin gənclərimizin xaricdə təhsil alması ilə bağlı proqram reallaşdırması və dövlət hesabına xaricdə təhsil alan gənclərimizin sayının çoxalması isə bu işdə daha da səmərəli nəticə əldə etməyə münbit şərait yaradır. Bu isə müəyyən mənada ali təhsilli gənclərimizin təmsil olunduğu, onların təşəbbüsü ilə yaradılmış təhsil diasporunun formalaşmağa başladığını xəbər verir. Ümumilikdə diasporumuzun güclənməsi işinə çox güclü təkan verəcək bu proses - qabaqcıl, ali təhsilli gənclərimizin aparıcı ölkələrdə təşkilatlanması və ölkəmizi arzu olunan səviyyədə təbliğ etməsi dövlətin diasporla bağlı siyasətində artıq keyfiyyətcə və mahiyyətcə yeni bir mərhələnin - lobbiçilik fəaliyyətinin başlandığını göstərir. Bu isə qeyd edildiyi kimi, Azərbaycan diasporunun milli və bəşəri təhlükəsizlik naminə daha da əlbir olmasını şərtləndirir. Sonda belə nəticəyə gəlmək olar ki, hər bir xalqın dünyəvi özünüifadəsi üçün kifayət qədər diaspor potensialının olması zəruridir. Bu gün dünyada təqribi sayı 50 milyon olan azərbaycanlıların missiyası Azərbaycan naminə həmrəyliyinin daşıyıcısı olmaqla yanaşı, dövlətlərarası münasibətlərin inkişafına müsbət təsir göstərməkdir.

Bu xüsusda, milli diasporumuz müasir dövrün çağrışlarına, qloballaşan dünyamızın reallıqlarına uyğun öz fəaliyyətini davam etdirilməlidir.

Yeni mərhələdə bu siyasət daha geniş şəkildə həyata keçirilməlidir. Azərbaycanın milli dövlətçiliyinin möhkəmlənməsi və müstəqilliyimizin əbədiliyinə xidmət etməlidir. Müasir Azərbaycan diasporu Heydər Əliyevin milli diaspor strategiyasının Naxçıvandan başlayan diaspor quruculuğu üzərində davam etdirilməlidir ki, Azərbaycan Respublikasının xarici siyasətində diaspor mühüm elementə çevrilməklə diplomatiyanın inkişafında xüsusi yerə və rola malik olsun. Hazırda milli diasporumuz beynəlxalq əməkdaşlığın iştirakçısı olmaqla, dövlətlərarası münasibətlərin inkişafında subyektə və xalqlararasında gedən sürətli inteqrasiya proseslərin iştirakçısına çevrilmişdir. Diaspor fəaliyyətini daha da səmərəli etmək üçün geniş iş aparılmasına ehtiyac vardır. Diasporun birliyi tam qorunmalı, onun lobbiyə çevrilməsinə səy artırılmalıdır. Diaspor təşkilatlarımızla elmi əlaqələrin inkişafına diqqət yetirilməlidir. Bu sahədə dünyadakı klassik diaspor (lobbi) təcrübəsindən geniş istifadə olunmalıdır. Azərbaycan diasporunun marifləndirilməsi işi genişləndirilməlidir. Dünyada ölkəmizin haqlı mövqeyinin dəstəklənməsi və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində diaspor və lobbimiz səylərini artırmalıdırlar.

Bildiyimiz kimi, müasir dövrdə baş verən qlobal proseslərdə milli-mədəni müxtəlifliyin, multikulturalizmin qorunub saxlanılması mühüm əhəmiyyət kəsb edir. İstər xalqlararası, istərsə də, dövlətlərarası münasibətlərin inkişafında etnik dəyərlərə hörmətlə yanaşılmalı, milli maraqları hər şeydən üstün tutulmalıdır. Həmin məsələlərin reallaşmasında ictimaiyyətin üzərinə böyük iş düşür. Məhz "milli icma" və "beynəlxalq icma" anlamı ilə yanaşı, diaspor amilinin "xalq diplomatiyası" statusu tam qəbul olunarsa bu boşluğun doldurulmasında xüsusi missiyanı reallaşdıra, dövlətlərarası münasibətlərdə, etnik-milli münaqişələrin həllində vasitəçi rol oynayacaq missionerə çevrilə bilər. Bunun üçün isə diasporun fəaliyyətinə geniş imkanlar yaradılmalı və inkişafına dəstək verilməlidir.

Zənnimizcə, diaspor fəaliyyətinin səmərəliliyini gücləndirmək üçün aşağıdakı nəticələrə gəlmək olar:

1. Xarici ölkələrdə çoxsaylı Azərbaycan diasporunun fəallığını artırmaq və onun fəaliyyəti dünya arenasında ölkəmizin xarici siyasətini dəstəkləməyə doğru yönəldilməlidir;
2. Dövlətin diaspor siyasəti dövrün tələblərinə uyğun təkmilləşdiril-

məli, rəsmi şəxslər, xaricə gedən nümayəndə heyətləri soydaşlarımızla müntəzəm görüşməli, diaspor nümayəndələrinə baş çəkməli və onların vəziyyəti, problemləri ilə yaxından maraqlanmalıdır;

3. Diasporun ümummilli məsələyə çevrilməsi üçün təbliğat işi genişləndirilməli və nüfuzlu azərbaycanlıların bu işə cəlb edilməsi istiqamətində işlər aparılmalıdır;
4. Elm-təhsil müəssələrində bu sahəyə xüsusi diqqət yetirilməli və tələbə-gənclər arasında diaspor şüurunun formalaşdırılması istiqamətində proqramlar hazırlanmalıdır;
5. Diaspor fəaliyyətinə müxtəlif dövrlərdə Azərbaycanda təhsil almış, işləmiş, eləcə də azərbaycanlılarla nikaha girmiş şəxslər və qarışıq nikahdan doğulanlanlar da cəlb edilməlidir;
6. Diaspor təşkilatlarına rəhbərlik edən liderlər düzgün seçilməli və diasporun bütün zümrəsi tərəfindən qəbul olunan şəxs olmalıdır;
7. Lobbiçiliklə bağlı konsepsiya qəbul olunmalı, dövrün və şəraitin tələbləri nəzərə alınaraq həyata keçirilməlidir.

Hər bir qitədə ayrı-ayrılıqda birləşmiş diaspor təşkilatı yaradılsa və ümumdünya azərbaycancanlılar konqresi təsis olunsa bu ancaq ümumi işin xeyirinə olar. Beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsinin və müvafiq status alınmasının zamanı artıq yetişmişdir. Azərbaycan diasporunun inkişafına dəstək olmaq və bu istiqamət üzrə fəaliyyət göstərən təşkilatların maddi-texniki bazasını gücləndirmək üçün proqramları qrant şəklində məqsədli maliyyələşdirmək səmərəli nəticə verə bilər. Bu sahədə seminar, dəyirmi masa, nəzəri-praktiki konfrans, simpozium və digər tədbirlərin təşkili üzrə layihələri dəstəkləmək məqsədilə diaspor fondunun yaradılması da günün tələblərindən hesab oluna bilər.

Bütün bunların reallaşması beynəlxalq sülhün, əmin-amanlığın yaranmasına və sivilizasiyalararası əməkdaşlığın genişlənməsinə, eləcə də, dövlətlərarası münasibətlərin inkişafına öz töhfəsini verə bilər.

MƏNBƏ VƏ ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan diasporu: Böyük yolun başlanğıcı. Bakı, Çaşıoğlu, 2006. s.208
2. Babanlı Y. Heydər Əliyev və Azərbaycan diasporu. İki Sahil, 2009. 13 iyun. № 109, s.8.
3. Babanlı Y. Azərbaycançılıq ideyası azərbaycanlıların milli birliyinin təminatçısıdır. Palitra, 2010. 4 may. № 47, s.5.

4. Qasımlı M. Heydər Əliyev-İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006. s. 608.
5. Seyid Əhməd Arslan: "Azərbaycan-Türkiyə böyük birliyini bütün türk cümhuriyyətlərinə arzulayıram". Xalq qəzeti, 2012. 31 dekabr. s.10
6. http://diaspora.gov.az/
7. http://www.mfa.gov.az/
8. http://mtn.gov.az/
9. http://www.amor.az/

Y.Babanli

DIASPORA AS (LIKE) BASIC FACTOR IN FOREIGN POLICY STRATEGY RESPUBLIC of AZERBAIJAN

SUMMARY

The research paper recounts about the establishment of relations with the Azerbaijanis living abroad after the restoration of state independence of the Republic of Azerbaijan. Diaspora was analyzed as a basic faktor in the strategy of forinq policy of independent

Я.М.Бабанлы

ДИАСПОРА КАК ОСНОВНОЙ ФАКТОР В СТРАТЕГИИ ВНЕШНЕЙ ПОЛИТИКИ ОПРЕДЕЛЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

РЕЗЮМЕ

Научная статья повествует о налаживании связей с азербайджанцами, проживающими за рубежом после восстановления государственной независимости Азербайджанской Республики. Диаспора была проанализирована как основной фактор стратегии внешней политики независимой Азербайджанской Республики.

QACARLAR DÖVLƏTİNİN SİYASİ STRUKTURU

Tahirə SALMANİPUR

Açar sözlər: Qacar sülaləsi, şah, saray, hakim
Ключевые слова: династия Каджаров, шах, дворец, судья
Keywords: the Qajar dynasty, Shah, palace, judge

Qacarlar səltənətinin möhkəmlənməsi nəticəsində xüsusi siyasi qüdrət quruluşu yarandı və bu sülalə də uzun müddət hakimiyyətdə qaldı. Qüdrəti formalaşdıran və onun təşkilatını yaradan ünsürlər elə mənbə yaxud mənbələrə söykənir ki, siyasi qüdrət təşkilatının təbəqə əsasını yaradır. Qacarların siyasi qüdrət quruluşu özünə güvənən rejimə əsaslanırdı. Şah əsas rol oynayırdı, hakimiyyətin bütün ixtiyar və məsuliyyətləri padşahın adı ilə bağlı idi.

İranda siyasi qüdrət oyunçuları hakim və şahzadələr idilər ki, onların başında vəliəhd dururdu. Ondan sonra saray adamları, divan işçiləri, böyük əyalətlərin başçıları və xanlar şah səltənətinin və Qacarlar hökumətinin möhkəmliyində əsas rol oynayırdılar. Şah və qüdrət ünsürləri məcmusunun arasında qarşılıqlı bir əlaqə vardır. Belə ki, Qacarların istibdad hökumət sistemində dövlət, saray, şah bir-birindən ayrılmaz hissələri təşkil edirdilər.

Siyasi quruluşu təşkil edən qrupların hər biri fərqli dərəcələrdən təşkil olunurdu ki, bəzən onların ən yuxarı və ən aşağı dərəcələri arasında böyük fərq olurdu. Buna görə də bu məqalədə Qacarlar dövründə siyasi qüdrət dərəcələrinin qısa şəkildə ümumi təsvirini verməyimiz yerinə düşər.

Qacar şahlarının hakimiyyət dövrü qüdrətli Zənd hakimiyyəti üzərində Ağa Məhəmməd xanın hərbi qələbəsi ilə başlanmışdır. Qacarların qələbəsi və onların hakimiyyətə gəlişini siyasi quruluş baxımından yerli hakim birliyinin tərkibi səviyyəsində bir yerdəyişmə kimi qiymətləndirmək lazımdır. Qacarların türk əyalətləri ölkənin siyasi hakimiyyətinin əsas quruluşu və fəqərə sütununu təşkil edirdi (1, s.14). Siyasi mütləqiyyət və özünə güvənmə qüdrətin əsas xüsusiyyəti sayılırdı.

Salmanipur Tahirə-AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

Şah özünə güvənirdi və hər bir şey şahın iradəsi və istəyi ilə yerinə yetirilirdi. Çox qeyri-məhdud idi, belə ki, bütün ictimai, siyasi, iqtisadi, hətta mədəni sahələrə nəzarəti vardı(16, s. 394).

Qacarların siyasi qüdrətinin ağırlıq mərkəzi şah idi, digər fərdlər və təbəqələr bu mərkəzə yaxınlığa görə əhəmiyyət qazanmışdılar, onlar yalnız bu mütləq qüdrətlə əlaqədə olduqları miqdarda siyasi quruluşda mövqeyə malik idilər. Başqa sözlə, özünə güvənən sistemdə şah siyasi quruluşun davamlılıq amili sayılırdı.

Sərcan Mülküm Qacar qüdrət quruluşunda padşahların rolu haqqında yazır: "İran padşahları deyilmişdir ki, bütün dünya sultanlarından daha qüdrətlidirlər. Vəzirlər, qazilər, mənsəb sahiblərinin təyini və çıxarılmasında ixtiyar sahibidirlər". (18, s. 389)

Sərcan Mülkümün dediklərindən aydın olur ki, Qacar şahı bütün ölkə işləri və hərbi işlərin idarəçiliyində yeganə səlahiyyətli şəxsdir. Qacar şahı şəxsi iradə və istəyinə əsasən insanların mallarının müsadirəsi fərmanını verir. Belə ki, hətta əmilər, qardaşlar, qardaş oğulları, onun özünün övladları, məmləkətin böyük adamları belə şahın hərəkətlərindən amanda deyildilər (1, s. 17).

Con Furan Qacarların hakimiyyətinin ilk dövründə Qacar şahlarının istibdadının yayılması haqqında yazır: "Şah keçmişdəki kimi mütləq və geniş qüdrətə malik idi. Müharibə əmri, sülh sazişi, müqavilə bağlanması, tiyulun verilməsi, münasib hədiyyə, vergilərin təyini onun ixtiyarında idi.

O, ölkənin hüquq sistemində ən ali orqan sayılırdı. Ölkənin bütün vətəndaşlarının ölüm və yaşama ixtiyarı onun əlində idi. Şah ölkə vətəndaşlarından hər birinin malına iddia qaldıra bilərdi. Bütün bunlar İran hökumətinin istibdad rejimindən xəbər verirdi. Bu istibdad dövlətin ən aşağı səviyyələrinə qədər davam edirdi" (11, s. 216).

Qacarlar dövründə hökumət sistemi keçmiş dövrün istibdadının davamı idi, müxtəlif dövrlərdə olan rejimlərin mahiyyət və xüsusiyyətlərinə malik idi. Şah bütün işlər üçün rəsmi şəxs idi, hər bir qüdrət şahdan qaynaqlanır, sonda şaha qayıdırdı(9, s. 327).

Qacarların hökuməti sistemində saray və padşah bir-birindən ayrılmaz hissələr idilər. Şah hakimiyyətin başında dururdu ki, qanunilyini yalnız öz şəxsi mövqeyi, əslində isə fərdi qüdrəti sayəsində əldə etmişdi.

Onun qüdrəti şəxsi və qeyri-məhdud idi. Ölkənin vəziyyəti şahın şəxsiyyəti, xarakterinə bağlı idi (17, s. 26).

Corc Kerzon "İran və İran hadisəsi" əsərində yazır: "Şah praktiki olaraq ölkənin bütün işlərinin hərəkət oxudur, dövlətin bütün hüquq, icra və qanunvericilik işlərini bir yerdə əlində saxlayır"(12, s. 513).

Qacar sistemində şahın qüdrəti qarşısında heç bir adi ya qanuni məhdudiyyət növü yox idi. Məmləkətin bütün resurslarından bəhrələnmək hüququ şahın hüquq və imtiyazlarından idi və onun ölkə əhalisi üzərində tam mülkiyyət hüququ var idi.

Şah təkcə insanların canının sahibi deyil, həm də şahzadələrin canının və mülkünün sahibi idi. Hətta şahzadə və sədrəzəmlərin də malının və canının təminatı yox idi. Şahzadə və sədrəzəmlərin edamı da adi bir iş olmuşdur (20, s. 89).

Şah özünə haqq qazandırırdı ki, ölkəni öz şəxsi dövləti və ərazisi bilsin, özünü islam dininin himayəçisi və müdafiəçisi, Allahın kölgəsi saysın. Şahın tabeliyində olanlar onu dinin pənahı və aləmin mərkəzi sayırdılar(10, s. 20).

Qacar şahları özlərini yerdə Allahın nümayəndələri sayırdılar. Amma dini rəhbərlərin baxışında ilahi qüdrətin qəsbkarları idilər. Taxtlarının ayaqlarını müqəddəs sayan hakimlər öz iradələrinin icrası üçün vasitə tapmır, tayfa başçıları, dini rəhbərlər kimi kiçik şahlar vasitəsilə hakimiyyət sürürdülər. Şahlar sözdə mütləq qüdrət sahibi olsalar da, amma əməldə siyasi bacarığa malik deyildilər(4, s. 37).

Müstəbid Qacar rejimində bu sülalə padşahlarının qüdrətinə xoş münasibət bəsləyənlər də vardı. Bu amillərin arasında siyasi quruluşu dini etiqadlarla uyğunlaşdıran ruhaniləri göstərmək olar.

Padşahlar haqqında səmavi mənşəyə etiqad həmişə iranlıların arasında və tarixi mətnlərdə mövcud olmuşdur. Bu inanca əsasən padşahlar digər bəşər növlərindən ayrıdırlar, ilahi mərhəmət vasitəsilə kamal və idrak dərəcəsinə çatmışlar ki, digər bəşər növləri onun dərkindən acizdirlər (1, s. 19).

Bu məsələyə toxunmuş müəlliflərdən biri yazırdı: "Praktikada şahın qüdrəti dövlət idarəçilik divanı və sabit ordunun olmaması səbəbindən çox məhdud idi. Şahın həqiqi qüdrəti paytaxtdan keçmirdi. Həmçinin onun

qüdrəti nüfuzlu yerli əyanların himayəsi olmadan o qədər də çox deyildi" (4, s. 28).

Əyalət və vilayətlərdə şahzadələrin möhkəmlənməsi səltənətin əsaslarının möhkəmliyini artırırdı. Hökmranlıq məqamında şahzadələrin davamlılığı səltənətin davamlılığını zəruri edirdi, həmçinin şahın nüfuz və qüdrət dərəcəsinin göstəricisi idi. Hər biri qrup səltənətinin möhkəmliyi uğrunda çalışırdı.

Bütün hərbi qüvvələr şahın ixtiyarında idi, onun aşkar şəkildə şəriətə zidd olmayan istənilən sözü qanun sayılırdı və ölkənin siyasi sistemində bütün vəzifələri öhdəsinə götürmək onun sədaqətinin göstəricisi idi. Şah ölkənin idarəsi üçün hiylə, separatçı qüvvələr, toplantı, milli və dini təəssüblərin təhrikindən öz təhlükəsizliyinin qorunması üçün istifadə edir və sonra özü də zərurət olanda araçı kimi onları barışdırırdı.

Şah tanınmış hakimlərin başında dururdu və onun hökuməti əsasən istibdad xarakteri daşıyırdı. Qacarlar qüdrətinin əsasında iki dəstə hakimlər dururdu. Birinci mərkəzi dəstəyə Qacar tayfa başçıları, şahzadələr, saray adamları, tyuldarlar, mostofilər, vəzirlər, hakimlər, əs-Səltənə, əd-Dövlə, əl-Mülk, əl-Məmalik kimi ləqəbləri olan əyan-əşrəflər daxil idilər. Bunlar şahın yaxınları və ətrafındakıları təşkil edirdilər. Dövlətin vəzir, böyük əyalətlərin rəhbərliyi, böyük qoşun mənsəbləri onların ixtiyarında idi.

İkinci yerli dəstəyə yerli əyan-əşrəflər, xanlar, yerli məqam sahibləri, mirzələr daxil idi. Dövlətdə dini məqamı olan ruhanilər imam-cümə, şeyxül-islam və qazılar idi. Əlbəttə, ruhaniləri adətən Qacarlar qüdrətini təşkil edən əsas hissələrin biri kimi qəbul etmirlər(1, s. 23).

Bu hakimlər hökumətin əsas sütunlarından sayılsalar da, onlardan heç biri şahın qüdrətindən önə keçə bilməzdi. Buna görə də sarayın bütün ünsürləri – vilayət hakimləri, qoşun başçıları cəmiyyətin kiçik hissəsini təşkil edirdilər ki, şahın mütləq qüdrətini nəzərdə tutmaqla yeni təbəqələrin inkişafı üçün şəraiti aradan qaldırırdılar.

İranda siyasi qüdrətin əsas oyunçularından biri şahzadələr idi ki, onların başında da vəliəhd dururdu. Vəliəhd qədim Qacar adətinə əsasən uşaqlıq yaşında seçilir və İranın əsas hökumət məqamına, yəni Azərbaycana gəlirdi. Onun iqamətgahı Təbrizdə idi. Vəliəhdin qüdrəti atasının qüdrətindən az deyildi. Onun öz əyalətində vəzirləri vardı. O,

ixtiyarında olan qoşunla mərkəzi hökuməti qüvvətləndirir, səltənət, vəliəhdlik məqamı iddiaçılarını əzir, üsyankar xanlar və rəhbərləri məhv edirdi (13, s. 449).

Fətəli şah öz oğlanlarına Naib üs-səltənə, Zillus-Sultan, Hakim, Hüsamüs-səltənə, Azad Məlik, Dövlətşah və s. ləqəblər verirdi. Öz xanım və qızlarını isə Şəmsüd-dövlə, Qəmərüs-səltənə və s. ləqəblərlə səsləyirdi.

H.q. 1220-ci ildən (1890) tədricən hakimlik İran əyalətlərindən sultanın birbaşa şəxsən israrı ilə oğlanlarına tapşırıldı(16, s. 394).

Qacar sultanları dövründə şahzadələr özbaşına hakimlər kimi İranın müxtəlif əyalətlərinə göndərilirdilər ki, ixtiyarlarında olan mühafizəçilərin köməyi ilə şahın mənafeyi və siyasi qüdrətini yerli hakimlərin qarşısında qorusunlar. Bu xidmət müqabilində şahzadə və yerli hakimlərin şəhərlər, əyalət və bölgələri şəxsən əldə etmək, onların bəzisini şaha vermək, qalanını özləri üçün saxlamaq hüquqları vardı. Buna görə də şahzadələr və yerli hakimlər qısa müddətdə varlanırdılar(17, s. 26).

Nasirəddin şahın hakimiyyətinin əvvəllərində yeni bölgü aparan çoxlu şahzadələr vardı ki, bu bölgünün həm sinfi, həm siyasi mahiyyəti vardı, qan və nəsil məsələsi əsasında formalaşmışdı.(1, s. 26)

Şahzadələri vilayət və əyalətlətin hökmranlığına təyin etmək siyasi baxımdan mühüm nəticələr yaratmışdı ki, onlardan ən mühüm olanları aşağıdakılardan ibarətdir: Səltənət və Qacar tayfasının hakimiyyətinin əsasının möhkəmləndirilməsi, əyalət və vilayət saraylarının yaradılması, şahzadələr arasında böyük mülkiyyətçi təbəqəsinin yaranması.

Şahzadələr bəzi hallarda nəinki siyasi sabitlik amili sayılır, bəzən böhran amili kimi də qiymətləndirilirdilər. Bu məsələ çox yerlərdə təzahür etmişdi (1, s. 26).

Qacar cəmiyyətində dövlət, saray və ya o dövrün təbirincə desək "evin qapısı" bir-birindən ayrılmaz idi. Ağa Məhəmməd xanın hakimiyyəti dövründə divan təşkilatı şah, azsayda ləşkərnevis və mostovfidən ibarət idi (20, s. 93).

Ağa Məhəmməd xan hərbi, maliyyə, ədliyyə, xarici işlər nazirinin işini özü idarə etdiyi üçün keçmiş zənd sarayından yalnız üç vəzifə götürmüşdü: Bir mustofi, bir ləşkərnevis (əsgərlərin sayını yazan), Hacı İbrahim xan Kələntərin tutduğu vəzifə saray naziri (4, s. 35).

Bütün işlərə özü rəhbərlik etdiyi Fətəli şah və digər Qacar şahlarının dövründə divan təşkilatı tədricilə daha da genişləndi. Bu dövrdən sonra divan və idarə təşkilatı aşağıdakılardan ibarət idi: sədr-əzəm, mustofiul-məmalik, münşiül-məmalik, sahib-divan, müəyyirül-məmalik, xətibül-məmalik, münəccimbaşı.

Bu təşkilat Fətəli şahın dövründə ölkədə idari islahatların aparılması nəticəsində tədricilə dəyişir, "Böyük saray nazirliyi" və "Dövlət" formasına gəlmişdi (19, s. 34).

Qacarların hakimiyyəti dövründə saraydakılar hökumətin əsas sütunlarından birini təşkil edirdilər. Onlar özləri daha kiçik üç qrupdan təşkil olunmuşdular: "səltənət ailəsi", "sədr-əzəm və saray heyəti" və "alirütbəli divan və qoşun məmurları". Aydındır ki, səltənət ailəsindən məqsəd şah, onun hərəmi, hökumətin nəbzi əllərində olan Qacar tayfasının başçıları idi (2, s. 328). Sədr-əzəm və saray heyəti alirütbəli divan məmurları ilə birlikdə divanın böyük qrupunu təşkil edirdilər ki, ölkənin idari işləri onların öhdəsində idi.

Sədr-əzəm divan rəhbərlərinin başında birinci şəxs idi. Sədr-əzəmlərin İran tarixində böyük rolu olmuşdur. Buna əsasən demək olar ki, sədr-əzəmin əsas və hüquqi vəzifəsi Qərb ölkələrindən təqlid olaraq İranda nazirlər kabinetinin təşkilinə kimi sarayın nazirliyi idi. Yalnız sədr-əzəm səltənət qüdrətini yaxşılaşdıra, ölkə işlərinin islahını apara bilərdi (9, s. 339).

Saraydakıların digər qrupunu alirütbəli hərbi məmurlar təşkil edirdi ki, onlar da həm şahzadələr, həm də divan adamları arasından seçilirdilər. Onlar hərbiçi adı almaqla çox şey əldə edirdilər.

Dövlət adamları adətən qacarların birinci dərəcəli ailələrindən, sonra varlı ailələrdən seçilirdi. Qohumları himayə etmək hər yerdə yayılmışdı, irsiyyətə hədsiz meyil nəzərə çarpırdı (14, s. 184).

Əsrin əvvəllərində divan üzvləri tayfa başçıları və varlı təbəqənin adamları idi. Onların əksəriyyəti savadlı adamlar idilər və divan təşkilat ənənəsi onların vasitəsilə bir əsrdən digər əsrə ötürülürdü. Onlar tayfa başçılarının əksinə olaraq nadir hallarda hərbi işlərə əl atırdılar. Divan təşkilatının dolaşması ilə cəmiyyətin digər üzvlərinə nisbətən divan rəhbərlərinin vəziyyəti daha parlaq oldu. Varlı təbəqə və tayfalar arasında fərq bir tərəfdən, divan təbəqəsi digər tərəfdən müəyyən qədər aradan

getdi. Divan üzvlərinin bir çoxu böyük torpaq sahiblərinə çevrildilər (14, s. 184).

Qacar tayfası 1780-90-cı illərdə tədricilə ölkəni öz hakimiyyəti altına aldı. Qacarların həyat sistemi çox türk tayfaları kimi el yaşayışına əsaslanırdı. Fərdin qüdrət və məqamı yox idi, fərdi hüquq cəmin hüququnun nəzarəti altında idi. Başçıya itaət əsas idi, fərdi yaradıcılıqlar onun nəzarəti altında olmalı idi. İctimai və siyasi sistemdə vəzifələrin bölgüsü qohumluq əlaqələrinə əsaslanırdı. (8)

Səltənət mədəniyyəti də tayfa mədəniyyəti kimi fəaliyyət göstərirdi. Elatdan olan qacarlar elə bir sistemə malik idilər ki, onların böyüyü şahla yanaşı qüdrətə malik idi. Onun qüdrəti mütləq idi, onun iradə və hakimiyyəti müqabilində heç bir maneə yox idi (5, s. 51).

Elat başçıları elatın ictimai-siyasi birliyinin simvolu idilər, bu da qüdrət qazanmaq üçün onların potensialının əsasını təşkil edirdi. Digər tərəfdən, elat öz adamlarını qorumaq üçün qüdrətli silahlı qruplara malik idilər. Siyasi, hərbi və silahlı qüvvələr rəhbərliyinin yaranması elat başçılarına belə bir imkan verirdi ki, əlverişli şərait yarandığı təqdirdə siyasi qüdrətə yiyələnsinlər. Elat başçılarının qüdrəti el qüvvələrindən qaynaqlanırdı ki, onları ən tez zamanda toplayıb zərurət olanda şahın köməyinə göndərirdilər (14, s. 183).

Elat başçılarının əsas vəzifəsi şah ordusu üçün hərbi təminat və dövlət vergilərinin toplanışı idi. Onlar vəzifələrinin icrası müqabilində böyük torpaq sahiblərinin imtiyazlarından bəhrələnirdilər.

Elat başçılarının qüdrəti haqqında mühüm məsələ bu idi ki, onların hərbi qüdrəti, şahın tiyul ərazisinin genişlənməsi, çox vaxt mərkəzdənqaçma və dövlət əleyhinə üsyanlarla nəticələnirdi. Bu problem həmişə Qacar dövlətinin başının üstünü alır və zaman-zaman onlar üçün problem yaradırdı. Ümumilikdə elat başçıları mərkəzi hökumətlə münasibətdə həmişə ikili rol oynayırdılar: bir tərəfdən hökuməti dəstəkləyirdilər, digər tərəfdən mərkəzdən qaçma səbəbindən mərkəzi qüdrətlə üz-üzə dururdular. Amma, ümumiyyətlə, qacarlar elatların böyük əksəriyyəti tərəfindən dəstəklənirdilər.

Vilayət və əyalət hakimləri birbaşa şah ya sədr-əzəm tərəfindən təyin olunurdular və öz vəzifələrində nisbətən mütləq hakimiyyətə malik idilər (7, s. 360).

Onlar şah kimi bütün ixtiyarı öz əllərində cəmləmişdilər. Ərazi vergiləri, orduya əsgər qəbulu, gömrük rüsumlarının toplanılması mərkəzi hökumət qarşısında onların vəzifələrindən idi. Hakimlərin təşkilati vəzirləri də vardı və onlar idarəetməni öz istədikləri kimi aparırdılar. Xüsusən, şahzadə olan hakimlər daha müstəqil idilər. Onlar divan göstərişlərinə diqqət etmir, yalnız şahın razılığını qazanırdılar.

Ölkənin əyalət və vilayətləri iki hissəyə bölünürdü: siyasi, iqtisadi, yaxud xüsusi sərhəd bölgəsində yerləşmə səbəbindən şahın və sarayın nəzərində xüsusi əhəmiyyəti olan əyalətlər. Belə əyalətlərdə bacarıqlı və məşhur adamlara vəzifə verirdilər. Ümumilikdə isə buraya birincidərəcəli şahzadələrdən seçilirdilər.

İkinci qrup əyalət və vilayətlər az əhəmiyyət daşıyırdılar ki, onlara hakim təyin edilməsi o qədər də həssaslıq tələb etmirdi, hökmdar daha çox sədr-əzəm və divan tərəfindən şaha təklif olunurdu, şah da onların hökmünü təsdiqləyirdi (1, s. 41).

Qacarlar dövründə divansalarlıq təşkilatı Səfəvilər dövründəki nümunəyə əsaslanırdı ki, onun da kökü keçmişə gedib çatırdı. Bütün məmurlar şahın nümayəndələri sayılırdılar. O, istədiyini edən yeganə icraçı idi. Məmurların həqiqi məsuliyyəti yox idi. Onlar şahın iradəsi ilə yüksəlir və ya vəzifədən kənarlaşdırılırdılar (14, s. 183).

Ən böyük idari məqam Əmirüd-dövlə, Etimadud-dövlə, Sədr-Əzəm və Qayim-məqam kimi müxtəlif ləqəbləri olan Sədr-Əzəmə məxsus idi. O, divanın köməkliyi ilə ölkənin siyasi, iqtisadi və ictimai işlərini idarə edirdi.

Sədr-əzəmdən sonra ən mühüm şəxsləri - divanda yüksək vəzifələri tutan və divansalarlardan təşkil olunmuş idarəçiləri üç ümumi hissəyə bölürdülər. Böyük torpaq sahələri olan divansalarlar Qacar qüdrətinin əsas ünsürlərindən idilər. İkinci dəstəyə daxil olan orta divansalarlar təbəqəsi ölkənin divan və icra işlərinin idarəçilyini öz öhdələrinə götürmüşdülər. Bu dəstəni iqtisadi baxımdan mülkiyyətçilər təbəqəsi saymaq lazımdır.

Üçüncü dəstəyə mirzələr daxil idi ki, onlar da həmin dövr cəmiyyətinin orta təbəqəsi sayılırdılar. Onların Qacar hökumətinə bağlılıq miqdarı az və zəif idi. (6, s. 37)

Müəlliflərdən biri yazırdı: "Qacarların hakimiyyəti mərkəzdə vəzirlər, saray adamları, mirzələr, mostovfilər, əyan-əşrəflər vasitəsilə

idarə olunurdu. Amma ölkənin digər bölgələrində yerli əyanlar, xanlar, ərbablar, tacirlər və müctəhidlər rəhbərlik edirdilər. Onların hər birinin öz yerli qüdrət mənbələri var idi"(4, s. 29).

Divan ünsürlərinin məqamı tez-tez qalxıb-enirdi. Bu məsələ divanın orta və aşağı təbəqələrinin bir hissəsinə inkişaf və sonda qüdrətdə daha çox əməkdaşlıq imkanı verirdi. Həmçinin divan vəzifələrinin davamlığı və qorunması iqtisadi və maliyyə potensialı ilə birbaşa əlaqəyə malik idi və bu iş öz növbəsində siyasi qüdrət sistemində divan təbəqələrinin əməkdaşlığına təsir göstərirdi.

İran cəmiyyətində dini etiqadlar, adət-ənənələrin fövqəladə nüfuzu ruhanilər və dini rəhbərlərə böyük qüdrət vermişdi. Zaman keçdikcə ruhaniliyin qüdrəti bu qurumu siyasi bir qüvvəyə çevirdi. Bu siyasi qüvvə qüdrət keşməkeşlərində fəal iştirak edir və həmişə məşhur iddiaçılardan biri kimi çıxış edirdi.

Ən mühüm dini şəxsiyyətlər müctəhidlər idilər ki, onların məşhurluğu dini məsələlərdə qərarlar verilməsi ilə nəticələnirdi. Onlar böyük ehtirama malik idilər, zalım insanlar müqabilində yaxşı sığınacaq sayılırdılar. Müctəhidlərin şah və ya əyalət hakimləri üçün verdikləri hökmlərə göz yummaq olmazdı. Böyük şəhərlərdə bir nəfər şeyxül-islam və bir nəfər imam-cümə vardı. Onlar təyin olunurdular, qazılar və bəzi alimlər kimi məhdud müstəqillikləri ilə məvacib alırdılar. Dini mənsəblərdə bir növ irsi təmayül vardı və bəzən də dini cəmiyyət üzvlərindən divansalarlıqda istifadə olunurdu (14, s. 185).

Qacar padşahları həmişə çalışırdılar ki, ruhanilərin dəstəyini qazansınlar. Amma həmişə həddi gözləyirdilər ki, qüdrət onlara nəsib olmasın. Alimlər də hökumət və səltənətin əsasını təsdiq etməklə yanaşı heç vaxt rəsmi vəzifə qəbul etmirdilər və rəsmi olaraq hökumətdən sayılmırdılar. Beləliklə, dini rəhbərlər Qacarlar dövlətində yeni məşrutə rejiminin hakimiyyətə gəlməsinə qədər rəsmi olaraq rəsmi qüdrət oyunçuları dairəsinə daxil olmadılar. Bu məsələni dini rəhbərlərin siyasi əməkdaşlıqdan daha çox ruhanilər arasında özünü siyasi işlərə müdaxilədən kənarda saxlayan çox nadir adamlar olsa belə Qacar şahlarının meyilsizliyinin məhsulu saymaq lazımdır (3, s. 31).

Hər halda cəmiyyətdə dini rəhbərlərin xüsusi mövqeyi onlara bir növ siyasi iqtidar bəxş etmişdi ki, siyasi qüdrət müqabilində dayana bilsinlər

və onunla mübarizəyə qalxsınlar. Tənbəki qiyamına kimi bu zəmində ciddi məsələ yaranmasa da, şahlar bunu dəqiq bilirdilər. Buna görə də alimlərin hörmətini qorumaqla yanaşı siyasi işlərə müdaxilələrinin qarşısını alırdılar.

Alimlərin qüdrət haqqında baxışları fərqli idi. Əməldə onlar bu baxışın qəbulunu bəyənirdilər. Şah islamı dəstəkləyir, "ədalətli" olmağa çalışırdı. Din və dövlət arasında münasibətlər bu dövrün rəsmi yazışmalarında öz əksini tapmışdır. Görkəmli alimlərin şaha məktublarında şaha islamın pənahı, din və şəriətin himayəçisi deyə xitab olunmuşdur (15).

Buna görə də biz Qacarlar dövründə dini müxaliflərin nəzərinin təsdiqi ilə rastlaşmırıq, halbuki Qacar şahları həmişə onların nəzərinin cəlbinə çalışırdılar.

Amma ruhanilər həmişə hökumətin istibdadına qarşı çıxan ən mühüm ictimai təbəqə sayılırdılar, onlar siyasi qüdrət quruluşuna təsir göstərir, mütləq istibdadı geri çəkilməyə vadar edirdilər.

Qacarların siyasi qüdrətinin araşdırılması xüsusi əhəmiyyətə malikdir ki, onun əsasında həmin dövrün siyasi hadisə və dəyişikliklərinin mənzərəsini yaratmaq olar.

Siyasətdə mütləqiyyət və eqoizm bu qüdrətin əsas xüsusiyyəti sayılır.

Qacarların siyasi quruluşunda qüdrətin ötürülməsi və bölüşdürülməsinin əsas amili şah idi. O, ən ali idari məqamı təyin edir, vilayət və əyalət hakimlərini müəyyənləşdirir, səfirləri göndərir, insanlara maaş verilməsi üsulunu müəyyənləşdirir və ən mühümü qüdrət strikturunun əsas ünsürlərindən hər birini təyin edirdi.

Müstəmləkəçi dövlətlərin İranda siyasi nüfuzu və hökmranlığı Qacarlar dövründə sistemin təşkilatlanması və qüdrətlənməsinin ən mühüm amili idi. Dövlət adlı təşkilat Avropa dövlətlərinin naqis şəkildə təqlidi idi. Ağa Məhəmməd şahın zamanında ölkənin təşkilatı çox sadə idi, Fətəli şahın dövründə isə genişlənmişdi. Şahın qüdrəti dövlət divansalarlıq sisteminin və sabit bir ordunun olmaması səbəbindən məhdud idi. Bundan əlavə, yerli əyanlar və nüfuz sahiblərinin himayəsi olmadan onun qüdrəti o qədər çox deyildi.

Ümumiyyətlə, Qacarların siyasi sistemi haqqında, demək olar ki, qüdrət strukturu baxımından mərkəzə meyilli tayfalardan təşkil olunmuş və idarəçilik baxımından istibdada əsaslanırdı. Eyni zamanda ictimai-iqtisadi həyat səviyyəsində onun siyasi sistemi və təsirlərinin mahiyyəti əyanlar, ruhanilər kimi müstəqil təbəqələrin yaranmasına imkan vermirdi.

Qacarlar dövründə qaydalar əvvəldən təyin olunmuş və siyasi qüdrət bölgüsündə dəyişilməz qalmışdı. Şahın rolu həmişə təyinedici deyildi, bu dövrdə qüdrət ünsürlərindən birinin şahdan daha çox qüdrət bölgüsündə rolu müşahidə olunmuşdur.

Bu qüdrəti məhdudlaşdıran amillərdən şəri qanunları, ruhaniləri, siyasi qüdrətin qəbilə formasını, böyük torpaq sahiblərinin adlarını çəkmək olar. Buna görə şah çalışırdı ki, mənafelərini qorumaqla onları özünə tərəf cəlb etsin.

Qacarlar hökumətinin siyasi quruluşu elə bir quruluşdur ki, şah onun mərkəzini təşkil edir, saray adamları, şahzadələr, tayfa başçıları, bölgə hakimləri qüdrəti nizamlayırdılar. Mütləq istibdad fikri bu siyasi quruluşu məhdudlaşdırırdı. Belə ki, Qacarların hakimiyyəti dövründə dünyada baş verən mühüm dəyişikliklərdən kənarda qalmış və qədim üsulla hökmranlıq edirdilər.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Əkbəri Məhəmməd Əli, İranda Qacarlar dövründə müasir dövrün səyləri, Tehran, 1384
2. Etimadüs-səltənə Məhəmməd Həsən xan, əl-Məaser vəl-asar, İran tarixinin qırx ili, İrəc Əfşar, Tehran
3. İlqar Hamid, Məşrutə hərəkatında qabaqcıl ruhanilərin rolu, Tərcüməçi: Əbülqasim Səri, Tehran, 1359
4. Abrahamiyan Yarvənd, İran iki inqilab arasında. Tərcüməçi: Kazım Firuzmənd, Tehran, 1378
5. Bəşriyyə Hüseyn, İranda siyasi inkişafın maneələri, Tehran, 1381
6. Polak Yakob Edvard, Polak səfərnaməsi, "İran və iranlılar", Tərcüməçi: Keykavus Cahandari, Tehran, 1368
7. Doqobino, Doqobinonun səfərnaməsi, Tərcüməçi: Əbdülrza Huşəng Məhdəvi, Tehran, 1376
8. Səriül-qələm Mahmud, Tayfa əsasları, İranın siyasi mədəniyyəti, İqtisadi-siyasi məlumatlar, say 3 və 4, 1377
9. Şəmim Əli Əsğər, İran Qacar səltənəti dövründə, Tehran, 1388
10. Flor Vilhelm, Qacarlar dövründə İranın ictimai tarixindən axtarışlar, Tərcüməçi: Əbülqasim Səri, c. 2, Tehran, 1365
11. Furan Con, İranın ictimai dəyişikliklər tarixi, Tərcüməçi: Əhməd Tədin, Tehran, 1390
12. Korzen Corc, İran və İran hadisəsi, Tərcüməçi: Vəhid Mazandarani. c.1, Tehran, 1349
13. Lisanül-mülk Sepehr Məhəmməd Təqi, Nasixüt-təvarix (Qacarlar tarixi), c. 1, Tehran, 1377

14. Limbton An, İslamdan sonra İran tarixinə seyr, Tərcüməçi: Yaqub Ajənd, Tehran, 1385
15. Martin Venesa, Qacarlar dövrü, Tərcüməçi: Əfsanə Münfəridd, Tehran, 1389
16. Mustofi Abdullah, Mənim tərcümeyi-halım, ya Qacarlar dövrünün ictimai-idari tarixi, c.1, Tehran, tarixsiz
17. Müşirzadə Hümeyra, İranda padşahlıq hakimiyyət sistemi və burjuaziyanın inkişaf etməməsi, Rahbord jurnalı, say 6, 1374
18. Mülküm Sərcan, İran tarixi, tərcüməçi Mirza Heyrət, Tehran, tarixsiz
19. Minorski Vladimir, Səfəvi hökumətinin idari təşkilatı" Tərcüməçi: Məsud Rəcəbniya, Tehran, 1344
20. Vərhəram Qulamrza, Qacarlar dövründə İranın siyasi sistemi və ictimai təşkilatlar, Tehran, 1385

T.Salmanipur

POLITICAL STRUCTURE OF THE QAJAR STATE

SUMMARY

This article has been dedicated to research of political power of the Qajar period. Known as a despotic government this order based on a special political division, where the Shah gathered in his hand all means of military, managing, law-court, financial and legal power in his hand. His words were considered as law. Main purpose of this scientific work is research of the power hierarchy in the Qajar period and the role of every important component in this hierarchy.
Besides, library materials were analyzed and commented to in this article.

Т.Салманипур

ПОЛИТИЧЕСКАЯ СТРУКТУРА КАДЖАРСКОГО ГОСУДАРСТВА

РЕЗЮМЕ

В настоящей статье исследуется политическая силовая структура периода правления Каджаров. Получившая известность как политический режим власти, эта структура основывалась на особом политическом разделении. В данной структуре шах сосредоточил в своих руках силу, управление, аппарат, финансовую и юридическую сферу. Его слово считалось законом. В этой системе наблюдалось постепенное разрастание и разбросанность источников силы. Правящие круги, принцы, придворные, руководители регионов, возглавляющие аппарат сановники, а также религиозные лидеры считались звеньями этой силовой структуры. Задача данного исследования состоит в том, чтобы выявить все звенья силовой структуры власти Каджарской династии, и роль каждой её составляющей.

QƏDİM VƏ ANTİK DÖVR MƏNBƏLƏRİ XƏZƏR DƏNİZİ VƏ NEFT HAQQINDA. (E.Ə. VI MİNİLLİKDƏN BAŞLAYARAQ B.E. XIII ƏSRİNƏDƏK)

Cəbi BƏHRAMOV

Müasir dünya xalqlarının siyasi taleyində, sosial-iqtisadi və mədəni həyatında müstəsna rol oynayan, beynəlxalq münasibətlərdə dünya dövlətlərinin daxili və xarici siyasətlərinin müəyyənləşdirilməsində həlledici amilə çevrilən, bu qeyri-adi cəlbedici qüvvəyə malik qara "gözəl" - neft necə yaranıb və onu özünün ən başlıca enerji mənbəyi hesab edən insana o, nə zamandan məlumdur?

Dünya elmi bu sərvətin insanlara təxminən 8000 il bundan əvvəl məlum olduğunu təsdiq edir. Arxeoloq alimlərin apardıqları qazıntılar zamanı qədim insanların təxminən eramızdan əvvəl VI-IV minilliklərdə neft çalaları və hətta quyuları qazdıqları aşkar edilmişdir.

Azərbaycanın arxeoloq alimlərinin XX əsrin 50-70-ci illərində Bakıdan 7-8 km məsafədə olan Binəqədi kəndi yaxınlığında apardıqları paleontoloji qazıntılar zamanı on min illər öncə (alimlər bunu dördüncü dövrə, yəni təqribən 1 milyon il bundan əvvəl başlanan dövrə aid edirlər) burada sahilləri qara neftlə örtülmüş şirin sulu gölün əmələ gəldiyi faktiki olaraq təsdiq edilmişdir [1.27]. Ətrafda yaşayan canlılar bu gölə su içməyə gələr, lakin içməli su gölün ortalarında olduğundan heyvanlar özlərini suya çatdırmaqdan ötrü sahili bürümüş neft qatından keçməli olurmuşlar. Lakin qatı və yapışqan neft onları məngənəsinə salar və öz qoynunda dəfn edərmiş. Binəqədi neft gölü zaman keçdikcə qurumuş və qalın qır təbəqəsindən ibarət yataq əmələ gəlmişdir. Bu qəbiristanlıq – Binəqədi kəndi yaxınlığındakı qır qatlarında tarixə qədər ki dövrdə ən müxtəlif heyvanların qalıqlarının toplanmış olduğu yer beləcə əmələ gəlmişdir. Burada mağara aslanının, canavarların, nəhəng maralların, mağara ayılarının, kaftarların, kərgədanların, atların, ulaqların və nəsli kəsilmiş digər iri və xırda heyvan növlərinin qalıqları aşkar edilmişdir.

Cəbi Əmirvar oğlu Bəhramov – t.ü.f.d., AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini

Binəqədi qır gölü dünya miqyasında ən zəngin paleontoloji xəzinələrdən biri hesab olunur. Bu məkan dördüncü dövr fauna və florası, çeşidi və çoxluğu ilə bütün dünya alimlərini heyrətə gətirmişdir. Mütəxəssislər bu gölü 1875-ci ildə ABŞ-ın Kaliforniya ştatında U.Denton tərəfindən aşkar edilmiş Ranço Lya Brea paleontoloji tapıntısı ilə müqayisə edirlər [2.13]. Geoloji tədqiqatlar göstərmişdir ki, Ranço Lya Brea faunasının yaşı pleystosen dövrünə aiddir və burada batıb qalmış heyvan qalıqlarının 35000 yaşı vardır. Müqayisə üçün bildiririk ki, Binəqədi gölündəki qalıqların yaşı bundan 2 dəfədən də çoxdur, yəni 75000 ilə bərabərdir [2.14].

Bu böyük heyvan qəbiristanlığının yaranmasının əsas səbəblərindən birinin neftdən ayrılmış qırın olması tarixəqədərki dövrlərdə Abşeron yarımadası ərazisində və o cümlədən Xəzər dənizinin sahillərinə yaxın hissələrdə neftin mövcudluğu faktını təsdiq edir.

Bəs onda bəşər tarixində insan üçün ən qədim zamanlardan bu günə qədər ən sərfəli və mühüm sayılan bu qara rəngli maye - neft necə əmələ gəlmişdir? Qeyd etmək lazımdır ki, neftin nədən və necə əmələ gəlməsi məsələsi olduqca çətin və mübahisəli məsələ hesab olunur və dünya elminin ən mühüm problemlərindən biri sayılır. Neftin mənşəyi haqqında müxtəlif nəzəriyyələr mövcuddur. Onun əmələ gəlməsinin kosmik, karbid və vulkanik fərziyyə tərəfdarları neftin qeyri-üzvi yolla yarandığını sübut etməyə çalışırlar. Neftin üzvi mənşəyə malik olması dünya elmində geniş yayılıb və alimlərin böyük əksəriyyəti tərəfindən qəbul edilmişdir. Qəbul olunmuşdur ki, neft çökmə süxurlarda yaranır. Çökmə suxurlar isə qum, qumdaşı, əhəngdaşı, gil və sair materialların qarışığından ibarət olur. Belə süxurlar isə neft geologiyası ilə məşğul olan alimlər tərəfindən kollektorlar adlandırılır. Onlar hesab edirlər ki, neft kollektoru süxur dənələrinin arasında qalan xırda boşluqlarda və çatlarda yerləşir.

Neftçi alimlər tərəfindən öyrənilmişdir ki, okean və dənizlərdə, onlara yaxın olan quru ərazilərdə çoxlu sayda müxtəlif təkhüceyrəli canlılar yaşayır və onlar da baş vermiş təbii fəlakət, okean və dənizin bionomik şəraitinin kəskin dəyişilməsi nəticəsində məhv olaraq su hövzəsinin və qurunun dibinə çökür və beləliklə də, qalın süxur qatları əmələ gətirirlər. Davamlı olaraq istiliyin və yüksək təzyiqin təsirinə məruz qalan bu müxtəlif üzvi qalıqlar son nəticədə neftə çevrilir.

Dünya alimlərindən A.Engler, H.Hefer, Y.M.Qubkin, N.D. Zelinski, R.P.Kalitski, K.Y.Zobell və digərləri neftin üzvi birləşmələrdən əmələ gəlməsi fikrini apardıqları uzunmüddətli elmi tədqiqatları ilə sübut etmişlər. Belə olan halda çox maraqlı və hamını düşündürən təbii sual ortaya çıxır: neft indi də yaranırmı?

Bu suala ilk dəfə 1925-1926-cı illərdə rus alimi V.Y.Vernadski cavab vermişdir. O, Qara dənizin dibindən götürülmüş çöküntülərə əsasən təyin etmişdir ki, hazırda da neft əmələ gəlir və proses daimidir. Bu fikir sonralar neftçi alimlər V.V.Veber, A.Y.Qorskaya və ABŞ alimi P.Smit tərəfindən də təsdiq olunmuşdur. XX əsrin 50-ci illərin sonunda Cənubi Amerikada Venesuelanın Orinoko çayı məcrasında aşkar edilmiş yeni neft yatağında aparılan tədqiqatlar zamanı bu neftin təxminən 5-10 min il bundan əvvəl yarandığı sübut olunmuşdur [2.15].

Bütün bu sual və cavablardan sonra daha bir haqlı sual ortaya çıxır. Bəs neft ilk dəfə hansı ölkədə aşkar edilmiş, insanlar ondan nə zamandan müxtəlif məqsədlərlə - yanacaq, müalicə və s. - istifadə etməyə başlamışlar?

Haqlı olaraq bu gün neftin ilk dəfə aşkar edildiyi və ondan müxtəlif məqsədlər üçün istifadə olunduğu ölkənin Azərbaycan olması bütün dünya xalqları və dövlətləri tərəfindən birmənalı şəkildə qəbul edilir. Yerin dərin qatlarından onun səthinə sızıb çıxan qara mayeyə müasir azərbaycanlıların qədim əcdadlarından biri olan midiyalılar e.ə. VII əsrdə "nafta" adını vermişlər. "Sızmaq" mənasını ifadə edən "nafta" sözü 28 əsrlik bir dövr ərzində müəyyən dəyişikliyə uğramış və indiki neft sözünə çevrilmişdir [2.16].

Azərbaycan yeganə ölkədir ki, burada neft həm quruda, həm də dənizdə çıxarılaraq istifadəyə verilmişdir. Abşeron yarımadasının və Xəzərin geoloji inkişaf tarixi, onunla əlaqədar yanar faydalı qazıntı yataqlarının varlığı, onların yerləşmə qanunauyğunluğu və insana ilk baxışda sadə görünən, lakin çox mürəkkəb bir keçmişə malik qlobal hadisələr, heç şübhəsiz, Xəzər dənizi ilə çox sıx bağlıdır.

Tarixi məlumatlara görə, Xəzər dənizinin indiyə qədər altmışdan çox adı olmuşdur. E.ə. XXI əsrin sonlarında Mesopotamiyada mövcud olmuş III Ur sülaləsinin hökmdarı Şu-Suenin yazılarının biirində bildirilir ki, onun dövlətinin inzibati ərazisi olan Zabşalı ərazisi "Anşanın hüdudlarından Yuxarı Dənizə qədər" uzanırdı. Qədim dövr tarixi üzrə

mütəxəssislər hesab edirlər ki, burada Təli – Məliandan Xəzər dənizinin cənub hissələrinə olan ərazi nəzərdə tutulur. Lakin, "Yuxarı Dənizə" anlayışının Xəzərə şamil edilməsi inandırıcı görünmür. Belə ki, Mesopatamiya sakinlərinin Xəzər dənizi ilə tanışlığı e.ə. 822-ci ilə təsadüf edir və bu zaman Xəzər "Gün doğan dəniz" adlanırdı [3.27]. Bu adlardan digəri isə "Günəş gölü"dür və bu adın 2800 il bundan öncə yaşamış qədim yunan şairi Homerin Egey dənizinə həsr etdiyi mahnılarda işlətdiyi tarixdən məlumdur. Heç şübhəsiz, bu dənizə "Günəş gölü" adından başqa, o zaman onun ətrafında yaşayan qəbilələr, tayfalar və xalqlar da öz adlarını vermişlər. Lakin o adlar haqqında heç bir tarixi yazılı mənbələr olmadığından müəyyən mülahizələr yürütmək çətindir. Doğrudur e.ə. IX-VII əsrlərdə Ön Asiyada ikinci dəfə güclü dövlət yaratmış assuriyalılar Xəzər dənizinə "Şərq" dənizi adını vermişdilər [4.5]. Onu da qeyd etmək lazımdır ki, assuriyalılar və o cümlədən əksər Ön Asiya xalqları neftdən hazırlanmış asfaltdan istifadə edirmişlər. E.ə. V əsrdə yaşamış yunan alimi Gegatey Miletski Xəzər dənizinin yerləşdiyi ərazini körfəz kimi təqdim edərək onu "Girkən" adlandırmışdı [4.5]. "Tarixin atası" hesab olunan yunan alimi Herodot (E.ə. 484-425-ci illər) isə Xəzər dənizinin cənub sahillərinə səyahət edərək burada məskunlaşmış kaspi tayfalarının yaşayışından söz açmış və dənizin "Kaspi" adlandığını yazmışdı. O, Xəzərin bütün sahillərində olmasa da, ilk dəfə onun qapalı dəniz olduğunu və avarlı gəmilərlə uzunluğunun 15 günlük (1600 km), eninin isə 8 günlük (500 km) yol olduğunu göstərmişdi [4.6].

E.ə. 384-322-ci illərdə yaşamış məşhur yunan alimi, Makedoniyalı Aleksandrın (İsgəndərin) müəllimi Aristotel (Ərəstun) də Xəzəri qapalı dəniz hesab etmişdi [4.6]. Bundan başqa, digər yunan alimi Eratosfen (e.ə. 176-194-cü illər) də Gegatey Miletski kimi Xəzər dənizini Şimal okeanının bir körfəzi kimi təsvir etmişdir. Daha sonralar Polibi (e.ə. 201-120-ci illər), siciliyalı Diodor (e.ə. 80-29-cu illər), yunanıstanlı Strabon (e.ə.53 - b.e.20-ci illəri), b.e.-nin I əsrinin birinci yarısında yaşamış Roma tarixçiləri və coğrafiyaşünasları Pomponi Mela, Kursi Ruf, Böyük Plini (b.e. 23-79-cu illər), isgəndəriyyəli Klavdi Ptolemey (90-168-ci illər) və başqaları öz əsərlərində Xəzər dənizi və onun qərb sahilləri, o cümlədən Abşeron yarımadası haqqında geniş məlumat vermişlər [4.7]. Bundan başqa, Roma tarixçisi Ammian Marçellin (təxminən 330-400-cü

illər) özünün "Əməllər" adlı çoxcildli əsərinin XXIII cildində neft, asfalt və ondan istifadə haqqında məlumat verir [6.190]. Lakin çox təəssüflər olsun ki, Abşeron yarımadası və o cümlədən Bakı şəhəri haqqında erkən orta əsrlər, xüsusilə də I-VI əsrlərə aid məlumatlar həddən çox məhduddur və ya demək olar ki, yox dərəcəsindədir.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı 2009.
2. Bəhramov C.Ə. Azərbaycan nefti. Bakı 2010.
3. Əlimirzəyev A.N. Erkən Elam Cəmiyyəti: siyasi-iqtisadi münasibətlər və yazı tarixi. Bakı 2011.
4. Rəhmanov A., Rəhmanov A. Xəzər və neft. Bakı 1961
5. Алиев К.Г., Алиева Ф.К. Древние авторы о месторождении нефти в Азербайджане. Azərbaycan Beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrində bakının rolu. III Bakı Beynəlxalq Simpoziumunun materialları. Bakı 1997.

J.A.Bahramov

THE ANCIENT AND ANTIQUE SOURCES ABOUT THE CASPIAN SEA AND THE OIL (BEGINNING FROM THE VI MILLENNIUM BC UP TO THE XIII CENTURY AD)

SUMMARY

The article is devoted to the analysis of ancient and antique period sources about Azerbaijan, the Caspian Sea and the oil.

The author basing on the sources known in science and to the works of scientists who summarizing the data on the Caspian Sea and the oil, tries to show the place which these concepts have in Azerbaijani people's ancient and antique period political, social, economic and cultural history.

Дж.А.Бахрамов

ДРЕВНИЕ И АНТИЧНЫЕ ИСТОЧНИКИ О НЕФТИ И КАСПИЙСКОМ МОРЕ (VI ТЫСЯЧЕЛЕТИЕ ДО Н.Э. –III ВЕК Н.Э.)

РЕЗЮМЕ

Статья посвящена анализу древних и античных источников по истории Каспийского моря и нефти. Ссылаясь на эти источники известные науке и труды ученых, использовавших эти источники, сумел обобщить и показать роль и значение Каспийского моря и нефти в древней и античной политической социально - экономической и культурной истории Азербайджанского народа.

XVIII VƏ XIX ƏSRLƏRDƏ İĞDIR VƏ ƏTRAFININ ƏHALİSİNƏ DAIR

t.ü.f.d. İradə MƏMMƏDOVA

Açar sözlər: İğdır nahiyəsi, Sürməli mahalı, İrəvan xanlığı, Şopen, Hüseynqulu xan
Ключевые слова: Игдырский регион, Сюрмелинский магал, Иреванское ханство, Шопен, Гусейнгулу хан
Key words: Igdir district, Surmeli district, the Iravan khanate, Shopen, Huseyn Qulu khan

Qədim Azərbaycan torpağı İrəvan xanlığının Sürməli mahalının mərkəzi İğdır və onun ətrafının əhalisinin XVIII və XIX əsrlərdə etnik, konfessional, sosial tərkibinin və məşğuliyyətinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Hal-hazırda qardaş Türkiyə Respublikasının tərkibinə daxil olan bu əzəli Azərbaycan torpaqlarına ermənilər iddia etmişlər və iddia etməkdədirlər. Ermənilərə heç bir aidiyyatı olmayan, hətta indinin özündə belə əhalisinin 60%-dən çoxunu Azərbaycan türkləri təşkil edən İğdır və ətrafının əhalisinin araşdırılması həm ermənilərin əsası olmayan iddialarının təkzib edilməsi, həm də ərazinin göstərilən dövrdə Azərbaycan türklərinə məxsus olmasının sübut edilməsi baxımından aktuallıq təşkil edir. XVIII və XIX əsrlərdə İğdır və ətrafının əhalisi, məşğuliyyəti, sosial, iqtisadi və ticarət həyatı haqqında qaynaqlarda kifayət qədər məlumat vardır.

XVIII əsrin 20-ci illərində osmanlıların Səfəvi dövlətinin bəzi ərazilərini ələ keçirməsi ilə bağlı tərtib edilən "İrəvan əyalətinin icmal dəftəri"nə görə İrəvan əyalətinin tərkibindəki İğdır və ətrafına aşağıdakı nahiyələr daxil idi: Sürməli (48 kənd, 8 məzrəə, 2 qışlaq, 4 yaylaq), İğdır (64 kənd, 15 qışlaq, 1 məzrəə), Aralık (30 kənd, 8 qışlaq, 2 məzrəə, 2 yaylaq), Maku (86 kənd, 4 qışlaq) nahiyələri [3, s.5-7, 9-10, 16-22; 4, TTD 901; 1, s.40-45, 49-52, 63-74].

Mənbənin məlumatına görə, Sürməlidə – 59, İğdırda – 78, Aralıqda – 36, Makuda – 88 yaşayış məntəqəsi qeydə alınmışdı. Burada yerləşən Sultan xasslarındakı illik gəlir Sürməlidə 725680 ağça, İğdırda 351982 ağça, Aralıq nahiyəsində 189680 ağça, Makuda 283165 ağça idi [3, s. 5–7, 9–10, 16–22; 1, s. 40–45, 49–52, 63–74].

İradə Məmmədova – t.ü.f.d., Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun "Ümumi tarix" şöbəsinin aparıcı elmi işçisi, e-mail: irade.mammadli@gmail.com

İğdır nahiyəsindəki illik gəlirlərin cədvəli [3; 1, s. 66-69]:

№	**İğdır nahiyəsinə daxil olan kənd, yaylaq, qışlaqlar**	**Mənsub olduğu tayfa**	**Sultan xasslarındakı illik gəlir (ağça ilə)**
1	Molla Əhməd kəndi		11.000
2	Ərəbgirli (Mamuskun kimi tanınır) kəndi		1.800
3	Əxi Məhəmməd kəndi	Əhalisi Kürdlər camaatındandır	1.200
4	Qaraməhəmməd kəndi	Əhalisi Ərəbgirli camaatındandır	11.000
5	Çarıqçılı kəndi		5.500
6	Yaycı kəndi		10.500
7	Qasımcan kəndi		6.600
8	Şeyx Həsən kəndi		13.000
9	Axtaxana kəndi		17.500
10	Xoşxəbər kəndi		8.000
11	Əxi Veys kəndi		11.500
12	Xəlifli kəndi		17.500
13	Ərhacı kəndi		2.530
14	Çıraqlı kəndi və Qaraqoyunlu qışlağı		9.500
15	Məğrəbabad kəndi		11.000
16	İbrahimabad kəndi *		19.000
17	İğdır kəndi		13.500
18	Novruzlu (Ağcalı adı ilə tanınır)		13.000
19	Qızılzakir kəndi		16.000
20	Büllür kəndi		47.200
21	Qazançı kəndi		14.000
22	Ağaverd kəndi		3.000
23	Sarı Çoban kəndi		15.500
24	Panik kəndi		17.000
25	Elin kəndi		20.500
26	Ovçu kəndi		22.300
27	Novruzlu kəndi yaxınlarındakı Cəfər qışlağı		2.000
28	Tecirli kəndi yaxınlarındakı Zəngənə kəndi		4.500

* Sultan Mahmudun (1730-1756) adına inşa edilmiş iki camenin xidmətçilərinin maaş və digər xərclərinin qarşılanması məqsədi ilə Sultanın verdiği təlimata əsasən İbrahimabad kəndi Sultan xasslarının siyahısından çıxardılmış və vəqfə çevrilməsinə dair dəftərlərdə qeydlər edilmişdir.

29	Tecirli kəndi və onun Ağcaqışlaq məhəlləsi		7.500
30	Əmarat kəndi		11.000
31	Dəyirli qışlağı		10.500
32	Qaracarlı kəndi		15.000
33	Durmuş qışlağı	əhalisi Şahablı camaatındandır	17.000
34	Davudlu kəndi		4.300
35	Yuxarı Kürəkli kəndi (Xəndanqulu qışlağı kimi məhşurdur və Ağotluğ kimi tanınır)		1.500
36	Aşağı Kürəkli kəndi (başqa adı Hacı Əmin qışlağıdır)		1.200
37	Kürəkli kəndi (Əminəli qıslağı kimi də tanınır, kəndin başqa adı Baxış qışlağıdır)		1.500
38	Mustafabəy qışlağı (Ağotluğ kimi də tanınır)		1.300
39	Qaraçılar qışlağı (Ağotluğ kimi də tanınır)		1.500
40	Çadırçılar qışlağı		1.400
41	Çidəmli kəndi		1.200
42	Daşlı kəndi	əhalisi Reyhanlı camaatındandır	1.200
43	Həsənbəy qışlağı		1.500
44	Şamdangələn kəndi		1.300
45	Şirəçi kəndi		1.400
46	Alahacılı kəndi		4.000
47	Kürəkli məzrəəsi (Nəzərəli qışlağı kimi də tanınır)		1.400
48	Künbəd kəndi		1.200
49	Qarahasar kəndi		2.000
50	Qızılqala kəndi		3.000
51	Tuç kəndi		4.500
52	Kürkü kəndi (kəndin başqa adı Rud)		4.600
53	Əlibeli kəndi		6.700
54	Yuxarı Toxanşalı kəndi		10.000
55	Qarahacılı kəndi və Comərd məhəlləsi		4.000
56	Öküzlü kəndi		2.000
57	Əlixan Hacılı kəndi		3.000
58	Dəmirliqışlaq kəndi		3.522
59	Rəsullu kəndi		3.500

60	İbrahim Hacılı kəndi		5.000
61	Rəşidəli qışlağı		3.000
62	Cudulu qışlağı		4.000
63	Qarahacılı kəndi yaxınlarındakı Aşağı Davudlu kəndi		5.930
64	Çidəmli kəndi yaxınlarındakı Aşağı Toxanşalı kəndi		2.000
65	Canəhməd qışlağı	əhalisi Qarahacılı camaatındandır	3.200
66	Rasidli kəndi		3.500
67	Atlıcalı kəndi		2.000
68	Sultan xasslarındakı ümumi və xüsusi gəlir		9.000
69	İsmayıllı kəndi	Adı dəftərə düşməmişdir	2.000
70	Arxşah kəndi	Adı dəftərə düşməmişdir	1.000
71	Çarıqçı kəndi		1.000
72	Aşıq Həsən kəndi		1.500
73	Qasımcan kəndi	Adı dəftərə düşməmişdir	1.000
74	Qaragöl Arslan kəndi		1.500
75	Yeni məskunlaşmış Qulukənd kəndi	Adı dəftərə düşməmişdir	2.000
76	Boncuktəpə kəndi	Adı dəftərə düşməmişdir	1.000
77	Yelgirməz kəndi və Göynərli məzrəəsi	Adları dəftərə düşməmişdir	1.000
78	Çiçəkli və Sarı Abdal kəndləri	Adları dəftərə düşməmişdir	1.000
Cəmi			**351.982**

Onu da qeyd etmək lazımdır ki, İrəvan sancağının İğdır nahiyəsinin Sultan xasslarına məxsus olan 19 min axça gəlir verən İbrahimabad kəndinin əhalisi sünnü məzhəbindən olduğu üçün İrəvan mühafızı və sərəskəri sədri-əzəm (vəzir) İbrahim paşa bu kənddə və İrəvan qalasının işərisində, Topxana məhəlləsi tərəfdə iki came tikdirib, onlara sultan Mahmudun (1730-1756) adını vermişdi. İrəvan əyalətinin əhalisi, üləma və xeyirxah adamlarının istəyi ilə bu camelərin xidmətçilərinin maaş və digər xərclərinin qarşılanması üçün İbrahimabad kəndinin vəqf olunmasına dair adı çəkilən vəzir və İrəvan qazisi, mövlanə Əhməd Bəhaəddinin müraciətləri haqqında sultana məlumat verilmiş, onun razılığı və verdiyi əmrə əsasən icmal və müfəssəl dəftərlər gətirdilmiş, orada sultanın adına inşa etdirilmiş iki camenin xidmətçilərinin maaş və digər xərclərinin qarşılanması məqsədi ilə on doqquz min ağça gəliri olan İbrahimabad kəndi Sultan xasslarının siyahısından çıxardılmış və vəqfə çevrilməsinə dair dəftərlərdə qeydlər edilmişdir [3; 1, s. 67].

Sürməli nahiyəsindəki illik gəlirlərin cədvəli [3; 1, s. 63-65]:

№	**Sürməli nahiyəsinə aid kənd, yaylaq və qışlaqlar**	**Mənsub olduğu tayfa**	**Sultan xasslarında kı illik gəlir (ağça ilə)**
1	Sürməli kəndi		15.000
2	Keyti kəndi		7.000
3	Ağcaqışla kəndi	Əhalisi Pirili camaatındandır	3.000
4	Barani kəndi		4.000
5	Qulp kəndi yaxınlarındakı Sofulu kəndi		4.000
6	Qulp kəndi və onun Çəlçəgıran məhəlləsi		36.880
7	Qulp kəndinin Qulp adlı məhəlləsi		500.000
8	Qulp kəndinin yaxınlığındakı və Əlican kimi tanınan Xəlifənəcib kəndi		4.000
9	Ternevit yaxınlarındakı Haramlı kəndi		2.000
10	Tərnəvit kəndi ve Qatıruçan məzrəəsi		12.000
11	Sərvli kimi tanınan Ağövrat kəndi		4.000
12	Əyricə məzrəəsi		2.000
13	Göldaş kəndi		2.5000
14	Əğdis kəndi		4.000
15	Dərəkənd və Çiçəkli məzrəəsi		4.000
16	Kənizək kəndi		6.200
17	Kənizək kəndi tərəfdə olan Qayalı kəndi		1.000
18	Quruağac kəndi		4.000
19	Şiştəpə kəndi		1.000
20	Dəmirçixan kəndi		1.200
21	Qızılqışlaq kəndi		1.300
22	Qıran kəndi		800
23	Əğdis kəndi yaxınlığındakı Candərviş kəndi		2.000
24	Qaraörən kəndi		1.000
25	Çepni kəndi		900
26	Tercenis kəndi və Daşlıca məzrəəsi		15.000
27	Əlikosa kəndi		3.000
29	Güllücə kəndi		2.800
30	Güllücə kəndi yaxınlığındakı Molla Ömər kəndi		2.000
31	Abbasgöl məzrəəsi		1.500
32	Əbucahallı Atlıca kəndi		3.500
33	Əvəzqışlaq kəndi		4.000
34	İstəfna kəndi	Adı dəftərə düşməmişdir	2.000

35	Tovuzgönlü kəndi (başqa adı Qarahüseynlidir)		3.000
36	Qatırlı kəndi		2.300
37	Yuxarı Qılacan kəndi		3.000
38	Aşağı Qılacan kəndi		1.500
39	Mübarək kimi tanınan Başmərcivan qışlağı		3.000
40	Açıkmərcivan kəndi		1.200
41	Qızılbulaq qışlağı		1.500
42	Arslanlıtəpə kəndi		1.200
43	İncə kəndi və Ərsaq məzrəəsi	Əhalisi Quzugüdənli camaatındandır	5.000
44	Həsəncan köyü		3.200
45	Kağin kəndi və Mövcudəli məzrəəsi		4.200
46	Əyrək kəndi		7.200
47	Qamışlı kəndi yaxınlığındakı Qarabulaq kəndi		4.000
48	Qarabulaq kəndi yaxınlığındakı Söyüdlü kəndi		1.000
49	Qarabulaq kəndi yaxınlığındakı Qaraqala kəndi		1.000
50	Parçalıgöl kəndi		1.200
51	Söyüdkənd		4.000
52	Qamışlı kəndi və Haqhaq məzrəəsi		2.500
53	Dərəkənd yaxınlığındakı Sarı Abdal kəndi		800
54	Börk kəndi		1.000
55	Böyrək kəndi		1.200
56	Köksükövrəl yaylağı	Bura Sürməli kəndinin əhalisinin yaylağıdır	1.000
57	Tərli yaylağı	Sürməli kəndlərinin yaylağıdır	6.000
58	Ağrı yaylağı	Bura Sürməli kəndləri rəiyyətlərinin yaylağıdır	5.000
59	Soyuqbulaq yaylağı	Bura Sürməli kəndinin əhalisinin yaylağıdır	900
60	Varissiz ölənlərin mirasının satışından xəzinənin gəliri		9.000
Cəmi			**725.680**

1747-ci ildə Nadir şahın qətlindən sonra Azərbaycanda müstəqil xanlıqlar yarandı. Bu zaman İğdır və ətrafı İrəvan xanlığının sərhədlərinə daxil idi. İrəvan xanlarının hakimiyyəti illərində İğdır və ətrafındakı əhalinin rifahı artmış, əsasən əkinçilik və maldarlıqla məşğul olan Sürməli

mahalının mərkəzi olmuş İğdır xüsusi ilə sosial həyatta inkişaf etmişdi. Şopenin məlimatına görə Hüseynqulu xanın hakimiyyəti illərində İğdır Sürməli mahalına daxildi, eyni zamanda mahalın mərkəzi idi. İ.Şopenin yazdığına görə, rus-iran müharibələrinin nəticəsində İğdırın da daxil olduğu İrəvan xanlığının Arazboyundakı bölgələrində 169 köy dağıdılmışdı [11, s. 442–448, 510–514].

1826 – 1828-ci illər rus-iran və 1828 – 1829-cu illər rus-türk müharibələrinin nəticəsində İrəvan xanlığının bütün mahallarında olduğu kimi Sürməli mahalının və onun mərkəsi İğdırın da bir çox kəndləri dağıdılmış və əhalisi köçkün vəziyyətə düşmüşdü. 21 mart 1828-ci ildə Azərbaycan torpaqları hesabına qurulan "Erməni vilayəti" İrəvan və Nahçıvan əyalətlərinə və Ordubad dairəsinə ayrılmışdı. İrəvan əyalətində 4 dairə quruldu, İrəvan, Sərdərabad, Şərur və Sürməli bölgələri isə əvvəlki sayında qaldı [9, s. 270]. 1828-ci il Türkmənçay müqaviləsinə görə, Rusiya imperiyası tərəfindən Qacarlar dövləti və Osmanlı dövlətindən İrəvan, Nahçıvan və Qarabağ xanlıqlarının torpaqlarına köçürülən ermənilər əsasən keçmiş İrəvan xanlığının Sürməli, Qırxbulaq, Talın, Köprübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarının 129 kəndinə yerləşdirildilər [11, s. 636-642]. Bunu digər mənbələr da təsdiq edir. İrəvan əyalətinə köçürülən ermənilərin çoxu buranın ən gözəl bölgələrində – Şərur, Dəvəli, Gərniçay, Zəngi, Aparan, Qırxbulaq, Dərəçiçək və Arazın İran tərəfində yerləşən hissəsindəki Səəd Çuxurunda (Çuxursəəd), yəni Sürməli mahalına yerləşdirildi. Knyaz Arqutinski-Dolqorukovun rəhbərliyi ilə Səlmas və Xoy xanlıqlarından köçürülən 200-ə qədər erməni ailəsi isə Sürməli mahalına göndərildi [6, s. 135-136, 141; 8, s. 29-36].

İ.Şopenin verdiyi məlumatlara görə İrəvan xanlığının Sürməli mahalındakı əhalinin etnik tərkibini və sayını müəyyən etmək olar. XIX əsrin əvvəllərində İrəvan xanlığının Sürməli mahalında müsəlman əhali 7009 ailə (2555 kişi, 2277 qadın – cəmi 4832 nəfər) idi. İrəvan xanlığının Arazboyu mahallarında cəmi 5276 ailə, 30488 müsəlman əhali yaşayırdı [11, s. 543 – 586].

Şopenə görə İrəvan xanlığının Sürməli mahalına daxil olan şəhər və kəndlərin, eyni zamanda əhalisinin sayı aşağıdakı çədvəldə verilmişdir [11, s. 563-570]:

№	Sürməli mahalına daxil olan şəhər və kəndlərin, əhalisinin sayı																				
Kəndlər	Sürməli mahalı	Müsəlmanlar				Ermənilər ümimi olaraq												Cəmi			
						Türkmənçay müqaviləsindən əvvəl köçürülənlər						Türkmənçay müqaviləsindən sonra köçürülənlər									
		Ailələrin sayı	Nəfər			Ailələrin sayı	Nəfər			İrandan				Osmanlı dövlətindən				Ailələrin sayı	Nəfər		
										Ailələrin sayı	Nəfər			Ailələrin sayı	Nəfər						
			kişi	qadın	cəmi		kişi	qadın	cəmi		kişi	qadın	cəmi		kişi	qadın	cəmi		kişi	qadın	Cəmi
1	Ark-uri (Arx yeri?)	-	-	-	-	177	506	510	1016	-	-	-	-	74	188	154	342	251	694	664	1358
2	Rəhmətabad və ya Ramazan kəndi	18	55	50	105	-	-	-	-	-	-	-	-	-	-	-	-	18	55	50	105
3	Həsənabad	12	50	48	98	-	-	-	-	-	-	-	-	-	-	-	-	12	50	48	105
4	Süleymanabad	22	97	77	174	-	-	-	-	-	-	-	-	-	-	-	-	22	97	77	174
5	Cənnətabad	23	87	68	155	-	-	-	-	-	-	-	-	-	-	-	-	23	87	68	155
6	Daşburun	-	-	-	-	58	192	158	350	16	49	27	76	-	-	-	-	74	241	185	426
7	Toxanşagli-qacar	29	112	87	199	-	-	-	-	-	-	-	-	-	-	-	-	29	112	87	199
8	Toxanşagli -bayat	14	44	3983	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	14	44	39	83
9	Göycəli	9	28	25	53	-	-	-	-	-	-	-	-	-	-	-	-	9	28	25	53
10	Şirəçi	7	25	19	44	-	-	-	-	-	-	-	-	-	-	-	-	7	25	19	44
11	Səfərqulu	13	41	31	72	-	-	-	-	-	-	-	-	-	-	-	-	13	41	31	72
12	Əlican	-	-	-	-	17	60	60	120	-	-	-	-	2	6	9	15	19	66	69	135
13	Hüseynkəndi	-	-	-	-	24	64	63	127	2	10	3	13	3	9	9	18	29	83	75	158
14	Mürşüdəliqışlağı	8	23	22	45	-	-	-	-	-	-	-	-	-	-	-	-	8	23	22	45
15	Zülfüqar	10	28	28	56	-	-	-	-	23	89	77	176	-	-	-	-	33	117	105	222
16	Təcirli	3	10	11	21	35	106	114	220	-	-	-	-	2	4	8	12	40	120	133	253
17	Evcilər	-	-	-	-	51	171	160	331	-	-	-	-	19	53	36	89	70	224	196	420
18	Əmarat	3	8	8	16	-	-	-	-	-	-	-	-	-	-	-	-	3	8	8	16
19	Nəcəfəli	3	12	12	24	19	75	75	150	-	-	-	-	8	18	11	29	30	105	98	203
20	Qaziqışlağı	14	46	30	76	23	72	60	132	-	-	-	-	6	11	13	24	43	129	103	232

№	Sürməli mahalına daxil olan şəhər və kəndlərin, əhalisinin sayı																				
Kəndlər	Sürməli mahalı	Müsəlmanlar				Ermənilər ümimi olaraq												Cəmi			
						Türkmənçay müqaviləsindən əvvəl köçürülənlər								Türkmənçay müqaviləsindən sonra köçürülənlər							
		Ailələrin sayı	Nəfər			Ailələrin sayı	Nəfər			İrandan				Osmanlı dövlətindən				Ailələrin sayı	Nəfər		
										Ailələrin sayı	Nəfər			Ailələrin sayı	Nəfər						
			kişi	qadın	cəmi		kişi	qadın	cəmi		kişi	qadın	cəmi		kişi	qadın	cəmi		kişi	qadın	Cəmi
21	Ələtli	-	-	-	-	36	144	132	276	-	-	-	-	3	7	4	11	39	151	136	287
22	Panik	-	-	-	-	43	138	122	260	-	-	-	-	1	3	2	5	44	141	124	265
23	Qızılzakir	11	28	31	59	6	16	17	33	-	-	-	-	-	-	-	-	17	44	48	92
24	Qazançı	20	81	72	153	-	-	-	-	-	-	-	-	-	-	-	-	20	81	72	153
25	Sarıçoban	13	38	32	70	-	-	-	-	-	-	-	-	-	-	-	-	13	38	32	70
26	Ağaver	10	31	19	50	-	-	-	-	-	-	-	-	-	-	-	-	10	31	19	50
27	Ağməhəmməd[1]	48	175	153	328	-	-	-	-	-	-	-	-	-	-	-	-	48	175	153	328
28	Ərəbgirli	15	62	63	125	-	-	-	-	-	-	-	-	-	-	-	-	15	62	63	125
29	Molla Əhməd	20	102	103	205	-	-	-	-	-	-	-	-	-	-	-	-	20	102	103	205
30	Yaycı	67	221	196	417	-	-	-	-	-	-	-	-	-	-	-	-	67	221	196	417
31	Quzugüdən	18	62	63	125	-	-	-	-	-	-	-	-	-	-	-	-	18	62	63	125
32	Qasımcan	13	51	49	100	-	-	-	-	-	-	-	-	-	-	-	-	13	51	49	100
33	Blur[2]	-	-	-	-	69	266	231	497	-	-	-	-	9	21	21	42	78	287	252	539
34	Ağveyis[3]	-	-	-	-	41	125	122	247	-	-	-	-	10	20	16	36	51	145	138	283
35	Əlikəmərli	-	-	-	-	-	-	-	-	64	147	129	276	37	135	103	238	101	282	234	514
36	Xoşxəbər	3	14	13	27	38	114	112	226	-	-	-	-	11	27	21	48	52	155	146	301
37	Xəlifəli	-	-	-	-	-	-	-	-	43	118	107	225	7	15	12	27	50	133	119	252
38	İğdır	-	-	-	-	19	53	49	102	108	255	237	492	6	17	13	30	133	325	299	624
39	İbrahimabad	19	77	76	153	-	-	-	-	43	120	91	211	31	99	75	174	93	296	242	538

[1] "İrəvan əyalətinin icmal dəftəri"ndə bu kəndin adı Əxi Məhəmməd [3; 1, s. 66] şəklində verilir, rus dilində təhrif edilərək Ağməhəmməd (Агъ-Мюгаммедъ) yazılmışdır.

[2] "İrəvan əyalətinin icmal dəftəri"ndə bu kəndin adı Büllür [3; 1, s. 66] şəklində verilir.

[3] "İrəvan əyalətinin icmal dəftəri"ndə bu kəndin adı Əxi Veys [3; 1, s. 66] şəklində verilir, rus dilində təhrif edilərək Ağveys (Агъ-веисъ) yazılmışdır.

№	Sürməli mahalına daxil olan şəhər və kəndlərin, əhalisinin sayı																				
Kəndlər	Sürməli mahalı	Müsəlmanlar				Ermənilər ümimi olaraq												Cəmi			
						Türkmənçay müqaviləsindən əvvəl köçürülənlər								Türkmənçay müqaviləsindən sonra köçürülənlər							
		Ailələrin sayı	Nəfər			Ailələrin sayı	Nəfər			İrandan				Osmanlı dövlətindən				Ailələrin sayı	Nəfər		
										Ailələrin sayı	Nəfər			Ailələrin sayı	Nəfər						
			kişi	qadin	cəmi		kişi	qadin	cəmi		kişi	qadin	cəmi		kişi	qadin	cəmi		kişi	qadın	Cəmi
40	Baharlı	-	-	-	-	27	104	93	197	-	-	-	-	5	12	7	19	32	116	100	216
41	Ərhacı	91	321	295	616	-	-	-	-	-	-	-	-	-	-	-	-	91	321	295	616
42	Mələkli	60	239	210	449	-	-	-	-	-	-	-	-	-	-	-	-	60	239	210	449
43	Qaraqoyunlu	73	248	252	536	-	-	-	-	-	-	-	-	-	-	-	-	73	248	252	536
44	Daşlıca	6	16	12	28	-	-	-	-	-	-	-	-	-	-	-	-	6	16	12	28
45	Siçanlı	4	11	9	20	-	-	-	-	-	-	-	-	-	-	-	-	4	11	9	20
46	Qızılkula[1] (Qızılqüllə)	9	19	19	38	-	-	-	-	-	-	-	-	-	-	-	-	9	19	19	38
47	Güllücə	-	-	-	-	54	182	159	341	-	-	-	-	-	-	-	-	54	182	159	341
48	Mollakəmər	-	-	-	-	25	74	75	149	-	-	-	-	27	101	82	183	52	175	157	332
49	Çançavad	21	57	55	112	-	-	-	-	-	-	-	-	-	-	-	-	21	57	55	112
50	Qulp	-	-	-	-	173	590	528	1118	-	-	-	-	-	-	-	-	173	590	528	1118
	50 kənddə cəmi	709	2555	2277	4832	935	3052	2840	5892	299	788	671	1459	261	746	596	1342	2204	7141	6384	13525

[1] "İrəvan əyalətinin icmal dəftəri"ndə bu kəndin adı Qızılqala [3; 1, s. 68] şəklində verilir.

İrəvan xanlığının Sürməli mahalında yaşayan ermənilər buranın yerli əhalisi olmayıb, bir hissəsi Türkmənçay müqaviləsindən əvvəl, əksəriyyəti isə Türkmənçay müqaviləsindən sonra Qacarlar İranı və Osmanlı dövlətindən buraya köçürülmüşlər. Türkmənçay müqaviləsindən sonra İrəvan xanlığının Sürməli mahalına köçürülən Ermənilər ümimilikdə 935 ailə, 5892 nəfərdən (3052 kişi, 2840 qadın) ibarət idi. Qacarlar İranından İrəvan xanlığının Sürməli mahalına köçürülən ermənilərin sayı 299 ailə, 1459 nəfər (788 kişi, 671 qadın) idi. Osmanlı dövlətindən İrəvan xanlığının Sürməli mahalına köçürülən ermənilərin sayı 261 ailə, 1342 nəfər (746 kişi, 596 qadın) idi [11, s. 543-586].

İrəvan xanlığının torpaqlarında yaşayan 67 ailədən (324 nəfər) ibarət olan yəhudilər qışda Sürməli mahalında qışlayırdılar [11, s. 666].

İrəvan xanlığının Sürməli mahalında bəy və sultanlar 1 ailədən (2 müsəlman kişi, 3 müsəlman qadın, ümimilikdə 5 nəfər), məlik və ağalar 3 ailədən (14 erməni kişi, 11 erməni qadın, ümumilikdə 25 nəfər) ibarət idi [11, s. 689-690].

İ.Şopenin verdiyi məlumata görə, Sürməli mahalının daxil olduğu İrəvan xanlığında din xadimləri 3 qrupa ayrılırdılar: 1. müsəlmanlar, 2. pravoslavlar, 3. erməni-qriqoryanlar. Sürməli mahalında ümumilikdə 22 ailə (98 kişi, 84 qadın, ümimilikdə 182 nəfər) din xadimi yaşayırdı [11, s. 691-692].

İrəvan xanlığının Sürməli mahalında müsəlman din xadimlərinin sayı 14 ailə, yəni 143 nəfər idi. Bunlardan 17 ailə (59 kişi, 65 qadın, ümumilikdə 124 nəfər) axund, 1 ailə mirzə (2 kişi, 2 qadın, ümumilikdə 4 nəfər), 2 ailə (5 kişi, 3 qadın, ümumilikdə 8 nəfər) seyid, 1 ailə (5 kişi, 2 qadın, ümumilikdə 7 nəfər) dərviş idi [11, s. 699-700].

Sürməli mahalında bağların ətrafında olan torpaq sahələrində bir çox kənd yerləşirdi və Şopenin verdiyi məlumata görə hər verst torpaqda hər iki cinsdən 6,6 nəfər, hər kvadratverstdə isə təxmini olaraq hər iki çinsdən 13,3 nəfər yaşayırdı [11, s. 652].

Şopenin yazdığına görə, Sürməli mahalından Bəyazid Paşalığına uzanan yolda çox sayda cığırlar vardı və onlar Ağrı dağına doğru bütün mümkün olan istiqamətlərdə kəsişirdi [11, s. 721].

XIX əsrin 30-cu illərində İrəvan əyalətinə daxil olan Sürməli mahalında bağların ümumilikdə sayı 375, onun əhatə etdiyi torpaq sahəsi

110 xalvar, üzümçülükdən gələn gəlir 95 xalvar, digər meyvələrdən gələn gəlir 279 xalvar idi [11, s. 747-748]. Onu da qeyd etmək lazımdır ki, Sürməli mahalında əhalinin ağac əkərək saldığı süni meşələr vardı və bu meşələr 2 xalvar təşkil edirdi [11, s. 758]. Sürməli mahalını əhatələyən dağlarda zəngin ot örtüyü vardı. Xüsusilə kəndlərdə çəmən 72 xalvara qədər, yonca isə 70 xalvara qədər idi [11, s. 760].

Sürməli mahalında heyvandarlıq da inkişaf etmişdi. XIX əsrin 30-cu illərində aparılan kameral təsvirə görə İrəvan əyalətinin Sürməli mahalında tatarlar (Azərbaycan türkləri - İ. M.) və ermənilərə məxsus kəl, camış, balağ, öküz, inək, buzov, at, qatır, eşşək, qoyun, keçinin sayı aşağıdakı çədvəldə göstərilmişdir [11, s. 785-786]:

№	**XIX əsrin 30-cu illərində aparılan kameral təsvirə görə Sürməli mahalında heyvandarlıq**								
	Etnik tərkibi	**Heyvanın cinsi**							
		Kəl, camış balağ	**Öküz, inək və buzov**	**Dəvə**	**At**	**Qatır**	**Eş-şək**	**Qoyun və keçi**	**Ümumilikdə**
1	Tatarlara (Azərbaycan türklərinə) məxsus	1473	3733	39	817	_	180	10078	16320
2	Türkmənçay müqaviləsindən əvvəl köçürülən ermənilərə məxsus	1023	2727	_	315	_	86	5273	9424
3	Türkmənçay müqaviləsindən sonra Qacarlar İranından köçürülən ermənilərə məxsus	77	264	_	25	_	23	109	498
4	Türkmənçay müqaviləsin-	199	696	_	68	_	37	652	1652

	dən sonra Osmanlı dövlətindən ermənilərə məxsus								
Ümimilikdə		2772	7420	39	1225	_	326	16112	27894

İ.Şopen Sürməli mahalının Blur və Panik kəndlərində boyaqxananın işlədiğini, eyni zamanda mahalda 5 işlək, 1 isə xarab yağ istehsal edən sexin olduğunu yazırdı. Sürməli mahalında 78 un dəyirmanı vardı [11, s. 859-860, 863-864]. İrəvan xanlığında xanın torpağın münbitlik səviyyəsindən, tipindən və başqa səbəblərdən asılı olaraq aldığı binaçı vergisi var idi. Bu vergi mahal və yaxud kəndə, ailəyə görə dəyişə bilirdi. Məsələn, Sürməli mahalında 10 ailə bir binaçını təşkil edirdi [11, s. 970]. İrəvan xanı hər il peşkəş olaraq Sürməli mahalından 100 tümən alırdı. Bu 100 tümən peşkəşin 70 tümənini tatarlar, 30 tümənini ermənilər verirdi [11, s. 974]. Xanlıqlar dövründə Sürməli mahalı mirablara 30 tümən verirdi. İrəvan xanının hakimiyyətinin son illərində Sürməli mahalından buğda, arpa, darı və çəltiyə görə 120 tümən, pambığa görə 226 tümən 4 minaltın, tütünə görə 24 tümən qulluqpulu, yəni xidmət için pul alırdılar. Sürməli mahalının biçinciləri İrəvan xanına 131 tümən 6 minaltın 14 şahı biçinci vergisi verirdilər [11, s. 977-979]. İrəvan xanlığı dövründə Sürməli mahalında rəhtar vergisi mövcud idi [11, s. 882]. Sürməli mahalının əhalisi İrəvan xanına 300 tümən rəhtar vergisi verirdi. Sürməli mahalına daxil olan Qulp və Mollakəməri kəndindəki boyaqxanalardan xan 45 tümən, Blur və Panik kəndindəki boyaqxanalardan isə 150 tümən alırdı [11, s. 980]. İrəvan xanı Hüseynqulu xanın vəziri Mirzə İsmayılın verdiyi məlumata görə Sürməli mahalına daxil olan və bəhrəkər kəndlərə aid olan İğdır kəndində binaçı şəklində evlərin sayıı 9 ½ idi, kənddən yerli pul ilə 95 tümən vergi alınırdı, bundan başqa kənd əhalisi 984 əl arabası buğda, 839 əl arabası arpa, 37 əl arabası darı, 397 batman tütün, 5 xalvar 90 batman pambıq, 24 batman gənəgərçək, 10 batman mərcimək verirdi [11, s. 1019-1022]. 1829-cu il kənd əhalisinin verdiyi məlumata görə isə Sürməli mahalına daxil olan və bəhrəkər kəndlərə aid olan İğdır kəndində binaçı evlərin sayı 9 idi, kənddən İrəvan pulu ilə 90 tümən vergi alınırdı, bundan başqa kənd əhalisi 1,023 əl arabası buğda,

788 əl arabası arpa, 25 batman 2 xalvar soğan, 53 xalvar 3 batman pambıq, 3 xalvar 86 batman tütün, 30 batman gənəgərçək verirdi. Sürməli mahalında tütünün 60 xalvar 1 funt toxumundan 1 xalvar yağ alınırdı. Sürməli mahalının Ərhacı kəndində keyfiyyətli tütün məhsulu yetişdirilirdi və sərdarın (İrəvan xanı Hüseynqulu xanın - İ.M.) hakimiyyəti dövründə 40 xalvara qədər və daha çox yüksək keyfiyyətli tütün istehsal edilirdi. Şöpenin dövründə isə Ərhacı sakinləri tütün əkini gəlirli olmadığı üçün onu yalnız öz ehtiyaclarını ödəmək üçün becərirdilər [11, s. 744-745;1083-1086]**.**

İ.Şopenin yazdığına görə, Sürməli mahalında 13 anbar, 1 hamam, 10 ev, 3 axur, 75 bağ, 2 yağ istehsal edən sex (1 işlək, 1 xarab), 20 un dəyirmanı (11 işlək, 9 xarab) vardı [11, s. 943-946].

"İrəvan quberniyasının qəza, polis sahələri və kənd icmalarının sərhədləri göstərilməklə xəritəsi" XIX əsrin 90-cı illərində quberniyanın Sürməli mahalının kənd əhalisinin etnik mənsubiyyətinə görə sayını təyin etməyə imkan verir. Bu xəritəyə görə İrəvan quberniyasının Sürməli mahalında tatarlar 48,3% (34351 nəfər), kürdlər 20,6% (14619 nəfər), ermənilər 31,1% (22096 nəfər) idi. Ümimilikdə, Sürməli mahalında 71066 nəfər yaşayırdı. Aşağıdakı cədvəldə İrəvan quberniyasının Sürməli mahalının kənd əhalisinin etnik mənsubiyyətnə görə sayı verilmişdir [7, v. 1; 2, s. 87-99].

İrəvan quberniyası Sürməli mahalının kənd əhalisi				
İrəvan quberniyası	**Mənsubiyyəti və sayı (nəfərlə)**			
mahal	Tatar	Kürd	Erməni	Ümimilikdə
Sürməli	34351	14619	22096	71066
%	48,3%	20,6%	31,1%	100%

Cədvəldə İrəvan quberniyasının Sürməli mahalında tatarların, yəni Azərbaycan türklərinin 48,3% olması, buraya ermənilərin köçürülməsindən sonra da Azərbaycan türklərinin üstünlük təşkil etməsinin sübutudur.

1886-cı ilin statistikasına görə İğdır İrəvan guberniyasının Sürməli qəzasına daxil olan 3 sahədən biri idi. İğdırın əhalisi ümimilikdə 30647 nəfər təşkil edirdi. İğdırda tatarların sayı 11868 nəfər (38.7%),

Ermənilərin sayı 15204 nəfər (49.6%), kürdlərin sayı isə 3575 nəfər (11.7%) idi [10]:

1886-cı ilin statistikasına görə İrəvan quberniyasının ərazisi				
	Hamısı	**Tatarlar**	**Ermənilər**	**Kürdlər**
İrəvan quberni-yasının ərazisi	78317 (100%)	35091 (44.8%)	22096 (28.2%)	21130 (27.0%)
Sürməli qəzası	71066 (100%)	34351 (48.3%)	22096 (31.1%)	14619 (20.6%)
İğdır sahəsi	30647 (100%)	11868 (38.7%)	15204 (49.6%)	3575 (11.7%)
Daşburun sahəsi	20520 (100%)	13034 (63.5%)	2265 (11.0%)	5221 (25.4%)
Qulp sahəsi	19899 (100%)	9449 (47.5%)	4627 (23.3%)	5823 (29.3%)

1894-cü ildə İğdıra səfər etmiş İrəvan müəllimlər seminariyasının müəllimi V.Devitski İğdırın İrəvanın cənub-qərbində yerləşdiyini və Sürməli mahalının mərkəzi olduğunu bildirirdi. Onun məlumatına görə İğdırda 5 min tatar və erməni əhali yaşayırdı, qəza rəisliyi, qəza müəssisələri və kömrük məntəqəsi burada yerləşirdi. Bir çox hallarda tutulan qaçaq mallarını elə burada da satılması əhalinin İrəvan şəhərində ikiqat baha satılan malları burada daha ucuz əldə etmələrinə imkan verirdi [5, s. 95, 97].

1897-ci ildə aparılan siyahıyalınmaya görə, İrəvan quberniyasına daxil olan Sürməli qəzasında ümumilikdə 89055 nəfər vardı. Sürməli qəzasında tatarların sayı 41.417 nəfər (46.5%), ermənilərin sayı 27075 nəfər (30,4%), kürdlərin sayı 10.099 nəfər (21,4%), rusların sayı 725 nəfər (0,8%), ukraynalıların sayı isə 620 nəfər (0,7%) idi [12]:

İrəvan quberniyası Sürməli qəzası (1897-ci il)						
Danışdıqları dilə görə	**Tatar**	**Erməni**	**Kürd**	**Rus**	**Ukraynalı**	**Ümumilikdə**
Sürməli qəzası	41.417	27.075	10.099	725	620	89.055
%	46,5 %	30,4 %	21,4 %	%0,8	%0,7	%100

Onu da qeyd etmək lazımdır ki, həm 1897-ci ildə, həm də 1886-cı ildə aparılan siyahıyalınmaya görə, İrəvan quberniyasında tatarlar, yəni Azərbaycan türkləri üstünlük təşkil edirdilər.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı

1. İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifi Bünyadov Z. və Məmmədov H.) Bakı, 1996.
2. Memmedova İ.M "19.Yüzyılın 80-90'lı Yıllarında Güney Kafkas'yanın Etnografik Haritası (Kars ve diğer bölgeler)". İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi, 2012, cilt 1, sayı: 2, s. 87-99.
3. Revan eyaletinin havi olduğu livalardakı has, timar ve zeametleri havi icmal defteri. BOA, TTD 898.
4. Revan livasının nüfus ve hasilatını mübeyyun mufassal defter. BOA, TTD 901.
5. Девицки В. Каникулярная поездка по Эриванской губернии и Карсской области // Сборник материалов для описания местностей и племен Кавказа, выпуск 21,Тифлис, 1896, с.79-180.
6. Ениколопов И.К. Грибоедов и Восток, Ереван, 1954.
7. Карта Эриванской губернии с показанием границ уездов, полицейских участков и селских общин, составленный под. Ред. Кондратенко // Российский Государственный Военно-Исторический архив (РГВИА), ф. 414, оп. 1, д. 307.
8. Мамедова И.М. Влияние переселенческой политики Российской империи на этноконфессиональную ситуацию Азербайджана в начале XIX века //Вопросы гуманитарных наук, Москва, 2009, № 6 (44), с. 29-36.
9. Обозрение Российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях (ОРВЗ), ч. IV, СПб., 1836.
10. Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 года, Тифлис1893.
11. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её соединения к Российской империи. СПб., 1852.
12. Эриванская губерния. Первая всеобщая перепись населения Российской империи 1897 г. т. 24, СПб., 1905.

Ирада Мамедова

О населении Игдыра и его окрестностей в XVIII и XIX вв.

Резюме

В статье на основе источников исследовано население, социальная, экономическая жизнь и торговля Игдыра и его окрестностей в XVIII и XIX вв.

По данным "Обзорной тетради Иреванской провинции", составленного с захватом некоторых областей государства Сефевидов османами в 20-х годах XVIII века, в Игдырский регион и окрестностей Иреванской провинции входили следующие: Игдыр (64 деревень, 15 зимних пастбищ, 1 мазраа), Сюрмели (48 деревень, 8 мазраа, 2 зимних пастбищ и 4 летние пастбища, Аралык (30 деревень, 8 зимние пастбища, 2 мазраа, 2 летние пастбища). По данным источника было зарегистрировано 59 жилых пунктов в Сюрмели, 78 в Игдыре и 36 в Аралыке. Годовой доход из султанских хассов был в Сюрмели 725680, в Игдыре 351982, а в Аралыке 189680 акче.

После убийства Надир шаха в 1747 году, образовались независимые ханства в Азербайджане. В то время, Игдыр и его окрестностей входили в состав Иреванского ханства. Во время правления Иреванских ханов благополучие жителей в Игдыре и его окрестностей возросло, в Сюрмелинском магале летом развивалось земледелие и скотоводство, а зимой особенно развивалась социальная жизнь. По данным Шопена во время правления Гусейнкули хана Игдыр входил в состав Сюрмелинского магала, в то же время был центром этого магала.

В итоге русско-иранской войны 1826 – 1828-го гг. и русско-турецкой войны 1828 – 1829-го гг. во всех магалах Иреванского ханства, включая и Сюрмелинского магал и его центр Игдыр, многие селения были разгромлены, население было вынуждено покинуть свои селения. Кроме того, по условиям Туркменчайского договора 1828 года часть армян, переселенных Российской империей из Каджарского Ирана и Османской империи в Иреванское, Нахчыванское и Карабахское ханства были размещены в Сюрмелинском магале. Из Хоя и Салмаса были переселены в Сюрмелинский магал 200 армянских семей.

По сведениям И.Шопена можно определить этнический и численный состав населения Сюрмелинского магала Иреванского ханства. Мусульманское население Сюрмелинского магала Иреванского ханства составляло 7009 семей (4832 человек). До Туркменчайского договора армяне переселенные в Сюрмелинский магал Иреванского ханства были в общей сложности 935 семей (5892 человек). Численность армян переселенных из Ирана в Сюрмелинский магал Иреванского ханства составляло 299 семей (1459 человек), а численность армян переселенные из Турции было 261 семей (1342 человек). Основным занятием населения было овцеводство.

По данным переписи населения, проведенной в 1897 году, в Сюрмелинском уезде Иреванской губернии насчитывалось в общей сложности 89055 человек. Согласно статистике 1886 года Игдыр был одним из 3-х участков, включенных в Сюрмелинский уезд Иреванской губернии. Население Игдыра составляло в общей сложности 30647 человек.

Assoc. Dr. Irada Mammadova

Population of Igdir and of the surrounding areas in the XVIII and XIX centuries

Abstract

This article aims to research the population and the social, economic life of Igdir and the surrounding areas in the XVIII and XIX centuries.

According to the "Review book of the Iravan Khanate" compiled after the seizure of some regions of the Safavi state by the Ottomans in the 20s of the XVIII century, the following was included to the Igdir district being a part of Iravan province and the surrounding areas: Igdir (64 villages, 15 winter pastures, 1 mezre), Surmeli (48 villages, 8 mezres, 2 winter pastures and 4 summer pastures, Aralig (30 villages, 8 winter pastures, 2 mezres, 2 summer pastures). According to the book, 59 residential areas were registered in Surmeli, 78 in Igdir, and 36 in Aralig. The annual income of Surmeli located in Sultan Hasslar was 725680 akhcha, in Igdir - 351982, in Aralig 189680 akhcha.

After the death of Nadir Shah in 1747, new independent khanates were formed in Azerbaijan. At the time, Igdir and the surrounding areas were included to the borders of the Iravan khanate. Under the reign of the Iravan khans well-being of people in Igdir and around increased, social life developed in the Surmeli mahal where the agriculture and cattle-breeding had grown. According to Shopen during the reign of Huseyn Qulu khan Igdir was part of the Surmeli mahal and was the center of the mahal at the same time.

As a result of the 1826 - 1828 years' Russia – Iran and the 1828 - 1829 years' Russian - Turkish wars all mahals of the Iravan khanate, including many villages of the Surmeli mahal and its center Igdir were severly damaged and the people were forced to leave their homes. In addition, according to the 1828 year Turkmenchay treaty part of the Armenians moved by the Russian Empire from the Qajar Iran and the Ottoman State to Iravan, Nakhchivan and Karabakh khanates were resettled in Surmeli mahal. 200 Armenian families were moved from Khoy and Salmas to Surmeli mahal.

According to I.Shopen, it is possible to determine the ethnic composition and the population of the Surmeli mahal of the Iravan khanate. Muslim population was 7009 families (4832 people) in the Surmeli mahal of the Iravan Khanate. Before the Turkmenchay treaty Armenians moved to the Surmeli mahal of the Iravan khanate were in total 935 families (5892 people). The number of Armenians moved from Iran to the Surmeli mahal of the Iravan khanate was 299 families (1459 people), the number of Armenians moved from Turkey was 261 families (1342 people). The main occupation of the population was sheep-breeding.

According to the census conducted in 1897, in the Surmeli uyezd of the Iravan gubernia there were in total 89055 people. Alos, according to the statistics of 1886 Igdir was one of the 3 areas included to the Surmeli uyezd of the Iravan gubernia. The population of Igdir was a total of 30647 people.

MİSİR ƏRƏB RESPUBLİKASININ XARİCİ SİYASƏT KURSUNA BAXIŞ

Elnur MƏMMƏDZADƏ

Misir Ərəb Respublikası əhalisinin sayına və ərazisinə görə ərəb aləminin ən böyük və iqtisadi baxımdan ən çox inkişaf etmiş dövlətlərindən biridir. XX əsrin ikinci yarısında Yaxın Şərqdə baş vermiş prosesləri analiz edərkən belə qənaətə gəlmək olur ki, bu qeyri-stabil regionda güc balansı, habelə regionun bir çox qonşu və müsəlman ölkələrində hadisələrin gedişatı Misirin tutduğu mövqe və həyata keçirdiyi xarici siyasət kursundan çox asılıdır. Bu baxımdan ərəb dünyasının mərkəzində, Asiya, Afrika və Avropa qitələrinin kəsişməsində yerləşən Misirin xarici siyasət kursunun analizi mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir.

Bu baxımdan XX əsrin ikinci yarısında Misirin keçdiyi tarixi mərhələ vacib əhəmiyyət kəsb edən dövrlərdəndir. Belə ki, Misir ərəb ölkələri sırasında sosialist inkişaf yoluna ilk qədəm qoyan və bu yoldan ilk üz döndərən dövlət olmuşdur. Misirin xarici siyasət kursu da bu baxımdan mühüm istiqamətlərdən hesab olunur. Məhz Misir İsrailə qarşı hərbi qarşıdurma cəbhəsində ərəb ölkələrinin səylərini səfərbər etmiş və eyni zamanda sonuncu ilə diplomatik münasibətlər qurmağa müvəffəq olmuşdur.

Misirin aparıcı regional dövlət rolu beynəlxalq ictimaiyyət tərəfindən daim qəbul edilmişdir. Misirin müasir tarixi onun rəhbərlərinin şəxsi keyfiyyətləri və xasiyyətləri ilə sıx bağlıdır.

Camal Əbdül Nasirin başçılıq etdiyi "Azad zabitlər" təşkilatı hakimiyyətə gəldikdən sonra Misirdə genişmiqyaslı islahatlar, ümumən bütün Yaxın Şərq regionunda isə qüvvələrin balansında əsaslı dəyişikliklər başladı. C.Nasirin daxili və xarici siyasətinin əsas istiqamətlərini planlı iqtisadiyyat, genişmiqyaslı sənayeləşdirmə, iri sahibkarların mülkiyyətinin milliləşdirilməsi, SSRİ ilə sıx əməkdaşlıq münasibətlərinin

---

Elmar Məmmədzadə - AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı

qurulması və panərəbist idealogiyasının yayılması təşkil edirdi. Bütün bunlar Misir üçün həm ölkə daxilində, həm də beynəlxalq arenada böyük uğurlara yol açdı. [1]

Həmin dövr ərzində Misirin siyasəti əsasən ölkəyə rəhbərlik edən görkəmli dövlət xadiminin şəxsi keyfiyyətləri ilə müəyyən edilirdi. Lakin, Nasir özünün siyasi kursunun davamlılığını təmin edəcək ictimai-siyasi institutlar yarada bilməmişdir. Digər tərəfdən, ölkədə həm yerli, həm də xarici kapitalın fəaliyyətinin məhdudlaşdırılmasına baxmayaraq, Misirdə dövlət aparatının rəhbər dairələrində "burjuazlaşma" meylləri üzə çıxmağa başladı. Prezidentin şəxsi hakimiyyətindən başqa bu prosesin qarşısında ciddi maneələr movcud deyildi. Beləliklə, 1970-ci illərin əvvəlində Misirdə əks-inqilabın baş tutması üçün zəmin yarandı. Buna görə də Nasiri prezident postunda əvəz etmiş Ənvər Sədat bu obyektiv meylləri düzgün istiqamətə yönləndirməkdə çətinlik çəkməmişdir.[1]

C.Nasir vəfat etdiyi zaman Sədat artıq vitse-prezident vəzifəsini tuturdu. Lakin o, heç bir səlahiyyətlərə malik deyildi və Nasirin siyasi rejimində gözəçarpan funksiyalar h^{i}əyata keçirmirdi. O, heç bir cərəyan və yaxud qruplaşmaya başçılıq etmirdi və bu vəzifəyə təyin olunması hamı üçün gözlənilməz olmuşdur. Buna görə də, Nasirə yaxın siyasətçilər Sədatın bu vəzifəyə təyin edilməsini öz dairələrinə yad ünsürün daxil edilməsi kimi qəbul edərək, eyni zamanda, Sədatın siyasi çəkisinin artmayacağını və onun yeni təyinatının sadəcə protokol funksiyalarını yerinə yetirmək üçün hazırlandığını düşünürdülər. Lakin, Ə.Sədat Misirin siyasi arenasında təsadüfi fiqur deyildi. O, hakimiyyətdə Misir cəmiyyətinin geniş sosial təbəqəsini- milli və dini dəyərlərə arxalanan kənd burjuaziyasının bir hissəsini təmsil edirdi.

Vitse-prezident təyin edildikdən sonra Ə.Sədat hakimiyyətin yuxarı dairələrində özünə dayaq yaratmaq istiqamətində əməli addımlar atmağa başladı. Dövlət aparatı səviyyəsində o, Nasirin siyasi kursunun əleyhdarlarının dəstəyini əldə edə bildi. Sədat, eyni zamanda, Milli Məclisdə də özünə münasibətdə loyallığı ilə seçilən deputatların da dəstəyinə əmin ola bilərdi. Buna görə də, Nasirin vəfatından sonra başlamış hakimiyyət uğrunda mübarizə nəticəsində müəyyən oldu ki, ölkə ictimaiyyətinin əksəriyyəti məhz Sədatı dəstəkləyir.

Siyasi və ideoloji baxışlarının Nasirin baxışlarından tam fərqlənməsinə baxmayaraq, Sədat 1970-ci illərin əvvəlində hələ sələfinin dövründə həyata keçirilən siyasi kursu davam etdirirdi. O, öz siyasi çıxışlarında Nasirin siyasətinin davamçısı olduğunu bəyan edirdi. Misir cəmiyyətindəki qüvvələrin balansı, mərhum prezident tərəfindən başlanmış islahatların daha da genişləndirilməsinn tərəfdarı olan qüvvələrin möhkəm mövqeləri və Nasirin populyarlığını nəzərə alaraq, Sədat ilk mərhələdə sələfinin siyasi kursunu davam etdirməyə məcbur idi. 1952-ci inqilabı nəticəsində qurulanlara qarşı çıxmaq siyasi intihar olardı.

Lakin, zaman keçdikcə Sədat və onun ətrafı öz çıxışlarında "keçmiş dövrün səhvlərinin düzəldilməsi" niyyətləri barədə fikirlər səsləndirməyə başladılar. Tezliklə bu fikirlər konkret addımlar vasitəsilə həyata keçirilməyə başladı. 1974-cü ilin baharında hökumət tərəfindən ölkənin inkişafının əsas istiqamətlərini müəyyən edən "oktyabr işçi sənədi" adlı proqram qəbul olundu. Bu proqrama əsasən, ölkədə "açıq qapılar" siyasəti elan olundu. Yeni strategiyanın əsas məqsədləri aşağıdakı şəkildə müəyyən edilmişdir:

- hərbi xərclərin artırılması nəticəsində istehsalın inkişafı prosesinin qarşısında yaranmış maneələrin aradan qaldırılması;
- hərbi əməliyyatlar nəticəsində zərər çəkmiş rayonlarda əmək fəaliyyətinin bərpa edilməsi;
- milli iqtisadiyyatın sürətli inkişafının təmin edilməsi məqsədilə ölkəyə yeni sərmayələrin cəlb edilməsi;
- ərəb ölkələri ilə iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi;
- məşğulluğun artırılması və mövcud olan sərvətlərdən daha səmərəli faydalanmaq məqsədilə dünya təcrübəsinin istifadəsi və müasir texnologiyaların cəlb edilməsi;
- ərəb və xarici investorlar üçün ölkədə münbit şəraitin yaradılması.[2]

"İnfitah" siyasətinin daha dəqiq məqsədi iqtisadiyyatın ən gəlirli sahələrinin inkişafı, Misirin təbii ehtiyatları, habelə münbit coğrafi mövqeyindən faydalanaraq ixracı genişləndirmək və bununla da ölkəyə valyuta axınının çoxaldılmasından ibarət idi.

Bu siyasətin hüquqi əsaslarının möhkəmləndirilməsi məqsədilə 1974-cü ilin iyun ayından 1975-ci ilin sonunadək Misir iqtisadiyyatına sərmayə qoyuluşunu yüngülləşdirən yüzlərlə qanun, fərman və qərar

qəbul olunmuşdur. Bunun nəticəsi olaraq, 1970-ci illərdə Misir inkişaf etməkdə olan ölkələr arasında əldə edilən maliyyə vəsaitlərinin həcminə görə birinci yerləri tuturdu. Xarici sərmayələr üçün "infitah" siyasəti nəticəsində yaranmış münbit şəraitdən istifadə etməyə çalışan ABŞ başda olmaqla Qərb dövlətləri, habelə neft ixrac edən Fars Körkəzi ölkələri Misirin rəhbər dairələrini fəal surətdə maliyyələşdirməyə başlamış və 70-ci illərdə Misirə müxtəlif şərtlərə əsasən nəticə etibarilə 20 milyard ABŞ dolları həcmində kreditlər təqdim etmişlər.

Misir iqtisadiyyatına müəyyən maliyyə axınlarına baxmayaraq, ölkədə daim sosial-iqtisadi böhran hökm sürürdü və bu da, öz növbəsində, əhalinin əksər hissəsinin kasıblaşması, habelə gəlirlərin səviyyəsinə görə burjua qüvvələri ilə əksər əhali arasında böyük uçurumun yaranmasına gətirib çıxarırdı. 1952-ci il inqilabından əvvəl ölkədə 4 milyonçu olduğu halda, Sədatın hakimiyyətinin son illəri ölkədə artıq 900-dən artıq milyonçu var idi. Ölkə əhalisinin 5%-ni təşkil edən kapitalistlər Misirin gəlirlərinin 30%-ni mənimsəyirdi.[2]

Bütün bunlar cəmiyyətdə islamın rolunun artmasına gətirib çıxarmışdır. Sədat hakimiyyətə ərəblərin 1967-ci il müharibəsində məğlubiyyətindən sonra islam fundamentalizmi dalğasının artdığı bir vaxtda gəlmişdir. Belə bir şəraitdə bəzi siyasi qüvvələr öz proqramlarını din vasitəsilə işıqlandırmağa və atdığı addımlara bəraət qazandırmağa çalışırdılar. Sədat "İxvan Əl-Muslimin" təşkilatının qanuni fəaliyyət göstərməsinə icazə verərək, ondan nasirçilər ilə kommunistlərə qarşı mübarizəsində istifadə edirdi. İslamlaşma prosesi Misirdə ənənəvi olaraq cəmiyyətin ən intizamlı və müasir qüvvəsi hesab olunan orduda da sürətlə həyata keçirilirdi. Əgər Nasirin dövründə orduda 1952-ci il inqilabı, habelə SSRİ ilə əməkdaşlıq fəal surətdə təbliğ olunurdusa, Sədatın hakimiyyəti dönəmində şəxsi heyətin ideoloji hazırlığı əsgərlərə dini fanatizm və antikommunizm idealarının aşılanmasından ibarət idi.[3]

"İnfitah" siyasətinin həyata keçirilməsi Misirin daxili siyasətinin əsaslarına yenidən baxılması ilə yanaşı, eyni zamanda xarici siyasət kursunun prioritet istiqamətlərinin dəyişməsi ilə müşayiət olunurdu.

1967-ci il İsrail təcavüzündən sonra rəsmi Qahirə ilə Vaşinqton arasında diplomatik münasibətlərin kəsilməsinə baxmayaraq, Misir hakimiyyəti Nasirin vəfatından dərhal sonra ABŞ administrasiyasi ilə sıx

təmaslar yaratmağa başlamışdır. Əsasən sirli xarakter daşıyan bu təmaslar iki səviyyədə - adi diplomatik kanallar, habelə iki ölkənin xüsusi xidmət orqanları vasitəsilə həyata keçirildi. 1970-ci ilin noyabr ayında Sədat Qahirəyə gizli səfər etmiş səudiyyəli nümayəndə vasitəsilə amerikalıların diqqətinə çatdırmışdır ki, o, müəyyən şərtlər əsasında, başlıcası isə "İsrail qoşunlarının geri çəkilməsi prosesinin ilk mərhələsi başa çatdırılarsa" Sovet İttifaqından uzaqlaşa, hətta "rusları çıxıb getməyə məcbur edə" bilər.[4]

İsrail Misirin siyasətində baş verən dəyişikliklərə dərhal reaksiya vermişdir. 1972-ci ilin iyul ayında İsrail hökuməti Sədata "qarşılıqlı bərabərlik şəraitində" görüşmək təklifi ilə müraciət edərək, "regiondakı hazırki vəziyyəti dondurmaq niyyətində olmadığını" diqqətə çatdırmışdır. Lakin, Misir Prezidenti o zaman Tel-Əvivlə danışıqlara hazır deyildi.

Əksinə, 6 oktyabr 1973-cü ildə Misir və Suriyanın birləşmiş qoşunları İsrailə qarşı müharibəyə başladı. Misirin müharibə planları Süveyş kanalınının müdafiəsini gücləndirmək, İsrailin Barlev xəttini məhv etmək və kanalın şərqində 10-15 km uzunluğunda müdafiə xətti yaratmaqdan ibarət idi. Bu əməliyyat başa çatdıqdan sonra Misir silahlı qüvvələri Sinayda yerləşən Mitla və Qiddi dağ aşırımlarını tutmaq üzrə əməliyyata başlamalı idi. Düşmənin müdafiəsi güclü zərbənin qarşısını almağa hazır deyildi. Misir ordusunun əməliyyatı nəticəsində İsrail ordusunun dəstələri Sinay yarımadasında tam təcrid olunmuş vəziyyətə düşmüşdür. 7 oktyabr tarixində Misir qüvvələri artıq Mitla aşırımına yaxınlaşaraq, hərbi həmlənin əvvəlindən Sinayın ərazisində həyata keçirdiyi ən dərin irəliləyişə nail olmuşdur. 8 oktyabr tarixində misirlilər Sinayın ikinci böyük şəhəri Şərqi Kantaranı azad etdilər. Lakin, tədricən Misir qüvvələri fəallığı itirərək, hərbi təşəbbüsü əldən verdilər. 10 noyabr tarixindən 13 noyabr tarixinədək davam etmiş operativ fasilə ərzində İsrail qüvvələri təşəbbüsü ələ keçirdi. 21 oktyabr tarixində Sədat cəbhədəki ağır vəziyyətlə əlaqədar atəşkəs elan etməyə hazır olduğunu bildirmişdir. [3]

1973-cü ilin oktyabr müharibəsinin gedişatını və nəticələrini qiymətləndirən mütəxəssislər qarşısında bir sual durur: nəyə görə Misir qüvvələri Süveyş kanalının müdafiəsini gücləndirərək, hərbi uğuru davam etdirməmiş və Sinaydakı dağ aşırımlarını ələ keçirməmişdir? Misirin hərəkətlərinin səbəblərini G.Kissencerin Prezident Sədatın təhlükəsizlik

məsələləri üzrə müşaviri H.İsmailə 1973-cü ilin müharibəsi başlamazdan bilavasitə əvvəl dedikləri sözlər aşkara çıxarır: "Mənim Sədata məsləhətim realist olmaqdır. Biz praqmatik dünyada yaşayırıq və planlarımızı arzularımız və yaxud istəklərimiz əsasında qura bilmirik. Reallıq budur ki, siz ərəblər məğlub olmusunuz, amma bunun əksi olaraq qalib gələn tərəfin tələb etməli olduğunu istəyirsiniz. Siz əməli güzəştlərə getməlisiniz". [5]

18 yanvar 1974-cü il tarixində Qahirə-İsmailiyyə şossesinin 101-ci km-də Misir və İsrail tərəfləri Sinay cəbhəsində qoşunların ayrılması barədə razılıq imzaladılar. Bu razılaşmaya əsasən, oktyabr müharibəsi zamanı Süveyş kanalının qərb hissəsində İsrail tərəfindən ələ keçirilmiş ərazilərin Misirin nəzarətinə keçməsi nəzərdə tutulurdu. Tərəflər arasında yaradılmış bufer zonasında BMT qüvvələri yerləşdirilmişdir. Razılaşmada xüsusi olaraq qeyd olunmuşdur ki, bu münaqişənin son həlli yox, yalnız BMT TŞ-nin 338 saylı qətnaməsinə əsasən tam və ədalətli sülhün əldə olunması istiqamətində atılmış ilk addımdır. 1975-ci ilin 4 sentyabr tarixində ABŞ-ın vasitəçiliyilə Misirlə İsrail arasında Sinayda qoşunların geri çəkilməsinə dair ikinci saziş imzalanmışdır. Bu sazişə əsasən, İsrail qoşunları Süveyş kanalından 30-40 km şərqdə yerləşən Mitla və Qiddi dağ aşırımlarına geri çəkilir, lakin aşırımlar yəhudilərin nəzarətində qalırdı. Misirə isə Abu Rueys neft yataqları qalırdı. Misirin nəzarətinə Sinayın əsas etibarilə 5,5% ərazisi keçirdi (daha 7% ərazi Misir ilə İsrail qoşunlarını ayıran bufer zonasına daxil edilmişdir). Qahirənin əldə etdikləri bununla məhdudlaşırdı. Buna baxmayaraq misirlilər İsrailə böyük güzəştlərə getdilər.

Misirlilər ilk növbədə İsrailə qarşı güc tətbiq etməməyə dair öhdəçilik götürdülər. Ərəb torpaqlarının işğalının davam etdiyi və Fələstin probleminin həll olunmadığı bir vaxtda Misirin İsrail ilə saziş bağlaması və bu sənəddə yəhudilərin taptağı altında olan ərəb torpaqları və fələstinlilərin qanuni hüquqları barədə heç bir sözün olmaması rəsmi Qahirənin İsrail təcavüzünə qarşı mübarizə aparan ümumərəb cəbhəsindən çıxmasına bərabər idi. Sədat, eyni zamanda, İsrailə qarşı təbliğatın aparılmamasına, bu ölkəyə qarşı ərəb dövlətlərinin iqtisadi boykotuna son qoyulmasına səy göstərmək və İsrailin qeyri-hərbi gəmilərinə Süveyşdən keçməyə də razılıq vermişdir.

Müharibənin nəticələrini Misirin daxili siyasi vəziyyətinə təsir etməsi baxımından qiymətləndirərkən belə qənaətə gəlmək olar ki, Sədat müxalifətlə mübarizədə mövqelərini möhkəmlətmiş və siyasətdə nəzərdə tutulmuş dəyişikliyin həyata keçirilməsinə nail olmuşdur.

Lakin Sədat əlverişli amillərdən maksimum dərəcədə faydalana bilmədi. Müharibə sona çatandan dərhal sonra o bəyan etmişdir ki, Yaxın Şərq münaqişəsinin həlli prosesinin uğuru 99% ABŞ-dan asılıdır. Sədatın əldə etdiyi yeganə uğur Misir ilə ABŞ-ın yaxınlaşması olmuşdur. Misirin yeni xarici siyasət kursunun daha bir göstəricisi kimi 1976-cı ildə Sovet-Misir dostluq və əməkdaşlıq müqaviləsinin ləğv edilməsini və mətbuatda Prezidentin şəxsi təşəbbüsü ilə antisovet təbliğatına start verilməsini misal gətirmək olar.[2]

Oktyabr müharibəsindən sonra Misir ərəb dövlətlərilə də münasibətlərində düzəlişlər etməyə başlamışdır. Əgər müharibədən öncə Misir öz xarici siyasət kursunda sosialist yönümlü ölkələr olan Suriya, Əlcəzair və Liviya ilə məsləhətləşirdisə, 1973-cü il müharibəsindən sonra Misirin Səudiyyə Ərəbistanı və İranın şah rejimi ilə sıx əlaqələri qurulmuşdur. 70-ci illərin əvvəlində artıq Yaxın Şərq regional siyasi sisteminin formalaşması prosesi başa çatmışdır, onun strukturu formalaşmış və lider dövlətlər müəyyən edilmişdir. Bu sistemin tərkibinə 21 ərəb dövləti və İsrail daxildir. Bu sistemin liderləri sırasında ilk növbədə iri və iqtisadi baxımından daha çox inkişaf etmiş Misiri, ümumərəb milli hərəkatında ənənəvi olaraq mühüm rol oynayan və regionda İsrailin siyasətinə qarşı çıxan Suriya, habelə iri neft ehtiyatları və böyük maliyyə mənbələrinə malik olan İslam aləminin müqəddəs ziyarətgahlarının mövcud olduğu Səudiyyə Ərəbistanını qeyd etmək olar. Zənnimizcə, Ərəb aləmində siyasi qüvvələrin bu cür sıralanması öz aktuallığını hələ də saxlayır. Misir hər zaman Yaxın Şərq sülh prosesinə ən çox təsir etmək imkanına malik olan dövlət olmuşdur.

Sədatın prezidentliyi dövründə Misirin daxili və xarici siyasətində baş vermiş köklü dəyişikliklər hərbi baxımdan ən güdrətli ərəb dövləti olan Misiri İsraillə qarşıdurma cəbhəsindən çıxarmış və rəsmi Qahirənin regionda nüfuzunu zəiflətmiş, ərəb dünyasında parçalanma tendensiyalarını artırmışdır. [14]

Misirin təcrid olunması və ərəb aləminin parçalanması İsrailə ərəblərə qarşı münasibətinin sərtləşdirilməsi vasitəsilə regional güc balansını öz xeyrinə dəyişdirməyə imkan yaratmışdır. Belə ki, İsrail 1978 və 1980-cı illərdə Livana qarşı təcavüz etmiş, 1981-ci ildə şərqi Qüdsü ilhaq etmiş, həmin il İraqın nüvə araşdırmaları mərkəzini bombalamış və 1986-cı ildə Fələstin Azadlıq Təşkilatının Tunisdəki qərargahını bombalamışdır.

H.Mübarək hakimiyyətə gəldikdən sonra Misirin xarici siyasətində gözəçarpan dəyişikliklər baş verməmişdir. Amerika təqdiqatçısı Luis Kantori hesab edir ki, Mübarək Misirin xarici siyasətini sələfləri C.Nasir və Ə.Sədatın hər ikisinin siyasi kurslarına əsaslanaraq müəyyənləşdirməyi bacardı.[6]

Yeni lider inqilabın növbəti ildönümü münasibətilə xalqa müraciətində öz siyasi kursunun əsas prinsiplərini açıqlamışdır:

- Misir millətçiliyinə sadiqlik;
- Asılılığın bütün formalarının inkar edilməsi;
- Xoşməramlı neytrallıq və qoşulmamaq siyasəti;
- Beynəxalq hərbi təşkilatlara qoşulmaqdan imtina edilməsi;
- Ölkə ərazisində xarici hərbi bazaların yerləşdirilməsindən imtina edilməsi;
- Beynəlxalq sülhün dəstəklənməsi;
- Milli azadlıq hərəkatının dəstəklənməsi;
- Misirin daxili işlərinə qarışmaq cəhdlərinin qarşısının alınması;
- Silahlanmanın və nüvə silahının yayılmasının dayandırılması;
- Beynəlxalq əməkdaşlıq.

Mübarəkin bir siyasi lider kimi əsas xarakterik xüsusiyyətləri onun praqmatikliyi, ehtiyatlı olması, ardıcıllığı, münaqişələrin həlli istiqamətində əzmkarlığı və bir çox problemlərə dair ümumi razılığın əldə olunması ilə səciyyələnirdi. Onun hakimiyyətə gəlişindən sonra ölkədə qərarların qəbul edilməsi prosesinin demokratikləşməsi baş verdi. Artıq dövlət başçısı öz yaxın ətrafı ilə yanaşı, eyni zamanda hökumət, parlament və hətta leqal müxalifət partiyalarının rəhbərliyi ilə də mütəmadi məşvərətlər keçirməyə başladı. [5]

Hakimiyyətə gəldikdən bir müddət sonra yeni Prezident xarici siyasətin əsas istiqamətlərinin dəyişməyəcəyini bəyan etdi. 1981-ci ilin

noyabr ayında Xalq məclisinin deputatları qarşısında çıxış edən Mübarək açıq bəyan etmişdir ki, cəmiyyətə real xeyir gətirən "açıq qapılar" siyasəti davam etdiriləcəkdir. H.Mübarək xarici siyasətin qarşısında duran əsas vəzifə kimi Sinay yarımadasının İsraildən alınması, Misirin ƏDL-yə qayıtması və ərəb aləminə inteqrasiya məsələrini qoymuşdur. Eyni zamanda, Mübarək Kemp-Devid razılaşmalarına və İsrail ilə müqaviləyə sadiq qaldığını bəyan etmişdir.

Artıq 1982-ci ilin aprel ayında Sinay əraziləri planlaşdırılmış şəkildə Misirə qaytarıldı. İki dövlətin sərhədlərində BMT-nin müşahidəçi qüvvələri yerləşdirilmişdir.

Mübarəkin ərəb ölkələri ilə münasibətlərin yaxşılaşdırılması istiqamətində atdığı ardıcıl addımlar ilk növbədə ölkə KİV-lərində ərəb ölkələrinə qarşı aparılan kampaniyanın qadağan edilməsi, habelə ərəb və müsəlman ölkələri liqasının ləğv edilməsi olmuşdur.[7]

Misir hakimiyyəti FAT-ı Fələstin xalqının yeganə qanuni təmsilçisi kimi tanıdı. 1983-cü ildə FAT-ın nümayəndəliyi Livandan qovularaq Tunisdə sığınacaq tapdıqdan sonra Qahirədə Mübarək ilə Ərafatln arasında görüş keçirilmişdir. 1986-cı ilin dekabr ayında Qahırədə FAT-ın nümayəndəliyi təsis edilmişdir. Eyni zamanda, Misir ilkin şərtlər olmadan hər bir ərəb dövlətinin diplomatik münasibətləri bərpa etmək barədə təklifini qəbul etməyə hazır olduğunu açıqlamışdır.[12]

Misirin ərəb aləmi ilə yaxınlaşmasına təkan verən vacib amillərdən biri də İran-İraq müharibəsi olmuşdur. Körfəz ərəb ölkələri İranın "islam inqlabınının" özlərinə qarşı təhlükə mənbəyi olduğunu dərk edərək, bu təhlükənin qarşısının alınması üçün Misirin hərbi potensialına arxalanmağa başladılar. Misirlə münasibətlərin bərpa olunması istiqamətində ilk addımı bu ölkənin hərbi yardımlarına böyük ehtiyacı olan İraq atmışdır. İraq Misirdən külli miqdarda hərbi sürsat almış, Misirdən bu ölkəyə hərbi mütəxəssis və könüllülər göndərilmişdir. Lakin İraq rəhbərliyinin Səudiyyə Ərəbistanından asılılığı Misir ilə diplomatik münasibətlərin qurulması prosesini ertələmişdir.[8]

Misirin yeni hakimiyyət dairələrinin nüfuzunun ölkənin daxilində və xaricində daha da artmasına ölkənin Mərakeşin vasitəçiliyi ilə 1984-cü ildə İKT sıralarına qayıtması təkan vermişdir.

Mübarəkin məqsədyönlü və ardıcıl siyasəti nəticəsində Misir artıq 1980-cı illərin ortalarında ərəb aləmindən təcridini müəyyən dərəcədə zəiflətmiş və eyni zamanda İsraillə sülh sazişinə sadiq qalmağı bacarmışdır. Nəticədə 1987-ci ilin noyabr ayında Əmmanda keçirilmiş ƏDL-nin Sammiti zamanı qəbul edilmiş qətnamədə Misirə təşkilatın sıralarına qayıtmaq imkanı verilməsi və üzv ölkələrə rəsmi Qahirə ilə diplomatik münasibətləri bərpa etmək təklifi irəli sürülmüşdür. Mübarəkin yürütdüyü uğurlu siyasi kursun bariz nümunəsi kimi 1990-cı ildə ƏDL-nin baş qərargahının Qahirəyə qayıtması faktını göstərmək olar.[9]

Misir-ABŞ münasibətlərinə gəldikdə isə qeyd etmək lazımdır ki, yeni hakimiyyət ABŞ ilə sıx təmasları saxlayaraq, bu ölkədən asılılığının azaldılmasına çalışırdı. 1982-1983-cü illər ərzində Misir ABŞ-dan 1 milyard dollar həcmində iqtisadi yardım, habelə 1,3 milyardlıq hərbi yardım almışdır. 80-cı illərin ilk yarısında ABŞ-dan alınan hərbi və iqtisadi yardımın həcminə görə Misir inkişaf etməkdə olan ölkələrin sırasında birinci yeri tuturdu. 1984-cü ilin sonunda Misirin ABŞ-a olan borcu 8,5 milyard dollar təşkil etmişdir. 1985-1987-ci illərdə ABŞ-ın yardımı həmin səviyyədə saxlanılırdı. [15]

ABŞ-dan maliyyə asılılığına baxmayaraq, Misir hakimiyyəti xarici siyasətdə müstəqilliyə dəlalət edən addımlar atırdı. Misir hökuməti ölkənin müdafiə potensialının ABŞ-ın hərbi texnikasından asılılığının azaldılması məqsədilə öz hərbi-müdafiə sənayesini inkişaf etdirməyə başlamışdır. Digər tərəfdən misirlilər hərbi sürsatın idxal mənbələrinin diversifikasiyasının vacibliyini dərk edərək, Britaniyadan və İspaniyadan gəmi, Rumıniyadan tank, Fransadan qırıcı və helikopter almağa başladılar. Bu məqsədlə ABŞ-ın Misirə ayırdığı iqtsadi yardımdan da istifadə olunurdu.

Eyni zamanda, Misir ABŞ ilə münasibətlərinin inkişaf tempinə cüzi də olsa təsir edən bəzi addımlar atmağa başlamışdır. Burada məhz İsrail Sinaydan çıxdıqdan və Livana qarşı təcavüz etdikdən sonra rəsmi Qahirənin yəhudi dövləti ilə münasibətlərinin soyuqlaması, habelə Misirin qoşulmamaq siyasətinə qayıtması və ərəb ölkələri, o cümldədən SSRİ ilə münasibətlərinin bərpa olunması nəzərdə tutulur.[6]

Misiri qıcıqlandıran amillərdən biri də, Vaşinqtonun daim İsrailin reaksiyasına önəm verməyi olmuşdur. Mübarək eyni zamanda bəyan

etmişdir ki, Misir ABŞ-ın həyata keçirdiyi SSRİ ilə qlobal qarşıdurma strategiyasının iştirakçısı olmaq niyyətində deyil. Misirin Baş Nazirinin müavini M.Xəlil Misir-ABŞ münasibətlərini bu qaydada xarakterizə etmişdir: "Biz heç vaxt bəyan etməmişik ki, ABŞ-ın müttəfiqiyik. Daha düzgün desək, Misirin strateji maraqları Amerikanın maraqları ilə üst-üstə düşür".

Beləliklə, Misir-Amerika münasibətlərinin yüksək səviyyədə qalmasına baxmayaraq, Misirin yeni hakimiyyət dairələri beynəlxalq arenada öz hərəkətlərində daha müstəqil olmağa çalışırdı.[10]

Sovet-Misir əlaqələrinə gəldikdə isə, H.Mübarəkin hakimiyyətə gəlməsindən sonra bu münasibətlərin normallaşması prosesinə qədəm qoyuldu. İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığı genişlənməyə başlamışdı. Normal diplomatik münasibətlərin bərpa olunması və 1984-cü ildə səfirliklərin qarşılıqlı əsasda yenidən açılması bu istiqamətdə vacib addımlardan sayılır. Münasibətlərin yaxşılaşdırılması istiqamətində atılan addımlardan biri də Misirin SSRİ-yə olan borcunun güzəştli əsaslarda ödənilməsinə dair müqavilənin imzalanması olmuşdur. 1987-ci ildə Misir-Sovet dostluq cəmiyyətinin fəaliyyəti bərpa olunmuş, habelə İskəndəriyyə və Səid limanında Sovet konsulluqlarının açılması məsələsi öz həllini tapmışdır. Beləliklə, Misir ilə SSRİ münasibətləri tədricən yaxşılaşırdı.[11]

Beləliklə, H.Mübarəkin 1981-ci ildə hakimiyyətə gəlişi ilə Misirin xarici siyasətində gözəçarpan dəyişikliklər baş vermişdir. Misirin ərəb-İsrail münaqişəsinə münasibətdə tutduğu mövqeyinə, habelə ABŞ və İsraillə münasibətlərinə yenidən baxılmışdır. Həmin dəyişikliklərin nəticələri hələ də Yaxın Şərqdə siyasi vəziyyətə bilavasitə təsir etməklə, regionda sülhün və sabitliyin, habelə ərəb ölkələri arasında mövcud olan ixtilafların aradan qaldırılmasında mühüm rol oynayır.

Misirin tarazlaşdırılmış xarici siyasət kursunun uğurları Yaxın Şərq və Şimali Afrika ilə yanaşı Qərb dövlətləri tərəfindən də qəbul olunmuşdur. Misirin xarici siyasətinin uğurlarının dünya birliyi tərəfindən etiraf edilməsini səciyyələndirən faktlar kimi, vaxtılə məşhur misirli diplomat Butros Qalinin BMT-nin Baş Katibi seçilməsi, habelə Ərəb Dövlətləri Liqasının Baş Katibi vəzifəsinə ardıcıl olaraq Misir nümayəndələrinin təyin olunmasını göstərmək olar.

MƏNBƏ VƏ ƏDƏBİYYAT:

1. А.Г.Князев. Египет после Насера (1970-1981 гг.). М., 1986 г.
2. К.И.Дударев. Тупики политики “открытых дверей”//Азия и Африка сегодня. № 6, 1980.
3. С.П.Крахмалов. Арабская Республика Египет и ее вооруженные силы. М., 1975.
4. Həsən Əbu Talab. Arubat Mısr beynə Ət-Tarix va Əs-Siyasa. Qahirə, 1996.
5. B.Butros Qali. Sədatdan sonrakı dövrdə Misirin xarici siyasəti //As-Siyasa Ad-Duvaliyya, № 69,1982.
6. L.J.Cantori. Egyptian policy under Mubarak: the politics of continuity and change//The Middle East after the Israeli invasion of Lebanon. Syracuse, 1986.
7. Р.С.Абдулмаджидов. Основные тенденции внешней политики Египта в эпоху Хосни Мубарака//Арабские страны Западной Азии и Северной Африки. Вып. 5. М., 2002.
8. L.J.Cantori. Unipolarity and Egyptian hegemony in the Middle East//The Middle East after Iraq’s invasion of Kuwait. Gainesville, 1993.
9. İmad Cad. Əs-siyasa Əl-xariciyya Əl-Mısriyya fi Aş-Şark Əl-Ausat// As-Siyasa Ad-Duvaliyya. № 139, 2000.
10. Boutros Boutros-Ghali. Egyptian diplomacy in 1989. Cairo, 1990.
11. В.Ефимов. Внешнеполитический курс Египта в 80-х годах//Межд. жизнь. № 1, 1988.
12. www.palestinefacts.org
13. www.arabicnews.com
14. www.arabia.com
15. www.mideastweb.com
16. www.israelinsider.com

E.Mamedzade

OVERVİEW OF FOREIGN POLICI OF EGYPT

The issues of main directions of Egyptian foreign policy from the period of Anvar Sadat presidency who made substantial changes on foreign and internal policy of Egypt and in the result of these the Pease agreement with Israel has been signed; the balanced foreign policy of Egypt during Mubarak's period from 1980th till now have been discussed in this article.

The character, course and the chronology of political issues, foreign and internal policy of country, its relations with Arab World, USA and Israel have been particularly discussed in this article. The great importance has been given to analysis of critical situations faced by Cairo with forenamed states, also to detection the reasons of these situations and also their interconnection with the situation in the Middle East.

Э.Мамедзаде

ОБЗОР ВНЕШНОЙ ПОЛИТИКИ ЕГИПТА

В данной статье рассматриваются основные направления внешней политики Египта в период с 1970 г., когда президентом страны становится

А.Садат, инициировавший кардинальные изменения во внутренней и внешней политике Египта, результатом которых стало мирное соглашение с Израилем; 1980-е гг. – у власти Х.Мубарак, проводящий более сбалансированную внешнюю политику в труднейших условиях зависимости от США и изоляции в арабском мире;

При этом подробно рассматривается комплекс экономических, социально-классовых и внутриполитических факторов, которые влияют на характер отношений Египта с арабскими странами, США и Израилем. Важное место в статье уделено исследованию кризисных ситуаций в отношениях Каира с вышеназванными странами, выявлению причин их возникновения и взаимосвязи с ситуацией на всем Ближнем Востоке. Определенное место в статье отведено механизмам формирования внешнеполитической стратегии правящего режима.

MÜNDƏRİCAT

Allahverdi Əlimirzəyev	Marağa şəhərinin tarixində skiflərin roluna dair.....	3
Könül Sadıqova	Erkən orta əsrlərdə Azərbaycanda elmin inkişafı.....	15
Aytac Şirəliyeva	Əbu Mənsur Əl-Hüseyn İbn Məhəmməd İbn İsmayıl Əs-Sə`Əlibinin həyatı və yaradıcılığı (961-1038).....	24
Vüsalə Əfəndiyeva	Qədim türk yazılı abidələri ilə Skandinaviya runaları arasında oxşarlığa dair.....	33
Sevda Abdullayeva	XI-XII əsrlərdə Azərbaycanda memarlıq və şəhərsalma mədəniyyəti (“İranın Kembric tarixi” əsəri əsasında).....	48
Güntəkin Nəcəfli	Azərbaycan torpaqlarının erməni kilsəsi tərəfindən ələ keçirilməsi.....	60
Amənə Kərbəlayeva	Qarayazıçı üsyanı ərəfəsində Osmanli-Səfəvi siyasi münasibətlər.....	74
Rəna Məmmədova	Azərbaycan hökmdarlarının katibi.....	84
Asif İmanlı	Con Bel və İohann Qustav Gerberin əsərləri XVIII əsrin ilk otuzilliyində Azərbaycanın sosial-iqtisadi vəziyyətini öyrənmək üçün bir mənbə kimi.....	97
Xədicə Abbaslı	Qarabağ XVIII əsrin birinci yarısı Osmanlı-Səfəvi müharibələri dövründə.....	106
Rəna Baxışova	XIX əsrin ortalarında Şimali Azərbaycanın Qarabağ bölgəsində maarifin inkişafi tarixindən…….....	117
Qənbər Kərəmi	Zəncan xanlığının süqutu və Zəncan Abdulla Mirzənin dövründə……..…….....	127
Нигяр Эйвазова	О миграционных процессах в Азербайджанских землях Тифлисской Губернии в XIX- начале XX вв.....	136
Rəşid Məhərrəmov	Türklərin əcdadları skiflərin, slavyanların da əcdadları olmasına dair	146
Sevinc Hüseynova	Şimali Azərbaycanda köçkünlərin ictimai-siyasi təşkilatlarının yaranması və fəaliyyəti.....	158
Gunay Hüseyn	1941-1945-ci illər müharibəsi illərində Bakı Dəniz limanı və yükdaşımaların təhlükəsizliyinin təmin olunması.....	177
Yaqut Əmirova	Sovet Rusiyasının Türkiyə Cumhuriyyəti ilə siyasi	

	əlaqələrində Azərbaycan SSR.....	184
Anar Hüseynov	AGR(Azərbaycan-Rumuniya-Gürcüstan) layihəsinin Azərbaycan Respublikasının Avropa ölkələri ilə enerji əməkdaşlığında rolu.....	194
Aydın Mirzəzadə	1980-ci illərin sonunda Azərbaycanın Dağlıq Qarabağ regionunda erməni separatçılığı.....	204
Vaqif Abışov	28 aprel işğalı Rusiya tarixşünaslığında.....	217
Ədalət Mustafayev	1991-ci il "Dövlət çevrilişi"nin milli münaqişələrə təsiri....	227
Sevil Bəhrəmova	Heydər Əliyevin XX əsrin 60-80-ci illərdə dini mənəvi dəyərlərə münasibəti.....	235
Парвана Балагадирова	История государства Ширваншахов в произведениях А.Е.Крымского……..….	242
Гюльшан. Мамедова	Разработка Гейдаром Алиевым внешнеполитической и нефтяной стратегии Азербайджана……..	249
Abbas Məsimov	Azərbaycanı Avropaya bağılayan qaz kəməri.....	260
Almaz Əliyeva	Nato-nun qlobal strategiyası və onun xüsusiyyətləri.....	269
Фируза Хаятова	«Армянский вопрос» на Парижской Мирной Конференции и решение его судьбы в договорах 1920-1921 годов.....	275
Arzu Xəlilzadə	1918-ci il Quba soyqırımı müstəqillik illərində yazılmış tədqiqat əsərlərində.....	290
Günel Aslanlı	Azərbaycanda müasir gəncliyin formalaşmasında fiziki tərbiyənin və idmanin rolu.....	299
Afət Həsənova	Siyasi ideologiyanın əsasları və funksiyaları.....	306
Şəfa Mövsümov	İkinci Dünya müharibəsi və 1941-1945-ci illər müharibəsinin başlanması səbəbləri Azərbaycan Sovet tarixşünaslığında.....	310
Elməddin Quliyev	Akademik Ziya Bünyadovun yaradıcılığına dair.....	322
Səbinə Alməmmədova	Dillərarası əlaqələrin tarixi.....	335
Təranə Quluzadə	Azərbaycanda ailə məişətinin bəzi məsələlərinə dair (qəhrəmanlıq dastanları əsasında).....	348
Gülnaz Mahmudova	Boloniya prosesi və Azərbaycanın Ali təhsil müəssisələrində kredit sisteminin təşkili…….....	359

Yəhya Babanlı	Azərbaycan Respublikasının xarici siyasət strategiyasında diaspor əsas amil kimi……	366
Tahirə Salmanipur	Qacarlar dövlətinin siyasi strukturu.....	377
Cəbi Bəhramov	Qədim və antik dövr mənbələri Xəzər dənizi və neft haqqinda. (e.ə. VI minillikdən başlayaraq b.e. XIII əsrinədək).....	389
İradə Məmmədli	XVIII və XIX əsrlərdə iğdir və ətrafinin əhalisinə dair.....	394
Elnur Məmmədzadə	Misir Ərəb respublikasinin xarici siyasət kursuna baxiş.....	412

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Elmi Əsərlər»ində çap olunmaq üçün məqalə təqdim olunarkən aşağıdakılar nəzərə alınmalıdır.

1. Məqalələr üç dildə – Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə, digər iki dildə xülasəsi verilməlidir.

2. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl kodlaşdırma üsulu ilə göstərilməlidir.

3. Məqalələrin mətnləri 1 intervalla Times New Roman – 13 ölçülü şriftlərlə yığılmalıdır.

4. Məqalə haqqında redaksiya heyəti üzvlərindən ən azı birinin, həmin sahə üzrə mütəxəssisin rəyi və müvafiq elmi müəssisənin Elmi Şurasının protokolundan çıxarış olmalıdır (bunlar məqalə nəşr olunarkən göstəriləcəkdir).

5. Məqalənin elektron və çap olunmuş variantı ayrıca faylda təqdim edilməlidir.

Bu tələblərə cavab verməyən məqalələr çap edilməyəcəkdir. Əlyazmalar geri qaytarılmır.

Qeyd: Bu şərtlər müəyyənləşdirilərkən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərə verdiyi tələblər əsas götürülmüşdür.

ELMİ ƏSƏRLƏR

2012, cild 41-42-43

SCIENTIFIC WORKS

OF THE INSTITUTE OF HISTORY NAS OF AZERBAIJAN
2012, volume 41-42-43

ТРУДЫ

ИНСТИТУТА ИСТОРИИ НАН АЗЕРБАЙДЖАНА
2012, том 41-42-43

Formatı 60x90 1/16. F.ç.v. 54.
Tirajı 500.

"Turxan" NPB MMC